ELDAR QULİYEV
İMAMƏDDİN MEHRƏLİYEV

# GÖMRÜK İŞİNİN TƏŞKİLİ

**Ali məktəblər üçün dərs vəsaiti**

Azərbaycan Respublikası Təhsil Nazirinin 30.11.2012-ci il tarixli 2185 saylı əmri ilə (protokol №3) ali məktəb tələbələri üçün dərs vəsaiti kimi təsdiq edilmişdir.

**"Kooperasiya" nəşriyyatı**
**Bakı - 2012**

**Elmi redaktor:** **A.Ş.Şokoroliycv**
**Azorbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq ticarət və Gömrük işinin təşkili" kafedrasının müdiri, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor.**

**Rəy verənlər:** **M.X.Meybullayev**
**Azorbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi nə- zəriyyə-2" kafedrasının müdiri. Respublikanın Əməkdar müəllimi, iqtisad elmləri doktoru, professor. G.Ə.Gənciyev**
**Azərbaycan Kooperasiya Universitetinin "Beynəlxalq İqtisadi Münasibətlər" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor.**
**M.Ə.Əhmədov**
**Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyatın tənzimlənməsi" kafedrasının müdiri. Respublikanın Əməkdar müəllimi, iqtisad elmləri doktoru, professor. Ə.B.AbduIəzimov**
**Azərbaycan Kooperasiya Universitetinin "Gömriik işinin təşkili" kafedrasının dosenti, iqtisad elmləri namizədi.**

**E.A.Quliyev, İ.İ.Mehrəliyev. "Gömrük işinin təşkili". Ali məktəblər üçün dərs vəsaiti. Bakı-2012, "Kooperasiya" nəşriyyatı, 400 səh.**

**Dors vəsaitində Azərbaycanın müasir gömrük işinin strukturu tam oks etdirilmoklo fənn üzrə qısa icmal və məşğələ dərsləri üçün əsas mövzular təqdim edilir. Kitabda Azərbaycan Respublikası Konstitusiyanın, 2012-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikasının GM-nın mövqeyindən, digər respublika qanunulan və normativ hüquqi aktlarından istifadə edilmişdir.**

**Dors vəsaitinin məzmunu "Gömriik işinin təşkili" fənni üzrə ali ixtisas təhsili dövlət standartlanna tam cavab verir. Burada bütün gömrük prosedurları və gömrük ödənişləri, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti, mal və nəqliyyat vasitilərinin gömrük sərhəd- dindən keçirilməsinin əsas prinsipləri, gömrük tariflərinin həyata keçirilməsi mosololərinə xüsusi fikir verilmişdir. Gömrük siyasəti və onun istiqamətləri, gömrük sisteminin hüquq mühafizə fəaliyyəti, gömrük valyuta nəzarəti, gömrük statistikası, gömrük orqanlarının idarə edilməsinin əsasları təhlil edilmişdir. Müəlliflər tərəfindən seçilmiş şərh edilmə forması mühazirə zamanı kursun materialının tez mənimsənilməsinə, biliklərinin sistemləşdirilmə- sinə, imtahan və məqbulların müvəffəqiyyətlə verilməsinə imkan verəcəkdir.**

**Dərs vəsaiti iqtisadiyönümlü ixtisaslar üzrə təhsil alan "Ctönırük işinin təşkili" fənnini öyrənən tələbələr, magistr, ali məktəb müəllimləri və doktorantları üçün nəzərdə tutulmuşdur.**

***050302907-82*** ^

**© E.A.Quliyev, İ.İ.Mehrəliyev**
**© «Kooperasiya» nəşriyyatı, 2012.**



Professor Eldar Allahyar oğlu Quliyev Bakı şəhərində anadan olmuşdur. 1974-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki ADİU) bitirib. 1975-1987-ci illərdə Respublika Ticarət Nazirliyi sistemində, 1987-1990-cı illərdə Azərittifaqm Bakı şəhər kooperativ ticarəti idarəsinin direktoru, 1990-cı ildə Azərittifaqm idarə heyətinin sədr müavini, 1993-cü ildən isə sədridir.

İkinci, Üçüncü və Dördüncü çağınş Azərbaycan Respublikası Milli Məclisinin deputatı. Aqrar siyasət komitəsinin sədr müavinidir. 2008-ci ildə Türk dünyası Araşdırmaları beynəlxalq Elmlər Akademiyasının fəxri professoru, 2009-cu ildə Avropa Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, 2012-ci ildə "Avropanın əməkdar elm xadimi" adma layiq görülmüşdür.

2010-cu ildə İtaliya Beynəlxalq İqtisadi və Sosial Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2011-ci il tarixli Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Kooperasiya Universitetinin rektorudur. Bir çox elmi məqalələrin və "Müasir dövrdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin xüsusiyyətləri" dərs vəsaitinin müəllifidir.



Professor İmaməddin Ibrahim oğlu Mehrəliyev Quba rayonunda anadan olub.

1961-ci ildə indiki Bakı Dövlət Universitetini bitirmişdir. Həmin ildən AMEA-nın Coğrafiya İnstitutunda elmi işçi, 1966-1969-cu illərdə həmin institutda aspirant, 1971-ci ildə elmlər namizədi alimlik dərəcəsi almış, 1976-cı ildən Moskva Kooperativ İnstitutunun Bakı filialında (indiki AKU) baş müəllim, 1978-ci ildən dosent vəzifəsində çalışmışdır.

1981-1988-ci illərdə həmin institutda dekan, 2001-2008-ci illərdə "Gömrük işinin təşkili" kafedrasının müdiri işləmişdir.

"Ölkəşünaslığm əsasları" (2001), "Dünya təsərrüfatının coğrafiyası" (2003), "Gömrük işi" (2007), "Gömrük fəaliyyətinin iqtisadiyyatı" (2008), "Müasir dövrdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin xüsusiyyətləri" (2011) dərslik və dərs vəsaitlərinin, 200-ə qədər elmi məqalələrin və bir sıra fənn proqramlanmn müəllifidir.

"ölkəmizin iqtisadi mənafeyi və təhlükəsizliyi etibarlı surətdə qorunur." ***Azorbaycan Respublikasmm Prezidenti İlham ƏLİYEV***

Giriş

Dünya iqtisadiyyatının inkişafı gedişində ixrac-idxal axını proseslərinə dövlətin müxtəlif təsir vasitələri lazımı qədər işlənib hazirlanmısdır. Bunlann çox hissəsi dünyanın sivil ölkələrində istifadə olunur. Şübhəsiz ki, bu vasitələrə ilk növbədə ixrac-idxal gömrük tariflərində istifadə edilən xarici ticarət fəaliyyətinin gömrük tarif metodlan aiddir. Mövcud olan tarif tənzimlənməsi aktiv məqsədli gömrük siyasətinin apan İması mexanizminə səmərəli təsir göstərir, bu da idxal-ixrac mal axınlannm həcminin, strukturunun yaxşı laşdınlmasına, ölkə istehsalçılarının xarici ticarət əməliyyatlarının nəticələrinin yüksəlməsinə yardım edir. Bununla əlaqədar iqtisad profilli təhsil alan tələbələrin çoxunun öyrəndiyi tədris tbnnlərindən biri olan gömrük işi böyük elmi və praktiki əhəmiyyətə malikdir. Onun öyrənilməsi gələcək mütəxəssislərə geniş kompleks biliklər, bacarıq və vərdişlərə yiyələnməyə, xarici iqtisadi fəaliyyət sahəsində peşəkar davranış göstərməyə imkan verəcəkdir. Mövcüd fənnin öyrənilməsinin məqsədi tələbələr tərəfindən gömrük tarif tənzimlənməsi işinin nəzəri və təcrübi əsaslannı, Azərbaycan Respublikasında gömrük sərhəddindən mal və nəqliyyat vasitələrin keçirilməsinin səmərəli metod və tərzlərini mənimsəməkdən və eyni zamanda gömrük işi sahəsində gömrük ödəmələri üzrə biliklərin sistemləşdirilməsindən, dərinləşdirilməsindən ibarətdir.

"Gömrük işinin təşkili" fənninin əsas məsələləri aşağıdakılardır;

- Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin gömrük tarif tənzimlənməsi sisteminin yaranması nəzəriyyəsi və praktikası ilə tanışlıq;
- gömrük orqanlarının strukturu onların məqsədi və funksiyaları;
- gömrük prosedur və siyasətinin həyata keçirilməsi ilə tanışlıq;
- gömrük infraskrukturu, onun iştirakçılarının tərkibinə və funksiyalanna, həmçinin şəhadətnamə alınması üçün reyestrə düşmək qaydalarına nəzər salmaq;

- Azərbaycan Respublikasında gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsinin əsas prinsiplərinin mənimsənilməsi;
- idxal və ixrac mallarından alınan gömrük ödəmələrinin növ tərkibini;
- onların ödənilmə qaydasını, gömrük ödəmələrinin alınma qaydalarını öyrənmək;
- malların mənşə ölkəsinin müəyyən edilməsi mexanizimini tədqiq etmək;
- idxal və ixrac mallarının gömrük dəyərlərinin təyin edilmə metodlanm öyrənmək;
- müxtəlif gömrük prosedurları zamanı gömrük ödənişlərinin alınması qaydalarının öyrənilməsi;
- gömrük orqanları sistemində gömrük valyuta nəzarətinin aparılmasının rolunu, idxal-ixrac əməliyyatlarında valyuta nəzarətinin apanimasmı öyrənmək;
- gömrük prosedurlan, onlann məzmunu, məqsədi və gömrük sistemindəki əhəmiyyətini öyrənmək;
- Azərbaycan Respublikasında gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin aparılması qaydalarının mənimsinəlməsi.

Qoyulmuş məsələlərə uyğun olaraq bu fənn, xarici ticarət əməliyyatlanmn dövlət tənzimlənməsi sistemində, kommersiya, makroiqtisadiyyat xarici ticarət əməliyyatlarının təşldli və texnikasına, xarici iqtisadi fəaliyyətin ümümi iqtisadi və xüsusi biliklərinə istinad edir.

Dərs vəsaitində seminar dərslərində müzakirə edilmək üçün özünü yoxlama sualları verilir. Bu suallar kitabda göstərilən məsləhət olunan hüquqi normativ aktların dərindən mənimsənilməsinə yardım etməklə “Gömrük işi” kursu sahəsində Azərbaycan Respublikasında gömrük qanunvericiliyinə uyğun bütün kateqoriya və anlayışlan izah edir.

Dərs vəsaiti mövcud kurs üzrə, hazırlanmış tədris proqramı əsasında yazılmışdır.

Dərs vəsaiti 15 mövzudan ibarət olmaqla məntiqi ardıcıllıqla şərh

# Mövzu 1.

## AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SƏIUIƏDDİNDƏN MAL VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN KEÇİRİLMƏSİ ZAMANI İSTİFADƏ EDİLƏN ƏSAS ANLAYIŞLAR

1. Gömrük terminalogiyasının ümumi və xüsusi təyinatlan.
2. Gömrük sərhəddində malların yerdəyişmə və keçirilməsi anlayışı, digər gömrük temıinalogiyaları.

### 1. GÖMRÜK TERMİNALOGİYASININ ÜMUMİ VƏ XÜSUSİ TƏYİNATLARI

Hər bir xalq təsərrüfatı sahəsi, hər sahə və fəaliyyət sferası, ümumi dar və spesifik terminalogiyaya malik olmaq hüququna malikdir. Tam şəkildə bu xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsinə də aiddir. Birləşmiş Millətlər Təşkilatının (BMT) Beynəlxalq Standart Ticarət Təşkilatına (BSTT) görə “mal” termini belə izah olunur: hər bir görünüş və təsvirdə, o cümlədən, xammal, məmulat, əşya və avadanlıq, (bərk, maye və ya qaz halında), həmçinin elektrik enerjisi, xidmətlər, mallara bərkidilmiş, onlarla yanaşı gedən (əgər yanaşı gedən malın dəyəri özündən baha deyilsə) hissələr. Deməli, “mal” temiini dövriyyəsi məhdudlaşmayan, sərbəst özgələşən, alış-satış müqaviləsi ilə bir şəxsdən digərinə keçən hər hansı əşya kimi müəyyənləşdirilir.

Gömrük qanunvericiliyində “mal” termini altında hərəkət edən avadanlıq, o cümlədən, valyuta, valyuta dəyərləri, elektrik, istilik və digər enerji növləri, həmçinin nəqliyyat vasitələri (beynəlxalq sərnişin və yük daşımalarda istifadə edilən vasitələr istisna edilməklə) başa düşülür. Təcrübə göstərir ki, bu müəyyənləşdirməyə eyni zamanda intellektual mülkiyyəti və hava, dəniz gəmilərini də əlavə etmək lazımdır. Gömrük izahatında isə ümumi nəqliyyat vasitələri kimi hallanılır.

Başlayaq gömrük sərhəddindən, çünki “gömrük sərhəddi” gömrük ərazisinin qurtaracağıdır, həmçinin sərbəst gömrük zonalarının

və sərbəst anbarların perimetrləridir. Bunlarla əlaqədə biz mal və nəqliyyat vasitələrinin keçirilməsi və digər gömrük terminlərindən danışa bilərik.

Azərbaycan Respublikasının gömrük sərhəddi, o çox sadə müəyyənləşdirilir: - onun ərazisinin qurtaracağı gömrük sərhəddidir. Onda belə sual çıxır ki, niyə burada daxili və xarici gömrük sərhəddi ayrılır. Xarici gömrük sərhəddi qonşu ölkələrlə sərhəddi ayırır və ölkənin sərhəddi ilə uyğun gəlir. Bu sərhəd üzərində Azərbaycan Respublikasının "Azərbaycan Respublikasının Dövlət sərhəddi haqqında" qanunu ilə müəyyənləşdirilmiş inzibati - hüquq rejimi fəaliyyət göstərir. Daxili gömrük sərhəddində ölkənin gömrük ərazisində yerləşən sərbəst gömrük zonalan və sərbəst anbarların parametrlərini müəyyənləşdirir. Özünün inzibati-hüquqi statusuna görə daxili gömrük sərhəddi xariciyə bərabər tutulur, ancaq onun keçilməsi gömrük qanunvericiliyi normaları ilə reqlamenlləş- dirilir. Bununla yanaşı qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasına görə Azərbaycan Respublikası ərazisində gömrük sərhəddinin yaradılmasına icazə verilmir. Belə alınır ki, ölkə ərazisində sərbəst gömrük zonaları, sərbəst anbarların perimetrlərinin "gömrük sərhəddi" kimi verilməsi uyğunsuzluqdur, ancaq ümumdünya təcrübəsinə uyğundur.

Gömrük ərazisi və həmçinin gömrük sərhəddi Azərbaycan Respublikası GM-nin 3.3-cü maddəsində ətraflı şəkildə aydmlaşdınhr.

Azərbaycan Respublikasının gömrük ərazisi-Azərbaycan Respublikasının quru ərazisindən, daxili sulardan. Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsindən (o cümlədən, onda yerləşən adalar, süni adalar, qurğular, tikililər) və onların üzərində hava məkanından ibarətdir.

Azərbaycan Respublikası GM-nin 3.3-cü maddəsində deyilir ki, Azərbaycan Respublikası ərazisində sərbəst gömrük zonaları və sərbəst anbarlar yerləşə bilər. Bu məcəllədə və gömrük işi üzrə Azərbaycan Respublikasının digor qanunvericilik aktlarında müəyyən edilən hallar istisna edilməklə sərbəst gömrük zonalarının

zisindən kənar yerləşən ərazidir.

Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlan, həmçinin sərbəst gömrük zonalannın və sərbəst anbarlan Azərbaycan Respublikası gömrük sərhəddidr. Bu ərazidə yerləşən mallar isə Azərbaycan Respublikası gömrük ərazisindən kənarda hesab edilir.

## 2. GÖMRÜK SƏRHƏDDİNDƏ MALLARIN YERDƏYİŞMƏ VƏ KEÇİRİLMƏSİ ANLAYIŞI, DİGƏR GÖMRÜK TERMİNALOGİYALARI

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 1.0.22-ci maddəsində müəyyənləşdirildiyi kimi ümumi mənada gömrük sərhəd- dində yerdəyişmə bu malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş üsullarla, o cümlədən, beynəlxalq poçt göndərmələri, boru-kəmər nəqliyyatı, elektrik ötürücü xətlər vasitəsiylə gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması üzrə hərəkətləridir. Beləliklə, mal və nəqliyyat vasitələri Azərbaycan Respublikası ərazisinə gətirilir və yaxud oradan aparılır və bununla da “fəaliyyətin yekunlaşması” ifadəsi düzgün işlədilmir. Gömrük sərhəddindən keçməni faktiki keçmə kimi qəbul etmək olmaz. Xüsusilə mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və ya sərbəst gömrük zonası və sərbəst anbarlardan aparılıb gətirilməsi zamanı ölkənin gömrük ərazisindən keçir və bu zaman gömrük sərhəddindən keçirilmə fəaliyyətinin yekunu kimi qəbul edilməsi faktiki cəhətdən düzgün səslənmir.

Bu dövr ərzində mal və nəqliyyat vasitələri sərbəst anbara çatana kimi gömrük orqanlarının nəzarətində olmaqla ölkənin gömrük ərazisində hərəkət etmiş olur. Bu da digər tərəfdən məntiqlidir. Ona görə ki, başqa cür mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçməsinin qeydə alınması çətinləşir.

Gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçməsini iki cür başa düşmək olar: qanunauyğun və qanunauyğun olmayan. Qanunauyğun mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsini o zaman hesab etmək olar ki, gömrük sərhəd-

dini keçərkən, gömrük qanunvericiliyində nəzərdə tutulmuş norma və qaydalanna əməl olunmaqla, qanunauyğun olmayan isə norma və qaydalara ya yarımçıq ya da tam əməl olunmamaqla keçirilir. Məs: gömrük orqanlarının müəyyən etdikləri yerdən (gömrük nəzarətindən kənar) malların qismən və tam gömrük nəzarətindən gizlədilməsi, mallara saxta sənədlər əldə etməklə və buna oxşar digər hallar.

Gömrük sərhəddindən qeyri-qanuni yolla keçilməsini gömrük qanunvericiliyinə görə inzibati qanun pozuntusu və ya gömrük işi sahəsində cinayət işi kimi qiymətləndirilə bilər.

Gömrük sərhəddindən mal və nəqlİ3^at vasitələrini keçirməklə yanaşı Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 1-bölmə, I fəsil 1-ci maddəsində qeyd edildiyi kimi bir sıra terminlərlə rastlaşmaq mümkündür ki, onları bilmədən keçinmək mümkün deyil. Bunlara aiddir: “mal”, “nəqliyyat vasitəsi”, “təmsilçi”, “daşıyıcı”, “gömrük prosedurları”, “buraxılış”, “şərti buraxılış”, “gömrük rəsmiləşdirilməsi” , “gömrük nəzarəti”, “iqtisadi siyasət tədbirləri”, “gömrük ödəmələri”, “gömrük rüsumları”, “vergilər”, “qarşısıalınmaz qüvvə”, “gömrük brokeri”, “kvota” və digər.

Azərbaycan malları-mənşə ölkəsi Azərbaycan Respublikası olan və Azərbaycan Respublikası ərazisində sərbəst dövriyyə üçün buraxılmış mallar (onlardan istifadə onlar üzərində gömrük orqanlarının icazəsi olmadan sərəncam vermək olar).

Hüquqi şəxs-gömrük əməliyyatlan apanimasmda bilavasitə və dolayı yolla iştirak edən qanuna müvafiq surətdə qeydə alınmış idarə, müəssisə və təşkilatlar.

Fiziki şəxs-hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar.

Azərbaycanın hüquqi və fiziki şəxsləri-Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq yaradılmış və Azərbaycan Respublikasında yerləşən idarə, müəssisə və təşkilatlar, Azərbaycan Respublikasında uçota alınmış hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər və Azərbaycan Respublikasında yaşayış yeri olan Azərbaycan Respublikasının vətən

daşı fiziki şəxslərdir.

Xarici hüquqi və fiziki şəxslər-yuxarıda qeyd edilməyən şəxslər hamısı xarici şəxslərdir.

Malları keçirən şəxs-mallann mülkiyyətçisi, alıcısı, sahibi vo ya digər şəkildə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq öz adından mallar barəsində Azərbaycan Respublikası GM-1.0.44 cü maddəsində nəzərdə tutulmuş hərəkətləri etmək səlahiyyətləri olan şəxslər.

Buraxılış-Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən mallann və ya nəqliyyat vasitələrinin gömrük rəsmiləşdiril- məsindən sonra şəxsin tam sərəncamına verilməsi.

Gömrük nəzarəti zonası-bu Azərbaycan Respublikası gömrük ərazisinin gömrük nəzarəti və Azərbaycan Respublikası gömrük qanunvericiliyinin təmin edilməsi məqsədilə müəyyənləşdirilmiş və xüsusi aynimış hissəsidir.

İqtisadi siyasət tədbirləri-Azərbaycan Respublikasının iqtisadi siyasət baxımından müəyyən edilən özündə kvotalaşdırma, lisenziyalaşdırma, limitləşdirmə, minimum və maksimum qiymətlərin müəyyən edilməsi, həmçinin Azərbaycan Respublikasının dünya təsərrüfatı ilə qarşılıqlı əlaqələrini tənzimləyən digər tədbirləri cəmləşdirə bilən, malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasından aparılması üzrə stimullaşdırıcı və məhdudlaşdırıcı tədbirlər sistemi.

Gömrük rüsumlarının tarif dərəcəsi-bu gömrük tarifində göstərilən ölkənin gömrük ərazisinə gətirilmiş və ya bu ərazidən aparılan konkret maldan alınası ödəmənin pul miqdarıdır.

Gömrük tarifi-bu Azərbaycan Respublikasının gömrük sərhəd-dindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur.

Vergi-bu alınması Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilən vergilərdir.

Azərbaycan xarici iqtisadi fəaliyyətin mal nomenklaturası-(XİF MN) bu malların ümumazərbaycan təsnifləşdirilməsidir.

Azərbaycanda xarici iqtisadi fəaliyyətin əmtəə nomenklatxırası beynəlxalq təcrübədə qəbul edilmiş ahəngdar sistemi Avropa Birliyinin kombinə edilimiş nomenklaturasmm əsasında və onlara uyğun tərtib edilmişdir.

Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası xarici ticarət və digər xarici iqtisadi fəaliyyət növlərinin, Azərbaycanın xarici ticarət statistikasının aparılması, gömrük-tarif tənzimləmə tədbirlərinin həyata keçirilməsi üçün totbiq edilir.

Gömrük güzəştlori-bu iki və daha çox ölkənin və yaxud bir ölkənin mala görə birtərəfli gömrük sərhəddindən keçərkən qarşılıqlı təqdim etdikləri şərtdir.

Bu əvvəlcədən ödənilmiş gömrük rüsumunun qaytarılması, gömrük rüsumu verilməsindən azad etmə, rüsum dərəcələrinin endirilməsi və yaxud preferensial idxal tarif kvotalarının müəyyənləşdirilməsi şəklində ola bilər.

Gömrük qaydaları-bu Azərbaycan Respublikası gömrük qanunvericiliyinə uyğun Azərbaycan Respublikası gömrük sərhəddindən gömrük rejimləri, prosedurları da daxil edilməklə mal və nəqliyyat vasitələrinin keçirilməsi qaydası, onlann gömrük nəzarəti qaydası, gömrük rəsmiləşdirilməsi, gömrük ödəmələri qoyulmaqla onların ödənilməsi, həmçinin gömrük güzəştinin verilməsi qaydası və onlardan istifadə.

Gömrük qaydalarının pozulması-bu şəxsin “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının digər qanunvericilik aktları, həmçinin Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə müəyyən edilən Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilən malların və nəqliyyat vasitələrinin keçirilmə qaydasına gömrük nəzarəti, gömrük işi üo əlaqədar valyuta nəzarəti, gömrük rəsmiləşdirilməsi, eləcə do gömrük ödənişlərinin qoyulması və ödənilməsi, gömrük güzəştləri verilməsi və ondan istifadə qaydalanna qəsd və törədilməsinə görə Azərbaycan Respublikası GM məsuliyyət nəzərdə tutulan, hüquqa zidd hərəkət və hərəkətsizlikdir.

Gömrük orqanlarının vəzifəli şəxsləri-bu qanunla gömrük

Respublikası gömrük orqanı vəzifəli şəxsinin səlahiyyətlərini həyata keçirən, Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının qanunvericiliyinə sözsüz riayət edən, Azərbaycan Respublikasının vətəndaşıdır.

1. Avtonom tariflər (dərəcələr) - dövlətlər tərəfindən birtərəfli qaydada təyin edilən tariflər (dərəcələr).

2. Azərbaycan şəxsləri-Azərbaycan Respublukası qanunvericiliyinə müvafiq olaraq yaradılmış vo Azərbaycan Respublikasında yerləşən idarə, müəssisə və təşkilatlar, Azərbaycan Respublikasında uçota alınmış hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər, Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan şəxslər.

3. Bəyanetmə-gömrük orqanına gömrük sərhəddindən keçirilən, həmçinin gömrük nəzarəti altında yerləşdirilən mallar və nəqliyyat vasitələri barədə məlumatların müəyyən olunmuş yazılı, şifahi və ya elektron formada bəyan edilməsi.

4. Daxildə cmal-müəyyən malların onların istehsal, emal və ya təmir olunması və sonradan ixrac edilməsi məqsədilə gömrük rüsumu və vergilər alınmadan gömrük ərazisinə gətirilməsindən ibarət gömrük prosedurudur.

5. Daxili mallar-Azərbaycan Respublikasında tamamilə istehsal olunmuş, kifayət qədər emala məruz qalma meyyarlarına uyğun olaraq emal olunmuş və sərbəst dövriyyə üçün buraxılmış mallar.

6. Daşıyıcı-malları faktiki olaraq gömrük sərhəddindən keçirən vo (və ya) malların gömrük nəzarəti altında daşınmasını həyata keçirən, yaxud nəqliyyat vasitələrinin istifadəsi üçün məsul şəxs.

7. Deklarant-gömrük bəyannaməsi verən və ya adından gömrük bəyannaməsi verilən şəxs.

8. Elektron sənəd-infonnasiya sistemində istifadə üçün elektron foniiada təqdim olunan və elektron imza ilə təsdiq olunmuş sənəd.

9. Emal əməliyyatları-quraşdınna, yığma və başqa mallara uyğunlaşdımıa da daxil olmaqla malın hazırlanması; malın emalı və təkrar emalı; bərpa olunma və qaydaya salınma da daxil olmaqla malın təmiri; emal məhsullarının istehsalına xidmət edən və ya is

tehsalı asanlaşdıran bəzi mallardan tamamilə və ya qismən istifadə.

10. Emal məhsulları-emal xüsusi gömrük prosedurları altında yerləşdirərək emal əməliyyatlarından keçirilmiş mallar.

11. Gömrük auditi-malların və nəqliyyat vasitələrinin buraxılışından sonra gömrük bəyannaməsində göstərilən məlumatların həqiqiliyinin müəyyən edilməsi, eləcə də mal və nəqliyyat vasitələri üzərində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət edilməsi haqqında şəxsin öhdəliklərinin yerinə yetirilməsinin vəziyyətinin yoxlanılması məqsədi ilə gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlər toplusu.

12. Gömrük bəyannaməsi-mallar barədə tətbiq edilməli olan gömrük prosedurunun və bu prosedurun tətbiqi məqsədi ilə gömrük orqanının tələb etdiyi məlumatların maraqlı şəxslər tərəfindən gömrük xidmətinin müəyyən etdiyi forma üzrə göstərdiyi bildiriş.

13. Gömrük brokeri-təmsil etdiyi şəxsin tapşırığı ilə və onun mənafeyi üçün gömrük əməliyyatları aparan və gömrük işi sahəsində təmsilçilik funksiyalarını yerinə yetirən hüquqi şəxs.

14. Gömrük dəyəri-malların "Gömrük tarifi" haqqında Azərbaycan Respublikasının qanununa müvafiq olaraq müəyyən edilmiş dəyəri.

15. Gömrük xidməti-Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin tətbiqi üzrə məsul olan dövlət xidməti.

16. Gömrük nəzarəti-gömrük qanunvericilinə, həmçinin icrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş digər qanunvericiliyinə riayət edilməsini tomin etmək məqsədi ilə gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlər toplusu.

17. Gömrük nəzarəti altında olan mallar-Gömrük Məcəlləsinin tələblərinə uyğun olaraq üzərində gömrük nəzarəti başa çatmamış mallar.

18. Gömrük orqanı-gömrük xidmətinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin həyata keçirilməsi səlahiyyəti verilmiş inzibati bölməsi.

19. Gömrük ödənişləri-Azərbayan Respublikası Gömrük Məcəlləsi ilə nəzərdə tutulmuş hallarda gömrük orqanları tərəfindən

alınan gömrük rüsumları, vergilər, gömrük yığımları, dövlət rüsumu və haqq.

20. Gömrük proscduru-Azərbaycan Respublikası Gömrük Məcəlləsinin müddəalanna uyğun olaraq gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələrinin yerləşdirilə biləcəyi sərbəst dövriyyə üçün buraxılış, ixrac və xüsusi gömrük prosedurlarından hər hansı biri.

21. Gömrük rəsmiləşdirilməsi-Azərbaycan Respublikası Gömrük Məcəlləsinin müddəalanna və tələblərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müəyyən gömrük proseduru altında yerləşdirilməsi və bu prosedurun başa çatdırılması üzrə həyata keçirilən hərəkətlər.

22. Gömrük rüsumları-malların gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması zamanı gömrük orqanlan tərəfindən alınan gömrük ödənişlərinin bir növü.

23. Gömrük sahosi-Azərbaycan Respublikası Gömrük Məcəlləsinin müddəalarına əsasən müəyyən olunmuş gömrük limanı, gömrük sərhəd buraxılış məntəqəsi, gömrük dəmiryol stansiyası, gömrük terminalı, gömrük laboratoriyası, gömrük postu və gömrük hava limanı.

24. Gömrük sərhoddindən keçirmə-malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş üsullarla, o cümlədən, beynəlxalq poçt göndərmələri, boru kəmərlərindən və elektrikötürücü xətlərindən istifadə etmək də daxil olmaqla, gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması üzrə həyata keçirilən hərəkətlər.

25. Gömrük statusu-mallann xarici və yaxud daxili mallara aid edilməsi.

26. Gömrük tarifi-gömrük sərhəddindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun sistemləşdirilmiş gömrük rüsum dərəcələrinin məcmusu.

27. Gömrük təminatı-gömrük nəzarəti və rəsmiləşdirilməsinin nəticələrinin əks etdirilməsi üçün gömrük sərhəddindən keçirilən mallara və nəqliyyat vasitələrinə gömrük orqanları tərəfindən vurulan plomblar, möhürlər və digər eyniləşdirmə vasitələri.

28. Göndərən gömrük orqanı-tranzit xüsusi gömrük prosedurlarının başlandığı gömrük orqanı.

29. Hasilat norması-emal xüsusi gömrük proseduru altında yerləşdirilmiş malların emalı nəticəsində alınan emal məhsullarının müəyyən miqdarı və ya faizi.

30. Xaricdə emal-gömrük ərazisində sərbəst dövriyyədə olan malların xarici ölkədə istehsal, emal və təmir edilməsi məqsədi ilə müvəqqəti ixrac olunması və ixrac gömrük rüsumu və vergilərdən tam və ya qismən azad edilməklə sonradan təkrar idxal olunmasından ibarət gömrük prosedurudur.

31. Xarici mallar-Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 1.0.5 maddəsində göstərilənlərdən başqa, digər mallar və ya daxili mallar statusunu itirmiş mallar.

32. Xarici şəxslər-Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 1.0.2.-Cİ maddəsində göstərilən şəxslər.

33. İdxalçı-mallan idxal edən şəxs.

34. İxracatçı-malları ixrac edən şəxs.

35. Konvcnsion tariflər (dərəcələr)-dövlətlər tərəfindən müqavilə yolu ilə müəyyənləşdirilən tariflər (dərəcələr).

36. Qarşısıalınmaz qüvvə və ya fors-major-qarşısının alınması mümkün olmayan təbii fəlakət (daşqın, zəlzələ, yer sürüşməsi və s.) yaxud ictimai hadisə (hərbi əməliyyatlar və s.).

37. Mal sahibi-qanunvericiliyə müvafiq olaraq öz adından mallar üzərində sərəncam vermək hüququ olan şəxs.

38. Mallar-Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilən valyuta, valyuta sərvətləri, qaz, neft, elektrik enerjisi və digər enerji növləri daxil olmaqla, istənilən daşınan əmlak, o cümlədən nəqliyyat vasitələri.

39. Malların buraxılışı-mallar yerləşdiyi gömrük proseduru nəzərə alınmaqla, onlann istifadə üçün şəxsin sərəncamına verilməsi.

40. Malın gömrük orqanına təqdim olunması-malın gömrük orqanının yerləşdiyi yerə, yaxud gömrük orqanı tərəfindən müəyyən edilmiş hər hansı digər yerə çatdırılması və həmin mallar üzərində gömrük nəzarətinin həyata keçirilməsi üçün gömrük orqanına

toqdim olunması.

41. Malların yoxlanılması-mallann adının, mənşəyinin, miqdarının və dəyərinin gömrük bəyannaməsində göstərilən məlumatlara uyğunluğunun müəyyən edilməsi məqsədi ilə gömrük orqanlan tərəfindən malların faktiki yoxlanılması üzrə əməliyyatlar.

42. Mənşə ölkəsi-malların tamamilə həmin ölkədə istehsal edildiyi və ya qanunla müəyyən olunan meyarlar əsasında kifayət qədər yenidən emala məruz qaldığı ölkə,

43. Müşayət olunan baqaj-gömrük sərhəddindən sərnişinlərin özləri tərəfindən keçirilən mallar.

44. Müşayət olunmayan baqaj-sərnişinlərə məxsus olan və gömrük sərhəddindən qaimə əsasında nəqliyyat və ya poçt təşkilatı tərəfindən keçirilən mallar.

45. Nəqliyyat sənədləri-malların və nəqliyyat vasitələrinin daşınması zamanı qanunvericilik aktlarında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş beynəlxalq avtomobil qaiməsi, dəmiryol qaiməsi, baqaj cədvəli, baqaj qəbzi, aviaqaimə, eləcə də malların boru kəmərləri və elektrikötürücü xətləri vasitəsilə nəqlində istifadə olunan digər müşayət sənədləri.

46. Nəqliyyat vasitələri-konteynerlər və digər nəqliyyat avadanlıqları daxil olmaqla, sərnişinlərin və yüklərin beynəlxalq daşınması üçün istifadə olunan hər hansı hava, dəmiryol, su (dəniz), avtomobil nəqliyyatı vasitələri.

47. Prosedur sahibi-gömrük bəyannaməsini hazırlayan və ya adından gömrük bəyannaməsi hazırlanan şəxs və ya həmin şəxsin gömrük proseduru ilə bağlı hüquq və öhdəliklərinin ötürüldüyü şəxs.

48. Risk-gömrük qanunvericiliyinin tələblərinin yerinə yetirilməsi ehtimalı.

49. Riskin idarə olunması-məlumatların toplanması, məlumat təminatının yeniləşdirilməsi, riskin analizi, müvafiq proseslərin və onların nəticələrinin mütəmadi morjitoPİncM-mhı 'laulsklorin müəyyən edilməsi və riskə məruz qali|:©a((jii

50. Səlahiyyətli iqtisadi opcrator-lUmftFSKİüniıJfl ^^ömBİkiiTiÄS'

ki latının nornıa və stansiyalarına uyğun olaraq gömrük nəzarətinin sadələşdirilmiş forma və üsullarından istifadə edilməsinə GM-nın Fəsil 5.31 maddəsinə görə səlahiyyət verilmiş hüquqi şəxs.

51. Sərbəst dövriyyə üçün buraxılış-ödənilməli olan bütün gömrük rüsumları və vergilər ödənildikdən və bütün lazımı gömrük rəsmiləşdirilməsi yerinə yetirildikdən sonra gətirilən malların gömrük ərazisində sərbəst dövriyyəyə buraxılışından ibarət gömrük proseduru.

52. Sərbəst zona gömrük ərazisi-gətirilən mallara gömrük rüsumlannm və vergilərin habelə ticarət siyasəti tədbirlərinin tətbiq olunmayan hissəsi, ərazisinin bir hissəsi.

53. Şəxsi əşyalar-fıziki şəxsin fərdi istifadəsi üçün zəruri olan bütün əşyalar.

54. Şəxslər-hüquqi şəxslər və fiziki şəxslər.

55. Şərti buraxılış-malların və nəqliyyat vasitələrinin istifadəsi və onların üzərində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət edilməsi haqqında şəxsin öhdəlikləri ilə müşayət olunan buraxılış.

56. Təkrar idxal-əvvəllər aparılmış mallann idxal gömrük rüsumları və vergilərin ödənilməsindən azad edilməklə sərbəst dövriyyəyə buraxılması.

57. Təyinat gömrük orqanı-tranzit xüsusi gömrük prosedurunun başa çatdığı gömrük orqanı.

58. Ticarət siyasəti tədbirləri-Ümumdünya Ticarət Təşkilatının qərarlannm tətbiq olunmasının bir hissəsi kimi mallann idxalı və ixracını qanunvericiliklə müəyyən olunmuş formada tənzimləyən qeyri-tarif tədbirlər.

59. Tranzit-gömrük nəzarəti altında malların bir gömrük orqanından digər gömrük orqanına daşınması və nəqlindən ibarət xüsusi gömrük proseduru.

60. Vergilər-malların və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsi ilə əlaqədar alınması gömrük orqanlarına həvalə olunmuş əlavə dəyər vergisi, yol vergisi və aksizlər.

61. Yük bəyannaməsirkommersiya nəqliyyat vasitələri gömrük

ərazisinə daxil olan və ya bu ərazidən yola düşən zaman və bundan əvvəl gömrük ərazisinə gətirilən və ya bu ərazidən aparılan yük haqqında gömrük orqanı tərəfindən tələb olunan məlumatları özündə əks etdirən sənəd.

**Yoxlama sualları**

1. Hüquqi şəxslər kimlərə deyilir?
2. Xarici hüquqi və fiziki şəxslər kimlərdir?
3. Malları gömrük sərhəddindən keçirən şəxs kimdir?
4. İqtisadi siyasət tədbirləri dedikdə nəyi başa düşürsünüz?
5. Gömrük nəzarəti zonası hansı ərazilərdir?
6. Gömrük tarifi nədir?
7. Avtonom tariflər hansı tariflərdir?
8. Bəyanetmə nə deməkdir və harada istifadə edilir?
9. Daşıyıcı kimlərdir və onun vəzifəsi nədən ibarətdir?
10. Gömrük brokeri kim ola bilər, onun funksiyaları?
11. Gömrük ərazisi və ölkənin ərazisi - bunlar eynidirmi?
12. Gömrük sərhəddini və ölkənin sərhəddini fərqləndirən cəhətlər?

**MÖVZU 2.**

**AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK İŞİNİN TƏŞKİLİ VƏ ONUN HÜQUQİ ƏSASLARI**

# Azərbaycan Respublikasında gömrük orqanlarının təşkilatı strukturu

1. Gömrük işi və gömrük tənzimlənməsi anlayışı. Azərbaycan Respublikası gömrük işi və gömrük tənzimlənməsinin məqsədi və elementləri.
2. Azərbaycan Respublikasında gömrük işinin normativ-hüquqi əsasları.
3. Azərbaycan Respublikasının gömrük siyasəti, onun həyata keçirilməsi üsullan.
4. Azərbaycan Respublikasında gömrük orqanlarının strukturu və onların əsas funksiyaları.
5. Azərbaycan Respublikasının gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsinin əsas prinsipləri.

## 1. GÖMRÜK İŞİ VƏ GÖMRÜK TƏNZİMLƏNMƏSİ ANLAYIŞI. AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK İŞİ VƏ GÖMRÜK TƏNZİMLƏNMƏSİNİN MƏQSƏDİ VƏ ELEMENTLƏRİ

Gömrük siyasəti gömrük tənzimləməsi və gömrük işinin əsas istiqamətlərini müəyyənləşdirir.

Azərbaycan Respublikasının Konstitusiyasında "Gömrük tənzimlənməsi haqqında" anlayış verilir (maddə 23.) Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 2-ci maddəsinin 2.1-ci bəndinə əsasən Azərbaycan Respublikasının gömrük işi-gömrük sərhəddindən keçirilən mallar və nəqliyyat vastələri barəsində gömrük - tarif tənzimlənməsi tədbirlərindən, xarici ticarətin iştirakçıları tərəfindən gömrük qanunvericiliyi ilə müəyyənləşdirilmiş qadağalara və məhdudiyyətlərə riayət olunmasını təmin edən üsullar toplusundan, gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələrindən ibarətdir. Digər sözlə dövlət hüquqi normaların köməyi ilə fiziki və hüquqi şəxslər

həddindən keçirilməsini yerinə yetirərkən gözləməli olduqları qaydaları müəyyən edir.

Bu normaların cəmi gömrük qanunvericiliyinin məzmununu təşkil edir. Beləliklə, gömrük tənzimlənməsi GM-nin 2.1 maddəsinə görə müəyyənləşdirilmiş gömrük sərhəddindən malları və nəqliyyat vasitələrini keçirmə hüququnu həyata keçirərkən şəxslərin riayət etməli olduğu norma və qaydaların müəyyən olunmasından ibarətdir.

Beynəlxalq ticarətdə yüklərin yerdəyişməsinə bir ölkənin sərhəddindən digərinə keçirilməsi kimi baxılır. Xarici iqtisadi fəaliyyətin mal dövriyyəsinin tənzimlənməsi üçün dövlət idarələri mövcuddur ki, bunlann da içərisində gömrük işi xidməti xüsusi yer tutur. Beləliklə, gömrük işi xarici ticarət sahəsi ilə bilavasitə bağlıdır.

Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi gömrük işinin əsasları tətbiq edilmədən aparılması mümkün deyildir. Belə ki, sərhədlərin kəsişməsi və həmin sərhəddən müxtəlif yüklərin keçirilməsi həmişə gömrük sistemi ilə qarşılaşır və gömrük işinin orada tətbiqi olmadan mümkün deyildir. Dünya təcrübəsində gömrük işi xarici ticarətin vacib həlqələrindən biri kimi çıxış edir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinə (2.3 mad.) əsasən gömrük işini mallann və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında xarici ticarətin dövlət tənzimlənməsinə dair qanunvericiliyə uyğun müəyyən edilmiş gömrük-tarif tənzimlənməsi tədbirlərinə, qadağalara və məhdudiyyətlərə riayət olunmasını təmin edən metod və vasitələrin toplusu və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələri təşkil edir.

Mövcud müəyyənləşdirmə mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirərkən gömrük-tarif tənzimləmələri tədbirlərinin, həmçinin müəyyən edilmiş qadağa və məhdudiyyətlərin həyata keçirilməsinin vacibliyini müəyyən edilməsinə imkan verir.

İş orasındadır ki, dövlət üçün hər hansı investorun idxal və ixrac əməliyyatları təsirsiz keçmir. Onlar ölkə iqtisadiyyatına ziyan vura

bilər və həmçinin daxili istehsalı stimullaşdırar. Bu prosesləri müəyyən çərçivədə saxlamaq üçün bütün dünya ölkələri ticarətin gedişi yolunda maneələrə əl atmağa qaçırlar. Ən çox belə maneələr ölkə ərazisinə mallarm idxalında tətbiq edilir, ona görə ki, ixrac istehsalçı və ümumilikdə iqtisadiyyat üçün əlverişlidir.

Gömrük-tarif tənzimlənməsi belə maneələrdən biri kimi çıxış edir, xüsusən də gömrük ödəmələrinin alınması. Digər sözlə xarici iqtisadi fəaliyyətin iştirakçılan (XİF) malların gömrük sərhəddindən keçirərkən gömrük ödəmələrini ödəməyə borcludur və bununla da respublika büdcəsinin gəlir hissəsini yaradırlar.

Qadağa və məhdudiyyətlər də ticarət gedişində müəyyən maneələrdir. Bu maneələr dövlətin və onun vətəndaşlarının maraqlarının müdafiəsi üçün həyata keçirilməsi məcburidir. Məsələn, ölkəyə mal gətirərkən sahibkar onun üçün sertifikat alır. Bu o deməkdir ki, ölkəyə gətirilən mövcud mal təhlükəsizdir, heç bir ziyan və təhlükəsiz istifadə edilə bilər. Bundan əlavə müxtəlif dünya ölkələrinin gömrük qanunvericiliyində gömrük sərhəddindən keçirilməsi qadağan olunmuş mallann siyahısı müəyyənləşdirilir. Onu da qeyd etmək lazımdır ki, bəzi hallarda müəyyən şəxslər konkret tələblərin yerinə yetirilməsindən azad edilir. Belə ki müəyyən edilmiş dəyər məhdudiyyəti nəzərə alınmaqla vətəndaşın öz şəxsi istifadəsi üçün ölkəyə gətirdiyi mallar gömrük ödəmələrindən azaddırlar.

Beləliklə, gömrük-tarif tənzimləmələri, həmçinin qadağa və məhdudiyyətlər elə maneələrdir ki, mal və nəqliyyat vasitələrinin idxal və ixracının həyata keçirilməsi üçün vacibdir. Onlann həyata keçirilməsinin gözlənilməsi hansı metod və vasitələrlə təmin edilir?

Metod-həmişə tənzimləmənin necə getdiyini, hansı vasitə və hüquqi cəhətdən qaydalardan istifadə edilməsini göstərir. Vasitəyə gəldikdə isə-bu obyekt və subyekti məqsəd və nəticə ilə birləşdirir. Vasitənin köməyi ilə subyektin hüquqi marağı təmin edilir. Gömrük işi gömrük qammvericilinin gözlənilməsinin metod və vasitələrinin təmin edilməsinin məcmusunu əks etdirir. Beləliklə, gömrük işi- bu gömrük qaydalarının təmin edilməsi üzrə fəaliyyətdir.

Müasir gömrük işi elementlərini aşağıdakı əsas blok məsələrlə təqdim etmək olar:

-mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsinin prinsipləri;

-gömrük prosedurları;

-gömrük-tarif tənzimləmələri və gömrük ödənişlərinin alınması;

-gömrük rəsmiləşdirilməsi;

-gömrük nəzarəti;

-gömrük güzəştlərinin verilməsi;

-gömrük statistikasının və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının apanıması;

-gömrük işi sahəsində hüquq pozuntularına qarşı cavabdehlik.

Gömrük işi sahəsində hər hansı bu və ya digər elementin diferensasiyası tamamilə şərtidir, ona görə bu elementlərə onların birliyi və qarşılıqlı əlaqə prizmasından baxılması vacibdir. Xarakter etibarilə müxtəlif olan bütün bu elementlər birlikdə gömrük işində iqtisadi, sosial və hüquq mühafizə məqsədlərinə nail olunması üçün istifadə edilir.

İqtisadi məqsəd iki hissəyə-fıskal və tənzimləyici bölünməklə bir - birini tamamlamalı və milli iqtisadiyyatın inkişafını təmin etməlidirlər. Gömrük işində tənzimləyici məqsədə Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mallara idxal və ixrac rüsumlarınm qo3nılması, həmçinin malların idxal və ixracına qadağa və məhdudiyyətlərin qoyulması yolu ilə, lisenziyalaşdırma, bir sıra malların idxal və ixracına müxtəlif icazələrin verilməsi və digər tədbirlərin həyata keçirilməsi yolu ilə nail olunur. Fiskal iqtisadi məqsədə çatmaq respublika büdcəsinin gəlir hissəsinin doldurulması ilə başlanmış və ancaq xarici ticarət sahəsində ödəmələr, büdcənin doldurulma vasitəsidir. Bu vasitələrdən istifadə etməklə dövlət xarici iqtisadi fəaliyyətin subyektlərinə onların tam operativ müstəqilliyini saxlamaqla iqtisadi təsir göstərir.

Sosial məqsəd özünü ümumi qəbul edilmiş beynəlxalq norma və təcrübənin hormonikləşdirilməsi və sadələşdirilməsi olmadan gömrük işinin inkişafının mümkün olmamasında özünü göstərir.

Gömrük işinin hüquqi məqsədi ölkənin dövlət təhlükəsizliyinin, ictimai qaydaların, insanların həyat və sağlamlıqlannm, cəmiyyətin mənəviyyatının, mənəvi sağlamlıqlarının və mədəni dəyərlərinin qorunmasında; heyvanat və bitki aləminin, ətraf mühitin qorunmasında; idxal mallarında Azərbaycan istehlakçılarının mənafelərinin qorunmasında; Azərbaycan Respublikası gömrük sərhəddindən narkotik maddələrin, silahın, rəssamlıq əsərlərin, tarixi və arxeoloji sərvətlərinin qorunması üçün apardığı mübarizədə özünü büruzə verir. Bunun üçün müxtəlif hüquqi vasitələrdən istifadə olunur ki, bunlara gömrük rəsmiləşdirilməsini, mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsinin məhdudlaşdırılması, gömrük nəzarəti və s. aid etmək olar. Məsələn, gömrük sərhəddinin keçirilməsinə qadağa dövlətin təhlükəsizliyinə əsaslanır.

## 2. AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK İŞİNİN NORMATİV-HÜQUQİ ƏSASLARI

Azərbaycan Respublikasında vahid gömrük qanunvericiliyi fəaliyyət göstərir. O özündə Azərbaycan Respublikasının Konstitusiyasını, beynəlxalq müqavilə və razılaşmalan, respublika qanunlarını, həmçinin Azərbaycan Respublikası Prezidentinin fərmanlarının daxil olduğu hüquqi aktları, Azərbaycan Respublikası Hökumətinin qərarlarını, eyni zamanda İqtisadi İnkişaf Nazirliyinin və digər bir sıra respublika icra hakimiyyətinin normativ-hüquqi aktlarını birləşdirir.

Gömrük işinin hüquqi təminatında mərkəzi mövqeyi Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (24 iyun 2012-ci il) və Azərbaycan Respublikasının “Gömrük tarifi haqqmda”qanunu tutur (1995-ci il).

Azərbaycan Respublikasının Gömrük Məcəlləsi gömrük prosedurlarının və ödəmələrin növlərini, mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi qaydalarını, gömrük orqanlannm statusunu, həmçinin hüquqi və fiziki şəxslər arasında hüquqi münasibə- təri tənzimləyir.

Gömrük Məcəlləsi XI bölmə, LXIV fəsil və 358 maddədən ibarət olub, birbaşa fəaliyyət qanunudur. Bu da gömrük işinə müstəsna həsr edilmiş onun normalarının bilavasitə təcrübədə istifadə edilməsinə imkan verir. Gömrük Məcəlləsi hər şeydən əvvəl gömrük orqanlarının, həmçinin gömrük sərhəddindən mal və nəqliyyat vasitələrini keçirən şəxslərin hüquq və vəzifələrini reqlamentləşdirir. Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə görə XİF iştirakçıları gömrük sərhəddindən mal və nəqliyyat vasitələrini keçirən şəxslərdir.

1991-ci ildə SSRİ-nin yeni “Gömrük Məcəlləsi” və Gömrük tarifi haqqında” qanunları qəbul olundu. Qəbul olunmuş yeni məcəllənin müddəalarına görə, Dövlət Gömrük Nəzarəti Baş İdarəsi-Dövlət Gömrük Komitəsinə çevrildi. Eyni zamanda gömrük-tarif şurası və narkotik maddələrin dövriyyəsinə qarşı Beynəlxalq Koordinasiya (əlaqələndirmə) şurası yaradılır.

18 oktyabr 1991-ci ildə Azərbaycan öz müstəqilliyini qazandı və Müstəqillik haqqında Konstitusiya aktı qəbul olundu.

30 yanvar 1992-ci ildə “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 561 saylı Fərmanı ilə Gömrük Komitəsi yaradıldı. Komitə əsasən keçmiş Azərbaycan Respublikası Gömrük idarəsinin bazasında yaradılmışdı. Azərbaycan Respublikası Prezidentinin həmin Fərmanı əsasında Azərbaycan Respublikası Nazirlər Soveti 1 iyun 1992-ci ildə 301 saylı “Azərbaycan Respublikası Gömrük Komitəsinin məsələləri haqqında” qərar verdi. Bundan sonra 19 yanvar 1994-cü il tarixli qərarı ilə Gömrük Komitəsinin məsələlərinin və ona tabe olan təşkilatların siyahısının həlli barədə, onun maddi-texniki bazasının yaradılması haqqında qərarını verdi. Son verilən bu qərarda Gömrük Komitəsinin maddi-texniki təchizat məsələləri ilə yanaşı, yeni gömrük postlarının açılması da öz əksini tapmışdır. O zaman Azərbaycan Respublikası Gömrük Komitəsinə Naxçıvan MR Gömrük Komitəsi, Bakı Baş Gömrük İdarəsi, 12 gömrükxana, mərkəzi laboratoriya, avtomobil təsərrüfatı və təsərrüfat hesablı “Azərterminalkompleks” xarici

1995-ci ildə "Gömrük tarifi haqqında" qanun, 2012-ci ildə isə Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi", 1999-cu ildə isə "Gömrük xidməti haqqında Əsasnamə" və "Əməliyyat -axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlan qəbul olunmuşdur. Mövcud Məcəlləyə (2012-ci il) aşağıdakı prinsipial dəyişikliklər olunmuşdur:

- gömrük işinə yeni anlayış verildi;
- gömrük işinə ümumi rəhbərlik Azərbaycan Respublikası Hökumətinə verilmişdir;
- gömrük prosedurları yeni qaydada təsnifləşdirilmişdir, bura dörd əsas qrup daxil edilmişdi; əsas, iqtisadi, yekunlaşdırıcı, xüsusi;
- tranzit prosedurunun bəyan edilməsi qaydaları sadələşdirilmiş, tranzit malları gömrük rüsumları və vergilərdən və onlara qarşı qeyri-tarif tənzimləmə tədbirlərindən azad edilmişdir;
- malların gömrük rəsmiləşdirilməsi müddəti 10 gündən 3 günə kimi azaldılmışdır;
- elektron vasitələrlə informasiya texnologiyalarından geniş istifadə etməklə gömrük orqanlarına ötürmək üçün geniş istifadə edilməsi nəzərdə tutulmuşdur;
- gömrük qanunvericilik normaları vergi və yığımlan haqqındakı xarici ticarət fəaliyyəti, beynəlxalq hüquq normalarına uyğunlaşdı-nlmışdır;
- Azərbaycan gömrük qanunvericiliyi bu sahədəki beynəlxalq standartlara uyğunlaşdırılmışdır;
- gömrük prosedurlarının sadələşdirilməsi və tezləşdirilməsi;
- ticarət axınlarının tənzimlənməsində inzibati amil azaldılmışdır.

XİF iştirakçıları üçün gömrük prosedurlannm əhəmiyyətli dərəcədə sadələşdirilməsi və tezləşdirilməsi, həmçinin gömrük məmurlan və gömrük orqanları tərəfindən onlara inzibati təzyiqin azaldılması xüsusi əhəmiyyətə malikdir.

"Gömrük tarifi haqqında" qanun gömrük-tarif tənzimlənməsi blokunda əsas vasitələrdən biri sayılır. 1995-ci ildən fəaliyyət göstərir. Bu qanun 7 fəsil və 37 maddədən ibarətdir. "Gömrük tarifi

haqqında ” qanun Azərbaycan Respublikasında daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, xarici ticarətin dövlət tənzimlənməsinin vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin ölkənin gömrük sərhəddindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən edir, o tarifin strukturunu, gömrük rüsumlarının növünü, gömrük yığımlarının qayda və metodologiyasını xarici iqtisadi fəaliyyət subyektlərinin fəaliyyətləri ilə əlaqədar əsas ticarət-iqtisadi şərtləri, tarif güzəşt və üstünlüklərini müəyyən edir. Qanunun təsbit sahəsi Azərbaycan Respublikasının vahid gömrük ərazisidir.

Gömrük işi beynəlxalq münasibətlərlə sıx bağlıdır. Beynəlxalq müqavilələr və konvensiyalar daxili hüquq normaları qarşısında prioritet səlahiyyətə malikdir, daha doğrusu əgər Azərbaycan Respublikası beynəlxalq hüquqla Azərbaycan Respublikası qanunla-nnda nəzərdə tutulduğundan kənar müqavilə bağlamışdırsa belə halda beynəlxalq hüquqa üstünlük verilir.

Gömrük qanunvericiliyində çoxlu gömrük-hüquq terminlərindən istifadə olunur. Onlardan əsaslarını nəzərdən keçirək.

Gömrük tənzimləmələrini xarakterizə edən əsas anlayışlardan biri ərazi aspektidir-gömrük ərazisi. Bu mövcud ölkənin gömrük qanunvericiliyinin tam həcmdə fəaliyyət göstərdiyi ərazidir.

1. Azərbaycan Respublikasının ərazisi Azərbaycan Respublikasının vahid gömrük ərazisini təşkil edir. Azərbaycan Respublikasının gömrük ərazisi-Azərbaycan Respublikasının quru ərazisindən, daxili sulardan, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən (o cümlədən, onda yerləşən adalar, süni adalar, qurğular və tikililər) və onların üzərindəki hava məkanından ibarətdir (GM maddə 3).

Quru ərazisi-Azərbaycan Respublikası sərhədləri daxilində olan ərazidir. Daxili sulara dəniz sahil suları, çay suları, göllər, limanlar, buxtalar, Azərbaycana aid olan sahil suları. Ərazi sulanna 12 mil enində olan dəniz suları aid edilir.

2. Gömrük ərazisinə həmçinin respublika qanunları ilə yaradılmış xüsusi iqtisadi zonalar daxildir ki, bunlara gömrük

kənar ərazilər kimi baxılır, məqsəd gömrük rüsum, vergilər, həmçinin iqtisadi xarakterli qadağa və məhdudiyyətlər tətbiq edilməməsidir.

Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudları, həmçinin sərbəst gömrük zonalarının və sərbəst anbarların perimetrləri respublikamızın gömrük sərhəddi adlanır.

Malların və nəqliyyat vasitələrinin qanunvericilikdə müəyyən olunmuş üsullarla (o cümlədən, beynəlxalq poçt göndərmələri, boru kəmərlərindən və elektrik ötürücü xətlərindən istifadə etmək də daxil olmaqla) Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması üzrə həyata keçirilən hərəkətlərə gömrük sərhəddindən keçirmə deyilir.

Malların və nəqliyyat vasitələrinin ölkənin gömrük ərazisinə gətirilməsi zamanı və ya sərbəst gömrük zonaları ərazisindən və sərbəst anbarlardan, Azərbaycan Respublikasının gömrük ərazisinin qalan hissəsinə gətirilməsi zamanı Azərbaycan Respublikasının gömrük sərhəddindən faktiki keçirilməsi.

Mallar-Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilən valyuta, valyuta sərvətləri, qaz, neft, elektrik enerjisi və digər enerji növləri də daxil olmaqla, istənilən daşınan əmlak, o cümlədən nəqliyyat vasitələri. (GM. 1.0.38). Mallar-istənilən daşman əmlak, o cümlədən valyuta, valyuta sərvətləri, elektrik və digər enerji növləridir. Gömrük cəhətdən mallar-bunlardır:

- gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin predmeti;
- gömrük rüsum və vergilərinin obyektidir.

Malların əsas əlaməti kimi:

- daşınması.

Azərbaycan Respublikası gömrük sərhəddində keçirilə bilməsi ilə çıxış edir.

Qeyd etmək lazımdır ki, mülki hüququn bir sıra obyektləri, məsələn, intelektual fəaliyyətin nəticəsi, o cümlədən, onlar üzərində müstəsna hüquq mal anlayışında yer almayıb.

Bununla yanaşı gömrük sərhəddini keçən intelektual mülkiyyət gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsinə, vergi və rüsum-

ların hesablanmasında baza kimi qəbul olunur.

Malların vacib gömrük-hüquqi xarakteristikası onların Azərbaycan və xarici mallara bölünməsidir.

Malların Azərbaycan və xarici mallara bölünməsi (ayrıca gömrük prosedurlan çərçivəsində) həmin mallara tarif və qeyri-tarif tənzimləmə tədbirlərinin, həmçinin qeyri-iqtisadi qadağa və məhdudiyyətlərin tətbiq edilməsi ilə əlaqədardır.

Ümumilikdə Azərbaycan malları-bu Azərbaycan Respublikası gömrük ərazisində sərbəst dövriyyədə olan mallardır, daha doğrusu, gömrük qanunvericiliyi tərəfindən məhdudiyyətlərdən azad olan mallardır.

Azərbaycan malları status alma kriteriyası kimi çıxış edir:

- malların tam Azərbaycan Respublikası ərazisində istehsal olunması;

- malların Azərbaycan Respublikası ərazisində tam sərbəst dövriyyə üçün buraxılması (yəni ilk istesalı xaricdə həyata keçirilən mallar Azərbaycan Respublikası ərazisinə gətirildikdən və gömrük ödənişləri ödənildikdən və bütün qadağa və məhdudiyyətləri gözlədikdən sonra Azərbaycan malı statusunu alır);

- mallar tam şəkildə Azərbaycan Respublikasında istehsal olunmuş və ya Azərbaycan Respublikası ərazisində sərbəst dövriyyəyə üçün buraxılmış mallar.

Ona da fikir vermək lazımdır ki, Azərbaycan malları ölkənin gömrük ərazisindən kənara aparı larkən onlar özlərinin Azərbaycan malı statusunu itirir və onlara xarici mal kimi baxılır.

Azərbaycan Respublikası GM-ə (1 -ci maddə 1.25 bəndi) uyğun olaraq Azərbaycan malları kriteriyasına cavab verməyən mallar xarici mallardır.

Azərbaycan mallarından fərqli olaraq, xarici mallar Azərbaycan gömrük ərazisində gömrük nəzarəti altında olurlar.

Beynəlxalq sərnişin və yük daşımalarında istifadə olunan nəqliyyat vasitələri bu sıraya daxil edilmir. Beləliklə, gömrük nəzarəti altında olan mallar-Azərbaycan Respublikası gömrük ərazisinə gətirilmiş mallar, onların sərbəst dövriyyə üçün buraxılışı sonra qədər

onlann faktiki gömrük sərhəddindən keçirilib apanlmasına, onların məhv edilməsinə, həmçinin Azərbaycan mallanmn Azərbaycan Respublikası gömrük ərazisindən aparılması və gömrük sərhəddini faktiki keçməsinə qədər olan mallardır.

Gömrük əməliyyatları-(o cümlədən, XİF iştirakçılanna) bu mal və nəqliyyat vasitələrinə şəxslər və gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirilməsi zamanı həyata keçirilən müxtəlif fəaliyyət münasibətləridir.

Gömrük əməliyyatları malın mənşə ölkəsi, göndərilmə təyinatından asılı olmayaraq tətbiq olunur, onlara gömrük ödəmələrinin verilməsi, gömrük nəzarətinin həyata keçirilməsi, gömrük orqanlan tərəfindən mallann buraxılması daxildir.

Gömrük prosedurları-gömrük məqsədləri üçün mal və nəqliyyat vasitələrinin statusunu müəyyən etmək və nəzərdə tutulmuş gömrük əməliyyatlarının yerinə yetirilməsi qaydalannm cəmidir.

Onun tərkibinə daxili gömrük tranziti, müvəqqəti saxlanc, gömrük prosedurlannın seçilməsi və istifadə qaydalan aiddir. Gömrük prosedurlarını çox vaxt gömrük formallıqlan adlandınrlar. Onların yerinə yetirilməsi adətən gömrük sərhəddindən keçirilən yüklərin gömrük rəsmiləşdirilməsi prosesində baş verir.

Özünün məqsədinə görə gömrük əməliyyatları və prosedurları o səlahiyyətlərdir ki, xarici iqtisadi fəaliyyət iştirakçı subyektləri və ya digər maraqlı şəxslər, gömrük orqanları tərəfindən Azərbaycan Respublikası gömrük sərhəddindən mal və nəqliyyat vasitələri keçirilərkən yerinə yetirilməlidirlər.

Malların idxalı və ya ixracı hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilə bilər.

Hüququ şəxslər-gömrük əməliyyatları aparılmasında bilavasitə və dolayısı ilə iştirak edən qanuna müvafiq surətdə qeydə alınmış idarə, müəssisə və təşkilatlar, fiziki şəxslər isə-hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanlardır.

Azərbaycanın hüquqi və fiziki şəxsləri-Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq yaradılmış və Azərbaycan Respublikasında yerləşən idarə, müəssisə və təşkilatlar, Azərbaycan

Respublikasında uçota alınmış hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər və Azərbaycan Respublikasında daimi yaşayış yeri olan Azərbaycan Respublikasının vətəndaşları (GM maddə 176.8).

### 3. AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SİYASƏTİ, ONUN HƏYATA KEÇİRİLMƏSİ ÜSULLARI

Gömrük siyasəti Azərbaycan iqtisadiyyatının dövlət tənzimlənməsinin əsas mövqe elementlərindən biridir. O bütün gömrük fəaliyyətində əsas mövqe kimi çıxış edir və dövlətin daxili, həm də xarici siyasətinin tərkib hissəsidir. Ona görə də gömrük siyasəti daxili və xarici iqtisadi maraqların qorunmasına yönədilmiş hüquqi, iqtisadi, təşkilati və digər iri miqyaslı tədbirlərin siyasət sistemini təşkil edir.

Ölkədə bazar münasibətlərinin formalaşdığı şəraitdə siyasi, sosial-iqtisadi yenidənqurmalar dinamik şəkildə həyata keçirilməkdədir. Ümumi şəkildə gömrük siyasəti dövlətin xarici ticarətin tənzimlənməsi, milli iqtisadiyyatın qorunması və fıskal məsələlə- tin tənzimlənməsinə yönəldilmiş siyasəti kimi müəyyənləşdirmək olar.

Hər bir ölkənin gömrük siyasətinin əsas məqsədi onun iqtisadi maraqlannı təmin etməkdir. Azərbaycan Respublikası da burada müstəsnalıq təşkil etmir. Azərbaycan Respublikasının gömrük siyasətinin məqsədi GM-nin 2-ci maddəsinə uyğun olaraq aşağıdakılardan ibarətdir. Azərbaycan Respublikasında dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasəti həyata keçirir.

- Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsini;
- Azərbaycan Respublikasının daxili bazarının qorunmasını;
- milli iqtisadiyyatının inkişafının stimullaşdırılması;
- Azərbaycan iqtisadi münasibətlərindən irəli gələn vəzifələrin

yerinə yetirilməsinə kömək edilməsi;

- Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikası GM-nə və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq müəyyən edilən digər məqsədlər.

Azərbaycan Respublikasının gömrük siyasəti gömrük işini beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldir. Azərbaycan Respublikasında gömrük işi hamılıqla qəbul edilmiş normalar və təcrübə ilə uyğunlaşdırma və eyniləşdirmə istiqamətində inkişaf etdirilir.

Azərbaycan Respublikasının iqtisadi siyasətinin digər məqsədlərini Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Hökuməti tərəfindən müəyyən edilmiş məsələlərin həyata keçirilməsini təşkil edir.

Hər bir dövlətin gömrük siyasətinin yaranması iki vacib yanaşmanı istiqamətləndirir-proteksionizm və fritrederçilik.

Proteksionizm-bu daxili bazarda öz sənayesini, kənd təsərrüfatını xarici rəqabətdən qorumağa yönəldilmiş siyasətdir. Proteksio- nist gömrük siyasəti üçün yüksək gömrük tarifləri və idxalın azaldılması xaraktererikdir.

Fritrederçilik-bu sərbəst ticarət siyasətidir. Sərbəst ticarət xarici ticarət münasibətlərində olan hər cür maneələri aradan qaldırır və xarici ticarət dövriyyəsində hər hansı bir məhdudiyyətləri minimuma endirməklə buna nail olur. Öz növbəsində bu da daha əlverişli əməyin beynəlxalq bölgüsünə, mal dövriyyəsinin artmasına və bazann tələbatının ödənilməsinə şərait yaradır.

Gömrük proteksionizmi ilk dəfə XVI əsrdə sənaye inqilabı dövründə İngiltərədə yaranmışdır. Bu da ölkədə sənaye müəssisələrinin yaratdıqlarını xarici mallardan qorumaq üçün İngiltərə özündə istehsal edilən eyni mallara yüksək gömrük rüsumları qoymağa başlamışdır. Müəyyən edilmiş qaydaya görə İngiltərəyə gətirilən xarici mallara yalnız İngiltərəyə məxsus gəmilərdə gətirilməsinə icazə verilirdi və bununla yanaşı əlavə yığımlar da alınırdı.

Müstəmləkə malları tam ciddiliyi ilə hakimiyyət orqanlarının

nəzarəti altında heç bir yol və limanlarda haqq alınmadan gətirilə bilərdi. Məqsəd Hollandiyanın dünyadakı xarici ticarətdə mövcud olan gücünü azaltmaq və özünün istehsalının inkişafına nail olmaqdan ibarət idi. Sonralar İngiltərənin nümunəsilə İspaniya, İsveç, Fransa dövlətləri də bəhrələnməyə başladılar.

İngiltərə proteksionizmi dörd yüz ildən artıq vaxtı əhatə edir. Ölkədə ağıllı aparılan proteksionizm siyasətinin onun iqtisadiyyatına göstərdiyi pozitiv təsir göz qabağındadır. XIX əsrin əvvəllərində İngiltərə özünün inkişafına görə dünyada birinci yerə çıxır. Sənayedə texnoloji proseslər ən yüksək səviyyəyə çatır, istehsal olunan malların maya dəyəri dünyada ən aşağı həddə çatır. Bu şəraitdə İngiltərə proteksionizm siyasətindən fritrederçiliyə yəni sərbəst ticarətə keçmişdir.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin inzibati alətləri müasir dövrdə də vacibdir. Bizim ölkəmiz onlannköməyi ilə böyük miqdarda ixrac-idxal kompaniyalarını həyata keçirməklə xarici ticarət defisitinin inkişafını saxlaya bilər, ticarət və ödəmə balansını saxlayar, xarici valyutanın çatışmadığı zaman onu daha səmərəli istifadə etməklə ölkəyə lazım olan malların alınmasına sərf edə bilər.

Xarici ticarət fəaliyyətinin inzibati alətlərlə tənzimlənməsi idxalın məhdudlaşdınıması şəraitində qarşılıqlı güzəşt ala bilər, ticarət tərəfmüqabil ölkələrdən təqibedici tədbirlərin ləğv edilməsinə nail ola bilər.

Çağdaş Azərbaycanın gömrük siyasətinə geopolitik ənənələr də təsir edir: belə ki, gömrük siyasətində təkcə ölkənin iqtisadi maraq-lanm deyil, eyni zamanda regionlann da iqtisadi maraqları nəzərə alınmalıdır.

Regionlann xüsusiyyətlərini nəzərə alaraq xarici kapitalla bağlı olan strukturların yaradılmasının məqsədəuyğunluqlanna diqqət yetirilməlidir.

Qeyd olunan məsələnin həlli üçün ən real tədbir ölkə prezidenti cənab İ.H.Əliyevin "Regionların sosial-iqtisadi inkişafının dövlət proqramı"nda (2003-2008-ci illər) öz əksini tapmışdır.

Gömrük siyasətində milli maraqların müdafiəsi onun bütün tə

sərrüfat subyektlərinin istehsal sferasında dəqiq gömrük -tarif mexanizmi vasitəsilə genişləndirilməsi müasir dövrdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətlərindəndir.

Azərbaycan gömrük sisteminin inkişafı ölkə iqtisadiyyatını tənzimləyən vacib institusion struktur kimi XXI əsrdə təkcə Azərbaycan iqtisadiyyatının vəziyyəti ilə deyil, dünya birliyi ilə müəyyənləşdirilməli olacaqdır. Aydındır ki, nə vaxt diplomatiya müharibəyə xidmət etmirsə, onda o ticarətə xidmət edir. Onda Azərbaycanın xarici siyasətinin əsas məsələsi ölkədə bacarıqlı gömrük siyasəti aparmaqla dünya bazarında Azərbaycan üçün xarici iqtisadi əlaqələri aktivləşdirməlidir. Beləliklə, bu şəraitdə Azərbaycanın xarici siyasətinin tərkib hissəsi olan gömrük siyasətinin məqsədi, vasitələri və yerinə yetirilməsi qaydaları XXI əsrdə aşağıdakı əlamətlərlə müəyyənləşdiriləcək:

- dünya birliyinin ümumi vəziyyəti, xüsusən də dünya iqtisadiyyatının inkişaf səviyyəsi ilə;
- Azərbaycan Respublikası iqtisadiyyatının vəziyyəti və onun sosial- iqtisadi inkişaf ənənəsi ilə;
- Azərbaycanın beynəlxalq əmək bölgüsü sistemində və dünya-təsərrüfat əlaqələrinin inkişafı, onun dünya birliyi ölkələri ilə qarşılıqlı əlaqəsi istiqamətində.

Perspektivdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi üçün daha davamlı, çevik və tamamilə təkmilləşdirilmiş mexanizm yaradılmasına ehtiyac olacaqdır. Xarici ticarət mübadiləsində qeyri-mütəşəkkil ticarəti, primitiv və qeyri-səmərəli forma kimi məhv etmək, barter formalı xarici ticarəti getdikcə azaltmaq, ölkədə daha qaydalı mal-pul mübadiləsi kimi ticarət formalarının inkişafına geniş meydan vermək. Bunlara dünya təcrübəsində mövcud olan qaydalara əməl etmək və onların bazar iqtisadiyyatı sahəsindəki geniş təcrübəsindən istifadə etməklə nail olmaq olar.

Dünya təcrübəsi göstərir ki, ölkə iqtisadiyyatının əhəngdar və davamlı inkişafının təmin edilməsi gələcəkdə Azərbaycan gömrük işinin prioritet və məqsədlərində dəyişiklik etməsi qaçılmazdır. Nə qədər ki, ölkənin iqtisadi funksiyada fiskal, requlyativ və hüquq

mühafizə aspektləri üstünlük təşkil edir. Maliyyə sisteminin XİF-dən gəlirləri daxili kənar vergilərdən müəyyənləşdiriləcəkdir. Dünya təcrübəsi də belədir. Davamlı bazar iqtisadiyyatı olan ölkə büdcəsinə gömrükdən gələn gəlirlər büdcənin 3-5%-ni ötmür, ancaq gömrük xidmətinə requlyativ və hüquqmühafizə aspektlərinə görə dayaq edilir. Hazırda isə bizim ölkədə gömrük xidməti xətti ilə büdcəyə 40%-ə qədər gəlir təşkil edir.

Bunlarla yanaşı qeyd etmək lazımdır ki, yarandığı zaman kəsiyində Azərbaycan gömrük xidməti ölkənin iqtisadi suverenliyinin, ölkənin təhlükəsizliyinin, daxili istehlak bazarının qorunmasında, sənaye və kənd təsərrüfatının qorunması və inkişaf etdirilməsində böyük təcrübə qazanmışdır. Azərbaycan gömrük xidmətinin "himayəsi" sayəsində Azərbaycan iqtisadiyyatının, ələxüsus neft sənayesi, neft emalı, dəmir və şossc yollarının tikintisi və s. inkişafındakı rolu inkaredilmizdir. Təcrübə var ondan səmərəli istifadə etmək lazımdır.

Gömrük siyasəti onun praktiki həyata keçirilməsi hər şeydən əvvəl gömrük orqanlarının fəaliyyətlərinə arxalanır. Gömrük xidməti gömrük siyasətinin yaradılması və həyata keçirilməsində institutsion bir vasitədir.

### 4. AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK ORQANLARININ STRUKTURU VƏ ONLARIN ƏSAS FUNKSİYALARI

Azərbaycan Respublikasında gömrük işi hüquq mühafizə orqanları olub vahid sistem təşkil edən gömrük orqanları tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Bütün gömrük tədbirlərinin (gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və s.) həyata keçirilməsi üçün xüsusi gömrük orqanları yaradılır.

Gömrük orqanları hüquq mühafizə orqanı olub (GM maddə 7)

vahid sistem təşkil edir. Bu sistemə aşağıdakılar daxildir:

-DGK;
- məhəlli, ixtisaslaşmış idarələr;
- gömrükxanalar;
- gömrük postları.

Gömrük sisteminə həmçinin Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanlarının gömrük işi sahəsində elmi-tədqiqat işlərinin aparılması, kadr hazırlığı və onların ixtisasının artırılması məqsədi ilə elmi tədqiqat müəssisələri, peşə-yönümlü təhsil-tədris müəssisələri, gömrük fəaliyyətinin yerinə yetirilməsinə kömək edən hesablama mərkəzləri, poliqrafiya, tikinti-inşaat idarələri, digər idarə və təşkilatlar daxil ola bilər.

**Azərbaycan Respublikası gömrük orqanlarının mövcud strukturu aşağıdakı sxemdə təsvir olmuşdur.**



Gömrük orqanları digər dövlət orqanlan, müəssisələr, qanunlar, təşkilatlar və vətəndaşlarla qarşılıqlı münasibətlər qurur.

Bütün sistemin həlqələri respublikaya aid olub, respublikanın yerli hakimiyyət subyektlərinə, yerli özünüidarəetmə və ictimai təşkilatlara tabe deyildirlər. Hər bir aşağı gömrük orqanı şaquli şəkildə onun fəaliyyətinə nəzarət edən yuxarı təşkilata tabedir.

Gömrük orqanlarının yerləşdirilmə məkanı səmişin-mal axınla-nnın, nəqliyyat təşkilatlarının, ayrı-ayrı regionlarda xarici iqtisadi əlaqələrin inkişaf intensivliyindən, ixrac və idxala tələbatdan, XİF-in digər iştirakçılarının həcmindən və digər amillərdən asılı olaraq müəyyənləşdirilir.

DGK-nə rəhbərliyi Azərbaycan Respublikasının prezidenti yerinə yetirir. DGK-nə sədri və onun müavinlərini təyin etmək Azərbaycan Respublikasının prezidentinin səlahiyyətindədir. Məhəlli, ixtisaslaşmış gömrük idarələrinin gömrükxana və gömrük postlarının rəislərini və digər vəzifəli şəxsləri DGK-nın sədri tərəfindən müəyyən edilmiş qaydada uyğun olaraq təyin edir və tutduqları vəzifələrdən azad edir.

Regional gömrük idarələrinin gömrükxana və gömrük postlarının yaradılması və ləğv edilməsi, həmçinin konkret gömrük orqanlarının həyata keçirdikləri funksiyaları, müəyyən gömrük əməliyyatlarının, həmçinin regionlarda gömrük orqanlarının fəaliyyətlərinə rəhbərliyi Azərbaycan Respublikasında DGK yerinə yetirir. Regional gömrük idarələri, gömrükxana və gömrük postları Azərbaycan Respublikası DGK tərəfindən təsdiq edilmiş qaydalarla fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası gömrük orqanları aşağıdakı əsas funksiyaları yerinə yetirir:

- ölkənin gömrük siyasətinin işlənib hazırlanmasında iştirak edir və bu siyasəti həyata keçirir;
- icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə olunmuş qanunvericilik aktlarına riayət edilməsini təmin edirlər, gömrük işini həyata keçirərkən idarələrin, müəssisələrin, təşkilatların və fiziki şəxslərin, həmçinin

hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görür;

- gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətini həyata keçirir və təkmilləşdirir. Gömrük sərhəddindən keçirilən mal dövriyyəsinin həyata keçirilməsini tezləşləşdirilmosinə şərait yaradırlar;

- gömrük rüsumlarını, vergiləri, antidenpinq, xüsusi və konpensasiya rüsumlarını, gömrük yığımlarını toplayır, göstərilən rüsum, vergi və yığımların düzgün hesablanması və vaxtında yığılmasına nəzarət edir, onların məcburi yığılması üçün tədbirlər görür;

- gömrük sərhəddindən malların və nəqliyyat vasitələrinin keçirilməsi qaydalarına riayət olunmasını təmin edirlər;

- Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi və gömrük sərhəddindən Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə əsasən keçirilən mallara qarşı qadağa və məhdudiyyətlərin müəyyən olunmuş qanunvericiliyə uyğun keçirilməsini təmin edir;

- öz səlahiyyətləri çərçivəsində intellektual mülkiyyətin hüquqlarını təmin edir;

- gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydalarının və vergi qanunvericiliyinin pozulmasına qarşı mübarizə aparırlar; narkotik vasitələrin, silahın, Azərbaycan xalqının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intelektual mülkiyyət obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların və bitki növlərinin, digər malların Azərbaycan Respublikası gömrük sərhəddindən qanunsuz keçirilməsinin qarşısını alırlar;

- beynəlxalq terrorluqla mübarizəyə və Azərbaycan Respublikasının təyyarə limanlarında beynəlxalq mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasına köməklik göstərirlər;

- öz səlahiyyətləri daxilində respublikanın iqtisadi təhlükəsizliyini təmin edir;

- xarici ticarətin gömrük statistikasını aparırlar;

- Azərbaycan Respublikasının valyuta tənzimlənməsi və valyuta nəzarəti haqqında qanunvericiliyə uyğun olaraq gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsi ilə əlaqədar

hiyyətləri daxilində valyuta nəzarəti əməliyyatını həyata keçirir;

- gömrük işi sahəsində elmi-tədqiqat işlərinin apanlması, kadr hazırlığı və onlann ixtisasının artınıması məqsədilə yaradılan elmi-tədqiqat müəssisələri, peşəyönümlü təhsil-tədris müəssisələri.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi hüquqi şəxsdir, onun üzərində Azərbaycan Respublikasının dövlət gerbi təsvir olunmuş və öz adı yazılmış girdə möhürü, müvafiq möhür və ştampları, banklarda və kredit təşkilatlarında manatla və valyuta ilə hesabları Azərbaycan Respublikası DGK öz fəaliyyətlərini digər respublika icra hakimiyyəti orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirirlər. Dövlət orqanları və onların səlahiyyətli, vəzifəli şəxsləri Azərbaycan Respublikası Gömrük orqanlarına onların üzərinə düşən vəzifələrin yerinə yetirilməsində köməklik göstərməlidirlər.

## 5. AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SƏRHƏDDİNDƏN MAL VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN KEÇİRİLMƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

Xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsinin hüquqi reqlamentləşdirilməsi (mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsi qaydası və şərtləri) bir sıra amillərdən asılı olaraq həmişə eyni olmur. Bu malın xarakteri (aksizli, ərzaq, "ikili təyinatlı mallar", müxtəlif enerji növləri və s.) və onların mənşəyi (sənayecə inkişaf etmiş ölkələr, MDB ölkələri), gömrük proseduru nəqliyyat növü (dəmir yolu, avtomobil, hava və ya dəniz) və s. çox asılıdır. Ancaq bütün növ mal və şəxslər və onları keçirənlər üçün fundamental hüquqi tələblər Azərbaycan Respublikası Gömrük Məcəlləsinin IX bölməsinin XX fəslində mal və nəqliyyat vasitələrinin keçirilməsinin əsas prinsipləri verilir.

Belə prinsiplərə aid edilir:

Bütün şəxslərin bərabər əsaslarla mallan və nəqliyyat vasitələrini Azərbaycan Respublikasına gotinnək və Azərbaycan Respublikasından aparmaq üçün bərabər hüquqlara malik olması. Bunun mahiyyəti ondan ibarətdir ki, bütün fiziki və hüquqi şəxslər bərabər

əsaslarla Azərbaycana mal və nəqliyyat vasitələrini gətirə və oradan apara bilərlər. Bu hüquq Azərbaycan Respublikasının normalarına uyğundur. Daha doğrusu Azərbaycan vətəndaşlığına mənsubiyyətindən asılı olmayaraq Azərbaycandan kənara sərbəst gedə bilər, Azərbaycan vətəndaşı isə heç bir maneə olmadan qayıda bilər (Azərbaycan Respublikası Konstitusiyası maddə 2) və həmçinin hər kəs öz bacanq və əmlakından sahibkarlıq fəaliyyəti üçün, o cümlədən, xarici iqtisadi sferadan sərbəst istifadə etmək hüququ vardır.

Mal və nəqliyyat vasitələrinin keçirilməsinə hüquqi bərabərlik onların malın sahibi olmasından, onun alıcısı, sahibi və digər keyfiyyətdə çıxış etməsindən asılı olmayaraq öz adından qanunvericilikdə nəzərdə tutulmuş qaydada malla fəaliyyəti tamamlamağa lazımi qədər imkanı olan bütün şəxslər tanınır və qəbul edilir. Heç kim Azərbaycana mal gətirmək və oradan mal və nəqliyyat vasitələrini ixrac etmək hüququ və ya hüququnun məhdudlaşdınimasına məruz qala bilməz. Yalnız Azərbaycan Respublikası Gömrük Məcəlləsi və Azərbaycanın digər qanunvericilik aktlannda nəzərdə tutulmuş hallar istisna edilməklə.

Bununla yanaşı gömrük qanunvericiliyi normaları ilə müəyyənləşdirilmişdir ki, bütün xarici iqtisadi fəaliyyət iştirakçıları məcburi qaydada gömrük orqanlannda qeydiyyatdan keçməlidirlər.

Xarici iqtisadi fəaliyyət iştirakçılarının uçot qaydalan Azərbaycan Respublikası DGK-nın əmri əsasında müəyyənləşdirilir.

XİF iştirakçılarının uçotunun məqsədi:

- Azərbaycan Respublikasının gömrük sərhəddini mal və nəqliyyat vasitələrinin keçirilməsi ilə əlaqədar xarici iqtisadi fəaliyyətlə məşğul olan orqanların, şəxslərin indentifikasiyasım həyata keçirmək;

- gömrük orqanlannda obyektiv informasiyanın operativ alınması və informasiya ehtiyatlarının sonrakı inteqrasiyası üçün vahid informasiya bazasının "XİF iştirakçıları" məlumatlarının hazırlanması;

- gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti bölmələrini

və tətbiqi üçün informasiyalaşdırma və bələdləşdirmə (orientasiya).

Gömrük orqanlarında xarici iqtisadi fəaliyyətlə məşğul olan hüquqi şəxslər və hüquqi şəxs təşkil etmədən sahibkarlıqla məşğul olan bütün şəxslər üçün uçot həyata keçirilir. Uçotun qaydası belədir: XİF iştirakçısı gömrük rəsmiləşdirilməsindən əvvəl, ərizə ilə özünün dövlət registrasiyası yerində uçota alınması və ona XİF iştirakçısı uçot kartının verilməsi haqqında müraciət etməlidir.

XİF iştirakçısına aşağıdakı hallarda uçot kartının verilməsindən imtina edilə bilər:

- gömrük orqanlarına sənədlər komleksinin tam verilməməsi və ya sənədlər lazımi məlumatlara malik olmadıqda;
- təşkilatın rəhbərliyinin cinayət törətməsi haqqında digər hüquq mühafizə orqanları tərəfindən informasiya daxil olduqda;
- digər nəzarətedici orqanlardan vergi, valyuta və digər nəzarət işləri apararkən qanun pozuntularını təsdiqləyən informasiyalar alındıqda;
- rəsmiləşdirici orqanlardan mövcud təşkilatın ləğv olunma mərhələsində olması haqqında informasiya alındıqda.

Uçot kartı XİF iştirakçısının gömrük orqanları ilə hüquqi münasibətlərini həyata keçirərkən XİF iştirakçılarına gömrük rəsmiləş- dirilməsinin bütün hallarında yeganə identifikasiya sənədidir. Bu vaxtı (bu Azərbaycan Respublikası DGK -nın əmrində əks olunur). XİF iştirakçısında uçot kartı yoxdursa onun mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsinə imtina edilməsinə haqq verir. Sadəcə olaraq onun olması (xüsusilə əgər gömrük rəsmiləşdirilməsi XİF iştirakçısının qeydiyyat yerində aparılmırsa) belə halda gömrük orqanına gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin tezləşdi- rilməsi üçün xeyli sənədlərin təqdim edilməsindən yan keçir.

Bir sıra malların idxal-ixracının qadağan edilməsi mümkünlüyü bu Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 227-ci maddəsində öz həllini tapmışdır. Orada qeyd edilir ki, dövlət təhlükəsizliyinin, ictimai əsayişin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvanların və bitkilərin ətraf

xeoloji sərvətlərinin mülkiyyət hüququnun, o cümlədən, intelektual mülkiyyət obyektlərinin, gətirilən malların Azərbaycan istehsalçılannın mənafeinin qorunması baxımından və Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının başqa maraqları nəzərə alınaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının beynəlxalq müqavilələri əsasında ayrı-ayrı malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına gətirilməsi və ya Azərbaycan Respublikasında aparılması qadağan edilir.

Qadağan olunmuş mallar və nəqliyyat vasitələri gətirilərkən və apanlarkən, əgər bu mallar və nəqliyyat vasitələrinin müsadirə edilməsi nəzərdə tutulmamışsa, onlar müvafiq olaraq dərhal Azərbaycan Respublikası ərazisindən çıxarılmalı və ya Azərbaycan Respublikasının ərazisinə qaytarılmalıdır.

Mallar və nəqliyyat vasitələri, onları gömrük sərhəddindən keçirən şəxs və ya daşıyıcı tərəfindən öz hesabına Azərbaycan Respublikası ərazisindən çıxarılır və ya Azərbaycan Respublikası ərazisinə qaytarılır. Mallar və nəqliyyat vasitələrini dərhal Azərbaycan Respublikası ərazisindən çıxarmaq və ya bu əraziyə qaytarmaq mümkün olmadıqda Azərbaycan Respublikası gömrük orqanlarının müvəqqəti saxlanc anbarına saxlanca verilir. Bu cür mallar və nəq- liyyət vasitələrinin göstərilən anbarlarda saxlanc müddətinin son həddi üç gündür.

Saxlanc müddəti son həddi keçmiş mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət mülkiyyətinə keçirilir və yaxud məhv edilir.

Mövcud fəaliyyətdə olan qanunvericiliyə (GM XXXIX fəsil 226-cı maddə) görə Azərbaycana gətirilməsi qadağan olan mallar aşağıdakılardır:

1. Hərbi (nümunəli) modelli hər cür silah və onlar üçün ehtiyatlar;

2. Narkotik və psixotrop maddələr və həmçinin opium və haşiş;

3. İntelektual fəaliyyətin (kino, foto audio və video materiallar, EVM-lər üçün maqnit informasiyasının daşıyıcılan və çap məhsul-

lari) dövlət quruluşunun çevrilməsinə, ərazi bütövlüyünə, dövlət suverenliyinə, faşizmin təbliğinə, sosial, irqi, milli və dini ayrıseçkilik hissləri oyadan, həmçinin pamoqratik və vulqar erotik məzmunlu məhsulları;

4. Azərbaycan ərazisində basdırmaq və yandırmaq üçün təhlükəli tullantılar;

5. Ozonpozucu və tərkibində ondan olan maddələr.

Azərbaycan Respublikası ərazisindən apanlması qadağan olan mallar:

1. Hər cür hərbi modelli silahlar, onlar üçün ehtiyatlar və hərbi mərmilər;

2. Narkotik və psixotrop maddələr;

3. Ləğv edilmiş qiymətli kağızlar;

4. İncəsənət əsərləri və tarixi əşyalar, intelektual fəaliyyətin digər xüsusi bədii, tarixi, elmi və digər mədəni dəyərlər təşkil edən məhsullar;

5. Azərbaycanın qüdrətinə və vətandaşlarının hüquqlarına zərər gətirən məlumatlar olan materiallar;

6. Dağ kəli, maral, xallı maralların buynuzlan və xallı maralların dərisi.

Bir sıra hallarda yuxarıda saydığımız Azərbaycana gətirilməsi və Azərbaycandan aparılmasının gömrük sərhəddindən keçirilməsi qadağan olunmuş mallar əlaqədar nazirliklər və müəssisələrin (Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və bir sıra başqa) xüsusi icazəsi ilə keçirilə bilər.

Göstərilən mal və nəqliyyat vasitələri əgər müsadirəyə məruz qalmayıbsa, təcili Azərbaycan Respublikası ərazisindən çıxarılmalı və ya yenidən Azərbaycan Respublikası ərazisinə qaytarılmalıdır. Malların və nəqliyyat vasitələrinin qaytarılması malları keçirən şəxs və daşıyıcı tərəfindən öz hesabına olmaqla həyata keçirilir.

Mallann təcili çıxanimasının mümkün olmadığı və gecikdirildiyi halda mal və nəqliyyat vasitələri saxlanılmaq üçün müvəqqəti sax

lanc anbanna verilir və sahibi Azərbaycan Respublikası gömrük orqanları olur.

Belə anbarlarda malın saxlanılmasının son həddi üç gündür.

Ayrı-ayn malların idxal və ixracı ümumi qadağalarla yanaşı beynəlxalq öhdəliklərlə əlaqədar Azərbaycan Respublikası konkret ölkə və ya qrup ölkələrə xarici ticarət əlaqələrinin həyata keçirilmələrinə qadağa qoya bilər. Onda bütün malların bu ölkələrdən Azərbaycana gətirilməsi, həmçinin Azərbaycan mallarının həmin ölkələrə ölkənin gömrük sərhəddindən keçirilərək aparılması mümkün deyildir.

## Yoxlama sualları

1. "Gömrük işi" və "gömrük siyasəti" arasındakı münasibət anlayışı?
2. Gömrük tənzimlənməsi didikdə nə başa düşülür?
3. Gömrük işinin elementləri hansılardır?
4. Gömrük işi hansı məqsədi güdür?
5. Azərbaycan gömrük qanunvericiliyi özündə nələri birləşdirir?
6. Azərbaycan Respublikası GM (2011-ci il) əsas xarakter cəhətləri hansılardır?
7. Azərbaycan Respublikası "Gömrük tarifi haqqında" qanunu nəyi müəyyənləşdirir?
8. Hansı əraziləri gömrük ərazisi adlandımıaq olar?
9. Gömrük sərhəddi, dövlət sərhəddindən nə ilə fərqlənir?
10. Hansı ümumi qəbul edilmiş anlaşma hallarında nəqliyyat vasitələri gömrük qanunvericiliyə görə o qaydada anlaşılmır?
11. Mal və nəqliyyat vasitələrinin gömrük sərhəddində yerdəyişməsi dedikdə nə anlaşılır?
12. Azərbaycan Respublikası gömrük siyasətinin məqsədi və o kim tərəfindən müəyyənləşdirilir?
13. Hər hansı ölkənin proteksionist gömrük siyasətinin məqsədi və belə siyasət necə xarakterizə olunur?
14. Azərbaycan Respublikasının dövlət orqanları içərisində gömrük orqanları hansı yeri tutur?

15. Azərbaycan Respublikasının Gömrük orqanının müəyyənləşdirilməsini verin və onun həlqələrini say?
16. Gömrük məqsədləri ilə baxılan mal hansı ümumi əlamətləri ilə xarakterizə olunur?
17. Hansı amillər mala Azərbaycan malı olma statusunu verir?
18. Mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsinin əsas prinsipləri
19. İqtisadi və qeyri-iqtisadi qadağa və məhdudiyyətlər arasında nə kimi fərqlər var?
20. Seçilmiş gömrük prosedurundan asılı olaraq hansı iqtisadi və qeyri-iqtisadi qadağa və məhdudiyyətlər tətbiq edilir?

Mövzu 2. Test tapşırığı

**1.** Azərbaycan Respublikası Gömrük ərazisinə daxildir:
a) Azərbaycanın quru ərazisi;
b) Azərbaycan Respublikasının müstəsna iqtisadi zonasında yerləşən qurğu və tikililəri;
v) xüsusi iqtisadi zonaların əraziləri;
q) Azərbaycan Respublikasının xaricdə olan səfirliklərinin və diplomatik nümayəndəliklərinin ərazisi; d) Azərbaycan Respublikasının ərazi və daxili sulan.

**2.** Gömrük işi özündə birləşdirmir (Gömrük işinə aid deyildir).
a) gömrük prosedurlan;
b) gömrük tarif tənzimlənmələri və gömrük ödənişlərinin alınması;
v) gömrük nəzarəti;
q) bank nəzarəti; d) gömrük rəsmiləşdirilməsi;
c) valyuta tənzimlənmələri;

**3.** Gömrük işinin iqtisadi məqsədinə nail olma vasitələr:
a) idxal və ixrac mallarına qadağa və məhdudiyyətlərin müəyyənləşdirilməsi ilə;
b) lisenziyalaşdırma ilə;

v) gömrük ödəmələrinin alınması və dövlət büdcəsinin doldurulması ilə;
q) ixrac və idxal rüsum dərəcələrinin müəyyənləşdirilməsi ilə;

**4. Azərbaycan Respublikasıda gömrük işinə ümumi rəhbərlik həyata keçirilir:**
a) Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Hökuməti;
b) Milli Məclis;
v) Azərbaycan Respublikasının FHN;
q) Azərbaycan Respublikası DGK;
d) Azərbaycan Respublikası Sərhəd qaşunlan tərəfindən.

**5. Əvvələr gömrükdən keçirilmiş ikinci bazardan sizin tərəfinizdən tam qanuni əsaslarla Azərbaycan Respublikası əzazi- sində dörd il sürülmüş “Ford” markalı avtomobilinə Azərbaycan Respublikası gömrük qanunvericiliyinə görə necə baxılır.**
a) xarici mal;
b) Azərbaycan malı;
v) xarici mənşəli Azərbaycan malı;
q) müvəqqəti idxal olunmuş mal; d)
təkrar idxal olunmuş mal

**6. Azərbaycan Respublikası gömrük orqanlarının vahid sistemina daxildir:**
a) Azərbaycan Hökuməti;
b) DGK xidməti;
v) regional gömrük idarələri;
q) gömrük məntəqələri; d)
gömrük postları.

**7. Gömrük orqanlarmm üzərinə hansı təminat funksiyalan düşür:**
a) gömrük nəzarəti, gömrük nəzarətinin həyata keçirilməsi və

b) kadr funksiyası;
v) xarici iqtisadi fəaliyyətin mal nomenklaturasını aparmaq; q) maliyyə - plan funksiyası; d) maddi - texniki funksiya;
c) təşkilati xarakterli digər funksiya.

**8. Gömrük işində mal adı altında nə başa düşülür:**
a) bütün alqı-satqı əşyaları;
b) gömrük sərhəddindən keçirilən daşınan mülk, əmlak, həmçinin gömrük sərhədindən keçirilən daşınmaz əmlaka aid olan nəqiliyat vasitələri;
v) bütün daşınan əmlak, valyuta dəyərləri, nəqiliyyat vasitələri, enerji;
q) satiş üçün gömrük sərhəddindən keçirilən mallar.

**9. Azərbaycan Respublikasında hansı qanun gömrük tarifinin yaranması və tətbiqi qaydalarını müəyyənləşdirir:**
a) Azərbaycan Respublikası Gömrük Məcəlləsi;
b) "Gömrük tarifi haqqinda" qanun;
v) "Xarici iqtisadifaliyyətin tənzimlənməsi haqqında" qanun;
q) "İxraca nəzarət haqqında" qanun.

**10. Gömrük sərhəddindən malların qanunsuz keçirilməsi zamanı gömrük işində Azərbaycan Respublikasının hansı qanunvericilik aktları tətbiq olunur?**
a) malların gömrük sərhəddindən faktiki keçirilmə anında faliyyətdə olan;
b) gömrük qanunvericiliyinin pozulduğu anda fəaliyyətdə olan; v) fəaliyyətdə olan gömrük qanunvericiliyi;
q) fəaliyyətdə olan bütün gömrük qanunvericiliyi.

**11. Azərbaycan Respublikası gömrük sərhəddindən malların və nəqilliyat vasitələrini keçirilməsi nə deməkdir?**
a) Azərbaycan Respublikası gömrük sərhəddindən mal və nəqilliyat vasitələrinin faktiki keçirilməsi;

b) malların idxal və ixracı üçün sənədlərin təqdim edilməsi; v) mal və nəqliyyat vasitələrinin Azərbaycanın gömrük sərhəddin- dən faktiki keçirilməsi və ya Azərbaycan Respublikası gömrük sərhəddindən malların nəqliyat vasitələrinin ixrac edilməsi üçün sənədlərin təqdim edilməsidir;

q) mal və nəqliyyat vasitələrinin keçirilməsi üçün gömrük bəyannaməsini təqdim etdiyi an.

**12. Azərbaycan Respublikası gömrük qanunvericiliyi hansı münasibətləri tənzimləyir?**

a) mal və nəqliyyat vasitələrinin Azərbaycanın gömrük sərhədindən keçirilməsi ilə əlaqədar qaydaların gözlənilməsini;

b) Azərbaycan Respublikası gömrük işi sahəsində münasibətləri;

v) xarici ticarətə aid münasibətlərin;

q) ixracın stimullaşdınıması.

**13. Gömrük işində Azərbaycan mallan dedikdə nə başa düşülür?**

a) Azərbaycan Respublikası ərazisində istehsal edilmiş (çıxanimış) mallar;

b) Azərbaycan Respublikası ərazisində sərbəst dövriyyəyə buraxılmış mallar;

v) Azərbaycan Respublikası gömrük ərazisində gömrük məqsədləri üçün sərbəst dövriyyə statusunda olan mallar;

**14. Qeyri-iqtisadi qadağa və məhdudiyyətlər necə tətbiq edilir?**

a) seçilmiş gömrük prosedurundan asılı olaraq;

b) bəyan edilmiş gömrük prosedurundan asılı olmayaraq;

v) “ ixrac” və gömrük ərazisində emal gömrük prosedurlan çərçivəsində;

q) idxal və gömrük ərazisindən kənarda emal gömrük proseduru çərçivəsində.

**MÖVZU 3.**
**GÖMRÜK İNFRASTRUKTURU VƏ ONUN GÖMRÜK SİSTEMİNDƏ ROLU**

1. Azərbaycan gömrük sistemində infrastrukturun birləşdirici elementləri və onların təyinat məqsədləri. Gömrük brokeri haqqında anlayış və onun statusu.
2. Gömrük daşıyıcıları, onların rolu və statuslan, fəaliyyətlərinin tərkibi.
3. Gömrük infrastrukturunun tərkibində gömrük anbarları.
4. Müvəqqəti saxlama proseduru. Müvəqqəti saxlanc anbarları.
5. Gömrük infrastrukturunun gömrük sisteminin fəaliyyətinə təsiri.

### 1. AZƏRBAYCAN GÖMRÜK SİSTEMİNDƏ İNFRASTRUKTURUN BİRLƏŞDİRİCİ ELEMENTLƏRİ VƏ ONLARIN TƏYİNAT MƏQSƏDLƏRİ. GÖMRÜK BROKERİ HAQQINDA ANLAYIŞ VƏ ONUN STATUSU

Gömrük infrastrukturuna gömrük orqanlarının köməkçi bölmələri aid edilir. Onların bir hissəsi onlarla bağlanmış müqavilə əsasında, əsasən gömrük orqanları bölmələrinə müxtəlif vasitəçilik xidmətləri göstərən kommersiya təşkilatlarıdır. Əsasən gömrük infrastrukturuna gömrük brokerləri, gömrük daşıyıcıları və gömrük anbarları aid edilir. Digər gömrük infrastrukturları obyektlərinə-rüsumsuz ticarət mağazaları, gömrük laboratoriyaları, elmi-tədqiqat və təhsil müəssisələri, məsləhət firmaları daxildir. Gömrük infrastrukturunun üzərinə XİF iştirakçılarının gömrük sənədlərinin hazırlanmasına, hüquq məsləhətlərinin, müşaiət olunmayan baqajın qəbulu, saxlanılması və rəsmiləşdirilməsinə dair vasitəçilik işləri düşür. Bunlann içərisində daha böyük yer aktual peşəkar vasitəçilik fəaliyyəti tutur. Gömrük hüquq münasibətləri sahəsində belə fəaliyyəti gömrük brokeri həyata keçirir. Xarici ticarət yüklərinin rəsmiləşdirilməsi zamanı o gömrüklə XİF iştirakçıları arasında əlaqələndirici rolunda çıxış edir.

Gömrük brokeri təmsilçisi gömrük brokerləri reyesterinə salın-

mış azərbaycanın hüquqi şəxsi kimi tanınır (şəxsi müəssisələr istisna olmaqla).

Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanlanndan lisenziya almış hüquqi şəxs olan müəssisələrin gömrük brokeri təmsilçisi ola bilər (GM maddə 23).

Gömrük brokerləri, reyesterinə salınma Azərbaycan Respublikası Gömrük Məcəlləsinin müəyyən etdiyi tələblərə cavab verən ərizə əsasında aparılır. Ərizəyə orada göstərilənləri təsdiqləyici sənədlər əlavə edilir.

Təşkilatların gömrük brokeri Reyesterinə salınmasının əsas şərtləri aşağıdakılardır:

- ərizə verənin ştatında iki nəfərdən az olmayaraq gömrük rəsmiləşdirilməsi üzrə ixtisas atestatı olan mütəxəssisin olması;
- ilkin yaradılmış nizamnamə kapitalının, nizamnamə fondu və ya ərizəçinin səhmdarlarının üzvülik haqlarının mövcudluğu;
- gömrük Ödəmələrinin təmin edilməsi üçün maliyyə vəsaitinin olması;
- özünün vətəndaşlıq öhdəliyini sığorta riski üçün tələb olunan miqdarda maliyyə vəsaitinin olması haqqında müqavilənin olması.

Gömrük brokeri reyesterinə salınma şəhadətnaməsinin fəaliyyət müddəti məhdudiyyətsizdir, ancaq qanun pozuntuları olarsa və ya dəfələrlə öz vəzifələrini yerinə yetirmədikdə şəhadətnamə geri alma bilər.

Gömrük brokeri reyesterinə salınması haqqında Azərbaycan Respublikası DGK-si tərəfindən verilən şəhadətnamə, gömrük broke- rinin bu sahədə səlahiyyətli olmasını təsdiq edir.

Gömrük brokeri azərbaycan ixracatçısının (idxalçısının) köməkçisi kimi çıxış edir. Azərbaycan ixracatçısı (idxalçısı) gömrük bro- kerinə müraciət etdikdə o arxayın olur ki, bütün gömrük prosedurları gömrük rəsmiləşdirilməsi ilə yüksək mütəxəssislik səviyyəsində, yerinə yetiriləcəkdir.

Gömrük brokerinin təmsil etdiyi şəxslə (Azərbaycan ixracatçısı və idxalçısı ilə) qarşılıqlı münasibətləri müqavilə əsasında qurulur.

Gömrük brokerinin tələb olunan xidmət və işlərin yerinə yeti

rilməsi üçün müqavilə bağlamaqdan imtina etməyə haqqı yoxdur. Müqavilənin tipik formasını Azərbaycan Respublikası DGK müəyyənləşdirir.

Gömrük brokeri gömrük rəsmiləşdirilməsi və gömrük işi sahəsində təmsil etdiyi şəxsin hesabına və onun tapşırığı ilə digər vasitəçilik funksiyalarını yerinə yetirə bilər.

Gömrük brokerinin fünksiyalanna aid edilir: -mal və nəqliyyat vasitələrinin bəyan edilməsi; gömrük orqanına gömrük məqsədləri üçün sənəd və məlumatları təqdim etmək; bəyan edilən yüklərin təqdim edilməsi; gömrük ödəmələrinin ödənilməsini təmin etmək.

Gömrük əməliyyatlannı apardığı zaman gömrük brokeri ona bu səlahiyyətləri verən şəxs qədər hüquqlara malikdir. Gömrük brokerinin haqqı vardır: mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi zamanı prosesdə iştirak etmək; gömrük orqanı qarşısında gömrük rəsmiləşdirilməsinin həmin orqanın iş vaxtından sonra və gömrük rəsmiləşdirilməsini sadələşdirilmiş qaydada aparılması haqqında məsələ qaldıra bilər; gömrük orqanı qarşısında gömrük ödənişlərinin ona səlahiyyətləri verən şəxsin adından yerinə yetirilməsi üçün öhdəlik götürməyə; onlardan artıq alınmış gömrük ödəmələrinin geri qaytanlmasmı tələb etməyə; gömrük bəyannaməsində göstərilən məlumatlan dəyişdirməyə və ya tamamlamağa.

Gömrük brokerinin adından gömrük rəsmiləşdirilməsini həyata keçirmək hüququna gömrük rəsmiləşdirilməsi üzrə Azərbaycan Respublikası DGK-nın ixtisaslaşma atestatı olan mütəxəssis malikdir. Gömrük rəsmiləşdirilməsi zamanı Azərbaycan Respublikası gömrük orqanları tərəfindən alınmalı gömrük ödənişlərinə görə gömrük brokeri malın sahibi qədər məsuliyyət daşıyır. Gömrük brokerinin digər vəzifələrini Azərbaycan Respublikası GM-si müəyyənləşdirir (GM maddə 22).

Gömrük brokeri onun təmsil etdiyi şəxsdən gömrük rəsmiləşdirməsi üçün lazım olan sənəd və məlumatları, o cümlədən kommersiya, bank və ya qanunla məxvi olan informasiyalan tələb etmək, həmin sənəd və məlumatları Azərbaycan Respublikası GM-

gömrük brokerinin həmin informasiyanı yaymaq, öz məqsədlori naminə istifadə etmək ixtiyarı yoxdur. Respublika qanunlarında göstərilən hallar istisna edilməklə.

Gömrük brokeri onun tərəfindən aparılan gömrük əmliyyatları haqqında uçot aparmağa və yekunlaşdırılmış gömrük əməliyyatları haqqında gömrük orqanına hesabat verməyə borcludur.

## 2. GÖMRÜK DAŞIYICILARI, ONLARIN ROLU VƏ STATUSLARI, FƏALİYYƏT TƏRKİBİ

Gömrük infrastrukturu obyektləri ilə yanaşı gömrük xidməti göstərən gömrük daşıyıcısı da ora daxildir. Belə xidmət növünə tələbatın meydana gəlməsi Azərbaycan gömrük ərazisinə malların idxal və ixrac olunması ilə əlaqələndirilir. Gömrük daşıyıcısı gömrük ərazisi hüdudlarında, gömrük nəzarəti altında olan malların daşınmasını həyata keçirir. O, gömrük reyestrinə daxil edilmiş Azərbaycan Respublikasının hüquqi şəxsi (Azərbaycan nəqliyyat təşkilatı) ola bilər (GM. Maddə 28).

Özünün ərazi fəaliyyət miqyasından asılı olaraq gömrük daşıyıcısı ola bilər:

-ümumrespublika (bütün Azərbaycan Respublikası üzrə mal daşınmasını planlaşdıran və yaxud regionlar çərçivəsində iki və daha çox regional gömrük idarəsi arasında);

-regional (bir regional gömrük idarəsinin bütün gömrük orqanları arasında mallann daşınmasını planlaşdıran).

Nəqliyyat xidmətləri gömrük daşıyıcısının statusundan kənara çıxa bilər. Məsələn, malların Azərbaycan Respublikası gömrük ərazisi ilə daşınması ilə yanaşı nəqliyyat təşkilatı yüklərin beynəlxalq daşınmsı ilə, o cümlədən, 1975-ci il Beynəlxalq Yük Daşımaları Konvensiyası əsasında məşğul ola bilər.

Gömrük daşıyıcısının münasibəti malı göndərən və ya ekspeditorla müqavilə əsasında qurulur. Gömrük daşıyıcısı əgər malların daşınması üçün bütün əsaslar varsa, onun malların daşınması üçün müqavilə bağlamaqdan imtina etməyə hüququ yoxdur. Bir qayda

olaraq qeydə alınmış gömrük daşıyıcılannın siyahısı gömrük orqanlannda vardır və əlçatandır.

Gömrük daşıyıcılannın şəhadətnamə almalan üçün reyestrə salınmasının müəyyən qaydaları mövcuddur. Bu halda Azərbaycan nəqliyyat təşkilatından tələb olimur:

- yüklərin daşınması fəaliyyətinin iki ildən az olmayaraq həyata keçirilməsini;
- gömrük qanunvericiliyinə uyğun olaraq gömrük ödəmələrinin ödənilməsini;
- yüklərin daşınması haqqında fəaliyyətin həyata keçirilməsi üçün lisenziyanın olmasını;
- sərəncamında (xüsusi, təsərrüfat istifadəsi üçün, operativ idarəetmə və ya arendasında) nəqliyyat vasitələrinin olmasını, o cümlədən, gömrük möhür və plombları altında malların daşınması üçün yararlılığını;
- öz vətəndaşlıq cavabdehliyi riski üçün sığorta müqaviləsinin mövcudluğunu (qanunvericiliyin tələblərinə uyğun sığorta məbləğinin olması).

Nəqliyyat təşkilatı şəhadətnamə almaq üçün ərizə ilə Azərbaycan Respublikası GM-sinin müəyyən etdiyi gömrük təşkilatına müraciət etməlidir.

Ərizəyə yüklərin daşınmasınm həyata keçirilməsi üçün Azərbaycan Respublikası qanunvericiliyinə uyğun lisenziya, həmçinin həmin ərizədə göstərilənləri təsdiq edən sənəd daxil edilməlidir.

Şəhadətnamənin fəaliyyət müddəti 5 ildir.

Şəhadətnamə gömrük daşıyıcısı tərəfindən reyestrə daxil edilmiş hər hansı bir şərti yerinə yetirməkdə, həmçinin gömrük daşıyıcısının öz vəzifəsini bir neçə dəfə yerinə yetirmədiyi üçün inzibati cavabdehliyə cəlb edildiyi hallarda geri alına bilər.

Gömrük daşıyıcısı borcludur:

- Azərbaycan Respublikası GM gömrük nəzarəti altında olan malların daşınmasına aid tələb və şərtlərin gözlənilməsinə;
- gömrük nəzarəti altında olan malların daşınması haqqında uçot aparmaq və belə malların daşınması haqqında uçotu gömrük orqan-

lanna təqdim etməlidir;

- Azərbaycan Respublikası GM nəzərdə tutulmuş gömrük rüsum və vergilərini ödəməli;

- mallan göndərəndən, alıcı və ekspeditordan aldığı informasiyaların konfidensiallığını gözləməli.

Gömrük daşıyıcısı gömrük orqanının qərarı ilə də malları daşıya bilər. Bununla əlaqədar gömrük daşıyıcısının xidmətindən istifadə könüllü və məcburi ola bilər. Əgər xarici iqtisadi fəaliyyət iştirakçısı gömrük orqamnm icazəsi ilə gömrük daşıyıcısının xidmətindən şəxsi arzusu ilə istifadə edirsə, belə istifadə könüllü sayılır. Məcburi istifadə o vaxt mümkündür ki, gömrük orqanının cavabdeh vəzifəli şəxsi gömrük qaydalarının pozulması haqqında əlində əsaslı sübutlann olduğu halda adi daşıyıcı və onun nəqlİ50^at vasitəsinin gömrük qanunvericiliyi normalarının gözlənilməsinə zəmanət verə bilmir və bu hərəkətə yol verilir.

Gömrük nəzarəti altında olan malların daşınmasında olan xərclər, daşıyıcı, göndərən, alıcı arasında bölüşdürülür.

### 3. GÖMRÜK İNFRASTRUKTURUNUN TƏRKİBİNDƏ GÖMRÜK ANBARLARI

Gömrük təyinat fəaliyyəti regionunda yerləşən anbarlar, gömrük nəzarəti altında keçirilən malların yerləşdirilmə yeridir:

- Azərbaycan Respublikası ərazisinə istifadə üçün gətirilən xarici mallar;
- Azərbaycan Respublikası ərazisinə tranzitlə gətirilmiş və boşaldılıb - yükləməyə məruz qalan xarici mallar;
- anbarlararası yeri dəyişdirilən mallar.

Azərbaycan Respublikası Gömrük Məcəlləsində (GM maddə 187) gömrük rüsum və vergiləri ödənilmədən, onlara qarşı iqtisadi xarakterli qadağa və məhdudiyyətlər tətbiq edilmədən, müəyyən vaxt müddətində malların saxlanılması üçün üç tipdə anbarlar nəzərdə tutulmuşdur:

- sərbəst anbarlar;
- gömrük anbarları;

- müvəqqəti saxlanc anbarlan.

Sərbəst anbar-gömrük proseduru zamanı xarici mallar Azərbaycan Respublikası ərazisinə (sərbəst anbarın yerləşdiyi yerə) avtomobil nəqliyyatı vasitələri və avtomobil komponentləri istehsalı və sonradan Azərbaycan Respublikası gömrük ərazisində sərbəst dövriyəyə buraxmaq məqsədilə gətirilir.

Xarici mallar-Azərbaycan Respublikası ərazisinə istehsal olunmuş avtomobil vasitələri və avtomobil komponentləri gətirilən zaman (Azərbaycan Respublikası gömrük ərazisində sərbəst dövriyyə üçün sərbəst gömrük anbarından buraxılan) gömrük rüsumları, vergilərdən azad olunurlar (bununla yanaşı dəyər və miqdar məhdudiyyətlərini gözləməklə) Azərbaycan Respublikası ərazisində istehsal olunmuş avtomobil nəqliyyatı vasitələri və avtomobil komponentləri realizə olunan zaman Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş qaydada vergiyə məruz qalırlar.

Hər bir ölkənin siyasəti xüsusən ayrıca zəif inkişaf etmiş regionların iqtisadi cəhətdən saxlanılmasına istiqamətlənmişdir. Belə siyasətin realizə olunması vasitəsi müxtəlif növ sərbəst zonaların yaradılmasıdır. Gömrük qanunvericiliyində sərbəst gömrük zonalan və sərbəst anbarlar analoji hüquqi statusa malikdir. Bu prosedurda yerləşdirilən xarici mallar uyğun ərazi sərhədlərinə və ya binalara malik olurlar və onlardan gömrük vergi və rüsumlan alınmır. Azərbaycan malları ixrac zamanı uyğun gömrük proseduralarından istifadə edir və həmin şəraitdə yerləşdirilir. Belə uyğun gömrük proseduralarının yaradılmasında məqsəd ayrı-ayn rayonların iqtisadiyyatlarının canlandınıması və inkişafına xidmət edir.

Sərbəst gömrük zonası və sərbəst anbarların əraziləri Azərbaycan Respublikası gömrük ərazisinin bir hissəsidir. Sərbəst ticarət zonaları və sərbəst anbarlarda mallarla istehsal və kommersiya əməliyyatları aparılmasına icazə verilir. Pərakəndə satışa isə icazə verilmir. Lazımi qədər əsas olduğu zaman Azərbaycan Respublikası gömrük orqanları sərbəst gömrük zonaları və anbarlarda gömrük nəzarəti apara bilərlər. Sərbəst gömrük zonalan Azərbaycan

Respublikası Dövlət Gömrük Komitəsinin lisenziyası ilə Azərbaycan Respublikası vətəndaşları tərəfindən yaradıla bilər. Sərbəst anbarın sahibi anbarda yerləşən malların gömrük nəzarətindən başqa heç kimə ora daxil olmasına icazə verməməlidir; gömrük nəzarətinin həyata keçirilməsinə maneçilik törətməməlidir; lisenziyada göstərilən şərtləri və gömrük qanunvericiliyinin tələblərini gözləməlidir.

**Gömrük anbarı.**

Bütün tətbiq olunan xüsusi gömrük prosedurları içərisində gömrük anbarı ən əlverişlisidir. Bir sıra hallarda sahibkara ödənilən pul vasitələrini gömrük ödəmələri şəklində "dondurmaq" sərfəli deyildir. O xaricdən malın alınması və satılmasına və ya müəyyən vaxtdan sonra ondan istifadə etməyə maraqlıdır. Onun üçün daha üstün gömrük anbarı sayılır.

Gömrük anbarı-xüsusi təchiz olunmuş bina və ya yer, hansı ki, orada gömrük anbarı proseduru fəaliyyətdədir; Azərbaycan Respublikası gömrük orqanı və Azərbaycanın hüquqi şəxsi tərəfindən gömrük anbarı sahibkarları reyestrinə düşməsi ilə yaradıla bilər. Həmçinin belə gömrük anbarının yaradılması gömrük anbarı sahibi reyestrinə düşmədən gömrük orqanı ola bilər.

Gömrük anbarlarının sahiblərinin reyesterə düşmə şərtlərin aşağıdakılardır:

- gömrük anbarı üçün istifadəyə yararlı olan və müəyyən olunmuş tələblərə cavab verən bina və ya açıq meydançaya sahib olmaq;
- gömrük ödəmələrinin ödənilməsini təmin etmək;
- özünün vətəndaşlıq cavabdehliyi üçün risklərə sığorta müqaviləsinin olması.

Əgər binanın və ya açıq meydançanın sahibi öz fəaliyyətini arenda müqaviləsi ilə həyata keçirirsə, onda həmin müqavilə reyesterə salınması üçün ərizənin verildiyi gündən 3 ildən az olmamalıdır.

Gömrük anbarlan sahiblərinin reyesterinə düşmələri Azərbaycan Respublikası GM-nin tələb etdiyi şərtlərə uyğun ərizə əsasında

qındakı şəhadətnamə 5 il müddətinə etibarlı sayılır. Gömrük anbarı sahibinə verilən reyesterə düşmə şəhadətnaməsi gömrük orqanı tərəfindən aşağıdakı hallarda geri çağrıla bilər:

- Gömrük anbarı sahibinin reyestrə düşmə şərtlərindən birini yerinə yetirmədikdə;
- Gömrük anbarı sahibi öz öhdəliklərini yerinə yetirmədikdə;
- sahibkarın gömrük işi sahəsində inzibati xətalara görə bir neçə dəfə inzibati məsuliyyətə cəlb edildiyi halda.

Gömrük anbarı sahibinə şəhadətnamə verilən zaman onun üzərinə bir neçə öhdəliklər qoyulur:

- gömrük anbarında malların saxlanılmasına dair gömrük məcəlləsi ilə müəyyənləşdirilmiş şərt və tələblərin gözlənilməsi;
- gömrük anbannda yerləşən malların qorunmasını təmin etmək;
- gömrük orqanının icazəsi olmadan gömrük anbarında saxlanılan mallara kənar şəxslərin buraxılmaması;
- gömrük anbarının sahibi daxili gömrük tranziti üçün icazə aldığı halda gömrük rüsum və vergilərin ödəməsi.

Beləliklə gömrük anban-gömrük anbarı rejimində gətirilən mallar gömrük rüsum və vergiləri ödənilmədən və onlara qarşı iqtisadi siyasət tədbirləri qadağa və məhdudiyyətlər tətbiq edilmədən Azərbaycan Respublikası qanunvericiliyinin müəyyən etdiyi xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinə uyğun olaraq gömrük nəzarəti altında saxlanılmasıdır. Gömrük anbarları gömrük nəzarəti zonası hesab olunur. Gömrük anbarları iki tipdə olurlar:

Açıq tipli-bütün şəxslərin istifadəsi və bütün malların saxlanılması üçün əlçatandır;

Qapalı tipli-həmin anbar gömrük anbarının sahibi üçün hansı malların saxlanılması təyin edilmişsə;

Gömrük orqanlannm gömrük anbarlan açıq tipli anbarlardır. Bununla yanaşı Azərbaycan Respublikası Hökuməti qapalı gömrük anbarında saxlanılası malların növünü müəyyən etmək səlahiyyətindədir. Gömrük anbannın binası və ya açıq meydançası Gömrük Məcəlləsinin müəyyən etdiyi tələblərə uyğun qaydaya salınmalı və avadanlıqla təchiz edilməlidir. Gömrük anbannın yerləşdirilmə yeri

maraqlı şəxslərin uçotu ilə yerləşdirilir (ticarət təşkilatlan, xarici iqtisadi fəaliyyət iştirakçıları). Açıq və qapalı tipli gömrük anbarlan saxlanmasına xüsusi şərait tələb edən və ya digər mallara ziyan vura biləcək (xüsusiləşmiş gömrük anbarları) malların saxlanılması üçün isifadə edilə bilər.

Gömrük anbarı gömrük proseduru altında əvvəllər digər prosedurlar altında olan mallar yerləşdirilə bilər.

Gömrük anbarında mallar 3 il müddətində saxlanıla bilər. Məhdud saxlanılma müddəti və ya realizasiyası olan mallar, digər gömrük proseduru altında bəyan edilməli və gömrük anbarından vaxtının tamam olmasına 180 gündən gec olmayaraq gömrük anbarından aparılmalı, burada tez xarab olan mallar müstəsnalıq təşkil edir və Dövlət Gömrük Komitəsinin göstərişi ilo vaxtı uzadıla bilər.

Malların uzun müddət saxlanılması onların keyfiyyəti və istehlak xüsusiyyətlərinə təsir edə bilər. Ona görə gömrük anbarı prosedurunda gömrük orqanının icazəsi ilə bir sıra fəaliyyətlər həyata keçirilə bilər: nümunələr və probların götürülməsi, sadə montaj əməliyyatlan, seçmə, qablama, markalama və digər malın keyfiyyətini yaxşılaşdıran tədbirlər.

Gömrük brokeri gömrük anban gömrük prosedurunun yekunlaşdı- nlmasmı malın anbarda vaxtınm qurtarmasına bir gün qalmış həyata keçirməlidir.

XİF iştirakçıları və digər anbarda mal yerləşdirən subyektlərlə gömrük anban sahibinin münasibətləri müqavilə əsasında qurulur. Gömrük anbarı sahibinin malların saxlanılmasını həyata keçirmək üçün imkan olduğu halda müqavilə bağlamaqdan imtina etməyə icazə verilmir. Gömrük anbarı və ya sərbəst anbar.

Azərbaycan Respublikası ərazisinə gətirilmə yeri kimi istifadə olunur.

Əgər;

- belə anbarlann sahibi gömrük orqanıdırsa;
- gömrük orqanının fəaliyyət zonasında belə anbar yerləşirsə lazım gəldikdə gömrük orqanının icazəsi ilə (məsələn, müvəqqəti saxlanc anbarı olmadıqda, mallann gömrük nəzarəti altında bir

## 4. MÜVƏQQƏTİ SAXLAMA PROSEDURU. MÜVƏQQƏTİ SAXLANC ANBARLARI

Müvəqqəti saxlanc özündə xarici mallann Azərbaycan Respublikası XİF-in dövlət tənzimlənməsi qanununa uyğun müəyyən edilmiş gömrük ödəmələri ödənilmədən və mallara qadağa və məhdudiyyətlər tətbiq edilmədən saxlanılmasıdır.

Göstərilən gömrük prosedurunun tətbiq edilməsinin əsas məqsədi:

- bütün gömrük rəsmiləşdirilməsi yekunlaşdırılana kimi malların saxlanılmasını təmin etmək;
- mallann yoxlanılmasına imkan vermək və gömrük bəyanedilməsinə hazırlıq.

Bir də XİF iştirakçılarının gömrük rəsmiləşdirilməsinin tezliklə yekunlaşdın İması ilə maddi maraqlan nəzərə alınır. Belə ki, mallar müvəqqəti saxlancda qaldıqca onun saxlanma xərci artır.

Mallar müvəqqəti saxlanc statusunu onların gətirilmə yerinə verilməsi anından alırlar. Xüsusi hallarda mallann müvəqqəti saxlanılması proseduru tətbiq olunmaya bilər. Malların müvəqqəti saxlanılması münasib gömrük proseduruna uyğun, malların buraxılışı və ya malların digər gömrük proseduru altına keçirilməsi ilə ye- kunlaşdırılır (GM, 176-cı maddə).

Müvəqqəti saxlanc anbannda saxlanılan mallarla aşağıdakı əməliyyatlar aparıla bilər:

- malların qorunmasını təmin etmək və onlann bəyanedilməyə hazırlanması (baxış, ölçmə, təkrar hesablama, çəkilməsi və s.).

Mövcud əməliyyatlar bu mallara səlahiyyəti olan şəxs, onların nümayəndələri, məsələn gömrük brokeri tərəfindən apanla bilər.

Göstərilən əməliyyatların aparılmasından sonra mallar öz əvvəlki vəziyyətini, qablaşdırma və ya qoyulmuş identifikasiya vəsilələrini itirməməlidir;

- müvəqqəti saxlanc anbanndan sonrakı əməliyyatlar aparılması üçün mallann hazırlanması vacibdir. Bura mallardan ekspert tədqiqatı aparmaq üçün prob və nümunələrin götürülməsi,

lann zədələnmiş yerlərinin düzəldilməsi və s. daxildir. Göstərilən əməliyyatlardan bəziləri gömrük bəyanedilməsinə hazırlıq üçün də apanla bilər.

Mallann son saxlanc müddəti 4 ay təşkil edir. Müvəqqəti saxlancm konkret vaxtı aşağıdakı faktorlarla əlaqələndirilə bilər:

1. Qanunvericiliyin mallann müvəqqəti saxlanc vaxtının (kəsilməsi) fasiləliyi ilə əlaqələndirilir. Məsələn, malların bir yerdən başqa yerə apanıması zamanı daxili tranzitin tətbiq edilməsi, malların gəldikləri yerdən təyinat yerinə aparılması zamanı müvəqqəti saxlanc vaxtı yenidən başlayır.

2. Malların kateqoriyaları ilə. Məsələn, tez xarab olan mallar, MSA onların saxlanılması keyfiyyətləri ilə müəyyənləşdirilir. Azərbaycan Respublikası ərazisinə gətirilməsi qadağan olunan mallar MSA-da 3 gündən artıq saxlanıla bilməz.

3. Mallann hüquqi statusu. Azərbaycan Respublikası GM 190.1, 190.2 maddəsinə əsasən gömrük rəsmiləşdirilməsi və eyni zamanda gömrük nəzarəti altında olan mallann saxlanılması vaxtını müəyyənləşdirir. Bu şərtlə ki, mallar MSA xüsusi gömrük yoxlaması üçün yerləşdirilmişdir və onun vaxtı yoxlamanın vaxtı ilə müəyyənləşdirilir. Mallann müvəqqəti saxlanc yeri bir qayda olaraq müvəqqəti saxlanc anbarıdır. Müvəqqəti saxlanc anbarları açıq və qapalı tipli ola bilər. Açıq müvəqqəti saxlanc anbarlannda bütün mallar saxlanıla bilər. Açıq MSA Azərbaycan Respublikası gömrük orqanları və ya Azərbaycanın hüquqi şəxsləri tərəfindən təsis edilə bilər. Qapalı MSA sahibkann malının və ya xüsusi mallann saxlanılması üçün təyin edilir.

**Müvəqqəti saxlanc anbarlarına malların yerləşdirilməsi**

MSA hər hansı xarici mallar, o cümlədən Azərbaycan Respublikası ərazisinə müəyyən edilmiş qanunvericiliyi pozmaqla XİF dövlət tənzimlənməsinə aid qanunvericiliyi pozmaqla gətirilən mallar yerləşdirilə bilər. Müvəqqəti saxlanc anbarı sahibi borcludur:

- gömrük məcəlləsində gömrük nəzarəti altında olan malların saxlanılmasına dair tələb və şərtləri gözləmək;
- gömrük nəzarəti altında olan saxlanılan malların uçotunu apar

maq və gömrük orqanına belə saxlanılan malların hesabatını verməli;

- müvəqqəti saxlanc anbarı və gömrük nəzarəti zonası olan ona bitişik ərazidə mal və nəqliyyat vasitələrinin bütün sutka ərzində yerləşdirilməsini təmin etmək;

- mal və nəqliyyat vasitələrinə gömrük orqanının icazəsi olmadan buraxılmasına imkan verməmək;

- Azərbaycan Respublikası gömrük məcəlləsində nəzərdə tutulmuş hallarda gömrük rüsum və vergilərini ödəmək.

Müvəqqəti saxlanc anbarının sahibi, müvəqqəti saxlanc anbarında saxlanılan malların gömrük rüsum və vergilərinin ödənilməsi üçün cavabdehlik daşıyır.

## 5. GÖMRÜK İNFRASTRUKTURUNUN GÖMRÜK SİSTEMİNİN FƏALİYYƏTİNƏ TƏSİRİ

Qeyd edilməlidir ki, gömrük infrastrukturunun təşkili və inkişafı-gömrük orqanları vahid sisteminin ayrılmaz atributu, gömrük işinin həyata keçirilməsində onun səmərəli olmasını şərtləndirən əsas amillərdən biridir. Belə ki, infrastruktura təminatı bu və ya digər səviyyədə mövcudluğu ilə gömrük işinin həyata keçirilməsinin proseduru və mərhələlərini müşayət edir.

Ənənəvi olaraq gömrük infrastrukturu məfhumunun müəyyən edilməsində əsas diqqət ona yönəldilir ki, infrastruktur dedikdə gömrük işinin həyata keçirilməsinə, gömrük orqanlarının vəzifələrinin yerinə yetirilməsində tabeli, köməkçi rol oynayan gömrük müəssisələrinin şəbəkəsi nəzərdə tutulur.

Belə təşkilatlara gömrük laboratoriyaları, tədris müəssisələri, elmi-tədqiqat müəssisələri, hesablama mərkəzləri, poliqrafiya, tikinti istismar, təchizat və s. müəssisələr aid edilir.

"İnfrastruktur" latın sözü olub (infra-altmda, struktur-quruluş, təşkilat), yardımçı quruluş mənası daşıyır.

Beləliklə, infrastruktur-orqanın normal fəaliyyət göstərməsini təmin edən istehsal, qeyri-istehsal elmi sahələr kompleksidir.

Gömrük infrastrukturuna xas olan ümumi və əlahiddə xüsusiyyətləri aşağıdakı kimi xarakterizə etmək olar:

- birincisi, o bütövlükdə milli iqtisadiyyatın infrastrukturundan təcrid olunmur, onun tərkibində yaradılır və fəaliyyət göstərir;

- ikincisi, gömrük sistemi bütövlükdə tənzimetmə, hüquqi, idarəetmə xarakterli institutlara sıx bağlı olan ümumi infrastrukturun tərkib hissəsidir. Bu keyfiyyətdə o xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sahəsində və beləliklə də iqtisadi təhlükəsizliyin təmin edilməsinə xidmət edir.

- üçüncüsü, gömrük infrastrukturunun gömrük sisteminin fəaliyyətinin təmin edilməsi kimi sahədaxili təyinatı var.

Bu baxımdan gömrük sisteminin normal fəaliyyətini təmin edən infrastruktur təminatı elementlərini üç əsas qrupa ayırmaq olar:

- birinci qrupa mal və nəqliyyat vasitələrinin keçirilməsi, saxlanması və anbar emalı üçün, həmçinin sərnişinlərə xidmət etmək üçün şərait yaradan elementlər daxil edilir. Başqa sözlə bu, gömrük orqanlarının maddi-texniki bazası (inzibati binalar, keçid-buraxılış məntəqələri, anbar təsərrüfatı, nəqliyyat vasitələri, sosial təyinatlı obyektlər, vağzal və hava limanlarında gömrük nəzarəti zonaları və s.) hesab edilir.

- ikinci qrupa gömrük əməliyyatlarının aparılmasını, prosesin gedişi və aimmış nəticələr barədə məlumatın ötürülməsini təmin edən sistem, vəsitə və fəaliyyət növləri (gömrük nəzarətinin texniki vasitələri, gömrük ekspertizası vasitələri, rabitə, gömrük orqanlarının vahid avtomatlaşdırılmış məlumat sistemi, digər EHM və kompüter avadanlığı və s.) daxildir.

- üçüncü qrupa gömrük orqanları kadrlarının nonnal həyat fəaliyyətinin bərpası üçün maddi, məişət, mədəni və digər şəraitin yaradılmasına xidmət edən sosial infrastruktura aid edilir. Bu sfera gömrük işinin peşə hazırlığının və hərtərəfli inkişafının təmin edilməsi üçün qeyri-istehsal xarakterli tələbatın ödənilməsini təmin etməlidir.

- beləlikiə, gömrük infrastrukturu dedikdə xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi şərtlərini, gəmrük sisteminin bütöv

lükdə fəaliyyət göstərməsini təmin edən, gömrük nəzarəti, ekspertizası, rabitəsi, məlumat sistemi, gömrük orqanlannm maddi-texniki bazası, texniki vasitələri, institutsional, sosial struktur və fəaliyyət növləri kompleksi başa düşülməlidir.

**Yoxlama sualları**

1. "Gömrük anbarı" gömrük prosedurunun təyin edilməsinin əsas məqsədi nədir?
2. Gömrük anbarı prosedurunda mallann qalmasının son vaxtı nə qədərdir?
3. "Gömrük anbarı" proseduru nə vaxt yekunlaşır?
4. "Sərbəst anbar" prosedurunun fəaliyyət müddəti nə qədər nəzərdə tutulur?
5. "Sərbəst anbar" prosedurundan hansı məqsədlər üçün istifadə olunur?
6. Malların müvəqqəti saxlanması nə deməkdir?
7. Mallann müvəqqəti saxlanmasının məqsədi nədir?
8. Müvəqqəti saxlanc anbarında mallarla hansı əməliyyatlar aparıla bilər?
9. Gömrük daşıyıcısı kimdir?
10. Müvəqqəti saxlanc anbarında mallann saxlanılmasının son müddəti?
11. Müvəqqəti saxlanc anbarının sahibi kim ola bilər?
12. Mallar sərbəst anbar ərazisindən Azərbaycan Respublikasının digər ərazisinə apanlarkən hansı gömrük ödəmələri alımr?
13. Müvəqqəti saxlanc anbarı sahibinin, anbar sahibliyi reyestrinə düşmə müddətinin fəaliyyət müddəti nə qədər olur?
14. Gömrük infrastrukturu tərkibində anbarlann tiplərini sayın?
15. Sərbəst gömrük anbannın hansı hüquqi statusu var?
16. Gömrük anban necə təqdim edilir?
17. "Gömrük anbarı" prosedurunun tətbiq edilməsinin mahiyyəti və xüsusiyyəti?
18. "Gömrük anbarı" gömrük proseduru altında hansı mallar

yerləşdirilə bilər?
19. Gömrük anbarlarının tiplərini sadalayın və onları xarakterizə edin.
20. Gömrük anbarı sahibinin vəzifələri və cavabdehliyi hansılardır?
21. Gömrük rəsmiləşdirilməsi prosesində malların müvəqqəti saxlancmm mahiyyəti nədən ibarətdir?
22. Müvəqqəti saxlanc anbarının xarakteristikasını verin. Orada malların saxlanma müddəti?
23. Müvəqqəti saxlanc anbarlarının gömrük anbarlarından fərqi nədən ibarətdir?
24. Müvəqqəti saxlanc anbarlarının hansı tipləri mövcuddur?

## Mövzu 3. Test tapşırığı

**1. " Gömrük anbarı" gömrük prosedurunun təyin edilməsinə əsas nədir?**

a) gömrük işi sahəsində sahibkarlık növlərindən birinin inkişafı;
b) malların gömrük ödəmələrindən azad etməklə saxlanılması;
v) konsiqnasiya ticarətinin təşkili (malların gömrük anbanndan realizasiyası);
q) qanunsuz keçirilən malların saxlanılması.

**2. ''Gömrük anbarı" prosedurunda malların saxlanılmasının son vaxt həddi nə qədərdir?**

a) 2 ilə qədər;
b) 3 ilə qədər;
v) 1 ildən çox olmayaraq; q)
4 aydan artıq olmayaraq.

**3. "Gömrük anbarı" proseduru nə vaxt yekunlaşır?**

a) malların saxlanılma müddətinin qurtardığı vaxt;
b) malların digər gömrük proseduruna bəyan edilməsi və yaxud malların müwəqəti saxlanc anbarına keçirilməsi vaxtı;

v) gömrük anban sahibinin reyestrə daxil edilməsi vaxtının yekunlaşması anında;
q) mal sahibinin istəyindən asılı olaraq.

**4. “Sərbəst anbar’’ gömrük prosedurunun faliyyətinin qurtarma müddəti nə vaxt nəzərdə tutulur?**
a) 7 ilə qədər;
b) 3 ilə qədər;
v) fəaliyyət müdəti məhud deyil.

**5. “Gömrük anbarı” gömrük proseduru hansı məqsədlər üçün istifadə edilir?**
a) istehsal və (və yaxud) kommersiya əməliyyatlannm həyata keçirmək üçün, pərakəndə satış istisna edilməklə;
b) avtomobil nəqliyyatı vasitələrinin və avtomobil komponentləri üzrə istehsal əməliyyatlarını yerinə yetirmək üçün;
v) anbarda malların satışı üzrə kommersiya əməliyyatlanm həyata keçirmək üçün;
q) anbarda malların saxlanılması üçün.

**6. Sərbəst anbar ərazisindən malları Azərbaycan Respublikasının digər ərazisinə apararkən hansı gömrük ödəmələri alınır?**
a) daxili tələbat üçün buraxılış gömrük proseduruna bəyan edilmiş bütün nəzərdə tutulmuş gömrük ödəmələri;
b) əgər malların mənşəyi Azərbaycan Respublikası ərazisindən-dirsə və müəyyən edilmiş kvot üzrə kənara aparılırsa gömrük ödənişləri alınmır;
v) ancaq aksiz və əlavə dəyər vergiləri alınır;
q) heç bir gömrük ödəmələri alınmır.

**7. Malların müvəqqəti saxlanılması nə deməkdir?**
a) mallann gömrük anbarında saxlanılması;
b) xarici malların gömrük rüsum və vergilər ödəmədən və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olanlara qarşı heç

bir məhdudiyyət tətbiq edilməməldə onların müəyyən gömrük proseduruna uyğun buraxılışına və yaxud onların digər gömrük proseduru altında yerləşdirilməsinə qədər saxlanılmasıdır;
v) mallann alıcının anbarında saxlanılmasıdır;
q) mallann idxalçının gömrük ödənişlərini ödəməsinə qədər saxlanılmalıdır.

**8. Mallann müvəqqəti saxlanılmasının əsas məqsədi.**
a) gömrük rəsmiləşdirilməsinin yekunlaşmasına qədər mallann qorunmasını, vacib, gömrük prosedurunun seçilməsinə imkan yaratmaq, həmçinin lazimi sənədlərin hazırlanması və ümumilikdə gömrük rəsmiləşdirilməsi prosedurunu tezləşdirməkdir;
b) gömrük rəsmiləşdirilməsindən keçməmiş malların qorunmasını təmin edən xüsusi kateqoriya şəxslərin (müvəqqəti saxlanc anbarının sahibini) sərəncamına vermək;
v) gömrük rəsmiləşdirilməsi yekunlaşmasına qədər malların itməsinə yol verməmək;
q) gömrük nəzarətinin həyata keçirilməsinin tezləşdirilməsi üçün.

**9. Müvəqqəti saxlanc anbarında mallarla hansı əməliyyatları aparıla bilər?**
a) baxış və təkrar hesablama;
b) malların və əsas gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsinə kömək edən və qorunmasını təmin edən hər cür əməliyyat aparıla bilər;
v) ekspert tətqiqatı üçün prob və nümunələrin götürülməsi;

**10. Gömrük daşıyıcısı nədi?**
a) Azərbaycan Respublikası gömrük sərhəddindən malların keçirilməsini həyata keçirən hər hansı nəqliyyat təşkilatı;
b) beynəlxalq nəqliyyat təşkilatı;
v) Azərbaycan Respublikası gömrük ərazisində gömrük nəzarətində olan malların daşınması üzrə xidmət göstərən Azəbaycan

nəqliyyat təşkilatı;
q) Azərbaycan Respublikası DGK tərəfindən reystrə düşmüş və lisenziya almış Azərbaycan vətəndaşı.

**11. Müvəqqəti saxlanc anbarında malların saxlanılmasının son müddəti.**

a) 2 ay;
b) 6
ay; v) 4
ay;
q) 1 il.

**12. Müvəqqəti saxlanc anbarının sahibi kim ola bilər?**

a) Azərbaycanın hüquqi şəxsi;
b) Azərbaycanın fiziki şəxsi;
v) Azərbaycanın hüquqi və fiziki şəxsləri; q) Azərbaycanın və xarici ölkənin hüquqi və fiziki şəxsləri.

**13. Müvəqqəti saxlanc anbarının reyestrinə düşən anbar sahibinin şəhadətnaməsinin fəaliyyət müddəti hansıdır?**

a) 1 - il;
b) 3 -
il; v) 5 -
il;
q) məhdudiyyətsiz

# Mövzu 4.

## AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SİYASƏTİ, GÖMRÜK İŞİNİN ƏSASIDIR

1. Gömrük siyasəti və onun istiqamətləri.
2. Gömrük tarif tənzimlənməsi sistemi anlayışı, onun əsas məqsədi və elementləri.
3. Gömrük rüsumları: onların növləri, stavkaların dərəcələri, gömrük preferensiya sistemi.
4. Azərbaycan gömrük-tarif təsnifat sisteminin əsası. XİF mal nomenklaturası.
5. Malın mənşə ölkəsi və onun təyin edilməsi meyarları.

### 1. GÖMRÜK SİYASƏTİ VƏ ONUN İSTİQAMƏTLƏRİ

**Gömrük** siyasəti - Azərbaycan Respublikası gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin səmərəli tənzimlənməsi, daxili bazann qorunması, millli iqtisadiyyatın stimullaşdırılması, dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin həyata keçirilməsi və beynəlxalq normalara uyğun gömrük işinin aparılmasıdır. Gömrük siyasəti dövlətin daxili və xarici siyasətinin tərkib hissəsidir.

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin (idxal və ixracın həcmi, strukturu və şərtləri) gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin uyğun gömrük prosedurlarının müəyyən edilməsi vasitəsilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini müəyyən edir:

- Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən institutların məcmusu, həmçinin onun həyata keçirilmə üsulları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənməsi gömrük siyasəti mexanizmi anlayışını təşkil edir.

- Gömrük siyasətinin inkişafı və əsas xüsusiyyəti xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipləri ilə müəyyən edilir, bunlar əsasən aşağıdakılardan ibarətdir:

• ölkə iqtisadiyyatının yüksəldilməsi, büdcənin doldurulmasında

və daxili bazarın formalaşmasında yaxından iştirak etmək;

• Azərbaycan Respublikasının xarid siyasətinin tərkib hissəsi kimi vahid xarici ticarət siyasətini həyata keçirməkdə fəal iştirak etməli;

• xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimlənmə sistemi və onun həyata keçirilməsinə nəzarət;

• vahid valyuta nəzarəti siyasəti;

• dövlətin gömrük ərazisinin bütövlüyü;

• xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində iqtisadi tədbirlərə üstünlük verilməsi;

• xarici ticarət fəaliyyəti iştimkçılannm bərabərliyi və hər hansı formada ayrı seçkiliyə yol verilməməsi;

• xarici ticarət fəaliyyəti iştirakçılarının hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması;

• dövlət və onun orqanlannın xarici ticarət fəaliyyətinə lüzumsuz müdaxiləsinin, omm iştirakçılanna zərər vurulmasının, istisna edilməsi;

• gömrük siyasətinin yerinə yetirilməsi ölkənin daxili və xarici siyasətinə cavab verməklə beynəlxalq qanunlara uyğun olmalıdır;

• gömrük siyasəti dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət edir.

İqtisadi təhlükəsizlik məsələldri iqtisadiyyatın Azərbaycan Respublikasmın sosial, siyasi müdafiə qabiliyyətinin və mütərəqqi inkişafının kifayət edəcək səviyyəsini təmin edə bilən vəziyyətini, tarazlaşdırma problemlərinin həlli yollanm mümkün xarici və daxili təhlükələrə, onun iqtisadi maraqlannın xarici təsirlərdən asılı olmaması və kifayət qədər təhlükələrdən qorunmağı nəzərdə tutur.

Gömrük siyasəti, onun həyata keçirilməsi üçün başlıca zəmin olan gömrük xidmətinin fəaliyyətinə arxalanır. Eyni zamanda gömrük tənzimlənməsini yalnız gömrük orqanlannm fəaliyyəti ilə e3nıiləşdirmək yalnış fikirdir. Gömrük siyasətinin formalaşması və həyata keçirilməsi mürəkkəb proses olub, hakimiyyətin hər üç qanadım - qanunvericilik, icra və məhkəmə hakimiyyətinin, həmçinin bu işdə maraqlı olan təsərrüfatçılıq və sahibkarlıq

lavasitə iştirakı ilə reallaşır.

Azərbaycan Respublikasının vahid gömrük siyasətinin tələb və vəzifələri Prezident, Milli Məclis və Hökümət tərəfindən Gömrük Məcəlləsi və Gömrük hüququnun digər mənbəlıəıri əsasında müəyyən edilir. Bu isə respublikaran gömrük **ərazisiradƏ'** mal mübadiləsinin tənzimlənməsi və gömrük nəzarəti vasitələrindən səmərəli istifadə etməklə daxili bazarm qorunmasım tələb edir. Daxili bazarın qorunması məqsədilə ilk növbədə ticarət-siyasi məsələləri həll etməkÜə, nuHılili iqtisadiyyatın inkişafının stimullaşdınlması vacib sayılır, yalnız bu halda dövlətin iqtisadi siyasətinin əsas məsələlərinin həlli öz əksini tapar.

Gömrük siyasətinin mahiyyəti gömrük-tarif qanunvericiliyində, müxtəlif istkpmətli beynəlxalq gömrük birlikləri ile münasibətlərin yaradılmasında, sərbəst gömrük ticarət zonalarının yaradılmasında öz əksini tapır. Gömrük siyasəti dövlətin iq,tisadi və xarici siyasətinin aynlmaz hissəsidir və buna görə də hökumətin ümumi iqtisadi strategiyasının məqsəd və vəzifələrindən asılıdır..

Respublika iqtisadiyyatının inkişaf səviyyəsi və daxili istehlakçıların beynəlxalq rəqabət qabiliyyətindən asılı olaraq xarici iqtisadi siyasətin, o cümlədən, gömrük siyasətinin nisbətən dəqiq konturlara malik dörd növü müşahidə edilir.

Proteksionizm, yumşaq proteksionizm, yumşaq sərbəst ticarət və sərbəst ticarət

Bu istiqamətlər eyni zamanda ölkə iqtisadiyyatının xarici iqtisadi müdaxilələrə açıqlıq dərəcəsini nümayiş etdirir.

Proteksionist gömrük siyasəti yerli istehsalın inkişafı üçün daha əlverişli şərait yaradılmasına yönəldilib. Onun əsas məqsədləri idxal edilən mallara gömrük vergi qoymasının daha yüksək səviyyəsini tətbiq etməklə əldə edilir.

Proteksionist siyasətindən fərqli olaraq sərbəst ticarət siyasəti gömrük rüsumlarının daha aşağı-minimum səviyyəsini nəzərdə tutur və daxili bazara xarici malların daha çox cəlb edilməsinə təhrik edir.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas vasitələri gömrük

rüsumları, yığımları (tarif və iqtisadi tənzimləmə), gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti əməliyyatlan, xarici ticarətin lisenziyalaşdırılması və kvotalaşdırılması (qeyri-tarif və inzibati tənzimlənmə) təcrübəsi ilə bağlı müxtəlif gömrük məhdudiyyətləri və rəsmiyyətidir.

Gömrük siyasəti müxtəlif hüquq normaları və gömrük qaydaları əsasında həyata keçirilməlidir və bu da gömrük hüququ məfhumunu meydana çıxanr.

Gömrük siyasətinin dəqiq hüquqi əsaslandırmaları ilk növbədə ona görə vacibdir ki, sahibkarlıq fəali)^ətinin bu və ya digər istiqamətlərini tənzimləyərkən onu həyata keçirmə vasitələri istər-istəməz mülkiyyət münasibətləri sferasına müdaxilə etmiş olur. Bundan başqa gömrük siyasətinin xarici münasibətlərə təsiri dövlət üçün beynəlxalq hüquqi xarakterli öhdəliklər yaratdığından onun nonnallaşdırıİması zərurətini doğurur.

Gömrük Məcəlləsi gömrük işini-gömrük siyasəti və həmçinin bu siyasəti həyata keçirəcək vasitələr: mal və nəqliyyat vasitələrini Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilməsinin qayda və şərtləri, gömrük ödənişlərinin tutulması, gömrük rəsmiləşdirilməsi, gömük nəzarəti və s. kimi xarakterizə edir.

Azərbaycan Konstitusiyasının 94-cü maddəsinin I bəndinin 25-ci hissəsinə görə gömrük işinin ümumi qaydalarını Respublikanın Milli Məclisi müəyyən edir.

Gömrük işinin inkişaf istiqamətləri Gömrük Məcəlləsinin II maddəsinin 3-cü bəndi ilə müəyyən olunmuş və bütövlükdə qəbul edilmiş beynəlxalq normalar və təcrübə ilə uyğunlaşdırmaq və eyniləşdirmə istiqamətində inkişaf etdirilir.

Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra dövlətçilik atributlarından biri olan Dövlət Gömrük Komitəsinin yaranması 1992-ci il 30 yanvarda həyata keçirildikdən sonra gömrük siyasətinin əsas istiqamətlərindən biri ölkə iqtisadiyyatını xarici müdaxilənin təsirlərindən qorumaq, milli istehsalı müdafiə etməklə, iqtisadi təhlükəsizliyi idarə edən bir təşkilat kimi çıxış etməyə başladı.

Sovetlər ittifaqının dağılmasından sonra müstəqil Azərbaycanın gömrük siyasətinin strategiyası və taktikası sıfır səviyyədən başlamaqla yeni proqram və tədbirlər planı hazırlanması və həyata keçirilməsi vacib idi. Lakin ölkədə yaranmış ictimai siyasi vəziyyət, kürsü mübarizələri, ölkəyə səriştəsiz rəhbərlik, zorla müharibəyə cəlb edilməyimiz və s. məlum hadisələr şəraitində gömrük siyasətinin həyata keçirilməsi lazımi səviyyədə ola bilməzdi.

1993-cü ildən sonra ölkə rəhbərliyinin dəyişilməsi, sabitliyin yaranması gömrük siyasətinə yeni təkan verdi. Yalnız bundan sonra iş qabiliyyətli gömrük müəssisələrinin yaradılması, onların texniki təminatı, gömrük xidməti kadrlannm hazırlanması, gömrük qanunvericiliyinin hazırlanması və tətbiq edilməsi, gömrük siyasətinin fəaliyyətinə təkan vermiş oldu.

Yeni formada fəaliyyətə başlayan gömrük siyasətinin məqsədi xarici iqtisadi fəaliyyətinin tənzimlənməsinin gömrük mexanizmini hərəkətə gətirən və dövlət büdcəsinin gəlir hissəsində əhəmiyyətli yer tutan rüsum və yığımlann toplanmasını təmin edən məsələlərin həyata keçirilməsidir.

Gömrük siyasəti həmçinin beynəlxalq əlaqələrin genişlənməsində və onun inkişaf etdirilməsində əsas rol oynayır ki, bu beynəlxalq təşkilatlara inteqrasiyada özünü göstərir. Beynəlxalq inteqrasiya və onun inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

## 2. GÖMRÜK TARİF TƏNZİMLƏNMƏSİ SİSTEMİ ANLAYIŞI. GÖMRÜK TARİF ANLAYIŞININ ƏSAS MƏQSƏDİ VƏ ELEMENTLƏRİ

Dünya təcrübəsində gömrük - tarif tənzimlənməsi xarici ticarətin iqtisadi tənzimlənməsinin geniş yayılmış metodlarından biri hesab olunur. Azərbaycan Respublikasının ÜTT-na daxil olmasına hazırlıqla əlaqədar çağdaş Azərbaycana müasir gömrük tarif sisteminin yaradılmasına xüsusi diqqət vermək lazımdır. ÜTT-nm tələb etdiyi kimi Azərbaycanın gömrük tarifi xarici ticarəti tənzimləyən əsas vasitəyə çevrilməlidir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsində “Gömrük-tarif tənzimlənməsi” anlayışı ifadə olunmur, ancaq bu terminə istinad olunur. “Gömrük tarifi-gömrük sərhəddindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun sistemləşdirilmiş gömrük rüsumlannm dərəcələrinin məcmusudur” (GM İmad 10.26).

Azərbaycan Respublikasının “Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin əsaslan haqqında” qanununda gömrük-tarif tənzimlənməsi altında idxal və ixrac gömrük rüsumlannm tətbiq edilməsi yolu ilə mallarla xarici ticarətin dövlət tənzimlənməsinin həyata keçirilməsi metodları başa düşülür. Beləliklə, qeyd etmək lazımdır ki, Azərbaycanda gömrük-tarif tənzimlənməsi XİF ümumilikdə koordinasiyası mexanizm prinsiplərindən geri qalır, ancaq 0 iqtisadi əsaslarla inkişaf edir və bir neçə hissədə: ixrac və idxal tarifləri və rüsumları, gətirilən malların gömrük dəyərlərinin hesablanması və gətirilən mallann mənşə ölkəsinin gömrük dəyərinin təsdiq edilməsi, malların mümkün prosedur altında yerlədirilməsi və preferensiya rejimləri hamısı bir yerdə gömrük rüsum və vergilərinin hesablanması qaydası və gömrük prosedurları digər mövzularda cəmlənir.

Beləliklə xarici ticarət fəaliyyətinin tənzimlənməsinin əsas aləti ixrac və idxal gömrük rüsumlarıdır. Malların gətirilməsi və ya aparılması zamanı və ya ancaq gətirilməsi zamanı gömrük rüsumları vasitəsilə tənzimlənmə ümumi qəbul edilmiş gömrük-tarif tənzimlənmələrində ən çox geniş yayılmış formadır. İdxal zamanı gömrük rüsumlarının dərəcəsi (və ya stavkası) daxili bazarın xarici mallar üçün açıqlıq və qapalılıq dərəcəsindən asılı olaraq müəyyənləşdirilir. Birləşdirilmiş tənzimlənmiş gömrük rüsumları dərəcəsi gömrük tarifi adlanır. Ona görə də gömrük tarifi ilə tənzimlənmə gömrük- tarif tənzimlənməsi adlanır.

Gömrük-tarif tənzimlənməsinin hüquqi əsasını Azərbaycan Respublikası GM (2012-ci il) “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının qanunu (24 noyabr 1995-ci il) sonrakı dəyişikliklər və əlavələrlə, Azərbaycan Respublikasının “Xarici ticarət fəaliy

yətinin dövlət tənzimlənməsinin əsaslan haqqında” qanun, Azərbaycan Respublikasının “Vergi məcəlləsi” (Bakı, 2000-ci il) təşkil edir.

Gömrük rüsumları - bu Azərbaycan Respublikası Gömrük Məcəlləsinin (1 maddə 10.22) müəyyən etdiyi qaydaya görə malların gömrük ərazisinə gətirilməsinə və bu ərazidən aparılması zamanı gömrük orqanlan tərəfindən alman gömrük ödənişlərinin bir növüdür. Bunun məqsədi Azərbaycan Respublikasının iqtisadi maraqları üçün xarici ticarət fəaliyyətinin gömrük-tarif tənzimlənməsidir. Gömrük tariflərinin dərəcəsini (stavkasını) Azərbaycan Respublikası Höküməti müəyyənləşdirir.

Gömrük tarifi özünün ticarət siyasətinin və dünya bazarı ilə qarşılıqlı əlaqəsi zamanı azərbaycan mallarının daxili bazarda dövlət tənzimlənməsi siyasətini həyata keçirən bir alət kimi təqdim edir. Gömrük tarifi gömrük işinin bir elementi kimi XİF iştirakçılarının bir subyekt kimi gömrük ödəmələrinin həcmini müəyyənləşdirməyə yardım edir. Gömrük tarifinin əsası xarici iqtisadi fəaliyyətin mal nomenklaturasıdır. Gömrük Məcəlləsinə uyğun olaraq xarici ticarət və digər xarici iqtisadi fəaliyyət növlərinin gömrük-tarif tənzimlənməsinin həyata keçirilməsi üçün istifadə edilir. Onun məqsədi ondan ibarətdir ki, hər bir keçirilən mal üçün onun təsnifləşdirilmə kodunu müəyyən etməklə gömrük tarifinin dərəcəsinə (stavkasına) təsir edir.

Gömrük tarifinin əsas məqsədi:

- Azərbaycan Respublikasına gətirilən malların strukturunu səmərələşdirmək;
- Azərbaycan ərazisində malların idxalı və ixracının valyuta gəlirləri və xərclərinin səmərəli nisbətlərini saxlamaq;
- Mallann istehsalı və istehlakı strukturunda mütərəqqi dəyişikliklər üçün şəraitin yaradılması;
- Azərbaycan Respublikası iqtisadiyyatını xarici rəqabətin xoşagəlməz təsirlərindən qorumaq;
- Azərbaycan Respublikasının dünya iqtisadiyyatına səmərəli inteqrasiyası üçün şərait yaratmaq.

Gömrük tarifləri gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara tətbiq olunur. Aynca idxal gömrük tarifləri idxal gömrük rüsumları və ixrac tarifləri, ixrac gömrük rüsumları da mövcuddur.

Azərbaycan Respublikası gömrük tarifinə aşağıdakı elementlər birləşdirilir: Azərbaycan Respublikası xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (Azərbaycan Respublikası XİF MN), malın adı, əlavə ölçü vahidi, gömrük rüsumunun dərəcəsi (stavkası).

Azərbaycanda idxal gömrük tarifləri 1992-ci ildən tətbiq edilir. İxrac gömrük tarifləri Azərbaycanın xarici ticarət təcrübəsində tətbiq edilir. Onlar çox böyük siyahıya malik olmayan ixrac mallarına, tobii xammal məhsullanna, bitki mənşəli təbii resurslara, əlvan metallara və neftə tətbiq olunur.

### 3. GÖMRÜK RÜSUMLARI; ONLARIN NÖVLƏRİ, STAVKALARIN DƏRƏCƏLƏRİ, GÖMRÜK PREFERENSİYA SİSTEMİ

İdxal və ixrac rüsumları ilə yanaşı Azərbaycan Respublikası qanunvericiliyində aşağıdakı növ gömrük rüsumlan nəzərdə tutulmuşdur. Xüsusi növ rüsumlar öz növbəsində, xüsusi, antidempinq və kompensasion rüsumlara bölünür.

Azərbaycan Respublikası “Gömrük tarifi haqqında” qanuna ixrac və idxal əməliyyatlannın operativ tənzimlənməsi məqsədilə mövsümi gömrük rüsumları daxil edilmişdir. Mövsümi rüsumlar kənd təsərüffatı məhsullarına və digər mallara tətbiq olunur. Mövsümü gömrük rüsumlarının istifadə mexanizmində onların fəaliyyət müddəti və stavkalarında, gömrük tarifi haqqında mal pozisiyasından istifadə edilmir.

Azərbaycan Respublikasının “Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsasları haqqında” qanununa uyğun xüsusi, antidempinq və kompensasion rüsumları mallarla xarici ticarətin qeyri-tarif tənzimləmələrinə aid edilməklə, azərbaycanın mal istehsalçılarının iqtisadi maraqlannm müdafiəsi üçün tətbiq olunur.

Azərbaycan Respublikasının xüsusi antidempinq və kompensasion rüsumlann tətbiq edilməsinin hüquqi əsasını

xüsusi müdafiə, antidempinq və kompensasion tədbirləri haqqında" Azərbaycan Respublikası Qanununda müəyyənləşdirilmişdir.

Xüsusi rüsumlar-bu rüsumlar Azərbaycan Respublikası gömrük orqanlan tərəfindən, idxal gömrük rüsumlarının alınmasından asılı olmayaraq xüsusi müdafiə tədbirlərinin həyata keçirilməsi zamanı tətbiq edilir.

Xüsusi müdafiə tədbirləri-bu Azərbaycan Respublikası gömrük ərazisində idxalın artmasının qarşısını almaq üçün tətbiq edilən məhdudiyyət tədbiridir. Xüsusi müdafiə tədbirləri idxal məhsullarına qarşı kvota və ya xüsusi müdafiə tədbirləri, xüsusi rüsumlar Azərbaycan Respublikası Hökümətinin qərarı ilə həyata keçirilir. Qabaqlayıcı xüsusi rüsumlar tədqiqat aparılana qədər alınır. Qabaqlayıcı xüsusi rüsum alındıqdan sonra o rüsumlar gömrük orqanlarının depozitivinə oturdulur. Aparılmış axtarışların nəticələrindən asılı olaraq gömrük orqanının depozitivində olan məbləğ respublika büdcəsinə və yaxud ödəyiciyə qaytarılır.

Antidempinq rüsumları-bu rüsumlar antidempinq tədbirləri həyata keçirilən zaman Azərbaycan Respublikası gömrük orqanları tərəfindən idxal gömrük rüsumlannm alınmasından asılı olmayaraq alınır.

Antidempinq tədbirləri-dempinq idxalına, qarşı tədbirlər zamanı Azərbaycan Respublikası Hökumətinin qərarı ilə antidempinq rüsumlann, o cümlədən, qabaqlayıcı ilkin antidempinq rüsumlannm tətbiqi və ya ixracatçı tərəfindən qiymət öhdəliyini qəbul etməklə həyata keçirilir.

Antidempinq tədbirləri idxal dempinq obyekti olan mallara tətbiq oluna bilər, o haldakı tədqiqat aparan orqanların tədqiqat nəticələri Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən belə mallar Azərbaycan iqtisadiyyatına ziyan verir və Azərbaycan iqtisadiyyatında belə istehsal sahələrinin yaradılması və fəaliyyətinə mənfi təsir edəcək, onda antidempinq tədbirləri görülür.

Dempinq idxalı mallan o mallardır ki, Azərbaycan Respublikası gömrük ərazisində normal dəyərindən aşağı qiymətdədir.

Azərbaycan Respublikası iqtisadiyyatına həmin malların maddi

azalmaya və bazarda həmin mallann realizə olunmasının zəifləməsinə səbəb olur. Belə malların istehsalının rentabelliyini aşağı salır, mal ehtiyatlarına, məşğulluğa, əmək haqqlarınm səviyyəsinə neqativ təsir göstərir. Eyni zamanda iqtisadiyyatın mövcud sahəyə investisiya qoyulma səviyyəsinə mənfi təsir göstərir.

Kompensasiya rüsumlan-bu rüsumlar kompensasiya tədbirlərin həyata keçirilməsi zamanı tətbiq, olunur və Azərbaycan Respublikası gömrük orqanları tərəfindən idxal gömrük rüsumlarının alınmasından asılı olmayaraq alınır.

Kompensasiya rüsumları Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və bdə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törətdikdə tətbiq edilir (Azərbaycan Respublikası "Gömrük tarifi haqqında" qanun maddə 9).

Kompensasion tədbirlər-xarici dövlətlərin spesifik subsidiyalarının Azərbaycan iqtisadiyyatına təsirinin neytrallaşdırılması məqsədilə Azərbaycan Respublikası Hökumətinin qəran ilə kompensasion rüsumlar həyata keçirilir. Bəzən də səlahiyyətli subsidləşdirən xarici ölkələrin və ya ixracatçıların götürdükləri öhdəliklə həyata keçirilir.

Kompensasiya tədbirləri o mallara tətbiq olunur ki, idxal-ixrac və ya daşınması zamanı, xarici ölkələrin spesifik subsidiyalarından istifadə olunmuş olsun. Eyni zamanda tədqiqat apanlaraq, tədqiqatın nəticəsinə görə Azərbaycan Respublikası gömrük ərazisinə idxal olunmuş həmin mallar Azərbaycan Respublikası iqtisadiyyatına maddi ziyan verir, həmin sahənin inkişafını zəiflədir.

Gömrük rüsumlannın dərəcələri (stavkaları) Azərbaycan Respublikası Hökuməti tərəfindən müəyyənləşdirilir və o vahiddir, gömrük sərhəddindən malı keçirən şəxsdən, sövdələşmə növündən və digər amillərdən asılı olaraq dəyişdirilə bilməz (Azərbaycan Respublikası "Gömrük tarifi haqqında" qanununda nəzərdə tutulmuş

Azərbaycan Respublikasında gömrük rüsumlarının aşağıdakı növləri tədbiq olunur:

- advolor, malın gömrük dəyərindən faizlə hesablanmış rüsumlar;
- spesifik-rusum alman mallann hər vahidindən müəyyən olunmuş məbləğdə hesablanmış rüsumlar;
- kombinə olunmuş-hər iki göstərilən rüsumlara uyğun qanşıq rüsumlar.

Gömrük rüsumlarının dərəcələri gömrük orqanları tərəfindən gömrük bəyannaməsinin rəsmiləşdirilməsi üçün qəbul etdikləri gün tətbiq olunur.

İdxal gömrük rüsumlarının dərəcələri malın mənşə ölkəsindən asılı olaraq deferensasiya olunmuş qaydada tətbiq olunur:

- Azərbaycan Respublikası ilə ticarət-siyasi cəhətdən daha əlverişli rejimdə olan ölkələrdən olan mallara bağlanmış və imzalanmış ticarət müqavilələri və razılaşmaları əsasında Azərbaycan Respublikası Hökuməti tərəfindən idxal gömrük dərəcələri tətbiq olunur;
- Azərbaycan Respublikası ilə ticarət-siyasi cəhətdən daha əlverişli rejimdə olmayan ölkələrdən olan mallara Azərbaycan Respublikası Hökuməti tərəfindən müəyyən edilmiş, iki dəfə artırılmış idxal, gömrük stavkaları tətbiq edilir;
- mənşəyi inkişaf etməkdə olan ölkələrin mallarına qarşı Azərbaycan Respublikası Hökumətinin müəyyən etdiyi azaldılmış idxal rüsumları tətbiq olunur;
- mənşəyi daha az inkişaf etmiş ölkələrdən olan mallara qarşı idxal rüsumlarmdan tam azad olunma tətbiqi həyata keçirilir;
- mənşəyi MDB olan və MDB iştirakçısı olan ölkələrdən gətirilən mallara qarşı azad ticarət haqqında iki tərəfli razılaşmaya uyğun olaraq idxal gömrük rüsumları alınmır.

O mallann ki, mənşə ölkələri müəyyənləşdirilməmişdir həmin mallardan idxal rüsumlannm dərəcələri Azərbaycan Respublikası gömrük qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna edilməklə ticarət-siyasi cəhətdən daha əlverişli şərait prosedurunda

olan ölkələr kimi tətbiq edilir.

Gömrük rüsumlarının hesablanması Azərbaycan Respublikası valyutası ilə aparılır.

Gömrük rüsumları ödəyicinin arzusu ilə Azərbaycan Respublikası manatı, həm də xarici valyuta ilə həyata keçirilə bilər, xarici valyutanın loırsunu Azərbaycan Respublikası Mərkəzi Bankı müəyyənləşdirir.

Gömrük preferensi sistemi.

Azərbaycan Respublikası "Gömrük tarifi haqqında" Qanuna (maddə 33) uyğun olaraq mallar üzrə tarif güzəştləri (tarif preferensiyaları) Azərbaycan Respublikası Nazirlər kabinetinin qərarı ilə verilir. Tarif güzəştləri (tarif preferensiyaları) dedikdə Azərbaycan Respublikasının ticarət siyasətini həyata keçirərkən qarşılıqlı və ya bir tərəfli qaydada Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mallar üzrə əvvəl ödənilmiş rüsumun qaytarılması, rüsum ödənişlərindən azad etmə, rüsum dərəcələrinin aşağı salınması, malın preferensial gətirilməsi (çıxarılması) üçün tarif kvotaları şəklində verilən güzəştlər başa düşülür. Tarif güzəşti - vergi güzəştlərinin növ müxtəlifliyidir.

Azərbaycan Respublikası "Gömrük tarifi haqqında" qanununa uyğun olaraq tarif preferensiyaları verilir (GM 35 maddə).

Azərbaycan Respublikasının xarici dövlətlərə ticarət-siyasi münasibətləri həyata keçirilərkən aşağıdakı mallar üzrə gömrük rüsumlarından azad etmə, gömrük dərəcələrinin aşağı salınması, yaxud preferensial idxal (ixrac) üçün kvotalar qoyulması kimi güzəştlər verilə bilər:

- Mənşəcə Azərbaycan Respublikası ilə gömrük itdifaqı və azad ticarət zonası da bu cür ittifaqın yaxud zonanın yaradılmasına dair müqavilə imzalamış dövlətlərə mənsub olan mallar;
- Mənşəcə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 5 ildə bir dəfədən az olmamaq şərti ilə dövri olaraq yenidən baxılan milli preferensiya sistemindən istifadə edən, inkişaf etməkdə olan ölkələrə mənsub mallar (maddə 36).

Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" qanu

nuna uyğun olaraq gömrük rüsumlarından azad olunur:

1. Beynəlxalq yük daşımalarım həyata keçirən nəqliyyat vasitələri, baqaj və sərnişinləri, həmçinin yolda hərəkət, aralıq dayanacaqlarda və ya qəzaların (sınıqların) ləğv edilməsi üçün alınmış maddi-texniki təchizat əşyaları, normal istismarını həyata keçirmək üçün yanacaq, ərzaq və digər avadanlıqlar;

2. Azərbaycanın dəniz ovçuluq və azərbaycan şəxsləri tərəfindən arendaya götürülmüş gəmilər Azərbaycan gömrük ərazisinə gətirdiyi məhsullar;

3. Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilmiş və bu ərazidən aparılan xarici ölkələrin rəsmi və fiziki şəxslərinin ödəmədən gətirilməsinə hüququ olan şəxsi istifadəçi üçün gətirilən mallar razılaşmalar və ya Azərbaycan Respublikası qanunvericiliyinə əsasən belə əşyaların gömrük rüsumları;

4. Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda dövlətin dövriyyəsində olan mallar;

5. Xarici investorlar və xarici mütəxəssislərin Azərbaycan Respublikası gömrük ərazisinə nizamnamə fondu kimi gətirilmiş mallar.

6. Azərbaycan Respublikası qanunvericiliyinə uyğun Azərbaycan valyutası, xarici valyuta, həmçinin qiymətli kağızlar;

7. Azərbaycan Respublikası gömrük ərazisinə qəza, fırtına və təbii fəlakətlərin ləğv edilməsi üçün gətirilən humanitar yardımlar.

Preferensiya altında bir dövlətin digər dövlətə qarşılıqlı başlanğıc və bir tərəfli qaydada üçüncü ölkəyə yayılmadan verilən xüsusi güzəştlərdir. Preferensiya rejimi mal idxalına maneçilik edə bilər: birincisi Azərbaycan Respublikası ilə sərbəst ticarət zonası və ya gömrük ittifaqı yaratmış ölkələrdən çıxan, ikincisi Azərbaycanın milli preferens sistemindən istifadə edən, inkişaf etməkdə olan ölkələrdən olan mallar. Azərbaycan Respublikası ərazisinə gətirilən bütün mallara preferensiya rejimi aid edilmir.

## 4. AZƏRBAYCAN GÖMRÜK - TARİF TƏSNİFAT SİSTEMİNİN ƏSASI. XİF MAL NOMENKLATURASI

Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən malların düzgün təsnifləşdirilməsi, xarici ticarət sövdələşmələrinin yerinə yetirilməsi zamanı gömrük məsrəflərinin səmərəliliyinə əvvəlcədən inanmır.

Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mallann təsnifləşdirilməsi Azərbaycan Respublikası xarici fəaliyyətin mal nomenklaturasmın tətbiq edilməsi ilə həyata keçirilir (XİF MN) XİF MN - ilə mallann təsnifləşdirilməsi və kodlaşdınlması gömrük işinin vacib tərkib hissəsidir. Bu və ya digər malın düzgün kodunun müəyyənləşdirilməsindən, gömrük ödəmələrinin hesablanması və alınmasının əsasıdır.

Azərbaycanın XİF MN-xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi məqsədi ilə istifadə olunan və mallann kodlaşdınlması müəyyənləşdirilməsi, onun adları və rəqəmlərlə müxtəsər şəkildə göstərilmiş ölçü vahidləridir.

Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası be)məlxalq təcrübədə qəbul edilmiş mallann təsnifləşdirilməsinə əsasən Azərbaycan Respublikası Hökuməti tərəfindən təsdiqlənir. Xarici-iqtisadi fəaliyyətin mal nomenklaturası xarici iqtisadi fəaliyyətin gömrük-tarif, qeyri-tarif və digər növ xarici iqtisadi fəaliyyətin tənzimlənməsi Azərbaycan Respublikası xarici ticarətinin statistikası tədbirlərinin həyata keçirilməsi üçün tətbiq olunur. XİF MN-si Azərbaycan Respublikası gömrük orqanları tərəfindən həyata keçirilir.

Mallann təsnifləşdirilməsi haqqında gömrük orqanlannm qəran mütləqdir, təmsilçinin belə qərarlardan şikayət etmək hüququ vardır.

Gömrük bəyannaməsində malların kodları təmsilçi və ya broker tərəfindən müəyyənləşdirilir və gömrük bəyannaməsində göstərilir. Bəyannamədə mallann öz adları ilə deyil, yəni XİF MN görə kodların göstərilməməsi gömrük qaydalannm pozulmasıdır.

Azərbaycan Respublikası GM-nə uyğun olaraq malların bəyannamədə düzgün təsnifləşdirilmədiyi zaman gömrük orqanı müstəqil şəkildə malların təsnifləşdirilməsi hüququna malikdir.

Konkret malın XİF MN-na uyğun tosnifləşdirilmosi məsəlosində mürəkkəblik meydana gəldikdə XİF iştirakçısı gömrük orqanına qabaqcadan düzgün qərar alınması üçün müraciət edə bilər. Bunun üçün XİF iştirakçısı münasib gömrük orqanına öncə qərar verilməsi üçün yazılı şəkildə sorğu ilə müraciət edə bilər. Mövcud sorğu öncə düzgün qərar verilməsi üçün bütün məlumatlara malik olmalıdır. Sorğuya mallardan prob və nümunələri, onların təsviri, fotoşəkilləri, şəkil və çertiyojları, kommersiya texniki və digər sənədlər əlavə edilməlidir.

Gömrük tarifi mövcud sxem üzrə malların bölgü siyahısını təşkil edən təsnifləşdirilmə əsasında qurulur.

İlk təsnifləşdirmə 1913-cü ildə gömrük statistikası üzrə Beynəlxalq konfrans iştirakçılarının Brüssel Mal Nomenklaturasında 29 ölkə tərəfindən qəbul edilmişdir.

I. Diri heyvanlar, 7 mal mövqeyi (maddə 1 -7).

II. Ərzaq malları və içkilər, 42 mal mövqeyi (maddə 8-9).

III. Xam və yarımfabrikantlar, 49 mövqeyi (maddə 50-98).

IV. Hazır məmulatlar, 84 mal mövqeyi (maddə 98-182).

V. Qızıl və gümüş emal edilməmiş qızıl və gümüş manetlor, 4 mal mövqeyi (maddə 183-186).

İkinci Dünya müharibəsindən sonra (1950-ci ildə) 13 Avropa ölkələrinin (İngiltərə, Belçika, Yunanıstan, Danimarka, İtaliya, Lüksemburq, Holandiya, Norveç, Portuqaliya, Türkiyə, Fransa, AFR, İsveç) Gömrük Əməkdaşlığı Şurasını təsdiq etmək üçün Konvensiya imzalamışdır. 1951-ci ildə bu konvensiyaya uyğun olaraq gömrük tarifi üçün malların yeni nomenklaturasını işləyib hazırlamışdır. Bu da Brüssel gömrük nomenklaturası adı ilə məşhurdur (əslində ikinci). Mövcud nomenklaturada mallar 21 bölmədən və 99 mal qrupundan ibarətdir. Qruplar mənsubiyyətindən asılı olmayaraq bu və ya digər bölməyə yüksəltmə qaydası ilə nömrələnmişdir. Aşağıda Brüssel gömrük nomenklaturası bölmələrinin adları və mal qruplarının şiffləri verilir.

*Cədvəl 1*

| Bölmə şifrəsi | Bölmələrin adlan | Qrupun miqdan və onlann şifrələri |
|---|---|---|
| I. | **Diri heyvanlar və heyvan mənşəli məhsullar** | **5(01-05)** |
| II. | **Bitki mənşəli məhsullar** | **9 (06-14)** |
| III. | **Bitki və heyvan mənşəli piy və yağlar, onların qarışıq məhsulları; hazırlanmış yeyinti yağları; heyvan və bitki mənşəli liflər** | **1(15)** |
| IV. | **Hazır yeyinti məhsulları, alkoqollu, alkoqolsuz içkilər və sirkələr, tütün** | **9(16-24)** |
| V. | **Mineral məhsullar** | **3 (25-27)** |
| VI. | **Kimya sənayesi məhsulları və onunla əlaqədar sahələrin məhsulları** | **11 (28-38)** |
| VII. | **Süni qətranlar və plastik kütlələr, seliloz efirlər (sadə və mürəkkəb) və onların məhsulları; kau- çuk (təbii, süni) və onların məhsulları** | **2 (39-40)** |
| VIII. | **Dərilər, gön xəz və onların məhsulları; geyim və səfər üçün düzəldilmiş məhsullar; bağırsaqlardan olan məhsullar** | **3 (41-43)** |
| IX. | **Meşə materiallan və ağacdan düzəldilmiş avadanlıq; ağac kömürü, mantar və ondan hazırlanan məmulatlar; qətrandan düzəldilən məmulatlar; digər mişar materiallan** | **3 (44-46)** |
| X. | **İstehsal üçün xam kağız, kağız, karton və onlardan məmulatlar** | **3 (47-48)** |
| XI. | **Tekstil və tekstil məmulatları** | **14 (30-63)** |
| XII. | **Ayaqqabı, baş papaqlan, günəş və yağış üçün çətirlər; pletlər, həmin məmulatların hissələri; onlardan aynimış tüklərdən hazırlanan məhsullar; süni güllər, insan tüklərindən hazırlanan məmulatlar** | **4(64-67)** |

| | | |
|---|---|---|
| XIII. | **Daşlardan hazırlanmış əşyalar, gipsdən, sementdən. Asbesdən, sistlərdən və ona oxşar materiallardan; keramik məmulatlar, şüşə və ondan hazırlanan məmulatlar** | 3(68-70) |
| XIV. | **Mirvari, qiymətli və yarımqiymətli daşlar; qiymətli metallar, məmulatlar, qiymətli metallardan üzləşdirilmiş məlumatlar, pullar** | 2(71-72) |
| XV. | **Qara və əlvan metallar və onlardan olan məmulatlar** | 11 (73-83) |
| XVI. | **Maşınlar və hissələri;elektirik maUan; onlann** | 2(84-85) |
| XVII. | **Nəqliyyat vasitələri və onların hissələri; gəmilər və onların bir sıra hissələri** | 4(86-89) |
| XVIII. | **Optik, foto və kinomotoqrafıya aparat və priborları, ölçü, nəzarət, tibbi cərrahiyyə instrumentlər və aparatları; saatlar; musiqi alətləri; səs yazan və səs əmələgətirən cihazlar; televiziya yazıları və televizorlar üçün avadanlıq və onların hissələri** | 3(90-92) |
| XIX. | **Silah və döyüş sursatı onların hissələri** | 1(93) |
| XX. | **Müxtəlif hazır məmulatlar** | 5(94-98) |
| XXL | **İncəsənət əsərləri, kolleksiya malları və antikvar əşyalar** | |
| | **Cəmi:** | **1(99) 99** |

BMT 1960-cı ildə xarici ticarətdə Beynəlxalq Standart ticarət təsnifatına uyğun uçot aparmağa başladı, bununla yanaşı böyük qrup ölkələr Brüssel gömrük nomenklaturası əsasında bu uçotu həyata keçirməyə başladılar. Beynəbcalq standart ticarət təsnifatı mallarm adlan əsasında əslində Brüssel gömrük nomenklaturasmdakı adlarla eynidir.

Beynəlxalq standart ticarət təsnifatı əsasında mallarm təsnifatı bir neçə əlamətə görə həyata keçirilmişdir. Onların əsaslarından biri məhsulların emalının ardıcıllığı əlamətidir. Beynəlxalq standart ticarət təsnifatında bütün mallar üç əsas sinfə bölünür: xam, yarımfabrikatlar, hazır məhsullar. Beynəlxalq standart ticarət təsnifatı on bölmədən (0-9), 56 ticarət qrupu, 177 ticarət yarımqrupu və 1312

standart ticarət təsnifatının bölmələri, onlann şifrələri və mal qruplarının şifrələri verilir (cədvəl 2).

*Cədvəl 2*

***Bölmələrin adlan, qrupların sayı. Beynəlxalq standart ticarət təsnifatının şifrələri.***

| Bölmələrin şifrələri | Bölmələrin adları | Qrupların sayı və onların şifrələri |
|---|---|---|
| 0 | Ərzaq malları və diri heyvanlar | 10 (00-9) |
| 1 | İçkilər və tütün | 2(11-12) |
| 2 | Qeyri-ərzaq xammalları; yanacaqdan başqa | 9 (21-29) |
| 3 | Mineral yanacaqlar, sürtgülər və ona oxşar mallar | 4 (32-35) |
| 4 | Yağlar və bitki yağları, heyvan mənşəli yağlar | 3 (41-43) |
| 5 | Kimyəvi məhsullar | 9(51-59) |
| 6 | Emal məhsullan, üstün materiallara görə təs-nifatlaşdırılmış | 9(61-69) |
| 7 | Maşınlar, avadanlıqlar və nəqliyyat vasitələri | 3(71-73) |
| 8 | Müxtəlif emal məmulatları | 7(81-86,89) |
| 9 | Münasib bölmələrə daxil edilməmiş mallar və hissələr | |
| | Cəmi | 56 |

Əsas beynəlxalq əmtəə nomenklaturasında müxtəlif təsnifat prinsiplərinin tətbiq edilməsindən irəli gələn çətinliklərin aradan qaldırılması üçün vahid beynəlxalq təsnifatlandırıcımn yaradılması zəruriyyəti meydana çıxdı. Bu elə təsnifatlandırıcı olmalı idi ki, bütün ölkələrdə xarici iqtisadi fəaliyyət iştirakçıları tərəfindən xarici ticarət əməliyyatlannm gömrükxanalarda rəsmiləşdirilməsində istifadə edilə bilsin. Bundan başqa belə təsnifatlandırıcı həm də ayrı-ayrı mallar, mal qrupları və mövqeləri üzrə xarici ticarətin təhlilinin aparılmasına imkan verməli idi.

Müxtəlif vaxtlarda hazırlanmış beynəlxalq nomenklaturaların heç biri ayrı-ayrı ölkələrin və beynəlxalq təşkilatların tələblərinə cavab verə bilmirdi.

Beləliklə, beynəlxalq ictimayət qarşısında ticarət sənədlərinin göstəricilərinin səmərəliləşdirilməsi və ahəngdarlaşdınlması məsələsi öz həllini tələb edirdi. Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (AİK) Gömrük Əməkdaşlığı Şurasına vahid beynəlxalq əmtəə təsnifat sisteminin yaradılmasının mümlcünlüyünü araşdırmaq tapşınğı verdi. Bununla əlaqədar 70-ci illərin sonu 80-ci illərin əvvəllərində mallann təsviri və kodlaşdınimasının ahəngdar (hormonik) sistemi adını almış təsnifləşdirici hazırlanmışdır. Ahəngdarlaşdırılmış sistemin yaranma bazası kimi əvvəlki Brüssel gömrük nomenklaturası və standart beynəlxalq gömrük təsnifatı qəbul edilmişdir. Bununla belə ahəngdar mal təsnifləşdiricisinə yuxanda göstərilənlərin törəməsi kimi baxmaq olmaz. Beləliklə, ahəngdar sistemə mallann təsnifləşdirilməsi üçün yeni çoxməqsədli əmtəə nomenklaturası kimi baxılmalıdır.

1988-ci ilin 1 yanvarında ABŞ-da daxil olmaqla dünyanın 53 ölkəsi beynəlxalq ticarətdə bu sistemə istinad etməyə başlamışlar və ahəngdar sistemin təsviri və kodlaşdınimasının qüvvəyə minməsini elan etmişlər. Hazırda dünya ticarətinin 90%-dən çoxu ABŞ başda olmaqla 150 dövlətdə (ASƏN) Ahəngdar Sistemin Əmtəə Nomenklaturasından istifadə edirlər.

Ahəngdar Sistemin Əmtəə Nomenklaturası (ASƏN) 21 bölmədən və 99 qrupdan ibarətdir. Bununla belə təsnifləşdirilmə qruplaş- dırılması əvvəlki təsnifləşdirmələrdən xeyli fərqlənir. ASƏN nomenklaturasma 86 qrup, 33 yanmqrup, 1241 mövqe, 3553 yarım mövqe, 5019 submövqe daxildir.

ASƏN-nin 21 bölməsi üzrə mallann təsnifatının özəyini təşkil edən müxtəlif əlamətlərin əsasları aşağıdakılardır:

- mənşə (I, II, V);
- funksional təyinat (IV, XII, XVII, XVIII, XIX, XX, XXI);
- kimyəvi tərkib (III,VI,VII);
- əmtəənin hazırlandığı material (VIII, IX, X, XIII, XIX, XV).

ASƏN-də qruplar əmələ gələrkən malların emal ardıcıllığı prinsipi-xammaldan yarımfabrikat və hazır məhsul alınmasında istifadə olunur; malların qruplaşdırılması mövqe və submövqedən

lir; qalan növlər üçün isə ümumiləşdirilmiş “digər” təsnifat qruplanlaşdınlması nəzərdə tutulur.

Mal yanmqrupları, mövqeləri və submövqelərinin quruluşunda öz əlamət dəstindən istifadə edilir. Bu əlamətlər aşağıdakılardır: malın təyinatı, onun emal dərəcəsi, hazırlandığı material növü, dünya ticarətində xüsusi çəkisi.

Ahəngdar sistemdə bölmə və yarımqruplann işarələnməsi üçün rum rəqəmlərindən, qrup mal mövqeyi və submövqelərin işarələnməsi üçün ərəb rəqəmlərindən istifadə edilir (cədvəl 3).

*Cədvəl 3*

**Ahəngdar sistemin əmtəə nomenklaturasının strukturu**

| kod | Bölmo | Vl tO "o, 3 a | U« o, 2 o* B r: | Mal | | |
|---|---|---|---|---|---|---|
| | Adı | | | a> cr > :0 | d u C ^ B | > d o ^ çy 3 00 |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| I | **Diri heyvanlar və heyvandarlıq məhsulları.** | 5 | - | 44 | 115 | 194 |
| II | **Bitki mənşəli məhsullar.** | 9 | - | 79 | 220 | 270 |
| III | **Heyvan və bitki mənşəli piylər və yağlar, onların parçalanma məhsulları, hazır yeyinti piyləri, heyvan və bitki mənşəli mumlar.** | 1 | | 22 | 44 | 53 |
| IV | **Yeyinti sənayesi məhsulları; spirtli və spirtsiz içkilər, sirkə, tütün və onun əvəzediciləri.** | 9 | | 56 | 160 | 181 |
| V | **Mineral maddələr.** | 3 | - | 67 | 131 | 151 |
| VI | **Sənayenin kimya və onunla bağlı sahələrinin məhsulları.** | 11 | - | 19 | 176 | 759 |
| VII | **Plasmasslar və onlardan hazırlanan məhsullar, kauçuk və rezin məmulatlar.** | 2 | 2 | 43 | 138 | 189 |
| VIII | **Gön-dəri xammalı, dəri, yumuşaq xəz, xəz xammalı və məmulatlar; sərraclıq məmulatları, yol ləvazimatı, çanta və oxşar əşyalar, bağırsaqlardan düzəldilən məhsullar (kerqutdan başqa).** | 3 | | 21 | 50 | 74 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| IX | Oduncaq ve oduncaq məmulatları; ağac kömürü; mantar və məhsulları; saman, hazır və digər toxuma üçün materiallar, səbət və digər oxşar toxuma məhsulları. | 3 | | 27 | 59 | 79 |
| X | Kağız kütləsi (oduncaq, yaxud digər lifli bitki mənşəli materiallardan)kağız və karton tullantıları və məhsulları, kağız və onlardan hazırlanan məhsullar. | 3 | | 41 | 117 | 149 |
| XI | Toxuculuq məhsulları (tekstil) və onlardan hazırlanan məmulat. | 14 | 3 | 149 | 432 | 809 |
| XII | Ayaqqabı,baş geyimləri, çətirlər, əsa, qamçı, tatan və hissələri, quş tükü, lələk, pərgü məmulatları, süni güllər, tük məmulatları. | 4 | | 20 | 42 | 55 |
| XIII | Daş, gips, sement, asbest, siyuda və bu kimi materiallardan hazırlanmış məhsullar; keramika məhsulları; şüşə və ondan olan məmulatlar. | 3 | 2 | 49 | 112 | 138 |
| XIV | Təbii və ya yetişdirilmiş mirvari, qiymətli və az qiymətli daşlar, qiymətli metallar, qiymətli metallarla örtülmüş qeyri nəcib metallar və onlardan hazırlanmış məmulatlar, sikkələr, bijuteriya. | 1 | 3 | 18 | 40 | 52 |
| XV | Qara və əlvan metallar, onlardan hazırlanan məmulatlar. | 11 | 4 | 157 | 418 | 587 |
| XVI | Maşınlar, avadanlıqlar və mexanizmlər; elektrik avadanlığı; onların hissələri; televiziya təsvirlərinin və səslərinin yazılması və canlandırılması üçün aparatlar, onlann hissələri və ləvazimatları. | 2 | | 133 | 561 | 762 |
| XVII | Yerüstü, hava və su nəqliyyatı vasitələri, onların hissələri və ləvazimatı. | 4 | | 38 | 100 | 132 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| XVIII | Optik, fotoqrafıya, kinemotoloqrafıya, nəzarət, ölçü, tibbi və cərrahi cihaz və aparatlar; saatlar; musiqi alətləri; onların hissələri və ləvazimatları. | 3 | | 56 | 184 | 230 |
| XIX | Silah və döyüş sursatları, onların hissələri və ləvazimatları. | 1 | - | 7 | 15 | 17 |
| XX | Müxtəlif sənaye malları. | 3 | - | 32 | 108 | 131 |
| XXI | İncəsənət əsərləri, kolleksiya əşyaları və əntiq əşyalar. | 1 | - | 6 | 7 | 7 |
| | Yekun | 96 | 33 | 1241 | 3558 | 5019 |

**Azərbaycanın idxal tarifinin strukturu dünyanın qəbul edilmiş Ahəngdar sistemin təsviri və malların kodlaşdırılması Ümumdünya Gömrük Təşkilatı tərəfindən işlənilmiş qaydalara uyğun gəlir.**

## Malların təsviri və kodlaşdırılmasmın ahəngdar sistemi

**Azərbaycan Respublikanın Gömrük Məcəlləsinin 212-ci maddəsinə əsasən Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası (XİF MN) Azərbaycan Respublikası Hökuməti tərəfindən beynəlxalq təcrübədə istifadə edilir.**

**Malların təsviri və kodlaşdınıması ahəngdar (hormonik) sistemin əsasında təsdiq edilir.**

**Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında hal-hazırda tətbiq edilən xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası Ahəngdar sistemi Avropa Birliyinin kombinə edilmiş əmtəə no- menklaturasının əsasında və onlara uyğun tərtib edilmişdir.**

**Xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası xarici ticarət və digər xarici iqtisadi fəaliyyət növlərinin, Azərbaycan xarici ticarət statistikasının aparılması, gömrük-tarif tənzimləmə tədbirlərinin həyata keçirilməsi üçün tətbiq edilir.**

**Hər bir gömrük sərhəddindən keçirilən mal gömrük tarifində əmtəə nomenklaturasmda öz yerini tapmalıdır. Gömrük məqsədləri üçün beynəlxalq ticarətə müraciət edən mallar xarici iqtisadi fəaliyyətin Mal Nomenklaturasmda sistemləşdirilir. Gömrük məqsədləri üçün malların təsnifləşdirilməsi gömrük tənzimlənmələrinə**

görə malların identifıkasiyasına imkan verir.

Mallann yerindən asılı olaraq XİF MN gömrük tarifi stavkasının seçilməsi asılıdır. Konkret mala qarşı iqtisadi siyasət tədbirlərinin (kvotlaşdırılması, lisenziyalaşdırılması) tətbiq edilməsi imkanları mümkündür.

XİF MN tətbiq edilən malın işarə kodu 8 rəqəmdən ibarətdir. 1-6-cı rəqəmlər ASƏN qəbul edilmiş kod işarəsinə, 7-8-ci rəqəmlər ABKN koduna uyğun gəlir, 9-cu dərəcə isə ənənəvi milli mallara uyğun olaraq tətbiq edilir. Hələlik mal mövqeləri daha dərin detal-laşdırılmadığından 9-cu rəqəm sıfır (0) qəbul edilir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 10-cu maddəsinin 12-ci bəndində, eləcədə 210-212-ci maddələrinə görə xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasının bilavasitə aparılması və təkmilləşdirilməsinin əsas funksiyalarından olub gömrük orqanları tərəfindən həyata keçirilir.

1997-ci ildən fəaliyyətdə olan MDB ölkələrinin Xarici İqtisadi Fəaliyyəti Vahid Əmtəə Nomenklaturası (1 aprel 2000-ci il) nəşri gömrük sənədlərinin unifıkasiyası və gömrük əməliyyatının sadələşdirilməsi prosesini əks etdirir. Ahəngdar sistemdə baş vermiş dəyişikliklər nəzərə alınmış submövqe səviyyəsindəki kod dəyişiklikləri nəzərə alınmış bəzi submövqelər ümumiyyətlə çıxarılmışdır.

MDB-nin XİF MN uyğun olaraq malların kodunun təyinin texnologiyası.

Malların kodunun düzgün təyin edilməsi üçün MDB XİF MN-nin 3 tərkib hissəsindən nomenklatura hissəsi bölmə və qruplara qeydlər, MDB XİF MN-in əsas interpretasiya qaydalarından istifadə edilməlidir.

Əsas interpretasiya qaydaları kodun təyini üçün komplekt vasitə hesab edilir. Belə qaydalar 6-dır. Birinci 5 qaydada əsasən mal mövqeyi (ilk 4 işarə) qaydaya əsasən 6-cı submövqe (V və VI dərəcə) və yarım submövqe (VII,VIII və IX dərəcələr) tapılır.

**Birinci qayda:**

Bölmələrin, qruplann və yarımqrupların adları MDB XİF MN

işdə rahat istifadə edilməsi üçün nəzərə alınır: hüquqi məqsədlər üçün XİF MN-də malların təsnifatı mal mövqelərinin məmindən, bölmə və qruplara qeydlərindən çıxış edilməklə həyata keçirilir.

İkinci qayda:

a) Mal mövqeyinin adındakı hər hansı qeyd şərti belə malın kompleksləşdirilməmiş, yaxud tamamlanmamış şəklində aid edilməlidir, bu şərtlə ki, komplektləşdirilmiş və tamamlanmamış halda da bu mal bitkin malın əsas xüsusiyyətlərini özündə əks etdirmiş olsun.

Təcrübədə bir çox mallar komplektləşdirilməmiş və ya bitirilməmiş yaxud yığılmamış (sökülü) vəziyyətdə göndərilir. Belə halda göndərilən mal komplekt və bitkin malın xassələrinə malik olmalıdır. Yəni göndərilən mal dərhal istifadəyə hazır deyil, amma hazır məmulatın təqribi formasına malikdir və bəzi əməliyyatlar sayəsində tamamlana bilər.

Bu qaydanın əsas ideyası ondan ibarətdir ki, baxılan mallar bitgin mallarla eyni mövqedə yerləşir.

b) Mal mövqeyinin adındakı hər hansı qeyd şərti belə malın qarışıq və birləşməsinə də aid edilməlidir. Hər hansı bir materialdan əmələ gələn mala aid olan qeyd şərt tamamilə yaxud qismən bu materialdan ibarət olan mala da şamil edilir.

Üçüncü qayda:

Əgər ikinci qaydanın b) bəndinə yaxud bu və ya digər səbəbdən malın iki və ya daha artıq mal mövqeyinə aid edilməsi mümkündürsə belə mallann təsnifatı aşağıdakı kimi həyata keçirilir:

A) O mal mövqeyinə üstünlük verir ki, malın daha konkret təsvirini müəyyən edir. Bununla belə, əgər iki yaxud daha çox mal mövqeyindən hər biri çox komponentli, məmulatın yaxud qarışığın yalnız bir hissəsinə aiddirsə, onlardan birinin daha dəqiq təsvir verdiyinə baxmayaraq belə mal mövqelərə bərabər əhəmiyyətli hesab edilir.

B) Müxtəlif materiallardan ibarət yaxud müxtəlif komponentlərdən hazırlanmış qarışıq və çox komponentli məmulatın yaxud bu qaydanın a) bəndi ilə təsnifatlaşdırıla bilməyən mallar

ların əsas xüsusiyyətlərini səciyyələndirən material və tərkib hissəsinə görə təsnifatlaşdırılmalıdırlar (əgər bu meyar tətbiq edilə bilirsə).

C) Təsnifatı 3 a) və b) qaydalarına görə təsnifatlaşdınla bilməyən mallar mal mövqeləri içərisində kodun böyüməsi qaydasına axınncı mövqedə təsnifatlaşdırılmalıdır.

**Dördüncü qayda:**

İlk üç qayda ilə təsnifatlaşdınla bilməyən mallar baxılan mallara ən uyğun (yaxın ) olan malların mövqeyində təsnifatlaşdmimalıdırlar.

**Beşinci qayda:**

Müəyyən məmulatların yaxud məmulatlar qrupunun saxlanılması üçün nəzərdə tutulan və ya xüsusi forması olan qab-tara mənsub olduğu mallarla birgə təqdim edilirsə, qablaşdırdığı məmulatlarla birgə (məsələn, musiqi aləti və çexolu, foto aparatlar, çertiyoj avadanlığı) təsnifatlaşdırılmalıdır.

**Altıncı qayda:**

Hüquqi məqsədləri üçün hər hansı mal mövqeyinin submövqeyindən malların təsnifatı submövqelərə və onlara aid qeyd-şərtlərə uyğun olaraq bir səviyyədəki submövqelərin müqayisə edilə bilən olması şərti ilə həyata keçirilə bilər, bu qaydaların məqsədləri üçün həmçinin bölmə və qruplara qeyd-şərtlər əgər başqa şey nəzərdə tutulmamışdırsa tətbiq edilə bilər.

Bu qaydanın bir səviyyədəki submövqelərin müqayisəsi baxımından şərtə ehtiyacı var. Məsələ bundadır ki, ahəngdar sistemin xüsusiyyətlərindən biri də "défis" sisteminin mövcudluğudur. Défis sistemi detallaşdırılan submövqelərin və yarımsubmövqelərin ad- lannm qarşısında müəyyən sayda xətlərin (defisləri) qoyulmasını nəzərdə tutur.

Defislərin sayı submövqenin səviyyə nömrəsinə bərabər olur. Müxtəlif sayda defislərin qoyulması detallaşdırıİmanın dərinliyini göstərir və müəyyən edilmiş alqaritm üzrə (azdan çoxa) uyğun mal-

## 5. MALIN MƏNŞƏ OLKƏSI VƏ ONUN TƏYİN EDİLMƏSİ MEYARLARI

Mallann mənşə ölkəsinin təyin edilməsi bütün hallarda gömrük tarif tənzimlənmə tədbirlərinin həyata keçirilməsi zamanı, mallara qarşı qadağa və məhdudiyyətlərin tədbiqi ilə bağlıdır. Eyni zamanda bu iş Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin, Azərbaycan Respublikasının GM-nın 41 fəslinin 222-223-cü maddələrinin qaydaları ilə müəyyənləşdirilir.

Malların mənşə ölkəsinin təyin edilməsi qaydaları tarif preferensiyalarının və ya qeyri preferensial tədbirlərin həyata keçirilməsi siyasətini daşıyır.

Mənşə ölkəsi malın tam şəkildə istehsal edildiyi və ya GM-də müəyyən edilmiş kriteriyalara uyğun əsaslı surətdə təkrar emala məruz qaldığı ölkə hesab edilir.

Bununla belə malın mənşə ölkəsi kimi qrup ölkələr, və ya gömrük ittifaqı ölkələri, region və ya ölkənin bir hissəsi başa düşülə bilər. Bu şərtlə ki, ölkənin mənşə ölkəsi kimi ayrılması zəruriyyəti yaranmış olsun. Təmsilçinin və ya digər maraqlı şəxsin sorğusu əsasında gömrük orqanı malın mənşə ölkəsi haqqında ilkin qərar qəbul edir.

Malın tam istehsal olunduğu ölkə hesab edilir:

1) mövcud ölkənin ərazisi, dəniz ərazi suları, onun dənizinin dibi təkindən çıxarılmış faydalı qazıntılar;
2) mövcud ölkənin ərazisində yetişdirilən və yığılan bitki mənşəli məhsullar;
3) mövcud ölkədə yetişdirilən və doğulan heyvanlar;
4) mövcud ölkədə yetişdirilmiş heyvanlardan alınan məhsullar;
5) mövcud ölkə ərazisində ovlanmış heyvan və balıqçılıq məhsulları;
6) mövcud ölkənin gəmiləri ilə tutulan balıq dəniz məhsulları;
7) mövcud ölkənin gəmiləri ilə dənizlərdən tutulmuş və həmin ölkənin gəmilərində emal olunmuş balıq məhsulları;
8) mövcud ölkə istehsalından alınan, qırıntı və metal hissələri, əv-

vəllər istifadə edilmiş məmulatlar və həmin ölkədə təkrar emal üçün toplanmış materiallar;

9) kosmik obyektin sahibi kimi qeydiyyatdan keçmiş həmin ölkənin yüksək texnoloji məhsulları;

10) yuxarıda göstərilən məhsullardan həmin ölkədə tam şəkildə istehsal olunmuş məhsullar;

11) lazımı qədər emal edilmə kriteriyaları.

Lazımı qədər emal edilmə kriteriyası o vaxt tələb olunur ki, malın istehsalında iki və daha çox ölkə iştirak edir.

Əgər malın istehsalında iki və daha çox ölkə iştirak edirsə onda mənşə ölkəsi, axırıncı emal prosesinin aparıldığı ölkə hesab edilir.

Əgər bir ölkədə istehsal olunmuş mallar Azərbaycan Respublikası gömrük ərazisinə gətirilirsə onda heç bir araşdırma aparılmadan ümumi qaydalar tədbiq edilir.

Mal 0 vaxt həmin ölkə mənşəli hesab olunur ki, malın təkrar emalı zamanı XİF MN-nm təsnifat kodunun dəyişilməsinə səbəb olsun.

Beynəlxalq gömrük hüququnun mənbələrindən biri olan gömrük əməliyyatlanmn sadələşdirilməsi və harmonikləşdirilməsi barədə Kyoto Konvensiyasında mənşə ölkəsinin təyini üçün beynəlxalq ticarət təcrübəsində istifadə edilən üç əsas meyar müəyyən edilmişdir.

1. Emal edilmə meyarı malı idxala verilmiş ölkələri ərazisidə elə yenidən emal dərəcəsini nəzərdə tutur ki, malın əmtəə təsnifatında mövqeyini dəyişir, yəni gömrük tarifinin tətbiq edildiyi bir mal mövqeyindən digərinə keçirir. Malın onu yeni təsnifat mövqeyinə keçirən yenidən emalı əsas verir ki, emalın həyata keçirildiyi ölkənin ərazisindən çıxmış yeni mal kimi baxılması və bu ölkənin mənşə ölkəsi kimi hesab edilməsi mümkün olsun.

2. Faiz tərkibi meyarı hazır məhsulun axır dəyərində xarici material və komponetlərin son hədlərini müəyyən edir.

3. Mənşə ölkəsinin yalnız malın tam istehsal edildiyi ölkə hesab ediləcək malların siyahısının müəyyən edilməsi. Belə mallara faydalı qazıntılar, canlı heyvanların məhsullardan istehsal edilən bütün (məhsullar) mallar, “Gömrük tarifi haqqında” Azərbaycan Respub-

likasının qanunun 26-cı maddəsində tamamilə həmin ölkədə istehsal edilmiş sayılan malların siyahısı verilmişdir.

Müasir elmi-texniki tərəqqinin reallığının tərənnümü kimi tamamilə göstərilən ölkədə istehsal edilmiş mallann siyahısının həmin ölkəyə məxsus, yaxud icarəyə götürüldüyü kosmik gəmilərdə və onların vasitəsilə açıq kosmosda alınmış yüksək texnologiya məhsulları da aid edilir.

Malın mənşəyinin təyin edilməsində kifayətedici emal meyarından malın istehsalında iki və daha artıq ölkə iştirak etdikdə istifadə edilir. Bu meyara görə malın mənşəyi onun axırıncı kifayət qədər emala məruz qaldığı, yəni mala səciyyəvi xassələr verildiyi qədər emala məruz qaldığı ölkə hesab edilir.

Kifayət qədər emal edilmə meyarının ifadə formaları aşağıdakılar ola bilər:

1) mal mövqeyinin dəyişilməsi qaydası-emal nəticəsində əmtəə nomenklaturası üzrə təsnifat kodunun hər hansı (əmtəə) ilk dövr rəqəm səviyyəsində dəyişməsi;

2) advalor hissə qaydası-malın dəyərinin istifadə edilən malların və ya əlavə edilmiş dəyərin faiz payının (qiymətin) müəyyən hissəsinə çatdığı səviyyədə dəyişməsi.

3) malın mənşə ölkəsindən olduğunu hesab etməyə kifayət edən, yaxud kifayət etməyən istehsal və ya texnoloji proseslərin siyahısının tərtib edilməsi.

Qeyd etmək lazımdır ki, mal mövqeyinin dəyişilməsi qaydasından istifadə edildikdə, istisna, halda istehsal yaxud texnoloji əməliyyatları əks etdirən siyahılar tədbiq edilə bilər. Bu əməliyyatlar mal mövqeyinin dəyişməsinə gətirib çıxarsa da, kifayətedici emal əlamətləri hesab edilmir, ya da yalnız müəyyən şərtlər daxilində belə hesab edilir.

Advolar hissə qaydasında kifayətedici emal meyarı kimi istifadə edildikdə dəyər göstəriciləri aşağıdakılar üzrə hesablanır:

a) idxal edilmiş materiallar üçün-gömrük dəyəri üzrə və yaxud mənşəyi məlum deyilsə, istehsal ölkəsi ərazisində ilk satış üzrə müəyyən edilmiş qiymətlərlə;

b) hazır mallar üçün-franko-zavod yaxud satıcının ixrac qiymətləri üzrə.

Əgər konkret mallar üzrə onların mənşəyinə görə əlahiddə meyarlar müəyyən edilmirsə ümumi qayda tədbiq edilir və bu da o deməkdir ki, mal o zaman kifayət qədər emal hesab edilir ki, mal mövqeyi əmtəə nomenklaturasında hər hansı ilk dövr rəqəm səviyyəsində dəyişilmiş olsun.

Kifayətedici emal meyarının tələblərinə aşağıdakı əməliyyatlar aid edilə bilməz:

a) mallann saxlanması və nəql edilməsi zamanı onların mühafizəsini təmin edən əməliyyatlar;

b) malların satışı və nəql etməyə hazırlanması əməliyyatları;

v) sadə yığma əməliyyatları;

q) ilkin mallardan seçilməyən dərəcədə mallann xassələrini dəyişən qarışdırma əməliyyatları;

c) mal-qaranın kəsilməsi.

İstehsal və nəql etmə şəraitinə görə bir partiyada göndərilə bilməyən sökülmüş yaxud yığılmamış halda olan əşyalar bir neçə partiya halında göndərilirsə, mənşə ölkəsi nöqteyi-nəzərində vahid əşya kimi baxılmalıdır.

Bu qaydanın tədbiq şərtləri aşağıdakılardır:

1) müvafiq gömrükxananm malın bir neçə partiyaya bölünməsi, partiyanın müfəssəl spesifikasiyası, malın dəyəri və mənşə ölkəsi barədə xəbərdar edilməsi;

2) bütün partiyaların bir ölkədən, bir idxalaçı tərəfindən göndərilməsi;

3) bütün partiyaların bir gömrükxanadan verilməsi;

4) bütün mal partiyalarının göndərilməsi altı aydan artıq vaxt almamalıdır.

Malın mənşə ölkəsinin təyini məqsədləri üçün istehsalda istifadə olunan enerji, maşın və avadanlıqların mənşəyi əhəmiyyət kəsb etmir.

Malın hər hansı ölkənin gömrük ərazisindən mənşələndiyinin təsdiqi kimi gömrük orqanlarına malın mənşə sertifikatı təqdim

edilməlidir.

Bu sənət malın mənşəcə mənsub olduğu ölkənin səlahiyyətli orqanı tərəfindən verilir.

Bu sertifikatların nümunələri 1 saylı əlavədə göstərilir.

MBD üzv dövlətlər sertifikatları təsdiq etmək səlahiyyətli olan orqanlann imza və möhür nümunələri müqayisə məqsədi ilə mübadilə edirlər. Bu nünunələr təqdim edilmədikdə sertifikatlar etibarsız hesab edilir və bu mallara tarif və vergi preferensiyalan tədbiq edilmir.

Sertifikat verildiyi mal barədə aşağıdakı vacib məlumatları özündə əks etdirilməlidir:

a) ixracatçının adı və ünvanı;
b) idxalatçının adı və ünvanı;
v) daşınma vasitəsi və gediş istiqaməti;
q) yerlərin sayı və növü, malın təsviri malın eyniləşdirilməsi üçün vacib olan bütün məlumatlar;
c) brutto və netto çəkisi.

Sertifikat malın sənəddə göstərildiyi ölkədən mənşələndiyini bir mənalı şəkildə şəhadətləndirilməlidir.

Sertifikat gömrük orqanlarına Yük Gömrük Bəyannaməsi və gömrük rəsmiləşdirilməsi üçün tələb olunan digər sənədlərlə birgə təqdim olunmalıdır. Sertifikat itirildikdə təsdiq edilmiş surəti təqdim edilir. Müəyyən edilmiş qaydada rəsmiləşdirilmiş mənşə sertifikatının və ya malın mənşəyi barədə məlumatların təqdim edilməsi malın gömrük sərhəddindən buraxılması əsas ola bilməz. Bunun üçün Ölkənin beynəlxalq sazişlər və digər öhdəlikləri yaxud qanunvericiliklə müəyyən edilmiş müddəalar əsas götürülə bilər.

Bəzi hallarda mənşə sertifikatı tarif preferensiyalarının tədbiq edilməsi üçün yetərli olmaya bilər.

Yoxlama sualları

1. Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsinin əsasında nə durur?
2. Gömrük tarifi nədir? Onun elementlərini say.
3. Gömrük rüsumları nədir və o digər gömrük ödəmələrindən nə

ilə fərqlənir?

4. Gömrük rüsumları stavkalannın hansı növləri vardır? Və bu stavkaların miqdarını kim müəyyən edir?
5. Mövsümi və xüsusi rüsumlar nəyi ifadə edirlər?
6. Azərbaycan Respublikasında gömrük rüsumlarının hansı növləri tətbiq olunur?
7. Mənşə ölkəsindən asılı olaraq idxal gömrük rüsumlarının stavkaları necə dəyişir?
8. Xüsusi müdafiə rüsumları nəyi ifadə edir?
9. Mallara nə vaxt antidempinq tədbirləri tətbiq edilə bilər?
10. "Tarif güzəştləri" "tarif preferensləri" bunlar eyni şeylərdinni? Əgər deyilsə onda hər birini ayrılıqda xarakterizə edin və fərqlərini göstərin?
11. XİF MN-nı kim təsdiq edir?
12. XİF MN-sı nə üçün tətbiq edilir?
13. Ayrı-ayn növ malların təsnifləşdirilməsi haqqında qərarı kim qəbul edir və göstərilən qərarın dərc olunmasını kim təmin edir?
14. Gömrük orqanları tərəfindən malların təsnifləşdirilməsi haqqında öncədən qərarın qəbul edilməsi qaydası?
15. Mallar nə vaxt təsnifləşdirməyə məruz qalır?
16. Azərbaycan Respublikası xarici iqtisadi fəaliyyətin Mal Nomenklaturası necə qoyulub?
17. Azərbaycan Respublikası XİF MN hansı kod işarələrinə malikdir?
18. Malların mənşə ölkəsi haqqında təsdiqləyici sənəd hansı hallarda təqdim edilir?
19. Hansı mallar mövcud ölkə tam istehsal olunmuş hesab edilir?
20. Əgər malın istehsalında iki və daha çox ölkə iştirak edirsə, onda mənşə ölkəsini necə müəyyənləşdirirlər?
21. Malın mənşəyi haqqında sertifikat özündə nəyi təqdim edir?
22. Malın mənşə ölkəsi haqqında bəyannamənin təyinatı nədən ibarətdir?
23. Hansı hallarda malın mənşə ölkəsinin təsdiqlənməsi üçün sənəd tələb olunmur?

## Mövzu 4. Test tapşırığı

**1. Gömrük dəyərindən faizlə hesablanmış mallardan alınan gömrük rüsum dərəcələri nəcə adlanır.**

a) spesifik;
b) advolor;
v) kombinə olunmuş; q)
baza.

**2. Azərbaycan Respublikasında gömrük rüsumlarının miqdarını dəyişməyə və müəyyən etməyə kimin hüququ var?**

a) Azərbaycan Respublikası Milli Məclisi;
b) Azərbaycan Respublikasının
Prezidenti; v) Azərbaycan Respublikası
Hökuməti;
q) Respublika gömrük xidməti;
d) Azərbaycan Respublikası Vergilər Nazirliyi.

**3. Azərbaycan Respublikası gömrük ərazisində artan idxalın məhdudlaşdırılması üzrə tədbirlər-bunlar:**

a) antidempinq tədbirləri;
b) kompensasion tədbirlər;
v) xüsusi müdafiə tədbirləri;
q) xüsusi rüsumlar;
d) kvotaların tətbiq edilməsi.

**4. Gömrük rüsumlarının hansı növləri mövcuddur?**

a) idxal, ixrac, mövsümü, xüsusi;
b) advolar, spesifik, kombinə olunmuş;
v) gətirilən və aparılan, mallardan rüsumlar,
q) advolar, mövsümü, xüsusi.

**5. Gömrük rüsumlarının dərəcələri harada göstərilir?**

a) gömrük bəyannaməsində, gömrük məqsədləri üçün vacib sənədlərdə həmçinin Ödəmə sənədlərində, və ya digər sənədlərdə;
b) Azərbaycan Respublikası gömrük tarifində;
v) Azərbaycan Respublikası "Gömrük tarifi haqqında" qanunda;
q) Azərbaycan Respublikası Gömrük Məcəlləsində.

**6. Gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsumlarının miqdarı dərəcələri nəcə adlanır?**

a) baza;

b) dəyişdirilmiş;

v) cəmlənmiş;

q) sürüşkən.

**7. Malların qismən emal olunduğu və bu emalının faiz payı emal zamanı istifadə olunan materialın nəticəsində bu ölkəyə göndərilən cəmlənmiş qiymət payını ötmüş olduğu halda o ölkəni mənşə ölkəsi hesab etmək olarmı?**

a) olar;

b) olmaz;

v) olar, ancaq bu şərtlə ki, XİF MN-na görə bu mailin təsnifləşdirilmə kodu altıncı işarədən aşağı olmayaraq dəyişmiş olsun;

q) əvvəlki qiyməti emaldan sonrakı qiymət üstələyirsə olar.

**8. Aşağıda sadalananlardan hansı qanunun qüvvəsi ilə tarif güzəşti kimi baxıla bilər?**

a) əvvəl ödənilmiş gömrük rüsumlarının qaytarılması;

b) gömrük rüsumlarından azad etmə;

v) gömrük rüsum dərəcələrinin aşağı salınması;

q) malların gətirilməsinə (apanlmasına) preferensial tarif kvotlannın müəyyənləşdirilməsi;

d) bütün yuxarıda göstərilən variantlar qanuna görə tarif güzəştlərinin növmüxtəlifliklərididir.

**9. Gömrük rüsumları alınarkən xüsusi üstünlük bir qurup ölkələrin bütün və ya bir sıra mallarına verildiyi halda, digər ölkələrin eyni mallarına aid edilmir-bunlar:**

a) gömrük üstünlüyü;

b) tarif güzəştləri;

v) tarif preferensiyaları.

**10. Gömrük sərhədindən malların keçirilməsi zamanı malların alınan gömrük rüsumlarının dərəcələrini göstərməklə sistemləşdirilmiş siyahısı-budur:**

a) gömrük rüsumlan;

b) gömrük tarifinin növü;

v) gömrük tarifi;

q) xarici ticarətin tənzimlənməsinin tarif metodu.

**11. Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən XİF MN-na uyğun təsnifləşdirilməsi:**

a) bu gömrük orqanlarının müstəsna vəzifəsidir, ancaq onlar bunu həyata keçirməlidirlər;

b) bu təmsilçinin sərəncamındadır;

v) təmsilçi tərəfindən müstəqil aparıla bilər, ancaq nəticədə

q) həm gömrük orqanları, həm də digər dövlət orqanları və müəssisələr tərəfindən həyata keçirilə bilər, son nəticədə gömrük məqsədləri üçün istifadə ediləcək.

**12. Gömrük işində mallann mənşə ölkəsi dedikdə nə başa düşülür?**

a) malların tam şəkildə istehsal edilib buraxıldığı və ya Azərbaycan Respublikası GM-nə uyğun müəyyən edilmiş tələblərə uyğun lazımı qədər emala məruz qaldığı ölkə;

b) malların tam şəkildə istehsal olunduğu (ölkə qurupları, ölkələrin gömrük ittifaqları, region və ya ölkənin bir hissəsində) və ya Azərbaycan Respublikası GM tələblərinə uyğun lazımı qədər emala məruz qaldığı ölkə;

v) malların tam istehsal olunduğu region və 'ölkənin bir hissəsində və ya Azərbaycan Respublikası GM müəyyən etdiyi tələblərə uyğun lazımı qədər emala məruz qaldığı ölkə;

q) tamamilə Ibir ölkədə və ya ərazidə istehsal edilmiş mallar həmin ölkə və ərazi mənşəli mallar hesab olunur.

**13. Gömrük ödənişləri alarkən hansı məqsədlər üçün mənşə ölkəsini müəyyənləşdirmək lazımdır?**

a) gömrük güzəştlərinin verilməsi məqsədilə;

b) mallann keyfıyəti və təhlükəsizliyinin yoxlamiması məqsədi ilə;

v) xarici ölkələrlə, xarici ticarətin statistikası məqsədilə;

q) bir sıra ölkələrin idxal mallarının qarşısının alınması üçün.

**14. Malların mənşə ölkəsini müəyyən edən zaman hansı məqsədli üçün lazımı qədər emal olunması kriteriyası tələb olunur?**

a) mal İm istehsalında iki və daha çox ölkənin iştirak etdiyi halda;

b) mailin istehsalında gömrük ittifaqında birləşmiş ölkələr iştirak etdikdə;

v) təmsilçi tərəfindən aşağıdakı gömrük prosedurları bəyan edildikdə; gömrük ərazisində emal, daxili tələbat üçün emal, gömrük ərazisindən kənarda emal.

**15. Gömrük işində malların mənşəyi haqqında bəyan edilmə altında nə başa düşülür?**

a) mallarm istehsal olunduğu mənşə ölkəsini təstiq edən sənəd;

b) malların mənşə ölkəsini bir mənalı təsdiqləyən ölkə və ya ölkələrin səlahiyyətli təşkilatları tərəfindən verilmiş sənəd;

v) mallara aid olan kommersiya və ya digər sənəd.

**16. Gömrük işində malların mənşəyi haqqında sertifikat dedikdə nə anlaşılır?**

a) mallarm mənşə ölkəsini təstiq edən sənəd;

b) mallann mənşə ölkəsinin bir mənalı təstiq edən sənədə və ya səlahiyyətli orqan və təşkilatlar tərəfindən verilən sənəd;

v) mallara aid olan, mallarm mənşə ölkəsini təsdiq edən

**MÖVZU 5.**
**GÖMRÜK PROSEDURLARI, ONLARIN MAL VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN KEÇİRİLMƏ SİSTEMİNDƏKİ SPESİFİK XÜSUSİYYƏTLƏRİ**

1. Gömrük prosedurları anlayışı, toyinatı və mahiyyəti.
2. Əsas gömrük prosedurları.
3. İqtisadi gömrük prosedurları.
4. Yekunlaşdırıcı gömrük prosedurları.
5. Xüsusi gömrük prosedurları.

## 1. GÖMRÜK PROSEDURLARI ANLAYIŞI, TƏYİNATI VƏ MAHİYYƏTİ

Gömrük prosedurları gömrük işinin fundamental baza kateqoriyalarını cəmləşdirir. Onun düzgün müəyyənləşdirilməsindən gömrük formallıqlarının sonrakı spektləri asılıdır. Gömrük prosedurunun məzmunu haqqında qaydalar Azərbaycan Respublikası GM və həmçinin qanunaltı aktlarında müəyyənləşdirilmişdir.

Gömrük prosedurları sisteminin tətbiqi gömrük sərhəddindən keçirilən təhlükəli, milli maraqlar üçün məqsədəuyğun olmayan məhsulların qarşısını alır, həmçinin idxal-ixrac yüklərinin gömrük rəsmiləşdirilməsi məqsədi üçün optimal variantın seçilməsinə imkan verir.

Gömrük prosedurları - Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi, həmçinin gömrük məqsədləri üçün, mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilmə məqsədindən asılı olaraq, Azərbaycan Respublikası gömrük ərazisində və ya ondan kənarda istifadəsi, mal və nəqliyyat vasitələrinə, gömrük rüsumları, vergilər, qadağa və məhdudiyyətləri müəyyənləşdirən tələb və qaydaların məcmuidir. Gömrük prosedurlarının mahiyyəti ondan ibarətdir ki, onlar uyğun prosedur altında keçirilən mallara qarşı şərt və formallıqlar öz əksini tapır. Mal və nəqliyyat vasitələrinin

Gömrük proseduru-gömrük məqsodlori üçün Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilən malların və nəqliyyat vasitələrinin statusunu müəyyən edən müddəaların məcmusudur (GM 1.020 maddə).

Xüsusi gömrük proseduru - Azərbaycan Respublikası gömrük sərhəddindən fiziki şəxslər tərəfindən (qeyri-sahibkarlıq məqsədi ilə), xarici şəxslərin ayrı-ayrı kateqoriyaları (diplomatik nümayəndəliklər, konsul idarələri) tərəfindən nəqliyyat vasitələri, mallar, beynəlxalq poçt göndərmələri, boru kəmər nəqliyyatı və elektrik xətləri vasitəsilə ötürülməsi xüsusiyyətlərinin məcmusudur.

Gömrük prosedurları vasitəsilə müəyyənləşdirilir:

- Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən malların təyinatından asılı olaraq (və ya keçirilmə) konkret yerdəyişmə qaydalarını;
- Azərbaycan Respublikası gömrük ərazisində mallardan istifadə, yerləşdirmə və onlardan istifadənin mümkünlüyü şərtləri;
- bu və ya digər seçilmiş gömrük prosedurunda şəxsin hüquq və öhdəlikləri;
- Azərbaycan Respublikası gömrük sərhəddindən keçiriləcək mallara görə şəxslərin hüquqi statusunun tələblərini.

Azərbaycan Respublikası GM nəzərdə tutulmuş hər bir gömrük proseduruna malların keçirilməsi, həmçinin ayrıca götürülmüş gömrük proseduru özündə şərtləşdirilmiş tələblər qoyur:

- mallann rəsmiləşdirilməsinin gömrük qaydalarını;
- mallann gömrük nəzarətinin aparılmasını;
- gömrük vergi və resumlarının verilməsi xüsusiyyətini.

Əksər gömrük prosedurlarında aşağıdakı xüsusiyyətlər nəzərdə tutulur:

- Azərbaycan Respublikası gömrük ərazisinə şərti buraxılmış mallardan istifadə və onlar üzərində sərancamın məhdudluğu;
- gömrük rəsmiləşdirilməsi gömrük proseduru fəaliyyətinin yekunlaşması.

Ayrı-ayn gömrük proseduru növündən asılı olmayaraq Azərbaycan Respublikası GM-də gömrük prosedurlannın tətbiq

şərtlori verilir ki, orada mövcud prosedurların hansının seçilməsindən asılı olmayaraq bütün şərtlər ödənilməlidir.

Belə şərtlərə aiddir:

1) Gömrük prosedurunun hökmən bəyan edilməsi. Hər hansı gömrük sərhəddindən keçirilən mal mütləq Azərbaycan Respublikası GM nəzərdə tutulmuş gömrük prosedurlannm birinə uyğun olmalıdır. Konkret gömrük proseduru bəyannamədə öz əksini tapmalıdır.

2) Azərbaycan Respublikası GM olan uyğun gömrük prosedurunun seçilməsi hüququnun olması. Hər bir XİF iştirakçısı gömrük prosedurunu müstəqil seçir, (bütün onun tələblərini ödəmək şərtilə).

3) Gömrük prosedurları altında malların yerləşdirilməsi qadağa və məhdudiyyətlərin mütləq gözlənilməsi. İqtisadi xarakter daşımayan qadağa və məhdudiyyətlər, valyuta nəzarəti məqsədi ilə müəyyən edilmiş tələbləri bəyan edilmiş gömrük prosedurundan asılı olmadan şəxslər yerinə yetinnəlidirlər.

4) Boyan edilmiş gömrük proseduruna uyğun malların icazəli qaydada buraxılmasının gözlənilməsi.

Malların gömrük proseduru altında yerləşdirilməsi gömrük orqanının icazəsi ilə həyata keçirilir. Malların buraxılması üçün şəxsin bəyan edilmiş gömrük proseduru şərtlərini gözlənildiyi halda, gömrük orqanı malların bəyan edilmiş gömrük prosedıun altında yerləşdirilməsinə icazə vennəyə borcludur.

Malların gömrük proseduru altında yerləşdirilməsinə görə icazə alınması üçün gömrük orqanına o sənədlər və məlumatlar verilməlidir ki, onlar Azərbaycan Respublikası GM nəzərdə tutulmuş gömrük proseduru altında yerləşdirilmə şəraiti və şərtlərini təsdiq edir. Gömrük orqanı o sənəd və məlumatları tələb etməlidir ki, bəyan edilmiş gömmk proseduru altında malları yerləşdirdikdə GM prosedurun gözlənilməsi fəaliyyətinə uyğun gəlsin.

Malların gömrük proseduru altında yerləşdirildiyi gün gömrük orqanlarının malların buraxıldığı gün hesab olunur. Bəyan edilmiş prosedura uyğun malların buraxılması gömrük orqanının təmsilçi

proseduru altında yerləşdirilməsi haqqında nəzərdə tutulmuş qaydaların bəzi hallarda gömrük orqanlarının gömrük rüsumlarının ödənilməsi haqqında olan tələblərinin yerinə yetirdiklərini yoxladıqdan sonra icazə verilir.

5) Seçilmiş gömrük proseduru altında buraxılan mallar üçün şərt və tələblərin yerinə yetirilməsinin məcburiliyi.

6) Azərbaycan Respublikasının GM uyğun gömrük proseduRinun digərinə dəyişdirilməsi hüquqi. Hər bir XİF iştirakçısı istədiyi vaxt seçilmiş gömrük prosedurunu bu və ya digər prosedura dəyişmə hüququ vardır, ancaq seçilmiş prosedurun tələblərinə riayət etmək şərtilə;

7) Mallann statusunun dəyişdirilməsi zamanı gömrük prosedurunun saxlanılmaması məcburidir. Malın gömrük qaydasının pozulmasına görə götürülməsi hallarında, məsələn maddi sübut şəklində həmin mallara qarşı olan gömrük proseduru dayandırılır.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 156 maddəsinə əsasən gömrük prosedurları müəyyənləşdirilmişdir və onlar4 qıaıpa bölünmüşdür.

1) Əsas gömrük prosedurlan; daxili istehlak üçün buxanlış; ixrac; beynəlxalq tranzit.

2) İqtisadi gömrük prosedurları: gömrük ərazisində emal; gömrük ərazisindən kənarda emal; daxili istehlak üçün emal; müvəqqəti idxal; gömrük anbarı, sərbəst gömrük zonası (sərbəst anbar).

3) Yekunlaşdıncı gömrük prosedurları: təkrar idxal; təkrar ixrac; məhv etmə; dövlət xeyrinə maldan imtina.

4) Xüsusi gömrük prosedurları: müvəqqəti ixrac; rüsumsuz ticarət mağazası; ehtiyatların keçirilməsi; digər xüsusi gömrük prosedurları.

Göstərilən gömrük prosedurları Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mallara qarşı gömrük tənzimlənməsi məqsədilə müəyyənləşdirilmişdir.

Əsas gömrük prosedurları əksər ölkələrin qanunvericilik normaları ilə müəyyənləşdirilir. İqtisadi gömrük prosedurlan

müəyyənləşdirilmişdir. Yekunlaşdırıcı gömrük prosedurları bir qayda olaraq tərəfləri ilkin vəziyyətə gətirmək və yaxud ölkə daxilinə “arzuolunmaz” malların buraxılmasını kənarlaşdın İması məqsədini daşıyır. Mövcud gömrük prosedurları qrupu malların dövriyyəsinin yekunlaşdırılması üçündür. Məsələn; təkrar idxal proseduru müvəqqəti ixracdan sonra tətbiq edilir. Xüsusi prosedurlar üçün gömrük fəaliyyətində vergini zəiflətmək situasiyasi xarakterikdir.

Gömrük prosedurlarının tətbiq edilməsinin vacib şərti zaman və məkan hərəkətinin müəyyənləşdirilməsidir. Burada yerdəyişmənin (keşirilmənin) daha doğrusu idxal və ya ixracın xarakterini fərqləndirmək lazımdır. Mallann idxalı zamanı gömrük prosedurunun baş- lanması-Azərbaycan Respublikası gömrük sərhəddinin malların keşməsi anıdır.

Mallar xarici ölkənin ərazisində olduğu zaman gömrük qanunvericiliyi normaları tətbiq edilə bilməz. Ancaq yüklər Azərbaycan Respublikası gömrük ərazisinə düşən kimi onun statusu Azərbaycan Respublikası gömrük hüquq normaları ilə təyin edilir. Bu o deməkdir ki, müəyyən gömrük proseduru fəaliyyətə başlayır.

Malların aparılması zamanı gömrük proseduru onların gömrük nəzarəti zonasına düşdüyü, gömrük rəsmiləşdirilməsi anından başlayır. Malların sərhəddən faktiki keçməsinə qədər bütün şərtlər gözlənilməlidir.

## 2. ƏSAS GÖMRÜK PROSEDURLARI

### *1.* **Daxili istchlak üçün buraxılış**

Daxili istehlak üçün malların buraxılışı-gömrük proseduru zamanı Azərbaycan Respublikası gömrük ərazisinə gətirilmiş mallar bu ərazidə heç bir öhdəlik götürülmədən qalır. Bu prosedur təcrübədə tez-tez malların Azərbaycan Respublikası ərazisinə idxal olunduğu zamanı istifadə olunur.

Mallann daxili istehlak üçün buraxılış proseduru zamanı gömrük rəsmiləşdirilməsinin, nəzarət və malların vergi tutulmasının bütün

spektorlan tam yerinə yetirilir.

Ayn-ayn mallara qarşı qeyri-larif tənzimləmələri tədbirləri tətbiq olunur.

Daxili tələbat üçün buraxılış prosedurunun tətbiq olunması mallann buraxılışının bir neçə variantını nəzərdə tutur:

1) Azərbaycan Respublikası Xarici İqtisadi Fəaliyyətin dövlət tənzimlənməsi haqqında qanunvericiliyinə uyğun müəyyən edilmiş bütün gömrük rüsumlan, vergilərin ödənilməsi və məhdudiyyətləri gözləməklə malların sərbəst dövriyyə üçün buraxılışı.

2) Mallann şərti buraxılışı:

-gömrük rüsum, vergilərindən azad olunmuş (məsələn; humanitar yardım şəklində gətirilmiş) malların şərti buraxılışı;

-Azərbaycan Respublikası Xarici Ticarət Fəaliyyətinin dövlət tənzimlənməsi qanunvericiliyinə uyğun müəyyən edilmiş məhdudiyyətin gözlənilməsi haqqında lazımi icazə sənədlərini təqdim etmədən;

-gömrük ödəmələrinin ödənilməsi və ya gömrük rüsumu, vergilərin məbləğinin faktiki gömrük orqanının hesabına daxil olmadığı halda şərti möhlət vermək və məhıəti uzatmaqla, şərti buraxılan mallar gömrük nəzarəti altında olur və ona xarici ölkə malı kimi baxılır.

Daxili istehlak üçün buraxiliş proseduru altında yerləşdirilən malların gömrük bəyan edilməsinin xüsusiyyətləri:

- mallann öncədən bəyan edilməsi;
- Azərbaycanın XİF MN ilə bir təsnifat kodunu göstərməklə bir mal partiyasında yerləşən müxtəlif adda malların bəyan edilməsi;
- qısa gömrük bəyannamənin verilməsi;
- dövri gömrük bəyannaməsinin verilməsi;
- mallann gömrük bəyannaməsinin təqdim olunmasına qədər buraxılışı;
- malların elektron formasında bəyan edilməsi.

Dövri gömrük bəyannaməsinin istifadəsi, həmçinin malların gömrük bəyannaməsinin təqdim olunmasına qədər buraxılışından yalnız malların xüsusi sadələşdirilmiş gömrük rəsmiləşdirilməsi

proseduru üçün icazə almış XİF iştirakçıları istifadə edə bilər.

Malların daxili istehlak üçün buraxılış gömrük proseduru (malların sərbəst dövriyyə üçün qeydiyyatdan keçirilməsi) malların gətirildiyi zaman deyil, onların Azərbaycan Respublikası gömrük ərazisində əvvəlcə bəyan edilmiş gömrük proseduru altında olduğu zaman da bəyan edilə bilər.

Məsələn, sərbəst dövriyyə üçün buraxılış halında:

- xarici mallann təkrar emalı və onların emal məhsullan;
- müvəqqəti gətirilmiş mallar;
- gömrük anbarında saxlanılan mallar.

2) **Malların ixracı.**

İxrac-gömrük prosedurunda Azərbaycan Respublikası gömrük ərazisində sərbəst dövriyyədə olan yerli istehsal məhsulu və xidmətin bu ərazidən geri qaytarılması öhdəliyi olmadan ölkə ərazisindən çıxarılması.

İxrac malının növündən asılı olaraq ixrac gömrük rüsumları alına bilər, həmçinin Azərbaycan Respublikası digər qanunvericilik aktlarının müəyyən etdiyi məhdudiyyət və tələblər tətbiq edilə bilər.

Azərbaycan Respublikası GM-nm XIX fəsil 131-ci maddəsi ixrac proseduruna həsr edilmişdir. Orada göstərilir, gömrük ərazisindən mallann onun hüdudlanndan kənara daimi qalması üçün aparılması nəzərdə tutulmuş daxili mallar ixrac proseduru altında yerləşdirilir. Ayrı-ayrı növ mallara ixrac gömrük rüsumun dərəcələri Azərbaycan Respublikası Hökümətinin qərarı ilə müəyyənləşdirilir.

Ayrı-ayrı növ malların ixracı zamanı gömrük rəsmiləşdirilməsinin xüsusiyyətləri, malların boru kəmər nəqliyyatı ilə və elektrik xətləri vasitəsilə keşirilməsi xüsusi gömrük proseduru ilə müəyyənləşdirilmişdir (GM LVII fəsil, maddə 32). İxrac olunan ayrı-ayrı kateqoriya mallar üçün ixrac gömrük nəzarəti müəyyənləşdirilir. Belə mallara məsələn kütləvi qırğın silahı yaratmaq üçün istifadə edilən hissələri və hərbi texnika, xammal, materiallar və texnologiya aid edilir.

İxrac nəzarətinin keçirilməsinin hüquqi əsası Azərbaycan Res

publikasının "İxraca nozarət haqqında" qorandır. İxrac nəzarətinə məruz qalan malların siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

3) Beynəlxalq gömrük tranziti.

Beynəlxalq gömrük tranziti-gömrük proseduru zamanı xarici mallar Azərbaycan Respublikasının ərazisi ilə gömrük nəzarəti altında onlann Azərbaycan Respublikasının gömrük ərazisinə gəldiyi və bu ərazidən onların çıxdıqları yerdən (əgər bu onların yolunun bir hissəsi sayılırsa, onda onlar Azərbaycan Respublikası gömrük ərazisindən kənarda başlayır və gömrük ərazisindən kənarda qur- tanr), gömrük rüsumları, vergilər vermədən, həmçinin mallara qarşı Azərbaycan Respublikasının xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi haqqında qanunvericiliyinə uyğun iqtisadi xarakterli qadağa və məhdudiyyətlər tətbiq edilmədən həyata keçirilən gömrük prosedurudur.

Tranzit- gömrük nəzarəti altında malların bir gömrük orqanından digər gömrük orqanına daşınması və nəqlindən ibarət xüsusi gömrük prosedurudur (GM maddə 1.059).

Azərbaycan Respublikası GM uyğun beynəlxalq gömrük tranziti zamanı gömrük orqanlarının beynəlxalq gömrük tranzitinə icazə verilməsi qaydası, beynəlxalq gömrük tranzitinə vaxtın müəyyən edilməsi, mallann indentifikasiyası, Azərbaycan Respublikası gömrük qanunvericiliyinin təmin ediməsi (malların qorunmasının təmin edilməsi, gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsi) malların daxili tranzit proseduru ilə daşınması üçün müəyyən edilmiş qayda üzrə ancaq beynəlxalq tranzit prosedurunun xüsusiyyətinin nəzərə alınması ilə həyata keçirilir. Bunlar həmçinin daşıyıcı və ya ekspeditorun cavabdehliyinə də aiddir.

Mallann beynəlxalq gömrük tranziti (BGT) gömrük orqanlarının yola düşmək haqqında icazəsi verildikdən, sonra başlayır və malların faktiki olaraq Azərbaycan Respublikası gömrük ərazisindən çıxanlması ilə və yaxud mallann digər gömrük proseduru altında, Azərbaycan Respublikası GM-nın müəyyən etdiyi qaydalara əməl

etməklə yerləşdirilməsindən sonra yekunlaşır. Məsələn, BGT-i mallann daxili istehlak üçün, gömrük anbarı, məhvermə, dövlət xeyrinə maldan imtina prosedurları altında yerləşdirilməklə yekunlaşdmla bilər.

BGT malları ayrı-ayn partiyalarla apaniması zamanı axınncı partiya Azərbaycan Respublikası gömrük ərazisindən çıxdıqdan sonra yekunlaşmış olur.

BGT mallarına gəldiyi yerdən başqa yerə daşınması zamanı icazə verilir.

a) daşıyıcıya (GM 185,5 maddəsinə uyğun xarici daşıyıcı malların tranzit proseduru altında daşınması zamanı təmisilçi kimi çıxış etmək ixtiyanndadır);

b) ekspeditora, əgər o Azərbaycan vətəndaşıdırsa.

BGT zamanı mallann bəyan edilməsi həyata keçirilir:

-tranzit bəyannaməsi;
- kommersiya sənədləri;
- nəqliyyat (daşınma) sənədləri;
- gömrük sənədlərinin köməyi ilə.

## 3. İQTİSADİ GÖMRÜK PROSEDURLARI

***Malların emalı gömrük proseduru.***

Gömrük ərazisində emal-bu gömrük prosedurunda gətirilmiş xarici mallar Azərbaycan Respublikası gömrük ərazisində müəyyən edilmiş vaxtda istifadə edilir (malların emalı zamanı) və mallar gömrük rüsumlan, vergilərindən tam azad etmək və emal mallannm Azərbaycan Respublikası ərazisindən müəyyən edilmiş müddətdə apannaq şərtilə həyata keçirilən gömrük prosedurudur.

Mövcud prosedur altında yerləşdirilmiş mallara qarşı Azərbaycan Respublikasının XİF dövlət tənzimlənməsi haqqında qanunvericiliyində müəyyən edilmiş bütün qadağa və məhdudiyyətlər tətbiq edilir (GM XXXIX fəsil).

Azərbaycan Respublikası ərazisində mövcud prosedur altında malların yerləşdirilməsinə aşağıdakı şərtlərlə icazə verilir:

- gömrük ərazisində emala gömrük orqanlarının icazəsi olduğu halda icazə verilir;

- gömrük ərazisində emala icazə verilir o şərtlə ki, gömrük ərasində emal üçün gətirilən mal və məhsulların gömrük orqanları identifikasiya edə bilsinlər (GM XXXV fəsil, 209.2 maddə);

- emal nəticəsində əldə edilən məhsulların aparılması ilə yekunlaşan hallar istina edilməklə. Onu da qeyd etmək lazımdır ki, aparılan mallar, gətirilən mallara ekvivalent olmalıdır (GM 184 maddə);

- gömrük ərasində emal proseduru altında əvvəlcə digər gömrük proseduru altında yerləşdirilmiş xarici mallar da yerləşdirilə bilər bu şərtlə ki, Azərbaycan Respublikası GM nəzərdə tutulan şərtlərə əməl edilmiş olsun.

Azərbaycan Respublikası hökuməti müəyyən hallarda gömrük ərazisində emal üçün gətirilmiş bəzi növ mallann emalının mümkünsüzlüyünə baxmaq səlahiyyətindədir. Əgər keyfiyyət və texniki cəhətlərinə görə identik olan mallar Azərbaycan Respublikasında istehsal olunursa onların emalı üçün mümkünlüyünün olub olmamasının və həmçinin emalın kəmiyyət və dəyər məhdudluğunu müəyyən edir ki, bununla da yerli istehsalçıların maraqlarının qorunmasını təmin edir. Göstərilən qadağa və məhdudiyyət aktları rəsmi dərc olunduqdan 90 gün sonra qüvvəyə minir.

Malların gömrük ərazisində emalının dörd növündən istifadə edilə bilər:

- xüsusi emal və ya malların emalı (xammal ehtiyatı gətirilir və ondan mal məhsulları hazırlanır, məsələn, gətirilmiş material əsasında kostyum tikilir);

- yeni malların hazırlanması, o cümlədən, montaj, malların yığılması və sökülməsi (komplektləşdiricilər gətirilir və ondan son məhsul hazırlanır, məsələn, avtomobil).

Gəncə şəhərində KAMAZ maşınlarının, Belorus traktorlarının yığılması, ölkəmizdə əkilən şəkər çuğundurunun İran İslam Respublikasına apanlması və istehsal olunmuş şəkər tozu şəklində geri qaytarılması

Malların təmiri, o cümlədən, onların bərpası əsas hissələrinin dəyişdirilməsi, onların istehlak xüsusiyyətlərinin dəyişdirilməsi.

- Mal məhsullarının istehsalına təsir göstərən və onu yüngülləşdirən malların emalı (xarici malların istifadəsini həyata keçirən, emal məhsullarının istehsalını yüngülləşdirir və ya təsir edir, məsələn, elektrod flyuslarınm katalizatorlarının istifadəsi).

Mallann emalı üçün icazənin alınmasında bir qayda olaraq çətinlik gömrük orqanlarının identifikasiya aparmalarında meydana çıxır.

Gətirilmiş malların onlardan alınan məhsulların identifikasiyası üçün müxtəlif tərzlərdən istifadə edilə bilər:

- bütün emal üçün gətirilmiş mallara gömrük orqanının vəzifəli şəxsinin vurduğu möhür, ştamp, rəqəm vo digər markirovka işarələri;
- gətirilmiş malların ətraflı təsviri, onların foto şəkillərinin çəkilməsi, miqyaslı təsviri.

***Daxili istehlak üçün emal*** - bu prosedurda gətirilmiş mallar Azərbaycan Respublikasının ərazisində, müəyyən edilmiş müddət ərzində (malların emalı müddətində) tam gömrük rüsumlanndan azad edilməsi, sonrakı emal mallarının sərbəst dövriyyə üçün buraxılışı zamanı emal məhsullarına tətbiq edilən miqdarda gömrük rüsumlarının ödənilməsindən ibarətdir.

Daxili istehlak üçün emal proseduru altında yerləşdirilən mallara qarşı Azərbaycan Respublikasının xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi haqqındakı qanununa əsasən bütün qadağa və məhdudiyyətlər tətbiq edilir.

Malların daxili istehlak üçün emal proseduru altında yerləşdirilməsi şərtləri:

- gömrük orqanının gətirilmiş malın miqdarı, keyfiyyəti, onun emal məhsulu, emal əməliyyatı, onun yekunlaşdırılma qaydası, çıxış norması, identifikasiya üsulu, emal vaxtı təsvir edilməklə icazəsi (GM 177 maddə);
- daxili istehlak üçün malların emalına Azərbaycan Respublikası Hökuməti tərəfindən icazə verilir;

- daxili istehlak üçün mallar o zaman buraxılır ki, emal mohsullarının sərbəst dövriyyə üçün buraxılışı üçün ödənilən rüsumların miqdarına nisbətən gətirilən malların gömrük rüsumlarının miqdarı çox olsun;

- gömrük orqanları gətirilmiş malları emal məhsulları ilə identifı- kasiya edə bilərlər;

- mövcud prosedur altında əvvəllər digər prosedur altında yerləşdirilən xarici mallar Azərbaycan Respublikasının GM-də nəzərdə tutulmuş tələbləri gözləməklə yerləşdirilə bilər.

Malların daxili istehlak üçün emalı gömrük proseduru əməliyyatlarına daxildir:

1) quraşdırma, yığılma və başqa mallara uyğunlaşdırılma da daxil olmaqla malın hazırlanması;

2) yeni malların hazırlanması, o cümlədən, montaj, yığmaq və ya malların hissələrə ayrılması;

3) malın emalı və təkrar emalı;

4) bərpa olunma və qaydaya salınma daxil olmaqla malın təmiri;

5) emal məhsullannm istehsalına xidmət edən və ya istehsalı asanlaşdıran bəzi mallardan tamamilə və ya qismən istifadə edilməsi.

Malların emal müddəti təqdimat verən tərəfdən gömrük orqanları ilə razılaşdırılmaqla müəyyənləşdirilir və bir ildən artıq da ola bilməz.

Daxili istehlak üçün emala icazə təmsilçinin ərazisinə əsasən gömrük orqanları tərəfindən verilir. İcazədə göstərilir:

- gətirilən mallar və onların emal mallarının keyfiyyəti, kəmiyyəti təsfır edilməlidir;
- malların emalı əməliyyatı və onların yekunlaşma qaydası;
- emal məhsullarının buraxılış norması;
- gətirilmiş malların emal məhsullarına identifikasiya qaydası;
- malların emal müddəti;
- gömrük məqsədləri üçün gömrük orqanlarına lazım olan digər məlumatlar.

Daxili istehlak üçün emala, gətirilmiş malların daxili istehlak proseduru altında qoyulmamışdan icazə verilməlidir. Verilmiş ica-

zənin digər şəxsə ötürülməsinə icazə verilmir.

Daxili istehlak üçün emal proseduru emal mallarının sərbəst dövriyyə üçün buraxılması ilə tamamlanır.

***Gömrük ərazisindən kənarda emal-hu*** gömrük prosedurunda mal Azərbaycan Respublikası gömürk ərazisindən müəyyən edilmiş müddətə emal üzrə əməliyyatlar aparmaq üçün aparılır və sonradan emal məhsullarının tam və ya müəyyən qədər gətirmə (idxal) gömrük ödəmələrindən azad edilməsi və geri qaytarmaq şərti ilə.

Azərbaycan Respublikası ərazisindən emal üçün apanlan mallar ixrac görük rüsumlarından azad edilir. Belə mallara Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi haqqındakı qanunvericiliyinə müvafiq iqtisadi xarakterli qadağa vo məhdudiyyətlər tətbiq edilmir.

Mallann gömrük ərazisindən kənarda emalı üçün ixracında ödəmələrdən azad etmədən sonra, geri qaytardıqda daxili ödənilən vergilər geri qaytanimır.

Gömrük ərazisindən kənarda emal üçün mallann yerləşdirilməsi prosedurunun şərtləri belədir:

- gömrük ərazisindən kənarda malların emalı üçün gömrük orqanlarının icazəsi;
- idxal mallarının emal məhsullarına identifıkasiyası;
- emal üçün mallar sərbəst dövriyyə statusu altında olmalıdır.

Bu prosedur altında gömrük rüsum və vergilərinin ödənilməsi üçün güzəşt edilmiş malların qoyulmasına icazə verilir, o halda ki, malların emalı təmirdən ibarət olacaqdır.

Bundan başqa hökümətin ixtiyarı var:

- gömrük ərazisindən kənarda icazə verilməyən halları müəyyən etməyə;
- ölkə istehsalçılarının mənafelərini nəzərə alaraq gömrük ərazisindən kənar emal üçün miqdar və ya dəyər məhdudiyyətləri müəyyən etməyə.

Gömrük ərazisindən kənarda mallann emalı proseduruna daxildir:

1) Xüsusi emal və malların emalı;

2) Yeni malların hazırlanması, o cümlədon, montaj, malların yığılması və açılıb sökülməsi;

Malların təmiri, o cümlədən, onların bərpası, tərkib hissələrinin dəyişdirilməsi, istehlak xüsusiyyətlərini bərpa etmək.

Malların gömrük ərazisindən kənarda emalı prosedurunun son qurtarma müddəti prosedurun tətbiqinə icazə verilən vaxtla uyğun gəlir və o iki il təşkil edir. Mövcud icazənin digər şəxsə ötürülməsinə icazə verilmir.

İdxal edilmiş malların onların məhsullarına identifikasiyası aşağıdakı tərzdə həll edilir:

1) İdxal olunmuş mallara təqdim edənin və ya gömrük orqanlanın vəzifəli şəxsinin möhür, ştamp, rəqəmli və ya digər markalar qoymaqla;

2) İxrac olunmuş mallann tam təsviri, onların fotolarını çəkmək, miqyaslı əksini vermək;

3) İxrac edilmiş mallardan ilkin götürülmüş prob və nümunələrinin onlann emal məhsulları ilə müqayisə etmək;

4) İdxal mallarının istehsalı üçün seriya nömrələri və ya digər markirovkadan istifadə etmək;

5) Gətirilmiş mallann emala məruz qalmasını təsdiq edən göstəricilər;

6) İdentifikasiyanın müasir texnologiyada istifadə edilən digər tərzləri.

Gömrük ərazisindən kənarda emal proseduru üçün gömrük nəzarətinin aparılması məqsədilə icazə verilmə zamanı müəyyən emal məhsulunun hasilat norması müəyyənləşdirilir.

Hasilat norması (emal məhsullannm emal nəticəsində tərkibində gətirilmiş malların miqdan və faizi) təmsilçi tərəfindən gömrük orqanları ilə razılaşma əsasında, malların emalının faktiki aparılma şəraitindən asılı olaraq müəyyənləşdirilir. Emal mallarının hasilatı norması mallar Azərbaycan Respublikası gömrük ərazisinə emala gətirilmədən əvvəl müəyyənləşdirilməlidir.

Gömrük ərazisindən kənarda emal proseduru emal məhsullarının Azərbaycan Respublikası gömrük ərazisinə gətirildikdən sonra ye

kunlaşır.

**"Müvəqqəti idxal" və "gömrük anbarı" proseduru.**

Müvəqqəti idxal-gömrük prosedurunda xarici mallar Azərbaycan Respublikası gömrük ərazisində müəyyən vaxt ərazidə (müvəqqəti idxal dövründə) gömrük rüsum və vergilərindən tam və ya qismən azad edilmək və onlara Azərbaycan Respublikası qanunvericiliyində müəyyən edilmiş qadağa və məhdudiyyətləri tətbiq etmədən istifadə edilir (Azərbaycan Respublikası GM XXXIl fəsil).

Müvəqqəti idxala icazə verilir əgər:

- mallar gömrük orqanları tərəfindən onların geri apanıması (təkrar ixracı) zamanı identifikasiya edilə bilərsə;
- üzərlərinə düşən vəzifənin yerinə yetinnələrinə zəmanət verilibsə (gömrük rüsumlarının ödənilməsinə təminat verilibsə)
- müvəqqəti idxal üçün gömrük orqanının icazəsi varsa.

Malların müvəqqəti idxalının vaxtı iki ildir. Bəzi qrup mallar üçün Azərbaycan Respublikası Hökuməti daha qısa və uzun idxal vaxtı müəyyənləşdirə bilər (Azərbaycan Respublikası GM XXXII fəsil).

Müvəqqəti gətirilmiş malların gömrük rüsum və vergilərin ödənilməsində tam azad edilməsi və siyahısı müvəqqəti gətirmənin son vaxtını Azərbaycan Respublikası Hökuməti təyin edir.

Müvəqqəti gətirilmiş mallann gömrük rüsum və vergilərindən azad edilməsi şərti o vaxt həyata keçirilir ki, müvəqqəti idxal olunan mallar Azərbaycan Respublikası iqtisadiyyatına ziyan gətirmir. Xüsusən:

- konteynerin, gəmi yedəklərinin, digər növ çoxdövriyyəli tara və bağlamaların müvəqqəti gətirilməsi;
- əgər müvəqqəti idxal olunan mallar xarici ticarət münasibətlərinin, beynəlxalq əlaqələrin elm, mədəniyyət, kinomatoqrafiya, idman və turizmi sahələrinin inkişafı çərçivəsində həyata keçirilirsə;
- əgər müvəqqəti idxalın məqsədi beynəlxalq yardımdırsa.

Digər kateqoriya mallara qarşı gömrük rüsum və vergilərindən tam azad etmə şərti qismən gömrük rüsum və vergilərdən azad

etmə kimi qəbul edilir. Qismən gömrük rüsum və vergilərindən azad etmədən hər tam və yarım təqvim ayına Azərbaycan Respublikası gömrük ərazisində yerləşməsinə görə lüsum dəyərinin 3%-i qədər haqq alınır.

Müvəqqəti idxal prosedurun fəaliyyəti dayandırılır:

- Azərbaycan Respublikası qanunvericiliyinə uyğun müvəqqəti idxal edilmiş malların başı bağlandıqda və ya müsadirə edildikdə;
- müvəqqəti idxal olunmuş mallar gömrük anbarına qoyulduqda;
- müvəqqəti idxal üçün icazə almış şəxsin xahişi ilə idxal olunmuş malları yerləşdirərkən, o mallar qismən gömrük rüsum və vergilərindən azad edilmişsə, sərbəst dövriyyə üçün nəzərdə tutulmayan digər gömrük proseduruna keçirildikdə.

Müvəqqəti idxal proseduru gömrük orqanlannın müvəqqəti idxal üçün müəyyən etdiyi müddət qurtarmamış yekunlaşdırılmalıdır. Mallar Azərbaycan Respublikasının gömrük ərazisindən ixrac edilməli və yaxud da digər gömrük proseduruna keçirilməlidir (Azərbaycan Respublikası GM XXIX fəsil, 176 maddə).

Müvəqqəti idxal gömrük proseduru malların sərbəst dövriyyə üçün buraxılması ilə yekunlaşdınla bilər.

Müvəqqəti idxal gömrük proseduru malların sərbəst dövriyyə üçün buraxılması ilə yekunlaşdırılırsa onda mallann gömrük dəyəri və miqdarı mallann müvəqqəti gömrük proseduru altında yerləşdiyi günlə hesablanır. Gömrük rüsumları və vergilərin dəyəri isə malların sərbəst dövriyyə üçün buraxıldığı gün üçün hesablanmalıdır (Azərbaycan Respublikası GM XXIX fəsil, 175 maddə).

Malların müvəqqəti idxal gömrük prosedurundan, sərbəst dövriyyə üçün buraxılış gömrük proseduruna keçirərkən gömrük rüsum və vergilərini müəyyənləşdirərkən gömrük ödəmələrinin miqdar və müvəqqəti idxal gömrük prosedurunda qismən edilən güzəşt və vergilər hesablanmaya götürülür.

**Gömrük anbarı.**

Gətirilən malların saxlanc dövründə gömrük prosedurları, vergilər alınmadan və mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların gömrük nəzarəti altında saxlanılmasından, ixrac

proseduruna aparılması nəzərdə tutulan malların Azərbaycan Respublikası gömrük qanunvericiliyində nəzərdə tutulmuş güzəştlər verilməklə gömrük nəzarəti altında saxlanılmasından ibarət gömrük prosedurudur.

Gömrük anbarı-xüsusi olaraq ayrılmış və təchiz edilmiş binadan və ya tələbata cavab verən başqa yerdən açıq meydança (gömrük anbarından) istifadə etməklə malların saxlancını təmin edir. Bununla yanaşı gömrük anbarı məqsədilə istifadəsi nəzərdə tutulan bina və ya meydança tələblərə cavab verən elə şəkildə təchiz olunmiıdır ki, malların saxlanılmasını təmin etsin, anbarın işçilərindən və mallara bilavasitə münasibəti olan nümayəndələrdən başqa kənar şəxslərin ora daxil olmasına icazə verilməsin, həmçinin anbarda saxlanan mallara gömrük nəzarətinin apanimasına təminat yaradılsın.

Gömrük anbarı gömrük nəzarəti zonasındır (Azərbaycan Respublikası GM XIV fəsil, maddə 95.1).

Gömrük anbarı proseduru altında malların saxlanılması şərtləri aşağıdakılardan ibarətdir:

1) İstənilən mallar, gömrük anban proseduru altında yerləşdirilə bilər;

a) Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması qadağan olunmuş mallar;

b) Digər siyahısı Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirən mallar;

c) Mövcud prosedur altında yerləşdirmək üçün müraciət olunan vaxta kimi saxlanılma müddəti bitmiş və ya az qalmış mallar istisna edilməklə.

2) Digər saxlanılan mallara ziyan gətirə bilən və yaxud xüsusi saxlanc şəraiti tələb edən mallar onlar xüsusi təchiz edilmiş gömrük anbarlannda saxlanılmalıdır.

Mallar gömrük anbarında üç il müddətində saxlanıla bilər.

Gömrük anbarları açıq və ya müəyyən şəxslərin mallan saxlaması üçün nəzərdə tutulan qapalı tipli ola bilər (GM XXXII fəsil)

Açıq tipli gömrük anbarı istənilən şəxs tərəfindən istifadə edilə

bilər, əgər o hər cür malların saxlanılması üçün münasibdirsə. Qapalı tipli anbarda gömrük anbarının sahibinin malları üçündür.

Gömrük anbarının sahibi gömrük anbarı sahibi reyestrinə (qeydiyyatına) düşən Azərbaycan Respublikasının hüquqi vətəndaşı və həmçinin Azərbaycan şəxsləri gömrük anbannin sahibi ola bilərlər. Azərbaycan Respublikası gömrük orqanları tərəfindən təsis edilən gömrük anbarları açıq tipli gömrük anbarlarıdır.

Gömrük anbarı fəaliyyəti ilə məşğul olmaq sahiblik statusu almaq üçün aşağıdakı şərtlərə əməl etməlidir:

- Azərbaycan Respublikası gömrük işini aparan gömrük orqanlarından lisenziya almalı;
- gömrük işini aparan icra hakimiyyəti orqanları anbann fəaliyyət müddətini müəyyən edir;
- gömrük anbarı təsis etmək üçün lisenziya verilməsinə görə Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanına müəyyən edilmiş yığımı ödəməlidir.
- Gömrük anbarının sahibinin vəzifələri:

1) Gömrük anbarında saxlanan malların gömrük nəzarətindən kənar gətirilməsinə yol verməməli;
2) Gömrük nəzarətinin həyata keçirilməsini çətinləşdirməməlidir;
3) Saxlanılan malların hesabını apannalı və hesabatı gömrük orqanlarına verməli;
4) Gömrük anbarında malların qorunmasını təmin etməli;
5) Gömrük orqanlarının icazosi olmadan anbarda saxlanan mallara kənar adamların baxmalarına yol verməmək;
6) Gömrük rüsum və vergilərini ödəmək.

Mallar gömrük anbarında üç il müddətində saxlanıla bilər. Müəyyən edilmiş müddət bitdikdən sonra mallar başqa gömrük proseduru altında yerləşdirilmək üçün bəyan edilməli, yaxud sahibi Azərbaycan Respublikası gömrük orqanı olan müvəqqəti saxlanc anbarına yerləşdirilməlidir.

Gömrük anbarı proseduru altında yerləşdirilmiş mallarla həyata keçirilən əməliyyatlar:

- mallların mühafizəsinin təmin olunması üzrə işlər;

- malların Azərbaycan Respublikası gömrük orqanının icazəsi ilə satış və daşınma üçün hazırlanması, malların qruplara ayrılması, göndərişlərin hazırlanması;

- çeşidləmə, qablaşdınna, markalaşma və yeklənməsi.

## 4. YEKUNLAŞDIRICI GÖMRÜK PROSEDURLARI

***1, "Təkrar idxal" gömrük prosedurları.***

Malların təkrar idxalı - ixracı gömrük proseduruna uyğun olaraq Azərbaycan Respublikasının gömrük ərazisindən aparılmış Azərbaycan mallarının qanunla müəyyən edilmiş müddətə gömrük rüsumları və vergilər alınmadan, həmçinin bu mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən geriyə göndərilməsindən ibarət gömrük prosedurudur (Azərbaycan Respublikası GM XXXIV fəsil).

Malların təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinə icazə verilir, əgər:

1) Azərbaycan Respublikası gömrük ərazisindən aparılarkən sərbəst dövriyyə statusunda olmuş və ya xarici malların emal məhsulları olmuşlarsa;

2) Azərbaycan Respublikası gömrük ərazisindən aparıldığı üç il müddətində mallar təkrar idxal proseduru kimi təqdim edilmişdirsə;

3) Mallar Azərbaycan Respublikasının gömrük ərazisindən aparıldığı dövrdəki vəziyyətdəndir, bundan əlavə normal daşınma və saxlanma şəraitindən təbii aşınma və ya təbii azalma və istifadəsi zamanı (istismarı) dəyişilmələrə məruz qalmaması;

4) Malların təkrar idxalı zaman büdcəyə qaytanlası idxal gömrük rüsum və vergiləri, subsidiyalar və digərləri ödənilibsə;

5) Aparıldığı andan on il müddətində Azərbaycan Respublikasının gömrük ərazisinə qaytarılmalıdırsa.

Azərbaycan Respublikası gömrük ərazisindən kənarda mallardan gəlir əldə etmək məqsədilə istifadə, onların qorunması üçün vacib əməliyyatların aparılması, təmir də daxil olmaqla (əsaslı təmir və modernizasiyadan başqa) texniki xidmət və digər əmə-

liyyatlar hansı ki, malların istehlak xüsusiyyotlərinin saxlanılması və malların Azərbaycan Respublikası gömrük ərazisindən aparıldığı vəziyyətdə saxlanılması üçün aparılan əməliyyatlar malların təkrar idxal gömrük proseduru altında qoyulmasına heç bir maneçilik yaratmır.

Bununla yanaşı malların aparıldığı dövrdəki qiymətlərinin artmasına təsir edən əməliyyatlar və təmirlər istisna edilir.

Mallar aparıldığı andan üç il ərzində idxal edildikdə Azərbaycan Respublikasının gömrük orqanı ödənilmiş ixrac gömrük rüsumlarının və vergilərin məbləğini qaytarır.

Malların təkrar idxalı zamanı malları keçirən şəxs malların apanlması zamanı verilən güzəştlər nəticəsində əldə etdiyi bütün məbləğləri qaytarır.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda göstərilən məbləğlərdən əlavə Azərbaycan Respublikası Milli Bankının verdiyi kreditlər üzrə həmin bankın müəyyən etdiyi dərəcələrlə onlardan faizlər alınır (Azərbaycan Respublikası GM XXXIV fəsil, maddə 206).

***2. "Təkrar ixrac" gömrük proseduru.***

Təkrar ixrac - Azərbaycan Respublikası gömrük ərazisinə əvvəllər gətirilmiş malların bu ərazidən heç bir məbləğ ödəmədən və yaxud idxal zamanı ödənilmiş gömrük rüsum, vergilərin qaytarılması ilə və həmin mallara Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi qanunvericiliyinə uyğun olaraq iqtisadi siyasət tədbirləri, məhdudiyyət və qadağa tətbiq edilmədən həyata keçirilən gömrük prosedurudur (Azərbaycan Respublikası GM fəsil 13.21).

Təkrar ixrac olunan malların ixrac zamanı gömrük rüsumları ödənilmir.

Təkrar ixrac gömrük proseduru altında malların yerləşdirilmə şərtləri:

- Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanlarının müəyyən etdiyi qaydalarla gömrük ödənişlərinin ödənilməsi təmin edilməklə;

- Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı təkrar ixraca icazəsi;

Malların təkrar ixracı müddətləri Azərbaycan Respublikası gömrük orqanları tərəfindən müəyyən edilir. Bir qayda olaraq bu müddət təkrar ixracın məqsədi və şəraiti nəzərə alınmaqla iki ildən artıq olmamalıdır.

Ancaq Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı ayrı-ayrı mal kateqoriyaları üçün daha az və daha çox müvəqqəti ixrac müddətləri müəyyən edə bilər.

Göstərilən müddətlərin uzadılması Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanın müəyyən etdiyi qaydada Azərbaycan Respublikası gömrük orqanlan tərəfindən həyata keçirilir.

***"Mahvetmə" gömrük proseduru.***

Malların məhv edilməsi - xüsusi malların gömrük rüsumları, vergilər alınmadan, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların gömrük nəzarəti altında istifadə üçün yararsız hala gətirilməsi do daxil olamqla məhv edilməsindən ibarət gömrük prosedurudur. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müstəsna hallarda təkrar idxal edilən mallara və digər Azərbaycan mallarına da bu prosedur tətbiq edilə bilər (GM maddə 27.22).

Mallar məhv edilməyə o vaxt məruz qala bilər ki, homin mallar bərpa edilməklə əvvəlki iqtisadi yararlı vəziyyətinə gətirilmosi mümkün deyildir. Bu gömrük proseduru altında aşağıdakı kateqoriya mallann yerləşdirilməsi yol verilməzdir:

1) Mədəni dəyərlər;

2) Nəsili gəsilməkdə olan heyvan və bitkiləri (epidemiya və epizootiya halları istisna edilməklə);

3) Gömrük orqanları tərəfindən girov götürülmüş mallar (onların girov vaxtları tamam olana kimi);

4) Müsadirə edilmiş və ya Azərbaycan Respublikası qanunvericiliyinə uyğun başı bağlanmış mallar;

5) Azərbaycan Respublikası Hökuməti tərəfindən siyahısı müəy

yənləşdirilən mallar.

Malların məhvinə aşağıdakı hallarda icazə verilmir.

1) Ətraf təbii mühitə əsaslı surətdə zərər verə bilən və ya insanlann potensial sağlamlıqlarına bilavasitə təsir göstərə bilən;

2) Adi təyinatlı malların uyğun istehlakı əsasında istehsal olunan;

3) Azərbaycan Respublikası dövlət orqanları üçün məsrəllər yaradan.

Malların məhv edilməsi müddəti gömrük orqanları tərəfindən deklarantın ərizəsi əsasında həmin növ malların ərizədə göstərilən tərzdə məhv edilməsi əməliyyatın aparılması üçün düşünülmüş şəkildə və malların yerləşdiyi yerdə, məhv edilmə yerinə daşınması da nəzərə alınmaqla təyin edilməlidir. Məhv etmə yeri Azərbaycan Respublikasının ətraf mühit haqqındakı qanunvericiliyi əsasında təmsilçi tərəfindən müəyyənləşdirilir.

Malların məhv edilməsi proseduruna qaytarılmadan itirilmiş və ya qarşısı alınmaz təbii qəza nəticəsində yararsız hala düşmüş mallar da məruz qala bilər.

Əgər məhv edilmə proseduruna məruz qalan mallar özlərinin məhvi ilə zərərli tullantılar, toksik və radioaktiv tullantılar əmələ gətirə bilərsə bunların məhv edilməsinə ancaq dövlətin təbiəti mühafizəsi sahəsindəki orqanlarının icazəsi ilə həyata keçirilə bilər.

Xarici ticarət təcrübəsində malların məhv edilməsi təcrübəsindən geniş istifadə edilir, belə məhv etmə komersantlar üçün əlverişli olur.

Çox vaxt idxalçının malı gömrük sərhəddindən keçdikdən sonra özünün keyfiyyətini itirmiş və yaxud saxlanılma müddətinin bitdiyini hiss edən idxalçı məhv etmə rproseduruna əl atmalı olur (əksər hallarda belə də olur mal uzun müddət gömrük anbarında qalır və saxlanılma müddəti keçir). Gömrük nəzarəti altında malların məhv edilməsi kommersantı eyni vaxtda Azərbaycan Respublikası gömrük ərazisindən malların geri aparılması üçün nəqliyyat xərclərindən, gömrük rüsumları və vergilərdən azad edir. Malların məhv edilməsi proseduru həmçinin sərgi işlərində tətbiq olunur. Sərgiyə

gəlirilmiş reklam avadanlıqları stentinlərin geri daşınmasının nəqliyyat xərcləri onun dəyərindən artıq olur, bəzən hətta bir sıra eksponatlar da bu qəbildən ola bilər. Ona görə belə hallarda həmin reklam avadanlıqlarını gömrük nəzarəti altında məhv etmək və yaxud da dövlət xeyrinə maldan imtina proseduru tətbiq olunmaq üçün müraciət olunur. Sadəcə olaraq sərgi iştirakçısı həmin əşyalan "“yaddan” çıxarmaq və ya “atıb”gedə bilməz, çünki malları idxal edərkən onlann təkrar ixracı üçün gömrük orqanlan qarşısında öhdəlik götürmüşdür. Beləliklə, əgər yükün yenidən Azərbaycan Respublikası ərazisindən geri daşınması baş verməzsə onda təmsilçi hesablanmış gömrük rüsum vergilərini və yığımları ödəməli olur. Onda ən leqal yol ondan ibarət olur ki, malları gömrük nəzarəti altında məhv etmə və maldan dövlətin xeyrinə imtina etmək və yuxarıda göstərilən ödəmələrdən də azad olmaq ən sərfəli yol hesab edilir.

***4. “Dövlət xeyrinə maldan imtina” gömrük proseduru.***

Dövlət xeyrinə maldan imtina-gömrük rüsumları, vergilər alınmadan, həmçinin iqtisadi siyasət tədbirləri tətbiq edilmədən şəxsin maldan imtina etməsindən ibarət prosedurudur.

Xarici ticarət təcrübəsində maldan imtina prosedurundan tez-tez istifadə edilir və ən çətin anlarda kommersantların dadma çatır.

Çox vaxt idxalçı maldan dövlət xeyrinə imtina etmə prosedurunu seçir, 0 vaxt ki, onun mah gömrük sərhəddini keçdikdən sonra özünün keyfiyyətini itirmiş və yaxud saxlama müddətinin ötdüyünü hiss edir (çox vaxt belə də olur, mal uzun müddət gömrük anbannda saxlanır).

Maldan döövlət xeyrinə imtina prosedurunun qəbul edilməsi idxal mallarının Azərbaycan Respublikası ərazisində istifadəsinin mümkünsüzlüyü və yaxud onun istifadəsinin səmərəsizliyi ucbatından irəli gəlir. Xarici ticarət sövdələşmələrindən maldan dövlət xeyrinə imtina proseduruna çox halda rast gəlinir. Bunun səbəbi isə sadədir, gömrük ödəmələrinin kəskin artması idxal mallarını yerli istehsalın eyni malları ilə rəqabətini aşağı salır. Belə hallar nəzərdə tutulmamış dərəcədə nəqliyyat xərclərini (passiv

dəmir yolu, dəniz limanlarında) artıra bilər. Dəmir yolu və limanlardakı inzibati cərimələr mallann hədsiz bahalaşmasına gətirir. Dəyişilmə şəraitində xarici ticarət sövdələşmələrinin rentabelliyini hesablayaraq (yeni gömrük tariflərini nəqliyyat təşkilatlarının cərmələrini və s. hesaba alaraq) idxalçı öz malını Azəerbaycan bazasında realizə edilməsinin məqsədə uyğunluğunu hesablaya bilər.

Əgər belə malların Azərbaycan ərazisindən aparılması sərfəli deyildisə, malın itirilməsi ilə barışan kommersant maddi itkini minimuma endirməyə və gömrük ödəmələrindən azad olmağa cəhd göstərir. Bunun üçün o maldan dövlət xeyrinə imtina və ya məhv etmə prosedurunu seçə bilər. Şübhəsiz ki, birinci variant daha əlverişlidir. Dövlət xeyrinə maldan imtina idxalçının reputasiyasına yaxşı təsir edə bilər. Digər tərəfdən malların məhv edilməsi xərcləri maraqlı şəxsin hesabına apanlır və bu da bir sıra əlavə xərclərin əmələ gəlməsinə səbəb olur.

**Mövcud prosedurun tətbiq edilməsi şərtləri.**

1) Maldan dövlət xeyrinə imtina dövlət üçün hər hansı xəclər yaratmalıdır;

2) Prosedurun tətbiq olunmasını qadağan etmək gəlir mənbəyinə çevrilməlidir;

3) Azərbaycan Respublikası ərazisində dövriyyəsi qadağan olunmuş mallar mövcud prosedura salınmamalıdır;

4) Azərbaycan Respublikası hökuməti dövlət xeyrinə imtina proseduruna düşməsi mümkün olmayan malların siyahısını müəyyən edir;

5) Malların dövlət xeyrinə keçirilməsi anından həmin mallar Azərbaycan Respublikası gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılış statusunu alırlar.

Dövlət xeyrinə mallardan imtina prosedurundan Azərbaycan Respublikasının mülkiyyətinə keçir və onunla öz mülkiyyəti kimi münasibət olur.

## 5. XÜSUSİ GÖMRÜK PROSEDURLARI

***L "Müvəqqəti ixrac" gömrük proseduru.***

Müvəqqəti ixrac-bu prosedurda Azərbaycan Respublikası gömrük ərazisində sərbəst dövriyyədə olan mallardan müvəqqəti olaraq Azərbaycan Respublikasından kənarda həmin mallara Azərbaycan Respublikasının Xarici Ticarət Fəaliyyətinin dövlət tənzimlənməsi qanunvericiliyinə uyğun ixrac gömrük rüsum vergilərindən tam azad etmə və onlara iqtisadi xarakterli qadağa və məhdudiyyətlər qoymadan müvəqqəti istifadəsindən ibarət olan gömrük prosedurudur (Azərbaycan Respublikası GM XXX fəsil, maddə 177).

Mallar müvəqqəti ixracı zamanı ödəmələrdən azad edilir, daxili vergilərin əvəz edilməsi və ya qaytarılması həyata keçirilmir.

Müvəqqəti ixrac proseduru tələblərinin gözlənilməsi xarici mallardan Azərbaycan Respublikasının gömrük ərazisində müvəqqəti istifadəsinə Azərbaycan Respublikası mallarının onun hüdudlarından kənarda tam və ya qismən gömrük ödəmələrindən azad olunmaqla və iqtisadi siyasət tədbirləri həyata keçinnədən müvəqqəti istifadəsinə imkan verir.

Müvəqqəti ixracın məqsədi müstəqil gömrük proseduru olmaqla ticarət və digər beynəlxalq əməkdaşlıq formasının inkişafı ilə müəyyənləşdirilir.

Rüsumsuz ticarət mağazası.

Beynəlxalq ticarətin inkişafı yeni gömrük prosedurlannm meydana gəlməsinə səbəb oldu. Onlardan biri də rüsumsuz ticarət mağazası prosedurudur. Belə prosedurdan istifadə xarici malların gömrük nəzarəti altında mövcud ölkənin gömrük ərazisində gömrük rüsum və vergiləri ödəmədən və iqtisadi siyasət tədbirləri tətbiq edilmədən satılmasına imkan verir.

Rüsumsuz ticarət proseduru digər gömrük prosedurlanndan rüsumsuz ticarət mağazini özünün məqsədinə görə fərqlənir. Belə ki, ora mallar saxlanılmaq üçün qoyulmur daha tez müddətdə satılması üçün qoyulur. Bu faktdır ki, xarici istehsal malı Azərbaycan gömrük

tədbirləri tətbiq edilməsdən satılır. Bu rüsumsuz ticarət mağazasının idxal prosedurundan fərqləndirən cəhətdir.

Potensial alıcıları bu mağazalar cəlb edir, çünki bura vergilərə cəlb edilməmişdir. Şübhəsiz ki, vergilər əhəmiyyətli dərəcədə anoloji ölkə malları satılan mağazalarda qiyməti artırır, xüsusilə aksizli malların və nəticədə onların rəqabət qabiliyyətini azaldır.

Mövcüd gömrük prosedurunun obyekti kimi xarici ölkə istehsalı olan və həmçinin yerli istehsal mallan ola bilər. Bu mallar respublika gömrük ərazisindən kənara gedən fiziki şəxslərə satılmaq üçündür.

Beləliklə, rüsumsuz ticarət mağazasında alman malların Azərbaycan Respublikası ərazisindən kənara (idxalı) aparılması-bu prosedurun dəyişilməz şərtidir. Bu işə nəzarət etmək üçün rüsumsuz ticarət mağazasının öz müştərilərinin gediş sənətlərinə alış haqqında qeyd edirlər. Qeyd forması mağaza tərəfindən gömrük orqanları ilə razılaşma əsasında müəyyənləşdirirlər.

Rüsumsuz ticarət mağazalarına münasibətdə gömrük orqanları ticarət prosesində gömrük qanunvericiliyinin gözlənilməsinə və rüsumsuz ticarət mağazasından alınan malın faktiki idxalına (aparılmasına) nəzarət etməlidirlər.

Bir qayda olaraq rüsumsuz ticarət mağazaları ölkədən kənara gedən sərnişinlərin gözləmə zallannda, böyük aerolimanlarda tranzit sərnişinlər üçün, sərhəd keçid məntəqələrində fiziki şəxslərin keçmələri üçün müəyyən edilmiş yerlərdə açılır.

Rüsumsuz ticarət mağazalanna Azərbaycan Respublikası qanunvericiliyi ilə ölkə ərazisinə gətirilməsi və aparılması qadağan olunmuş mallardan başqa hər cür mallar qoyula bilər.

Azərbaycan Respublikası GM uyğun rüsumsuz ticarət mağazası üçün təyin olunmuş mallar açıq şəkildə qoyula bilər.

Rüsumsuz ticarət mağazasına qoyulan mallar üçün gömrük ödəmələrinin ödənilməsinin həyata keçirilməsi üçün sənəd olmalıdır.

Aşağıdakı hallarda malların rüsumsuz ticarət mağazasına qoyulması mümkün deyil:

- Digər dövlət orqanlan tərəfindən nəzarətdə olan mallar (həmin təşkilatlardan icazə olmadan);

- İstehsal-texniki təyinatlı mallar hansı ki, fiziki şəxslər tərəfindən istifadə üçün nəzərdə tutulmamışdır.

Çəkisi 20 kq-dan artıq ölçüləri, hündürlüyü və uzunu 200 sm-don artıq olan mallar rüsumsuz ticarət mağazasında yerləşdirilə bilməz.

Rüsumsuz ticarət mağazalarında ticarət heç bir vasitəsiz və pərakəndə şəklində apanimalıdır.

**Yoxlama sualları**

1) "Gömrük prosedurları" nədir?
2) Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mallara qarşı gömrük prosedurunun seçilməsinə kimə icazə verilir?
3) Azərbaycan Respublikası GM hansı növ gömrük prosedurlarını müəyyənləşdirib?
4) Gömrük prosedurlarının tətbiq edilməsinin ümumi qaydaları hansılardır?
5) Daxili istehlak üçün buraxılış prosedurunun mahiyyəti nədir?
6) İdxal gömrük prosedurunun mahiyyəti nədən ibarətdir?
7) Mallar hansı şərtlərlə beynəlxalq gömrük tranziti prosedurunda yerləşdirilə bilər?
8) Malların emal gömrük prosedurlannı sayın. Onların xüsusiyyətləri hansılardır?
9) Müvəqqəti idxal gömrük proseduru altında yerləşdirilən mallar üçün hansı müddət müəyyən edilmişdir?
10) Müvəqqəti idxal gömrük proseduru altında yerləşdirilən malların hansıları qismən və ya tam gömrük ödəmələrindən azad olunur?
11) Hansı əməliyyatlar emal proseduru təşkil edir?
12) Malların təkrar ixrac proseduru altında keçirilməsi zamanı hansı tələblər gözlənilməlidir?
13) Azərbaycan Respublikası gömrük sərhəddini keçirilmiş mallann məhv edilmə xüsusiyyəti nədir?
14) Hansı hallarda gömrük orqanları gömrük sərhəddindən keçirilmiş mallara dövlət xeyrinə maldan imtina gömrük

icazə vermir?

15) Müvəqqəti idxal gömrük prosedurunun mahiyyəti nədən ibarətdir?
16) Rüsumsuz ticarət mağazini harada yerləşdirilə bilər?
17) Ehtiyatların keçirilməsi prosedurunun xüsusiyyəti hansılardır?
18) Digər növ xüsusi gömrük prosedurlarını sayın?
19) Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən nəqliyyat vasitələri üçün hansı prosedur qəbul ediləndir?
20) Mallann təkrar idxal gömrük proseduru altında yerləşdirilməsinin şərtləri?
21) İqtisadi və yekunlaşdırıcı gömrük prosedurlarının tətbiq edilməsinin məqsədi?

## Mövzu 5. Test tapşırıqları

**1. Təkrar idxal - bu gömrük proseduru burada:**

a) bu Azərbaycan mallarıdır, əvvələr ölkədən ixrac gömrük proseduru altında aparılmış və yenidən Azərbaycan Respublikası ərazisində heç bir gömrük rüsum və vergiləri ödənilmədən geri qaytarılır;
b) əvvəllər ölkəyə gətirilmiş xarici mallardır və heç bir gömrük rüsum, vergiləri ödənilmədən geri aparılır.

**2. '^Daxili istehlak üçün buraxılış" gömrük proseduru altında
malların yerləşdirilməsi üçün əsas şərtlər hansılardır?**

a) mallann müvəqqəti saxlanc anbarına yerləşdirilməsi və gömrük ödənişlərinin ödənilməsi;
b) gömrük bəyanaməsinin təqdim edilməsi, gömrük ödənişlərinin ödənilməsi və gömrük məqsədləri üçün vacib sənədlərin təqdim edilməsi;
v) gömrük orqanlanm vaxtında malların gətirilməsi haqqında xəbərdar etmək və mal müşayətedici sənədlərin verilməsi.

**3/*Beynəlxalq gömrük tranziti" prosedurunu bəyan edən şəxs üçün malların alıcısının harada olmasının əhəmiyyəti vardırmı?**

a) xeyir, əhəmiyyəti yoxdur;

b) əhəmiyyəti vardır, ancaq malların Azərbaycan gömrük ərazisindən kənara aparıldığdan sonra gömrük ödəmələrini ödənilməsinin təmin etdikdən sonra depozit mobləğin qaytarılması məqsədi üçün;

v) əhəmiyyəti var, beləki tranzit prosedurunda bəyan edilən mal Azərbaycandan kənarda olan şəxsə təyinat olmalıdır.

**4. Gömrük ərazisində emal üçün hansı obyeklər və mallar istifadə oluna bilər?**

a) xarici mallar (gətirilmiş və həmçinin Azərbaycan Respublikasının gömrük ərazisində olan) və onlara əlavə olaraq ekvivalent olan Azərbaycan malları;

b) ancaq gətirilmiş xarici mallar;

v) ancaq xarici mallar gətirilmiş və Azərbaycan Respublikasının gömrük ərazisində olan mallar.

**5. ^'Gömrük ərazisində emal" prosedurunun son fəaliyyət müddəti nə qədərdir?**

a) bir ilə qədər, bəzi müstəsnalarla prosedurunun fəaliyyət vaxtı 1,5 il ola bilər;

b) iki ilə qədər;

v) bir ildən çox olmayaraq;

q) Azərbaycan malları.

**6. ^^Daxili istehlak üçün emal " gömrük proseduru fəalliyyətinin son müddəti nə qədərdir?**

a) bir ildən çox olmayaraq;

b) altı aydan çox olmayaraq;

v) ilyanmdan çox olmayaraq.

**7.** **Gömrük ərazisindən kənarda emal” gömrük proseduru altında hansı mallar yerşdirilə bilər?

a) Azərbaycan, həmçinin xarici mallar;
b) ancaq Azərbaycan
malları; v) ancaq xarici
mallar;
q) Azərbaycan malları.

**8.** Malların müvvəqqəti idxalı üçün son müddət hansidir?

a) bir il;
b) iki
il; v) üç
il; d)
beş il;
q) altı
ay.

**9.** Malların müvəqqəti idxalında gömrük ödənişilərinin ödənilməsinə kim məsuliyyət daşıyır?

a) müvəqqəti idxala icazə almış şəxs;
b) malları keçirən
şəxs; v) malın sahibi.
d) brokeri;
q)
daşıyıcı.

**10.** “ Təkrar idxal” gömrük proseduru hansı mallar üçün tətbiq edilir?

a) Azərbaycan Respublikası ərazisinə gətirilməsi qadağan olmayan bütün mallar;

b) Azərbaycan istehsalı olan mallar;

v) əvvəllər Azərbaycan Respublikasının gömrük ərazisindən aparılmış mallar.

**11.** Təkrar idxal ” gömrük proseduru bəyan etmək üçün hansı

c) aparıldığı andan 3 il;
d) aparıldığı andan 6 ay;
q) aparıldığı andan 4 ay.

**12. "Təkrar idxal" proseduru bəyan edilərkən hansı ödəmələrin verilməsinə məruz qalır?**

a) təkrar idxal gömrük rejimi zamanı odənicilərə məruz qalmır;
b) gömrük rəsmiləşdirilməsinə görə yığım;
v) gömrük rəsmiləşdirilməsinə görə yığım, ƏDB, aksizlər.

**13. Gömrük ərazisində emal gömrük rejimi altında bəyan edilmiş bütün qaydalara əməl olunmaqla emal məsulları:**

a) onların son nəticədə öhdəlik qaydası ilə Azərbaycan Respublikasının gömrük ərazisindən kənara aparılmalıdır;
b) son nəticədə öhdəlik qaydası ilə sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilməlidir;
v) rejimi bəyan edənin nəzərinə görə hər - hansı bir gömrük proseduru altında yerləşdirilə bilər.

**14. Gömrük prosedurunun seçilməsi və ya onun dəyişdirilməsi hüququ aiddir:**

a) gömrük orqanlannm vəzifəli şəxslərinə;
b) müvəqqəti saxlanc anbanmn sahibinə;
v) malı gömrük sərhəddindən keçirən şəxs.

**15. Gömrük sərhəddindən malları keçirərkən konkret gömrük rejiminin seçilməsi nə vaxt qeydə almır?**

a) mallann gömrük rəsmiləşdirilməsinə 10 gün qalmış;
b) malların gömrük rəsmiləşdirilməsinə 15 gün qalmış;
v) mallar bəyan edilən zaman;
q) gömrük nəzarəti zamanı.

**16. Malların idxal gömrük proseduru altındakı fəaliyyəti hansı andan başlayır?**

a) gömrük orqanları tərəfindən gömrük bəyannaməsinin qəbul edildiyi andan;

b) mallann gömrük qeyydiyatma 3 gün qalmış;

v) Azərbaycan Respublikası gömrük sərhəddini keçdiyi andan.

**17. Malların ixracı gömrük proseduru hansı andan fəaliyyətə başlayır?**

a) gömrük rəsmiləşdirilmoindən, əvvəl onların gömrük nəzarəti zonasında yerləşdirilməsi anından;

b) malların gömrük rəsmilləşdirilməsindən 3 gün əvvəl;

v) Azərbaycan Respublikası gömrük sərhəddini keçdiyi andan.

**18. "Təkrar ixrac" gömrük proseduru nə vaxt bildirilə bilər?**

a) ancaq mallar gətirildikdə;

b) əvvələr apanimış gömrük proseduru dəyişiklik edildiyi zaman;

v) həm mallann gətirildiyi, həm də əvvələr apanimış malın gömrük prosedurunun dəyişdirildiyi zaman.

**19. "Təkrar ixrac" gömrük prosedurundan istifadə etmək üçün hansı müddət nəzərdə tutulmuşdur?**

a) Azərbaycan Respublikası gömrük ərazisinə gətirildiyi andan 2 il müddətinə;

b) mallann sərbəst dövriyyə üçün buraxılmasından 6 aydan gec olmayaraq apanima həyata keçirilməlidir;

v) təkrar ixrac proseduru üçün müddət nəzərdə tutulmamışdır.

**20. "Məhvetmə" gömrük proseduru bəyan edilən zaman hansı ödənicilərin verilməsi nəzərdə tutulur?**

a) gömrük rəsmiləşdirilmosinə görə yığım;

b) gömrük rəsmiləşdirilməsinə görə və gömrük ödənicilərinin təmin edilməsi üçün münasib məbləğ (məhv etmə əməliyyatı başa çatana qədər);

v) ödənicilər alınmır.

**21. Canlı heyvanlar məhvetmə üçün bəyan edilə bilərmi?**

a) xeyir, bəyan edilə bilməz;

b) bəyan edilə bilər;

v) ola bilər, nəsli kəsilməkdə olan heyvanlann bir sıra növləri müstəsnalıq təşkil etməklə.

**22. "Rüsumsuz ticarət" gömrük prosedurunda olan mallar kimə realizə edilə bilər?**

a) hər - hansı şəxsə;

b) Azərbaycan Respublikası gömrük ərazisindən kənara gedən fiziki şəxslərə;

v) Azərbaycan Respublikası gömrük ərazisindən kənara gedən və ya bu əraziyə gələn fiziki şəxslərə.

**23. Rüsumsuz ticarət mağazasının sahibi kim ola bilər?**

a) hər - hansı bir şəxs (huquqi və ya fərdi sahibkar);

b) ancaq Azərbaycanın hüquqi şəxsi;

v) ancaq Azərbaycanın vətəndaşı (həm hüquqi, həm də fərdi sahibkan).

**24. Rüsumsuz ticarət gömrük proseduru altında yerləşdiriləsi malları bəyan etmək hüquqi kimdədir?**

a) hər - hansı şəxs;

b) ancaq Azərbaycan vətəndaşı;

v) rüsumsuz ticarət mağazasının sahibi.

**25. Malların müvəqqəti ixracı üçün ən sonuncu müddət hansıdır?**

a) bir il;

b) iki il;

v) bir sıra mallar üçün son müddəti Azərbaycan Respublikası höküməti müəyyənləşdirir;

# MÖVZU 6.

## MALLARIN GÖMRÜK DƏYƏRİ VƏ ONLARIN MÜƏYYƏNLƏŞDİRMƏSİ METODLARI

1. Mallann gömrük dəyəri anlayışı və əsas funksiyaları.
2. Mallann gömrük dəyərinin təyin olunmasının dünya praktikası.
3. Gümrük dəyərinin təyin olunması üsulları.
4. Gömrük dəyəri və onun funksiyaları.
5. Mallann gömrük dəyərinin müəyyənləşdirilməsinin gömrük orqanlarının iqtisadi fəaliyyətində rolu.
6. Gömrük dəyərinin gətirilən malların sövdələşmə qiyməti ilə müəyyən edilməsi.
7. İdentik (eyni) malların sövdələşmə qiyməti üsulu.
8. Eyni cinsli mallann sövdələşmə qiyməti üsulu.
9. Dəyərin toplanması üsulu.

### 1. MALLARIN GÖMRÜK DƏYƏRİ ANLAYIŞI VƏ ƏSAS FUNKSİYALARI

«Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının qanununda Azərbaycanın gömrük nəzarəti təcrübəsində tətbiq edilməsi üçün gömrük nəzarətinin əsas hüquqi prinsipləri və gömrük dəyərinin normalarının müəyyənləşdirilməsinin əsası qoyulmuşdur. Ticarət üzrə kodeks adlanan Tarif və ticarət haqqında baş razılaşmalar (QATT) gömrük dəyərinə uyğunlaşdınlmışdır. Əksər ölkələrin birləşdiyi bu razılaşmanın məqsədi neytral sistemlə malların gömrük dəyərini müəyyənləşdirmək üçün bir qayda yaratmaq, göydəndüşmə və özbaşına gömrük dəyərlərinin təyin edilməsinin qarşısının alınmasından ibarətdir.

Beləliklə, Azərbaycan Respublikasının gömrük dəyəri haqqında beynəlxalq prinsiplərə uyğun qanunvericilik normaları yaradılması Azərbaycan Respublikasının iqtisadiyyatının beynəlxalq əlaqələrə səmərəli inteqrasiyasının vacib şərtidir, milli gömrük qanunçuluğunun inkişafının yeni keyfiyyət dövrüdür.

Azərbaycan Respublikasının keçid dövrünün iqtisadiyyatının

xüsusiyyəti, Azərbaycan təsərrüfat-hüquq sisteminin inkişaf etmiş kapitalist ölkələrindən fərqlənməsi, praktiki işdə, gömrük dəyərinin müəyyənləşdirilməsində əsaslı çətinlik yaradır və normativ-hüquqi bazanın real şəraitə uyğunlaşmasını tələb edir. Bununla belə, Azərbaycanın ÜTT-na daxil olmasının nəzərdə tutulması ilə əlaqədar beynəlxalq norma və prinsiplərin gömrük məqsədi ilə gömrük sənədlərində öz əksini tapmasına ehtiyac duyulur. Milli normativ bazanın gömrük dəyəri üzrə gələcək inkişafı və təkmilləşdirilməsi onun beynəlxalq norma və qaydalara uyğunlaşdınıması zəminində aparılmalıdır.

Gömrük dəyəri - bu mallara gömrük vergisinin qoyulması üçün malların dəyəridir. Daha doğrusu başlanğıc hesablama bazasıdır, (rüsum, əlavə dəyər vergisi, gömrük qeydiyyatı üçün yığımlar).

Malların gömrük dəyərinin əsas təyinatı- gömrük vergiləri üçün baza olmaqdan ibarətdir. Gömrük dəyərini müəyyən etmək üçün hamının istifadə edə biləcəyi metodika və müəyyən edilmiş qaydaların mövcudluğu bütün XİF- ilə məşğul olan iştirakçıları bərabər vəziyyətdə qoyur.

Xarici ticarət əlaqələrini qurarkən, əvvəlcədən bütün bağlaşmaların iqtisadi parametrlərini bilməklə iştirak etmənin dərəcəsini müəyyən etməyə imkan verir.

Vergiqoymanm hər bir sistemi onun fəaliyyətinin səmərəliliyini təmin etmək üçün hər ehtimala qarşı iki tədbiri nəzərdə tutur: birincisi, vergiqoyma bazasının hesablanmasında dəqiq qayda yaradılması, daha doğrusu bu başlanğıc bazanın əsas elementlərinin siyahısını və onların qaydalarını müəyyənləşdirmək; ikincisi, dövlət nəzarətini həyata keçirmək üçün lazımi nəzarət mexanizminin vergiqoyma bazasının yaradılmış qanunlara uyğun aparılmasına nəzarət etmək imkanı versin.

Malların gömrük dəyəri struktur göstəricilərinin qanunauyğun müəyyənləşdirilməsi və onun dəqiq reqlament qaydası ilə müəyyənləşdir! ləməsi məqsədinə xidmət edir. Bundan əlavə əsas təyinatdan başqa gömrük dəyərindən birbaşa və ya dolayı yolla digər gömrük məqsədləri üçün, gömrük statistikasının aparılması, barter

işlərində mallann qiymət xüsusiyyətlərinin yoxlanılmasında, ekvivalent mal göndərişlərində idxal-ixrac əməliyyatları həyata keçirərkən valyuta nəzarəyinin həyata keçirilməsində, qoyulmuş dəyər kvotasına nəzarətdə istifadə edilir.

Gömrük dəyərinə nəzarət təmiz vergi funksiyasından başqa müəyyənləşdirmə mexanizminin çoxluğunu, bazar iqtisadiyyatının qurulması, təsərrüfat subyektlərinə bərabər rəqabətli şərait yaratmaqla məsələlərin həll edilməsinə köməklik edir.

Bütün XİF-ilə məşğul olan iştirakçılar rüsum və vegilərin hesablanmasına dair qaydaya görə malların gətirilməsində bərabər şəraitdə qoyulur.

Gətirilmiş mallara dəqiq gömrük dəyərini müəyən etmək, (dövlət tərəfindən, onu təmsil edən strukturun) səmərəli sistem yaratmaq və onlann həyata keçirilməsində nəzarəti nəzərdə tutur. Bunlarla yanaşı gömrük dəyəri xarici ticarət fəaliyyəti xüsusilə ticarət edən tərəflərin gömrük qanunlarının uyğunluğu ilə də əlaqədardır. Bu XİF iştirakçıların idxal-ixrac əməliyyatlanmn təşkilini xeyli yüngülləşdirir və gömrük mal qeydiyyatını sadələşdirir. Ona görədə gömrük dəyəri və onun təşkili ona nəzarət üzrə qurulmuş qanunvericiliyin milli qanunlara uyğunluğu vacibdir. Bu, Azərbaycan Respublikası gömrük dəyərinin müəyyənloşdirilmə qaydasını beynəlxalq prinsiplərə uyğunlaşdırır. Bu dövlətlərin kommersiya dairələrinin maraqlarına cavab verir. Mövcud olan beynəlxalq gömrük təcrübəsindən istifadə etməklə xarici ticarət tərəf müqabilləri ilə qarşılıqlı fəaliyyəti asanlaşdırır.

## 2. MALLARIN GÖMRÜK DƏYƏRİNİN TƏYİN OLUNMASININ DÜNYA PRAKTİKASI

Gömrük sərhəddindən keçirilən mallardan gömrük vergilərinin alınmasını müəyyənləşdirmək məqsədi ilə qiymətləndirilməsi beynəlxalq gömrük təcrübəsində ən mürəkkəb əməliyyatlardan biri sayılır. Mövcud gömrük dəyərini müəyyən etmək sistemi birdən yaranmamışdır. Hazırki vaxtda xarici ticarətdə iştirak edən əksər

ölkələr gömrük dəyərini müəyyən etmək üçün beynəlxalq sistemdə mövcud olan iki qaydadan «Brüssel» vo ya «QATT» üsulundan birindən istifadə edirlər. Ancaq xarici ticarət dövriyyəsində əsaslı rol oynamayan az qism ölkələr vardır ki, onlar özlərinin mallarının milli gömrük dəyərini təyin etmək metodlarından istifadə edirlər.

1950-ci ildə bir sıra Qərbi Avropa ölkələrinin təşəbbüsü ilə malların gömrük dəyərinin müəyyənləşdirilməsinin unifikasiya olunmuş metodologiyasını hazırlamaq üçün Brüssel şəhərində qərar imzalamışlar. Bu sənədlərə əsasən «Brüssel gömrük dəyəri» (BGD) malların normal dəyəri kimi müəyyənləşdirilir (daha doğrusu satıcı və alıcıdan bir-birindən asılı olmayan şəraitdə tam rəqabət, açıq bazarda qiymətləri yaranır).

Brüssel gömrük dəyəri konvensiyasına 70-dən artıq ölkə qoşulmuş və 80-ci illərə qədər malların dəyərini müəyyən etməyin ən geniş yayılmış metodikası olmuşdur.

BGD konvensiyası həqiqətdə Qərbi Avropa təcrübəsinin unifikasiya olunmuş üsul kimi möhkəmləndirmiş oldu.

ABŞ və Kanada konvensiyaya qol çəkməmiş və özünün gömrük tərcübəsində ondan və onun qaydalanndan istifadə etməmişdir. Bununla belə BGD qəbul etmiş bir çox ölkələr ona razılaşma kimi baxmışlar, onun gömrük dəyərini müəyyənləşdirmək üçün unifikasiya olunmuş texniki tezləşdirmə kimi qəbul etmişlər.

Xarici ticarətin sonrakı inkişafı bu sistemdə müəyyən dəyişikliklərin aparılmasını tələb edir. Gömrük qiymətləndirilməsində əksər ölkələrin təlabatlarına və maraqlarına cavab verən yanaşmalar olsun. Bunun nəticəsində çox tərəfli ticarət danışıqlarında, QATT bayrağı altında keçirilən (1973-1979 cu illər) 1979-cu ildə, o cümlədən digər yekun sənədlərinin Tokio mərhələsində imzalanmış «Mallam gömrük məqsədi ilə qiymətləndirilməsi» haqqında QATT - ın VII maddəsinin tətbiqinin razılaşması olmuşdur.

QATT-ın gömrük qiymətləndirilməsi haqqında Tokio raundunun sonuncu mərhələsində imzalanmış razılaşma əsas 4 hissədən o cümlədən giriş, 3 əlavədən ibarətdir. Birinci hissədə

bu reızılaşmada imza edən tərəflər arasında mübahisəli məsələləri həll etmək üçün və buna nəzarət etməyə beynəlxalq orqanın yaradılması nəzərdə tutulur. Üçüncü hissədə inkişaf etməkdə olan ölkələr üçün xüsusi differensasiya olunmuş rejim, dördüncü yekun şətləri adlanan hissə razılaşmanı tanımaq və ona birləşmək, razılaşmaya əməl etmə şərtləri öz əksini tapmışdır. Razılaşmaya görə malın gömrük dəyəri, ixrac ölkəsinin idxal tərəfinə satılması məqsədi ilə faktiki haqqı ödənilmiş və ya haqqı ödəniləcək malın qiyməti kimi, həmin malın üzərinə korrektirovka kimi əlavə edilir. Bununla belə razılaşma mallann gömrük qiymətinə, həmçinin qiymətə konkret mümkün əlavələrlə yanaşmanın dəqiq şəraitini müəyyən edir.

Gömrük sistemi qiymətlərinin tətbiq edilməsi razılaşma tərəfindən Uruqvay raundunun çoxtərəfli ticarət danışıqlarının müzakirə məsələlərindən biri olmuşdur. Uruqvay raundunun bu danışıqlardakı yekun aktı 1 aprel 1994-cü ildə Mərakeş şəhərində imzalanmışdır. O, özündə "Tariflər və ticarət haqqında baş razılaşmanın VII maddəsinin yerinə yetirilməsini" möhkəmləndirir.

Mövcud razılaşma gömrük dəyəri haqqında Tokio raundunda olan bütün prinsip və metodları praktiki cəhətdən saxlayır. Eyni zamanda Uruqvay raundunun gedişində gömrük dəyərinin müəyyon-ləşdiriləməsi haqqında ayrıca qərar qəbul edilmişdir. Bunlar əsasən inkişaf etməkdə olan ölkələrə həmçinin gömrük əməkdaşlığı şurasının yenidən yaradılması (Customs, Cooperation Consil) Ümum- dünya gömrük təşkilatının (World Gustoms Organization) yaradılması haqqında təşkilatı məsələlər müzakirə edilmişdir.

### 3. GÖMRÜK DƏYƏRİNİN TƏYİN OLUNMASI ÜSULLARI

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunu (1995-ci ilin) Azərbaycan gömrük nəzarəti təcrübəsində gətirilən mallann gömrük dəyərininin təyin edilməsinin başlıca prinsip və normalannın hüquqi əsası müəyyən edilir. Bu prinsip və normalar mütəxəssislər arasında "Gömrük dəyəri kodeksi" anlandınlan, tarif

və ticarət üzrə baş sazişin GATT VII maddəsinin (General Agreement on Tariffsand Trade) tətbiqi üzrə sazişin müddəalan ilə təsdiq edilmişdir.

Barəsində söhbət gedən və dövlətlərin əksəriyyətinin qoşulduğu sazişin məqsədi göydəndüşmə və saxta gömrük dəyərindən istifadənin qarşısını ala bilən, malların gömrük dəyərinin təyin edilməsinin vahid və neytral sisteminin bərqərar edilməsidir. Beləliklə, gömrük dəyərinin təyini üzrə Azərbaycan qanunvericilik aktlannın beynəlxalq prinsiplər əsasında formalaşması Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat əlaqələrinə inteqrasiyanın mühüm şərti, milli gömrük qanunvericiliyinin inkişafının keyfiyyətcə yeni mərhələsidir. Azərbaycan iqtisadiyyatının keçid dövründəki xüsusiyyətləri, Azərbaycan təsərrüfat hüquqi sisteminin inkişaf etmiş ölkələrin sistemindən fərqli cəhətləri gömrük dəyərinin təyin edilməsi sisteminin tətbiqində müəyyən çətinliklər yaradır, nonnativ- hüquqi bazanın real şəraitə uyğunlaşmasını tələb edir. Bununla birgə Azərbaycan Respublikasının yaxın gələcəkdə Ümumdünya Ticarət Təşkilatına daxil olmaq, beynəlxalq prinsip və normaların maksimum dərəcədə tətbiqi, onların gömrük dəyərinin təyini üzrə normativ sənədlərdə və ümumilikdə gömrük orqanlarının fəaliyyətində nəzərə alınmasını obyektiv məcburiyyət kimi qarşıda qoyur.

### 4. GÖMRÜK DƏYƏRİ VƏ ONUN FUNKSİYALARI

Gömrük tariflərinin tətbiqi, tarif tənzimlənmələri tədbirləri, onların beynəlxalq norma və qaydalara uyğunluğu, həmçinin tarif əhatəsinin real səviyyəsi gömrük rüsumları və ödənclərin baza hesablanma formasını müəyyən edən qaydalardan asılıdır. Malların gömrük sərhəddindən keçirilməsi zamanı vergiqoyma bazasının təyin edilməsi, qaydalarının müəyyən edilməsində həm dövlət, həm də kommersiya dairələri maraqlıdır. Belə ki, dövlət büdcəsinin gəlir hissəsinin 20%-ə qədəri gömrük rüsum və vergiləri hesabına fonnalaşır. Kommersiya dairələri üçün keçirilən mallara vergi-

qoyma qaydalan barədə bilgilər xarici iqtisadi fəaliyyətinin real səmərəsini, konkret əqdlərin gəlir və çıxarışı hesablamağa imkan verir.

Məsələn, idxal rüsumu və vergilərin dərəcələrini dəyişmədən gömrük rüsumlarının hesablandığı təyinetmə bazasının dəyişməsi hesabına onlann məbləğini əhəmiyyətli dərəcədə artınb-azaltmaq olar. Bu isə vergitutma bazasına hər hansı məsrəf elementlərini əlavə etmək, yaxud çıxarmaq yolu ilə əldə edilə bilər. Artıq aydın olur ki, beynəlxalq ticarət təcriibəsində gömrük dəyərinin müxtəlif milli metodika əsasında təyini adətən, qeyri-tarif məhdudiyyətlər kimi qəbul edilir. Bəs onda hansı gömrük dəyəri gömrük ödəncləri üçün baza kimi qəbul edilməlidir?

Aydındır ki, malın istehsalçıdan istehlakçıya doğru hərəkətinin müxtəlif mərhələlərində onun dəyəri müxtəlif olacaqdır, belə ki, müxtəlif dəyər komponentlərini özündə cəmləşdirəcəkdir və bu dəyərlərin hər biri özünəməxsus qaydada hesablanacaqdır.

Malların gömrük sərhədlərindən keçirilməsi zamanı gömrük ödənişlərinin hesablanması üçün istifadə olunan dəyəri, malın satıcıdan alıcıya qədər müəyyən hərəkət mərhələsində formalaşır, bu mərhələyə uyğun komponentləri özündə cəmləşdirir və malın gömrük dəyəri kimi baxılır. Başqa sözlə gömrük dəyəri-malın o dəyəridir ki, gömrük vergitutma məqsədi ilə istifadə olunur, yəni ad-valor gömrük ödənişlərinin hesablanma bazası kimi qəbul edilir.

“Malın gömrük dəyəri” kateqoriyasının funksional təyinatı da elə bundan, yəni gömrük ödənclərinin hesablanma bazası olmağındadır.

Bundan başqa gömrük dəyərinin hesablanması bilavasitə və dolayı yollarla digər gömrük məqsədləri üçün, məsələn, gömrük statistikası, barter əməliyyatlarında malların qiymətlərinin reallığının yoxlanılması, gətirilən mallann ekvivalent olmasına nəzarət, idxal-ixrac əməliyyatlanna valyuta nəzarəti və s. üçün də mühüm əhəmiyyət kəsb edir. İstənilən vergitutma sisteminin tətbiqi zəruri edilir.

Birincisi, vergitutma bazasının hesablanmasının dəqiq qaydasının müəyyən edilməsi, yəni bu bazanın əsas struktur

təyini və bu təyinatın qaydasını; ikincisi, dövlətə müəyyən olunmuş qaydalara riayət edilməsini yoxlamağa imkan verən zəruri nəzarət mexanizmindən istifadə.

"Mallann gömrük dəyəri" məfhumu və onun təyinin reqlamentasiyası şərti bu məqsədlərə xidmət edir. Bu məsələlər gömrük dəyərinin təyin edilməsi metodikasının zəruriliyini bir daha nümayiş etdirir. Bir tərəfdən aydın, dəqiq norma və qaydaların müəyyən edilməsi gömrük dəyərinin konkret səviyyəsini qeyd etməyə imkan verir ki, bu da özbaşına hesablamalarla gömrük rüsum dərəcələri ilə manipulyasiyasının qarşısı alınsın. Digər tərəfdən hamının istifadə edə biləcəyi metodikanın müəyyən edilmiş qaydalarının olması XİF iştirakçılan qarşısında eyni, ədalətli şərtlər qoyur və xarici ticarət əməliyyatlarının müəyyənliyi səviyyəsini yüksəltməyə, bağlaşmalann iqtisadi parametrlərinin qabaqcadan hesablamağa imkan verir. Bir halda ki, söhbət xarici ticarət fəaliyyətindən gedir, ticarət edən tərəflərin gömrük qanunvericiliyinin unifikasiyası mühüm əhəmiyyət kəsb edir.

"Gömrük dəyəri" göstəricisinin funksional əhəmiyyəti onun təyin edilmə metodikasını, həmçinin təyin edilməsinin əsaslı olduğuna nəzarətin məqsəd və texnologiyasını şərtləndirir.

## 5. MALLARIN GÖMRÜK DƏYƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNİN GÖMRÜK ORQANLARININ İQTİSADİ FƏALİYYƏTİNDƏ ROLU

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu mallann qiymətləndirilməsinin ədalətli, vahid və neytral sisteminin təyin edilməsinin əsasını təşkil edir. Bundan başqa qanun gömrük dəyərinin strukturunu dəqiq müəyyən edir-gömrük dəyəri, faktiki olaraq ödənilmiş, yaxud ödənilməli olan qiymət, üstəgəl ona hesablanmalı əlavələr deməkdir və onların Qanunla müəyyən edilmiş qiymət əlavələrinin və onların siyahısının gömrük orqanlannın iqtisadi fəaliyyət iştirakçıları tərəfindən dəyişdirilməsinə yol verilmir.

Qanunda qeyd edilir ki, malların gömrük dəyərləndirmə sistemi

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallara şamil edilir. Bu şərt gömrük dəyərinin təyin edilmə üsullarında nəzərə alınmalıdır. Qiymətləndirmə sisteminin dəyişdirilməsindən tam həcmdə ixrac əməliyyatlarında analoji məqsədlə tətbiq edilməsi bir sıra obyektiv səbəbdən mümkün deyil. Bununla belə Qanunla müəyyən edilmiş mal qiymətləndirilməsinin ümumi prinsipləri ixrac əməliyyatlarında istifadə edilə bilər.

**Gömrük dəyərinin müəyyən edilməsi sistemi.**

1. Malın gömrük dəyərinin müəyyən edilməsi sistemi gömrük qiymətləndirilməsinin beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərinə əsaslanır. Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallara şamil edilir.

2. Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilmə sisteminin tətbiqi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur (GTH Azərbaycan Respublikası Qanunu maddə 11).

**Malın gömrük dəyərini bəyanetmə.**

1. Gömrük dəyəri mal Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilərkən təmsilçi tərəfindən Azərbaycan Respublikasının gömrük orqanlanna bəyan edilir.

2. Gömrük ərazisinə gətirilən və həmin ərazidən çıxanlan malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri, o cümlədən bəyannamə forması Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən müəyyən edilir.

3. Gömrük dəyərinin təmsilçi tərəfindən müəyyən edilməsi, bu qanunda nəzərdə tutulmuş üsullara uyğun olaraq həyata keçirilir.

4. Gömrük dəyərinin müəyyən edilməsinin düzgünlüyünə Azərbaycan Respublikasının gömrük orqanı nəzarət edir (GM maddə 221-1).

**Təmsilçinin hüquq və vəzifələri.**

1. Təmsilçi tərəfindən bəyan edilmiş gömrük dəyəri və onun müəyyən edilməsi ilə bağlı məlumatlar dəqiq, kəmiyyət təyin oluna bilən və sənədlərdə təsdiq edilmiş məlumatlara əsaslanmalıdır.

2. Təmsilçi tərəfindən bəyan edilmiş malın gömrük dəyərini dəqiqləşdirmək zərurəti yarandıqda gömrük orqanına Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq əmlak girovu qoymaq və ya müvəkkil bankın təminatını almaq şərti ilə bəyan edilən malın istifadə üçün ona verilməsi barədə müraciət edə bilər, yaxud keçirilən mal üçün Azərbaycan Respublikası gömrük orqanı tərəfindən gömrük qiymətləndiriliməsinə uyğun olaraq gömrük rüsumlan ödənilməlidir.

3. Gömrük orqanına bəyan edilmiş əlavə məlumatlann təqdim edilməsi ilə bağlı xərclər təmsilçi tərəfindən ödənilməlidir.

Bu zaman gömrük qiymətləndirilməsi ilə əlaqədar olaraq malın gömrük rəsmiləşdirilməsi müddətinin uzadılması təmsilçi tərəfindən mal üçün rüsum ödənişinə görə möhlət almaq üçün istifadə edilə bilməz (Gömrük Tarifləri Haqqında Azərbaycan Respublikasının Qanunu 14 maddə).

Gömrük orqanının hüquq və vəzifələri.

1. Təmsilçi tərəfindən bəyan edilmiş malın gömrük dəyərinin təyin edilməsinin düzgünlüyünü təsdiq edən məlumat yoxdursa, yaxud təmsilçinin təqdim etdiyi sənədlərin düzgün olmadığına əsas varsa, bu zaman Azərbaycan Respublikasının gömrük orqanı onda olan məlumatlar əsasında gömrük dəyərinin müəyyən edilməsi üsullanm ardıcıl tətbiq edərək, bəyan edilmiş malın gömrük dəyərini müstəqil şəkildə təyin edə bilər.

2. Azərbaycan Respublikasının gömrük orqanı, təmsilçinin yazılı sorğusuna əsasən, bəyan edilmiş gömrük dəyərinin rüsum hesablanması üçün əsas kimi qəbul edilməsinin səbəbləri barədə ona üç ay müddətində yazılı izahat verməlidir.

3. Təmsilçi Azərbaycan Respublikası gömrük orqanına malın gömrük dəyərinin müəyyən edilməsinə dair qəran ilə razılaşmadığı halda, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində müəyyən olunmuş qaydada şikayət etmək hüququna malikdir (GTHQ maddə 15).

Gömrük dəyərinin və vergitutma bazasının ayn-ayn prosedurlar üzrə təyin edilməsinin xüsusiyyətləri məcəllədə öz yerini tapmışdır.

Gömrük məcəlləsi ilə müəyyən edilmiş gömrük orqanlarının hüquqlan gömrük dəyərini təyin edilməsinə nəzarət üçün mühüm əhəmiyyət kəsb edir. Bu hüquqlar aşağıdıkılardır:

- gömrük nəzarətinin həyata keçirilməsi üçün Azərbaycan Respublikası gömrük sərhəddindən malları və nəqliyat vasitələrini keçirən şəxslərin, gömrük brokerlərinin və ya belə fəaliyyətlə məşğul olan digər şəxslərin, icrasına nəzarət edilməsi Azərbaycan Respublikası gömrük orqanlarına həvalə olunmuş əməliyyatları və bank hesablarının vəziyyəti haqqında banklardan və digər kredit təşkilatlanndan məlumatlar və arayışlar almaq hüququ.
- gömrük nəzarətinin həyata keçirilməsi məqsədi ilə xidməti vəsiqə əsasında gömrük orqanı əməkdaşlarının gömrük nəzarətindən keçiriləcək mallar və nəqliyyat vasitələri, gömrük nəzarəti üçün zəruri sənədlər olan, yaxud icrasına nəzarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilmiş fəaliyyətin həyata keçirildiyi ərazilərə və binalara daxil olmaq hüququ.

Bu hüquq normaları, malların gömrük dəyərinin təyin edilməsinə nəzarətin təşkilindəki praktiki əhəmiyyəti nəzarət sisteminin iki pilləli olması zərurətindən irəli gəlir.

Birinci pillə - malların gömrük rəsmiləşdirilməsi zamanı həyata keçirilən nəzarət, ikinci pillə-gömrük orqanlarına bəyan edilmiş məlumatların doğruluğunun onların sorğular da daxil olmaqla əlavə sənədli yoxlanılması.

“Gömrük tarifi haqqında” qanun gömrük dəyərinə nəzarətin birinci pilləsini. Gömrük məcəlləsi isə ikinci pilləsini reqlamentləşdirir. Ona görədə qanunla müəyyən edilən gömrük dəyərinin təyin edilməsi üsul və qaydaları Gömrük Məcəlləsinin bu qanunun müddəalarını göstərilən istiqamətlərdə tamamlayan uyğun maddələr ilə qarşılıqlı əlaqədə baxılmalıdır.

Əgər gömrük nəzarəti nəticəsində malın gömrük dəyərinin təyin edilmədiyi və gömrük orqanlarına bəyan edilmədiyi aşkara çıxarsa Gömrük Məcəlləsinə görə belə hal gömrük ödənişləri ödəmə faktının aşkar edilməsi vaxtından asılı olmayaraq gömrük orqanları tərəfindən tutulur.

Gömrük dəyərinin təyin edilməsində gömrük qaydalarınının pozulmasına görə sanksiyalar Gömrük Məcəlləsi ilə tənzimlənir. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikası qanunun icrasının təmin edilməsi məqsədi ilə Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli 7 saylı qərarı ilə “Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları” təsdiq edilmişdir.

Dövlət gömrük Komitəsinin 25 dekabr 1997-ci il tarixli 1106 saylı əmri ilə Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsinin qayda və şərtləri haqqında əsasnamə təsdiq edilmişdir. Gömrük dəyərinin bəyan edilməsi üçün xüsusi bəyanetmə fonnaları:

- GDB - 1 birinci üsul üçün.
- GDB - 2 ikinci-altıncı üsullar üçün.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş gömrük dəyərinin təyin edilməsi sistemi GATT/ÜTT sazişində olduğu kimi onu nəzərə alır ki, malların qiymətləndirilməsi üçün əsas kimi tətbiq edilməkdə olan malların sövdələşmə qiyməti götürüləcəkdir.

Müasir beynəlxalq hüquqi standartlar GATT çərçivəsində formalaşmışdır. Hazırda gömrük dəyərinin təyin edilməsi üzrə iki beynəlxalq sistem mövcuddur. 1953-cü ilin iyul ayının 28-də qüvvəyə minmiş birinci sistem gömrük məqsədləri üçün malların qiymət- ləndirirlməsi üzrə Brüssel Konvensiyası müəyyən edilmişdir. İkinci sistem 1979-cu il GATT sazişinin VII maddəsi təşkil etdiyindən onlar əsasında prinsipial fikir ayrılığı yoxdur. Bunlar Brüssel Kon- vensiyasınanda əsasən gömrük dəyərinin təyin edilməsi üçün əsas olaraq, malın sərbəst rəqabət şəraitində müstəqil alıcı və satıcı ara- sındaki qiymət kimi başa düşülən normal qiymət götürülür. Hesab edilir ki, normal qiymət hər iki tərəfi qane edən və həm müqavilədə göstərilən, həm də göstərilməyən heç bir kommersiya, maliyyə və digər münasibətlərin təsir etmədiyi yeganə meyardır. 1979-cu il Sazişində isə “normal qiymət” anlayışı əvəzinə “sövdələşmə qiy

məti" anlayışı istifadə edilir. Sövdələşmə qiyməti dedikdə ödənilmiş və ya ödəniləcək faktiki qiymət başa düşülür. Bu qiymətə komission ödənişlər, konteynerlərin, taranın xidmətlərin dəyəri daxil edilir. Lakin bu zaman mal üzərində sərəncama, bağlaşmaya və onun qiymətinə hər bir məhdudiyyət olmamalıdır, eyni zamanda satıcı və alıcı arasında qarşılıqlı əlaqə olmamalıdır. Mövcud gömrük dəyərinin təyin edilməsi üsullarını əsas götürür. Azərbaycan Respublikasına idxal edilən malların gömrük dəyərinin təyin edilməsi üsullarından hazırda qüvvədə olan gömrük tarifi haqqında qanuna əsasən aşağıdakı ardıcıllıqla istifadə olunur (cədvəl 1).

*Cədvəl 6.1*

| № | Üsulun adı | GATT sazişi üzrə maddə | «Gömrük tarifi haqqında» qanunun |
|---|---|---|---|
| 1. | Gətirilən malların sövdələşmə qiyməti ilə | 1 | 18 |
| 2. | Eyni malların sövdələşmə qiyməti ilə | 2 | 19 |
| 3. | Eynicinsli malların sövdələşmə qiyməti ilə | 3 | 20 |
| 4. | Dəyərin çıxarılması üsulu | 4 | 21 |
| 5. | Dəyərin toplanması üsulu | 6 | 22 |
| 6. | Ehtiyat üsulu | 7 | 23 |

Alqı satqı sövdələşmələri üçün gömrük dəyərinin təyin edilməsinin əsas üsulu gətirilən malların sövdələşmə qiyməti ilə təyin edilməsi üsuludur. Buna görə də qiymələndimıə bu üsulun tətbiq edilməsinin mümkünlüyünün araşdırılması ilə bağlanılmalıdır.

Əgər əsas üsul bu və ya digər səbəbdən tətbiq edilə bilməzsə, qalan beş üsuldan biri tətbiq edilir. Hər bir sonrakı qiymətləndirmə üsulu 0 zaman tətbiq edilir ki, ondan əvvəlki üsul gözlənilən səmərəni verməsin. İkinci və üçüncü üsullar gömrük dəyərinin təyin edilməsində ilkin baza kimi eyni malların və eyni cinsli malların

lannda olan məlumatlar, həm də təmsilçi tərəfindən sənədli təsdiq tapmış məlumatlar istifadə oluna bilər. Məlumatların seçilməsində əsas meyar dəyərləndirilən sövdələşmənin şərtlərinə yaxınlıq dərəcəsidir. Dəyərin çıxılması və toplanması üsullan gömrük dəyərinin hesablanmasının prinsipcə fərqli bazasını nəzərdə tutur.

4-cü üsul malların dəyişilmədən satıldığı qiymətə əsaslanır. 5- ci üsul malın istehsalına çəkilən məsrəflər barədə məlumata əsaslanır. 6-cı üsul ehtiyat üsuldur və o zaman tətbiq edilir ki, ilk 5 üsuldan istifadə etmək mümkün olmasın.

### 6. GÖMRÜK DƏYƏRİNİN GƏTİRİLƏN MALLARIN SÖVDƏLƏŞMƏ QİYMƏTİ İLƏ MÜƏYYƏN EDİLMƏSİ

Gömrük dəyərinin, gətirilən malların sövdələşmə qiyməti ilə müəyyən edilməsi üçün dəyər əsasına malik olan alqı-satqı xarici ticarət bağlaşmalanna uyğun olaraq gətirilən mallara tətbiq edilir. Hesablanma forması (inkasso, bank köçürməsi, akkreditiv) prinsipial əhəmiyyət kəsb etmir. Gömrük rəsmiləşdirilməsi anına, ödəniş sənədlərinin olmaması I üsulun tətbiqindən imtina edilməsinə və digər üsullardan istifadə edilməsinə əsas ola bilməz. Əgər fakturada göstərilən və təmsilçi tərəfindən bəyan edilən gömrük dəyəri gömrük orqanları tərəfindən ödənc sənədləri olmadan qəbul edilmirsə, bu zaman şərti buxarılış rejimindən istifadə edilə bilər.

Gömrük dəyərinin müəyyən edilməsinin sənədləşdirilməsi və unifikasiyası məqsədi ilə şərti dəyər bağlaşmaları ilə gətirilən malların gömrük dəyərinin I üsulu ilə təyininə yol verilir. Belə bağlaşmalara mübadilə kompensasiya göndərişləri, zəmanət hesabına və əvəzsiz göndəmələr (məsələn bağlaşmalar) aid edilə bilər. Belə halda müvafiq sənədlərə, kompensasiya ödənişləri aid edilə bilər. Bu halda müvafiq sənədlərdə,preforma hesablarda, gətirilən ölkənin gömrük bəyannaməsində bu əməliyyat üzrə mallann hər birinin dəyəri göstərilməlidir.

Eyni zamanda müqavilə - komissiya və ya konsiqnasiya əsasında gətirilən mallara bu üsul tətbiq edilməlidir. Çünki, bu hada malın mütləq alqı-satqisi deyil, yalnız satış üzrə xidmətlər göstərilməsin-

dən danışıla bilər.

Gömrük tarifi haqqında qanunun 18-ci maddəsinin birinci bəndinə görə Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malın gömrük dəyəri malın gömrük sərhəddindən keçildiyi anda bu mal üçün faktiki ödənilmiş və ya ödəniləcək sövdələşmə qiymətidir. Sövdələşmə qiyməti müəyyən edilmiş və hesabdan çıxmalar nəzərə alınmaqla dəqiqləşdirilir.

**GOMRUK DƏYƏRI**

**Gətirilən mala görə ödənilmiş və (ödənilməmiş) ödənilməli olan sövdələşmə qiyməti.**

+

- **malın hava və dəniz limamnadək, yaxud respublikanın gömrük ərazisinə daxil olduğu digər yerə qədər çəkilən xərclər;**
- **nəqliyyat xərcləri;**
- **yülənmə xərcləri;**
- **sığorta xərcləri.**

Faktiki ödənilmiş və ya ödənilməli olan qiymət- alıcının satıcıya idxal malları üçün ödədiyi, yaxud ödəyəcəyi, lakin gömrük rəsmiləşdirilməsi anmadək hələ ödəməmiş olduğu ödənc məbləğlərinin cəmidir. Ödəniş köçürmə, aklcreditiv, inkasso, qarışıq və digər qanuni hesablaşma formasında ola bilər.

Göstərilən malın sövdələşmə qiymətinə əsaslanan üsulun tətbiqinə bir sıra şərtlər daxilində yol verilir. Onlardan biri qiymətləndirilən mala münasibətdə idxalçının hüquqlarının məhdudlaşdırıl- masıdır.

Aşağıdakı məhdudiyyətlər istisna təşkil edilir:

-milli qanunvericiliklə müəyyən edilmiş məhdudiyyətlər; -malın qiymətinə əhəmiyyətli dərəcədə təsir etməyən məhdudiyyətlər.

Əgər qiymətə əhəmiyyətli dərəcədə təsir göstərə bilən məhdudiyyətin olduğu bəyan edilirsə və bu səbəbdən qiymətin kəmiyyət dəyişməsi sənədli qaydada, müəyyən edilirsə, birinci üsulun tətbi

qinə yol verilir. Əgər qiymətə kəmiyyət təsirini müəyyən etmək və sənədli qaydada təsdiq etmək mümkün deyilsə, gömrük dəyərinin təyin edilməsinin digər üsullarına müraciət edilməlidir. Gətirilən malların sövdəlişmə qiymətinə əsaslanan üsul təsirinin müəyyən edilməsi mümkün olmayan şərtlərdən asılı olan satış və qiyəmətlər üzrə tətbiq edilə bilməz. Məsələn, satıcı müqavilədə idxal edilən malın qiymətini müəyyənləşdirərkən şərt qoyur ki, alıcı ondan müəyyən miqdar digər mal almalıdır və s. Xarici ticarət müqavilələri təcrübəsində malın gömrük dəyərinin təyin edilməsini mürəkkəbləşdirən şərtlər barədə kifayət qədər misallar var.

Məsələn, alqı-satqı müqaviləsi malın yalnız bir satıcıdan alınması şərtini müəyyən edə bilər. Başqa bir misal: gömrük dəyərləş- dirilməsi tələb edilən mal yarımfabrikat ola bilər və o şərtlə göndərilə bilər ki, əvəzində müəyyən miqdar hazır məhsul verilmiş olsun. Belə misallarda aydınlaşdırılmalıdır ki, müqavilənin «incə mətləbləri» sövdələşmə dəyərinə təsir edir, yoxsa yox.

Bu halda belə təsirin kəmiyyət tərəfini müəyyən etmək mümkündürsə I üsuldan istifadə etmək olar.

Xarici ticarət müqaviləsində ümumilikdə qəbul edilmiş göndəriş şərtləri öz əksini tapmışsa, gətirilən mallann gömrük dəyərinin sövdələşmə qiyməti əsasında təyin edilməsi üsulu tətbiq edilə bilər.

Birinci üsul, həmçinin xarici ticarət müqavilələrinin ümumilikdə qəbul edilmiş və sövdələşmə qiymətinə təsir etməyən aşağıdakı şərtləri ola bilər:

- «Ekspert rəyi əlavə edilməklə alqı-satqı»;
- «Müəyyən tarixə qədər mal göndərişi»;
- «Alıcıya daimi müştəri kimi güzəşt edilməsi».

I üsuldan istifadə etməyə yönəlmiş ən mühüm tələblərdən biri gömrük dəyərinin təyin edilməsi məqsədi ilə təmsilçi tərəfindən təqdim edilən məlumatların sənədli təsdiqidir. Gömrük dəyəri I üsulla o zaman təyin edilə bilər ki, onun gömrük dəyəri bəyannaməsində göstərilən bütün elementləri müvafiq sənədlərlə təsdiq edilmiş olsun.

Sövdələşmə qiyməti-hesab faktura, şərti dəyər bağlaşmaları

üçün hesab prefonna, bank ödəniş sənədləri və alqı-satqı müqaviləsi ilə təsdiq edilməlidir.

Qiymətə əlavələr və ya çıxarışlar müvafiq ödəniş, mal-müşayiət, sığorta, gömrük və digər sənədlərlə təsdiq edilməlidir. Müqavilə iştirakçıları qarşılıqlı-asılı şəxslər olduqda I üsuldan istifadə edilə bilməz. «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının qanunu sövdələşmə iştirakçıları arasında qarşılıqlı asılılığını 1979-cu il GATT sazişinin VII maddəsinin tətbiqi barədə sazişlə müəyyən edilmiş qaydada reqlamentləşdirir. 18-ci maddəsinin 2-ci bəndində göstərilən əlamətlərdən heç olmazsa birinə malik olan müqavilə iştirakçıları bir-birindən qarşılıqlı asılı hesab edilir.

Satıcı və alıcının qarşılıqlı asılılığı barədə məlumat gömrük dəyər bəyannaməsində göstərilməlidir. Gömrük orqanı qarşılıqlı asılılığın olub-olmaması barədə bəyan edilən məlumatlan yoxlama və təhqiqat nəticəsində əldə etdiyi məlumatlarla tutuşduraraq qərar qəbul edilr. Əgər gömrük orqanına bəyan edilməmiş belə əlaqə müəyyən edilərsə bu barədə idxalçıya xəbər verir, ona əksinə sübut etməyə və bəyan edilmiş dəyəri sənədli təsdiq etməyə imkan yaradır.

Bu zaman qarşılıqlı asılılığın xüsusi yoxlama zərurəti yükün saxlanılmasına əsas vermir. Yük adi qaydada göstərilir, keçirilən yoxlamanın nəticələrinə əsasən gömrük dəyəri yenidən hesablanır, rüsumun və digər vergilərin ödənilməmiş miqdarı tutulur. Konkret şübhə olduqda xarici ticarət bağlaşmasının məlumatlan xüsusi nəzarətə götürülür. Gömrük orqanları keçirdikləri yoxlamanın gedişində tərəflər arasında əvvəllər həyata keçirilən bağlaşmaların olub-olmadığı, yaxud onlara nöqsanlar tutulub-tutulmadığı aşkarlanır. Gömrük orqanı müstəqil olaraq qarşılıqlı asılılığı olmayan və oxşar mallar üzrə müqavilələri ilə belə bağlaşmaları müqaisə edə bilər, əgər yoxlama nəticəsində müəyyən edilir ki, tərəflər arasındakı qarşılıqlı asılılıq sövdələşmə qiymətinə təsir göstərməmişdir, tədqiqatı davam etdirməyə ehtiyac qalmır. Bu halda birinci üsulun tətbiqinə yol verilir.

Təmsilçi tərəflərin qarşılıqlı asılılığının sövdələşmə qiymətinə təsir göstərmədiyini sübut etmək hüququnu reallaşdırmaq üçün 10

gün müddətinə müvafiq sənədlərlə təsdiq edilməlidir İd, həqiqətən bəyan edilmiş qiymət ödənilmişdir, yaxud gömrük dəyəri müəyyən edilən mallann qiyməti bir-birindən asılılığı olmayan kontragentlər arasındakı alış-satış əməliyyatlarındakı eyni və oxşar malların 4-cü və 5-ci üsulla hesablanmış qiymətlərindən çox fərqlənir.

Birinci üsuldan istifadənin mümkünlüyünü sübut edildikdən sonra sövdələşmə qiyməti dəqiqləşdirilir. «Gömrük tarifi haqqında» qanunla müəyyən edilmiş komponentlər ona əlavə edilir.

Sövdələşmə qiymətinin dəqiqləşdirilməsi üçün 1-ci komponent malın gömrük ərazisindəki hava, dəniz limanına və ya digər gətirilmə yerinə gədər çatdırılmasına çəkilən xərclərdir.

Gömrük dəyərinin təyin edilməsi məqsədləri ilə gətirilmə yeri dedikdə aşağıdakılar başa düşülür:

- aviadaşımalar üçün malları daşıyan təyyarələr onların boşaldılması üçün endiyi təyinat və ya iki hava limanı;
- dəniz daşımalan üçün Azərbaycan Respublikası ərazisində birinci yükboşaltma limanı;
- digər nəqliyyat vasitələri ilə daşımalar üçün gömrük sərhəddin dəki buraxılış məntəqəsi.

Daşınma xərcləri, malların boşaldılması, yüklənməsi, yenidən yüklənməsi və başqa yerə daşınma xərcləri, sığorta məbləğləri, malın çatdırılma məsrəflərinə daxil edilir. Ölkənin gömrük ərazisinə gətirilən malların gömrük dəyərinin təyin edilməsi zamanı həmin malın müəyyən edilmiş gətirilmə yerinədək çatdırılması üçün faktiki olaraq meydana çıxan xərclər də nəzərə alınır. Daşınmanın dəyərinə fraxt, mal müşayiəti sənədlərinin rəsmiləşdirilməsinə çəkilən xərclər, daşımna müddətində malın keyfiyyətinin və tamlığının müəyyən səviyyədə saxlaması üçün çəkilən xərclər də daxil edilir.

Malın gömrük ərazisinə əvəzsiz qaydada malgöndərən tərəfindən və alıcının öz nəqliyyat vasitəsi ilə çatdırıldığı hallarda sərbəst, lakin eyni nəqliyyat vasitəsilə daşınmanın tarif qiymətlərinə əsasən müəyyən edilən məbləğ gömrük dəyərinə daxil edilir. Əgər belə məlumatlar yoxdursa, nəqliyyat xərcləri mühasibat uçotunda kalkul-yasiya hesablamaları qaydasında mühüm elementlər nəzərə alın

maqla müəyyən edilir. Əgər daşınma sənədləri gömrük orqanına təqdim edilmişsə, I üsuldan istifadə edilmir və digər üsullara müraciət olunur. Gömrük məqsədləri üçün istifadəyə ən rahat olan mal göndərmə şərtləri GIF hesab olunur. GIF qiyməti gömrük dəyərinin strukturuna uyğun gəlir. Digər göndəriş şərtlərində dəqiqləşdinnə- lərin aparılması labüddür. Məsələn, DAF baza şərtlərində sığorta və göndəriş yerinə qədər olan xərclər qiymətə əlavə edilməlidir. EXW, FAS şərtlərində daşınma xərclərində alıcının ixrac ölkəsində mallann çıxanlmasma görə çəkilən gömrük xərcləri də nəzərə alınır.

Alıcının məsrəflərinə:

- komission və broker haqqları;
- konteynerlərin və digər çoxdövriyyəli taranın dəyəri;
- qablaşdırma xərcləri, o cümlədən, qablaşdırma materiallarının dəyəri və qablaşdırma işlərinin dəyəri aid edilir.

Beləliklə, gömrük dəyərinə komission və digər vasitəsi haqları da daxil edilir. Özü də gömrük dəyərinə yalnız vasitəçi haqları da daxil edilir. Bir qayda olaraq, onlar malın qiymətində əks etdirilmişsə, müvafiq sənədlər əsasında bu əlavələr edilməlidir. Malın satılması üzrə xərcləri malın alınması üçün çəkilən xərclərdən ayırmaq lazımdır. Çünki sonuncuları alıcı ödəyir və gömrük rüsumuna cəlb olunmur. Çoxdövriyyəli taradan istifadə edildikdə onun dəyəri çoxdəfəlik mal göndərişlərində hər partiyadakı malın miqdarına mütənasib olaraq bölüşdürülür. Belə mütənasib bölgü gömrük orqanı tərəfindən 0 zaman qəbul edilir ki, müqavilədə və ya digər sənədlərlə təstiq edilmiş olsun.

Çoxdövriyyəli taranın geri qaytarılmasına görə çəkilən məsrəflər tara xərclərinə aid edilmir. Sövdələşmə qiymətinin dəqiqləşdi-rilməsinin III komponenti I üsulda qiymətləndirilən malların istehsalı pulsuz, yaxud aşağı qiymətə bilavasitə və ya dolayı yolla təqdim edilən mal və xidmətlərin dəyərinin müəyyən hissəsidir.

Bu dəyər aşağıdakı kimi paylaşdırılır:

1) xammal, material, detal, yarımfabrikatlar və digər komplekt-ləşdirici hissələr;

3) dəyərləndirilən malların istehsalı prosesində sərf edilmiş mallar;

4) mühəndis təcrübə-konstruktor lahiyələri, dizayn, çertyoj və s. I üsuldan sövdələşmə qiymətinin dəqiqləşdirilməsinin dördüncü komponenti alıcının dəyərləndirilən malların satışı şərti kimi bilavasitə və ya dolayısı ilə həyata keçməli olduğu intellektual mülkiyyətdən istifadəyə görə lisenziya və digər ödənclərdir.

Gömrük dəyərləndirilməsi məqsədi ilə lisenziya və digər ödənclər aşağıdakılardan istifadəyə görə ödənən haqlar başa düşülür;

- gətirilən malların o cümlədən, onların sənaye nümunələrinin hazırlanması, noy-hay və s.

- gətirilən malların, o cümlədən, onların mal nişanları və nümunələri;

- patent, müəlliflik hüququ istehsal texnalogiyası da daxil olmaqla gətirilən malların istifadəsi və ya başqasına satılması.

Lisenziya və anoloji digər ödənclər sövdələşmə qiymətinə əlavə edilməsi o vaxt gerçəkləşdirilir ki, bu ödənclər gətirilən mala aid olsun, alıcı ilə satıcı arasında bağlanan müqavilənin şərtləri ilə müəyyən edilmiş olsun. Bu zaman alıcının ödədiyi lisenziya haqları satıcıya yaxud onun əvəzinə 3-cü bir şəxsə ödənilmiş olmalıdır. Sövdələşmə qiymətinin I üsulda dəqiqləşdirilməsinin beşinci komponenti Azərbaycan Respublikası ərazisində qiymətləndirilən mallann istifadə olunmasından,verilməməsindən və ya təkrar satışından satıcının birbaşa, yaxud dolayı yolla əldə etdiyi gəlirin bir hissəsidir.

Bir qayda olaraq satıcının gəlirinin bu hissəsi xarici ticarət müqaviləsində təsbit edilir. Belə ki, əgər müqavilə ilə nəzərdə tutulmuşsa ki, alıcının gəlirinin 10%-i satıcıya qaytarılmalıdır, gəlirin bu hissəsinə uyğun məbləğ gömrük dəyərinə əlavə edilir və dəyər bəyannaməsində göstərilir. Əgər gömrük rəsmiləşdirilməsinə gözlənilən təqribi məbləğ yazılır, onun təyini üçün müstəqil ekspert cəlb edilməsinə imkan verilir. Gözlənilən gəlirin miqdan gömrük orqanı tərəfindən təsdiq edilməlidir. Əgər gəlirin məbləği müəyyən oluna bilmirsə, gömrük dəyərinin I üsulla təyininə yol verilmir.

Gömrük dəyəri təkcə əlavə ödənclər hesabına deyil, həmçinin müəyyən məbləğlərin çıxarılması hesabına da dəqiqləşdirilə bilər. Azərbaycan Respublikasının gömrük ərazisi daxilində gətirilmə məntəqəsindən çatdırılma yerinə qədər çəkilən xərclər müvafiq sənədlərlə təstiq edilməklə sövdələşmə qiymətindən çıxılır.

Bu məsrəflər aşağıdakılardır:

1) Mallann gətirildikdən sonra quraşdırma, yığma, sazlama vo ya texniki köməyə görə xərclər;

2) Gətirilmə yenidən təyinat yerinə qədər çəkilən nəqliyyat xərcləri;

3) İdxal gömrük rüsm, vergi və yığımlannin ödənilməsinə görə xərc.

Lakin qeyd etmək lazımdır ki, bütün işlər müqavilədə əks etdirilmiş olsun və hesab-fakturada bu xərclər ayrıca göstərilsin. Əgər hesab-fakturada nəqletmənin müxtəlif mərhələlərindən xərclər ay- nca göstərilmirsə, idxal yeri təyinat məntəqəsi sahəsindəki nəqliyyat xərclərini yalnız Franko-təyinat gömrük orqanına müvafiq sənədlər təqdim edildikdən sonra çıxmaq olar. Franko-sərhəd satıcının mah alıcı ilə razılaşdınimış yerdə təhvil verməsi xərcləri %-lə, Franko-təyinat %-lə xərclərindən çox aşağı olduğu sübut edilməlidir. Əgər xarici ticarət müqaviləsi ilə DDR və DEO göndəriş şərtləri müəyyən edilmişdirsə, idxal gömrük rüsumu, digər vergi və gömrük yığımları şəklində ödənilmiş məbləğlər malın qiymətindən çıxılmalıdır.

#### 7. İDENTİK (EYNİ) MALLARIN SÖVDƏLƏŞMƏ QİYMƏTİ ÜSULU

“Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının qanununda nəzərdə tutulduğu kimi gətirilən malların sövdələşmə qiymətinə əsaslanan üsuldan istifadə edilməsi mümkün olmayan hallarda II üsul - identik malların sövdələşmə qiymətinə əsaslanan üsul tətbiq edilir.

İdentik mallar dedikdə əsas eyniləşdirmə əlamətləri eyni cür olan mallar başa düşülür. Belə əlamətlərə aşağıdakılar aid edilir:

- fiziki xüsusiyyətlər;
- keyfiyyət və bazardakı reputasiyalar;

- istehlakçı.

Qanunla müəyyən edilmişdir ki, xarici əlamətlərindəki cüzi, əhəmiyyətsiz fərqlər mallara eyni mallar kimi baxılmasmdan imtina etməyə əsas vermir, bir şərtlə ki, bu mallar yuxarıda göstərilən xüsusiyyətlərə görə eyni cür olmalıdır. Baxılan malın istehlakçı tərəfindən istehsal edilən eyni mallar barədə məlumatlar olmadıqda müxtəlif şəxslər tərəfindən istehsal edilmiş mallar o zaman identik hesab edilə bilər. İdentik mal kimi sökülmüş halda olan mallar eyni ölkədə istehsal edilmişsə, həmçinin onların layihəsi, təcrübə sınaq işləri və s. həmin ölkədə yerinə yetirilmişsə, belə mallar qiymətləndirilən mallarla identik hesab edilə bilməz. II üsuldan istifadə edildikdə gömrük dəyərindən imtinanın səbəbləri və məlumat mənbələri göstərilməlidir.

Aşağıdakı şərtlər daxilində gömrük orqanı identik mallar üzrə qərar qəbul edlə bilər:

1) bu mallar Azərbaycan Respublikası ərazisinə gətirilmək üçün satılmış olmalı;

2) qiymətləndirilən mallarla eyni vaxtda və ya ondan 30 gündən çox olmayan müddət ərzində gətirilmiş mallann olması;

3) qiymətləndirilən mallarla təqribən eyni miqdarda və ya eyni kommersiya şərtləri daxilində gətirilmiş olmalıdırlar.

Beləliklə, qiymətləndirilən mallarla identik kimi qəbul ediləcək mallar arasındakı keyfiyyət xüsusiyyətlərinə və göndəriş kommersiya şərtlərinə görə fərqlərin olması ikinci üsuldan imtina etməyə əsas vermir. Belə hallarda malın qiyməti bu fərqlər nəzərə alınmaqla təshih edilir. Təshih hesablamalan gömrük orqanına təqdim edilən sənədli sübutlar əsasında aparılır. Bundan başqa gömrük dəyərinin II üsulla dəqiqləşdirilməsi zamanı I üsulla araşdırdığımız xərclər də nəzərə alınmalıdır. Təshihlər GYB-2-nin 12 və 13-cü qrafalarında əks etdirilir.

İkinci üsul tətbiq edilərkən eyni mallar üzrə birdən artıq sövdələşmə qiyməti aşkar edilərsə, gömrük dəyəri kimi ən aşağı olan götürülür.

## 8. EYNİ CİNSLİ MALLARIN SÖVDƏLƏŞMƏ QİYMƏTİ ÜSULU

Eyni cinsli malların sövdələşmə qiymətinə əsaslanan III üsulun mahiyyəti gətirilən mallann gömrük dəyərinin təyini üçün bu mallarla eyni cinsli olan mallara aid sövdələşmələrdəki qiymətin əsas götürülməsidir. Gömrük qanunvericiliyinə eyni cinsli mallar olaraq, bütün xassələri ilə eyni cinsli olmasa da, ümumi xüsusiyyətlərə malik olan tərkibi oxşar komponentlərdən ibarət olub dəyərləndirilən mallarla eyni funksiyaları yerinə yetirən və kommersiya nöq- teyi-nəzrərindən qarşılıqlı əvəz edilə bilən mallar nəzərdə tutulur.

Beləliklə, malların eyni cinsli olmasını müəyyən edən meyar aşağıdakılardır:

1) texniki (oxşar xassə və komponentlərə malik olması);
2) fünksionl (eyni funksiyalar yerinə yetirmələri);
3) ticari (ticarətdə qarşılıqlı əvəzedilə bilən olmaları).

Təcrübədə mallann eyni cinsliyinin təyini üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

" keyfiyyət, əmtəə nişanı və bazardakı reputasiya;
- mənşə ölkəsi;
- istehsalçı.

Misal üçün iki müxtəlif mal eyni keyfiyyətə malikdir, eyni standartlara cavab verir, bazarda eyni reputasiyaya malikdir və eyni funksiya yerinə yetirirlər, amma müxtəlif ticarət markası var. Ticarət markasının fərqliliyi ona gətirir ki, bu mallan eyni qəbul etməyə, 2-ci üsul tətbiq etməyə imkan vermir, amma onlar eyni cinsli hesab edilir və 3-cü üsul tətbiq edilir.

İdentik mallarda olduğu kimi, qiymətləndirilən mallarla eyni ölkədə istehsal olunmayan eyni cinsli hesab edilə bilməz. Bundan başqa digər, yəni, həmin malın bilavasitə istehsalçısı olmayan şəxslər tərəfindən istehsal olunan mallar o zaman eyni cinsli mallar istehsalı zamanı da gömrük tarifi haqqında qanun 19-cu maddəsinin

Dəyərin çıxılmasına əsaslanan dördüncü üsul özündən əvvəlki üsullann tətbiq edilməsinin mümkün olmadığı hallrda tətbiq edilir.

Məsələnıbirinci üsulda baxılan sövdələşmə qarşılıqlı asılılığı olan şəxslər arasında bağlanmış və bu asılılıq malın qiymətinə təsir edilmişdir, lakin bu təsirin dəyər kəmiyyətini aşkar etmək mümkün olmamışsa; ikinci üsulda gömrük orqanı və təmsilçi baxılan identik mallara aid məlumata malik deyilsə; üçüncü üsulda eynicinsli mallara aid kifayət qədər məlumat yoxdursa, dördüncü - dəyərin çıxılması üsulundan istifadə edilir. Bu zaman əsas şərt - qiymətləndirilən, identik və ya eynicinsli malların ilk vəziyyəti dəyişdirilmədən Azərbaycan Respublikası ərazisində satılması şərtdir.

Beləliklə, 4-cü üsul gətirilən malın idxalçı ölkənin daxili bazarında alqı-satqı qiymətlərinə yönəlmişdir. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, gömrük dəyərinin təyin edilməsi üçün əsas olaraq gətirilən malların ilkin vəziyyəti dəyişilmədən daxili bazarda satıldığı qiymətlər götürülür. Bu halda gömrük dəyərinin hesablanma bazası kimi qiymətləndirilən malların gətirilmə anma yaxın müddətdə satıldığı qiymətlər götürülür. Eyni zamanda, alıcının satıcıdan asılı olmaması şərtinə riayət olunmalıdır. Qiymətləndirilən identik və ya eyni cinsli malların daxili bazarda gətirilmə anmdakı halda satılması faktları yoxdursa, təmsilçisinin xahişinə əsasən emal prosesi keçmiş və əlavə dəyər düzəlişi verilmiş mal vahidinin qiyməti götürülə bilər. Bu halda emal prosesində əlavə edilmiş dəyərin əsas dəyərdən çıxılması belə emalın dəyəri barədə obyektiv və kəmiyyətcə müəyyən edilə biləcək məlumat əsasında aparılmalıdır. 4-cü üsuldan istifadə edildikdə gömrük dəyərinin əsaslandırılması üçün məlumat mənbəyi kimi müqavilələridə əvvəllər idxal edilmiş və ya dəyərləndirilmiş malların qiyməti barədə məlumatlardan, yaxud malların daxili

**Yoxlama sualları**

1. Gömrük dəyəri altında nə başa düşülür?
2. Azərbaycan Respublikasına gətirilən mallara qarşı gömrük dəyərinin müəyyənləşdinİməsinin metodikası necə qurulmuşdur?
3. İxrac olunan (ölkədən apanlan) malların gömrük dəyərinin təyin edilməsi qaydasını kim müəyyənləşdirir?
4. Gömrük dəyəri hansı məqsədlər üçün istifadə edilir?
5. Gömrük dəyərinin ümumi strukturu və əsas elementləri hansılardır?
6. Gətirilən mallar üçün gömrük dəyərinin müəyyənləşdirilməsi metodlannm tətbiq edilmə ardıcıllığı necədir? Bu üsulların xarakteristikasını verin.
7. İdxal mallarının sövdələşmə qiymətləri ilə müəyyən edilməsi xarakteristikasını verin?
8. Gömrük dəyərinin 1 metodunu tətbiq edilməsi şərtləri hansılardır?
9. Sövdələşmə dəyərinə görə gömrük dəyərinin tətbiq edilməsinin qeyri-mümkünlüyünün səbəbi nədir?
10. Aparılan malların gömrük dəyərini necə müəyyənləşdirilir?
11. Gömrük dəyərinin bəyan edilməsinin qaydası hansılardır?
12. Malların gömrük dəyərinin bəyan edilməsinin hansı ardıcıllığı vardır?
13. Gömrük dəyər bəyannaməsi (GDB) özündə nəyi (birləşdirir) göstərir?
14. Gömrük dəyəri üzrə bəyan edilmiş məlumatların təsdiq edilməsi üçün bəyan edən hansı sənədləri təqdim etməlidir?
15. Hansı hallarda bəyannaməçi bəyannamədə gömrük dəyərini doldurmur?
16. Malların gömrük dəyərinə düzəlişlərin təyin edilməsinin mahiyyəti nədən ibrətdir?
17. Gömrük dəyərində düzəlişlərin aparılması hallarını söyləyin?
18. Gömrük dəyərinin düzəlişlərinin aparılmasının hansı qaydalan mövcuddur?

## Mövzu 6. Test tapşırıqları

**1. Malların gömrük dəyərinin təyin edilməsinin əsası nə ilə bağlıdır?**

a) advolar stavkası ilə gömrük rüsumunun hesablanmasında vergi bazası və gömrük rəsmiləşdirilməsinə görə yığımların, həmçinin ƏDV- nm hesablanması üçün vergi bazasının və dəyər stavkasına görə aksizlərin hesablanması ilə;

b) Azərbaycan Republikası gömrük sərhəddindən keçirilən malların amerikan dollarında statistik göstəricilərinin yaranmasının əsası ilə;

v) gömrük məqsədləri ilə istifadə (məs. gömrük rüsumlannm hesablanması üçün) xüsusən kontraktın dəyərinin müəyyən edilməsi fakturası ilə;

q) büdcə kəsirlərinin doldurulması, fiskal siyasət ilə.

**2. idxal mallarının gömrük dəyərinin ümumi məzmunu nədir?**

a) Azərbaycan Respublikasında mallann satışı zamanı (ixracda) satıcı tərəfindən çəkilən xərclərin ümumi miqdan;

b) Azərbaycan Respublikası gömrük ərazisində malların gətirilməsi yerinə qədər onlann gətirilməsi də daxil olmaqla bazar dəyəri və yaxud mallann alınması (onlara hər - hansı səlahiyyət hüququ olmaqla) və onlann Azərbaycan Respublikası gömrük ərazisinə gətirilməsi ilə əlaqədar bütün xərclərin cəmidir;

v) gömrük rəsmiləşdirilməsi məqsədilə gömrük orqanlanna təqdim edilən mal müşayətedici sənədlərdə göstərilən xərclərin cəmidir;

q) Azərbaycan Respublikası alıcının mallann alınması zamanı çəkilən xərclərin cəmidir.

**3. Bəyan edilən mallann kontrakt (faktura) dəyəri ilə gömrük dəyəri uyğun ola bilərmi?**

a) xeyir, ola bilməz, belə ki, kontrakt dəyəri mallann çatdınlma xərclərini əls etdirmir;

b) ola bilər, əyər Azərbaycan Respublikası gömrük ərazisində malların çatdınimasının nəqliyyat xərclərini alıcı öz üzərinə götü-

rərsə;

v) ola bilər, əgər Azərbaycan Respublikası gömrük ərazisinə malların çatdırılmasının nəqliyyat xərclərini satıcı öz üzərinə götürmüş olsun;

q) ola bilər əyər satıcı ilə alıcı arasındakı kontraktda xətclər öz əksini taparsa.

**4. Bəyan edilən malların statistik və kontrakt dəyərləri (faktura dəyəri) eyni ola bilərmi?**

a) xeyir, ola bilməz, beləki kontrakt dəyəri mallann çatdırılma xərclərinin əhatə etmir;

b) ola bilər, əyər kontrakt qiymətləri SİF baza qiymətlərinə - Azərbaycan limanlan və ya SİF - Azərbaycan Respublikasında təyinat məntəqəsinin sərhəddi qiymətlərinə gətirilsin;

v) ola bilər, əyər bütün nəqliyyat xərclərinin Azərbaycan ərazisində malların çatdırılma məntəqəsinə qədər bütün nəqliyyat xərclərinin alıcı öz üzərinə götürmüş olsun;

q) ola bilməz, kontrak dəyərində yüklərin boşaldılıb yüklənilməsi xərcləri öz əksini tapmamış olur.

**5. Ola bilərmi ki, malların kontrakt dəyəri (DGB) dövlət gömrük bəyanaməsində göstərilən gömrük dəyərindən artıq olsun?**

a) xeyir, ola bilməz;

b) ola bilər, əyər, mallar hissə-hissə gətirilirsə və ayrı-ayrı bəyannamələrlə qeydiyyatdan keçirilirsə və yaxud malların alıcıya çatdınimasının nəqliyyat xərclərini satıcı öz üzərinə götürürsə;

v) ola bilər, əyər, bütün malların Azərbaycanda idxal olunacağı yerə çatdınimasının xərclərini satıcı öz üzərinə götürürsə;

q) ola bilər, əyər bütün malların idxal olunacağı təyinat yerinə çat-dınlması xərclərini alıcı öz üzərinə götürərsə

**6. Gömrük dəyərinin müəyyənləşdirilməsi üsularından hansı əsasdır?**

a) toplama üsulu və ya çıxma üsulu;
b) eyni cinsli malların sövdələşmə dəyəri üsulu; v)
idxal olunan malların sövdələşmə dəyəri üsulu; q)
6-cı üsul ehtiyat üsulu.

**7. Malların gömrük dəyərinin müəyyənləşdirilməsi üsulları hansı ardıcıllıqla tətbiq olunur?**

a) idxal mallarının sövdələşmə qiyməti identik malların sövdələşmə qiyməti ilə, eyni cinsli mallann sövdələşmə qiyməti çıxma, toplama ehtiyat üsulu ilə;
b) gətirilən malların sövdələşmə dəyəri ilə eyni cinsli malların sövdələşmə dəyəri ilə identik malların sövdələşmə dəyəri ilə çıxma, ehtiyat üsulu ilə;
v) gətirilən malların sövdələşmə dəyəri ilə, identik mallann sövdələşmə dəyəri ilə, eyni cinsli malların sövdələşmə qiyməti ilə, toplama, çıxma, ehtiyyat üsulu ilə.
q) gətirilən mallann sövdələşmə dəyəri, dəyərin toplanması, dəyərin çıxılması, eyni cinsli malların sövdələşmə qiymət, identik malların sövdələşmə qiyməti ilə.

**8. İxtac mallarının gömrük dəyərinin ümumi mahiyyəti nədir?**

a) Azərbaycan Respublikasından malları satan zaman satıcının xərclərinin ümumi dəyəri;
b) malların istehsalı (onlara hər hansı hüququ qazanmaq) və onların Azərbaycan Respublikası gömrük ərazisindən çatdınima yerinə apaniması və ya malların aparılma zamanı bazar dəyəri, Azərbaycan Respublikası gömrük ərazisindən apanlacağı məntəqəyə çatdırılmasında daxil olmaqla xərclərin ümumi miqdarı;
v) gömrük rəsmiləşdirilməsi məqsədi üçün gömrük orqanlanna təqdim edilmiş, mal müşayətedici sənədlərdə göstərilən xərclərin miqdarı;
q) ixrac gömrük rüsumlannın advolor dərəcə ilə hesablanması üçün vergi bazası

**9. Qiymətləndirilən mallarla müqayisədə gömrük işində hansı mallar identik hesab olunur?**

a) qiymətləndirilən mallarla bütün cəhətlərlə eyni olan mallar, o cümlədən, fiziki xarakteristikasına; mənşə ölkəsinə; istehsalçısına görə;

b) qiymətləndirilən mallarla müqayisədə eyni xüsusiyyətlərə malik olmayan, ancaq oxşar xarakteristikaya və oxşar komponentlərdən ibarət olan və onlarla eyni funksiyanı yerinə yetirməyə imkan verən, kommersiya cəhətdən qiymətləndirdikdə qarşılıqlı əvəz etməyə yararlı olan mallar.

v) qiymətləndirilən mallarla eyni, o cümlədən, fiziki xarakteristikasına; keyfiyyət; bazardakı reputasiyasına; istehsalçısına görə, ancaq müxtəlif ölkələrdə hazırlanmış mallar.

**10. Gömrük dəyəri təmsilçi tərəfindən nə vaxt bəyan edilir?**

a) malların gömrük rəsmiləşdirilməsi və ya gömrük prosedurunun dəyişdirilməsi zamanı;

b) Azərbaycan Respublikasının gömrük sərhəddini keçdikdən sonra;

v) gömrük bəyannaməsini təqdim edənə qədər;

q) gömrük sərhəddini keçənə qədər.

**11. GDB-sı (Gömrük Dəyər Bəyənaməsi) hansı mallar üçün doldurulur?**

a) Azərbaycan Respublikası ərazisinə gətirilən bütün mallara;

b) gömrük rüsum, vergiləri qoyulan gətirilən bütün mallara;

v) ancaq hüquqi şəxslər tərəfindən gətirilən mallara;

q) hüquqi və fiziki şəxslər tərəfindən gətirilən bütün mallar.

**12. Forma GÜB-nın təyinatı nədir?**

a) bir gömrük bəyannaməsində gətirilən bütün bəyan edilmiş malların gömrük dəyərini bəyan etmək üçün;

b) 2 və 3-cü üsullarla gətirilən malların gömrük dəyərini müəyyən etmək üçün;

v) 1-ci üsula gətirilən malların gömrük dəyərlərinin müəyyən etmək üçün.

## Mövzu 7.
### AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK SƏRHƏDDİNDƏN KEÇİRİLƏN MALLAR VƏ NƏQLİYYAT VASİTƏLƏRİNƏ GÖMRÜK NƏZARƏTİ

1. Gömrük nəzarəti anlayışı, məqsədi, subyekt və obyektləri.
2. Gömrük nəzarətinin aparılma fonna və qaydaları.
3. Gömrük nəzarətinin həyata keçirilməsi, ekspertiza və tədqiqat.
4. Gömrük nəzarətinin həyata keçirilməsinin bəzi xüsusiyyətləri.
5. Bir sıra mallara qarşı gömrük orqanları tərəfindən görülən tədbirlər.

### 1. GÖMRÜK NƏZARƏTİ ANLAYIŞI, MƏQSƏDİ, SUBYEKT VƏ OBYEKTLƏRİ

Gömrük nəzarəti-gömrük işi haqqında Azərbaycan Respublikasında qanunvericiliyə əməl etmək və icrasına nəzarət gömrük orqanlarına həvalə edilmiş məsələləri təmin etmək məqsədi ilə həyata keçirilən tədbirlər toplusudur.

Gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlərin fonna, qayda və gömrük nəzarətini həyata keçirmə üsulları birlikdə tədbirlər toplusu başa düşülür.

Gömrük nəzarətinin həyata keçirilmə formaları - bunlar yoxlama tədbirlərinin həyata keçirilməsinin ayn-ayn növ müxtəlifliyidir (sənədlərin yoxlanılması, mal və nəqliyyat vasitələrinə tam gömrük baxışı, gömrük müşahidəsi və s. formalar).

Azərbaycan Respublikası Gömrük Məcəlləsində (347 maddə) ekspertlərin qərarı ilə əlaqəli və təkrar ekspertiza ilə ekspertlərin hüquq və vəzifələri, təmsilçinin hüququ, mallar və ya nəqliyyat vasitələrinə səlahiyyət münasibəti olan digər şəxslərin haqqında ekspertizanın təyini və aparılması məsələləri tənzimlənmişdir.

Gömrük orqanlarının vəzifəli şəxsləri şəxsi gömrük nəzarəti apanıması zamanı tədqiqat üçün vacib olan nümunələri götürmək hüququna malikdir. Onlann götürülmə qaydası GM vasitəsi ilə tənzimlənir.

Gömrük nəzarətinin aparılması gömrük nəzarətinin seçilmiş formasının Azərbaycan Respublikası DGK-nin rəhbəri və ya onu əvəz edən şəxsin, ayrı-ayrı şəxslər, mallar və nəqliyyat vasitələrini əgər onlar Azərbaycan Respublikasının təhlükəsizliyi ilə əlaqədardırsa gömrük nəzarətinin müəyyən formalanndan azad etmə hüququ vardır.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinə (96 maddə) uyğun olaraq mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsi fəaliyyəti ilə məşğul olan, həmçinin gömrük işi sahəsində fəaliyyət göstərən şəxslər haqqında məlumat toplanması tənzimlənir. Gömrük nəzarətinin həyata keçirilməsində texniki vasitələrdən istifadə etmək məsələləri də Azərbaycan Respublikası Gömrük Məcəlləsi vasitəsi ilə tənzimlənir, (GM. 86 maddə) həyata keçirilməsi üçün seçilmiş daha səmərəli tədbir başa düşülür.

Gömrük nəzarətinin həyata keçirilmə üsuluna, məs: mal və nəqliyyat vasitələrinin identifikasmı, ekspertizanın təyinini, mütəxəssislərin cəlb edilməsini, malların başını bağlamaq və ya malları götürmək, gömrük nəzarəti zonaları yaratmaq və s. aid etmək olar.

Gömrük nəzarətinin aparılması vasitələri dedikdə gömrük nəzarətinin texniki vasitələrini, gömrük orqanlarının dəniz və hava gəmilərini, gömrük orqanlarının informasiya resurslarını, itlərlə axtarışı başa düşmək lazımdır.

Gömrük nəzarəti Azərbaycan Respublikası Gömrük Məcəlləsinə uyğun olaraq gömrük orqanları tərəfindən aparıla bilər.

Əgər gömrük orqanı Azərbaycan Respublikasına idxal olunmuş malları Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi qanunvericiliyinə uyğun yoxlayırsa o zaman malların qadağa və məhdudiyyətləri həmçinin digər dövlət orqanlarına da aidiyyəti varsa onda gömrük orqanlan belə hərəkətlərin birlikdə aparılmasının kordinasiyasını təşkil edir.

Gömrük nəzarəti altında olan mallardan nümunə və problar gömrük orqanının yazılı icazəsi ilə digər dövlət orqanlan tərəfindən götürülür. Gömrük orqanlarının vəzifəli şəxslərinin digər dövlət

etmək hüquqları vardır. Digər dövlət orqanlan tərəfindən götürülmüş prob və nümunələrin nəticələri haqqında gömrük orqanları məlumatlandırılmalıdırlar.

Malların buraxılması haqqında son qəran, aparılmış gömrük nəzarətinə əsasən gömrük orqanlan qərar verirlər. Bununla belə gömrük nəzarətinin ayrılmaz hissəsi digər dövlət orqanlan tərəfindən verilən icazə sənədlərinin (sanitar-karantin, karantin-fıtosanitar, veterinär nəzarəti orqanlarının) gömrük orqanları tərəfindən yoxlanılmasıdır.

Gömrük nəzarəti altında olan malları gətirən nəqliyyat vasitələrinə gəldikdə isə burada gömrük orqanlarının müstəqil səlahiyyətləri gömrük nəzarəti zonası ilə məhdudlaşır.

Mal və nəqliyyat vasitələrinin gömrük nəzarəti (nəzarət forması ilə) təkcə nəzarətlə məhdudlaşmır. Gömrük nəzarəti eyni zamanda o malların statusudur (nəqliyyat vasitələri). Məsələn, Azərbaycan Respublikası Gömrük Məcəlləsinə görə gətirilən və gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələrindən istifadə Azərbaycan Respublikası Gömrük Məcəlləsilə müəyyənləşdirilmiş qayda və şərtlərlə icazə verilir.

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilmiş mal və nəqliyyat vasitələri gömrük sərhəddini keçən andan gömrük nəzarətində olur:

- sərbəst mübadilə üçün buraxılış;
- məhv etmə;
- respublika mülkiyyətinə keçmə (məsələn, malların müsadirə edilməsi, dövlət xeyrinə maldan imtina),

Azərbaycan Respublikası gömrük ərazisinə qeyri-qanuni gətirilmiş malların realizasiyası (Azərbaycan ərazisinə qeyri-qanuni gətirilmiş, gömrük rüsumlarından, gömrük əməliyyatlarında şəxsin imtina etməsi).

- azad olunmaz realizasiya (məsələn, müvəqqəti saxlanc və ya gömrük anbarında saxlama müddətinin ötməsi);
- Azərbaycan Respublikası gömrük ərazisindən faktiki aparılması (məsələn, Azərbaycan ərazisinə gətirilməsi qadağan

və ya təkrar ixrac proseduruna uyğun gətirilmiş).

Azərbaycan malları (nəqliyyat vasitələri) Azərbaycan gömrük ərazisindən aparıldığı, gömrük bəyannaməsinin qəbul edildiyi və yaxud Azərbaycan Respublikası gömrük ərazisindən çıxarmağa yönəldilən fəaliyyət yekunlaşdığı və gömrük sərhəddini (Azərbaycan Respublikası gömrük ərazisindən faktiki çıxarıldığı ana qədər) keçənə qədər gömrük nəzarəti altında olurlar.

Gömrük nəzarətində vacib xüsusiyyət ondan ibarətdir ki, onun aparılmasına malların sərbəst dövriyyəyə buraxılmasından sonra da icazə verilir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinə uyğun olaraq mal və nəqliyyat vasitələrinin buraxılmasından sonra məlumatlann düzgünlüyünün yoxlanılması gömrük orqanları tərəfindən malların gömrük nəzarətində olma statusunu itirdikdən bir il sonra həyata keçirilə bilər. Bununla yanaşı gömrük orqanının ixtiyarı vardır ki, gömrük nəzarətinin təftiş formasını həyata keçirsin.

**Gömrük məcəlləsi aşağıdakı gömrük nəzarəti prinsiplərini müəyyənləşdirir.**

Gömrük orqanları gömrük nəzarətini apararkən seçmə prinsipindən çıxış edirlər və bir qayda olaraq gömrük nəzarətinin o formalan ilə məhdudlaşırlar ki, gömrük qanunvericiliyinin gözlənilməsi üçün kifayət edir. Azərbaycan gömrük qanunvericiliyində total nəzarətdən onun seçimliliyinin keçidi yenidir. Bu da idarə etmədə riskinə əsaslanır. Bu gömrük nəzarətinin yeni konsepsiyasıdır. Burada söhbət ondan gedir ki, nəzarət nöqtələrlə aparılır və nəzarət orada o vaxt aparılır ki, gömrük qanunvericiliyinin pozulmasına real risk mövcuddur. Ona görə də gömrük nəzarətinin seçim formasının seçilməsi idarə etmənin risk sistemindən istifadə olunur. Risk altında Azərbaycan Respublikası gömrük qanunvericiliyinə əməl olunmaması ehtimalı başa düşülür.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinə uyğun olaraq risk idarəçiliyi sistemi gömrük orqanlarının Azərbaycan qanunvericiliyinin pozulmasının aradan qaldırılması üçün resurslardan səmərəli istifadə olunmasına əsaslanır:

- davamlı xarakterə malik olma;

- gömrük rüsum vergilərin ödənilməsindən yayınmaların xüsusilə böyük ölçüdə;

- ölkə istehsalçılarının rəqabət qabiliyyətlərinin aşağı salınması;

- qorunması gömrük orqanlarına həvalə edilmiş dövlətin vacib maraqlarına toxunan məsələlərin aradan qaldırılması.

Gömrük orqanlarının resursları dedikdə əsasən gömrük orqanlarında olan vəzifəli şəxslərin miqdarı və onların ixtisas hazırlığı gömrük nəzarətinin aparılması üçün lazımi texniki vasitələrin mövcudluğu gömrük infrastrukdurunun mövcudluğu (əsaslı baxış meydançası, anbarı olması), informasiya resurslarının olması başa düşülür.

Gömrük orqanları malların, nəqliyyat vasitələrinin, sənədlərin, yoxlanmaya məruz qalan şəxslərin və onların belə yoxlama dərəcəsini müəyyənləşdirmək üçün risklərin analizini tətbiq edir.

Gömrük bəyannaməsinin və digər sənədlərin yoxlanılması və gömrük rəsmiləşdirilməsi üçün GM-si vaxt müəyyənləşdirir. Beləliklə, gömrük orqanları tərəfindən gömrük bəyannaməsinin qəbul edildiyi andan 3 gündən gec olmayaraq gömrük rəsmiləşdirilməsi başa çatdırılmalıdır.

Gömrük orqanları malların yoxlanılması üçün bağlama yerləri ayrı-ayrı növlər üzrə aynlmadıqda, bağlama və markalanma və nəqliyyat, kommersiya sənədlərində Azərbaycan Respublikası GM-nin 195 - maddəsinə görə gömrük orqanları mal və nəqliyyat vasitələrinə baxış və əsaslı baxışın keçirilməsi, onların saxlanılması, gömrük nəzarəti altında yer dəyişmələrini aparmaq üçün sərbəst gömrük nəzarəti zonaları yarada bilərlər.

Sərbəst gömrük nəzarəti zonaları gömrük sərhəddi boyu gömrük rəsmiləşdirilməsinin həyata keçirildiyi yerlərdə, gömrük əməliyyatının yekunlaşdırıldığı, yüklərin boşaldılıb yükləndirildiyi yerlərdə, baxış və tam baxış apanlan, müvəqqəti saxlanc anbarları, nəqliyyat vasitələri dayanacaqlarında həmçinin. Gömrük Məcəlləsinə uyğun digər yerlərdə yaradıla bilər.

Gömrük nəzarəti zonaları onlarda daim mal və nəqliyyat vasi-

toləri olduqda və gömrük nəzarəti həyata keçirildikdə daimi sərbəst zonalar və ya müvəqqəti zonalar ola bilər.

Mallann yoxlanılması ancaq gömrük nəzarəti zonalannda həyata keçirilə bilər. Gömrük nəzarəti üçün lazım olan sənədlər şəxslər tərəfindən (o cümlədən, XİF iştirakçıları tərəfindən) malların gömrük nəzarəti altında olma statusunu itirdikdən sonra beş il müddətinə saxlanılmalıdır (GM 89-cu maddə). Brokerlər müvəqqəti gömrük saxlanc anbarları və gömrük anbarları sahibləri həmin sənədləri beş il müddətində saxlamalıdırlar.

GM-də gömrük nəzarəti aparılması zamanı ziyan vurulmaması nəzərdə tutulur. Düzgün olmadan gömrük orqanı tərəfindən vurulmuş ziyan tam şəkildə ödənilməlidir.

## 2. GÖMRÜK NƏZARƏTİNİN APARILMA FORMA VƏ QAYDALARI

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 94-cü maddəsində gömrük nəzarətinin apanima fonua və qaydaları müəyyənləşdirilmişdir, XİF iştirakçıları üçün vacib əhəmiyyəti ondan ibarətdir ki, GM-də gömrük nəzarətinin tükənən fonualan mövcuddur və gömrük orqanları GM-də olmayan digər fomıalardan istifadə etməsinə ixtiyan yoxdur.

Azərbaycan Respublikası Gömrük Məcəlləsində (94.2 maddə) aşağıdakı gömrük nəzarəti formalarını müəyyənləşdirilir:

- gömrük məqsədləri üçün sənəd və məlumatların yoxlanılması;
- şifahi sorğu;
- izahat alınması;
- gömrük müşahidəsi;
- mal və nəqliyyat vasitələrinə gömrük baxışı;
- mal və nəqliyyat vasitələrinə tam gömrük baxışı;
- şəxsi baxış;
- malların xüsusi markalarla markalanmasını, onlada identifika-siya nişanələrinin olmasını yoxlamaq;
- bina və ərazilərə baxış;
- gömrük auditi.

*İndi isə həmin nəzarət formalarına ayrı-ayrılıqda nəz^r yetirək.*

Sənəd və məlumatların yoxlanılması gömrük nəzarəti forması, gömrük orqanlannm vəzifəli şəxsləri tərəfindən mallann rəsmiləşdirilməsi zamanı tətbiq edilir və sənədlərin düzgün qeydiyyatının düzgünlüyünün, sənədlərinin əslinin yoxlanılması, sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması məqsədi daşıyır.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinə uyğun olaraq belə gömrük nəzarəti formasının apanimasınm məqsədi:

- sənədlərin düzgünlüyünü yoxlamaq (fəaliyyət dövrü lazımi rekvizitlərin düzgünlüyünü, möhür, imza, ştampın);
- sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlanılması (göndərən haqqında göstəricilərin, mal alanın, təmsilçi, keçirilən malların məlumatlarının adları, dəyəri, miqdarı, mənşə ölkəsi və s. gömrük ödənilməsi haqqında məlumatların yoxlanılması və digər);
- sənədlərin düzgün yazılması, yoxlanılması (YGB-si qrafalarının uyğun, qrafalannın düzgün doldurulmasının, düzəlişlərin olmasını, düzgünlüyünü).

Beləliklə, sənəd və məlumatların yoxlanılması bir neçə mərhələdə aparılır:

a) sənədlərin əslinin düzgün yazılmasının yoxlanılması (sənədlərin formasının yoxlanılması);

b) gömrük məqsədləri üçün məlumatların yoxlanılması (sənədlərin məzmununun yoxlanılması).

Mövcud gömrük nəzarətinin həyata keçirilməsi zamanı gömrük orqanları təqdim edilmiş sənəd və məlumatlardan asılı olamayaraq, müstəqil şəkildə digər mənbələrdən alınan informasiyalardan, o cümlədən, digər formada aparılan gömrük nəzarətinin nəticələrindən, gömrük statistikası məlumatlarından, proqram vasitələrinin təhlil etdikləri məlumatlardan istifadə edə bilərlər.

Baxılan gömrük nəzarəti forması gömrük rəsmiləşdirilməsi prosesində apanla bilər. Yoxlanılmış sənəd və məlumatların siyahısı konkret gömrük əməliyyatı və gömrük prosedurlarından asılıdır. (Azərbaycan Respublikası gömrük ərazisində mallann gəldiyi

lancda yerləşdirilməsindən, mallann gömrük bəyan edilməsindən).

Şifahi sorğu: - bu forma gömrük nəzarəti gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən (təmsilçi, malları keçirən şəxs və digər şəxslər) keçirilən mal və nəqliyyat vasitələrinin vəziyyətləri haqqında məlumatlar alınması üçün istifadə edilir.

Şifahi sorğudan başqa Azərbaycan Respublikası Gömrük Məcəlləsi malların gömrük rəsmiləşdirilməsi zamanı gömrük nəzarətini həyata keçirmək üçün izahat alınmasına, o cümlədən, malların sərbəst dövriyyə üçün buraxılmasından sonra icazə verilir.

Gömrük orqanları mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsi ilə əlaqəsi olan hər bir şəxsdən (təmsilçidən, daşıyıcıdan, ekspeditordan və digər) gömrük nəzarətinin keçirilməsinə yardım edən izahatı ala bilər.

***Gömrük müşahidəsi*** - gömrük orqanlarının vəzifəli şəxslərinin gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələrinin daşınmasına razılaşdırılmış və məqsədə uyğun vizual müşahidəsidir.

Gömrük müşahidəsi ola bilər:

- sistematik (məs: müvəqqəti saxlama anbarında) və ya bir dəfəlik gömrük orqanının yerləşdiyi yerdən kənarda malların yüklənməsi zamanı;
- bilavasitə və ya bilavasitə (gömrük nəzarətində xüsusi texniki vasitələrin istifadəsinin hayata keçirildiyi halda).

Gömrük müşahidəsi aparıla bilər:

- mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi prosesində (məsələn, malların daxili və beynəlxalq gömrük tranziti zamanı, gömrük orqanlarının icazəsi ilə daxili və ya beynəlxalq gömrük tranziti zamanı həyata keçirilən gömrük müşahidəsi nəzarəti forması kimi);
- Azərbaycan Respublikası gömrük ərazisinə şərti olaraq buraxılmış mal və nəqliyyat vasitələrinə qarşı (məs: gömrük anbarı rejimində saxlanılan və ya emal məqsədilə gətirilən).

***Mal və nəqliyyat vasitələrinə gömrük baxışı*** - gömrük orqanlannm vəzifəli şəxsi tərəfindən səlahiyyət verilmiş nümayəndəsi tərəfindən apanlan vizual baxış gömrük nəzarəti formasıdır ki, burada mallara.

fiziki şəxslərin yükünə, nəqliyyat vasitələrinə, yük tutumuna, gömrük plombuna, möhürə və digər identifikasiya vasitələrinə, nəqliyyat vasitəsinə və ya yük yerin açmadan mallann bağlanma, qablaşdınlma- sına xələl gətirmədən aparılan vizual gömrük baxışıdır.

Mal və nəqliyyat vasitələrinə baxış təmsilçinin baxış keçirilən əşyalara səlahiyyəti olan digər şəxslərin iştirakı ilə aparılır. Əgər gömrük nəzarəti zonasında olan mal və nəqliyyat vasitələrinə baxış zamanı maraqlı şəxslərin gömrük baxışında iştirakı üçün istək göstərməməkləri isə müstəsnalıq təşkil edə bilər.

Mal və nəqliyyat vasitələrinə gömrük baxışının nəticələrinin yazılı qeydiyyatının aparılması (akt şəklində iki nüsxədən ibarət) aşağıdakı faktorlardan asılıdır:

- gömrük orqanlarının gömrük baxışının nəticələrindən sonradan istifadəsindən (məsələn, təsdiqedici informasiya kimi) asılıdır;

- baxış keçirilən mallara və ya nəqliyyat vasitələrinə səlahiyyətləri olan şəxslərin tələbi ilə (akta alternativ olaraq gömrük baxışı haqqında nəqliyyat sənədlərində qeydlər).

**Mal və nəqliyyat vasitələrinə tam baxış** - bu gömrük orqanının vəzifəli şəxsi tərəfindən aparılan gömrük nəzarəti forması olmaqla özündə plom, möhür və digər identifikasiya vasitələrini açmaq və mallann qablaşmalarını, nəqliyyat vasitələrinin yük yerlərini, konteyner və digər yerləri, (haradakı mallar yerləşə bilər) açmaqla bağlı olan əməliyyatları birləşdirir. Bir qayda olaraq tam gömrük nəzarəti malların gömrük bəyannaməsinin qəbul edilməsindən sonra aparılır. Daha doğrusu o vaxt ki, gömrük bəyannaməsi hüquqi sənəd statusunu alır.

Aşağıdakı hallar istisnalıq təşkil edir:

- Azərbaycan Respublikası gömrük ərazisinə gətirilmiş malların identifıkasiyası üçün bəyannamənin verilməsinə qədər tam gömrük baxışı (məs: daxili gömrük tranzitinin rəsmiləşdirilməsi zamanı);

- Azərbaycan Respublikası gömrük qanunvericiliyinin pozulmasının informasiyasının yoxlanılması üçün tam gömrük nəzarəti;

bərdarlıq əsasında aparılmalıdır.

Tam gömrük nəzarətinin təmsilçi və ya digər mal və nəqliyyat vasitələrinə səlahiyyətləri olan şəxslərin və nümayəndələrinin iştirakı olmadan həyata keçirilməsi o hallarda mümkündür:

- gömrük bəyannaməsinin verildiyi vaxtın keçdiyi;
- gecikdirilməsi mümkün olmayan dövlət təhlükəsi, ictimai qaydaların, insanların həyat və sağlamlıqlarına, heyvanlara, bitkilərə, ətraf təbii mühütə, mədəni dəyərlərin qorunmasına və digər vəziyyətlərdə təhlükə yarandıqda;
- Azərbaycan Respublikası gömrük ərazisində malların daşınmasına aid nəzərdə tutulmuş qaydaları gömrük rejimini pozaraq mal və nəqliyyat vasitələrini gömrük ərazisində qoymaq.

Mal və nəqliyyat vasitələrinin tam gömrük baxışının nəticələri əsasında iki nüxsədə akt tərtib edilir.

Şəxsi tam baxış - gömrük baxışının bu müstəsna forması gömrük orqanının rəisi və ya onun müavininin qərarı ilə Azərbaycan Respublikası Dövlət sərhəddi ilə keçən beynəlxalq istiqamətlər üçün açıq olan və aerovağzalın tranzit zonasında və ya gömrük nəzarəti zonasında olan fiziki şəxsin özündə. Azərbaycan Respublikası ərazisinə gətirilməsi və ya aparılması qadağan olunmuş malı gizlətməsi haqqında lazımi qədər məlumat olduğu təqdirdə həyata keçirilir.

***Malların xüsusi markalarla markalanmasını və onlarda identifikasiya nişanlarının olmasını yoxlamaq*** - gömrük nəzarəti forması gömrük orqanları tərəfindən mallarda və ya onların qablaşdırılmasmda xüsusi marka, identifıkasiya işarələrini və ya malların digər işarələnmələrini yoxlamaq məqsədi ilə həyala keçirilir.

Bu forma gömrük yoxlamalan, gömrük nəzarəti altında olmayan mallara tətbiq edilir. Belə ki, Azərbaycan Respublikası Gömrük Məcəlləsinə uyğun olaraq gömrük orqanları Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən malların dövriyyəsi zamanı gömrük nəzarəti apanrlar:

- Azərbaycan Respublikası Gömrük Məcəlləsinin müəyyən et

diyi tələb və şərtlərə uyğun olaraq buraxılmasının gömrük orqanlan tərəfindən yoxlama yolu ilə təsdiqlənməsi;

- mallann üzərində Azərbaycan Respublikası gömrük ərazisinə gətirilməsi leqallığı istifadə edilən marka və identifikasiya işarələrinin olmasını yoxlamaq.

Malların xüsusi markalarla markalanmasınm məqsədi mallann üzərindəki identifikasiya nişanlan və digər formada malların işarələnməsi mallann Azərbaycan Respublikası gömrük ərazisinə gətirilməsinin leqallığmı təsdiq etmə kimi qiymətləndirilir. Məs: alkoqollu məhsulların, tütün və tütün məhsullarının Azərbaycan Respublikası gömrük ərazisinə gətirilməsi və onların sərbəst dövriyyə üçün buraxılması aksiz markaları ilə markalanmadan keçir (onların dövriyyəsinə nəzarət üçün).

Gömrük orqanlan tərəfindən (göstərilən gömrük nəzarətinin həyata keçirilməsi gedişində) müəyyən edilmiş faktlan markalar və identifikasiya işarələrinin olmaması malların Azərbaycan Respublikası gömrük rəsmiləşdirilməsindən keçirilmədən gətirilməsi kimi baxılır.

Bina və ərazilərə baxış belə gömrük nəzarəti formasınm məqsədi, şərti buraxılmış müvəqqəti saxlanc anbarları, gömrük anbarları, rüsumsuz ticarət mağazalarında, həmçinin şəxslərdə olan gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələrini müəyyənləşdirməkdir. Gömrük orqanlannın vəzifəli şəxs tərəfindən bina və ərazilərə vizual baxışın keçirilməsi mal və nəqliyyat vasitələrin harada olmaları və ola biləcəklərini öyrənməkdir.

Gömrük auditi (təftişi) - gömrük nəzarəti forması gömrük orqanları tərəfindən aparılır, burada malların buraxılma faktlarını, gömrük məcəlləsində göstərilən məlumatları, həmçinin digər informasiyaların düzgünlüyünün müəyyənləşdirilməsidir.

Ümumi və xüsusi gömrük təftişi ancaq hüquqi şəxslər, fərdi sahibkarlar, həmçinin XİF iştirakçılarına tətbiq olunur.

Aparılmış ümumi və xüsusi gömrük təftişinin nəticələri iki nüsxədən ibarət aktla qeyd olunur.

### 3. GÖMRÜK NƏZARƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ ZAMANI EKSPERTİZA VƏ TƏDQİQAT

Gömrük nəzarətinin apaniması qaydalanndan biri də ekspertizanın təyin edilməsidir. Gömrük məcəlləsi ekspertiza və tədqiqatla əlaqədar gömrük nəzarəti məsələləri gömrük məcəlləsi tənzimləyir.

Gömrük nəzarətinin həyata keçirilməsi mal, nəqliyyat vasitələri və onlar haqqında məlumatlar olan sənədlərin ekspertizası ortaya çıxan suallann həlli üçün müəyyən məlumatlara malik olunmasım tələb edir.

Ekspertiza xüsusi gömrük labaratoriyaları, həmçinin gömrük orqanları tərəfindən təyin edilmiş uyğun təşkilatlar və ya digər ekspertlər tərəfindən həyata keçirilir.

Ekspert şəklində nəticə verə bilmək üçün müəyyən vacib xüsusi biliyə malik hər bir şəxs təyin edilə bilər. Ekspertizanın aparılması üçün ekspert müqavilə əsasında cəlb olunur.

Təmsilçi və ya digər maraqlı şəxsin təşəbüsü ilə təyin olunduğu zaman göstərilən şəxslər gömrük orqanına öz təklif etdikləri namizədi təqdim edə bilərlər.

Lazım olan hallarda gömrük nəzarətini həyata keçirmək üçün bu işin nəticəsi ilə marağı olmayan, xüsusi biliyə və vərdişlərə malik olan, o cümlədən, texniki vasitələrin tətbiq edilməsinə gömrük orqanlarına yardım edə bilən şəxs dəvət oluna bilər. Mütəxəssisin hüquqi statusu Azərbaycan Respublikası Gömrük Məcəlləsi tərəfindən müəyyənləşdirilmişdir.

Ekspertizanın apanima müddəti:

- əgər mallann buraxılışı ekspertin qəranmn alınmasına qədər həyata keçirilməyəcəksə, o müvəqqəti saxlanc müddətini ötməməlidir;
- əgər ekspertiza nəqliyyat vasitələrinə qarşı aparılırsa altı aydan çox olmamalıdır;

## 4. GÖMRÜK NƏZARƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

Gömrük nəzarətinin həyata keçirilməsinə aid GM-ə əlavə normalar edilmişdir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 85-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti və onunla birlikdə gedən ailə üzvülərinin şəxsi baqajı, xidməti vəzifələrinin icrası ilə əlaqədar gömrük sərhəddindən keçən Azərbaycan Respublikası Milli Məclisi deputatlannın, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın), Azərbaycan Respublikasının Baş nazirinin, onun müavinlərinin, nazirlərin və digər mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin şəxsi baqajları gömrük yoxlamasından azaddır.

Gömrük yoxlamasından öz yoluna davam edən xarici hərbi gəmilərin, hərbi hava gəmilərinin, eləcə də digər hərbi texnikanın gömrük yoxlamasından azad edilməsi dövlətlərarası sazişlərlə tənzimlənir.

Gömrük nəzarətinin müəyyən formalarından azadetmə bu sazişlər Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin ratifikasiyasından sonra həyata keçirilir.

## 5. BİR SIRA MALLARA QARŞI GÖMRÜK ORQANLARI TƏRƏFİNDƏN GÖRÜLƏN TƏDBİRLƏR

Gömrük Məcəlləsi gömrük orqanlarının bir sıra mallara qarşı tətbiq olunan tədbirləri müəyyənləşdirir.

İntelektual mülkiyyətin, o cümlədən, onlar üzərində müstəsna hüququn nəticələri (əqli mülkiyyət) gömrük məqsədləri üçün qəbul edilmiş mal anlayışında özünə yer tapmamışdır. Ancaq gömrük sərhəddindən mallar keçirilən zaman əqli mülkiyyət obyektləri, gömrük nəzarətinə, gömrük rəsmiləşdirilməsinə, vergi, rüsumların tutulması üçün vergi bazasının hesablanmasına məruz qalırlar.

İntelektual mülkiyyət obyektləri mallarının gömrük nəzarəti bir

neçə məqsəd daşıyır:

- ona hüququ olanlann maraqlarının qorunması;
- intelektual mülkiyyətin gömrük dəyərinin nozəro alınması dövlət büdcəsinə gömrük rüsum vergilərinin daxil olmalarını təmin etmək;
- mal istehlakçılarının təhlükəsizliyini təmin etmək.

Özlərinin hüquqlarını müdafiə etmək üçün, hüququ olan şəxslər və ya onlann nümayəndələri intelektual (əqli) mülkiyyət əlamətləri olan malların buraxılışının (müəllif hüquqi obyektləri, qarşılıqlı hüquq obyektləri, mal nişanələri, müzakirə nişanələri, malın mənşə yerinin adı) dayandırılması haqqında DGK-nə ərizə verir, ərizədə verilmiş məlumatları təsdiqləyici sənədlər (təsdiq edilmiş sürətləri) əlavə edilir.

Hüquqa malik və ya onun nümayəndəsi (ərizəçi) DGK-nə fakta uyğun olmayan əlamətləri olan malların buraxılmasının saxlanılması haqqında tədbirlər görmək və öz hüquqlarını müdafiə etmək üçün ərizə yazır. Bu intelektual mülkiyyət obyekti (müəllif hüququ, müştərək obyekt hüququ, mal işarələri, xidmət işarələri, malın, mənşə yerlərin adları) Azərbaycan Respublikası müəllif hüquqlarının tələblərinin pozulması ilə yayılan mallardır. Ərizəyə göstərilənləri təsdiqləyici sənədlər əlavə edilir.

Ərizə və ona əlavə edilmiş sənədlər DGK-nə təqdim edilir və yaxud poçta ilə göndərilir.

Ərizə bir obyektə, intelektual mülkiyyətə yönəldilmiş olmalıdır:

- müəllif hüququ obyektinə;
- müştərək hüquqlu obyektə;
- mal nişanına;
- xidmət nişanına;
- malın mənşə yerinin adı ilə.

Ərizədə aşağıdakı məlumatlar olmalıdır:

- ərizəçi haqqında məlumat;
- intelektual mülkiyyətin obyekti haqqında;
- fakta uyğun olmayan mallar haqqında;
- faktın əksinə olan malların buraxılışının saxlanılması haqqında

nəzərdə tutulan vaxt.

Buraxılışının dayandırılması haqqında qərar qəbul edilmiş mallar müvəqqəti saxlanc statusuna malik olurlar.

Bu malların buraxılışının saxlanılması haqqındakı qərar səhərki gündən qüvvəyə minir.

Yoxlama sualları

1. Gömrük nəzarəti altında yerləşdirmə sualından nə anlaşılır? Onun həyata keçirilməsinin məqsədi hansılardır?
2. Gömrük orqanları resursları altında nə anlaşılır. Onlardan səmərəli istifadə gömrük qanunvericiliyinin qarşısının alınmasına yardım etməlidir?
3. Hansı gömrük nəzarəti obyektlərini bilirsiniz?
4. Vaxt etibarı ilə gömrük nəzarəti necə hərəkət edir?
5. Gömrük nəzarəti zonası özünü necə təqdim edir, göstərir?
6. Gömrük nəzarəti zonaları harada yaradıla bilər?
7. Gömrük nəzarəti zonaları hansı növlərə bölünür?
8. Hansı hallarda müvəqqəti gömrük nəzarəti zonası yaradılır?
9. Azərbaycan mallarına gömrük nəzarəti altında olan mallar ola bilərmi?
10. Gömrük nəzarəti subyektlərini sayın?
11. Mallann sərbəst dövriyyə üçün buraxılışından sonra hansı hallarda, formada gömrük nəzarətinə yol verilir?
12. Gömrük nəzarəti digər dövlət nəzarəti növlərindən (sərhəd, sanitar, qarantin, qarantin-fıtosanitar, veterinär) nə ilə fərqlənir?
13. Gömrük nəzarətinin aparılmasının, forma tərzi və apanima vasitələri özlərini necə göstərirlər?
14. Gömrük nəzarətinin həyata keçirilməsi hansı prinsiplər əsasında qurulur?
15. Gömrük nəzarətinin aparılmasında seçmə prinsipi nə deməkdir?
16. İdarəetmə riski sisteminin mahiyyəti nədən ibarətdir?
17. Gömrük nəzarəti üçün vacib olan sənədlərin və məlumatların təqdim edilməsi qaydası?

18. Gömrük nəzarəti üçün sənəd və məlumatların verilməsi qaydası necədir?
19. XİF iştirakçılan gömrük nəzarəti üçün lazım olan neçə müddətə saxlamalıdırlar?
20. Gömrük nəzarətinin hansı fonnalan mövcuddur?
21. Gömrük nəzarətinin hansı forması gömrük rəsmiləşdirilməsi gedişində apanla bilər?
22. Şifahi sorğunun səciyyəsini verin. İzahat almadan o nə ilə fərqlənir?
23. Gömrük müşahidəsi və gömrük baxışı nə ilə fərqlənir?
24. Mal və nəqliyyat vasitələrinin gömrük tam baxışını necə təsəvvür edirsiniz?
25. Hansı hallarda şəxsi yoxlama həyata keçirilə bilər?
26. Gömrük nəzarəti gedişində ərazi və binalara baxışın mahiyyəti nədir?
27. Hansı şəxslərə qarşı gömrük təftişi keçirilə bilər?
28. Müxtəlif formalı gömrük nəzarətinin aparılma müddəti nə qədərdir?
29. Gömrük nəzarətini həyata keçirərkən ekspertiza və tədqiqat aparılmasının mahiyyəti nədir?
30. İntelektual mülkiyyət təşkil edən obyektlərin gömrük nəzarəti hansı məqsədləri güdür?

## Mövzu 7. Test tapşırıqları

1. **Gömrük nəzarəti üçün XİF iştirakçılarının vacib sənədlərinin saxlanılması üçün hansı müddət nəzərdə tutulmuşdur?**
   a) 3 ildən az olmayaraq;
   b) 5 il müddətində;
   v) 3 ildən 10 ilədək (sənədin növü və təyinatından asılı olaraq);
   q) 1 ildən az olmaqla

2. **Mal və nəqliyyat vastələtinin gətirilməsi zamanı gömrük nəzarətinin başlanması anı:**
   a) nə vaxt gömrük orqanları nəzarətə başlayırlar;

b) gömrük məqsədləri üçün vacib olan sənədləri və bəyannaməsinin təqdim edildiyi vaxt;

v) onlann Azərbaycan Respublikası gömrük sərhədini keçdiyi an.

3. **Mal və nəqliyyat vastələrinin gətirilməsi (idxalı) zamanı gömrük nəzarətinin başlanması anı:**

a) gömrük orqanlannın nəzarətə başladıqları an;

b) gömrük orqanlan tərəfindən gömrük bəyannaməsinin qəbul edildiyi vaxt;

v) mal və nəqliyyat vastələrinin Azərbaycan Respublikası gömrük sərhəddindən keçirdiyi an;

q) mal və nəqliyat vastələrinin resmiləşdirməyə başlandığı an.

4. **İdaxal olunan mallardan ƏDV.**

a) əyər mallar MDB ölkələrindən gətirilirsə alınmır;

b) əyər mallar uzaq xaricdən gəyirilirsə alınır;

v) malların mənşə ölkəsindən asılı olmayaraq alınır.

5. **Markalanmaya məruz qalan malların aksiz yığım markaları ilə markalanmasının dəyəri gömrük ödəmələrinin hesablanması və ödənilməsi zamanı nəzərə alınırmı?**

a) nəzərə alınır;

b) nəzərə alınmır.

6. **Gömrük ödənicilərinin ödənilməsinin təminatı üçün hansı qaydalar nəzərdə tutulur?**

a) mal və nəqliyyat vastələrinin girovu, üçüncü şəxsin zəmanəti, sığortalanma, gömrük orqaqnlannm depozitivi hesabına hesablanmış gömrük ödənişlərinin miqdanmn keçirilməsi;

b) mallann və digər avadanlığın girovu, bankın nəzarəti, pul vasitələrinin kassaya^ köçürülməsi və ya respublika xəzinəsinə gömrük orqanlannın hesabına köçürülməsi;

v) hesablanmış gömrük ödənişlərinin miqdanmn gömrük orqanının hesabına, respublika xəzinəsinə köçürmək, bankın zəmanəti, malların və nəqliyyat vasitələrinin girov qoyulması;

**7. Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallara ƏDV qoyularkən o mallara qarşı hər hansı güzəşt mövcuddurmu?**

a) xeyir, mövcud deyildir;

b) mövcuddur, ancaq bir sıra mallara;

v) mövcuddur, ancaq bir sıra gömrük prosedurlarına və ya bir sıra mallara.

**8. Mallar buraxıldıqdan sonra gömrük nəzarəti hansı formalarda aparıla bilər?**

a) Gömrük Məcəlləsində nəzərdə tutulan hər hansı bir formada;

b) ancaq gömrük baxışı;

v) sənədlərin məlumatların yoxlanılması və gömrük təftişi.

**9. Gömrük baxışı ilə gömrük tam baxışı arasında nəzarət forması kimi nə fərq var?**

a) heç bir şeylə fərqlənmir;

b) baxış zamanı tədqiqat obyektinə ərazi, binalar daxil olur, tam baxışda isə, konkret əşyalar və fiziki şəxslər olur;

v) baxışda səthi müşahidə yoxlanılması apanlır, ancaq tam baxışda daha ətraflı yoxlama aparılır.

**10. Gömrük nəzarəti fəndləri istehsalına nələr daxildir?**

a) mal və nəqliyyat vasitələrinə tam gömrük nəzarəti;

b) mal və nəqliyyat vastələrinin identifikasiyası; v) gömrük nəzarətinin texniki vasitələri;

q) ekspertizanın təyini;

d) gömrük müşahidəsi;

e) malların başını bağlamaq və ya malları müsadirə etmək.

# MÖVZU 8.
# İDXAL-İXRAC ƏMƏLİYYATLARINA GÖMRÜK-VALYUTA NƏZARƏTİ

1. Gömrük orqanlarının valyuta nəzarəti sistemində rolu və yeri,
2. Malların ixracı-idxalı zamanı valyuta nəzarətinin həyata keçirilməsi.

## 1. GÖMRÜK ORQANLARININ VALYUTA NƏZARƏTİ SİSTEMİNDƏ ROLU VƏ YERİ

Azərbaycanda XİF tənzimlənməsi mexanizmində valyutaya təsir tədbirləri ən təkmilləşməmiş sahədir. Valyuta nəzarəti - Azərbaycan Respublikasının XİF sahəsində valyuta tənzimlənməsinin üsullanndan biridir. Belə nəzarət orqanları kimi Azərbaycan Hökuməti və Azərbaycan Respublikasının Milli Bankı çıxış edirlər.

Gömrük orqanları tərəfindən valyuta nəzarətinin həyata keçirilməsi öz əksini Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 290-cı maddəsində tapmışdır. Orada göstərilir gömrük icra hakimiyyəti orqanı Azərbaycan Respublikasında valyuta nəzarətini həyata keçirən orqanlardan biridir. Gömrük orqanlan valyuta qanunvericiliyinə və gömrük məcəlləsinə uyğun olaraq gömrük işi ilə bağlı valyuta nəzarətini həyata keçirir.

1993-cü ildən başlayaraq gömrük orqanlarında valyuta nəzarəti xarici ticarət fəaliyyətinin həyata keçirilmə prosesində real inkişafını tapmışdır.

Valyuta nəzarəti iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədi ilə qəbul edilmiş tədbirlər sistemində vacib işlərdən biridir. Bu ixrac-idxal və digər xarici iqtisadi əməliyyatlarda valyuta sahəsində qanunvericiliyin gözlənilməsi, nəzarətin təşkili sahəsində vahid ümum dövlət siyasətidir. Valyuta tənzimləmə və valyuta nəzarəti sistemi ümumilikdə təsərrüfat subyektləri arasında valyuta əməliyyatları həyata keçirilən zaman (valyuta nəzarəti agentləri və orqanları) valyuta nəzarət fəaliyyətini tənzimləyir.

Hazırkı vaxtda gömrük sistemi o dövlət orqanıdır ki, mənfi mak-

roiqtisadi ənənəyə, hər şeydən əwəl kredit-maliyyə sahəsində və xarici iqtisadi fəaliyyətə real təsir göstərə bilir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 191-ci maddəsində valyuta nəzarəti sahəsində gömrük orqanlanmn səlahiyyətləri verilmişdir. Orada göstərilir, gömrük orqanlan sərbəst zonaların pe- rimetrləri isitisna olmaqla, gömrük sərhəddindən ayn-ayn şəxslər tərəfindən Azərbaycan Respublikası milli valyutasının, milli valyutada qiymətli kağızlann və digər valyuta sərvətlərinin keçirilməsinə, eləcə də gömrük sərhəddindən malların və nəqliyyat vasitələrin keçirilməsi ilə əlaqədar valyuta əməliyyatları üzrə qanunvericilikdə nəzərdə tutulmuş qaydada valyuta nəzarətini həyata keçirirlər.

Gömrük orqanlarına valyuta nəzarəti həyata keçirmək hüququ verilməklə qanunvericilik aktı səviyyəsində valyuta nəzarəti orqanının səlahiyyəti konkretləşdirilmiş olur. Gömrük sərhəddindən keçirilən valyuta və valyuta qiymətlərinə (milli valyutada qiymətli kağızlar və digər valyuta sərvətləri) nəzarət funksiyası ənənəvi xarakterli olub, əvvəllər də gömrük orqanlarının əsas funksiyalarına aid idi. Valyuta qiymətlərinə mülkiyyət hüququnun keçməsi əməliyyatlarına nəzarət funksiyasının gömrük sisteminə həvalə edilməsi prinsipcə yeni məsələdir və bu nəzarətin səmərəliliyinin artırılması məqsədini güdür.

Məsələnin belə qoyuluşu gömrük sisteminin maraq dairəsini genişləndirmək, gömrük və valyuta qanunvericilik sahələrini uzlaşdırmağa, həmçinin onun həllində gömrük sisteminin təşkilatı və texniki imkanlarından istifadə etməyə şərait yaratmış oldu.

### 2. MALLARIN İXRACI-İDXALI ZAMANI VALYUTA

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 9 sentyabr 1998-ci il tarixli 049 saylı əmri ilə "Azərbaycan Respublikası ərazisindən ixrac edilən malların müqabilində valyuta vasitələrinin ödənişinə nəzarət barədə" Təlimat təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 17.09.1998-ci ildə

mışdır (Qeydiyyat №129).

İxrac edilən malların müqabilində valyuta vasitələrinin ödənişinə nəzarət bir neçə mərhələdə həyata keçirilir.

1. İlkin nəzarət:

- YGB-nın düzgün doldurulmasına və göstərilən məlumatların dəqiqliyinə nəzarət;
- həyata keçirilən sövdələşmənin qanunvericiliyinə uyğunluğuna nəzarət;
- hesabatların formalaşdırılması və DGK-ya təqdim edilməsi.

2. Məlumat-analitik nəzarət:

- gömrük orqanlarından alınan məlumatların yoxlanılması;
- valyuta nəzarəti, uçot kartoçkalanmn doldurulması və əqd üzrə hesablaşmaları aparan müvəkkil banklara göndərilməsi;
- bank tərəfindən rəsmiləşdirilən uçot kartoçkalanmn alınması və istifadəsi (analizi);
- valyuta köçürülməsi üzrə müəyyən edilmiş qaydaları pozanların müəyyən edilməsi.

3. Bitkin sənədli nəzarət:

- valyutanın köçürülməsində mümkün ola biləcək çatışmazlıqlan fakt üzrə məqsədli yoxlama;
- Gömrük Məcəlləsi ilə müəyyən edilmiş sanksiyalann tətbiqi.

Belə nəzarət sistemi imkan verir ki, hər bir valyuta əməliyyatının qanunvericiliyə uyğun olmasına nəzarət edilsin, qaytanimamış valyuta qazancının həcmi qiymətləndirilə bilsin, ödənişin şərtləri qaydaya salınsın, gömrük orqanlarının və bankların operativ məlumat mübadiləsi təmin edilsin, valyuta nəzarəti məqsədləri üçün bank və gömrük orqanlarının imkanlarından maksimum istifadə edilsin.

İxrac əməliyyatlarında valyuta ödənişlərinə nəzarət Dövlət Gömrük Komitəsinin 9 sentyabr 1998-ci il tarixli 049 saylı əmri ilə təsdiq edilmiş və 11 fevral 1999-cu il tarixli 009 saylı əmri ilə dəqiqləşdirilmiş təlimatla müəyyən edilən “İxrac əməliyyatlarında valyuta ödənişlərinə nəzarətin texnoloji sxemi”nə uyğun olaraq həyata keçirilir.

ləşdirilməsi zamanı aparılır. Bu zaman ixrcatçı tərəfindən təqdim olunan aidiyyatı sənədlərin tamlığı və düzgünlüyü gömrük rəsmiləşdirilməsini aparan müvafiq şöbə (Yük şöbəsi) tərəfindən yoxlanılır.

Konsiqnasiya yolu ilə ixrac əməliyyatları xarici şəxslərlə bağlanmış müqavilələrə əsasən respublika hüdudlarından kənarda satışı gömrük orqanlarında bəyan edildiyi gündən etibarən 180 günə qədər müəyyən olunmaqla mallann ixracını nəzərdə tutur. Satışdan əldə edilən vəsaitlər, mallar satıldıqca 10 bank günündən gec olmayaraq ixracatçının ona xidmət göstərən müvəkkil bankdakı valyuta hesabına daxil olmalıdır. Konsiqnasiya ticarəti üçün ayrılan müddətdə mallar satılmadığı təqdirdə, 30 gün ərzində həmin mallar Azərbaycan Respublikasına qaytarılmalıdır.

Dövlət müəssisəsi olmayan ixracatçılar tərəfindən malların konsiqnasiya yolu ilə ixracı gömrük orqanlarında bəyan edilməklə aparılır. Bu zaman respublikanın dövlət müəssisələrində istehsal olunmuş mallann dəyəri, istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilər.

Konsiqnasiya yolu ilə ixarc əməliyyatlarının rəsmiləşdirilməsində gömrük orqanları tərəfindən tələb olunan sənədlər aşağıdakılardır:

1) Xarici tərəflə bağlanmış müqavilə (ixracatçı dövlət müəssisəsi olduğu halda İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə; digər ixracatçılar tərəfindən isə gömrük orqanlarında bəyan edilməklə);

2) İxrac olunan malın mənşə sertifikatı;

3) İstehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);

4) İxrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;

5) Konsiqnasiya müqaviləsində nəzərdə tutulan valyuta vəsaitinin vaxtında köçürüləcəyinə və yaxud mal satılmadığı halda həmin malın geri qaytanimasının “Zəmanət öhdəliyi”.

6) Uçot kartoçkası (UK);

7) Təmsilçi tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Barter əməliyyatlan, dəyəri ödənilmədən ekvivalent məbləğdə qarşılıqlı mal (xidmət və əqli mülkiyyət) mübadiləsini nəzərdə tutur.

Barter əməliyyatlannda ekvivalent məbləğdə malların göndərilməsi və alınması müddəti 90 günədək müəyyən olunur. Ekvivalent məbləğdə qarşılıqlı mal mübadiləsi bu müddətdə başa çatmadığı təqdirdə, hesablaşma müqavilədə göstərilən valyuta ilə 10 bank günü ərzində yerinə yetirilməli və vəsait ixracatçının müvəkkil bankdakı valyuta hesabına köçürülməlidir.

Dövlət müəssisələri və Nizamnamə fondunda dövlətin pay haqqı 50%-dən yuxarı olan müəssisələr tərəfindən bağlanmış barter müqavilələri İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə, digər müəssisələr tərəfindən bağlanmış barter müqavilələri isə, gömrük orqanlarında bəyan edilməklə həyata keçirilir.

Barter əməliyyatlan üzrə ixrac edilən malları Yük Gömrük Bəyannamələrinin bir nüsxəsi mal bəyan olunduğu tarixdən etibarən 7 gün ərzində gömrük orqanları tərəfindən müvəkkil banklara və İqtisadi İnkişaf Nazirliyinə göndərilir.

Mallann barter (mübadilə) yolu ilə ixracı zamanı gömrük orqanları tərəfindən tələb olunan sənədlər aşağıdakılardır:

1) İstehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);

2) İxrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;

3) Xarici tərəflə bağlanmış barter müqaviləsi (ixracatçı dövlət müəssisəsi olduqda İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilmiş);

4) İxrac olunan malın mənşə sertifikatı;

5) Ekvivalent məbləğdə malların vaxtında Azərbaycan Respublikasına gətiriləcəyi və yaxud valyuta vəsaitinin ixracatçının müvəkkil bankdakı valyuta hesabına köçürəcəyi barədə zəmanət öhdəliyi;

7) Təmsilçi tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Kreditə ixrac əməliyyatlan, faktiki mal (xidmət və əqli mülkiyyət) ixracından sonra haqqı müəyyən şərtlərlə və hər hansı müddət ərzində ödənilən malların ixracını nəzərdə tutur.

Dövlət müəssisələri və Nizamnamə fondunda dövlətin pay haqqı 50%-dən yuxan olan müəssisələr tərəfindən malların (xidmət və əqli mülkiyyətin) kreditə ixracı üzrə bağlanmış müqavilələr İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə aparılır.

Digər ixracatçılar tərəfindən malların kreditə ixracı isə, gömrük orqanlannda bəyan edilməklə həyata keçirilir. Bu zaman respublikanm dövlət müəssisələrində istehsal olunmuş malların dəyəri istehsalçıya tam ödənildikdən sonra ixrac oluna bilər.

Kreditə ixrac əməliyyatlarında gömrük orqanları tərəfindən tələb olunan sənədlər:

1) İstehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyi-dövlət müəssisəsi olduqda);

2) İxrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;

3) Xarici tərəflə bağlanmış müqavilə (kreditə ixrac əməliyyatlan dövlət müəssisələri tərəfindən həyata keçirildikdə İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə);

4) Malın mənşə sertifikatı;

5) Valyuta vasitələrinin köçürülməsinə zəmanət öhdəliyi;

6) Uçot kartoçkası (UK);

7) Təmsilçi tərəfindən tətbiq olunmuş Yük Gömrük Bəyannaməsi.

Müvəqqəti ixrac əməliyyatlan xarici ölkələrdə xidmət göstərilməsi, lizinq əməliyyatlarının aparılması, sərgilərdə, yarmarkalarda iştirak və s. üçün mallann yenidən işlənməsi (dəyişdirilmədən) Azərbaycan Respublikasına qaytaniması şərtilə ixracına nəzərdə tutur.

Dövlət müəssisələri tərəfindən müvəqqəti olaraq göstərilmiş

ilə istifadə olunduğu ölkələrdə satıla bilər. Valyuta vəsaiti mallar satıldığı gündən 10 gün müddətində ixracatçının Azərbaycan Respublikasında müvəkkil bankdakı hesabına daxil edilməlidir;

- Dövlət müəssisəsi olmayan ixracatçılar tərəfindən isə, müvəqqəti ixrac olunmuş mallar bu təlimata və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq müvafiq gömrük rüsumları ödənilməklə istifadə olunduğu ölkələrdə satıla bilər. Bu halda valyuta vəsaitləri mallar satıldığı gündən 10 gün müddətində ixracatçının Azərbaycan Respublikasında müvəkkil bankdakı hesabına daxil edilməlidir. Başqa halda, həmin mallar bağlanmış müqavilələrdə nəzərdə tutulmuş müddət bitdiyi gündən 30 gün ərzində Azərbaycan Respublikasına qaytarılmalıdır.

Müvəqqəti ixrac əməliyyatları rəsmiləşdirilərkən gömrük orqanları tərəfindən aşağıdakı sənədlər tələb olunur:

1) İstehsalçı ilə ixracatçı arasında bağlanmış müqavilə (ixracatçı qeyri-dövlət müəssisəsi olduqda);

2) İxrac olunan mal dövlət müəssisəsində istehsal edilmişdirsə, ixracatçı qeyri-dövlət müəssisəsi olduğu halda onun dəyərinin istehsalçıya tam ödənilməsini təsdiq edən müvafiq bank sənədi;

3) Xarici tərəflə bağlanmış müqavilə (ixracatçı dövlət müəssisəsi olduğu halda İqtisadi İnkişaf Nazirliyində qeydiyyatdan keçirilməklə);

4) Müvəqqəti ixarc olunan malın mənşə sertifikatı;

5) Müqavilə şərtlərinə uyğun olaraq müvəqqəti ixrac olunan malların geriyə qaytarılacağı barədə zəmanət öhdəliyi;

6) Uçot kartoçkası (UK);

7) Təmsilçi tərəfindən tərtib olunmuş Yük Gömrük Bəyannaməsi.

Sonuncu (sənədli) nəzarət-gömrük rəsmiləşdirilməsi başa çatdıqdan sonra aparılır.

Gömrük orqanının yük şöbəsinə ixracatçı tərəfindən təqdim olunan sənədlər rəsmiləşdirilərək Maliyyə-Tarif şöbəsinə verilir və aşağıdakılar yerinə yetirilir:

1) Hər bir ixrac əməliyyatı üzrə sənəd toplusu (dosye) açılır,

ləri və təlimatın 2-ci bəndindəki müvafiq ixrac rejiminə uyğun tələb olunan sənədlər əlavə edilir;

2) Uçot kartoçkasındakı məlumatlann düzgünlüyü yoxlanılmaqla təqdim olunan YGB məlumatları ilə üzləşdirilir;

3) Uçot kartoçkası tərtib olunmaqla, gələcəkdə valyuta vəsaitlərinin daxil olacağının və ya malın geri qaytarılacağının son müddəti təyin olunur;

4) Uçot kartoçkasına qeydiyyat nömrəsi verilməklə, uçot kartoçkalarının reyestrinə salınır və onun surəti isə DGK Vaİ30ita Nəzarəti şöbəsinə göndərilir;

5) Göndərilmiş malların müqavilində ödəniş vaxtının bitməsi barədə ixracatçıya və DGK Valyuta Nəzarəti şöbəsinə bildiriş göndərilir;

6) Valyuta vəsaitlərinin daxil olması barədə müvəkkil bank tərəfindən təsdiq edilmiş uçot kartoçkası (A2 bölməsi) və ya malların geri qaytarılması barədə təmsilçi tərəfindən tərtib edilmiş idxal YGB ixracatçı tərəfindən gömrük orqanına təqdim edildiyi təqdirdə UK nəzarətdən çıxarılır;

7) Valyuta vəsaitlərinin vaxtında mədaxil olmaması və ya mallann geriyə qaytanlması müddətinin başa çatması ilə əlaqədar (Fors-major baş verdiyi və yaxud ixracatçı tərəfindən ixrac müqavilələrinə müvafiq olaraq nəzərdə tutulan arbitraj proseduralannm yerinə yetirilməsi halları istisna olmaqla) gömrük oraqanı (Maliyyə tarif şöbəsi) mövcud qaydada araşdırma aparır, protokol tərtib edir və toplanmış materialları gömrük orqanının müvafiq (qaçaqmalçılıq və gömrük qaydalannm pozulması ilə mübarizə) şöbəsinə təqdim edir. Aidiyyatı üzrə bu işi icra edən şöbə təhqiqat aparmaqla, eyni zamanda qərar qəbul edir, həmçinin təlimatın 2 saylı əlavəsinin "V" bölməsinə uyğun olaraq ixracatçıya qarşı Gömrük Məcəlləsinin müvafiq maddəsinə əsasən sanksiya tətbiq edir və bu barədə Dövlət Gömrük Komitəsinin MT və VN Baş idarəsinə məlumat verir.

İxracatçılar tərəfindən ixrac olunan (sövdələşmə xüsusiyyəti 21 və 41), mallann (xidmət və əqli mülkiyyətin) Azərbaycan Respublikası ərazisindən çıxarılması gömrük orqanları tərəfindən yalnız

onların haqqının qabaqcadan ödənildiyi və yaxud geri çağınimayan akkreditiv açılması müvəkkil banklar tərəfindən “Uçot kartoçkası”-nın “Al” və “A2” bölmələrində qeyd edilməklə təsdiq olunduqdan sonra həyata keçirilir.

İxracatçılar tərəfindən aparılan ixrac əməliyyatlannm hesablaşmalar hissəsi, Azərbaycan Respublikası müvəkkil banklannm, malların gömrük sərhəddindən çıxarılması isə gömrük orqanlarının nəzarəti altında həyata keçirilir.

İxracatçılar, təlimatın tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, həmçinin, təlimata uyğun xarici valyuta vəsaitlərinin (və ya malların geriyə) respublikaya vaxtında və tam həcmdə köçürülməsini (gətirilməsini) mövcud qaydada təmin etmədikləri təqdirdə, Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 216-cı maddəsinə uyğun müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

“Azərbaycan Respublikası İnzibati Xətalar” Məcəlləsinin 262- ci maddəsinə görə, xarici valyuta vəsaitlərinin xaricdən qaytarılmaması inzibati xətanın bilavasitə obyekti olan malların vo nəqliyyat vasitələrinin dəyərinin 5%-dən 50%-dək miqdarda cərimə edilir.

**Yoxlama sualları**

1. Gömrük-bank valyuta nəzarətinin əsas məqsədi nədir?
2. Gömrük işi sahəsində valyuta nəzarətinin əsas əlamətlərini göstərin?
3. Gömrük işi sahəsində valyuta nəzarəti nə deməkdir?
4. Mallann ixarcı və idxalı zamanı valyuta nəzarətinin məqsədi?
5. Mallann ixracı və idxalı zamanı valyuta nəzarəti prosesində hansı sənədlərdən istifadə edilir?
6. Mallann ixrac və idxal zamanı valyuta nəzarətinin hüquqi əsası nədir?

# MÖVZU 9.
# STATİSTİKA. GÖMRÜK STATİSTİKASI VƏ ONUN XARİCİ İQTİSADİ ƏLAQƏLƏR SİSTEMİNDƏ ROLU

1. Statistikanın predmeti və metodu.
2. Sosial-iqtisadi statistika.
3. Xarici ticarətin gömrük statistikası və onun vəzifələri.
4. Xarici ticarətin gömrük statistikasının formalaşma mənbələri və uçot obyektləri.
5. Xarici ticarətin uçot sistemi.
6. Kontragent ölkələr.
7. Qeyd vaxtı və malın statistik dəyəri.

## 1. STATİSTİKANIN PREDMETİ VƏ METODU

İqtisadi, siyasi, sosial və digər sahələr üzrə kütləvi məlumatların mövcudluğu, onların araşdırılması, toplanması və müəyyən qaydada işlənməsi aktual problemlərdən olub bilavasitə statistikanın predmetidir.

"Statistika" latın sözü olan "status"sözündən götürülmüşdür və müxtəlif istiqamətlərdə fəaliyyətin təhlili, hal, vəziyyət mənasını bildirir. Əvvəllər statistika vasitəsi ilə dövlətlərin sosial-iqtisadi, tibbi, hərbi və s. vəziyyətini xarakterizə edirdilər. Statistikadan istifadə edilməsi məsələsi ilk dəfə olaraq 1749-cu ildə alman alimi Axenvalın "Dövlətşunaslıq haqqında" kitabında şərh olunmuşdur.

Hal-hazırda "statistika" sözü əsasən üç mənda işlədilir:

1. Statistika-bir elm kimi;

2. Statistika habelə bu və ya digər proses və hadisələrin həcmini, ölçülərini, səviyyəsini xarakterizə edən rəqəmlər kimi də başa düşülür. Bəzən hər hansı bir prosesi və ya hadisəni xarakterizə edən ayn-ayrı rəqəmləri statistika adlandırırlar. Əslində isə statistika hər hansı bir rəqəm yox, proses və hadisəni bütövlükdə əks etdirən rəqəmlər toplusudur. Müəyyən zaman üçün xarici ticarətin həcmi statistika deyil, lakin həmin göstəricinin ardıcıl bir sıra illər üçün

verilməsinə artıq statistika demək olar və bu ardıcıllığı statistik məlumat adlandırmaq düzgün olardı.

3, Statistika ümumi məlumatlann toplanması və ya statistik uçotun aparılması kimi də qəbul olunur.

İqtisadi baxımdan statistika və uçot anlayışlan başqa-başqa anlayışlardır. Müxtəlif hadisələr, faktlar, proseslər ictimai həyatda müəyyən qeydiyyat formasında və ya qeydiyyatsız iz buraxırlar. Belə ki, az-çox mühüm əhəmiyyəti olan iqtisadi faktlar qeydə alınır. Məsələn, malların ölkənin sorhəddindən keçirilməsi öz əksini Yük Gömrük Bəyannaməsində tapır. Məhz belə ayn-ayn faktların qeydiyyatına uçot deyilir.

İqtisadiyyatda uçot müxtəlif məqsədlərə xidmət edir və üç yerə bölünür:

- operativ uçot;
- mühasibat uçotu;
- statistik uçot.

***Operativ uçot*** qeyd olunma vaxtında məlumatın tələb olunan yerə göndərilməsidir. Bu uçot zamanı faktların qeydiyyatı əsasdır və operativ fəaliyyət üçün zəruri hesab olunur (Məsələn, xəstəlik haqqında bülleten konkret işçinin müvəqqəti əmək qabiliyyətini itirdiyi faktını təsdiq edir).

***Mühasibat uçotu*** material və maliyyə ehtiyatlarının hərəkəti faktlannı müəyyən zaman üçün əks etdirir və mülkiyyətin qorunmasına xidmət edir. Operativ uçot natural halda obyekti, mühasibat uçotu isə dəyəri əks etdirir.

***Statistik uçot*** isə hər hansı faktın qeydiyyatı xatirinə deyil, faktlar toplusu haqqında bütövlükdə təsəvvür əldə etmək üçün aparılır.

Göründüyü kimi, hətta statistik uçotu belə statistika adlandırmaq olmaz. Belə ki, uçot statistik tədqiqat üçün məlumatdan başqa bir şey deyildir. Beləliklə, statistika külli miqdarda təsadüfi proses və hadisələrin qanunauyğunluğunu öyənən elmlər sistemidir.

Statistik tədqiqatın predmeti, qeyd olunduğu kimi kütləvi proses və hadisələrdir. Bu cür proses və hadisələr adətən çoxlu amillərin bir-birinə qarışdığı idrak sahəsində: iqtisadiyyatda, sosiologiyada.

biologiyada, psixologiyada və s. baş verir. Məhz bu saholərə aid obyektlərin öyrənilməsində statistik tədqiqata daha çox ehtiyac hiss olunur.

İctimai həyat külli miqdarda hadisə və proseslərlə ifadə olunur. Bu hadisələrdən hər biri məlum dərəcədə bir cinsli elementlərdən ibarət olur və həmin elementlər müəyyən zaman fasiləsində və məhdud fəza hüdudlarında olmaqla statistik çoxluğu və ya toplunu əmələ gətirir. Məsələn, xarici ticarət əlaqələri müəyyən zaman fasiləsində konkret ölkənin sərhəddlərindən keçirilən mal partiyaları toplusu kimi təqdim olunur.

Statistik toplu ayn-ayn vahidlərdən (məsələn, ayrı-ayrı mal partiyalanndan) ibarətdir. Topluya daxil olan hər bir vahid ona məxsus olan bir sıra xassə və xüsusiyyətlərlə xarakterizə oluna bilər. Belə ki, sərhəddən keçirilən malın adı, miqdarı, qiyməti, mənşə ölkəsi və s. ilə xarakterizə olunur. Bu malları statistik topluya birləşdirən onlann xarici ticarət obyekti olmasıdır. Lakin bütöv bir topluda birləşməklə yanaşı onlar müəyyən xassələrinə görə həmdə bir-birindən fərqlənirlər.

Statistika elminin əsas məqsədi statistik topluda xassələrin formalaşması qanunlanm və onlara ayrı-ayrı vahidlərə mənsub xüsusiyyətlərin təsirini müəyyənləşdirməkdir (məsələn, müəyyən bir malın orta qiymətinin təyin olunması və bu qiymətin verilmiş şəraitdə dəyişməsi müxtəlifliyinin aydınlaşdırılırmasıdır).

Statistika həm də statistik toplunu xarakterizə edən verilənlərin alınması metodlarını da öyrənir. Lakin statistikanın vəzifəsi bununla məhdudlaşmır. O həmçinin inkişafın qanunauyğunluğunu, xassələr, proseslər və hadisələr arasında qarşılıqlı asılılığı da öyrənməyə kömək edir. Statistik qanunauyğunluqlar adlandırılan bütün bu qanunauyğunluqlar ancaq təsadüfi faktlar fonunda özünü büruzə verir və bu faktlar yalnız statistik metodlarla öyrənə bilər.

Statistika elminin qanunauyğunluqları necə müəyyən etdiyini başa düşmək üçün toplunun konkret vahidini xarakterizə edən göstəricinin bu və ya digər qiymətinin müəyyən edilməsi səbəblərini araşdırmaq lazımdır. Hər bir vahidi xarakterizə edən göstəricinin

qiymətini müə30^ən edən səbəblər və bu səbəblərin müxtəlif təsir dərəcəsi mövcuddur. Elə bu səbəbdən topluya daxil olan vahidlər də müxtəlif çeşidli olur. Məsələn, eyni bir malın qiyməti onun mənşə ölkəsindən, göndəriş şərtlərindən və s. asılıdır. Hətta eyni bir səbəbin nəticələri onun intensivliyindən asılı olaraq müxtəlif ola bilər. Statistika isə hər bir amilin ayrılıqda təsirini öyrənməyə imkan verir.

Bu baxımdan statistikanın predmeti kütləvi hadisə və proseslər olub, onlar ayn-ayrı faktlar kimi statistik uçot vasitəsilə qeydə alınır. Bu statistik topluya daxil olan vahidlərin hər birinin konkret zamanda və konkret məkanda xassə və xüsusiyyətlərinin uçotu apanlır. Bu hər bir vahid üçün spesifik və bütün vahidlər üçün ümumi olan göstəriciləri müəyyən etməyə imkan verir.

Toplunun hər bir vahidinin iqtisadiyyat üçün əhəmiyyətini göstərən xassə və xüsusiyyətləri iqtisadi göstəricilər sistemi və atributiv əlamətlərlə təsvir edilir. Atributiv əlamətlər vahidi yalnız keyfiyyət göstəricilərini əks etdirir və kəmiyyət haqqında heç bir məlumat vermir. İqtisadi göstəricilər isə tədqiq olunan obyektin kəmiyyətini göstərir.

Göstəricilər öz təyinatına görə müxtəlif olur. Onlan uçot-qiymətləndirmə və analitik göstəricilərə ayırmaq olar. Uçot-qiymətləndirmə göstəriciləri hadisələrin konkret zamanda və məkanda ölçülərini və həcmini (məs: ixrac və ya idxalın həcmini) xarakterizə edir.

Eyni bir göstəricinin müxtəlif qiymətlər toplusu müşahidənin statistik sırası adlanır. Müşahidənin statistik sırası iki qrupa bölünür: məkan və zaman (və ya dinamik) sıraları.

Statistik toplunun bütün vahidləri üzrə göstərici və əlamətlərin qiymətləri statistikanın məlumat və ya informasiya bazasını təşkil edir. Bunlar isə özlüyündə müəyyən statistik bazaya aid olunur.

## 2. SOSİAL-İQTİSADİ STATİSTİKA

İqtisadi statistikada iqtisadiyyatın vəziyyətini və inkişafını təsvir etmək üçün qeydiyyata alınmalı olan iqtisadi göstəricilər sistemi iş-

lənib hazırlanır, onlann qeydiyyatı və ya hesabatı qaydaları müəyyənləşdirilir. Müşahidə metodu göstərilir. İqtisadiyyatda olduğu kimi iqtisadi statistika da müxtəlif sahələrə bölünür. Onlardan bəziləri aşağıdakı kimi xarakterizə olunur.

• ***Demoqrafik statistika*** - əhalinin nisbi sayını, yaşını və tərkibini, əhalinin nisbi təbii hərəkət dəyişkənliyini (doğum, ölüm, artım) miqrasiyasını, miqrasiya axınının istiqamətlərini və strukturunu, ailə-nigah münasibətlərini öyrənir.

• ***Əməyin statistikası*** - əmək fəaliyyətini, əmək bazarı və məşğulluğu, əmək ehtiyatlarının mövcudluğunu, ərazi, peşə, ixrisas tərkibini, əmək ehtiyatlannın dinamikasını (təbii halda və ya miqrasiya nəticəsində), işsizlərin sayını və onun dinamikasını, işsizlərin tərkibini, əmək ehtiyatlanndan istifadənin səmərəliliyini, əməyin ödənilməsi və onun iqtisadiyyatın müxtəlif sahələri və ərazilər üzrə fərqli xüsusiyyətlərini öyrənir.

• ***Sərmayə və yeniləşdirmənin statistikası*** - sərmayələrin həcm və strukturunu (ərizələr, maliyyələşdinnə mənbələri, mülkiyyətin formaları, istiqamətlər, sahələr üzrə) məhsuldar qüvvələrin və istehsal obyektlərinin işə salınması, kapital qoyuluşlarının dinamikasını və səmərəliliyini, elmi potensialı, elmi fəaliyyətə və elmin inkişafına qoyulan xərcləri, ixtira və yeniləşdinnə təşəbbüslərinin nəticələrini, xalq təsərrüfatı sahələrinin yeni texnika ile təmin olunmasını və iqtisadiyyatın yenidən qurulması strukturlarını, elmi-texniki təkamülün səmərəliliyini öyrənir.

• ***İstehsalat, sahibkarlıq və işgüzar fəaliyyətinin statistikası*** - hesabat verən təşkilatlan və müayinələrin növlərini müəyyənləşdirir, sənaye məhsullannın, nəqliyyatın və rabitənin natural və şərti natural formada, ərazi və sahə baxımından, habelə mülkiyyət növləri üzrə ifadə olunan həcmini və tərkibini, ümumi istehsalı, sərmayə-ləşdirməni, müəssisələrin sıxlığını konyukturanı, məhsulun keyfiyyətini və vaxtında göndərilməyini, xidmətin keyfiyyətini, istehsal fondlarının, işçi qüvvəsinin və avadanlığın əsas növlərini, istehsal itkilərini və onun səmərəliliyini, ayrı ayrı sahələrin inkişafını və istehsalın dinamikasını öyrənir.

• ***Mal dövriyyəsi statistikasıAstehsdil-iQxniki*** teyinatli məhsulların dövriyyəsini, maddi texniki təchizatin növ və formalarını, maddi və texniki ehtiyatların ixrac və idxal vəziyyətini, ticarətin maddi- texniki bazasını, işçilərin sayını və əməyin ödənilməsini, xidmətin səmərəliliyini, alıcı tələblərini, mal dövriyyəsinin dinamikasını və s. öyrənir.

• ***Qiymətlər*** storfsri/rflfsı-istehsal-texniki təyinatlı məhsulların topdan satış qiymətlərini malların və pullu xidmətlərin istehlak qiymətlərini, kənd təsərrüfatı məhsullarının qiymətlərini öyrənir və alıcılıq qiymətlərini beynəlxalq məlumatlar əsasında müqayisə etməklə, kənd təsərrüfatı və digər sahələrə aid məhsullann paritet qiymətlərini, habelə qiymət dinamikasının öyrənilməsi metodologiyasını işləyib hazırlayır.

• ***Xarici-iqtisadi əlaqələrin statistikası*** - xarici ticarətin həcm və strukturunu (mallann növləri, mənşə və istiqamtləri üzrə) idxal və ixracın strukturunu, birgə müəssisələrin və istehsalat koperasiyalarının, habelə elmi texniki əməkdaşlığın, beynəlxalq daşınmalar və turizmin, kredit və valyuta^maliyyə münasibətlərinin vəziyyətini və inkişafını öyrənir, ödənişlər balansını işləyib hazırlayıb, xaricdəki mülkiyyəti, qızıl-valyuta ehtiyatlanm, valyuta məzənnələrini qiymətləndirir, beynəlxalq rəqabət qabiliyyətini tədqiq edir.

• ***Gömrük statistikası*** - xarici əlaqələr statistikasının tərkib hissəsidir.

Bazar iqtisadiyyatına keçidlə və Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin inkişafı ilə bağlı milli statistika standartlannın beynəlxalq standartlara uyğunlaşdırılması zərurəti yaranmışdır. Bununla əlaqədar statistik informasiyaya olan əsas tələblər onların ilkin sənədlərlə (yəni hadisə baş verən zaman onun qeydə alındığı sənədlə) bir başa bağlı olmalıdır. Elə bu səbəbdən də xarici ticarətin statistikasında Yük Gömrük Bəyannaməsində göstərilənlərə əsaslanaraq xarici ticarətin gömrük statistikası tətbiq olunur.

Bu baxımdan xarici iqtisadi əlaqələrin statistikasının əsas funksiyası ölkənin xarici iqtisadi fəaliyyətinin vəziyyəti və inkişaf dinamikası haqqında kəmiyyət və keyfiyyət göstəricilərini vermək-

dir. Xarici iqtisadi foali)o^ətin statistikasında uçot obyektləri ölkənin idxal və ixracını təşkil edən mal və xidmətlər, habelə bununla bağlı bütün əməliyyatlardır. Xarici iqtisadi əlaqələrin statistikasına gömrük statistikası və xarici iqtisadi fəaliyyətdə xidmətlərin statistikası daxildir (sxem 2).

Xarici iqtisadi əlaqələrin
statistikası

Gömrük statistikası

Xarici iqtisadi;əaliyyətdə xidmətlərin statistikası

Xarici ticarətin gömrük statistikası

Xüsusi gömrük statistikası

***Sxem. Xarici iqtisadi əlaqələrin statistikası.***

Sxemdən göründüyü kimi və Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin IX bölmə, 54 fəsil və 317.1-318 maddələrinə əsasən, gömrük statistikası da xarici ticarətin gömrük statistikası və xüsusi gömrük statistikasına bölünməklə ümumi metodologiya əsasında aparılır.

### 3. XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKASI VƏ ONUN VƏZİFƏLƏRİ

Göstərilənləri nəzərə alaraq, məhz qüvvədə olan Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin XX bölməsi Xarici ticarətin Gömrük Statistikası və Mal Nomenklaturasınm aparılması məsələlərinə həsr olunmuşdur. Məcəllənin 206-cı maddəsinə görə, ali dövlət hakimiyyəti orqanlarının və Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş digər dövlət orqanlarının və Azərbaycan Respublikası Xarici İqtisadi fəaliyyətinin vəziyyəti ba

rədə məlumatla təmin edilməsi, həmçinin dövlət büdcəsinə gömrük ödənişlərinin daxil olmasına nəzarət edilməsi, valyuta nəzarəti və Xarici İqtisadi ticarətin inkişafının təhlili məqsədilə Azərbaycan Respublikası gömrük orqanları malların gömrük sərhədindən keçirilməsi barədə məlumatları sistemləşdirir və gömrük statistikası məlumatlarının lazımi orqanlara təqdim edilməsini və nəşrini təmin edir.

Azərbaycan Respublikası Xarici ticarət fəaliyətinin gömrük statistikası Azərbaycan Respublikası Gömrük Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun aparılır.

Gömrük statistikası apanlarkən statistik göstəricilərin beynəlxalq məlumatlarla və Azərbaycan Respublikasında istifadə olunan dövlət statistikası məlumatları ilə müqayisə olunmasını təmin edən Azərbaycan Respublikası Xarici ticarətinin gömrük statistikasında istifadə olunur.

Azərbaycan Respublikası gömrük orqanlan onlara həvalə olunmuş vəzifələrin yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası gömrük işini aparan icra hakimiyyəti orqanlarının müəyyən etdiyi qaydada xüsusi gömrük statistikasını aparırlar.

Statistik məqsədlər üçün istifadə olunan sənədlər və məlumatlar Azərbaycan Respublikası Gömrük Məcəlləsinin gömrük rəsmiləş-dirilməsinin və gömrük nəzarətinin həyata keçirilməsi qaydaları haqqında müddəalara uyğun olaraq aparılır. Statistik məqsədlər üçün tərtib edilən məlumat sirr hesab edilir və ona Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 16.2 maddəsi şamil edilir.

Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının aparılması məqsədi ilə Azərbaycan Respublikası gömrük orqanları aşağıdakı funksiyaları yerinə yetirirlər.

- xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə beynəlxalq əsaslarda olan əlavə və dəyişiklikləri, bu qaydaların təfsiri üzrə beynəlxalq izahnamələri və digər qərarlan izləyir;
- xarici iqtisadi fəaliyyətin mal nomenklaturasını beynəlxalq qaydalara uyğun vəziyyətə gətirir;

- xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının nəşrini təmin edir;
- xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının təfsiri üçün izah və şərhlər hazırlayır, təsdiq edir və nəşrini təmin edir;
- göstərilən nomenklaturanm apanıması üçün digər funksiyalann yerinə yetirilməsini təmin edir.

Azərbaycan Respublikası gömrük orqanları malların təsnifatını aparır, yəni konkret malları xarici iqtisadi fəaliyyətin mal nomenklaturasında göstərilmiş müvafiq mal mövqelərinə aid edir.

Azərbaycan Respublikası gömrük orqanlarının malların təsnifatı haqqında qərarları məcburi xarakter daşıyır və malların təsnifatı üzrə digər orqan və təşkilatların qərarları gömrük məqsədləri üçün əsas hesab olunmur.

Bu, Azərbaycan Respublikasında Xarici ticarətin gömrük statistikasının təşkili və apanlmasmda mühüm əhəmiyyət kəsb edir. Xarici ticarətin dövlət tərəfindən tənzimlənməsi xarici ticarətdə inhisarın olmadığı bir dövrdə Azərbaycan Respublikası hökuməti tərəfindən həll edilən ən mürəkkəb və aktual məsələlərdən biridir. Bu məsələlərin həllində dövlət səviyyəsində və xarici ticarətin gömrük statistikasına xüsusi diqqət yetirilməsi çox vacibdir. Ona görə də gömrük statistikası işinin təşkili sistem halında aparılmalı və ölkənin bütün gömrük məntəqələrini əhatə edən geniş informasiya şəbəkəsi formasında olmalıdır.

Xarici ticarətin gömrük statistikasının təşkilində ümumi bir məqsəd daşıyan ayrı-ayrı bölmələrin qarşılıqlı əlaqəli şəkildə işləməsi zəruridir. Xarici ticarətin gömrük statistikasını xarakterizə edən məlumatların toplanması, işlənməsi və məlumat-hesablama resurslarının birgə istifadə edilməsi vahid rəhbərlik altında aparılmalıdır.

Gömrük statistikası məlumatlarının avtomatlaşdırılmış qaydada yerli statistika bölmələri tərəfindən yığılması, işlənməsi, rəsmi nəşirləri üçün onun yekun variantının hazırlanması Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin statistika və təhlil idarəsi tərəfindən həyata keçirilir.

Statistika və təhlil idarəsi öz növbəsində iki struktur vahiddən

- statistika və təhlil bölməsi və lokal və paylanmış şəbəkələrin istismarı şöbəsindən ibarət olmaqla xarici ticarətin gömrük statistikası işini təşkil edərək aparır. Statistika və təhlil bölməsi xarici ticarətə dair məlumatların təhlili, proqnozlaşdırılması, gömrük statistikasının rəsmi nəşri kimi vəzifələri yerinə yetirir.

Lokal və paylanmış şəbəkələrin istisman şöbəsi isə məsələnin texniki tərəfi ilə-yeni gömrükxanalarla elektron rabitəsinin yaradılması və istismarı, məlumatların avtomatlaşdınimış toplanması və işlənməsi, modern əlaqəsi, proqramlaşdırma və s. kimi məsələlərlə məşğul olur.

Məlumdur ki, xarici ticarətin gömrük statistikasının əsas məlumat mənbəyi Yük Gömrük Bəyannamələridir. Bəyannamələrin doldurulması, qeydiyyatı, buraxılış üçün icazənin verilməsi gömrükxanaların müvafiq şöbələrində həyata keçirilir. Yük gömrük bəyannamələrində ilkin məlumat gömrükxananın statistika və təhlil şöbəsinə daxil olur. Bəyannamə gömrükxananın yük və maliyyə şöbələrində yoxlanıldıqdan və təsdiq olunduqdan sonra statistika və təhlil şöbəsi yük gömrük bəyannaməsi üzrə məlumatlann ilkin işlənməsindən sonra elektron rabitə vasitəsi ilə Dövlət Gömrük Komitəsinin Statistika və Təhlil İdarəsinə göndərilir. Məlumatlann tam işlənməsi və hesabların, habelə rəsmi nəşrlərin hazırlanması bu idarə tərəfindən həyata keçirilir.

Şərh olunan məsələlər üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində xarici ticarətin gömrük statistikasının emalı-işlənməsi (disket, modem, on-line sistemi üzrə) 3 saylı sxemdə öz əksini tapmışdır.

Azərbaycan Respublikası Xarici İqtisadi Fəaliyyətinin Gömrük statistikası aşağıdakı məsələlərin həlli üçün nəzərdə tutulmuşdur:

- Azərbaycan Respubliksında gömrük sərhəddindən malların və digər əşyaların keçirilməsi haqqında məlumatların tam və dəqiq uçotunun təmin edilməsini;
- Azərbaycan Respubliksında makroiqtisadi şəraitin təhlili ilə bağlı olaraq xarici ticarətin əsas istiqamətləri, strukturu və dinamikasının təhlilini;

Aşağıdakı fəaliyyət növlərinin məlumat təminatını: ***Bayannaməçilar,***




***Sxem 3, Azarbaycan Respublikasının DGK^da malumatlann statistik işlanmasi sxemi***

- gömrük siyasəti və xarici ticarətin dövlət tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının qanunvericilik aktlarının hazırlanması üçün;

- dövlətlərarası ticarət sövdələşmələrinin və opertiv kommersiya işlərinin hazırlanması üçün;

- ali dövlət hakimiyyəti orqanlarının gömrük siyasəti və xarici ticarətin dövlət tənzimlənməsi üzrə qərar qəbul etmək üçün;

- Azərbaycan Respublikasında daxili bazar konyukturasınm təhlili üçün;

- ölkə büdcəsinə gömrük ödənişlərinə nəzarət üçün;

- vaİ5mta nəzarətinin həyata keçirilməsi üçün;

- ticarət və ödənişin ayrı-ayn maddələri üzrə balansların tətbiq olunması üçün;

- xarici ticarətin inkişaf meyllərinin, ixrac və idxal sturukturu-nun, mal dövriyyəsinin və s. təhlili üçün.

## 4. XARİCİ TİCARƏTİN GÖMRÜK STATİSTİKSININ FORMALAŞMA MƏNBƏLƏRİ VƏ UÇOT OBYEKTLƏRİ

Gömrük statistikasının formalaşması məqsədi ilə əsas mənbələr - yük gömrük bəyannamələri, mal-müşayiət sənədləri, lisenziya və icazələrdə, uçot jumallannda, habelə ölkə sərhədlərindən keçən mallar üçün verilmiş sənədlərdə olan məlumatlardır.

Gömrük statistikasının formalaşması zamanı əsasən ilkin məlumat kimi malların gömrük rəsmiləşdirliməsi zamanı təmsilçilər tərəfindən doldurulan Yük Gömrük Bəyannaməsində (YGB) göstərilən məlumatlardan istifadə olunur.

Boru kəmərləri (neft, neft məhsulları, qaz, su və s.) və elektrik xətləri ilə nəql olunan malların uçotu isə həmin malların bəyan olunmasının spesifik xüsusiyyətlərinə uyğun olaraq boru kəməri və ya elektrik xəttinin sərhəd və ya nəzarət bölüşdürücü məntəqələrindən daxil olmuş mal partiyalarının qəbulunu təsdiq edən sənədlər əsasında həyata keçirilir.

İdxalı və ixarcı ölkənin material ehtiyatlannı artıran və ya azal

dan bütün mallar (dövriyyədə olan valyuta dəyərləri, o cümlədən, bütün qiymətli əşyalar istisna olmaqla) gömrük statistikasına daxil edilir.

## 5. XARİCİ TİCARƏTİN UÇOT SİSTEMİ

Gömrük statistikası ölkənin gömrük ərazisində daxil olan və ya bu ərazidən çıxarılan bütün mallar nəzərə alınmaqla həyata keçirilən xarici ticarət uçotunun "ümumi" sistemi əsasında malların idxal və ixracı üzrə uçot aparır. Bu zaman Azərbaycan Respublikasının statistik ərazi sərhədi kimi ölkənin dövlət sərhədi nəzərdə tutulur. Xarici ticarətin "xüsusi" uçot sistemində isə statistik ərazi sərhədi gömrük sərhədi hesab olunur.

"Ümumi" uçot sistemində aşağıdakı mal katiqoryaları nəzərə alınır:

İdxal üzrə.

- sərbəst dövriyyə üçün gətirilən mallar;
- təkrar idxal malları;
- gömrük ərazisində emal olunmaq üçün gətirilən mallar;
- gömrük ərazisindən kənarda emal olunduqdan sonra gətirilən mallar;
- gömrük nəzarəti altında emal üçün gətirilən mallar;
- təkrar ixrac rejiminə uyğun olaraq Azərbaycan Respublikası ərazisinə gətirilən mallar;
- Azərbaycan Respublikasının dövlət ərazisində yerləşən sərbəst gömrük zonalanna və sərbəst anbarlara gətirilən mallar;
- idxal edilmiş və şəxsin dövlətin xeyrinə imtina etdiyi mallar;
- rüsumsuz ticarət mağazaları üçün gətirilmiş xarici mallar;
- bir il və daha çox müddətə icarə məqsədi ilə gətirilmiş mallar.

İxarc üzrə,

- ixrac gömrük rejiminə uyğun olaraq ixrac olunan mallar;
- sərbəst dövriyyə üçün ölkəyə gətirilmiş və ixrac gömrük proseduruna uyğun olaraq Azərbaycan Respublikası sərhəddindən kənara çıxanlan mallar;

- gömrük ərazisinə emal olunduqdan sonra çıxarılan mallar;
- gömrük nəzarəti altında emal olunduqdan sonra çıxarılan mallar;
- gömrük ərazisindən kənarda emal edilmək üçün çıxanlan mallar;
- təkrar ixrac rejiminə uyğun olaraq Azərbaycan Respublikası ərazisindən çıxarılan mallar;
- sərbəst gömrük zonalanndan və sərbəst anbarlardan Azərbaycan Respublikası sərhədlərindən kənara çıxarılan mallar;
- rüsumsuz ticarət mağazalanndan Azərbaycan Respublikası sərhədlərindən kənara çıxanlan xarici ölkələrdə və ya Azərbaycanda istehsal olunmuş mallar;
- bir il və ya daha çox müddətə icarə məqsədi ilə müvəqqəti olaraq ixrac olunan mallar.

“ Ümumi” uçot sistemi üzrə aşağıdakı rejimlər altında yerləşdirilən malların gömrük statistikasında uçotu nəzərə alınmır:

- Azərbaycan Respublikası ərazisi ilə tranzitlə daşınan mallar;
- gömrük anbarı gömrük rejimi altında olan mallar;
- bir il və ya daha çox müddətə icarə məqsədilə idxal və ya ixrac olun mallar müstəsna olmaqla müvəqqəti gətirilən və ya çıxarılan mallar;
- Azərbaycan Respublikası ərazisində məhv edilən xarici mallar;
- şəxsin dövlət nəfinə imtina etdiyi ixrac olunan mallar və məhv edilən mallar;
- Azərbaycan Respublikasının xarici ölkələrdəki nümayəndəlikləri üçün malların çıxarılması üzrə gömrük rejimlərinə uyğun olaraq çıxanlan mallar.

Xarici ticarətin gömrük statistikasında həmçinin aşağıdakı mallar da nəzərə alınmır:

- bankların qarşılıqlı hesblaşmalar aparmaları üçün dövriyyədə olan valyuta dəyərləri (o cümlədən, monetar qızıl və ya qızıl pul);
- girov əşyaları və öhdəliyi təmin edən digər vasitələr;
- dəyəri statistik həddən yuxarı olmayan mallar;

- xarici ölkələrin, beynəlxalq hökumətlərarsı təşkilatların diplomatik nümayəndəliklərinin və konsulluklannm, habelə xarici dövlətlərin həmin təşkilatların nəzdindəki nümayəndəliklərinin xidməti istifadəsi üçün nəzərdə tutulmuş mallar, dövlət orqanlanna, beynəlxalq təşkilatlara, dövlət başçılarına, parlament və hökumət üzvlərinə verilmiş hədiyyələr;

- kommersiya əməliyyatlarının predmeti olmayan digər mallar;

- fiziki şəxslər tərəfindən kommersiya məqsədilə aparılmayan mallar, o cümlədən, beynəlxalq poçt və yük göndərişləri;

- poçt nişanları;

- ayin və mərasimlər üçün əşyalar;

- fotoşəkillər, aşkarlanmış fotoplyonkalar, lahiyələr, cizgilər, əlyazmalar, işgüzar sənədlər, inzibati blanklar, fərmanlar, habelə beynəlxalq informasiya mübadiləsi çərçivəsində istifadə olunan digər məlumat daşıyıcıları;

- daimi yaşamaq üçün ölkəyə gələn və ya ölkədən gedən fiziki şəxslər, o cümlədən, qaçqınlar və məcburi köçkünlər tərəfindən daşınan mallar;

- Azərbaycan Respublikası dövlət sərhədindən keçirilməməklə həyata keçirilən əməliyyatlar zamanı göndərilən mallar, o cümlədən:

- beynəlxalq daşınmalarda istifadə üçün nəzərdə tutulmuş dəniz, çay gəmiləri və uçan aparatlar;

- Azərbaycan Respublikası gəmilərindən xarici ölkələrin ərazi sularında xaricə satılan balıq və digər dəniz məhsulları;

- açıq dənizdə dəniz dibindən çıxarılmış mallar;

- Azərbaycan Respublikasına mənsub olan nəqliyyat vasitələri üçün xaricdən alınmış bunker yanacağı, ballast, ərzaq və digər mallar;

- ölkəyə daxil olmadan təkrar ixrac edilən mallar;

- konvensiya əsasında Azərbaycan Respublikası gəmiləri tərəfindən açıq dənizdə və ya xarici ölkələrin ərazi sulannda tutulmuş balıq və digər dəniz məhsulları;

- reqlamasiya və zəmanətli təminat qaydasında, habelə səhvən

göndərilmiş mallar.

Bir sıra xarici ticarət mallarının idxalı və ixracının gömrük statistikasının da uçotu spesifik xüsusiyyətlərə malikdir. Onlara aşağıdakılar aid olunur:

- idxal və ixrac zamanı kommersiya dəyərinə görə ödəniş vasitəsi kimi istifadə olunmayan qiymətli metallar, dövriyyədə olmayan qiymətli kağızlar, banknot və sikkələr uçota alınır;

- hökümətin xarici yardım proqramlan çərçivəsində gətirilən və ya çıxanlan mallardan ibarət hökümətlərarası göndərişlərin uçotu, həmin malların uçotu BMT-nin texniki kömək fonduna bəxşiş kimi göndərilməsindən və ya onların mal mübadiləsi partiyasına mənsubiyyətindən, hərbi reparasiya və ya restitusiya olub-olmamasından asılı olmayaraq aparılır.

Bunker yanacağı, ballast, ərzaq və digər materiallar aşağıdakı hallarda uçota alınır:

- Azərbaycan Respublikası ərazisində xarici ölkələrə mənsub olan dəniz və çay gəmilərinə və uçan aparatlara satılarkən;

- Azərbaycan Respublikası ərazisində xarici ölkələrə mənsub olan dəniz və çay gəmilərindən və uçan aparatlardan alınarkən;

- bir il və ya daha çox müddətə icarə olunan mallar gətirilmə (çıxarılma) anındakı dəyərinə görə uçota alınır.

Göstərilənlərdən başqa uçota gömrük statistikasında xüsusi nəzərə alınan mallar da vardır ki, bura da gömrük ərazisində gömrük nəzarəti altında və ya gömrük ərazisindən kənarda yenidən emal olunan mallar daxildir.

Gömrük statistikası ölkənin xarici ticarət dövriyyəsinə daxil etməklə, gömrük ərazisində gömrük nəzarəti altında və ya gömrük ərazisindən kənarda yenidən emal olunmaq üçün göndərilən və aşağıdakı kateqoriyalardan olan malları xüsusi nəzərə alır:

İdxal zamanı.

- emal üçün Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və gömrük nəzarəti altında emal üçün gətirilən mallar;

- Azərbaycan Respublikasının gömrük ərazisindən kənarda emal olunduqdan sonra gətirilən mallar.

ixrac zamanı.

- Azərbaycan Respublikasının gömrük ərazisində emal olunduqdan və gömrük nəzarəti altında emal olunduqdan sonra çıxarılan mallar;

- Azərbaycan Respublikasının gömrük ərazisindən kənarda emal olunmaq üçün çıxanlan mallar.

Xarici ticarətin gömrük statistikası formalaşdınlan zaman aşağıdakı göstəricilərdən istifadə olunur:

- hesabat dövrü;
- yük axınının istiqaməti (idxal və ya ixrac);
- idxal zamanı mənşə ölkəsi;
- ixrac zamanı təyinat ölkəsi;
- statistik dəyər;
- malın kodu və adı;
- təmiz çəki (netto);
- əlavə ölçü vahidlərinin kodu və adı;
- əlavə ölçü vahidləri üzrə miqdarı;
- sövdələşmənin xarakteri;
- gömrük prosedurunun növü;
- gömrük dəyəri;
- mal göndəricisinin (və ya alıcısının) kateqoriyası;
- bölgə (Naxçıvan Muxtar Respublikası, rayonlar, Bakı, Sumqayıt, Gəncə, Şirvan və s. şəhərlər).

### 6. KONTRAGENT ÖLKƏLƏR

Gömrük statistikasında kontragent ölkələrə aşağıdakılar daxildir:

İdxal zamanı.

- malın mənşə ölkəsi;
- malın yüklənib göndərildiyi ölkə-Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının 97-ci qrupuna aid olan mallar üçün (incəsənət əsərləri, kolleksiya və əntiq əşyaları).

İxrac zamanı.

- malın təyinat ölkəsi.

Malların mənşə ölkəsi dedikdə malın tam istehsal edildiyi və ya kifayət qədər emala məruz qaldığı ölkə başa düşülür.

- hər hansı bir ölkədə tam istehsal edilən mallara daxildir:
- ölkə ərazisində və ya onun ərazi sulannda, ölkənin tam ixtiyarında olan kontinental şelf və dəniz dibindən çıxanlan faydalı qazıntılar;
- ölkə ərazisində yetişdirilən və toplanan bitki mənşəli məhsullar;
- ölkədə doğulmuş və bəslənilmiş canlı heyvanlar;
- ölkədə bəslənilmiş heyvanlardan alınmış məhsullar;
- ölkədə istehsal olunmuş ovçuluq, balıqçılıq və vətəgəçilikdən əldə edilmiş məhsullar;
- dünya okeanlannda ölkəyə mənsub olan və ya ölkə tərəfindən icarəyə götürülmüş gəmilər vasitəsi ilə əldə edilmiş və ya istehsal olunmuş məhsullar;
- ölkədə həyata keçirilmiş istehsal və ya digər əməliyyatların nəticəsi olaraq alınmış ikinci növ xammal və tullantı materialları;
- ölkəyə mənsub olan və ya ölkə tərəfindən icarəyə götürülmüş kosmik gəmilərdə açıq kosmosda həyata keçirilən yüksək texnoligiya nəticəsində əldə edilmiş məhsullar;
- yalnız əvvəlki bəndlərdə göstərilmiş məhsullardan istifadə etməklə istehsal olunan mallar.

Əgər hər hansı bir malın istehsalında iki və daha çox ölkə iştirak edirsə, malın mənşə ölkəsini təyin etmək üçün kifayət qədər emal meyarlanndan istifadə edilir.

- ölkədə kifayət qədər emal meyarlanna aşağıdakılar aiddir:
- emal zamanı Müstəqil Dövlətlər Birliyi Xarici İqtisadi Fəaliyyətinin Mal Nomenklaturası (MDB XİF MN) üzrə ilk dörd işarədən birinin dəyişməsi səviyyəsində mal mövqeyinin (malın təsnifat kodunun) dəyişməsi;
- malın hər hansı bir ölkədə istehsal olunduğunu hesab etmək üçün kifayət qədər və ya kifayət olmayan qədər sayılan və həmin ölkədə həyata keçirilən istehsalat və texnoloji əməliyyatlann aparılması;

- advalorpay qaydası-göndəri İon malın isiehsalında istifadə olunan materialların dəyərinin və əlavə dəyərin fai/i həmin malın qiymətinin müəyyən olunmuş hissəsi səviyyəsinə çatmaqla malın dəyərinin dəyişməsi.

Aşağıdakı hallar kifayət qədər emal meyarına cavab verməyən hallar sayılır:

- saxlama və nəql etmə zamanı malların bütövlüyünü təmin etməyə yönəldilmiş əməliyyatlar;
- malların satışına və nəql edilməsinə hazırlıq əməliyyatları (mal partiyasının əlavə olunması, göndərişin sənədləşdirilməsi, sortlaşdınna, yenidən qablaşdinna);
- sadə yığma və quraşdırma əməliyyatları;
- alınan məhsulun xassələrinin malın başlanğıc xassələrindən əhəmiyyətli dərəcədə fərqlənməsin gətirməyən əlavə malların (komponetlərin) qarışdırılması;
- konkret malların mənşə ölkəsi xüsusi olaraq göstərilmirsə, ümumi qayda tətbiq olunur və bu qaydaya əsasən ilk dörd işarədən birinin dəyişdiyi qəbul olunmaqla XİI' MN üzrə malın mövqeyi dəyişmiş hesab olunur;
- təyinat ölkəsi dedikdə mal yüklənən zaman malın təyinat ölkəsi kimi məlum olan ölkə nəzərdə tutulur;
- malın emal üçün ixracı zamanı təyinat ölkəsi dedikdə, onun emal olunacağı ölkə başa düşülür;
- mal göndərilən zaman mənşə və ya təyinat ölkəsi naməlumdursa, idxal (ixrac), alqı (satqı) ölkəsi üzrə göstərilir;
- alqı (satqı) ölkəsi malı almış və ya satmış şəxsin (onun milli mənsubiyyətindən asılı olmayaraq) qeydiyyatda olduğu ərazi (yaşadığı yeri) hesab olunur.

Su, dəmir yolu, avtomobil, hava ilə daşınmalar zamanı malların idxal və ixracının uçotu gömrük orqanının malın buraxılmasına icazə verdiyi yük gömrük bəyannaməsində göstərilmiş tarix üzrə aparılır.

Boru kəməri nəqliyyatı, habelə elektrik enerjisi xətləri ilə göndərilən malların idxal və ixrac tarixi kimi boru kəməri və ya elektrik xətlərinə müvafiq olaraq sərhəd qəbul etmə-ötürmə məntəqələrində tərtib edilmiş qəbul-təhvil aktının imzalandığı tarix sayılır.

Malların statistik dəyəri vahid bazisə gətirilmiş kontraktlann qiymətləri üzrə ABŞ dolları ilə müəyyən olunur.

İdxal dəyərinin qiymətləndirilməsi SİF - Azərbaycan limanı vo ya SİP - Azərbaycan Respublikası sərhəddində təyinat məntəqəsi əsasında aparılır.

SİF (dəyər, sığortalaşdımıa, icarə) - malın qiymətinə onun dəyəri, sığortalaşdımıa və Azərbaycan (Bakı) limanına qədər nəqliyyat xərclərinin də əlavə edilməsi ilə malın satışı şərtidir.

İxracın dəyərinin qiymətləndirilməsi FOB-Azərbaycan (Bakı) Limanı və ya DAF - Azərbaycan Respublikasının sərhəd qiymətləri əsasında aparılır.

FOB (bortda sərbəst) - malın dəyərinin onun çatdınıması vo gəminin bortuna yüklənməsi xərclərinin malın qiymətinə daxil edilməsi ilə aparılan satış şərtidir.

SİF, FOB, SİP və DAF anlayışları “Ticarət terminlərinin beynəlxalq şərhi”əsasında müəyyən olunur.

ABŞ dolları ilə hesablama yük gömrük bəyannaməsinin qəbul edildiyi tarixdə Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilmiş məzənnə üzrə aparılır.

Beləliklə, göstərilən qaydalara, xarici ticarətin gömrük statistikası üzrə metodologiyaya və s. əməl etməklə gömrük statistikası həyata keçirilir.

Xarici ticarətin gömrük statistikası tərəfindən malların miqdarı hesabı netto çəkisi üzrə aparılır.

Zəruri olan hallarda statistik verilənlərin toplanması və işlənməsi üçün mallann miqdarı hesabı paralel olaraq əlavə ölçü vahidləri ilə də (ədəd, litr, kub, metr və s.) aparıla bilər. Bu ölçü vahidləri XİF MN -in müvafiq "əlavə ölçü vahidləri" sütununda göstərilir. Bu isə statistik metodlardan istifadə etməklə gömrük işində konkret iqtisadi məsələnin həllinə xidmət elməyə yönəldilmişdir.

**Yoxlama sualları**

1. Statistikanın predmeti nəyi öyrənir?
2. Statistikanın tədqiqat obyekti?
3. Statistikanın hansı sahələrini tanıyırsınız?
4. Gömrük statistikası nəyi öyrənir?
5. Xarici iqtisadi əlaqələrin statistikası hansı hissələrə bölünür?
6. Xarici iqtisadi fəaliyyətin gömrük statistikası hansı məsələlərin həllini həyata keçirir?
7. Xarici ticarətin gömrük statistikasının formalaşma mənbələri hansılardır?

**MÖVZU 10.**
**AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİNİN ÜMUMİ QAYDALARI**

1. Gömrük rosmiloşdirilmosi anlayışı, ohomiyyoti vo mozmunu.
2. Malların Azərbaycan Respublikası gömrük orazisino daxil olma qaydaları.
3. Daxili gömrük tranziti gömrük prosedum kimi,
4. Malların Azorbaycan Respublikası gömrük ərazisindon aparılması qaydaları.
5. Malların boyan cdilmosi anlayışı vo mozmunu.

## I. GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ ANLAYIŞI, ƏHƏMİYYƏTİ VƏ MƏZMUNU

Xarici iqtisadi olaqoloro giron subycktlor gömrük prosesinin iştirakçısına çcvriliiior. Azorbaycan Respublikası gömrük sorhoddin- don mal vo nəqliyyat vasitolərinin keçirilməsi zamanı gömrük prosesi özündə todbirlər sistemini cəmləşdirir. Gömrük prosesləri özündə bir neçə maddəni birləşdirir: gömrük rəsmiləşdirilməs gömrük ödənclərinin toplanması, gömrük nəzarəti, valyuta nəzarət gömrük qaydalarının pozulmasına qarşı aparılan işlər.

Beləliklə, gömrük rəsmiləşdirilməsi gömrük prosesinin mənbəyidir. Azərbaycan Respublikası gömrük sərhəddindon keçirilən mal və nəqliyyat vasitələri, gömrük rəsmiləşdirilməsinə məruz qalır, daha doğrusu onların müəyyən gömmk proseduru altında yerləşdirilməsi və həmin prosedurun fəaliyyətini yekunlaşdırmaq.

Gömrük rəsmiləşdirilməsi-bu gömrük orqanlarının, vəzifəli şəxslərinin, mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindon keçirilməsinə istiqamətləndirilmiş qanunvericiliyin və müəyyənləşdirilmiş qaydaların, o cümlədən, tarif və qeyri-tarif tənzimləmə tədbirlərinin gözlənilməsidir.

Gömrük rəsmiləşdirilməsi gedişində mal və nəqliyyat vasitələrinə qarşı əməliyyatlar həyata keçirilir ki, bunlara gömrük

uyğun olaraq mal və nəqliyyat vasitələrinin gömrük məqsədləri üçün statusunu müəyyən etmək və gömrük əməliyyatlarının yc-kunlaşdırılası qaydalarının məcmusu gömrük prosedurları adlandırılır.

Təcrübədə gömıiik rəsmiləşdirilməsi və gömrük nəzarəti məsələləri cox əlaqəlidirlər və bir-birindən ayrılıqda mövcüd ola bilməz. Lazımı sənədlərin gömrük orqanlarına təqdim edilməsi, hök-mən onların yoxlanılmasına, həmçinin mal və nəqliyyat vasitələrini baxışa gotirir. Gömrük nəzarəti olmadan gömrük rəsmiləşdirilməsi prosesi mənasız olardı.

Gömı*ük rəsmiləşdirilməsinin məqsədi mal və nəqliyyat vasitələrinin müəyyən prosedur altında yerləşdirməkdən ibarətdir. Gömrük rəsmiloşdirilməsinin aparılması prinsipləri hansılardır? Gömıük rəsmiləşdirilməsi qanunçuluq prinsipi əsasında gömrük məsələlərinin və Azərbaycan Respublikasının digər qanunvericilik aktları, o cümlədən, Azərbaycan Respublikası DGK-nin normativ aktları əsasında mövcud proses həyata keçirilir. Gömrük orqanlarının gömrük rəsmiləşdirilməsi zamanı qanunvericiliklə müəyyən edilmiş və onun vacib təminatını ödəmək üçün tələbatlara əsaslandırılmış və məhdud olmalıdır.

Gömrük rəsmiləşdirilməsi XİF iştirakçıları subyektlərinin hüquq və qanuni maraqlarına hörmət bazası əsasında aparılmalıdır. Gömrük orqanlarının, vəzifəli şəxsləri, vətəndaşların və onların birləşmələrinin hüquqlarını pozmaq və həmçinin onların funksiyalarının həyata keçirilməsində qeyri-düzgün hərəkət göstərmələrinə haqları yoxdur. Malları gömrük sərhoddindən keçirən subyektlər, həmçinin onların nümayəndələri gömrük rəsmiləşdirilməsi zamanı iştirak edə bilərlər. Gömrük rəsmiləşdirilməsində iştirakı tələb etmək hüququ gömrük orqanının vəzifəli şəxsinin borcudur.

Gömrük rəsmiləşdirilməsi operativlik prinsipinə uyğun aparılır. Gömrük məcəlləsinə uyğun olaraq gömrük orqanları lazım olan sənədlərin və malların təqdim edilməsindən 3 iş günündən gec olmayaraq malların buraxılmasını həyata keçirməlidirlər.

dilin gözlənilməsi prinsipi vacibdir. GM-nə əsasən bütün rəsmiləşdirilmə prosesi, o cümlədən gömrük məqsədləri üçün digər sənədlər Azərbaycan dilində aparılmalıdır. Xarici dildə tərtib olunmuş sənədlərdən istifadə etməyə (məsələn, sertifikatlaşdırma) o vaxt icazə verilir ki, sənədlərdəki dili gömrük orqanının əməkdaşı bilir. Bununla yanaşı xarici dildə olan sənədlər lazım gəldikdə konsul leqallaşdırılması üçün təqdim edilməlidir. Konsul leqallaşdınlmasmm məqsədi-sənədin əsli ilə düzgünlüyünü, vəzifəli şəxsin imzasının və ondakı möhürün düzgünlüyünü təsdiq etməkdir.

Gömrük rəsmiləşdirilməsi mərhələsində iştirakçı qismində gömrük orqanı və təmsilçi çıxış edirlər. Təmsilçi malı bəyan edən və ya malın sahibinin adından bəyan edən şəxsdir. Təmsilçi kimi gömrük brokeri çıxış edə bilər. Gömrük rəsmiləşdirilməsi geniş müxtəlif hərəkətləri əhatə edir. Onların içərisində elələri vardır ki, konkret tətbiqi xarakter daşıyır və təkcə gömrük məsələsi ilə deyil, eyni zamanda DGK-nın tərəfindən müəyyən edilmiş qaydalarla tənzimlənir.

Daha bir gömrük rəsmiləşdirilməsi müəyyənləşdirilməsini nəzərdən keçirək. Gömrük rəsmiləşdirilməsi şəxslər (XİF iştirakçıları, fiziki şəxslər) və gömrük orqanları tərəfindən Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələrinə qarşı həyata keçirilən gömrük əməliyyatlarının cəmini özündə əks etdirir.

Bütün gömrük əməliyyatlan Ö2üinün məqsədi, iştirakçı şəxslərin əhatəsi, tələb olunan sənədlərin siyahısı və məlumatlara görə, gömrük prosedurları ilə müəyyənləşdirilmiş sərbəst qruplara ayrılırlar.

Həll etdiyi məsələdən asılı olaraq Gömrük Məcəlləsi aşağıdakı əməliyyat və prosedurları ayınr:

1. Gömrük bəyannaməsinin verilməsi ilə əlaqədar keçirilən gömrük əməliyyat və prosedurları.

- mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük ərazisinə çatması (mal və nəqliyyat vasitələrinin gömrük sərhəddini keçdiyi yerdən çatdırılma yerinə gətirilməsi, daha doğ-

rusu gömrük orqanına lazımi sənod və məlumatlann, həmçinin gətirilmiş malların təqdim etdirilmə yerinə qədər çatdırılması);

- daxili gömrük tranziti (daxili gömrük tranzitinin rəsmiləşdirilməsi, malların gömrük orqanının təyinat yerinə daşınması, daxili gömrük tranzitinin rəsmiləşdirilməsinin yekunlaşdırılması);
- malların müvəqqəti saxlancda yerləşdirilməsi.

2. Malların gömrük bəyan edilməsi.
3. Malların gömrük bəyan edilməsinin yekunlaşmasının həyata keçirilməsindən sonrakı gömrük əməliyyat və prosedurları.

- mallann Azərbaycan Respublikası gömrük ərazisindən çıxarılması zamanı (məs: daxili gömrük tranziti);
- gömrük orqanlarının qarşısında qoyulmuş vacib öhdəlikləri gözləməklə malların şərti buraxıldığı zaman (məsələn, gömrük ödəmələrinin ödənilməsi haqqında).

4. Gömrük proseduru fəaliyyətinin yükunlaşdırılmasının rəsmiləşdirilıməsi (məsələn, müvəqqəti idxal gömrük anbarı rusumu fəaliyyətinin yekunlaşdırılması).

Digər bir sıra gömrük əməliyyat və fəaliyyətləri mövcuddur ki, gömrük rəsmiləşdirilməsinə və ya onun həyata keçirilməsinə bilavasitə təsir göstərir.

Göstərilən mövud əməliyyatlar mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsinə qədər aparıla bilər:

- malların qabaqcadan bəyan edilməsi;
- gömrük orqanlarından xüsusi sadələşdirilmiş gömrük rəsmiləşdirilməsi üçün icazə alınması;
- nəqliyyat vasitələri, konteyner və ya açılan yedəklərin gömrük plomb və möhürləri altında daşınmasına gömrük orqanlarından şəhadətnamə almaq;
- gömrük orqanlarından ayrıca gömrük prosedurunun tətbiq edilməsi üçün icazə alınması (gömrük ərazisində emal və daxili tələbat üçün emal prosedurları).

Gömrük rəsmiləşdirilməsinin qayda və xüsusiyyətləri müəyyənləşdirilir:

- Azərbaycan Respublikası Gömrük Məcəlləsi ilə;

- Azorbaycan Respublikasının digor hüquqi aktları ilə (Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Hökumətinin qərar və göstərişləri ilə);

- Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin hüquqi aktları ilə;

- gömrük rəsmiləşdirilməsinin aparılma xüsusiyyətindən (texnologiyasından) asılı ola bilər;

- Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən malların növündən (tez xarab olan mallar; canlı heyvanlar; radioaktiv və parçalanan materiallar; ekspert nəzarətinə məruz qalan mallar; qiymətli metallar; həmçinin bir sıra digər mallar);

- gömrük sərhəddindən malların keçirilməsi üçün istifadə edilən nəqliyyat növündən (avtomobil nəqliyyatı, dəniz, çay nəqliyyatı, hava nəqliyyatı, dəmir yol nəqliyyatı, boru-kəmər nəqliyyatı və elektrik ötüıııcü xətlər);

-mal və nəqliyyat vasitələrini gömrük sərhəddindən keçirən şəxsin kateqoriyasından; malları qeyri kommersiya məqsədləri üçün keçirən fiziki şəxslər, xarici vətəndaşların xüsusi kateqoriyalı şəxsləri.

Bunlardan əlavə malların keçirilmə xüsusiyyəti həmçinin gömi-ük rəsmiləşdirilməsinə təsir edə bilər, məsələn, beynəlxalq poçt göndomıələri ilə keçirilmə.

Malların mənşə ölkəsi, malları göndərən və təyinat ölkəsi xüsusi gömrük əməliyyatlarının işlənilməsi üçün əsas ola bilməz.

**Gömrük rəsmiləşdirilməsinin başlanması və yckuniaşdırılması.**

Gömrük rəsmiləşdirilməsi prosesinə başlamaq üçün xarici iqtisadi fəaliyyətin subyektləri bilməlidirlər ki, bu harada və nə vaxt həyata keçirilə bilər.

Malların gətirilməsi (idxalı) zamanı gömrük rəsmiləşdirilməsi başlana bilər:

- xarici malların Azorbaycan Respublikasının gömrük ərazisinə gəlməmişdən (ilkin gömrük bəyan edilməsi);

- mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının

liyyat sonədlorinin toqdim edildiyi andan); (Azorbaycan Respublikası GM 104 maddə).

Fiziki şəxslər tərəfindən gömrük sərhəddindən keçirilən malların gömrük rəsmiləşdirilməsi başlana bilər;

- gömrük bəyannaməsinin təqdim edildiyi andan;
- şifahi xəbərdarlıq anından (nəqliyyat vasitəsini tərk etmədən);
- şəxsin gömrük rəsmiləşdirilməsini həyata keçirmək cəhdini təsdiqləyən digər hərəkətlərdən sonra (məsələn, malların bəyan edilməsi zamanı).

Malların ixracı zamanı gömrük rəsmiləşdirilməsi başlana bilər;

- gömrük bəyannaməsinin təqdim edilməsi ilə;
- şifahi xəbərdarlıqla;
- şəxsin gömrük rəsmiləşdirilməsi həyala keçirilməsi haqqında niyyətini təsdiq edən fəaliyyətlə, yəni bildirməklə.

Gömrük rəsmiləşdirilməsi gömrük qanunvericiliyində nəzərdə tutulmuş bütün fomıallıqların yerinə yetirilməsindən sonra yekunlaşır;

- mallara gömrük prosedurlarının tətbiq edilməsi üçün (xüsusi gömrük prosedurları ilə malların buraxılışı, məsələn, malların fiziki şəxslər tərəfindən keçirilməsi proseduru);
- malların gömrük prosedum altında yerləşdirilməsi üçün (malların bəyan edilən gömrük proseduruna uyğun buraxılışı);
- əgər gömrük proseduru müəyyən dövr üçün qüvvədədirsə gömrük prosedurunun fəaliyyətini yekunlaşdırmaq üçün (gömrük anbarı, tranzit, müvəqqəti idxal və digər bir sıra prosedurlar);
- gömrük ödəmələrinin hesablanması və alınması üçün (məsələn, malların gömrük ödəmələrinin ödənilməsi şərti ilə müəyyən buraxılışı və ödəmələr əlavə hesablana bilər);
- sadələşdirilmiş gömrük rəsmiləşdirilməsi prosedurlarının tətbiq edilməsi üçün (malların gömrük bəyannaməsinin təqdim olunmasına buraxılması).

**Gömrük rosmiləşdiriimosinin yeri və vaxtı.**

Malların gömrük rəsmiləşdirilməsi gömrük orqanlarının yerləşdiyi yerdə və onların iş vaxtında həyala keçirilir (GM 106.1 maddə).

Gömrük orqanlarının yerləşdiyi yerlər:

- Azərbaycan Respublikasının Dövlət sərhəddindən buraxılış məntəqələri (belə gömrük orqanları qeyri-rəsmi orqan yəni “sərhəd” məntəqəsi adlanır);

- Azərbaycan Respublikası Dövlət sərhəddindən, buraxılış məntəqəsindən bilavasitə yaxınlıqda yerləşməyən digər yerlərdə (belə gömrük orqanlan “daxili” adlanır və sərnişin və mal axınları, re- gionlann xarici iqtisadi əlaqələrin inkişaf intensivliyindən, nəqliyyat təşkilatlarının tələbindən, ixracatı, idxalçılann digər xarici iqtisadi fəaliyyət iştirakçılarının miqdanndan asılı olaraq yaradılır).

Sərhəd və həmçinin daxili gömrük orqanlan (xüsusilə gömrük postları) həmçinin gömrük orqanlarının struktur bölmələri (gömrükxanalann gömrük rəsmiləşdirilməsi şöbələri) müvəqqəti saxlanc anbarları sahiblərinin, gömrük anbarları, rüsumsuz ticarət mağazaları binalarında həmçinin malların mütamadi ixrac-idxalı ilə məşğul olan XİF iştirakçılarının binalarında yerləşdirilə bilər.

Gömrük orqanlannm iş vaxtı gömrük orqanlannm rəisi tərəfindən müəyyənləşdirilir. Ola bilər adi yəni normal iş günü (məsələn, saat 9:00 18:00-ə qədər) rəsmiləşdirmə və baxış qrupları təşkil etməklə sutkalıq növbətçi qrafıqlə iş.

Sərhəd gömrük orqanlarının iş vaxtı:

- öz funksiyalanm Azərbaycan Respublikasının Dövlət sərhəddindəki buraxılış məntəqələrində həyata keçirən digər nəzarətedici orqan və xidmətlərin iş vaxtlannın nəzərə alınması ilə müəyyənləşdirilən (məsələn, sanitar-karantin, karantin fıtosanitar, veterinär nəzarət orqanlannm);

- Azərbaycan Respublikasının Dövlət sərhəddi ilə qonşu həmsərhəd ölkənin sərhəd buraxılış məntəqəsilə iş vaxtı (mümkün qədər) uyğun gəlməlidir.

Daxili gömrük orqanlarının iş vaxtlan XİF iştirakçıları və nəqliyyat təşkilatçılannın tələbləri nəzərə alınmaqla müəyyənləşdirilir.

Gömrük orqanlannm yerləşmə yeri və iş vaxtları ümumi qaydalardan müstəsnalıq təşkil edərək bir sıra gömrük

rinə yetirilməsi hallan ilə bağlıdır. Belə müstəsnalar maraqlı şəxsin yazılı xahişi ilə mümkündür.

Gömrük əməliyyatlannm digər yerlərdə həyata keçirilməsi üçün (mal və nəqliyyat vasitələrinin yerləşdiyi yerlərdə, ixracatçı və ya idxalatçı, müəssisənin malının yerləşdiyi yerdə) gömrük orqanı rəisinin və ya ona səlahiyyəti olan şəxsin yazılı icazəsi olmalıdır, ancaq bu şərtlə ki, bu gömrük nəzarətinin effektliyini aşağı salmayacaq. Belə məqsədlər üçün müvəqqəti gömrük nəzarəti zonası yaradıla bilər.

Gömrük orqanının iş vaxtından kənar gömrük əməliyyatları, gömrük orqanının mümkün imkanları olduğu hallarda həyata keçirilir.

Gömrük orqanının yerləşdiyi yerdən və ya iş vaxtından sonra kənarda gömrük əməliyyatlarının aparılması zamanı gömrük rəsmiləşdirilməsi üçün iki qat ölçüdə ödonclər alınır.

**Gömrük rəsmiləşdirilməsi və digər nəzarət növləri.**

Azərbaycan Respublikasının “Xarici ticarət fəaliyyəti dövlət tənzimlənməsinin əsasları haqqında” qanuna əsasən texniki, formakoloji, sanitar, veterinär, fitosanitar və ekoloji tələblər, həmçinin mənşəyi xarici ölkə olan mallara, həmçinin eyni Azərbaycan mallarına tətbiq olunan təsdiqedici tələblər. Ona görə də Azərbaycanı gömrük ərazisinə gətirilən və ya bu ərazidən apanlan bir qrup mallara gömrük rəsmiləşdirilməsi (gömrük rəsmiləşdirilməsindən fərqli) digər dövlət nəzarəti növlərindən keçdikdən sonra yekunlaşa bilər.

Məsələn;

Azərbaycan Respublikası “Veterinariya qanunu”na əsasən diri heyvanların, heyvandarlıq məhsulları və yem, hərbi nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının Dövlət sərhoddindən buraxılışına, ancaq sərhəd veterinär nəzarət postları təşkil olunmuş yerlərdən icazə verilir.

Azərbaycan Respublikasının “Yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyi haqqında” qanuna əsasən Azərbaycan Respublikası Dövlət sərhəd məntəqələrindən keçirilən yeyinti məhsulları,

material vo məmulatlarının gömrük rəsmiləşdirilməsi dövlət sanitar-epidemioloji nəzarət, dövlət veterinär nəzarət və dövlət fıtosa- nitar nəzarətinin məsul şəxsləri tərəfindən öz konpetensiyalarına uyğun aparılır. Həmin məhsulların material və məmulatların Azərbaycan Respublikası ərazisinə gətirilməsinin mümkünlüyü qərarını verirlər.

Azərbaycan Respublikasının “Toxumçuluq haqqında”kı qanununa əsasən Azərbaycan Respublikasına gətirilən toxumlar toxumçuluq nəzarəti və fıtosanitar nəzarətindən keçməlidir.

**Gömrük rosmiloşdirilməsi üzrə güzəştlər.**

Gömrük rəsmiləşdirilmosində xüsusi üstünlük və güzəştlər mövcuddur.

Sadələşdirilmiş (güzəştli) gömrük rəsmiləşdirilməsi qaydası belə ifadə olunur:

- bütün gömrük formallıqlarının aparılma vaxtının qısaldılması (məsələn, beynəlxalq poçt göndənnələri mallarının gömrük rəsmiləşdirilməsi qısa müddətdə həyata keçirilir, üç günü keçməmək- **lo);**
- gömrük məqsədləri üçün təqdim edilən vacib sənədlərə tələbatın azaldılması (məsələn, gömrük məqsədləri üçün gömrük orqanlarının tələb etdiyi bütün məlumatlar ümumdünya poçt ittifaqının nəzərdə tutduğu aktlar və müşayət olunan Beynəlxalq poçt göndəmıələrində əksini tapırsa aynca gömrük bəyannaməsinin təqdim edilməsi tələb olunmur, bir neçə istisnalarla);
- gömrük əməliyyatlarının malı alanın ərazisində aparılması.

Azərbaycan Respublikasının - GM-nin 111-ci maddəsinə əsasən ilkin “Gömrük rəsmiləşdirilməsinin aparılması qaydalarında” nəzərdə tutulmuş güzəştlər asılıdır:

- malların növündən (tez xarab olan mallar, diri heyvanlar, radioaktiv materiallar və digər mallar);
- malların keçirilmə xüsusiyyətlərindən (ekspres-yüklər, beynəlxalq poçt göndənnələri);
- malların keçirilmə məqsədindən (təbii fəlakətin ləğv edilməsi, qəza və fəlakət, kütləvi inlbnnasiya vasitələri üçün gətirilən mal

**lar);**

**Gömı-ük rosmiloşdirilmosinin güzoştli: mallar siyahısına düşon mallara açıq qalmış humanitar yardım vo digor malları olavo clmok olar.**

**Azorbaycan Respublikasının - GM-nin 131-ci maddəsinə əsasən bir sıra şəxslər üçün gömrük rəsmiləşdirilməsi proseduru xüsusi sadələşdirilmiş qaydada aparılması öz əksini tapmışdır.**

**Məsələn, malların rəsmiləşdirilməsində müəyyən üstünlük almağa çalışan şəxs eyni vaxtda aşağıdakı tələblərə cavab verməlidir:**

**- gömrük orqanlarına onlara qarşı sadələşmiş xüsusi prosedurların tətbiq cdiməsi haqqında müraciət gününə qədər gömıük işi sahəsində inzibati hüquq pozuntuları haqqında yerinə yetirilmiş qərarlar olmamış olsun;**

**- gömmk orqanlarına, onlarda olan məlumatların müqayisəsinə imkan verən, həmçinin malların gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanlarına təqdim olunan özlərinin kommersiya uçotu sisteminin sonədləşdirilməsini aparmalıdır:**

**- xarici iqtisadi fəaliyyətlərini 3 ildən az olmayaraq həyata keçirmiş olsunlar.**

**Mövqeyi göstərilən tələblərin həyata keçirilməsi həmin şəxsləri “XİF ləyaqətli iştirakçı” cərgəsinə aid etməyə və onlar üçün gömrük rəsmiləşdirilməsində konkret xüsusi sadələşdirilmiş prosedurlar tətbiq etməyə imkan verir.**

**'fəqdim edilən üstünlük malların Azərbaycan Respublikası gömrük ərazisinə gətirilməsi zamanı istifadə olunur:**

**- mütəmadi gömrük bəyannaməsinin verilməsi;**

**- malların gömrük bəyannaməsi təqdim edilənə qədər buraxılması (malların idcntifikasiyası üçün vacib məlumatların təqdim edildiyi halda);**

**- gömrük rəsmiləşdirilməsi ’‘XİF ləyaqətli iştirakçısının” obyektində aparılması;**

**- gömrük rəsmiləşdirilməsindən keçməmiş malların ‘‘XİF ləyaqətli iştirakçılarr’nı öz anbarlarında saxlamaq.**

Gömrük rosmiləşdirilməsində xüsusi sadələşdirilmiş gömrük prosedurlannın keçirilməsi üçün iddialı olan şəxs (XİF iştirakçısı) xüsusi sadələşdirilmiş gömrük prosedurlannın tətbiq edilməsi haqqında gömrük orqanına yazılı şəkildə ərizə ilə müraciət etməlidir. Həmin ərizədə ərizəçi və XİF haqqında məlumat verməlidir. Ərizəçi yazılı formada özünün kommersiya sənədlərində malların gömrük rəsmiləşdirilməsi zamanı, gömrük orqanlarına müqayisə üçün köməklik edən məlumatları özündə əks etdirən uçot sistemini yaratmalı və həmçinin gömrük orqanlarının həmin sənədlərə baxmalarına imkan yaratmalarını göstənnəlidir. Gömrük rəsmiləşdiril- məsində xüsusi sadələşdirilmiş gömrük prosedurları Azərbaycan Respublikasının gömrük ərazisinə mal gətirən şəxslər üçün həyata keçirilir. Xüsusi sadələşdirilmiş prosedurlar Azərbaycan Respublikası - GM və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydalara uyğun apanimaqla şəxsin o tələblərdən azad olunmasına heç bir əsas verə bilməz.

### 2. MALLARIN AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK ƏRAZİSİNƏ DAXİL OLMA QAYDALARI

Mal və nəqliyyat vasitlərinin Azərbaycan Respublikası gömrük ərazisinə daxil olması Azərbaycan Respublikası Dövlət sərhəddindəki buraxılış məntəqələrindən keçməklə, gömrük orqanlannın iş vaxtında icazə verilir. Digər yerlərdən mal və nəqliyyat vasitələri Azərbaycan Respublikası gömrük ərazisinə yalnız Azərbaycan Respublikası Dövlət sərhəddi haqqında qanununa uyğun olaraq daxil ola bilərlər. Azərbaycan Respublikası Höküməti Azərbaycan Respublikası Dövlət sərhəddindən keçməklə xüsusi malların Azərbaycan Respublikasının gömrük ərazisinə gəlməsini müəyyənləş- dinnək səlahiyyətindədir (GM 131 maddə).

Gömrük sərhəddini daşıyıcı keçdikdən sonra onun gətirdiyi mal və nəqliyyat vasitələrini buraxılış məntəqəsinə və ya yuxarıda göstərilən digər yerə gətirməklə gömrük orqanına təqdim etməyə borcludur. Bununla yanaşı malların vəziyyətini və onlann bağlamalarını pozmaq, həmçinin dəyişdirmək, kənarlaşdırmaq, məhv etməyə vu-

rulmuş plomb, möhür və digər idenlifıkasiya vasitələrinin dəyişdirilməsinə icazə verilmişdir.

Dəniz, çay, hava gəmiləri ilə gətirilən və Azərbaycan Respublikasının gömrük ərazisində olan liman və təyyarə limanlarında dayanmadan, Azərbaycan Respublikası gömrük sərhəddini keçən mallara mövcud qayda şamil edilmir.

Azərbaycan Respublikasının Dövlət ərazisindən buraxılış məntəqəsinin inzibatçısı (aeroportun, dəniz və ya çay limanının, dəmir yol vağzalının stansiyasının rəisi) gömrük orqanlannı Dövlət sər- həddinin buraxılış məntəqəsindən nəqliyyat vasitələrinin gəlmə yeri və vaxtı haqqında ilkin xəbərdarlıq etməlidir.

Azərbaycan Respublikası - GM 138-ci maddəsinə uyğun olaraq mal və nəqliyyat vasitələri Azərbaycan Respublikası gömrük ərazisinə gəldikdən sonra daşıyıcı. Azərbaycan Respublikası Gömrük Məcəlləsində nəzərdə tutulmuş sənəd və məlumatları beynəlxalq daşınmanın həyata keçirildiyi nəqliyyatın növündən aslı olaraq respublikanın gömrük orqanlarına müəyyən edilmiş müddətdə çatdırmalıdırlar. Əgər mövcud sənəd bütün vacib olan məlumatlan ifadə etmirsə, onda daşıyıcı orada çatışmayan məlumatlar haqqında məlumat verməklə onda olan digər sənədləri və ya daşıyıcı tərəfindən tərtib olunmuş əlavə sənədləri təqdim elməlidir.

Daşıyıcı gömrük orqanına məlumat və sənədləri, malları və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası gömrük ərazisinə faktiki çatdığı və ya çatana qədər təqdim edə bilər.

Daşıyıcı sənədləri (və ya onların bir hissəsini) GM-nə uyğun olaraq və DGK-nin müəyyən etdiyi qaydada elektron sənədlər kimi təqdim edə bilər.

Daşıyıcının adından sənəd və məlumatları onun tapşırığı ilə digər hər hansı şəxs təqdim edə bilər.

Azərbaycan Respublikası GM-də mallar gömrük ərazisinə daxil olduqdan və gömrük orqanına münasib sənədlərin və mallar haqqında məlumatlar təqdim edildikdən sonra gömrük proseduruna uyğun olaraq mallar boşaldıla və ya boşaldılıb yenidən digər nəqliyyata yüklənə, müvəqqəti saxlama anbarına yerləşdirilə bilər.

XİF subyekllorinin bilavasito gömrük rəsmiloşdirilməsi prosc-sino başlaması üçün, o malların daxil olduqları ycrdon gömrük orqanının ycrloşdiyi yerə və ya onların olduqları yerdən bəyan olunacaqları yerə çatdırılmasını təmin etməlidirlər. Belə daşınma daxili gömrük tranziti vasitəsilə həyata keçirilir (GM 175 maddə).

Daxili gömrük tranziti - bu gömrük proseduru xarici malların Azərbaycan Respublikası gömrük ərazisi ilə daşınması zamanı, gömrük lüsumları, vergilər, iqtisadi xarakterli qadağa və məhdudiyyətlər, tətbiq edilmədən Azərbaycan Respublikası - XİF dövlət tənzimlənməsi qanunvericiliyində müəyyən edilmiş qaydada daşınır.

Daxili gömrük tranziti malları onların daxil olduqlan yerdən, təyinat yerindəki gömrük orqanının yerləşdiyi yerə, mallann olduqlan boyan edilmə yerindən Azərbaycan Respublikasının gömrük ərazisindən onların gömrük anbarlarına, həmçinin xarici malların Azərbaycan Respublikasının gömrük ərazisi ilə daşınması zamanı tətbiq edilir (Əgər həmin mallara gömrük ödəmələrinin təmin edilməsi təqdim edilməyib).

Malların daxili tranzit proseduru ilə daşınması hər hansı daşıyıcı, o cümlədən gömrük daşıyıcısı vasitəsilə həyata keçirilə bilər.

Daxili gömrük tranziti gömrük proseduruna uyğun malların daşınmasına başlanan regionun gömrük orqanının fəaliyyət göstərdiyi gömmk orqanının yazılı razılığından sonra icazə verilir.

Daxili gömrük tranziti tranzit bəyannaməsi əsasında həyata keçirilir. Bu məqsədlə göndərən gömrük orqanı hər hansı kommersiya, nəqliyyat sənədləri və gömrük sənədlərini qəbul edir.

Daxili gömrük tranzitinin yerinə yetirilməsi müddəti hər ayda 2 min km hesabı ilə müəyyənləşdirilir, əgər daşınma avtomobil, dəmir yolu, dəniz (çay) nəqliyyatı ilə həyata keçirilirsə. Əgər daşınma hava nəqliyyatı ilə yerinə yetirilirsə bu müddət daxili tranzitə icazə alındığı vaxtdan 3 gündən gec olmayaraq həyata keçirilməlidir.

Daxili gömrük tranziti zamanı malların çatdırılma yerini təyinat

məntəqəsini, nəqliyyat sənədlərinin məlumatına əsasən göndərən gömrük orqanı tərəfindən müəyyənləşdirilir. Malların çatdırılma yeri təyinat gömrük orqanının yerləşdiyi gömrük nəzarəti zonası olmalıdır. Bununla yanaşı mallar onların gəldikləri yerdən gömrük orqanının yerləşdiyi yerə çatdırılır.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun daxili tranzit zamanı təyinat məntəqəsinin yerinin nəqliyyatla əlaqədar dəyişdirdikdə daşıyıcının malların çatdırılma yerinin dəyişdirilməsi ilə əlaqədar xahişlə gömrük orqanına müraciət etmək hüququ vardır. Bununla yanaşı daşıyıcı bütün yol boyu yerləşən gömrük orqanlarına təyinat məntəqəsinin dəyişməsi haqqında təsdiqləyici sənədlər və həmçinin Azərbaycan Respublikası GM-nə nəzərdə tutulmuş sənədləri təqdim etməklə xəbərdarlıq edir.

Göndərən gömrük orqanı aşağıdakı tədbirləri qəbul etmək hüququ vardır (onlardan birini). Bu tədbirlər Azərbaycan Respublikası daxili gömrük tranziti qanunvericiliyini gözləmək üçündür:

1. İdxal gömrük rüsumlanna uyğun, xarici mallara nisbətdə gömrük ödənişləri və vergilərin ödənilməsi;
2. Gömrük müşayəti;
3. Azərbaycan Respublikası GM-nə uyğun marşurutun müəyyənləşdirilməsi.

## 4. MALLARIN AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK ƏRAZİSİNDƏN APARILMASI QAYDALARI

Mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası Dövlət sərhəddindən aparılmasına ancaq buraxılış məntəqələrindən keçməklə, digər yerlərdən keçərək aparılması Azərbaycan Respublikası Dövlət sərhəddi qanunvericiliyi ilə müəyyən edilmiş qaydada gömrük orqanlarının iş vaxtında icazə verilir. Göstərilən qaydalar dəniz (çay), hava gəmiləri ilə daşınan Azərbaycan Respublikası gömrük ərazisini dayanmadan kəsib keçən mallara şamil edilmir. Mallann və nəqliyyat vasitələrinin aparılması gömrük orqanının icazəsi ilə həyata keçirilir. Mal və nəqliyyat vasitələrinin

ərazisindən aparılmasına icazə almaq üçün gömrük orqanına malların gömrük proseduru altında yerləşdirilməsini təsdiqləyici və Azərbaycan Respublikası gömrük ərazisindən aparılmasının nəzərdə tutulan gömrük sənədləri təqdim edilir. Mal və nəqliyyat vasitələrinin aparılmasına qədər daşıyıcı GM-də nəzərdə tutulmuş sənəd və məlumatları malların beynəlxalq daşımalarını həyata keçirən nəqliyyat vasitəsinin növündən asılı olaraq gömrük orqanına təqdim etməyə borcludur.

Azərbaycan Respublikası gömrük ərazisindən çıxanlan malların yüklənməsinə, gömrük bəyannaməsinin qəbul edilməsindən sonra icazə verilir. Malların gömrük rəsmiləşdirilməsi zamanı gömrük orqanı mallann yoxlanılmaya, təqdim edilməsini tələb etmir, həmçinin malların beynəlxalq gömrük tranziti proseduruna uyğun daşınması istisna edilməklə.

Gömrük orqanının vəzifəli şəxsi malların yoxlanılması məqsədi ilə Azərbaycan Respublikasının gömrük ərazisindən aparılan malların nəqliyyat vasitələrinin yüklənilməsində iştirak etməyə haqqı vardır. Belə hallarda malların yüklənilməsi gömrük orqanı ilə razı- laşdınlmış yerlərdə və gömrük orqanının iş vaxtında həyata keçirilir. Maraqlı şəxsin xahişi ilə yüklənmənin gömrük orqanının müəyyən etdiyi işdən kənar vaxtda aparılmasına icazə verə bilər.

Azərbaycan Respublikasının GM-no uyğun olaraq mallar Azərbaycan Respublikası gömrük ərazisindən apanidıqda onlara aşağıdakı tələblər irəli sürülür.

1. Mallar onların müəyyən gömrük proseduru altında yerləşdirildiyi anda hansı miqdar və vəziyyətdə olduğu onların say və və- zij^ətinin təbii aşınma, normal daşınma şəraitində mallann miqdar və normal vəziyyətinin dəyişilməsi hallan istisna olmaqla faktiki Azərbaycan Respublikası ərazisindən çıxarılmalıdır;

2. Qəza və ya qarşısı alınmaz qüvvələrin təsiri nəticəsində malların vəziyyətinin dəyişməsi hallarında şəxs cavabdehlik daşımır;

3. Malın gömrük orqanına aparıldığı yerdə təqdim edilməsi zamanı təmsilçinin sorğusu ilə gömrük orqanı faktiki olaraq aparılan mallann miqdarını təsdiqləyir.

Azərbaycan Respublikasının gömrük sərhoddindən keçirilən mallar və nəqliyyat vasitələri və ya aid olduğu gömrük proseduru dəyişdirilən mallar və nəqliyyat vasitələri, habelə Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən olunan digər hallarda mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikası gömrük orqanına bəyan edilir.

Gömrük bəyanedilməsi - gömrük qanunvericiliyində bəyanetmə dedikdə, gömrük rəsmiləşdirilməsi icraatı və gömrük nəzarətinin həyata keçirilməsi məqsədləri ilə mal və nəqliyyat vasitələri barədə səhih seçilmiş gömrük prosedurunun tələblərinə uyğun məlumatların müəyyən edilmiş (şifahi, yazılı, digər) formada gömrük orqanlanna elan edilməsi başa düşülür. Bir qayda olaraq bəyannamə aşağıdakı əsas hallarda tələb olunur:

- mal və nəqliyyat vasitələri gömrük sərhoddindən keçirildiyi zaman;
- mallann yerləşdirildiyi gömrük proseduru Azərbaycan Respublikası GM-163 maddəyə əsasən dəyişdirildiyi zaman (məsələn, müvəqqəti idxal proseduru gömrük anbarı proseduruna dəyişdirilməsi);
- gömrük ərazisində emal və daxili tələbat üçün emal prosedurunun tətbiqi nəticəsində əmələ gəlmiş, yaranmış tullantılara görə;
- gömrük ərazisində emal və daxili tələbat üçün emal məqsədilə gətirilmiş gömrük prosedurunun tətbiqi nəticəsində istehsal prosesində istifadə olunmayan qalıq kimi olan hissəyə görə;
- mallann məhv olunması proseduru tətbiq edilən zaman xarici malların məhv olunması nəticəsində qalan tullantılara görə;
- Azərbaycan Respublikası gömrük ərazisinə qanunsuz gətirilmiş, sahibkarlıq fəaliyyəti həyata keçirən şəxslər tərəfindən əldə edilmiş və qanunsuz keçirilməyə heç bir aidiyyatı olmayan mallara.

Azərbaycan Respublikasının - GM-də aşağıdakı gömrük bəyan

- şifahi;
- elektron;
- konkiydent hərəkətlər, (konkiydent hərəkət şəxsin nə etmək istədiyini bildirən səssiz hərəkətlərə deyilir). Müasir gömrük təcrübəsi konkiydent hərəkət vasitəsi ilə bəyanelmədən beynəlxalq hava limanlarında "yaşıl" və "qırmızı" dəhlizlər metodu tətbiq edilməklə istifadə olunmasını məqbul sayır.

Xarici iqtisadi fəaliyyət sahəsində (təsərrüfat subyektləri tərəfindən malların keçirilməsi zamanı) yazılı yük gömrük bəyannaməsi (YGB) tətbiq edilir. Sərnişin yazılı bəyanetmə təqdim etmədən "yaşıl dəhliz" seçmə faktının özü ilə gətirilməsi, yaxud apanıması qadağan edilmiş, həmçinin, vergitutma obyekti olan mallara bu anda sahib olmadığını elan etmiş olur.

Bir qayda olaraq sərnişinin əl yükü və şəxsi baqaj man gömrük rəsmiləşdirilməsi zamanı bəyanetmə tətbiq edilir.

Azərbaycan Respublikasında 2007-ci ildən yeni yük gömrük bəyannaməsi / tranzit bəyannaməsinə (YGB/TB) keçilmişdir. Yük gömrük bəyannaməsi gömrük rəsmiləşdirilməsi təcrübəsində bizim ölkədə 1992-ci ildən həyata keçirilir.

Gömrük bəyannaməsi zamanı tətbiq edilən sənədləri (gömrük prosedurundan asılı olmayaraq) aşağıdakı qruplara bölmək olar:

1. Təşkilatı sənədlər: təşkilatı sənədlərə təsisedici və rəsmiləşdirici sənədlər (təsisedici müqavilələr, nizamnamələr, qeydiyyat üçün şəhadətnamələr və s.) daha doğrusu təmsilçi haqqında məlumatlan təsdiq edən sənədlər aid edilir.

Burada həmçinin təsdiqləyici sənədləri qeyd etmək olar, yəni təmsilçinin YGB-ni təqdim edən nümayəndəsini təsdiqedici (etibarnamə, malların gömrük brokeri tərəfindən bəyan edilməsi zamanı xidmət göstərmə müqaviləsi) sənədlər.

2. Xarici iqtisadi əməliyyatlannı həyata keçirilməsi zamanı bağlanmış beynəlxalq alqı-satqı və ya digər növ müqavilələr, həmçinin birtərəfli xarici iqtisadi sövdələşmə zamanı - belə təsadüflərin məzmununu əks etdirən digər sənədlər.

3. Kommersiya sənədləri - bu qrupa daxil olan sənədlərə malla

rın gömrük sərhəddindən keçirilməsi ilə əlaqədar sövdələşməni təsdiq edən (hesab-faktura, invoyslar boşaltma və qablaşdırma kağızları, xüsusiyyətləşdirmə və digər) sənədlər aiddir.

4. Nəqliyyat (daşınma) sənədləri konocament, dəmir yolu naklodnoyu və digər - göstərilən sənədlərdə bir qayda olaraq malların daşınma xüsusiyyətləri, gömrük orqanlarının malların gömrük dəyərlərinin hesablanmasının düzgünlüyünə nəzarət, marşurutun hərəkətinə nəzarətin həyata keçirilməsi kimi məlumatlar öz əksini tapır.

5. Gömrük sənədləri. Gömrük sənədlərini xarakterizə edən cəhət onların istisna şəkildə gömrük məqsədləri üçün tərtib edilməsindədir. Belə sənədlər bir qayda olaraq əvvəlcədən ya gömrük orqanları tərəfindən verilir (məsələn, gömrük brokerinin şəhadətnamə alması üçün uyğun gömrük brokerləri reyesterinə salınması, gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin atestat alması üçün, gömrük ərazisində təkrar emal prosedurunun tətbiqi üçün icazə) və ya onlar tərəfindən qeydə alınır (məsələn, ixrac gömrük bəyannaməsi əgər malın təkrar idxal prosedurunda geri qaytarılması tələb olunursa onun tarixinin müəyyənləşdirilməsi).

6. Ödəmə-icazə sənədləri yuxarıdakı nümunələrdə əhatə olunmamış sənədlər. Bunlar Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən ayrı-ayrı malların aparılması və gətirilməsi hüququna aid lisenziyalar, uyğunluq sertifikatları, malların mənşə ölkəsini təsdiq edən sertifikatlar, ödəmə tapşınqlan, gömrük mədaxil orderləri, gömrük ödənilməsinə görə bankın zəmanəti və digər.

Azərbaycan Respublikasının GM-nə uyğun olaraq gömrük bəyannaməsinin və vacib sənədlərin təqdim edilməsi faktı gömrük orqanlarının sənədləri qəbul etdiyi tarixdən heablanır. Gömrük bəyannaməsini təqdim edən şəxsin sorğusuna görə gömrük orqanı gecikdirmədən sənədlərin qəbul edilməsi haqqında yazılı təsdiqedici (həmçinin elektron formada) sənəd verir.

YGB-nin qəbulunda həmçinin mövcud fəaliyyətin bəyannaməyə qeydiyyat nömrəsinin yazılması qaydasıyla həyata keçirilir.

Gömrük boyannaməsi onu tərtib edən şəxs tərəfindən (sadəcə uyğun möhür vurmaqla) və imza etməklə təsdiq edilir.

YGB ilə birlikdə əsas təyinat sənədlərinin verilməsi YGB-də yer alan kodlaşdınimış məlumatlann təsdiq edilməsi deməkdir. XİF iştirakçıları gömrük bəyannaməsini hər hansı gömrük orqanına (gömrük bəyannaməsini qəbul etmək səlahiyyəti olan) verə bilər və o Azərbaycan Respublikası dövlət sərhəddinin gömrük sərhəd- dinin keçilmə yerində və ondan kənarda (daxili gömrük orqanı) ola bilər. Bu qaydada yeganə istisnalıq ondan ibarətdir ki, Azərbaycan Respublikası GM nəzərdə tutulmuş Azərbaycan Gömrük xidmətinə xüsusi növ malların bəyanedilməsini konkret gömrük orqanlarına həvalə etməsidir.

- xüsusi təyinatlı avadanlığın və biliyin tətbiq edilməsi tələb olunduğu zaman, məsələn, mədəni dəyərlərə, silahlara, hərbi texnika və sursatlara, radioaktiv və parçalanan maddələrə gömrük nəzarətinin həyata keçirilməsi üçün;
- xüsusi növ nəqliyyat vasitələrinin keçirilməsi üçün (boru kəmər nəqliyyatı, elektrik xətləri);
- Azərbaycan Respublikası gömrük qanunvericiliyi ilə və xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi qanunvericiliyinə uyğun qaydada və məhdudiyyətlər müəyyən edilmiş mallara qarşı fərdi pozuntular qeydə alındığı zaman;
- xüsusi nəzarətə götürülən mallara qarşı Azərbaycan Respublikasının Hökuməti tərəfindən təsdiq edilmiş siyahı üzrə fərdi inte- lektual mülkiyyət təşkil edən mallann təqdim edilməsi;
- Gömrük bəyanaməsinin təqdim edilməsi Azərbaycan Respublikasına gətirilən mallar üçün Azərbaycan Respublikasının gömrük ərazisinə gəldikdən və ya daxili tranzitin yekunlaşdığı vaxtdan 15 günü keçməməklə aparılmalıdır (məsələn, müvəqqəti saxlama anbarlarında yerləşdirildiyi andan).

Malların saxlanılma vaxtı çərçivəsində gömrük bəyannaməsinin təqdimatının uzadılmasına yol verilir.

İxrac olunan mallar üçün gömrük bəyannaməsinin təqdimatı bir qayda olaraq malların Azərbaycan Respublikası gömrük ərazisin

dən çıxarılmasına qədər təqdim edilməlidir.

Gömrük bəyannaməsi və bəyan edilmə üçün vacib sənədlərin qəbulu gömrük orqanları tərəfindən onların təqdim edildiyi gün həyata keçirilir. Gömrük bəyannaməsinin qəbul edildiyi gündən bəyannaməni təqdim edən şəxs gömrük bəyannaməsindəki məlumatların düzgünlüyü üçün məsuliyyət daşıyır.

Gömrük orqanı aşağıdakı hallarda gömrük bəyannaməsini qəbul etmir:

1. Gömrük bəyannaməsinin gömrük orqanına qəbul edilməsi üçün qanunsuz verildikdə (gömrük bəyannaməsi gömrük orqanı tərəfindən lazımi gömrük orqanına göndərir).

2. Gömrük bəyannaməsi lazımlı (gərəkli) şəxs tərəfindən verilmədikdə.

3. Gömrük bəyannaməsi lazımi qaydada tərtib edilmədikdə (bəyannamə üçün lazım olan məlumatlar olmadıqda, bəyannamənin yazılış forması gözlənilmədikdə, imzaları olmadıqda, təşkilatın möhürü olmadıqda).

4. Gömrük bəyannaməsi üçün vacib olan sənədlər olmadıqda (lazımi sənədlərin təqdim edilməsi üçün vaxt alındığı istisna olmaqla).

5. Gömrük bəyannaməsinin təqdim olunmasına və təqdim olunduğu vaxt bəyan edilən mallara olan hərəkətlər yerinə yetirilmədikdə.

Gömrük orqanları tərəfindən qəbul edilmiş gömrük bəyannaməsi onun qəbul edildiyi vaxtdan 3 gündən gec olmayaraq baxılmalıdır.

Gömrük bəyannaməsinin lazımi sənədlər və mallann yoxlanılması nəticəsi olaraq (əgər mallar gömrük orqanına təqdim edilirsə) aşağıdakı qərarlardan biri qəbul edilir:

- mallann buraxılması haqqında (sərbəst dövriyyə üçün buraxılış);
- mallann buraxılmasının dayandınıması (məsələn, əgər gömrük orqanları tərəfindən faktda düzgün olmayan mallar aşkar edilərsə);
- malların buraxılışının qadağan edilməsi haqqında.

Malların buraxılması, buraxılışa icazə verilməməsi haqqında

sino icazə verildikdən sonra, Azərbaycan Respublikası gömrük ərazisindən bəyan edilmiş gömrük proseduru altında aparılan, həmçinin gömrük bəyannaməsinin geri çağrılması və yaxud gömrük bəyannaməsinin qəbulunu qəbul edilməmiş kimi hesab edilir. Gömrük bəyannaməsinin vərəqləri aşağıdakı kimi paylanır:

- birinci vərəq gömrük orqanında və xüsusi arxivdə saxlanılır;
- ikinci vərəq (statistik) - gömrük statistikası şöbəsində (bölməsində) qalır;
- üçüncü vərəq-bəyannaməçiyə qaytarılır;
- dördüncü vərəq- təmsilçiyə qaytarılır və ya digər maraqlı şəxsə qaytarılır.

Malların gömrük bəyanedilməsi xüsusiyyətləri (bəyannamənin verilməsinə qədər malların buraxılması, öncədən bəyanedilmə, bir adda bəyanetmə, natamam bəyan etmə, dövri bəyanetmə, malla elektron formada bəyan edilməsi).

Gömrük bəyanetmənin ümumi qaydaları ilə yanaşı, XİF iştirakçıları malların aşağıdakı gömrük bəyanetmə variantlarından istifadə edə bilərlər. Müxtəlif malların bir mal partiyasımda, bir neçə ad altında bəyan edilməsi (Azərbaycan Respublikası GM 172. 3 maddə)

1. Azərbaycan Respublikası GM-nə uyğun olaraq təmsilçinin arzusu ilə bir mal partiyasında, müxtəlif adlı malların bəyan edilməsi XİF MN bir təsnifat kodunu göstərməklə bəyan edilə bilər, bu şərtlə ki, təsnifat kodu gömrük rüsumlarının ən yüksək dərəcəsi səviyyəsində olsun. Bununla yanaşı əgər mallann təsnifat kodu XİF MN-nin bir neçə təsnifat koduna, eyni gömrük rüsum dərəcəsinə uyğun gəlirsə, göstəricidə o malların kodu yer tapır ki, ona daha yüksək aksiz dərəcəsi uyğun gəlsin.

2. Azərbaycan Respublikasına gətirilmiş malların gömrük bəyannaməsinin təqdimatına qədər buraxılışı.

Mövcud imkan bir neçə halda təqdim edilir:

- təbii fəlakət nəticələrinin aradan qaldınıması zamanı gətirilən mallar, qəza, fəlakət, həmçinin tez xarab olmağa məruz qalan, canlı heyvanlar, radioktiv materiallar, beynəlxalq poçt göndərmələri və

- gömrük rəsmiləşdirməsi proseduru üçün xüsusi sadələşdirilmiş imkan tətbiq edilməsinə hüququ olan şəxslər tərəfindən gətirilon mallann bəyan edilməsi zamanı.

Mallar o şərtlərlə buraxılır ki, təmsilçi aşağıdakıları təqdim etməlidir:

- malları indentifikasiya edilməsinə imkan verən məlumatları əks etdirən sənədlərə, həmçinin Azərbaycan Respublikasının xarici ticarət fəaliyyəti haqqında qanunvericiliyinə uyğun müəyyən edilmiş məhdudİ3^ətlərə əməl edilməsi haqqında;

- gömrük bəyannaməsinin təqdim edilməsi haqqında yazılı öhdəlik, gömrük orqanının müəyyən etdiyi vaxtda vacib sənəd və məlumatlar. Gömrük bəyannaməsinin təqdim edilməsi malların buraxılışından sonra 45 gün keçməlidir?

3. Malların qabaqcadan ilkin gömrük bəyan edilməsi.

Bu xarici mallara gömrük bəyannaməsinin verilməsinə imkan verir:

- onların Azərbaycan Respublikasının gömrük ərazisinə gəlməsinə qədər;

- daxili gömrük tranzitinin yekunlaşmasına qədər.

Hər iki halda ilkin gömrük bəyannaməsinin verilməsi vaxtı mallar gömrük orqanına (gömrük bəyannaməsini qəbul edən) onun qəbul edilməsindən 15 gün müddətində təqdim edilməlidir. Göstərilən müddətə riayət edilmədiyi təqdirdə gömrük bəyannaməsi təqdim edilməmiş hesab edirlər. Məsələn, əgər gətirilən mallar "sərhəd" gömrük orqanına (malların gömrük ərazisinə çatdığı vaxt) bəyan edilərsə, ilkin gömrük bəyannaməsi ondan 15 gün əvvəl təqdim edilməlidir. Mallar "daxili gömrük orqanında" rəsmiləşdirildiyi halda gömrük orqanına ilkin gömrük bəyannaməsi daxili tranzitin yekunlaşmasından 15 gün əvvəl təqdim edilməlidir.

İlkin gömrük bəyannaməsinin üstünlüyü ondan ibarətdir ki:

a) ilkin gömrük bəyannaməsi gömrük prosedurlarının tətbiqi zamanı gətirilən mallara qarşı vahid sənəd qismində qəbul edilə bilər;

b) mallann buraxılışı gömrük bəyannaməsini qəbul edən gömrük orqanına onların təqdim edilməsindən sonra həyata keçirilir.

4. Malların natamam gömrük bəyan edilməsi (Azərbaycan Res-

publikası GM 165.3 maddə).

Natamam gömrük bəyannaməsini gətirilən, həm də apanlan mallar üçün təqdim etmək mümkündür. Natamam gömrük bəyannaməsinə təmsilçi tərəfindən (natamam bəyannamədə) məlumat- lann təqdim edilməsi şərtilə icazə verilir:

- malların buraxılışı üçün vacib olan;
- gömrük ödəmələrinin hesablanması və ödənilməsi üçün vacib olan;
- Azərbaycan Respublikası xarici ticarətin dövlət tənzimlənməsinin müəyyən etdiyi qanunvericiliyə uyğun qadağa və məhdudiyyətlərin gözlənilməsini təsdiq edən;
- mallann ümumi miqdar və keyfiyyət xarakteristikalarının identifikasiyasınına imkan verməsi.

Təmsilçi mövcud gömrük bəyannaməsinin qəbul edilməsinə ümid etməsinə haqlıdır, o haldakı ondan asılı olmayan səbəblər üzündən bəyannamənin qəbul edilməsi mümkünsüz olur. Məsələn, natamam YGB-si ilə malların aparılması zamanı, təmsilçi hansı nəqliyyat vasitələrindən istifadə edilməsindən, nəqliyyat sənədləri, alıcı, malın təyinat ölkəsi, Azərbaycan Respublikasının hansı sərhəd məntəqəsindən buraxılması haqqında məlumatsız olur. Malların gətirilməsi zamanı təmsilçi natamam YGB-si ilə eyni vaxta təqdim edilməsi sənədləri göstərə bilmədikdə verilə bilər.

Sonradan çatışmayan sənədlərin təqdim edilməsi üçün gömrük orqanlarının müəyyən etdiyi vaxt ərzində həyata keçirilir:

- xarici mallar üçün - 45 gündən artıq olmayaraq (gömrük orqanları tərəfindən natamam gömrük bəyannaməsinin qəbul edildiyi gündən);
- Azərbaycan malları üçün - 8 aydan artıq olmayaraq (gömrük orqanları tərəfindən natamam gömrük bəyannaməsinin qəbul edildiyi gündən).

Natamam gömrük bəyannaməsindən istifadə edilməsi gömrük qanunvericiliyinin tələblərinə (məsələn, gömrük bəyanedilməsi yerləri haqqında tələbə), həmçinin gömrük ödənişlərinin hesablanması qaydalarına, necə ki, tam gömrük bəyannaməsinin

qaydası kimi.

5. Malların dövrü gömrük bəyan edilməsi (GM-165.2 maddə).

Bu bəyanetmə gömrük sərhəddindən, müəyyən vaxt dövründə mallan keçirən eyni şəxsə bütün mallara bir bəyannamənin verilməsinə imkan verir. Məsələn, mütəmadi olaraq gömrük sərhəddindən eyni şəxs tərəfindən eyni malları keçirən şəxsə icazə verilir (gömrük orqanının icazəsi ilə). Bir dövrü gömrük bəyannaməsindən bir necə dəfə il ərzində malların keçirilməsinə icazə verilir. Dövrü gömrük bəyannaməsində istifadə edilərkən aşağıdakılar gözlənilməlidir:

- xarici malların müvəqqəti saxlama vaxtının son müddəti;
- gömrük ödəmələrinin ödənilmə vaxtı.

**Gömrük rəsmışlədirilməsi üzro mütəxəssislərin hüquq və vəzifələri.**

Azərbaycan Respublikası GM-də bəyanedicinin hüquq və vəzifələri gömrük hüquq münasibətlərində bu subyektin statusu verilmişdir. "Təmsilçi (bəyanedici)"- gömrük rəsmiləşdirilməsi məqsədilə malları və nəqliyyat vasitələrini bəyan edən, təqdim edən, göstərən, hüquqi şəxsdir (Azərbaycan Respublikası GM maddə 25).

Çoxları bəyanedicinin, təmsilçinin hüquqi statusunu gömrük orqanının hüquq və vəzifələrinə uyğun izah edirlər. Belə ki, bəyanedicinin vəzifəsi gömrük məqsədləri üçün gömrük orqanına sənədlər və əlavə məlumatlar vermək, gömrük orqanları öz hüquqlarına uyğun gömrük məqsədləri üçün əlavə məlumatlar və sənədlər tələb edə bilərlər. Bəyanedicinin vəzifəsi gömrük orqanına bəyan edilmiş mal və nəqliyyat vasitələri haqqında məlumat vermək gömrük orqanının hüququna uyğun gəlir. "Azərbaycan Respublikası gömrük orqanının tələbi ilə faktiki olaraq təqdim edilmiş mal və nəqliyyat vasitələri bu orqanın sərəncamına verilir".

Mövcud əmələ gəlmiş bəyanedici ilə gömrük rəsmiləşdirilməsini aparan gömrük orqanlannın qarşılıqlı əlaqəsini nəzərə alaraq qanun bəyanedicinin vəzifələrini hüququndan əvvələ keçirir.

Gömrük qanunvericiliyində bəyanedici anlayışı özünəməxsus yer tutur. Mal və nəqliyyat vasitələrini gömrük sərhəddindən keçirən

**xGssis ola bilər.**

Bəyanedicinin hüquqi statusu müəyyən edilərkən, onun malları gömrük sərhəddindən keçirən şəxs, yaxud gömrük brokeri olub-olmamasından asılı olaraq, mövcud qanunvericiliklə müəyyən edilmiş vəzifələrini yerinə yetinnəli olduğu və məsuliyyət daşıdığı müəyyən edilir.

Bəyannamə institutlarının bütün əsas xüsusiyyətləri gömrük tənzimləməsinin “sərhəd” xarakteri ilə bağlıdır.

Gömrük - tarif mexanizmində bəyanedici yalnız gömrük orqanlarına bəyannamə vermək hüququ olan şəxs deyil (bəzi hallarda gömrük orqanı bu bəyannamədə göstərilən məlumatlarla razılaş- mayada bilər), o ilk növbədə gömrük rüsum və vergilərinin ödənilməsi öhdəliyini üzərinə götürən şəxsdir.

Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin əsas vəzifələri:

- gömrük qanunvericiliyində nəzərdə tutulmuş qaydada mal və nəqliyyat vasitələrini bəyan etmək;
- bəyan ediləsi mal və nəqliyyat vasitələrini gömrük orqanlarının tələbilə təqdim etmək.
- gömrük məqsədləri üçün vacib sənədlərin və əlavə məlumatlann təqdim edilməsi;
- gömrük ödənişlərinin ödənilməsi;
- gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsinə təsir etmək (jnik və digər əməliyyatların yerinə yetirilməsi).

Qanunda bəyanedicinin vəzifələri əhəmiyyətinə görə deyil gömrük rəsmiləşdirməsi etaplarına görə sadalanıb düzülmüşdür. Bəyanedicinin daha böyük vəzifəsi gömrük ödənişlərinin həyata keçirilməsidir.

Bəyanedicinin hüquqları haqqında GM-nin bir sıra maddələrindən söhbət gedir: gömrük rəsmiləşdirilməsində iştirak etmək; gömrük rəsmiləşdirilməsini aparan gömrük orqanına gömrük bəyannaməsini və digər sənədlərinin qeydə alınmasına icazə vermək; müəyyən edilmiş tərzdə rəsmiləşdirilməsi tam başa çatmamış mal və nəqliyyat vasitələrindən istifadə və sərəncam vermək; gömrük orqanının vəzifəli şəxsi prob və nümunələri

etmək; gömrük nəzarəti altında mallara və nəqliyyat vasitələrinə baxmaq, ölçmək və çəkmək; gömrük orqanının icazəsi ilə mallardan prob və nümunələr götürmək; gömrük orqanlarının icazəsi ilə nəqliyyat vasitələrinin dayanacaq yerlərini dəyişmək; bağlamanı açmaq; bəyan etdiyi mal və nəqliyyat vasitələri haqqında gömrük orqanlarının qəbul etdikləri qərar haqqında informasiya almaq vo s.

1. Gömrük prosedurlarının seçilməsi hüququ - Azərbaycan Respublikasının gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsi onların prosedurlara uyğun və Azərbaycan Respublikasının GM-də nəzərdə tutulmuş qaydada keçirilir. Malları keçirən şəxs gömrük prosedurunu seçə bilər və miqdar, mənşə ölkəsi və ya malın təyinatı, nəqliyyat vasitələrinin xarakterindən asılı olmayaraq digər gömrük proseduruna dəyişə bilər.

2. Gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti öhdəliyi - bu prinsip Azərbaycan Respublikası GM-nin 21-ci maddəsində təsdiq olunmuşdur. Orada göstərilir ki, mallar və nəqliyyat vasitələri Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilərkən mal və nəqliyyat vasitələri GM-də göstərilən qaydada gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətindən keçməlidirlər.

3. Gömrük sərhəddindən keçirilmənin yeri və vaxtının müəyyənləşdirilməsi-bu prosedurun məzmunu ondan ibarətdir ki, Azərbaycan Respublikası GM-nin 28-ci maddəsinə əsasən Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələri Azərbaycan Respublikası gömrük orqanlarının müəyyən etdiyi yerlərdən və onların iş vaxtında Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilir. Azərbaycan Respublikasının gömrük orqanları ilə razılaşdırılmaqla mallar və nəqliyyat vasitələri başqa yerlərdən və ya Azərbaycan Respublikası gömrük orqanlarının iş vaxtından kənar vaxtda da Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilə bilər.

4. Gömrük sərhəddindən keçirilmiş mal və nəqliyyat vasitələrinə sərəncam vermək və reqlament qaydalarından istifadə - bu prinsip Azərbaycan Respublikası GM-nin 29,30-cu maddələ

rində təsbit olunmuşdur. Bu o deməkdir ki, gömrük sərhəddindən keçirilmiş mal və nəqliyyat vasitələrinə sərəncam vermək və onlardan istifadə gömrük proseduruna uyğun həyata keçirilir. Şərti buraxılış mal və nəqliyyat vasitələrinə hansı ki, rüsum və ödənişlərin verilməsinə görə möhlət verilmişdirsə, onlardan ancaq verilmiş güzəşt çərçivəsində istifadə etmək olar. Şərti buraxılmış mal və nəqliyyat vasitələrini digər məqsədlər üçün istifadə və onlar üzərində sərəncam vermək yalnız ödəmə şərtlərini həyata keçirmək və digər nəzərdə tutulmuş qanunçuluq tələblərinin yerinə yetirilməsi şərti ilə, gömrük orqanlannm icazəsi ilə ola bilər.

5. Gömrük nəzarəti altında olan mal və nəqliyyat vasitələrinin qorunması öhdəlikləri - bu prinsip digərlərindən fərqli olaraq Azərbaycan Respublikası GM 3-cü maddəsində ümumi prinsip kimi öz əksini tapmamışdır, ancaq mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsinin ümumi prisiplərində vardır. Bu onu göstərir ki, gömrük orqanları gömrük əməliyyatlan keçirərkən, onlara daxil olmuş mal və nəqliyyat vasitələrinin qorunmasını təmin etməli, digər iştirakçı şəxslər (gömrük daşıyıcıları, müvəqqəti saxlanc anbarlarının sahibləri və digər) gömrük nəzarəti altında mal və nəqliyyat vasitələrinin qorunmasını təmin etməyə borcludurlar.

Yuxarıda göstərilən ümumi prinsiplərə əməl etməyən gömrük sərhəddindən keçirilmiş mal və nəqliyyat vasitələri qanunsuz sayılır və Azərbaycan Respublikasının mövcud fəaliyyətdə olan qanunları əsasında məsuliyyət daşıyırlar.

## Yoxlama sualları

1. Gömrük rəsmiləşdirilməsi özündə nəyi əks etdirir?
2. Gömrük rəsmiləşdirilməsinin aparılma prinsipi nədir?
3. Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi harada apanlır?
4. Gömrük rəsmiləşdirilməsi nə vaxt həyata keçirilir?
5. Gömrük rəsmiləşdirilməsinin hansı növlərini bilirsiniz?
6. Xüsusi sadələşdirilmiş prosedurlar dedikdə nəyi başa düşürsünüz

və ondan hansı şəxslər istifadə edirlər?

7. Daxili tranzit prosedurunun xarakteristikasını verin?
8. Tranzit bəyannaməsi qismində hansı sənədlər qəbul edilə bilər?
9. Bəyanetmə formalannı xarakterizə edin?
10. Hansı hallarda bəyanedicinin gömrük orqanına bəyannaməni rəsmiləşdirməyə, sərbəst formada verməyə haqqı var?
11. Bəyanetmə yeri kimi hansı gömrük orqanı qəbul edilir?
12. Gömrük bəyannaməsinin verilmə müddəti hansıdır?
13. Qabaqcadan bəyanetmənin mahiyyəti nədən ibarətdir?
14. Bəyanedicinin hüquqi statusu haqqında anlayış verin?
15. Bəyan edilmiş bəyannaməyə əlavə və düzəlişlər etmək olarmı?
16. Gömrük bəyannaməsini geri çağırmaq olarmı?
17. Nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin spesifikliyi nədəndir?
18. Mallann buraxılışı və onlann şərti buraxılışı arasında fərq nədən ibarətdir?
19. Yük gömrük bəyannaməsinin xarakteristikasını verin? Onun doldurulma qaydası?

20. Yük gömrük bəyannaməsində hansı məlumatlar verilir? Mövzu

10. Test tapşırıqları

**1.** Öz şəxsi adından gömrük rəsmiləşdirilməsi üzrə özgə mallarının bütün əməliyyatlarını həyata keçirmək hüququ olan şəxs kim ola bilər?

a) gömrük brokeri reysterinə düşmüş Azərbaycanın hüquqi şəxsi, gömrük brokeri ola bilər;

b) gömrük brokeri reysterinə düşmüş fiziki şəxs olan gömrük brokeri belə hərəkət edə bilər;

c) Azərbaycanın hüquqi şəxsi olan gömrük işini bilən bu işi həyata keçirə bilər;

d) gömrük reysterinə düşmüş Azərbaycan vətəndaşı olan fiziki şəxs yerinə yetirə bilər;

e) Azərbaycan Respublikası DGK-dən münasib lisenziya almış,

gömrük rəsmiləşdirilməsi üzrə fiziki şəxs olan mütəxəssis yerinə yetirə bilər.

**2. Gömrük orqanına təqdim edilmiş və aşağıda göstərilən qaydada qeydiyyata alınmış gömrük bəyannaməsində nələri dəyişdirmək olar:**

a) dəyişdirmək, əlavələr etmək və kənar edilə bilməz;

b) dəyişiklik və əlavələr edilə bilər, ancaq kənar edilə bilməz (geri alma bilməz);

c) dəyişiklik edilə bilər, əlavələr və geri alına bilər bu şərtlə ki, gömrük orqanı yoxlamanın başlanılmasına qədər onda olan məlumatlann qeyri-düzgünlüyünü müəyyənləşdirmiş olsun;

d) gömrük rəsmiləşdirilməsi və nəzarətin hər hansı mərhələsində dəyişiklik, əlavələr edilə bilər və geri götürmək olar;

e) gömrük rəsmiləşdirilməsi zamanı dəyişiklik, əlavələr edilə bilər və geri götürmək olar.

**3. Gömrük təmsilçisi kimi kim çıxış edə bilər?**

a) mal və nəqliyyat vasitələrini gömrük sərhəddindən keçirən hər - hansı şəxs və yaxud gömrük brokeri;

b) ancaq azərbaycanlı şəxs;

c) istehsal və digər kommersiya fəaliyyəti üçün nəzərdə tutulmayan Azərbaycan Respublikası gömrük sərhəddindən fiziki şəxslər tərəfindən və Gömrük Məcəlləsinə uyğun xarici şəxslər tərəfindən keçirilən mallar müstəsnalıq təşkil etməklə ancaq Azərbaycan şəxsləri;

d) gömrük işi sahəsində təcrübəsi və savadı olan gömrük təm silçisinə lazım olan keyfiyyətlərə sahib olan, gömrük vergi və ödənişlərini ödəyən Azərbaycan vətəndaşı;

e) gömrük təmsilçisi haqqında lisenziyaya malik olan və gömrük rüsum, vergilərini öhdəsinə götürən, mal və nəqliyyat vasitələrini gömrük sərhəddindən keçirən Azərbaycan vətəndaşı.

**4. Azərbaycan Respublikası Gömrük Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikası Gömrük ərazisinə gətirilən mallar üçün, malların təqdim edilməsindən neçə gün gec olmayaraq gömrük bəyannaməsi gömrük orqanlarına təqdim edilməlidir:**

a) **10 gün ;**
b) 5 gün;
c) 7 gün;
d) 15 gün;
e) 12 gün.

**5. Yük gömrük bəyannaməsi ləğv edildiyi halda gömrük rəsmiləşdirilməsi aparılması üçün alman yığımlar qaytarılırmı?**

a) qaytarılır;
b) qaytarılmır;
c) qaytanlır, əgər bu qaytarılma gömrük əməkdaşlarının səhvi üzündən əmələ gəlirsə;
d) qaytarılmır, əgər bu səhv gömrük təmsilçisinin günahı üzündən əmələ gəlibsə;

**6. Gömrük rəsmiləşdirilməsi nə deməkdir?**

a) mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilməsi faktının gömrük orqanları tərəfindən sənədlərdə əks etdirilməsi fəaliyyətidir;
b) mal və nəqliyyat vasitələrinin mövcud gömrük proseduru altında yerləşdirilməsi və bu prosedurun başa çatması üzrə həyata keçirilən hərəkətlərdir;
c) mal və nəqliyyat vasitələrini keçirən şəxslərin gömrük məqsədləri üçün tələb olunan sənəd və məlumatların təqdim edilməsi, gömrük ödənişlərinin ödənilməsi və malların gömrük

**7. Azərbaycan Respublikası Gömrük sərhəddindən keçirmədon malları bəyan etmək olarmı?**

a) olmaz, ona görə ki, bəyanetmə malların gömrük sərhəddindən keçirilməsinin əsas şərtlərindən biridir;

b) olar, əgər gömrük proseduru dəyişdirilərsə;

c) olar, bu halda ki, gömrük bəyannaməsi malların Azərbaycan Respublikası ərazisindən kənara aparılması ilə faktiki uyğun gələrsə.

**8. Malları gətirərkən gömrük rəsmiləşdirilməsi haradan və nədən başlanır?**

a) gömrük orqanına ilkin (qabaqcadan) gömrük bəyannaməsinin, digər sənədlər və şifahi ərz edildiyi andan;

b) Azərbaycan Respublikası Gömrük orqanına cavabdeh şəxsin özünün gömrük rəsmiləşdirilməsinə hazır olduğunu bildirdiyi andan;

c) mal və nəqliyyat vasitələrini müvəqqəti saxlanc anbarında yerləşdirdiyi andan.

Mövzu 11.
# GÖMRÜK ÖDƏNİŞLƏRİ

1. Gömrük ödənişləri haqqında anlayış və növləri.
2. Gömrük ödənişlərinin ödənilmə qaydaları.
3. Mövsümü və xüsusi növ rüsumların tətbiqi.

## 1. GÖMRÜK ÖDƏNİŞLƏRİ HAQQINDA ANLAYIŞ VƏ NÖVLƏRİ

Gömrük ödənişlərinin hesablanması vo ödənilməsi XİF aparılması ilə bağlı olan ən vacib məsələlərdən biridir.

Gömrük ödəmələri adı atında gömrük orqanları tərəfindən Azərbaycan Respublikası gömrük sərhəddindon malların və nəqliyyat vasitələrinin keçirilməsi zamanı şəxslərdən alınan ödənişlər başa düşülür. Gömrük ödənişləri xarici ticarətlə əlaqədar olan əsas əməliyyat şərtlərindən biridir. Gömrük ödənişlərinin hüquqi əsasları Azərbaycan Respublikasının Gömrük Məcəlləsində öz əksini tapmışdır (GM 239 maddə). Həmçinin gömrük prosedurlarının və yaxud xüsusi gömrük prosedurlarınn tədbiq edilməsi zamanı gömrük ödənişlərinin ödənilməsi mütləqdir.

Əksər ölkələrdə gömrük ödənişləri büdcə gəlirlərinin əsas hissəsidir. Onlann toplanması gömrük orqanlarının əsas aparıcı funksiyalarından biridir. Bu Azərbaycan üçün də xarakterikdir. Azərbaycan Respublikasının Büdcə Məcəlləsinə uyğun olaraq rüsumlar, yığımlar və gömrük ödəmələri respublika büdcəsinin gəlir hissəsidir.

Gömrük ödənişləri Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 239-cu maddəsinə əsasən bu məcəllə və digor qanunvericilik aktları ilə müəyyən edilmiş hallarda gömrük orqanları tərəfindən aşağıdakı gömrük ödənişləri alınır:

- gömrük rüsumları;
- əlavə dəyər vergisi;
- aksizlər;
- yol vergisi;

- haqq;
- dövlət rüsumu.

Gömrük ödəmələrindən başqa, gömrük orqanlarına Azərbaycan Respublikası Gömrük Məcəlləsində olmayan digər ödəmələrin alınmasına icazə verilmişdir.

Belə ödənişlərə aiddir:

- daxili vergilər;
- xüsusi, antidenpinq və kompensasion rüsumlar gömrük orqanlan tərəfindən Azərbaycan Respublikası Gömrük Məcəlləsi gömrük ödəmələrinin alınması üçün müəyyən edilmiş qaydada alınır.

Bütün ödənc növləri gömrük orqanları tərəfindən alınır, o cümlədən, müvəqqəti saxlanc anbarlan və gömrük orqanlarının gömrük anbarlarında saxlanılan mallar üçün alınan vəsait də daxil olmaqla, onlar da respublika büdcəsinə köçürülür.

XİF iştirakçıları üçün gömrük ödənişlərinin ödənilməsi, onlar üçün malların gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması, həmçinin malların gömrük bəyan edilməsi ilə əlaqədar digər əməliyyatların aparılmasının ayrılmaz şərtidir.

Bu fənnin öyrənilməsi çərçivəsində gömrük ödənişlərinin o tərəfmə fikir vermək məqsədə uyğundur ki, onlar bilavasitə Azərbaycan Respublikası gömrük sərhəddindən mallann keçirilməsi ilə əlaqədardır və əsas şərtlərdən biridir. Digər gömrük ödənişləri təsbit edilmiş, cəmləşdirilmiş parametrlərə malikdir, öyrənilməsi

İdxal və ixrac gömrük rüsumları

Gömrük rüsumlan-malların gömrük ərazisinə gətirilməsi və bu ərazidən aparılması zamanı gömrük orqanlan tərəfindən alınan gömrük ödənişlərinin bir növüdür (Azərbaycan Respublikası Gömrük Məcəlləsi maddə -1.022).

Alınmasından asılı olaraq gömrük rüsumlarının idxal və ixrac gömrük rüsumlan kimi iki növü mövcuddur:

- idxal (gətirmə);
- ixrac (aparma).

Mallann (növlər üzrə) ən çox siyahısı idxal gömrük rüsumlannm alınmasına düşür. İxrac gömrük rüsumlan əsasən xammal, kateqoriyalarına məsələn ağac və ondan hazırlanmış məhsullar, ağac kömürü, xam neft, neft məhsullan, etil spirti və s. məhsullardan alınır.

Azərbaycan Respublikasında gömrük rüsumlarının tətbiq edilməsinin hüquqi əsasları Azərbaycan Respublikasının “Gömrük tarifi haqqında” qanunu ilə möhkəmləndirilmişdir. Gömrük rüsumlarınn ödənilməsi qaydası Azərbaycan Respublikası Gömrük Məcəlləsi ilə müəyyənləşdirilir (GM 240 maddə). Ona görə də mallardan alınacaq gömrük rüsumunun miqdarı gömrük dəyərindən hesablanmış məbləğdən faizlə alınır.

Spesifik gömrük rüsum dərəcələri rüsum tutulacaq malların müəyyən miqdarından pul ilə ifadə olunmuş alınan məbləğdir. Məsələn, alkoqolsuz pivə -1 litrinə və yaxud cib alışqanlan qazla (təkrar doldurulmaya məruz qalmayan) hər 1000 ədədinə görə və s.

Gömrük rüsumlarının kombinə edilmiş dərəcələri özündə keçirilən malların miqdar və dəyər göstəricilərini birləşdirir. Bununla belə kombinə olunmuş gömrük rüsumunun miqdar dərəcəsindən asılı olaraq müqayisə yolu ilə və ya alınan miqdarın toplanılması yolu ilə müəyyənləşdirmək olar. Məsələn, qoyun xəzindən hazırlanmış geyim üçün kombinə olunmuş dərəcədə gömrük dəyərinin 20% ancaq hər ədədinə 30 evrodan az olmamaq şərti ilə ardıcıllıqla hesablanır (deməli gömrük dəyərinin 20%) və miqdarla (hər bir ədədinə 30 evro) gömrük rüsumu dərəcəsini təşkil edir. Gömrük rüsumunun son miqdarı ən yüksək göstəricinin müqayisəsi ilə müəyyənləşdirilir. İdman ayaqqabıları üçün kombinə olunmuş dərəcə (15% gömrük dəyəri üstə gəl 0.7 avro) hər cütə əldə olan nəticələrin toplanması ilə müəyyənləşdirilir.

## Əlavə dəyər vergisi və aksizlər

Azərbaycan Respublikasının gömrük sərhəddindən keçirilmiş mallara qarşı ƏDV və aksizlərin alınması qaydası Azərbaycan Respublikası Gömrük Məcəlləsi və Azərbaycan Respublikası Vergi

Məcəlləsi ilə müəyyənləşdirilir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinə uyğun olaraq dəyər vergisi və aksiz alınması obyekti Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilmiş mallardır (Azərbaycan Respublikası Gömrük Məcəlləsi 243-245 maddə).

Əlavə dəyər vergisi (ƏDV) və aksiz vergilərinin hesablanma bazası malların gömrük dəyəri və onlann miqdandır.

Hazırki vaxtda əlavə dəyər vergisi və aksiz vergilərinn alınma obyektlərinin, həmçinin alınma zamanı vergi bazasının müəyyənləşdirilməsi Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə tənzimlənir. Ona görə də onun tətbiqi Azərbaycan Respublikası Vergi Məcəlləsinə aiddir.

Əlavə dəyər vergisi də (ƏDV) həmçinin gömrük rüsumları kimi özünün dərəcələrinə malikdir. Ancaq bu dərəcələrin növləri gömrük rüsum dərəcələrindən fərqlənir. Birincisi, ƏDV dərəcələrinin növ müxtəlifliyindən ancaq miqdar tərəfindən baxmaq olar: 10% və 18%; İkincisi, bu dərəcələr çoxsaylı mallar üçün tətbiq olunur (gömrük rüsum dərəcələrindən fərqli olaraq burada hər kateqoriya mallar üçün uyğun öz dərəcəsi mövcuddur).

Bir sıra ərzaq malları kateqoriyalan üçün (diri heyvan və quşlar üçün diri çəkiyə, süd və süd məhsulları, şəkər, un, makaron məmulatlan və digər mallar) həmçinin uşaq malları üçün (yeni doğulmuş körpələr üçün trikotaj məmulatlar, ayaqqabı, oyuncaqlar, məktəb dəftərləri və digər mallar). Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun ƏDV dərəcəsi 10% həddində müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən digər mallar üçün ƏDV dərəcəsi 18% tətbiq edilir.

ƏDV vergi bazası gömrük rüsumları və aksizlər üçün olduğu kimi malların gömrük dəyəri müəyyənləşdirilir. Uyğun sürətdə əgər mallar aksiz və idxal gömrük rüsumlarına məruz qalmırsa, onda həmin növ gömrük ödənişlərinin vergi bazasına daxil edilmir.

ƏDV ödənilməsinə güzəştlər ƏDV tam azad olunma və yaxud əvvəl ödənilmiş məbləğin qaytarılması şəklində mövcuddur. Onlar aşağıdakılardan asılı olaraq təqdim olunur:

a) gətirilən malın növündən (emal edilməmiş almaz, xarici və Azərbaycan valyutası, qanunu ödəmə vasitəsi sayılan banknotlar) aksiya, istiqraz sertifikatları, veksellər və digər;

b) malın gətirilmə məqsədindən (diplomatik xarici nümayəndələrin. Həmçinin diplomatik, inzibati-texniki nümayəndələrin şəxsi istifadələri üçün onlann ailələri də daxil olmaqla, humanitar, texniki yardımlar və digər);

c) gömrük prosedurlanndan (təkrar ixrac, rüsumsuz ticarət mağazası, gömrük anbarı, tranzit, gömrük ərazisində emal, sərbəst gömrük zonası).

ƏDV ödənilməsi və qaytarılması qaydası gömrük ödənclərinin ödənilməsi və qaytarılması qaydalarına uyğundur.

Aksizlərin xüsusiyyətləri ondan ibarətdir ki, bura Azərbaycan Respublikası Vergi Məcəlləsinin müəyyən etdiyi xüsusi kateqoriya mallar cəlb olunurlar.

Həmin mallara xüsusən aid edilir:

- etil spirtinin bütün növləri (konyak spirtindən savayı);
- tərkibində spirt olan məhsullar (məhlullar, emulsiyalar, tərkibində 9%-ə qədər spirt olan məhsullar);
- alkoqollu məhsullar (yeyinti spirti, araq, likor məhsulları, konyaklar, şərablar);
- pivə;
- tütün məmulatları;
- avtomobil benzini;
- minik avtomobilləri;
- mühərrikinin gücü 112.5 kvt (150 at gücü) motosikletlər;
- dizel yanacaqları;
- dizel üçün motor yağları və karburator mühərrikləri üçün.

Aksizlər üçün aşağıdakı aksiz dərəcələri nəzərdə tutulur:

- advalor (vergi bazasında müəyyən edilmiş faizlə gömrük dəyəri və gömrük rüsumlarının ümumi cəmini təşkil edir);
- spesifik aksizə məruz qalan mallara hər vahidinə və ya texniki xarakteristikasına görə (minik avtomobilləri, motosikletlər üçün);
- kombinə edilmiş-yəni malın həcm və dəyəri, düsturla hesab

lanan: (malın həcmi *x* aksizin spesifik dərəcəsi) + (gömrük dəyəri+ gətirmə gömrük rüsumu): aksiz advolor dərəcəsi.

Aksiz markaları ilə markalanmalı mallar üçün bəzi xüsusiyyətlər mövcuddur. Belə ki, Azərbaycan Respublikası gömrük ərazisinə gətirilmiş və sətbəst dövriyyə üçün yerləşdirilmiş aksiz markasına məruz qalası alkoqollu məhsullar, tütün və tütün məhsullarına onların dövriyyəsinə nəzarət məqsədi ilə həyata keçirilir.

Bununla yanaşı markalara ödəniş aksizlər üzrə avans olur (Azərbaycan Respublikası Gömrük Məcəlləsi 265 maddə). Avans ödəmələrinin dərəcəsi aksiz markalarının alınma forması Azərbaycan Respublikası Höküməti tərəfindən müəyyənləşdirilir. O da aksiz dərəcəsinin 1 %-dən artıq olmamalıdır.

Aksiz markaları ilə markalanmaya məruz qalası aksiz altında olan mallar üçün aksiz məbləği, aksiz məbləği kimi hesablanır, ancaq aksiz markalarının alınması zamanı ödənilən məbləğin çıxılması şərti ilə.

Aksizlər üçün də ödəmədən azad etmə növü kimi çox da böyük olmayan güzəştlər nəzərdə tutulur. Belə azad etmə kriteriyası kimi aşağıdakıları göstərmək olar:

1) malın gətirilmə məqsədi (mal fiziki şəxslər tədəfmdən şəxsi istifadə üçün müəyyən edilmiş miqdar məhdudiyyəti çərçivəsində gətirildikdə);

2) gömrük proseduru (təkrar ixrac, tranzit, məhv etmə, gömrük anban, dövlət xeyrinə maldan imtina, rüsumsuz ticarət);

Aksizlərin ödənilməsi və qaytarılması gömrük ödənilməsinin ödənilməsi və qaytarılması ümumi qaydasına uyğun həyata keçirilir.

Azərbaycan Respublikası Gömrük Məcəlləsi gömrük ödənclərinin növləri, ödəmənin əsas elementləri, gömrük yığımları kimi müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası Gömrük Məcəlləsi 246 maddəsinə uyğun olaraq gömrük yığımlan adı altında ödənilməsi gömrük orqanlarına həvalə edilmiş Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilmiş mallann gömrük rəsmiləşdirilməsi, saxlanc, mallann müşayət edilməsi kimi fəaliyyət şərtləridir.

**Gömrük yığımlarına aid edilir:**

1. Gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları;
2. Gömrük müşayətinə görə gömrük yığımlan;
3. Mallann saxlancına görə gömrük yığımları;
4. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi və attestatın fəaliyyətinin bərpa edilməsinə görə yığımlar;
5. Müvafiq icra hakimiyyəti orqanlarında bankların və bank olmayan kredit təşkilatlarının reyestrə salınmasına görə yığımlar.

Azərbaycan Respublikası gömrük sorhəddindon mal qismində keçirilmiş, nəqliyyat vasitələri də daxil olmaqla müşayət olunmayan baqajda keçirilən kommersiya məqsədi daşımayan mallardan, beynəlxalq yük poçt göndərmələrindən gömrük rəsmiləşdirilmosinə görə, Azərbaycan Respublikasının valyutası ilə gömrük yığımları alınır.

Mal və nəqliyyat vasitələrini onlar üçün müəyyən olunmuş yerdən kənarda və Azərbaycan Respublikası gömrük orqanlarının iş vaxtından sonra gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi üçün gömrük yığımları iki qat məbləğdə alınır.

Gömrük rəsmiləşdirilməsinə görə yığımlar gömrük prosedurunun bəyan edildiyi vaxt alınır:

- daxili istehlak üçün buraxılış;
- rüsumsuz ticarət;
- müvəqqəti idxal;
- müvəqqəti ixrac;
- beynəlxalq gömrük tranziti.

Gömrük rəsmiləşdirilməsinə görə ödənişlər Azərbaycan Respublikasının valyutası və xarici valyuta ilə ola bilər, valyutanın kursunu həmin vaxt üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı müəyyənləşdirir.

Gömrük rəsmiləşdirilməsinə görə yığımlar malların gömrük bəyanedilməsi zamanı almır. Gömrük rəsmiləşdirilməsi üçün gömrük yığımlarının dərəcələrini Azərbaycan Respublikası Hökuməti

müəyyənləşdirir. Gömrük yığımlarının son həddi gömrük orqanlarının gömrük rəsmiləşdirilməsi zamanı göstərdiyi xidmətlərin dəyərinə uyğunlaşdırılır.

Gömrük yığımlarının məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir (Azərbaycan Respublikası Gömrük Məcəlləsi 248-ci maddə).

Gömrük müşayətinə görə gömrük yığımlan bir haqdır ki, gömrük orqanları mal gətirən nəqliyyat vasitələrini müşayətinə görə alırlar.

Gömrük müşayətinə görə gömrük yığımları aşağıdakı ölçülərdə alınır:

1) Avtomabil vasitələronə və hər bir hərəkət edən dəmir yolu tərkibinə gömrük müşahidəçiliyinin yerinə yetirilməsi üçün məsafəyə görə:

- 50 km-ə qədər;
- 50 km-dən 100-km-ə qədər;
- 100 km-dən 200-km-ə qədər;
- 200 km-dən artıq məsafədə hər 100-km-ə görə.

2) Hər bir dəniz, çay və ya hava gəmisinin gömrük müşayəti üçün məsafədən asılı olmayaraq gömrük yığımı alınır.

Saxlanc üçün gömrük yığımları malların gömrük orqanlarının anbarlannda (müvəqqəti saxlanc və gömrük anbarlarında) saxlanılması üçün alınır. Malların saxlanılması üçün gömrük yığımları, malın hər gün ərzində 100 kq-na görə xüsusi təchiz edilmiş anbarlarda malın hər gün ərzində 100 kq-na görə birincisindən 2 dəfə çox alınır. Malın çəkisi 100 kq-dan aşağı olarsa o tam 100 kq kimi, əgər malın anbarda saxlanılması tam gün təşkil etmirsə o tam gün kimi qəbul edilir (Azərbaycan Respublikası Gömrük Məcəlləsi 231-238 maddələri və Azərbaycan Respublikası Gömrük tarifi haqqında qanunun 34-cü maddəsi).

Uyğun olaraq gömrük rəsmiləşdirilməsinə görə aşağıdakı hallarda gömrük yığımları alınmır:

- Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq əvəzsiz yardım;

- Azərbaycan Respublikası gömrük sorhoddindən keçirilən Azərbaycan Respublikası ərazisində güzəştlərdən istifadə edən diplomatik və digər rəsmi nümayəndələrin bir sıra xarici şəxslər tərəfindən şəxsi istifadə üçün təyin edilən malları;

- Azərbaycan Respublikası Hökumətinin qərarı ilə sərgilər üçün nəzərdə tutulan və s.;

- beynəlxalq gömrük tranziti proseduru altında keçirilən, göndərən gömrük orqanı ilə təyinat gömrük orqanına uyğun gələn;

- fiziki şəxslər tərəfindən şəxsi istifadələ üçün keçirilən və digər.

***Saxlanc üçün gömrük yığımları alınmır:***

- Gömrük orqanları tərəfindən keçirilən, müvəqqəti saxlanc və ya gömrük orqanlarınn saxlanc anbarlarında yerləşdirilən mallardan;

- Azərbaycan Respublikası Hökuməti tərəfindən müəyyənləşdirilən digər hallarda.

Bununla yanaşı Azərbaycan Hökuməti gömrük müşayəti üçün gömrük yığımlarından azad etməyi müəyyənləşdirmək hüququndadır.

Malların gömrük sərhəddindən keçirilməsi zamanı gömrük rüsumlarının ödənilməsi malların gömrük sorhəddini keçdiyi anda, malların ixracı zamanı isə gömrük bəyannaməsinin təqdim edildiyi və yaxud fəaliyyətin başladığı, yəni Azərbaycan Respublikası gömrük ərazisindən malların aparılmasına başlandığı vaxt həyata keçirilir.

***Gömrük rüsumları, vergilər aşağıdakı hallarda ödənilmir, əgər:***

1. Azərbaycan Respublikası qanunvericiliyinə və ya Gömrük Məcəlləsinə uyğun:

- mallardan gömrük rüsumları, vergilər alınmır;

- tam və ya qismən gömrük rüsumu və vergilərindən azad olunan mallardan.

2. Azərbaycan Respublikası gömrük ərazisində bir həftə ərzində alıcının adına gətirilən malların ümumi gömrük dəyəri Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş normanı ötmə

diyi hallarda.

3. Malların sərbəst dövriyyə üçün buraxılmasına qədər Azərbaycan Respublikası Gömrük Məcəlləsi müəyyən edilmiş tələb və şərtlər pozulmamışsa, xarici mallar məhv edilmişsə və ya qəza və ya qarşısı alınmaz qüvvələr tərəfindən və ya təbii aşınma nəticəsində yararsız hala düşdüyü hallarda.

### 2. GÖMRÜK ÖDƏNİŞLƏRİNİN ÖDƏNİLMƏ QAYDALARI

Gömrük ödənişlərinin ödəyiciləri dedikdə gömrük qanunvericiliyinə uyğun, onlar üçün müəyyən edilmiş müddətdə (o cümlədən, XİF subyektləri) vacib olan gömrük rüsum və vergilərini ödəməyi yerinə yetirmək üçün cavabdeh olan şəxslər başa düşülür.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinə uyğun olaraq bütün gömrük ödəyicilərini bir neçə müstəqil qrupa bölmək olar:

1. Gömrük ödəmələrinin mütləq ödəyiciləri.

Gömrük ödəmələrinin mütləq ödəyiciləri gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssis və gömrük brokeridir (təmsilçisidir). Bu şəxslərə gömrük ödənişlərinin mütləq ödəyiciləri kimi ona görə baxırlar ki, bunlar gömrük əməliyyatlarına və prosedurlarına (malların gömrük rəsmiləşdirilməsində) iştirak edir və tələbatla onların gömrük ödənclərinin ödəmələri nəzərdə tutulur (Azərbaycan Respublikası Gömrük Məcəlləsi 253 maddə).

2. Gömrük ödəmələrinin mümkün ödəyiciləri.

Mövcud kateqoriyalı ödəyidlərə müəyyən vəziyytlərin meydana çıxdığı zaman (malların gömrük sərhəddindən qanuni keçirilməsi faktından fərqləndikdə) Azərbaycan Respublikası Gömrük Məcəlləsi gömrük ödəmələrinin meydana gəlməsi ilə əlaqələndirir.

Belə mümkün gömrük ödəyiciləri sırasına aid edilir:

- Azərbaycan Respublikası gömrük ərazisinə mallar gəldikdən sonra yük əməliyyatlarını yerinə yetirən şəxs, o halda ki, mallann itirilməsi və ya malların gəldiyi yerdə dəniz və çay limanlarında yükləmə, boşaltma zamanı malların gömrük orqanlannm icazəsi olmadan üçüncü şəxsə verildikdə;

- malları daşıyan daxili gömrük tranziti proseduru üzrə (gömrük daşıyıcısı, beynəlxalq daşıyıcı və ya daxili gömrük tranzitinə icazə almış digər şəxs) və yaxud xarici malların təyinat gömrük orqanına çatmadıqda ekspeditor;
- saxlanılan malların itdiyi halda və ya onların gömrük orqanınn icazəsi olmadan buraxılması zaman müvəqqəti saxlanc anbarlarının sahibi, həmçinin xarici malların saxlanılmasını həyata keçirən digər şəxs;
- saxlanılan mallar itirdiyi və ya onlann gömrük orqanının icazəsi olmadan verildiyi, halda gömrük anbarlarıınnı sahibi;
- gömrük ərazisində malların emalı üçün icazə almış və ya emal üçün icazənin ötürüldüyü şəxs;
- daxili istehlak üçün malların emalına icazə almış şəxs;
- müvəqqəti idxal üçün icazə almış və ya müvəqqəti gətirilmiş malların verildiyi şəxs;
- malların müvəqqəti idxal proseduru altında yerləşdirilən şəxs;
- rüsumsuz ticarət mağazasmın sahibi;
- mallann və nəqliyyat vasitələrinin gömrük sərhəddindən qanunsuz keçirən şəxs;
- mallann və nəqliyyat vasitələrinin gömrük sərhəddindən qanunsuz keçirilməsini bilirdilər və ya bilməli olan şəxs;
- qeyri-qanuni gətirilən mal və nəqliyyat vasitələrini öz mülkiyyətinə götürmüş və ya qanunsuz gətirilən mallara sahiblik edən şəxslər, əgər onlar bilirdilər və bilməli idilər ki, malların belə gətirilməsi qanunsuzdur, yaxud malları səhlonkarcasına mənimsəmişdirsə;
- beynəlxalq poçt göndərmələrini itirmiş və yaxud gömrük orqanının icazəsi olmadan verilmiş poçt rabitə orqanı

**Gömrük ödənişlərinin hesablanması**

Gömrük rüsumları, vergilər ödəyicilər tərəfindən hesablanır. Mövcud qaydalardan aşağıdakı hallar müstəsnalıq təşkil edir:
- gömrük orqanlarına gömrük ödəncinin ödənilməsini nümayiş (göstərmək) etdirmək;
- gömrük orqanları tərəfindən malların beynəlxalq poçt göndər

mələri vasitəsilə keçirilməsinin hesablanması;

- bəyanedici tərəfindən göstərilən məlumatların gömrük orqanlan tərəfindən yoxlanılması nəticəsində gömrük ödənclərinin təkrar hesablanması.

**Əlavə hesablama aşağıdakı hallarda mümkündür:**

- malların mənşə ölkəsi haqqında müəyyən edilmiş məlumatlar düzgün olmadıqda;
- Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasına uyğun olaraq malların təsnifləşdirilməsində qayda pozğunluğu müəyyən edildikdə;
- malların gömrük dəyərinin gömrük orqanlan tərəfindən sərbəst müəyyən edildikdə;
- malların miqdannm gömrük orqanlan tərəfindən müstəqil təyin edilməsində.

Yuxarıda qeyd edildiyi kimi gömrük rüsum vergiləri ödəməyə məruz məbləğinin ödənilməsi Azərbaycan Respublikası valyutası ilə həyata keçirilir. Bununla yanaşı gömrük rüsum vergilərinin ödəyicisinin seçimi ilə rüsum vergiləri Azərbaycan Respublikası valyutası, həmçinin Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi kursla xarici valyutada ödənilə bilər.

Azərbaycan Respublikası valyutası ilə hesablanmış gömrük, rüsum, vergilərin gömrük orqanlaranının, gömrük bəyannaməsinin qəbul edildiyi mövcud tarix üçün mövcud olan faktiki valyuta məzənnə hesablanmaqla ödənilir.

Bir qayda olaraq gömrük rüsum vergiləri hesablanması üçün gömrük orqanlanmın gömrük bəyannaməsi qəbul etdikləri üçün fəaliyyətdə olan məzənnə ilə (stavka) hesablanılır. Göstərilən qaydalarda müstəsnalıq halları:

- gömrük bəyannaməsinin təqdim edilməsinə qədər malların buraxılışı;
- boru-kəmər nəqliyyatı ilə keçirilən mallara gömrük rüsumlannın ödənilməsi;
- Azərbaycan Respublikası gömrük sərhəddindən qanunsuz keçirilmiş mallara görə gömrük rüsumlarının ödənilməsi va yaxud

Azərbaycan Respublikası gömrük ərzaisindən daxili gömrük tranziti və ya müvəqqəti saxlanc prosedurlannın tələblərinin pozulması ilə istifadə edildikdə.

## Gömrük ödənişlərinin ödənilmə müddəti

Gömrük ödəmələrinin ödənilmə müddəti Azərbaycan Respublikası Gömrük Məcəlləsinə görə ödəniləcək məbləğin ödənilmə müddətindən və gömrük ödəmələrinin ödənilmə vacibliyindən gedir (Azərbaycan Respublikası Gömrük Məcəlləsi 265-ci maddə).

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 268-ci maddəsinə əsasən gömrük ödəmələri üçün aşağıdakı növ ödəmə müddətləri mövcuddur:

1. Mallan gömrük ərazisinə gətirilməsi zamanı malların gömrük orqanına təqdim edildiyi 15 gün ərzində və daxili gömrük tranzitinin yekunlaşmasından 15 gün sonra;
2. Mallann apaniması zamanı gömrük orqanları tərəfindən gömrük ödəmələri üçün ödəyicilərə ödəmə vaxtı verilmir, çünki bu vaxt gömrük ödəmələrinin ödənilməsi haqqında öhdəliyə görə gömrük ödənişləri gömrük bəyannaməsinin təqdim etdiyi vaxt ödənilməlidir;
3. Gömrük prosedurunun dəyişdirilməsi zamanı gömrük ödənişlərinin ödənilməsi dəyişdirilmiş gömrük prosedurunun yekunlaşdı- rılmasmdan gec olmamalıdır (məsələn, malların gömrük anbarı prose- durunda saxlanılma müddəti qurtardıqda);
4. Şərti buraxılmış malların məqsədə uyğun olaraq istifadə edildiyi gömrük ödənişlərinin ödənilmə müddəti şəxs tərəfindən malların istifadəsi və onlann üzərində sərəncam haqqında məhdudiyyətin pozulduğu gün hesab olunur (məsələn, xaricdə investisiya qoymaq üçün gətirilmiş malın satılması və yaxud humanitar yardım üçün gətirilmiş malın satışı) həmin günü müəyyən etmək mümkün deyilsə gömrük ödənişinin tarixi gömrük orqanı tərəfindən gömrük bəyannaməsinin qəbul edildiyi gün hesab edilir;
5. Gömrük prosedurunun tələblərinin və şərtlərinin pozulması

şıyan, belə ödənişlərin ödənilmə vaxtı mövcud pozuntunun həyata keçirildiyi gün hesab edilir (məsələn, daxili tranzit gömrük proseduru ilə gətirilən və müvəqqəti anbarda saxlanılan və ya gömrük anban prosedurunda yerləşdirilən rüsumsuz ticarət mağazası prosedurunda yerləşdirilən malların gömrük orqanının icazəsi olmadan malın buraxılışı və itirilməsi).

6. Xüsusi gömrük prosedurlarının tətbiq olunması zamanı gömrük ödənişləriniin ödənilmə müddəti hər bir belə prosedur üçün ayrılıqda müəyyənləşdirilir: məsələn, fiziki şəxslər tərəfindən gömrük sərhəddindən keçirilən əl yükü və müşayət olunan yükə gömrük ödəmələri bir başa Azərbaycan Respublikası sərhəddindən keçirildiyi vaxt ödənilir;

7. Ayn-ayn hallar üçün müəyyən edilmiş gömrük ödəmələrinin və maraqlı şəxslər tərəfindən müəyyən edilmiş ödənc müddətləri gömrük orqanları ilə razılaşdırılır. Məsələn, müvəqqəti gətirilən mallara qarşı gömrük ödənclərinin ödənilmə müddəti (gömrük rüsum vergilərinin dövrü ödənilməsi zamanı) gömrük ödəmələri üçün möhlət verilməsi, onun hissə-hissə ödənilməsinə müddət verilməsi;

8. Qeyri-qanuni gətirilmiş mallara qarşı gömrük ödənişlərinin ödənilməsi müddəti Azərbaycan Respublikası ərazisindəki əldə edilən tərəfindən (gətirilmiş malların topdan satış və pərakəndə satışını həyata keçirən təşkilat tərəfindən hiss edildikdə) müəyyən edildikdə Azərbaycan Respublikası Gömrük Məcəlləsinə əsasən bu mallara sərbəst dövriyyə üçün buraxılan mallar kimi baxılır. Əgər mallann qanunsuzluğu müəyyən edildiyi vaxtdan beş gündən gec olmayaraq gömrük ödəmələrini ödəyərsə.

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin gömrük rüsum vergilərinin ödənilməsinin möhlətvermə və ya hissə-hissə ödəməklə şərti formasında verilməsi nəzərdə tutulur (Azərbaycan Respublikası Gömrük Məcəlləsi 268-ci maddə).

Möhlət veraıə və ya hissə-hissə gömrük rüsum vergilərinin verilməsi bir və ya bir neçə növə aid edilə bilər. Möhlət və ya hissə-hissə verilmə müddəti aşağıdakı əsaslardan biri mövcud olduqda

bir aydan altı aya kimi ola bi lor:

- ödəyiciyo təbii fəlakət, texnoloji böhran və ya qarşısı alınmaz qüvvə tərəfindən ziyan dəydikdə;
- ödəyicinin respublika büdcəsindən maliyyələşdirilməsinin yubadılması və yaxud ödəyici tərəfindən həyata keçirilən dövlət sifarişinin ödənilməsi;
- ödəyicinin gömrük sərhəddindən keçirdiyi mallann tez xarab olan mallar olduqda;
- ödəyici tərəfindən dövlətlorarası müqavilə əsasında göndərilmələrin həyata keçirilməsi.

Ödəyiciyə qarşı gömrük cinayətkarlığı və ya müflisləşdirmə əlamətlərinə görə cinayət işi qaldırıldıqda gömrük orqanı gömrük ödəmələri ödənilmə müddəti verilməsindən və ya əvvəlki qərarlardan imtina edir.

Gömrük rüsumlarınn ödənilmə müddətinin dəyişdirilməsini aşağıdakılar müəyyən edir:

- Azərbaycan Respublikası Mərkəzi Bankının müddət dövrü ərzində fəaliyyətdə olan kursunda (hesablanmış ödəncə görə) asılı olaraq faiz tutulur;
- gömrük ödənclərinin ödənilməsinin təmin olunması;
- gömrük ödənişlərinin ödənilməsi üzrə vəzifələrin yerinə yetirilməsi-köçürülmüş məbləğə qarşı ödəmənin ödənilməsi üzrə fəaliyyətin ödəyici tərəfindən yekunlaşdırılması və onun vəzifəsinin yerinə yetirilməsi.

Gömrük əməliyyatları və proscdurlarınn gözlənildiyi zaman gömrük ödəmələrinin ödənilməsi tarixi müəyyən edilmiş müddəti ötməməlidir. Əks təqdirdə belə tarixlərin ötməsi anlaşılmamazlıq əmələ gətirir və sonradan gömrük ödənişinin gecikdirildiyinə görə müəyyən miqdar faiz, əlavə pul alınmalı olur.

Peniya (cərimə) hər gecikdirilən təqvim günü üçün gömrük rüsumlarının ödənilməsinə, vergilərin isə gömrük rüsumlarınn ödənilməsi öhdəliyinin qurtardığı gündən hesablanır.

**Aşağıdakı hallar müstəsnalıq təşkil edir:**

- gömrük rüsum vergilərinin ödənilməsi haqqında tələbi öh-

dəçiyə və zəmanətçinin nəzərinə çatdırdıqda (öhdəliyin yerinə yetirilmə vaxtından üç ayın tamamının növbəti günündən hesablanır, öhdəliyin yerinə yetirilməsi və ya bankın zəmanəti ilə);

- gömrük rüsumlarının vergilərin müəyyən edilmiş müddətdə ödənilməsi haqqında gömrük orqanının tələbinin vaxtında yerinə yetirildikdə (yeni əlavə pul ödəmələri tələbi irəli sürülənə qədər vergi qalığı əmələ gələn anda ödənilir, əks halda yeni gömrük rüsumları zamanı öhdəliyin yerinə yetirilməsi günündən vergilər də daxil olaqla gömrük vergi rüsumlarının ödənilməsi üçün möhlət verilməsi haqqında qərar verilən gündən hesablanılır);

- malların müvəqqəti saxlanc anbarında olduğu vaxtı gömrük bəyannaməsinin verilmə vaxtının pozulması zamanı (müvəqqəti saxlanc müddətində penya hesablanmır və ödənilmir).

## Gömrük ödəmələrinin ödənilmə forması və valyutası

Gömrük ödəmələrini gömrük orqanının kassasına və ya onun hesabına mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilərkən və həmçinin beynəlxalq poçt göndərmələrinin keçirilməsi zamanı bu məqsədlərə açılmış gömrük orqanının kassasına və ya onun hesabına keçirilir.

Gömrük ödəmələri hər cür formada ödənilə bilər. Gömrük ödəmələri formalarına aid edilir:

- nağdsız hesablaşma (ödəmə öhdəliyi, gömrük kartları, avans hesabına məbləğ, pul girovu, artıq ödənilmiş ödonclor);

- nağd hesablaşma ilə (gömrük mədaxil orderinin tətbiq edilməsi, Azərbaycan Respublikası Gömrük Məcəlləsi 267.1 maddə).

Deyildiyi kimi gömrük ödəmələri ödəyicinin seçimi əsasında ödənilir, ödəmə Azərbaycan Respublikası valyutası və həmçinin Azərbaycan Respublikası Mərkəzi Bankının, Azərbaycan Respublikası valyuta tənzimlənməsi və valyuta nəzarəti qanunvericiliyinə uyğun müəyyən etdiyi kursla xarici vaİ3mta ilə

## Gömrük ödəmələrinin ödənilməsinin təmin edilməsi qaydaları

Gömrük ödəmələrinin ödənilməsinin təmin edilməsinə gömrük

xidməti qarşısında öz fəaliyyətini həyala keçirən XİF iştirakçılarının, həmçinin huquqi şəxslər tərəfindən dövlət qarşısında öz öhdəliklərinin yerinə yetirilməsi mexanizminə qarantı kimi baxmaq lazımdır. Müvəqqəti saxlanc anbarı, gömrük anbarları, gömrük daşıyıcı, gömrük brokerlərinin və s. Bu mexanizmin məzmunu ondan ibarətdir ki, XİF iştirakçısı bu təminatlardan bir növünü yerinə yetirməyə, lakin gömrük isə gömrük rəsmiləşdirilməsi vaxtının azaldılması və mal dövriyyəsi surətini artırmaq üçün vacib olan malın buraxılmasından ibarətdir.

Gömrük ödənişlərinin tətbiqinin təmin edilməsi aşağıdakı hallarda əhəmiyyətlidir:

- gömrük ödəmələrinin ödənilmə vaxtının dəyişdirilməsində (möhlət və müddət verilməsinə);
- malların şərti buraxılışında;
- xarici mallam daşınması və saxlanılmasında (daxili gömrük tranziti, alıcının anbarında malların müvəqqəti saxlanılmasında);
- gömrük işi sahəsində, fəaliyyətin həyata keçirilməsində;
- gömrük orqanları tərəfindən malların gömrük ödəmələrinin ödənilmədiyi və ya Azərbayean Respublikası GM-nin digər tələblərinin yerinə yetirilmədiyi aşkar edildikdə, gömrük ödəmələrinin ödənilməsinin təmin olunması təqdim olunmur, o halda ki, gömrük orqanı tam şəkildə əmindir ki, onun qarşısında götürülmüş öhdəlik hökmən yerinə yetiriləcəkdir.

Azərbaycan Respublikası GM xüsusi maddələrində gömrük ödəmələrinin ödənilməsinin təmin edicisi kimi uyğun gömrük prosedurunun tətbiq edilməsi çıxış etdiyi hal müstəsnalıq təşkil edir. Məsələn, malların rüsumsuz ticarət proseduru altında yerləşdiyi zaman.

Azərbaycan Respublikası GM gömrük rüsum, vergilərinin ödənilməsinin aşağıdakı qaydalarını nəzərdə tutur.

1. Malların və digər predmetlərin girovu.

Mallar Azərbaycan Respublikasının Mülkü Məcəlləsinə uyğun olaraq gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsi üçün girov qismində qəbul edilə bilər (GM 255 maddə).

Girov predmeti Azərbaycan Respublikası gömrük ərazisinə gətirilmiş, həmçinin Azərbaycan Respublikası Mülkü Məcəlləsinə uyğun olaraq digər predmetlər də ola bilər. Girov qoyanla, girov saxlayan (gömrük orqanı) arasında müqavilə bağlanır, girov girov qoyan şəxsdə qala bilər, ancaq girov qoyan şəxs gömrük orqanının razılığı olmadan girov qoyduğu mal barədə sərəncam vernıək hüququna malik deyildir.

2. Bank zəmanəti.

Gömrük ödənişləri bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya malik olan və ya müvafiq gömrük reyesterinə salınmış banklar və bank olamayan kredit təşkilatlarının zəmanəti ilə təmin oluna bilər. Gömrük reyesterinə daxil olmaq istəyən banklar və bank olmayan kredit təşkilatları müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidirlər (GM 257 maddə).

Bank və bank olmayan kredit təşkilatlarının reyesterə salınması qaydaları GM-də öz əksini tapmışdır.

3. Pul vəsaitlərinin xəzinəyə (kassaya) və yaxud gömrük orqanının hesabına respublika büdcəsinə keçirilməsi (pul girovu).

Pul girovunun keçirildiyini təsdiq etmək üçün pul vəsaitini kassaya və ya gömrük orqanının hesabına keçirən şəxsə gömrük köçürülmə kağızı təsdiq edilmiş formada olur. Pul girov dəyərindən faiz hesablanmır.

Öhdəliyin pul girovu ilə həyata keçirilməsi zamanı, ödənilmiş pul vəsaiti qaytarılmaya hesablanır və yaxud ödəyicinin arzusu ilə gələcək gömrük ödəmələri hesabına və ya gömrük orqanı qarşısında digər gömrük ödəmələrinin həyata keçirilməsi üçün istifadə edilə bilər. Gömrük orqanlan tərəfindən pul girovu, pul girovunu ödəyənin hesabına və yaxud kassaya keçirilməklə qaytarılır və ya gömrük prosedurunu yekunlaşdıran, pul girovu vasitəsi ilə öhdəliyin yerinə yetirdiyi gömrük orqanına qaytarılır (GM 255 maddə).

4. Zaminlik.

Azərbaycan Respublikası GM-nə uyğun olaraq zəmanətçi qismində gömrük brokerləri, müvəqqəti saxlanc anbannm sahibləri, gömrük anbarlannın sahibləri, rüsumsuz ticarət mağazaları və digər

şəxslor çıxış edə bilər (GM 253-cü maddə).

Gömrük ödənişlərinin ödənilməsini ödoyicinin seçimi əsasında hər hansı formada həyata keçirə bilər. Bununla yanaşı bir öhdəlik bir neçə formada təmin edilə bilər, eyni zamanda bir neçə öhədlik bir fonnada yerinə yetirilə bilər (GM 254-cü maddə).

Azərbaycan Respublikası Gömrük Məcəlləsinin LIV fəsil 239.1 maddəsilə möhkəmləndirilmiş ümumi qaydalara görə gömrük ödəmələrinin təmin olunma miqdarı gömrük orqanları tərəfindən müəyyənləşdirilir, sərbəst dövriyyəyə buraxılış və ya onların gömrük rejiminə uyğun ixracının gömrük ödəmələrinin miqdarı göstərilən məbləği ötməməlidir.

### 3. MÖVSÜMÜ və xüsusi Növ RÜSUMLARIN TƏTBİQİ

Malların idxal və ixracının operativ tənzimlənməsi məqsədi ilə Azərbaycan Respublikası Hökuməti tərəfindən bəzi mallara mövsümü rüsumlar müəyyənləşdirə bilər. Bununla yanaşı gömrük tarifində nəzərdə tutulmuş gömrük rüsumlarının stavkaları tətbiq edilmir. Mövüsümü rüsumların fəaliyyət müddəti ildə altı aydan çox ola bilməz.

Azərbaycan Respublikasının iqtisadi mənafeyinin qorunması məqsədilə Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq xüsusi müdafiə rüsumları tətbiq edilə bilər.

1) Xüsusi rüsumlar;
2) Antidempinq rüsumları;
3) Kompensasiya rüsumları.

Xüsusi rüsumlar-gömrük orqanları tərəfindən idxal gömrük rüsumlarının alınmasından asılı olmayaraq, müdafiə tədbirləri kimi xüsusi rüsumlar tətbiq edilir. Xüsusi müdafiə tədbirləri-Azərbaycan Respublikası ərazisində idxal mallannın artıqlıq təşkil etdiyi zaman, Azərbaycan Respublikası Hökümətinin qəran ilə idxal kvotası və ya xüsusi rüsumlar, o cümlədən, ilkin xüsusi rüsumlar həyata keçirilir. Xüsusi müdafiə tədbirlərinin yumuşaldılması Azərbaycan Res

publikası Hökümətinin qərarı ilə hayata keçirilən idxal mallarına olan kvotanın artırılması və yaxud xüsusi rüsumların stavkasmın (miqdarının) aşağı salınmasıdır. Azərbaycan Respublikasının iqtisadiyatı sahələrində böhranlı vəziyyət xüsusi müdafiə tədbirlərinin gecikməsi nəticəsində baş veribsə və Azərbaycan iqtisadiyatı sahələrinə ciddi ziyan veribsə və onun aradan qaldırılması çətin olaçağı halda Azərbaycan Hököməti Azərbaycan Respublikası gömrük ərazisində idxalın artıqlığını öyrənən komissiyanın ilkin verdiyi məruzəyə əsasən, respublika iqtisadiyyatına verdiyi ziyan və yaxud verə biləcəyi təhlükəni nəzərə alaraq xüsusi müdafiə tədbirlərinin götülməsi haqqında qərar qəbul edir və onun əsasında da qabaqlayıcı ilkin xüsusi rüsumların tətbiqi haqqında qərar verir. Bununla yanaşı son nəticənin əldə edilməsi üçün tədqiqat işinin aparılmasının davam etdirilməsi məsləhət görülür. Tədqiqat işini aparan orqan Azərbaycan Respublikası Hökümətinə məruzəni təqdim etməklə yanaşı həmin göstərilən məruzə ilə əlaqədar yazılı şəkildə xarici ölkənin aidiyyatı orqanını (xarici ölkələrin ittifaqına) ixarc olunan malların tədqiqat obyekti olması haqqında məlumatlandırır və ilkin xüsusi rüsumların alınması mümkünlüyünü bildirir. Xarici ölkənin aidiyyatı məhsul orqanının ilkin xüsusi rüsumların tətbiqi ilə əlaqədar məsləhətləşmələr başlanıla bilər. Məsləhətləşmələr Azərbaycan Respublikası Hökümətinin ilkin xüsusi rüsumların tətbiqi ilə əlaqədar qərarından sonra aparıla bilər. İlkin xüsusi rüsumların fəaliyyət müddəti iki yüz (200) gündən artıq olmamalıdır. İlkin xüsusi rüsumlar gömrük orqanları tərəfindən Azərbaycan Respublikası gömrük qanunvericiliyinin müəyyən etdiyi qaydada, idxal gömrük rüsumları nisbətində alınır. İlkin xüsusi rüsumlardan yığılan məbləğ respublika büdcəsinə respublika hökümətinin yekun qərarından sonra köçürülməlidir.

Antidempinq rüsumları-antidempinq tədbirlərinin həyata keçirilməsi zamanı tətbiq olunur və gömrük orqanları tərəfindən idxal gmrük rüsumlarının alınmasından asılı olmayaraq alınır. Antidempinq tədbirləri-idxal mallarına qarşı, Azərbaycan Respublikası Hökümətinin qərarı ilə antidempinq tədbirləri həyata

antidempinq rüsumları tətbiq edilir, o cümlədən, ekspertlər tərəfindən qiymət öhdəliyi bəyənildikdən sonra ilkin antidempinq rüsumları həyata keçirilir. İlkin antidempinq rüsumları gömrük orqanları tərəfindən Azərbaycan Respublikası Gömrük qanunvericiliyinin idxal mallarına qarşı müəyyən etdiyi qaydada alınır. Antidempinq rüsumları bütün ixracatçılar tərəfindən gətirilən mallara tətbiq olunur, hansı ki, Azərbaycan iqtisadiyyatının sahələrinə ziyan gətirir və antidempinq predmetidir.

Dempinq idxalının artıqlığı haqqında təhqiqatların yekunlaşmasına qədər alınmış informasiyalar və bununla əlaqədar Azərbaycanın iqtisadi sahələrinə ziyan vurması haqqında məlumatlar, təhqiqat aparan orqanın ilkin məlumatlarına əsasən Azərbaycan Respublikası Hökuməti ilkin antidempinq tədbirləri tətbiq edilməsi haqqında qərar qəbul edir ki, bunun da məqsədi Azərbaycan iqtisadiyyatına dempinq idxalı ilə dəyən ziyanın zərorsizləşdirilməsidir. İlkin antidempinq rüsumlarının tətbiqi haqqında qərar təhqiqat işinin aparılmasından 60 gündən tez verilə bilməz.

İlkin antidempinq rüsumlarının miqdarı ilkin dempinq üçün hesablanan miqdan aşmamalıdır. İlkin antidempinq rüsumlarının fəaliyyət müddəti dörd ayı ölməməlidir. Ancaq ekspertlərin xahişi ilə iki ay da uzadıla bilər.

Kompensasion rüsumlar-bu rüsumlar kompensasion tədbirlər həyata keçirilərkən tətbiq olunur və idxal gömrük rüsumlarının alınmasından asılı olmayaraq gömrük orqanları tərəfindən alınır.

Kompensasion tədbirlər-xarici ölkələrin spesifik subsidiyalannın təsirinin neytrallaşdırılmasına yönəldilmiş tədbirlərdir. Bu tədbirlər Azərbaycan Respublikasının iqtisadiyyat sahələrinə təsirini aradan qaldınnaq üçün Azərbaycan Respublikası Hökuməti tərəfindən kompensasiya rüsumları, o cümlodon, ilkin kompensasiya rüsumlan haqqında qərar qəbul edir.

Kompensasiya rüsumları spesifik subsidiyaları verən xarici dövlətə məsləhətləşmələr haqqında təkliflər verildikdən sonra tətbiq edilə bilər. Kompensasion rüsumlar o halda tətbiq oluna bilər ki,

etsin vo yaxud bu məslobətloşmələr noticosindo qarşılıqlı anlaşılan qorar qobul edilo bilmomiş olsun. Kompensasiya rüsumlarının həyata keçirilməsi haqqında qorar xarici dövlolin (xarici dövlətlər ittifaqının) spesifik subsidiyanın fəaliyyot müddətinin qurtarmasına qədər davam edilə bilər.

Kompensasion rüsumlar bütün ixracatçılar tərəfindən gətirilən və subsidiyalaşdırılmış idxal predmeti olan, Azərbaycan iqtisadiyyatına ziyan vura bilən mallara qarşı tətbiq edilir.

Kompensasion rüsumların miqdarı xarici dövlətin subsidiyalarının həcmindən artıq olmamalıdır.

## Yoxlama sualları

1. Hansı ödənişləri gömrük ödənişi kimi nəzərdə tutmaq olar?
2. Gömrük ödənişlərinin növlərini sayın?
3. Gömrük vergi rüsumlarının ödənilməsi üçün məsul şəxsləri göstərin?
4. Hansı hallarda gömrük rüsum, vergiləri ödənilmir?
5. Gömrük rüsum, vergiləri kim tərəfindən hesablanır?
6. Gömrük rüsum, vergilərin hesablanması üçün hansı dərəcələr tətbiq olunur?
7. Gömrük ödənişlərinin ödəyiciləri kimlərdir?
8. Gömrük ödənişlərinin ödənilmə müddəti dedikdə nə başa düşülür?
9. Avans ödənişlər nə deməkdir?
10. Gömrük ödənişlərinin ödənilmə qaydası?
11. Gömrük rüsum, vergilərinin ödənilmə vaxtının dəyişdirilməsi hansı formada həyata keçirilir?
12. Gömrük rüsum, vergilərinin ödənilməsinə hansı şəraitdə möhlət və hissə - hissə ödənilməsinə icazə verilir?
13. Gömrük rüsum vergilərinin ödənilməsinə hansı möhlət müddəti verilir?
14. Ödəyiciyə nə vaxt rüsum, vergiləri ödənilməsi üçün möhlət verilir?
15. Hansı hallarda gömrük rüsum, vegilərin ödənilməsi öhdəliyinin

tomin olunduğu hesab olunur?

16. Gömrük işi sahosindo hansı fəaliyyət növünün həyala keçirilməsi gömrük ödənişlərinin təmin olunması ilə şərtləndirilir?
17. Gömrük ödənişlərinin ödənilməsinin hansı fonnaları mövcuddur?
18. Gömrük ödənişlərinin möhlətlə vo ya hissə - hissə ödənilməsi eyni şeydirmi? Əgər deyilsə fərq nədən ibarətdir?
19. Malların idxal zamanı hansı ƏDV (stalkası) dərəcəsi tətbiq edilir?
20. Göstərilən mallara görə ƏDV hesablayarkən hansı vergi bazası müəyyənləşdirilir?
21. Malların gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımlarının miqdarı necə hesablanır?
22. Aksizli mallara görə vergi bazasının müəyyənləşdirilmə qaydası?
23. Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən hansı mallar ƏDV azad edilir?
24. Gömrük rüsum vergilərinin hansı ümumi məcburi alınmaq qaydası vardır?
25. Hansı qaydada artıq verilmiş gömrük ödənişlərinin məbləğinin qaytarılması həyata keçirilir?

## Mövzu 11. Test tapşırıqları

**1. Gömrük rüsum və vergilərinin hesablamaq üçün xarici valyutanı Azərbaycan Respublikası valyutasına hesablanması necə aparılır?**

a) gömrük orqanının gömrük bəyannaməsini qəbul etdiyi gün üçün Azərbaycan Respublikasının Mərkəzi Bankının fəaliyyətdə olan kursu üzrə;

b) gömrük ödənişinin faktiki ödənildiyi gün üçün Azərbaycan Respublikası Mərkəzi Bankının fəaliyyətdə olan kursu üzrə;

v) ümumiyyətlə, hesablanma aparılmır və bütün hesablar xarici valyuta ilə aparılır;

2. **Malların gətirilməsi zamanı ödəniləsi rüsum və vergilər nə vaxt və necə ödənilməlidir?**

a) malların gömrük orqanına faktiki təqdim edildiyi andan üç bank günü ərzində;

b) malların gömrük orqanına təqdim edildiyindən 15 gündən gec olmayaraq;

v) gömrük orqanı tərəfindən gömrük bəyannaməsinin qəbul edildiyi tarixdən üç bank günündən gec olmayaraq;

q) malların gömrük orqanına təqdim edildiyi gün ərzində.

3. **Gətirilən mallar üçün ƏDV-nın hesablayarkən vergi bazasına nələr daxil edilir?**

a) gömrük rəsmiləşdirilməsinə görə yığımlar;
b) malın gömrük dəyəri;
v) aksizli mallar üçün aksizlər;
q) gömrük rüsumları; d) bütün yuxarıda göstərilənlər.

4. **Gömrük rüsumu, vergiləri ödənilə bilər:**

a) Azərbaycan Respublikası valyutası ilə;
b) xarici valyuta ilə;

v) gömrük orqanının icazəsi ilə bir hissəsi Azərbaycan Respublikası valyutası, digər hissəsi xarici valyuta ilə; q) gömrük orqanında bu məqsədlə açılmış hesaba;

d) Azərbaycan Respublikası qanunvericiliyinə uyğun gömrük orqanlarının kassasına nağd pulla;

e) ancaq Azərbaycan Respublikası valyutası ilə; j) ancaq xarici valyuta ilə.

5. **Gömrük rüsum, vergilərinin ödənilməsi üçün cavabdeh şəxs kimdir?**

a) gömrük daşıyıcısı və ya hər hansı maraqlı şəxs;
b) malları keçirən şəxs və ya gömrük brokeri;
v) gömrük daşıyıcısı və ya gömrük brokeri, bəzi hallarda müvəq-

qəti saxlanc anbarının sahibi gömrük anbarının sahibi, gömrük prosedurunun gözlənilməsi həvalə edilmiş şəxs; q) gömrük daşıyıcısı, səlahiyyətli iqtiadi operatorlar.

**6. Əgər aksizli mallara qarşı advolor (faizlə) aksiz stavkaları müəyyən edilirsə onda vergi bazası necə müəyyənləşdirilir?**

a) malların gömrük dəyəri;

b) malların gömrük dəyərinin cəmi və ƏDV;

v) mallann gömrük dəyərinin cəmi və gömrük rəsmiləşdirilmosinə görə gömrük yığımları;

q) malların gömrük dəyərinin cəmi və gömrük rüsumları.

**7. Malların gömrük resmiləşdirilməsinə görə yığımlardan azad olunması mövcuddurmu?**

a) xeyir, ona görə ki, mövcud ödəmə malların gömrük sərhəddindən keçirilməsinə görə alınmır, gömrük orqanlarının malları və sənədlərin yoxlanılması fəaliyyəti üçün alınır;

b) mövcuddur, ancaq o halda ki, mallardan dövlət xeyrinə imtina gömrük proseduru seçilərsə;

v) mövcuddur, (o asılıdır seçilmiş gömrük proeduru malın dəyəri və ya onun gətirilmə məqsədi, həmçinin malı keçirən şəxsdən).

**8. Aksiz markaları ilə markalanmaya məruz qalan mallara qarşı gömrük ödəmələrinin hesablanması zamanı markaların dəyəri qiymətləri nəzərə alınırmı?**

a) alınır;

b) alınmır;

v) aksiz mallarının hansı ölkədən gətirilməindən asılıdır.

**9. İdxal olunmuş mallardan ƏDV alınırmı?**

a) əgər mallar MDB ölkələrindən gotirilirsə alınmır;

b) əgər mal uzaq xarici ölkələrdən gətirilirsə alınmır;

v) malların mənşə ölkəsindən asılı olmayaraq alınır.

**10. Azərbaycan Respublikası gömrük ərazisinə gətirilmiş mallara qarşı ƏDV qoyulmasında hər-hansı bir güzəşt mövcuddurmu?**

a) yox, mövcud deyildir;

b) mövcuddur, ancaq bir qrup mallar üçün;

v) mövcuddur, ancaq bəzi gömrük prosedurlan; q)
tətbiq edildiyi və ya bir sıra malları gətirdikdə.

**11. Gömrük ödəmələrinin təmin edilməsi üçün hansı qaydalar nəzərdə tutulur?**

a) mal və digər əşyaların girovu, bank zəmanəti, pul vasitələrinin xəzinəyə və ya gömrük orqanının bank hesabına köçürülməsi;

b) mal və nəqliyyat vastələrinin girov qoyulması, üçüncü şəxsin zaminliyi, sığorta, gömrük orqanının depozit hesabına, gömrük orqanına keçiriləcək məbləğin köçürülməsi;

v) gömrük ödəmələri üçün nəzərdə tutulmuş məbləğin gömrük orqanının respublika bankındakı hesabına köçürmək, bank zəmanəti, mal və nəqliyyat vasitələrinin girov qoyulması.

,     --     Mövzun.

# GÖMRÜK ORQANLARININ HÜQUQ - MÜHAFİZƏ FƏALİYYƏTLƏRİ

1. Gömrük qaydalannm pozulması anlayışı.
2. Azərbaycan Respublikası Dövlət gömrük orqanlarının hüquq-mühafizəsi sahəsindəki gömrük qanunvericiliyinə uyğun funksiyaları.
3. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətlərinin formaları.
4. Gömrük orqanlarının inzibati xəta və inzibati prosessual hüquq-mühafizə fəaliyyət formaları.
5. Gömrük qaydalarının pozulmasına görə qoyulan cərimələrin növləri.
6. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin cinayət-hüquqi və cinayət-prosessual formaları. Gömrük orqanlannın səlahiyyətlərinə aid olan cinayətlər.

6.1 Qaçaqmalçılıq.

6.2 Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikası ərazisinə qaytanimaması.

6.3 Gömrük ödənişlərinin ödənilməsindən yayınma, xaricdən valyuta dəyərli şeylərin qaytarılmaması və qanunsuz valyuta əməliyyatları.

## 1. GÖMRÜK QAYDALARININ POZULMASI ANLAYIŞI

Gömrük qaydalarının pozulması anlayışının qanunvericilik müəyyənləşdirilməsi Azərbaycan Respublikası GM-də verilmişdir. Orada göstərilir:-gömrük qaydalarının pozulması şəxsin Azərbaycan Respublikasının müvafiq qanunları "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunu və gömrük işi üzrə Azərbaycan Respublikasının digər qanunvericilik aktları həmçinin Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə müəyyən edilon, Azərbaycan Respublikasının gömrük sorhoddindən keçirilən

mallann və nəqliyyat vasitələrinin keçirilməsi qaydasına (gömrük prosedurlanmn tətbiqi də daxil olmaqla) gömrük nəzarəti, gömrük işi ilə əlaqədar valyuta nəzarəti, gömrük rəsmiləşdirilməsi, eləcə də gömrük ödəmələrinin qoyulması və ödənilməsi, gömrük güzəştlərinin verilməsi və onlardan istifadə qaydalanna qəsd edən və onun törədilməsinə görə Azərbaycan Respublikasının qanunlan və GM ilə məsuliyyət nəzərdə tutulan, hüquqa zidd hərəkəti və hərəkətsizliyidir.

Bu müəyyənləşdirmə gömrük qaydalarının pozulması əlamətlərini hüquqi cəhətdən möhkəmləndirir.

1. Hər bir qayda pozğunluğunun vacib əlaməti qaydaların əksinə hərəkətdir.

Digər qayda pozuntuları kimi gömrük qaydalarının pozulması pozucunun aktiv hərəkətləri ilə təzahür edir (məsələn, Azərbaycan Respublikası gömrük ərazisinə qadağan olunmuş yollarla gətirilmiş mal və nəqliyyat vasitələrinin əldə edilməsi). Gömrük nəzarətindən yan keçməklə və yaxud yalançı sənədlərdən istifadə etməklə, identifikasiya vasitələrinin və ya bəyan edilmiş, düzgün tərtib edilməmiş sənədlərlə və ya fəaliyyətsiz-passiv davranışı ilə həmin şəxs torəfindon belə fəaliyyətin yerinə yetirilməsini lazımi qaydada etməmişdir (məsələn, Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələrinin bəyan edilməsi).

2. Hər hansı gömrük qaydalarının pozulması bu ictimai zərərli (ictimaiyət əleyhinə) hərəkət, ictimai zərərlə qanun pozuntusu, qanunla mühafizə olunan obyektə ziyan vurmaq və ya təhlükə yaratmaqla özünü təzahür etdirir.

Gömrük qaydalannm pozulmasına sosial xarakteristika verərkən, qanunverici onların hərəkətlərinin necə bir Azərbaycan Respublikası gömrük qanunvericiliyi ilə gömrük işi sahəsində müəyyən edilmiş qaydada qəsd etmə kimi müəyyənləşdirir: -keçirilmə qaydasına, gömrük nəzarətinə, Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilən mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi, gömrük ödənişlərinin qoyulması və onların ödənilməsi, gömrük güzəştlərinin verilməsi və onlardan istifadə və s.

Gömrük qaydalarının pozulması öz təbiotino vo xarakterinə görə inzibati qaydalann pozulmasının analoqudur və ona görə də qanunvericilik onların cinayət fərqini göstərməmişdir. Bununla yanaşı gömrük qaydalarının pozulması içərisində elələri var ki, gömrük işi sahəsində qayda pozuntuları ilə sərhədlənir. Gömrük qaydalarının pozulması və onlarla qanşiq cinayətlərin sərhədd əlamətləri cinayət hüququ tərəfindən müəyyənləşdirilir.

Gömrük Məcəlləsində belə bir məzmunda ifadə verilir ki, əgər bu qayda pozuntuları öz xarakterinə görə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq cinayət cavabdehliyi daşımırsa, buna görə gömrük qaydalarının pozulmasına görə cavabdehlik düşür.

3. Digər qayda pozuntulannda olduğu kimi, gömrük qaydalarının pozulmasının vacib əlaməti onun qaydalara zidd olmasıdır. Qaydalara zidd olmanın hüquqi ifadəsi ictimai ziyanlı (antisosial) qanun pozuntusu kimi təqdim olunur. İnzibati qaydalara zidd gömrük qaydalarının pozulması onların əsas mövcud əlamətlərinin GM və ya inzibati xətalar məcəlləsində öz əksini tapması ilə ifadə olunur. Bütün bu əlamətlərin məcmusu gömrük qaydalannın pozulmasının tərkibini müəyyən edir.

4. Gömrük qaydalarının pozulması hərəkətlərini göstərərkən hansı ki, onlara görə GM qanunvericiliyində cavabdehlik nəzərdə tutulur. Burada qayda pozuntulannın daha bir əsas əlamətini-cəzaya layiqliyi qeyd edilir. Cəzaya layiqlik bu qanunla qayda pozuntusuna görə müəyyən edilmiş hüquqi cavabdehlik nəzərdə tutulur. Gömrük qaydalarını pozan şəxs GM görə cavabdehlik daşıyır, onun tərəfindən tənzimlənməyən hissəsinə görə Azərbaycan Respublikası inzibati hüquq pozuntuları qanununa uyğun cavabdehlik daşıyır. Gömrük qaydasının pozuntusuna görə cəzalandırılmamağı bir qayda olaraq gömrük-hüquq normalarında, qabaqcadan nəzərdə tutulmuş sanksiyalarla cəzalandırılmamanın tətbiq olunmaması kimi başa düşmək lazımdır. Eyni zamanda GM-də müəyyən edilmiş bütün hallarda gömrük qaydasını pozana qarşı cavabdehlik tədbiri gönuək vacib deyil. Belə ki, GM gömrük qaydalannı pozana qarşı

belə pozuntuya görə ən aşağı həddə cəza vermək və ya qayda pozanın kiçik qayda pozunlulan olduğu halda cəzadan tam azad etmək imkanı verir.

5. Bundan əlavə fiziki şəxs tərəfindən gömrük pozuntusunu həyata keçirmək bu təqsirkarlıq hərəkətidir. Vəzifəli şəxs tərəfindən hüquqa zidd hərəkətlər şüurlu surətdə olduğunu anlayırsa bu inzibati hüquq pozuntuları kimi qəbul edilir. Ehtiyatsızlıq-bu təqsirin elə növüdür ki, burada gömrük orqanlannm vəzifəli şəxsləri, icrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş və gömrük işi üzrə digər qanunvericilik aktlarından irəli gələn tələbləri yerinə yetirərkən hüquqa əks fəalİ3^ət və ya şüurlu surətdə fəaliyyətsizlik göstərirlərsə, qaydaları pozurlarsa məsuliyyət daşıyırlar.

Hüquqi və fiziki şəxslər hüquqa zidd hərəkət və hərəkətsizliyi qəsdən və ya ehtiyatsızlıq üzündən edirlərsə, gömrük qaydalarının pozulmasına görə məsuliyyət daşıyırlar. Hərəkəti həyata keçirən öz hərəkətinin və ya hərəkətsizliyinin ziyanlı nəticələrinin baş verə biləcəyini əvvəlcədən görür və onlann ləğv edilməsində laqeyidlik göstərir.

Ehtiyatsızlıq təqsirkarlığın fonnası kimi, gömrük qaydalarının fiziki şəxslər tərəfindən törədilmiş əlamətidir. Fiziki və hüquqi şəxslər tərəfindən gömrük qaydasını pozan təqsirkan cavabdehliyə cəlb etmək üçün bir çox şəraitlərdən asılı olaraq baş verdiyini aydınlaşdırmaq lazımdır. Fiziki şəxsin psixoloji durumu, dəyişmə-məzliyi və s.

Əgər gömrük qaydalarını pozan fiziki şəxslər gömrük qaydalarını pozduqları anda özünü dərk etməməzlik, psixoloji dəyişiklik, anlamsız vəziyyətdə və s. olmaları anlan, məsuli)^ətdən azad edir.

### 2. AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK ORQANLARININ HÜQUQ - MÜHAFİZƏSİ SAHƏSİNDƏKİ GÖMRÜK QANUNVERİCİLİYİNƏ UYĞUN FUNKSİYALARI

Gömrük qanunvericiliyinə əsasən Dövlət gömrük orqanları aşağıdakı funksiyaları yerinə yetirirlər:

- icrasına nozarət Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə olunmuş qanunvericilik aktlarına riayət edilməsini təmin edirlər;

- respublikada gömrük işini həyata keçirən idarələri, müossələrin, təşkilatların və fiziki şəxslərin, həmçinin sahibkarların hüquq və mənafelərinin müdafiəsi üzrə tədbirlər görür;

- dövlət tərəfindən müəyyən edilmiş səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyini təmin edirlər;

- cəmiyyətin mənəviyyatını və Azərbaycan Respublikasının iqtisadi mənafeyini qoruyurlar;

- iqtisadi münasibətlərdə gömrük tənzimlənməsi vasitələrini tətbiq edirlər;

- lokal gömrük zonaları yaradırlar;

- dövlət gömrük sərhəddindən keçirilən mallar barədə iqtisadi siyasət tədbirlərinin işlənib hazırlanmasında iştirak edir və bu tədbirləri həyata keçirirlər;

- ictimai asayişin, dövlət təhlükəsizliyinin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının, heyvan və bitkilərin, ətraf mühitin qorunması, Azərbaycan istehlakçılarının mənafeyinin müdafiəsi sahəsində tədbirlər həyata keçirilməsinə kömək edirlər;

- nəqliyyat vasitələrinin və malların Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilməsi qaydalarına riayət olunmasını təmin edirlər;

- əməliyyat axtarış fəaliyyətini həyata keçirirlər;

- silahın, narkotik vasitələrin, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvətləri olan əşyaların, intelektual mülkiyyət obyektlərinin, yox olmaq təhlükəsi altında olan heyvanların və bitki növlərinin eləcə də digər malların Azərbaycan Respublikasının gömrük sərhəddindən qanunsuz keçirilməsinin qarşısmı alırlar;

- işgüzarcjaydada beynəlxalq terrorçuluqla mübarizəyə və Azərbaycan Respublikasının təyyarə limanlarında beynəlxalq mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınmasına köməklik göstərirlər;

- liberal xarici-iqtisadi siyasət sahəsində Azərbaycan Respublikasının gömrük sərhəddindən mal dövriyyəsinin sürətləndirilməsi üçün şərait yaradırlar;

- mərkəzləşdirilmiş qaydada gömrük nəzarətini və gömrük rəsmiləşdirilməsini həyata keçirir və təkmilləşdirirlər;

- ümumi səlahiyyətləri çərçivəsində gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydalarının və vergi qanunvericiliyinin pozulmasına qarşı mübarizə aparırlar;

- əhalinin və dövlətin mənafelərini müdafiə etməklə öz səlahiyyətləri daxilində valyuta nəzarətini həyata keçirirlər;

- liman və körpülərdə gömrük nəzarətini təşkil edirlər;

- liberal və konservativ iqtisadi siyasət tədbirlərinin tətbiqini müəyyən edilmiş qaydada həyata keçirirlər;

- icrasına nəzarəti Azərbaycan Respublikasının gömrük orqanlarına həvalə edilmiş gömrük işinə aid beynəlxalq öhdəliklərinin yerinə yetirilməsini təmin edirlər;

- funksiya və vəzifələri ilə bağlı olaraq Azərbaycan Respublikasının gömrük orqanları gömrük işi ilə əlaqədar beynəlxalq müqavilələrin işlənib hazırlanmasında iştirak edirlər;

- inkişaf etmiş dövlətlərin gömrük işinə aid məsələlərlə məşğul olan gömrük və başqa səlahiyyətli orqanları ilə beynəlxalq təşkilatlarla əməkdaşlıq edirlər;

- cəmiyyətdə narkomaniyanın yayılmasına qarşı hüquq - mühafizə və digər dövlət orqanları ilə birgə mübarizədə öz səlahiyyətləri çərçivəsində tədbirlər həyata keçirirlər;

- Azərbaycan Respublikası Milli Məclisinə, Azərbaycan Respublikası prezidentinə, başqa dövlət orqanlarına, idarə, müəsisə və təşkilatlara, vətəndaşlara gömrük müəsisələri üzrə müəyyən edilmiş qaydada məlumatlar verilməsini təmin edirlər.

Beləliklə gömrük orqanlarının fəaliyyəti qanunlar çərçivəsində həyata keçirilməklə dövlətin hüquqlarına, hüquq-tətbiqetmə, hüquq-icraetmə, hüquq-mühafizə aspektlərinə malikdir.

## 3. GÖMRÜK ORQANLARININ HÜQUQ - MÜHAFİZƏ FƏALİYYƏTLƏRİNİN FORMALARI

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətləri müxtəlif formalarda-inzibati-hüquqi, inzibati-prosessual, cinayət-hüquqi, cinayət-prosessual, operativ-axtarış və s. həyata keçirilir. Bunlar da öz aralarında qarşılıqlı əlaqədə olmaqla gömrük orqanları qarşısında duran məsələlərin həllində məqsədə çatmaq, məsələni həll etmək üçün bir-birlərini tamamlayırlar.

***Gömrük orqanlarının*** /iM^w^-mühafızə fəaliyyətlərinin məqsədi hüquq normalarını təmin etməklə yanaşı pozuntuların həyata keçirilməsinin Azərbaycan qanunvericiliyi və beynəlxalq müqavilələr əsasında icra etməyi aydınlaşdırırlar. Çünki Azərbaycan Ö2di də bir çox beynəlxalq təşkilatların üzvü olduğu üçün bunların baş verməməsi üçün xəbərdarlıq etməklə həmin cinayətlərin ağır nəticələrini yüngülləşdirməyə səy göstərir.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətlərinin inzibati - hüquqi forması: gömrük və valyuta nəzarətinin, malların gömrük rəsmiləşdirilməsinin, daxili təşkilatı idarəetmə fəaliyyətinin həyata keçirilməsində təzahür edir. Həmçinin digər dövlət orqanları ilə əlaqə yaradarkən inzibati pozuntuların, cinayət, gömrük, valyuta, vergi və digər növ qanunvericilik aktlarının pozulması hallan üzə çıxır.

Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətlərinin inzibati - prosessual forması, inzibati-prosessual hərəkətlərin icrası zamanı, müəyyən edilmiş inzibati-hüquqi normalann tələblərindən kənarlaşma, şəxslərin bu işlə əlaqəsi olduğu hallarda bu səhvlərə qarşı cavabdehlik tədbirləri görmək və dövlətə dəyən ziyanı aradan qal- dınuaq və ya onun zərərinin dövlətin xeyrinə minimuma endirmək hallannda özünü biruzə verir. İşlərin apaniması zamanı inzibati qay- dalann pozulması üçün protokol tərtib edilməklə onlar haqqında inzibati cəzalar həyata keçirilir.

***Gömrük orqanlarının hüquqi*** fəaliyyətlərinin cinayət-prosessual forması cinayət işi haqqında dindirmə və istintaq zamanı faktlar

və əlamətlərinə görə, cinayət məsuliyyətinə görə iş açılır. Hansı ki, o hallarla mübarizə gömrük orqanlarının səlahiyyətlərinə (qaçaqmalçılıq və s.) aid edilir. Həmçinin bu işlərin istintaqını aparmaq gömrük orqanlarına tapşınlmışdırsa.

Gömrük orqanlannm vacib hüquq mühafizə fəaliyyəti fonnası özlərinin təhlükəsizliklərinin təmin edilməsidir. Daxili inzibati-nəzarətlər, operativ-axtarış tədbirləri fiziki, hərbi, gömrük orqanlarının texniki mühafizəsi, əməkdaşların və onların ailələrinin təhlükəsizliyinin qorunmasıdır (GM 20-ci maddə).

Gömrük orqanlannm fəaliyyətinin bir forması da özündə hüquq-mühafizə elementlərini uzlaşdıran (kriminalistik) və xüsusi (kəşfiyyatçı-axtarış) fəaliyyətidir ki, bu da operativ-axtarış fəaliyyəti adlanır (OAF).

Bu formanın təyinatı ondan ibarətdir ki, gömrük nəzarətinin səmərəliliyini artırmaq gömrük qaydalannın pozulması ilə əlaqədar əlamət və faktları araşdırmağa, cinayəti həyata keçirmək hazırlığının apaniması ilə əlaqədar şəxslərin, onlann həyata keçirilməsinə

sindən ibarətdir (GM 19-cu maddə).

Göstərilənlərə uyğun olaraq gömrük orqanlanmn hüquq-mühafizə formalarının hər birinə ayrılıqda baxmaq məqsədə uyğun olardı.

#### 4. GÖMRÜK ORQANLARININ İNZİBATİ XƏTA VƏ İNZİBATİ - PROSESSUAL MÜQUQ - MÜHAFİZƏ FƏALİYYƏT FORMALARI

Gömrük qaydalannm pozulmasınm məzmunu və ümumi xarakteristikası.

Gömrük qaydalannın ipozulması anlayışı Azərbaycan Respublikası GM-də öz əksini tapmışdır. Bu aydınlaşdırmaya görə qaydalannm pozulması şəxsin müəyyən edilmiş hüquqa zidd hərəkətləri və ya şəxsin fəaliyyətsizliyi (icrası gömrük orqanlanna həvalə edilmiş Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Azərbaycan Respublikasının “Gömrük tarifi haqqında” qanunu gömrük işi sa

həsində Azərbaycan Respublikasının gömrük işinə və Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə və digər qanunvericilik aktları ilə).

1) Azərbaycan Respublikası gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin (gömrük posedurlan daxil olmaqla) keçirilməsi;

2) Onlara gömrük nəzarəti;

3) Həmin mal vo nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi;

4) Onlara gömrük ödəmələrinin qoyulması və onların ödənilməsi;

5) Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə görə cavabdehlik nəzərdə tutulan gömrük güzəştlərinin verilməsi və onlardan istifiadə.

Hər bir yuxarıda qeyd edilən müəyyən edilmiş qaydada (ayrılıqda və ya onlar bir-biri ilə birlikdə) özündə hüquq pozuntusu tərkibli əlaməti obyektiv tərəf əks etdirə bilər. Digər vacib hüquq pozuntu əlamətləri-obyektiv, subyektiv tərəflər gömrük qaydalan-nın pozulması tərkibini yaradırlar.

Gömrük qaydalarının pozulmasının obyektiv tərəfi dövlət və ya cəmiyyət üçün zərərli, qorxulu hərəkətlərlə və hərəkətsizliklə, ixtisaslı inzibati-hüquq pozuntulannı yaradırlar.

Zərərli və ya ictimai təhlükəli gömrük qaydalarının pozulması hər hansı aktiv hərəkət və ya passiv davranışla təcəssüm edir və ya bu hərəkətdən çəkinməklə, hansi ki, XİF iştirakçısı yerinə yetirməyə borcludur.

Gömrük qaydalarına hüquqa zidd pozuntulara misal olaraq aktiv hərəktlərlə gömrük orqanının vozifəli şəxsinin Azərbaycan Respublikası gömrük nəzarətinin həyata keçiriləcəyi əraziyə buraxılmasına mane olmaq;

Azərbaycan gömrük sərhəddindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi; (GM 90-cı maddə) aldatma yolu ilə sənədlərdən və ya identifikasiya vasitələrindən istifadə edərək Azərbaycan Respublikası gömrük sərhəddindən mal və nəqliyyat

məsi.

XİF iştirakçılarının gömrük qaydalarının pozulması kimi başa düşülən qanuna zidd fəaliyyətsizliklərinə misal mal və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası gömrük sərhəddindən keçirilməsi haqqında xəbərdarlıq edilməməsi (GM 131-ci maddə); Azərbaycan Respublikası gömrük ərazisindən mal və nəqliyyat vasitələrinin aparılacağı haqqında gömrük orqanlarını məlumatlandırmamaq və ya tam məlumatlandınnamaq (GM 135-ci maddə).

İnzibati-hüquq pozuntulan ilə cinayətkarlıq arasındakı fərq onların hər birinin ictimai təhlükəliliyi ilə əlaqədardır. Onu da qeyd etmək lazımdır ki, bunlar arasındakı fərq təkcə miqdar chtibarı ilə deyil, keyfiyyət ehtibarı ilə do prinsipial olaraq müxtəlif xarakterliyi ilə, yəni onların hər hansı növünün Azərbaycan qanunvericiliyinə görə cavabdehlikləri də müxtəlifdir.

Azərbaycan Respublikası GM-nin məzmununa görə gömrük qaydalarını bilavasitə pozan obyektləri: birincisi, mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilmə qaydaları (bura gömrük posedurları da daxil edilməklə); ikincisi, belə mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi və onlar üzərində gömrük nəzarətinin aparılması qaydaları; üçüncüsü, onlara gömrük ödəmələrinin qoyulması və onların ödənilməsi; dürdüncüsü, gömrük güzəştlərinin və onlardan istifadə qaydalarının pozulması.

Gömrük qaydalanmn pozulması subyektləri və pozuntulara görə cavabdeh azərbaycanlı həm də xarici vətəndaşlar ola bilər:

1) Hüquqi şəxs-gömrük əməliyyatların apanimasında bilavasitə və dolayısı ilə iştirak edən qanuna müvafiq surətdə qeydə alınmış idarə, müəssisə və təşkilatlardır. Deməli burada XİF iştirakçıları, müəssisə, idarə, təşkilatlar, finnalar və s. həmçinin hüquqi şəxs təşkil etmədən sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər nəzərdə tutulur.

2) Fiziki şəxslər: -XİF iştirakçıları;

3) Dövlət orqanlannın vəzifəli şəxsləri o cümlədən gömrük orqanları.

(gömrük qaydalarının pozulmasına göro o vaxt məsuliyyətə cəlb oluna bilərlər ki, şüurlu və ya ehtiyatsızlıq üzündən baş verən pozuntular mövcud olmuş olsun) cavabdehlik üçün obyektiv əlamətlər olduğu halda cavabdehliyə cəlb olunur.

Azərbaycan Respublikasının silahlı qüvvələrinin hərbi xidmətçiləri, sərhəd və daxili qoşunların, digər hərbi birləşmələrin hərbi xidməçiləri, Azərbaycan Respublikasının qanunvericilik aktları ilə nəzərdə tutulmuş Azərbaycan Respublikası daxili işlər orqanlannda xidmət edən rəis və sıravi şəxsləri, Azərbaycan Respublikasının xarici kəşfiyyat xidmətinin əməkdaşları, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik xidmətinin əməkdaşları gömrük qaydalarının pozulmasına görə ümumi qaydalarla cavabdehlik daşıyırlar.

Gömrük qaydalarının pozulmasının ikinci kateqoriya subyektlərini müəssisələrin vəzifəli şəxsləri təşkil edir. Bunlar xarici-iqtisadi fəaliyyətdə iştirak edən müəssisə və təşkilatlardır. Onlar gömrük qaydalarının pozulmasına görə o vaxt məsuliyyətə cəlb olana bilər ki, onların xidmət və vəzifələri onlar tərəfindən hüquq pozuntulan anma, Azərbaycan Respublikası qanunvericilik aktlannm tələblərinin yerinə yetirilməsinə təsadüf edir. Bu işlərə isə nəzarətin həyata keçirilməsi gömrük orqanlarına həvalə edilmişdir.

Ancaq şəxs həmin vaxtda qarşısı alınmaz qüvvə ilə üzləşmişsə və öz vəzifəsini bu səbəbdən yerinə yetirə bilməmişsə məsuliyyətdən azad edilir.

Gömrük qaydalarını qəsdən pozma zamanı şəxs onun hərəkətinin qanuna zidd olduğunu bilə-bilə həyata keçirilməsidir.

Gömrük qaydalarının ehtiyatsızlıqdan pozulması isə qayda pozan şəxsin öz hərəkətlərinin nəticələrini dərk etməməsi nəticəsində əmələ gələn pozuntulardır. Bu əsasən gömrük qaydalarını anlaqsız vəziyyətdə (xroniki ruhi xəstə, ruhi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllılıq və s. xəstəliklər zamanı) pozan fiziki şəxslərə şamil olunur (GM 18-ci maddə). Belə şəxslər hər cür məsuliyyətdən azaddırlar.

Gömrük qanunvericiliyinə görə, gömrük qaydalarının pozulması

təhlükəlilik xarakteri daşımadığına görə, gömrük orqanının vəzifəli şəxsi şifahi xəbərdarlıqla kifayətlənərək, hüquq pozan şəxsi məsuliyyətdən azad edə bilər.

Gömrük qaydalarının pozulmasına görə işlərin icraata qəbul edilməsi və ona baxılması qaydaları mövcud qanunvericilik əsasında aparılır.

İşin aparılması pozuntunun baş verdiyi yerdən deyil, qanunvericilkdə nəzərdə tutulmuş qaydalardan asılıdır.

Gömrük qaydalarının pozulmasına görə inzibati cəzalar, gömrük pozuntularına görə cavabdehlik tədbirləridir. İnzibati cəzalan xarakterinə görə şərti olaraq üç qurupa bölmək olar.

1) Gömrük qaydalarının pozulmasına görə verilən inzibati cəzalar həmişə gömrük qaydasının pozulmasına və onu pozan şəxsə dövlətin mənfi qiyməti (reaksiyası) kimi dəyərləndirilməlidir. Bu hər şeydən öncə qanun normasına verilən qiymətdir, onun tətbiqi isə dövlətin adından çıxış edərək və dövlətin məcburiyyət hüquqi çərçivəsində gömrük orqanının (vəzifəli şəxsə) müəyyən idarə etmə məsələlərini həll etdikdə həyata keçirilir. Dövlətin məcburiyyət hüquqi nonnaların icrasında vahid vasitə olmamalıdır və vahid vasitə də adlanmır. Lakin hüquqi normalnn olduğu yerdə mütləq məcburiyyət də vardır.

2) Gömrük qaydalarının pozulmasına görə inzibati-hüquqi cəzalar, öz sosial mahiyyəti və tərkibinə görə günahkar şəxsin müəyyən əziyyət və mərhumiyyətlərə məruz qalması üçün məcburi tədbirlər hesab olunur.

## 5. GÖMRÜK QAYDALARININ POZULMASINA GÖRƏ QOYULAN CƏRİMƏLƏRİN NÖVLƏRİ

Gömrük qaydalarının pozulmasına görə qoyulan cərimələrin növləri GM-də verilmişdir. Bütün bu cərimələr gömrük qaydalarının pozulmasına görə həyata keçirilən inzibati cavabdehliklərdir. Onlara aiddir:

- xəbərdarlıq;

- corımə;

- Azərbaycan Respublikası gömrük orqanları tərəfindən müəyyən fəaliyyət növlərinin həyata keçirilməsi üçün verilən lisenziya və ya ixtisas attestatlannm geri alınması;

- gömrük qaydalarının pozulmasının bilavasitə obyekti olan mal və nəqliyyat vasitələrinin, Azərbaycan Respublikası gömrük sor-həddindən gizli yollarla keçirilməsi üçün hazırlanmış və gömrük sərhoddindən istifadə edilmiş xüsusi hazırlanmış əşyaların müsadirə edilməsi;

- gömrük qaydalarının pozulmasının bilavasitə obyekti olan mal və nəqliyyat vasitələrinin, mal və nəqliyyat vasitələrinin gömrük sərhoddindən gizli yollarla keçirilməsi üçün xüsusi hazırlanmış və gömrük qaydalarının pozulmasının obyekti olan vasitələrin malın dəyəri məbləğində cərimə edilməsi;

- gömrük qaydalarının pozulması obyekti olan və malların keçirilməsində iştirak edən nəqliyyat vasitələrinin müsadirə edilməsi;

- gömrük qaydalarının kiçik, cüzi şəkildə pozulmasına görə xəbərdarlıq-cərimənin xüsusi növüdür. Eyni zamanda xəbərdarlıq tərbiyəvi xarakter daşıyır. O, əsasən birinci dəfə və ehtiyatsızlıq üzündən gömrük qaydalarını pozmuş fiziki şəxslərə qarşı tətbiq edilir. Bu ancaq yazılı formada həyata keçirilir. Xəbərdarlıq növündə verilən cərimə hüquq qaydalarının pozulduğu məkanda qısaldılmış şəkildə bu xəbərdarlığın verilməsi haqqında akt tərtib edilməklə həyata keçirilə bilər.

Çox hallarda xəbərdarlıq cərimə ilə alternativ kimi nəzərdə tutulur. Belə halda gömrük orqanı bunlardan birini tətbiq edə bilər.

- cərimə-cəzanın maddi xarakterli formasıdır, o özünü qayda pozucudan müəyyən məbləğ pulun dövlət xəzinəsinə ödəməsini tələb edir.

Gömrük qanunvericiliyində cəriməyə gömrük qaydalarının pozulmasına görə əksər qayda pozucuları üçün nəzərdə tutulan haldır.

Hazırkı vaxtda gömrük-hüquq normaları sanksiyasında

həcm altında qaydaların pozulduğu gün üçün hesablanmış minimum əmək haqqı əgər həmin gün üçün minimum əmək haqqını müəyyənləşdirmək mümkün deyildirsə onda qayda pozuntusunun müəyyən edildiyi günə hesablanır;

- gömrük qaydalarının pozulmasının obyekti olan mal və nəqliyyat vasitələrinə qarşı cərimə mal və nəqliyyat vasitələrinin dəyərinə görə, faizlə hesablanır. Belə mal və nəqliyyat vasitələrinin dəyəri altında onların qayda pozuntusunun həyata keçirildiyi gün üçün olan bazar qiymətləri ilə müəyyən edilir;
- ödənilməmiş ödənişin bir neçə dəfəsi. Cərimə-cəzanın, tənbehin əsas növlərindən biridir. O, digər cəzaların əvəz edilməsi kimi tətbiq edilə bilməz.

Gömrük qaydalarının pozulması işinə baxan gömrük orqanı cərimənin qoyulması haqqında qərar qəbul edir. GM-də nəzərdə tutulmuş hallarda cərimə qanunun pozulduğu yerdə protokol yazılmadan qoyulur və alınır. Belə hallarda alınan cərimə akt vasitəsi ilə rəsmiləşdirilir.

- Lisenziya və ixtisas attestatının geri aimması-inzibati qanun pozuntuları üçün qanunvericilikdə yenidir.

Gömrük orqanları gömrük anbarının təsis edilməsi, rüsumsuz ticarət mağazaları, sərbəst anbar, müvəqqəti saxlanc anbarları, gömrük brokeri, gömrük daşıyıcısı kimi fəaliyyət göstərmək üçün lisenziya vermək hüququna malikdir.

Bundan başqa gömrük rəsmiləşdirilməsinin aparılması üçün ixtisas attestatı vermək hüququndadır. Lisenziya və ixtisas attetatlan ona təqdim edən gömrük orqanının müdiri (müavini) və yaxud yuxarı orqanlar tərəfindən tənbeh, cərimə növü kimi geri alına bilər. Belə tənbeh forması verilmiş lisenziya və ixtisas attestatının vaxtı tamam olmamış geri alınması o vaxt baş verir ki, lisenziya və attestatla nəzərdə tutulmuş fəaliyyətlə məşğul olma vaxtı müəyyən qanun pozuntuları baş vermiş olsun. Lisenziya və ixtisas attestatının geri alınması yalnız tənbehlərlə eyni vaxtda (cərimə ilə) həyata keçirilə bilər. Bu işin birlikdə həyata keçirilməsi məsələni həll edən gömrük orqanının rəyindən asılıdır.

Lisenziya vɢ ixtisas attestatlarının tənbeh kimi geri alınması gömrük qaydalanmn pozulmasına görə həyata keçirildiyi haqda qərarla rəsmiləşdirilir. Lisenziyanın və ya ixtisas attestatının geri alınmasının tarixi qərarın icra edilmə üçün verildiyi tarixdən başlayır.

- Gömrük qaydalarının pozulmasının obyekti olan mal və nəqliyyat vasitələrinin, xüsusi gizli hazırlanmış və Azərbaycan Respublikası gömrük sərhəddindən əşyaların gizli keçirilməsi həyata keçən mal və nəqliyyat vasitələrinin, qanun pozuntusu sayılan mallann keçirilməsində istifadə edilən nəqliyyat vasitələrinin məcburi və əvəzi ödənilmədən dövlət mülkiyyəti üçün müsadirə edilməsi.

İnzibati cavabdehlik tədbiri olan belə müsadirəni cinayət-hüquqi müsadirəsindən fərqləndinnok lazımdır. Bunun birincisi cinayətkarlığa görə deyil gömrük qaydalarının pozulmasına görə tətbiq edilir.

Cinayət - hüququndan, müsadirəsindən fərqli olaraq burada məcburi hüquq pozuntularında iştirak edən mülkiyyətə, hüquqi qaydaların pozulması subyekti olan əşyaların müsadirə edilməsindən ibarətdir. Eyni zamanda burada müsadirə olunan malların hüquq pozuntusunda iştirak edən şəxsin mülkiyyəti olub, olmamasından asılı olmayaraq həyata keçirilir.

Cinayətə görə müsadirə ancaq məhkəmənin qərarı ilə həyata keçirilir, gömrük qaydalanmn pozulmasına görə bu işlə məşğul olan gömrük orqanlarının məsul şəxsi tərəfindən həyata keçirilir. Gömrük qaydalanmn pozulmasına görə mal və nəqliyyat vasitələrinin müsadirəsi haqqında rəyini qərar formasında həyata keçirir.

2) İctimai təhlükəsizliyə (narkotik vasitələrin, psixotrop və digər maddələrin, odlu silahların və s. çıxarılması);

3) Azərbaycanın milli təhlükəsizliyinə, dünya ictimayətinin təhlükəsizliyinə (qanusuz olaraq kütləvi qığın silahlan, onu düzəltmək üçün material və avadanlıqların aparılması və ya gətirilməsi);

4) Mədəniyyət maraqlarına (qaçaqmalçılıq yolu ilə qiymətli əşyaların aparılması).

Qaçaqmalçılıq obyektini və cinayəti xarakterizə etmək üçün

hüquqşünaslar iki qurupa ayırırlar:

1) Sərbəst satışda olan mallar-sənaye və ərzaq mallan, təsərrüfat məişət əşyaları, valyuta, zərgərlik məmulatı, nəqliyyat vasitələri, alkoqol içkiləri, tütün məmulatlan və s.;

2) Satışdan tamam yığışdınlan mallar-narkotik vasitələri, psixotrop, güclü təsir edən, zəhərli, zəhərləyici radioaktiv və ya partlayıcı maddələr, silahlar, partlayıcı qurğular, odlu silah və sursatlar, nüvə, kimyəvi, bioloji və digər növ kütləvi qırğın silahları; gömrük sərhəddindən keçirilməsinə xüsusi qaydaları müəyyən edilmiş mallar-kütləvi qırğın silahlarının hazırlanmasında istifadə olunan mallar və avadanlıqlar; strateji vacib xammal məhsulları; qiymətli incəsənət, mədəniyyət əsərləri və s.

Qaçaqmalçılıq cinayətinin predmeti, eyni zamanda beynəlxalq poçt göndərmələri, boru-kəmər nəqliyyatı və elektrik ötürücü xətləri ilə həyata keçirilənlərdir.

Qaçaqmalçılıq adətən qmp şəklində həyata keçirildiyindən, ayn-ayn adamların cinayətlə nə qədər əlaqədar olduğu aydınlaşdınimalıdır.

Mallann və digər əşyalann Azərbaycan Respublikasının gömrük sərhəddini faktiki keçdiyi anda qaçaqmalçılıq cinayətinin qurtardığı vaxt sayılır.

### 6. GÖMRÜK ORQANLARININ HÜQUQ - MÜHAFİZƏ FƏALİYYƏTİNİN CİNAYƏT - HÜQUQU VƏ CİNAYƏT PROSESSUAL FORMALARI. GÖMRÜK ORQANLARININ SƏLAHİYYƏTLƏRİNƏ AİD OLAN CİNAYƏTLƏR

İbtidai istintaqı gömrük orqanlarının səlahiyyətinə aid olan cinayətlər aşağıdakılardır;

a) Qaçaqmalçılıq;

b) Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasının ərazisinə qaytanimaması;

c) Gömrük ödənişlərinin ödənilməsindən yayınma, xaricdən valyuta dəyərli şeylərin qaytarılması və qanunsuz valyuta əməliyyatları.

## 6.1. QAÇAQMALÇILIQ

Gömrük işi sahəsində qaçaqmalçılıq ən ağır cinayətlərdən sayılır. Onunla digər cinayətlər arasındakı konkret fərqlər öz əksini GM-də tapmışdır.

Praktiki cəhətdən bütün ölkələrdə qaçaqmalçılıq anlayışı altında gömrük sərhəddindən qanunsuz keçirilən mallar və ya digər əşyalar cinayət kimi tanınır. Daha doğrusu gömrük sərhəddindən gömrük nəzarətindən kənar və ya ondan gizli, yaxud sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə edilməsi, və ya bəyan etməməklə və ya düzgün bəyan etməməklə aşağıdakı mallann keçirilməsi qaçaqmalçılıq (kontrabanda) hesab olunur:

a) narkotik vasitələrin, psixotrop, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv və partlayıcı mallar;

b) silahlar, partladıcı qurğular və onlar üçün döyüş sursatı (soyuq ev silahları və onların patronlarından başqa);

c) nüvə kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, həmin silahlann hazırlanması üçün istifadə oluna biləcək, material və avadanhqlar.

Dünya praktikasmda qaçaqmalçılıq daha çox “kontrabanda” kimi tanınır. “Kontrabanda” italyan sözü olub “comtro”- “əks” və “banda”- “hökumət qərarları” sözlərindən götürülmüş mənası “hökumət qərarlanmn əksinə” deməkdir.

Qaçaqmalçılıq və onunla əlaqədar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsi ilə bağlı kitabın VI fəslində məlumat verilmişdir- Qaçaqmalçılığın obyekti və subyektləri haqqında məlumat verək.

***Qaçaqmalçılığın obyekti.*** Mal və əşyaların qeyri-qanuni yolla ölkənin gömrük sərhəddindən keçirilməsi, xarici iqtisadi fəalİ3^ətin dövlət tənzimlənməsinin qaydalarını pozur. Qaçaqmalçılıqla bağlı cinayətlər aşağıdakı ziyanları vurur:

l) İqtisadi təhlükəsizliyə (qeyri-qanuni yolla vacib strateji xam

malın çıxanimast);

Qaçaqmalçılığa hazırlıq morhəlosinə aşağıdakıları aid ctmok olar:

- strateji cəhətdən vacib xammalın, narkotik vasitələrin çıxarılması üçün qeyri-qanuni yolla alınmış icazə (lisenziya);
- qiymətli mədəniyyət əsərlərinin çıxanimast üçün qanunsuz alınan şəhadətnamə;
- gizli saxlancın hazırlanması;
- başqalannı cinayətə təhrik etmə.

***Qaçaqmalçılığın subyektləri*** vətəndaşlığından asılı olmayaraq, 16 yaşına çatmış anlaqlı, fiziki şəxslər ola bilər.

Xidməti vəzifələrindən istifadə edərək, cinayət törədən vəzifəli şəxslər qaçaqmalıçılığın xüsusi subyektləri sayılır.

Qaçaqmalçılığın subyektiv tərəfi cinayətin qəsdən törədilməsi ilə xarakterizə olunur.

Qaçaqmalçılıqda cinayətin hüquqi cəhətdən motiv və məqsədi yoxdur. Hər şeydən öncə qaçaqmalçılıq tamahkarlıq xarakteri daşıyır, qeyri-qanuni yolla varlanmaq arzusu və cəhdidir.

***Qaçaqmalçılığın ixtisaslaşmış növləri*** Şərti olaraq ixtisaslaşma üzrə qaçaqmalçılığı iki qrupa bölmək olar:

1) dəfələrlə cinayət törədilmə, vəzifəli şəxsin vəzifəsindən sui-istifadə etməsi və gömrük nəzarəti həyata keçirən şəxsə təzyiq etməklə törədilən cinayətlər;

2) ixtisaslaşmış qruplarla (dəstələrlə) törədilən cinayətlər. Törədilən bu cinayətlərə. Cinayət Məcəlləsində nəzərdə tutulan cəzalar barədə VI fəsildə ətraflı məlumat verilmişdir.

Cinayət subyektləri vətəndaşlığından asılı olmayaraq 16 yaşma çatmış anlaqlı, fiziki şəxslər hesab olunur. Bu cinayətin xüsusiyyətlərindən asılı olaraq belə şəxslər müəssisənin nümayəndələri, vəzifəli şəxsləri, habelə səlahiyyətli şəxslər ola bilər.

### 6.2 AZƏRBAYCAN XALQININ VƏ XARİCİ ÖLKƏ XALQLARININ BƏDİİ, TARİXİ VƏ ARXEOLOJİ SƏRVƏTİ OLAN ƏŞYALARIN AZƏRBAYCAN RESPUBLİKASI ƏRAZİSİNƏ QAYTARILMASI

Azərbaycan xalqının mədəni sərvətlərinin qorunması, həmçinin onların qanunsuz yolla ölkədən çıxarılaraq mülkiyyət hüququnun dəyişdirilməsinin qarşısını almaq üçün belə cinayətlorə xüsusi məsuliyyət müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 207-ci maddəsinə görə incəsənət, tarixi və arxeoloji sərvətlərin qanunsuz dövriyyəsi ilə məşğul olmaq cinayət hesab olunur.

Cinayətin obyekti dövlətin razılığı olmadan Azərbaycan xalqını və xarici ölkə xalqlarının incəsənəti, tarixi və arxeoloji sərvətləri olan əşyaların gömrük sərhoddindən keçirilməsidir.

Cinayətin predmeti qanunsuz keçirilmək üçün nəzərdə tutulmuş incəsənət, tarixi və arxeoloji sərvət sayılan əşyalardır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində, dövlətin səlahiyyətli orqanlarının razılığı və icazəsi ilə çıxarılan, lakin geri gətirilməyən əşyalar da cinayətin predmeti sayılır.

Cinayətin obyektiv tərəfi şəxsin cinayətkarcasına hərəkətsizliyidir, daha doğrusu qanunla müəyyən edilmiş vaxtda aparılmış əşyaların geri qaytarılmamasıdır.

Hərəkətsizlik cinayəti, obyektiv və subyektiv səbəblər üzündən də ola bilər. Məsələn, əgər bu hərəkətsizlik bədbəxt hadisələrlə (qiymətli əşyalar, sərgi qalareyası ilə birgə yanıbsa və ya daşınan zaman müxtəlif qəzalara düçar olubsa) və ya həmin şəxsin ağır xəstəliyi ilə əlaqədar baş vermişdirsə, onda həmin şəxs məsuliyyətə cəlb olunmur.

Mədəni sərvətləri müəyyən olunmuş vaxtda qaytarılmadığı gündən cinayət qurtanmş hesab olunur.

Vətəndaşlığından asılı olmayaraq, 16 yaşından yuxarı anlaqlı, fiziki şəxslər cinayətin subyektləri sayılır. Cinayətin subyektləri muzey, arxiv, kitabxana və s. bu kimi yerlərdə çalışan işçilər vo yaxud onların səlahiyyətli nümayəndələri ola bilər.

Cinayətin subyektiv tərəfi onun bilərəkdən törədilməsidir. Çünki mədəni sərvətləri çıxaran şəxs, onun qaytanlacağı vaxtı əvvəlcədən bilir.

Cinayətin mativi və məqsədi müxtəlif ola bilər. Belə cinayət törətmiş şəxslər, Cinayət Məcəlləsinin 207-ci maddəsinə görə əmlakı müsadirə olunmaqla və ya olunmamaqla 4 ildən 8 ilədək azadlıqdan mərhum etmə ilə cəzalandırılır.

### 6.3 GÖMRÜK ÖDƏNİŞLƏRİNİN ÖDƏNİLMƏSİNDƏN YAYINMA, XARİCDƏN VALYUTA DƏYƏRLİ ƏŞYALARIN QAYTARILMAMASI VƏ QANUNSUZ VALYUTA ƏMƏLİYYATLARI

Bu cinayətin ictimai təhlükəliliyi onunla əlaqədardır ki, büdcəyə çatası gömrük vergiləri, rüsumları və digər gömrük yığımları yaymdınlmaqla dövlətə ziyan vurulur.

Azərbaycan Respublikasının fəaliyyətdə olan Cinayət Məcəlləsinə görə deferensial cavabdehlik daşıyırlar:

- Gömrük ödəmələrindən böyük məbləğdə yayımnaya görə;
- Həmin yayınmanı bir neçə dəfə təkrarladıqda;
- Mövcud cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, onun həyata keçirilməsi nəticəsində gömrük vergiləri, gömrük yığımları və digər gömrük ödonişləri dövlət büdcəsinə daxil olmur. Vergi, rüsumlar və digər ödəmələr altında büdcəyə qanunvericilik aktlan ilə müəyyən edilmiş büdcədən kənar məcburi haqqın ödənilməsi başa düşülür.

Bu cinayətkarlığın obyekti maliyyə sisteminin əsas tərkib hissəsi olan müəyyən edilmiş vergilərin alınma qaydalannm pozulmasıdır.

Cinayətin predmeti Azərbaycan Respublikası gömrük sərhəddindən keçən mal və digər şeylərdən, qoyulmuş qaydada tutulan gömrük ödənişləridir. Eyni zamanda Azərbaycan Respublikası Gömrük Məcəlləsində nəzərdə tutulan gömrük vegiləri (gömrük rüsumu, ƏDV, aksizlər), gömrük yığımları (gömrük rəsmiləşdirilməsi, malın saxlancı və müşayəti, lisenziya və ixtisas attestatlannm verilməsi üçün) və digər gömıük ödənişləri də

məsləhət^ermoyə görə, ilkin qərarların qəbulu, hərraclarda iştirka görə) cinayətin predmeti hesab olunur (külli miqdarda olduqda).

Cinayətin obyektiv tərəfi həm gömrük ödənişlərindən yayınma hərəkəti, həmdə gömrük ödənişlərin qoyulmuş vaxtda ödəməmək hərəkətsizliyində ifadə olunur. Bu cinayət üçün CM-də nəzərdə tutulan 209-cu maddəsinin dispoziyası çox məhdud olduğu üçün, bu hərəkətləri bir qədər ətraflı şərh etməyə çalışaq.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə görə bu hərəkətlər aşağıdakı yollarla həyata keçirilə bilər;

1) Gömrük yük bəyannaməsində və digər sənədlərdə gömrük üçün lazım olan məlumatların qəsdən səhv bəyan edilməsi, gömrük proseduru, gömrük dəyəri, malın və nəqliyyat vasitəsinin mənşə ölkəsi onların qiymətləri və s. barədə;

2) Aparılmış ödəmələr və ya gömrük ödənişlərini ödəmək haqqında yalan məlumatlar olan sənədləri gömrük orqanlarına təqdim etməklə;

3) Gömrük orqanları hesabına köçürülmüş pul vəsaitlərinin ödəmə sənədlərinin ödəyicinin geri çağırması;

4) Gömrük ödənişlərini ödəmək üçün hesabında olan pul vəsaitlərini, banklar və digər kredit təşkilatlarında ödəyəcəyinin gizlətməsi. Ödəyicidən asılı olamayan hallarda (məsələn: saxta aviza ilə ödəyicinin hesabından pul silinməsi) cinayət tərkibi yoxdur.

Cinayətin subyektləri vətəndaşlığından asılı olmayaraq, 16 yaşına çatmış anlaqlı fərdi və ya vəzifəli şəxs, mal və digər əşyaların gömrük rəsmiləşdirilməsi üçün təqdim edən şəxs, səlahiyyətli şəxs, bəyanedən və digər şəxslərdir. Gömrük Məcəlləsinə görə bu subyektlərin siyahısına daşıyıcı, broker, gömmk rəsmiləşdirilməsi üzrə mütəxəssiz, gömrük anbarı və ya müvəqqəti saxlanc anbarının sahibi, rüsumsuz ticarət mağazasının sahibi və ya hüquqi şəxslərin rəhbərləri də aid edilə bilər.

Cinayətin subyektiv tərəfi bilərəkdən törədilmiş cinayət kimi xarakterizə olunur. Çünki həmin şəxs, bu və ya digər formada vergi ödəməkdən yayınır.

Gömrük ödənişlərindən dəfələrlə yayınma və külli miqdarda

dövlətə ziyan vurma daha ağır cinayətlər hesab olunur.

Cinayətin motivi və məqsədi asan yolla varlanmaq, tamahkarlıqdır.

Azərbaycan Respublikası CM-nə görə, müəyyən olunmuş müddətlərdə gömrük ödənişlərinin ödənilməsinə görə cinayət əlamətləri olmadıqda lisenziya və ya ixtisas attestatlan geri alınır və ya ödənilməmiş gömrük ödənişlərinin məbləğinin 100 %-dən 200 %-dək məbləğdə cərimələnir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 209-cu maddəsinə görə, xeyli miqdarda gömrük ödənişlərinin ödənilməsindən yayınma, minimum əmək haqqı məbləğinin min mislindən iki min mislinədək miqdarda cərimə və ya bir ilodək müddətə islah işlori ilə cəzalandırılır.

Eyni hərəkətlər təkrar edildikdə və külli miqdarda törədildikdə, minimum əmək haqqı məbləğinin iki min mislindən beş min mislinədək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və eyni müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə görə, 209-cu maddədə "Xeyli miqdar" dedikdə ödənilməmiş gömrük ödənişlərinin minimum əmək haqqı məbləğinin iki min mislindən, "Külli miqdar" dedikdə dörd min mislindən yuxarı olan məbləğ başa düşülür.

## Yoxlama sualları

1. Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarının gömrük fəaliyyətindəki məqsəd və vəzifələri.
2. Gömrük qaydalannın pozulması əsas xarakteristikası.
3. Gömrük qaydalannın pozulmasına görə inzibati cəzalarm növləri.
4. Verilmiş cəzalardan şikayət qaydaları.
5. Cinayət işinin qaldırılması.
6. Qaçaqmalçılıq haqqında anlayış.
7. Texnologiyanın qeyri-qanuni ixracı.
8. Xarici valyuta vasitələrinin Azərbaycan Respublikası ərazisinə qaytarılmaması.

9. Gömrük ödəmələrindən yayınma.
10. Gömrük qaydalarının pozulması nə deməkdir?
11. Gömrük qaydalarının pozulması əlamətləri nədir?
12. Gömrük orqanlannın hüquq-mühafizə fəaliyyətlərinin formaları.
13. Gömrük qaydalarının pozulmasına görə inzibati cavabdehliyin formaları.
14. Xəbərdarlıq və cərimələr hansı hallarda tətbiq edilir?

## Mövzu 12. Test tapşırıqları

**1. Gömrük qaydalarının pozulması nə deməkdir?**

a) mövcud gömrük qanunvericiliyinin əksinə olan hərəkət və fəaliyyətdir;

b) Azərbaycan Respublikası GM-nın və digər qanunvericilik aktlarında məsuliyyət nəzərdə tutulan hüquqa zidd hərəkətlərdir;

v) gömrük qaydalarının və Azərbaycan Respublikası beynəlxalq müqavilələri ilə müəyyən edilən qaydalara zidd hərəkətlərdir;

q) "Gömrük tarifi" haqqında Azərbaycan Respublikası qanununa zidd hərəkətlərdir;

d) fiziki və hüquqi şəxslərin gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsi zamanı törətdikləri qanuna zidd hərəkətlərdir.

**2. Gömrük qaydalarının pozulmasının əlamətləri nədir?**

a) hər bir qayda pozuntusunun vacib əlaməti mövcud olan qaydalann əksinə hərəkətdir;

b) Azərbaycan Respublikası gömrük ərazisinə qadağan olunmuş yollarla mal və nəqliyyat vasitələrinin gətirilməsidir;

v) digər qayda pozuntuları kimi gömrük qaydalarının pozulması pozucunun aktiv hərəkətləri ilə təzahür edir;

q) gömrük nəzarətindən yan keçməklə və ya saxta sənədlərdən istifadə etməklə mal və nəqliyyat vasitələrinin keçirilməsidir;

d) bəyanedilmiş və ya düzgün bəyanedilməmiş sənədlərlə mal və nəqliyyat vasitələrinin əldə edilməsi.

**3. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətlərinin formaları hansılardır?**

a) inzibati-hüquqi;

b) inzibati-prosessual;

v) cinayət-hüquqi; operativ-axtanş;

q) cinayət-prosessual;

d) yuxarıda göstərilənlərin hamısı.

**4. Gömrük qaydalarının pozulmasına gÖrə inzibati cavabdehlik növləri?**

a) xəbərdarlıq və cərimələr;

b) Azərbaycan Respublikası gömrük orqanlan tərəfindən verilmiş lisenziya və ixtisas attestatlarının geri alınması;

v) gömrük sərhəddindən gizli yollarla keçirilon mal və nəqliyyat vasitələrinin müsadirə edilməsi;

q) gömrük qaydalannm pozulması obyekti olan nəqliyyat vasitələrinin müsadirəsi;

d) yuxarıda göstərilənlərin hamısı.

**5. Gömrük qaydalarının kiçik şəkildə pozulmasına görə hansı cəzalar tətbiq edilə bilər?**

a) xəbərdarlıq;

b) cərimə;

v) cərimə və xəbərdarlıq;

q) lisenziya və ixtisas attestatımn geri alınması;

d) cərimə - xəbərdarlıq, lisenziya və ixtisas attestatımn geri alınması.

**6. Gömrük qaydaları əleyhinə olan inzibati xətalara görə məsuliyyəti ağırlaşdıran hallar hansılardır?**

a) gömrük orqanlarına, onların tələblərinə məhəl qoymamaq;

b) gömrük qaydalannı pozduğuna görə inzibati tənbeh almış şəxsin təkrar inzibati xəta törətməsi;

v) yeniyetmə yaşına çatmayanların inzibati xəta törətməyə cəlb edilməsi;

q) inzibati xətanın bir qrup şəxs tərəfindən törədilməsi;
d) yuxarıda göstərilənlərin hamısı.

**7. Gömrük qaydaları əleyhinə olan inzibati xətalara görə hansı tənbeh növləri vardır?**

a) inzibati xətalara görə xəbərdarlıq;
b) inzibati xətalara görə cərimə;
v) inzibati xətalara görə cərimə və xəbərdarlıq;
q) inzibati xətanın törədilməsi obyekti olan mal və nəqliyyat vasitələrinin müsadirəsi;
d) xəbərdarlıq, cərimə, inzibati xətanın törədilməsi aləti olan mal və nəqliyyat vasitələrinin müsadirəsi.

**8. Yazılı sübutlar nədir?**

a) hüquqi və fiziki şəxslər tərəfindən tərtib edilmiş aktlar, arayışlar;
b) vəzifəli şəxslər tərəfindən yazılan təsdiq edilən məlumatlar;
v) hüquqi şəxslər tərəfindən yazılan sənədlər;
q) hüquqi, fiziki və vəzifəli şəxslər tərəfindən yazılmış və təsdiq edilmiş iş üçün əhəmiyyəti olan aktlar, arayışlar, yazılı məlumatlar və digər sənədlər;
d) gömrük orqanlannm vəzifəli səlahiyyətli şəxsləri tərəfindən yazılmış və iş üçün əhəmiyyəti olan, aktlar, arayışlar, yazılı məlmatlar.

**9. Şərti maliyyə vahidi dedikdə hansı məbləğ başa düşülür?**

a) 85 manat;
b) minimum əmək haqqı;
v) minimum əmək haqqının iki misli;
q) 2 manat 50 qəpik; d) 1 manat 10 qəpik.

**Test 10. Kontrabandanın lüğəti mənası nədir?**

a) “hökümət qərarlanmn əleyhinə”;
b) “malı gizlətmək”;
e) “malı sənədsiz keçirmək”;
d) “malı açıq keçimıək”;
e) “malın qeydiyyata salmadan keçirilməsi”.

**11. Qaçaqmalçılıq malları dedikdə nə başa düşülür?**

a) gömrük nəzarətindən kənar və ya sənədsiz mallar;
b) gömrük orqanlarına bəyan olunmadan keçirilən mallar;
c) əlavə rüsum və vergilər ödənilməklə keçirilən mallar;
d) gömrük nəzarətindən gizlədilən mallar;
e) ölkəyə gətirilməsi qadağan edilmiş mallar.

**12. Gömrük orqanlarının əməliyyat axtarış fəaliyyətlərinin məqsədi?**

a) dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyini təmin etmək;
b) dövlət büdcəsinin gəlir hissəsini artırmaq;
c) gömrük sistemi vəsaitlərinin artınıması;
d) gömrük orqanlarının təhlükəsizliyini təmin etmək;
e) XİF iştirakçılarının təhlükəsizliyinin təmin edilməsi.

**13. Gömrük orqanlarının əməliyyat axtarış fəaliyyətlərinin** vəzifələri?

a) dövlət büdcəsinin gəlir hissəsini artırmaq;
b) XİF iştirakçılarının və onlann əmlakının qorunması;
c) gömrük orqanları və onların ailə üzvülərinin təhlükəsizliyini təmin etmək;
d) hazırlanan cinayətin qarşısının alınması və törədilmiş cinayətləri aşkar etmək;
e) gömrük daşıyıcısı, brokerlərinin təhlükəsizliyini təmin etmək.

Mövzu 13.
# GÖMRÜK ORQANLARININ İDARƏ EDİLMƏSİNİN ƏSASLARI

1. İdarəetmə anlayışı.
2. İdarəetmə prinsipləri.
3. İdarəetmə funksiyası.
4. İdarəetmə metodları.

## 1. İDARƏETMƏ ANLAYIŞI

Hər hansı bir sistemin, insan amili də daxil edilməklə istər ayrılıqda və istərsə də qrup halında adamların idarə edilməsi o zaman səmərəli olur ki, onların fəallığını istiqamətləndirən və tənzimləyən müəyyən təşkiledici başlanğıc olsun. K.Marks yazır: "Aynlıqda skripkaçı özü-özünü idarə edir... orkestrdə isə dirijora ehtiyac duyulur."

Gömrük orqanlarında idarəetmə özünün başlıca məqsədinə nail olması, daha doğrusu onların bütün üzvlərinin hərəkətlərinin vahidliyinin təmin edilməsidir. Odur ki, gömrük orqanlarının daxilində dəqiq idarəetmə tələb olunur.

Təcrübə göstərir ki, idarəetmə, xüsusi idarəetmə biliyi olmadan aparıldıqda adi hesablaşmalara əsasən gömrük orqanlarının operativ-idarəetmə fəaliyyəti ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına, iqtisadi marağın qorunmasına ciddi ziyan vurur. Odur ki, gömrük orqanlannın üzərinə düşən məqsəd və funksiyaların yerinə yetirilmıəsinin optimal təşkilinin təmin edilməsi üçün idarəetmənin nəzəri aspektlərinin mahiyyəti və iqtisadi məzmununun öyrənilməsi vacib amil kimi ön plana çəkilməlidir.

İdarəetmə nə deməkdir? Ədəbiyyatlarda "İdarəetmə"yə, o cümlədən, sosial-iqtisadi sistemlərdə gömrük orqanlarına aid olan çoxlu sayda müəyyən anlayışlar var. Ümumi fərqlənmə cəhətlərinə görə, təzahür formalan nəzərə alınmaqla gömrük orqanlarının idarə

edilmosini aşağıdakı qaydada müəyyonləşdirmok olar.

***İdarəetmə*** - elə bir ardıcıl, arasıkəsilməz prosesdir ki, o daxili və xarici şəraitin dəyişməsindən asılı olmayaraq idarəetmə qərarlarınln qəbulu və realizə olunmasında gömrük orqanları işçilərinin hərəkətini təmin edir və istiqamətləndirir.

Bütünlükdə idarəetmə subyekti, idarəetmə obyekti və onlar arasında olan qarşılıqlı əlaqə gömrük orqanlarını idarəetmə sistemini yaradır.

Gömrük orqanlarında bütün rəhbər işçilər idarəetmə subyektinə aiddir. Onların idarəetməyə dair qərarlar qəbul etmək, tabeliçiliyində olan işçilərə və kollektivə göstəriş vermək və yerinə yetirilməsini tələb etmək səlahiyyətlərinə malikdirlər. Gömrük məntəqələri, gömrükxanalar, regional gömrük idarəetmə orqanları məqsədyönlü fəaliyyətini Azərbaycan Respublikası Gömrük Komitəsi istiqamətləndirir.

Gömrük orqanlarında idarəetmə obyektinə idarəedici qərarlar, əmrlər, gömrükxanalara, gömrük məntəqələrinə verilən göstərişlər, gömrük işi mütəxəssisləri, gömrük kollektivi, təşkilati struktur, texnoloji gömrük əməliyyatları, funksiyaların həyata keçirilməsi ilə əlaqədar bütün fəaliyyət növləri, gömrük orqanlarına həvalə olunan işlər, gömrük resursları və s. aiddir.

İdarəetmə subyekti və obyekti ilə bağlı məsələləri aydınlaşdırmaq üçün gömrük orqanlarında idarəetmə strukturunun pilləli olmasını, ierarxiya xarakteri daşımasını, həmçinin onun gömrük orqanlarının idarə edilməsinin müxtəlif səviyyələrində idarəetmənin subyekti və obyekti özünün idarəetmə uyğunluğunu göstərir. Odur ki, idarəetmə obyektinə vahid sistem kimi gömrük orqanlarında idarəedici və idarəedici subyekt kimi baxılır. Ona görə də fəaliyyət növü kimi idarəetmə belə bir quruluşda müəyyənedici və idarəedici tərəflərinə də malikdir.

Gömrük oqranlarında idarəetmənin mahiyyətini daha dərin öyrənmək üçün onun əsas xüsusiyyətlərini bilmək vacibdir. Ona aşağıdakıları daxil etmək olar: idarəetmənin xidməti fəaliyyətin son

nəticosinə istiqamətlondirilməsi; idaroetmənin xarici iqtisadi fəaliyyətlə əlaqələndirilməsi; idarəetmə prosesində ağıllı risklərə yol verilmosi; xarici iqtisadi fəaliyyətin iştirakçılarının; qaçaqmalçıların və onların köməkçilərinin qeyri-qanuni hərəkətləri şəraitində gömrük orqanları tərəfindən idarəetmə prosesinin dinamikliyinin təmin edilməsi.

Gömrük orqanlarında idarəetmə obyektiv iqtisadi qanunlara və idarəetmə qanununa arxalanaraq bütün iştirakçıların operativ xidməti fəaliyyətini-ictimai, kollektiv, şəxsi marağını vahid sistemdə birləşdirir. Gömrük işinin səmərəliliyinin yüksəldiilməsində idarəetmə yaradıcı rol oynayır.

## 2. İDARƏETMƏ PRİNSİPLƏRİ

İdarəetrmə prinsipi dedikdə idarəetmə sistemində rəhbərin ideyası, qaydaları, əsas vəziyyəti, əxlaqi normaları başa düşülür.

Gömrük orqanlarının idarə olunması praktikasında ümumi, xüsusi və təşkilati-texnoloji prinsiplərdən istifadə olunur.

İdarəetmənin ümumi prinsipləri - idarəetmənin strateji norması olub o, gömrük orqanları sisteminini bütün sferalarına təsir göstərir. Lakin onun spesifik təsiri hər bir idarəetmə sistemində özünü biruzə verir. Bəzən idarəetmənin əsas ümumi prinsiplərinin bölüşdürülməsi zamanı (sistemlilik, dövrü əlaqələr prinsipi, informasiya bolluğu, optimallıq, tabeçilik və s.) gömrük orqanlarının idarə edilməsi sisteminə dialektik təsir də bunu təsdiq edir.

***Sistemlilik*** - idarəetmənin aparıcı prinsipidir. Sistemlilik gömrük orqanlannm idarə edilməsində sistemin quruluşunun və fəaliyyətinin birliyini təmin edir və təkmilləşdirir. Gömrük orqanlarının qarşısında duran məsələlərin çətinliyindən asılı olaraq dövrü əlaqə sistemi də böyük əhəmiyyət kəsb edir.

İnformasiya idarəetmə subyektinə hər bir zaman sistemin vəziyyəti barədə məlumat əldə etməyə, ardıcıllıqla qarşıya qoyulan məqsədə çatmağa, sistemə bilavasitə təsir etməyə, idarəetmə qərarlarının yerinə yetirilməsini təmin etməyə imkan verir.

***informasiya bolluğu prinsipi*** - gömrük orqanlan sistemində, o cümlədən, idarəetmə informasiyalarının görünməmiş həcmdə artması şəraitində bu prosesin intensivləşdirilməsinin vacibliyini göstərir.

Gömrük orqanlarının ən az material və maliyyə xərcləri ilə ən qısa müddətdə qarşıya qoyulan məqsədə çatmasına optimal idarəetmə prinsipi deyilir.

Gömrük sisteminin idarə edilməsində optimallıq müxtəlif metod və vasitələrlə təmin olunur. Eyni zamanda onun idarə edilməsində müxtəlif səviyyələrdə həyata keçirilən və dünya praktikasında təsbit olunmuş metodlardan və başqa ümumi prinsiplərdən istifadə olunması idarəetmənin təkmilləşdirilməsində mühüm əhəmiyyətə malikdir.

***İdarəetmənin xüsusi prinsipləri*** - gömrük orqanlarında iki böyük qrupa bölünür. Gömrük fəaliyyətində tətbiq olunan iqtisadi, sosial-siyasi və mənəvi sferanın prinsipləri və öz səlahiyyətləri daxilində dövlətin hüquq-mühafizə orqanlarının tərkib hissəsi kimi Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi prinsipi.

Xüsusi idarəetmə prinsipinə aiddir: qanunçuluq, fasiləsizlik, operativlik, möhkəmlik, məsuliyyətlilik, davamiyyətlilik, qeyri-mərkəzləşdirilmənin ağıllı yolla mərkəzləşdirməyə aparılması; son nəticəyə istiqamətlənmə və s.

Gömrük sisteminin idarə edilməsində qeyd olunanlarla yanaşı dövlət xidmətinin təşkili və fəaliyyəti prinsipi; kadrların seçilməsi prinsipi; onların təhsil alması və tərbiyə olunması; operativ axtarış fəaliyyətinin həyata keçirilməsi prinsipi və s. xüsusi prinsiplərə istinad edir.

***İdarəetmənin təşkilati - texnoloji prinsipi*** - əsas gömrük orqanları rəhbərlərinin təşkilati tənzimləyici və idarəedici icraçı fəaliyyətini göstərir. Buna idarəetmə prinsipini aid etmək olar: vahid başlanğıc; əməyin bölgüsü; skalyar; ierarxiya; vahid icraçılıq və səlahiyyətlərin dəqiqləşdirilməsi; idarəetmə diopozonu; səlahiyyətlərin bölüşdürülməsi və s. Burada vahid başlanğıc prinsipi xüsusi qeyd

olunmalıdır. O bir tərəfdon idarəetmodo Icollegiallığı, digor tərof-dən isə vəzifə funksiyasının yerinə yetirilməsində ciddi məsuliyyətin olmasını nəzərdə tutur. Kollegiallıq hər bir işçiyə həvalə olunan işə şəxsi məsuliyyət daşınmasını aradan qaldırmır. Əksinə tam ciddiliyi ilə diqqət mərkəzində saxlayır.

Gömrük orqanlarının bütün səviyyələrdə rəhbərlikdə vahidlik prinsipi daim fəaliyyət göstərir, gömrük orqanlarının rəhbərləri qanunvericiliyə uyğun olaraq vahid rəhbərlilik funksiyasını yerinə yetirir. Bu mövcud sturkturda qarşıya qoyulan məsələlərin xarakterindən, vəzifə səlahiyyətlərinin sıxlığından və onun nisbətən çox olmasından irəli gəlir. Bu funksiyaların qanunauyğun realizə olunması dövlət qarşısında onların məsuliyyəti və dövlət tərəfindən ona verilən hüquqdan istifadə etməsindən asılıdır. Bununla yanaşı qarşıya qoyulan məsələnin-vahid rəhbərliyin, kadr və struktur təminatı, hüquq mühafizə fəaliyyətinin dövlət tərəfindən material və maliyyə təminatı, hərbiləşdirilmiş dəstənin və hüquq-mühafizə orqanları işçilərinin sosial müdafiəsinin dövlət təminatı və s. xüsusi əhəmiyyət kəsb edir.

Gömrük orqanlannın idarəetmə sahəsində əldə etdikləri müsbət dəyişikliklər bütün vəzifəli şəxslərin sistem halında vahid fəaliyyəti hesabına təmin edilir. Odur ki, hər bir gömrük orqanı işçisinin rəhbərlik etmə imkanlannm, başqa xüsusiyyətlərinin yeri və rolunun düzgün nəzərə alınması və buna münasib ümumi işdə funksiya hüquqlarının müəyyənləşdirilməsi olduqca vacibdir. Bu istiqamətdə Azərbaycan Respublikası gömrük orqanları tərəfindən verilən normativ sənədlər tətbiq olunan rüsum və tarif dərəcələri gömrük orqanlannın fəaliyyətində xüsusi əhəmiyyət kəsb edir.

### 3. İDARƏETMƏ FUNKSİYASI

İdarəetmə funksiyası məqsədə nail olmaq üçün idarəetmə obyektinə yönəldilən planlaşdırma, əlaqələndirmə, nəzarət üzrə idarəetmə subyektinin fəaliyyətidir.

Gömrük orqanlarının idarə edilməsi funksiyası idarəetmənin bü

tün fəaliyyət sferasında onun mahiyyətinin, məqsədinin, iqtisadi məzmununun açılmasında, vəzifə bölgüsünün düzgün yerinə yetirilməsində, vahid bir sistem kimi gömrük orqanlannm fəaliyyətinin son nəticəsinin alınmasına istiqamətləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Gömrük orqanlarının idarəetmə funksiyası təsnifatına görə iki yerə: idarəetmə prosesi mərhələlərini əks etdirən ümumi idarəetmə funksiyalarına və gömrük orqanlannm operativ xidmətinin dəqiq növləri üzrə spesifik (dəqiqlik) funksiyalara bölmək olar.

İdarəetmənin ümumi funksiyası idarəetmənin mahiyyətini açır, hər bir obyekt bu prosesin universallığını xarakterizə edir. İdarəetmə funksiyasının tərkibi elə olmalıdır ki, idarə olunan sistemin vəziyyətində baş verən dəyişikliklərdən asılı olmayaraq idarə edən sistemin səmərəli tənzimlənməsi təmin olunsun.

İdarəetmənin ümumi funksiyasına aiddir: operativ xidmətin vəziyyətinin təhlili və proqnozlaşdırılması, uçot və nəzarətin planlaşdırılması, təşkili, tənzimlənməsi.

Gömrükdə operativ-xidmət vəziyyəti dedikdə gömrük fəaliyyətinə bilavasitə təsir edən, qarşılıqlı əlaqədə olan amillərin, xüsusilə iqtisadiyyatın dialektik inkişafı, siyasi, sosial, hüquqi, regional və başqa şəraitin məcmusu kimi başa düşülür.

Gömrükdə operativ-xidmət şəraitinin əsas elementlərinə daxildir:

- xarici iqtisadi fəaliyyətdə xidmətedici heyyətin İştirakçıları- Azərbaycanın və xarici ölkələrin fiziki və hüquqi şəxsləri, gömrük orqanlarının fəaliyyət zonasına göndərilən əmtəə kütləsinin həcmi və növü, onların bölüşdürülməsi müddəti, yeri, nəqliyyat növləri;
- gömrük qanunvericiliyini bilərəkdən pozan xarici-iqtisadi fəaliyyət iştirakçılarının miqdarı və onların köməkçiləri;
- gömrük orqanlarının fəaliyyətinə zərər gətirən tədbiri həyata keçirməyə cəhd edən gönuük kriminal strukturu və onların köməkçiləri;
- gömrük qaydalarını pozan cinayətkar qrupun taktika və strategiyası, qəsdləri, planları;
- fikirlərin həyata keçirilməsi vaxtına dair məlumat;

- gömrük orqanlarına həvalə olunan funksiya və məsələlərin öz gücləri və vəsaitləri ilə yerinə yetirilməsi imkanları;

- Azərbaycan Respublikasının iqtisadi marağının qorunması və iqtisadi təhlükəsizliyin təmin edilməsində ümumdövlət tədbirləri;

- gömrük orqanları və başqa hüquq mühafizə orqanlarının fəaliyyət zonalarının miqdarı, qaçaqmalçılıq vo gömrük hüquqpozmalarına qarşı mübarizə təşkilatı və onların imkanlarından gömrük orqanlarının çıxardıqları qərarların yerinə yetirilməsində istifadə olunması;

- gömrük fəaliyyətində həyata keçirilən başqa tədbirlər.

***Planlaşdırma*** - idarəetmənin əsas funksiyası hesab olunur. Planlaşdırma vasitəsi ilə gömrük orqanları öz fəaliyyətlərində qarşıda duran təşkilati başlanğıcı işləyib hazırlayır. Planlaşdırmanın köməyi ilə sistemin məqsəd və istiqamətinin hərəkəti müəyyənləşir, metodları işlənir və onun inkişaf tempi, problemlərin həyata keçirilməsi imkanları müəyyənləşdirilir. Plan vasitəsilə idarəetmə subyektinin gələcək inkişafı icraçıların hərəkətini və planda qarşıya qoyulan məqsədə çatmağın yolları, metodları, vasitələri və vaxtı əsaslandınlır.

Planlaşdırma idarəetmənin bütün səviyyələrində həyata keçirilir: strateji (Azərbaycan Respublikası Gömrük Komitəsində), operativ (gömrükxanalarda, gömrük məntəqələrində). Bununla yanaşı gömrük sisteminin mərhələlər üzrə fəaliyyətinə uyğun olaraq işçi (təqvim) planın müəyyən edilməsi (u20in müddətə, orta müddətə və cari il üçün) vacib şərtlərdəndir. Beləliklə, idarəetmə fəaliyyəti idarəetmənin bu funksiyasının realizə olunmasında gömrük operativ xidmətinin vəziyyətini obyektiv qiymətləndirən, işə yaradıcı münasibət bəsləyən, təcrübəli, yenilikçi, dərin biliyə malik işçilərin olmasını tələb edir. Özlüyündə hazırlanmış və təsdiq edilmiş plan onun yerinə yetirilməsi demək deyildir. Bunun üçün müəyyən şərait yaradılmalıdır - bunu idarəetmənin təşkiletmə funksiyası təmin etməlidir.

Təşkiletmə funksiyası vasitəsilə gömrük orqanlarının fəaliyyət elementləri arasında proporsionallıq və onların qarşılıqlı təsir qay

dası nizamlanır, idarə olunan və idarə edən sistemlər təşkil edilir; sistemdə hər bir gömrük orqanı işçisinin yeri və rolu müəyyənləşdirilir; onlar gömrükxanalar, gömrük məntəqələri üzrə bölüşdürülür, aralannda dəqiq qarşılıqlı əlaqə yaradılır.

Gömrük orqanlarında idarəetmənin təşkiletmə fimksiyası aşağıdakı prinsiplər əsasında həyata keçirilir: proporsionallıq; ixtisaslaşma; paralellik; dəqiqlik; arasıkəsilməzlik və ahəngdarlıq.

***Tənzimləmə*** - (əlaqələndirmə, nizamasalma) funksiyası gömrük orqanlarında daha səmərəli daxili və xarici əlaqələr yaratmaq yolu ilə idarəetmə sisteminin müxtəlif sahələri arasında uyğunluq yaradılmasını təmin etməyə yönəldilir.

Xarici iqtisadi fəaliyyətin genişlənməsi, dövlətlərarası münasibətin böyük vüsət alması, mal dövriyyəsinin sistematik olaraq artması ilə əlaqədar olaraq təşkilati, texniki, iqtisadi əlaqələrin sayı, həm də onların müxtəlifliyi (uyğunlaşdırma, tənzimetmə, ierarxiya və s.) artır. Daxili və xarici bazarın zərərli təsirindən qorunması, dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi problemi xüsusi aktuallıq kəsb edir. Bütün bunlar tənzimləmə funksiyasının etibarlılıq, dəqiqlik, əməlilik prinsipləri əsasında həyata keçirilməsini mühüm şərt kimi qarşıya qoyur.

***Nəzarət funksiyası*** - gömrük orqanlannda idarəetmə obyektinin real vəziyyətini müşahidə, təhlil, qiymətləndirmə, proqram və plan üzrə müəyyən edilmiş vəziyyətlə müqayisə əsasında məqsədə nail olmaq üçün yerinə yetiriləcək işləri aşkar edir.

Nəzarətin başlıca məqsədi parametrdəki dəyişiklikləri müəyyən etmək, planlaşdırma əsasında verilən tapşırığın məzmununu, yerinə yetirilməsi dərəcəsini açmaq, bu istiqamətlərdə buraxılan qüsurlan doğuran səbəbləri həm də gömrük orqanlarının səmərəli fəaliyyətinə təsir edən alınmış müsbət nəticələri müəyyən etməkdir.

Gömrük orqanlannda nəzarət iki istiqamətdə aparılır: bir tərəfdən gömrük orqanı rəisi öz müavininin və ona tabe olan şöbə rəisinin, gömrük məntəqələrinin və başqa strukturların işinə nəzarət edir, digər tərəfdən isə onlarla birlikdə vahid plana əsasən struktur bölmələrinin fəaliyyətini yoxlayır.

Nəzarətin funksiyası müəyyən obyektdə idarəetmə işini vaxtında nəzarəti metodlan tətbiq etməklə yerinə yetirilməsini tələb edir. Bu məqsədin reallaşması üçün: ieraya nəzarətin və hazırlıq işlərinin müəyyənləşdirilməsi; obyektə nəzarətin hazırlanması; nəzarətin həyata keçirilməsi; nəzarətə aid məlumatların işlənməsi və realizə edilməsi vacib şərtlərdəndir. Nəzarət təkcə idarəetmə işinin yerinə yetirilməsinin nəticəsinə baxmaq deyil, həm də o bütünlükdə idarənin fəaliyyətini qiymətləndirir.

Uçot və təhlil funksiyası nəzarətlə üzvü surətdə bağlıdır. Bu nəzarətin bütün növ və formalarını qeydə almaqla, onların nəticələri əsasında təhlil apannağa imkan verir. Uçot planın yerinə yetirilməsini səciyyələndirməklə təhlil və yeni planın işlənib hazırlanması üçün əsasdır. Beləliklə, idarəetmənin ümumi funksiyaları hər bir idarəetmə sisteminə xasdır, vəhdət halında idarəetmə prosesinin bütövlüyünü təmin edir.

***İdarəetmənin spesifik (dəqiqlik) funksiyası.*** Gömrük orqanlarının idarə edilməsinin spesifik funksiyasına aşağıdakılar daxildir:

- gömrük fəaliyyətinin idarə edilməsi funksiyası (gömrük sənədləşdirilməsi və gömrük nəzarətinin idarə edilməsi, hüquq mühafizə fəaliyyəti, iqtisadi fəaliyyət, elmi-texniki inkişaf və hüquqi tənzimləmə fəaliyyəti);
- maliyyə-iqtisadi fəaliyyətin idarə edilməsi funksiyası (maliyyə fəaliyyətin idarə edilməsi və mühasibat fəaliyyətinin idarə edilməsi);
- sosial fəaliyyətin idarə edilməsi funksiyası (psixoloji-pedaqoji, əmək, kadr fəaliyyətinin və sosial təminatın idarə edilməsi);
- idarəcdici heyyət və təsərrüfat fəaliyyətinin idarə edilməsi funksiyası (idarəedici heyyətin fəaliyyətinin idarə edilməsi, material-texniki təchizatın hərtərəfli idarə edilməsi).

***İdarəetmə metodu*** - qarşıya qoyulan məqsədə çatmaq üçün idarəetmə obyektinə təsir edən müxtəlif yollann, metodların, fəndlərin və təsir vasitələrinin məcmusuna deyilir.

İdarəetmə metodları öyrənilərkən məqsədin dəqiq təsir istiqamətlərinin müəyyənləşdirilməsi, sosial-iqtisadi sistemin, o cümlədən, gömrük xidməti qarşısında qoyulan məqsəd və vəzifələr nəzərə alınmalıdır. Bu cür məqsəd konkret olaraq təşkilati-iqtisadi, sosial və texniki məsələlərin həllini, buna münasib idarəetmə metodlarının tətbiqini tələb edir.

İdarəetmə metodlarının təsnifatı özünün idarəetmə fəaliyyətinin miqyasına və təsir fomıalarına görə fərqlənir.

Gömrük orqanlarında idarəetmə fəaliyyətinin miqyasına görə ümumi və xüsusi metodlara ayrılır.

***Ümumi idarəetmə metodu*** qlobal problemlərin həllinə yönəldilməklə gömrük işində strateji məqsədlərin, bütünlükdə gömrük sistemində əsas məqsədə çatmağın forma və metodlannı müəyyənləşdirir.

***İdarəetmənin xüsusi metodu*** cari və operativ idarəetmə sisteminin üstünlüklərindən istifadə edilməsini nəzərdə tutur (regional idarəetmə, gömrükxana və gömrük məntəqələrinin idarə edilməsi).

Gömrük sistemində təsir formalarından asılı olaraq birbaşa və dolayı metodlar tətbiq olunur.

***Birbaşa təsir metodu*** dövlətin gücünə, hörmətinə əsaslanır. Buna təşkilati və hüquqi metodlar aid edilir. Dolayı təsir metoduna sosial, psixoloji, iqtisadi-riyazi metodlar aid edilir.

Gömrük orqanlarında idarəetmənin təşkili və tənzimlənməsi funksiyasının yerinə yetirilməsi prosesində təşkilati idarəedici metodların köməyilə işçilərin və kollektivin fəaliyyətində vəzifə borcuna məsuliyyətlilik və tələbkarlılıq intizamı formalaşır.

Gömrük orqanlannda təşkiledici-bölüşdürücü metodun xüsusiy-

yəti onun hərbiləşdirilmiş və hüquq-mühafizə xarakterli olmasıdır.

Gömrük orqanlarında təşkiledici-bölüşdürücü metodu üç qrupa aynlıq: təşkiledici; bölüşdürücü; intizamhlıq. Burada birinci qrup amil kimi təşkiledici və təsirə böyük üstünlük verilir. Təşkiledici təsir-idarəetmə işçilərinə reqlamentləşdinnə, normalaşdırma və istiqamətləndirmə yolu ilə sistemdə uzunmüddətli təşkilati əlaqələr yaranmasına imkan verir.

***Reqlamentləşdirmə*** möhkəm növ təşkilati təsiri özündə əks etdirir. Bu gömrük orqanlarında sistemin təşkilində ondan irəli gələn proseslərə əsaslanır və aşağıdakı məqamları özündə birləşdirir:

- bütünlükdə gömrük fəaliyyəti sistemində ümumi təşkilati vəziyyətin xarakteri;

-daxili iş qaydalarının müəyyənləşdirilməsi, istiqamətləndirilməsi və müxtəlif bölmələrin quruluş növləri;

-həyata keçirilən vəzifə reqlamenti, vəzifə təlimatları və ştat cədvəlləri.

***Normalaşdırma*** nisbətən möhkəm növ təşkilati təsirə malik olmaqla özündə müəyyənləşdirilmiş nonna və normativləri birləşdirir və 0, idarəetmənin yuxarı, aşağı hüdudları çərçivəsində fəaliyyət göstərir.

İdarəetmənin təşkiledici-bölüşdürücü metodunun ikinci qrupuna bölüşdürücü təsir metodu deyilir, hansı ki, o idarəetmə orqanlarına həvalə olunmuş gündəlik işlərin operativliyini təmin edir. Bölüşdürücü təsir metodu əsasında gömrük orqanları sisteminin vəzifəsi və səlahiyyətləri həvalə olunur. Mövcud metod Azərbaycan Respublikası Gömrük Komitəsinin kollegiyası tərəfindən qəbul olunmuş qərarı, dərc olunmuş əmrləri, göstərişləri, təlimatları və həm də şifahi formada çıxanlan idarəetmə qərarları əsasında realizə olunur.

Gömrük sistemində əmrlər rəhbər işçilərin sərəncamına verilir, onların müavinin və başqa bölmələrin fəaliyyət funksiyaları, hüquq və səlahiyyətləri rəhbərlik tərəfindən açıqlanır xə tənzimlənir.

idarəetmə təşkiledici-bölüşdürücü metodun üçüncü qrupuna intizamlığın təsir metodu deyilir. Gömrük orqanlarında bu metodun mahyyəti iş prosesində intizamlığın, məsuliyyətin təmin edilməsidir.

İdarəetmə prosesində bu metod təşkilati əlaqələrin sabitliyinin, iş inzibatının, məsuliyyətin qorunub saxlanılmasını və inkişafını nəzərdə tutur. Həm də bu metod şəxsi, kollektiv, maddi, mənəvi xidməti məsuliyyətinə görə seçilir.

Gömrük orqanlarında təşkiledici-bölüşdürücü metodun hor üç qrupu vəhdət halında bir-birini tamamlamaqla idarəetmənin səmərəli təşkili və aparılmasına xidmət edir.

Hüquqi metod idarəetmə prosesində sosial-iqtisadi sistem və münasibətlərin təsir elementlərinin hüquq məcmusunu özündə əks etdirir. Belə hüquqi normalara: “Azərbaycan Respublikası Gömrük Məcəlləsi”, “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında əsasnamə”, başqa qərarlar, qanunverici və normativ aktlar daxildir.

Gömrük orqanlarında idarəetmə aparatının fəaliyyəti əmək hüququ, mülki, təsərrüfat hüququ və bir çox başqa qanunvericilik aktlan ilə tənzimlənir.

***Sosioloji və psixoloji idarəetmə metodu*** - gömrük sisteminin idarə olunması metodları içərisində mühüm yer tutur.

Sosioloji və psixoloji idarəetmə metodu gömrük orqanlannın səmərəli idarə olunması üçün kollektiv üzvlərin əhval ruhiyyəsinə təsir edilməsində istifadə edilən üsul və vasitələrin məcmusudur. İdarəetmə fəaliyyətində sosioloji-psixoloji metodun tətbiq olunması tələb edir ki, gömrük xidməti öyrənilsin və bunun əsasında da tədbirlər hazırlanıb həyata keçirilsin. İdarəetmə aparatı işçiləri tərəfindən sosioloji-psixoloji metodun tətbiq olunmasında əsas məqsəd gömrük orqanı işçilərinin, bütünlükdə kollektivin potensial imkanlarından səmərəli istifadə etməkdir.

Mənəvi metodlar, gömrük orqanı işçilərinin tərbiyyə olunması-

nm ayrılmaz hissəsi olub icraçıların xidmət sahəsindəki rolunu, imkanlarını və konkret vəzifələrini aydınlaşdır. İnandırma şüurlu əmək və dövlət intizamı tərbiyə etmək üçün mühüm vasitədir.

Sosioloji və psixoloji idarəetmə metodunun elmi əsaslarından biri də maddi və mənəvi həvəsləndirmə prinsipidir. Maddi və mənəvi həvəsləndirmə prinsipindən istifadə etmədən və onları optimal surətdə əlaqələndirmədən gömrük orqanlarının səmərəli fəaliyyətini təmin etmək olmaz. Gömrük sisteminin idarə olunmasında işçilərin təşəbbüskarlığını, onlann maddi marağı ilə əlaqələndirmək vacib məsələlərdəndir. Gömrük orqanlarında maddi və mənəvi həvəsləndirmə formalarından istifadə edərkən çalışmaq lazımdır ki, sosioloji-psixoloji münasibətlər düzgün tətbiq olunsun.

***İqtisadi idarəetmə metodu*** - qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün gömrük işçilərinə əmrlərin, göstərişlərin verilməsi, iqtisadi amillərlə, iqtisadi həvəsləndirmə (əmək haqqı, mükafat və s.) vasitələrlə təsir göstərməsinə əsaslanır. İqtisadi idarəetmə metodları elm planlaşdırma və təhlilin tətbiq edilməsi ilə icraçıların iqtisadi marağına təsiretmə vasitəsilə həyata keçirilir.

İqtisadi idarəetmə metodu sistemi idarəetmə obyektinə istiqamətləndirilmiş elə bir təsir vasitəsidir ki, o, daima iqtisadi maraqdan istifadəyə əsaslanır. Gömrük orqanlarının idarə edilməsinin iqtisadi metodlarına aiddir: mərkəzləşdirilmiş planlaşdırma və iqtisadi stimullaşdırma metodu.

İqtisadi idarəetmə metodunun əsas xüsusiyyətləri gömrük orqanlarında dövlət, kollektiv və şəxsi maraqlar iki aspektdə həyata keçirilir: birinci-direktiv planların müəyyənləşdirilməsi yolu ilə ölkə büdcəsinin gəlir hissəsinin formalaşdırılması; ikinci-gömrük sisteminin inkişafı fondunun yaradılması və istifadəsinin idarə edilməsi. İqtisadi idarəetmə metodu əsasən ikinci aspekt üzərində qurulur və maddi marağı və iqtisadi məsuliyyəti özündə birləşdirir.

## Mövzu 13. Test tapşırıqları

**1. İdarəetmənin mexanizminə nələr daxildir?**

a) idarəetmə qanunları, prinsipləri, məqsədləri, funksiyaları və metodlan;

b) idarəetmə qanunlan, idarəetmə kadrları, texniki idarəetmə vasitələri;

c) idarəetmənin məqsədlərinə çatmaq üçün bütün idarəetmə həlqələrinin göstərdiyi fəaliyyət;

d) idarəetmə obyektinin inkişafi nəticəsində ona edilən dəyişikliklər;

e) idarəetmə subyektlərinin inkişafı nəticəsində ona edilən dəyişikliklər.

**2. İdarəetmə strukturlarına nələr daxildir?**

a) idarəetmə orqanları, idarəetmə kadrları və texniki idarəetmə vasitələri;

b) idarəetmə kadrlan, texniki idarəetmə vasitələri;

c) idarəetmə məqsədlərinə çatmaq üçün bütün idarəetmə həlqələrinin göstərdiyi fəaliyyət;

d) idarəetmə obyektinin inkişafı nəticəsində ona edilən dəyişikliklər;

e) idarəetmə subyektlərinin inkişafı nəticəsində ona edilən dəyişikliklər.

**3. İdarəetmə prosesi nədir?**

a) idarəetmə məqsədlərinə çatmaq üçün bütün idarəetmə həlqələrinin göstərdiyi fəaliyyət;

b) idarəetmə orqanlan, idarəetmə kadrlan və texniki idarəetmə vasitələri;

c) idarəetmə obyektinin inkişafı nəticəsində ona edilən dəyişikliklər;

d) idarəetmə subyektlərinin inkişafı nəticəsində ona edilən dəyişikliklər;

e) idarəetmə kadrlan, texniki idarəetmə vasitələri

**4. İdarəetmə qanunlarına nələr aiddir?**

a) sistemin vahidliyi, mütənasiblik, mərkəzləşdirmənin optimal nisbəti və s.;

b) idarəetmənin mərhələliyi və mərkəzləşdirilməsi;

c) əsas müddəalar və davranış normalan;

d) vahid rəhbərlik və əməyin normalan;

e) idarəetmənin liberal qaydada aparılması.

**5. İdarəetmə sisteminin vahidliyi qanunu nədə təzahür edir?**

a) idarəetmə prosesinin uzlaşmasında, arasıkəsilməzliyində və ritmikliyində təzahür edir;

b) idarə edən və idarə olunan sistemlərin fəaliyyətinin optimal proporsionallığmı təmin edir;

c) idarə edən sistemin əsaslandığı rəhbər ideyalar, qaydalar, əsas müddəalar və davranış normaları başa düşülür;

d) strateji idarəetmə normalarıdır və onlar gömrük orqanlarının bütün sahələrində və yarımsistemlərində fəaliyyət göstərir;

e) idarəetmə prosesinin bölüşdürülməsində təzahür edir.

**6. İdarəetmənin münasibliyi qanunu dedikdə nə başa düşülür?**

a) idarə edən və idarə olunan sistemlərin fəaliyyətinin optimal proporsionallığmı təmin edir;

b) idarəetmə prosesinin uzlaşmasında, arasıkəsilməzliyində və ritmikliyində təzahür edir;

c) idarə edən sistemin əsaslandığı rəhbər ideyalar, qaydalar, əsas müddəalar və davranış normaları başa düşülür;

d) strateji idarəetmə normalarıdır və onlar gömrük orqanlarının bütün sahəlrində və yarımsistemlərində fəaliyyət göstərir;

**7. idarəetmə prinsipləri dedikdə nə başa düşülür?**

a) idarə edən sistemin əsaslandığı rəhbər ideyalar, qaydalar, əsas müddəalar və davranış normaları başa düşülür;

b) idarəetmə prosesinin uzlaşmasında, arasıkəsilməzliyində və

ritmikliyində təzahür edir;

c) idarə edən və idarə olunan sistemlərin fəaliyyətinin optimal proporsionallığmı təmin edir;

d) strateji idarəetmə normalarıdır və onlar gömrük orqanlannm bütün sahəlrində və yanmsistemlərində fəaliyyət göstərir;

e) idarəetmə prosesinin bölüşdürülməsində təzahür edir.

**8. İdarəetmənin ümumi prinsipləri**

a) strateji idarəetmə normalarıdır və onlar gömrük orqanlarının bütün sərhədlərində və yanmsistemlərində fəaliyyət göstərir;

b) idarəetmə prosesinin uzlaşmasında, arasıkəsilməzliyində və ritmikliyində təzahür edir;

c) idarə edən və idarə olunan sistemlərin fəaliyyətinin optimal proporsionallığmı təmin edir;

d) idarə edən sistemin əsaslandığı rəhbər ideyalar, qaydalar, əsas müddəalar və davranış normaları başa düşülür;

e) idarəetmə prosesinin bölüşdürülməsində təzahür edir.

**9. Gömrük orqanları idarəçiliyində sistemlilik**

a) sistemin struktur və funksional vahidliyini təmin edir və təkmilləşdirir;

b) idarəçilik sistemində informasiyanın həcminin çox artdığı şəraitdə onun intensivləşdirilməsi vacibdir;

c) qarşıdakı məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə edilməsi;

d) bu bir tərəfdən idarəetmənin kollegialhğını, digər tərəfdən isə idarəedici funksialara görə ciddi fərdi məsuliyyəti nəzərdə tutur;

e) idarəetmənin təşkili üzrə bütün fəaliyyət icrası idarəetmə sisteminin konkret həlqələrinə tapşırılan ən sadə əməliyyatlara ayrılır.

**10. İdarəetmədə informasiyanın kafiliyi prinsipi**

a) idarəçilik sistemində informasiyanın həcminin çox artdığı şə

raitdə onun intensivləşdirilməsi vacibdir;

b) sistemin struktur və funksional vahidliyini təmin edir və təkmilləşdirir;

c) qarşıdakı məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə edilməsi;

d) bu bir tərəfdən idarəetmənin kollegiallığını, digər tərəfdən isə idarəedici funksialara görə ciddi fərdi məsuliyyəti nəzərdə tutur;

e) İdarəetmənin təşkili üzrə bütün fəaliyyət icrası idarəetmə sisteminin konkret həlqələrinə tapşırılan ən sadə əməliyyatlara ayrılır.

**11. Gömrük orqanlarında idarəetmənin optimllaşdırılması prinsipi**

a) qarşıdakı məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə edilməsi;

b) idarəçilik sistemində informasiyanın həcminin çox artdığı şəraitdə onun intensivləşdirilməsi vacibdir;

c) sistemin struktur və funksional vahidliyini təmin edir və təkmilləşdirir;

d) bu bir tərəfdən idarəetmənin kollegiallığını, digər tərəfdən isə idarəedici funksialara görə ciddi fərdi məsuliyyəti nəzərdə tutur;

e) idarəetmənin təşkili üzrə bütün fəaliyyət icrası idarəetmə sisteminin konkret həlqələrinə tapşırılan ən sadə əməliyyatlara

**12. Vahid rəhbərlik prinsipi**

a) bu bir tərəfdən idarəetmənin kollegiallığını, digər tərəfdən isə idarəedici funksialara görə ciddi fərdi məsuliyyəti nəzərdə tutur;

b) idarəçilik sistemində informasiyanın həcminin çox artdığı şəraitdə onun intensivləşdirilməsi vacibdir;

c) qarşıdakı məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə edilməsi;

d) sistemin struktur və funksional vahidliyini təmin edir və təkmilləşdirir;

e) idarəetmənin təşkili üzrə bütün fəaliyyət icrası idarəetmə sisteminin konkret həlqələrinə tapşmlan ən sadə əməliyyatlara aynlır.

**13. Əməyin bölgüsü prinsipi**

a) idarəetmənin təşkili üzrə bütün fəaliyyət icrası idarəetmə sisteminin konkret həlqələrinə tapşırılan ən sadə əməliyyatlara aynlır;

b) idarəçilik sistemində informasiyanın həcminin çox artdığı şəraitdə onun intensivləşdirilməsi vacibdir;

c) qarşıdakı məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə edilməsi;

d) bu bir tərəfdən idarəetmənin kollegiallığını, digər tərəfdən isə idarəedici funksialara görə ciddi fərdi məsuliyyəti nəzərdə tutur;

e) sistemin struktur və funksional vahidliyini təmin edir və təkmilləşdirir.

**14. İdarəetmənin icrarxiya prinsipi**

a) bu prinsip aşağıdakı əməkdaşın və ya bölmənin yuxandakma tabe olması nəzərdə tutur;

b) idarəçilik sistemində informasiyanın həcminin çox artdığı şəraitdə onun intensivləşdirilməsi vacibdir;

c) qarşıdakı məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə edilməsi;

d) bu bir tərəfdən idarəetmənin kollegiallığını, digər tərəfdən isə idarəedici funksialara görə ciddi fərdi məsuliyyəti nəzərdə tutur;

e) idarəetmənin təşkili üzrə bütün fəalİ3^ət icrası idarəetmə sisteminin konkret həlqələrinə tapşınlan ən sadə əməliyyatlara aynlır.

**15. Gömrük orqanlarının idarə edilməsində idarəetmə funksiyaları**

a) bütün səviyyələrdə idarəçilik fəaliyyətinin mahiyyəti və məzmununu açıqlayır və idarəetmə sahəsində vəzifələrin bölgüsünü əks etdirir və s.;

b) bu prinsip aşağıdakı əməkdaşın və ya bölmənin yuxarıdakına tabe olmasını nəzərdə tutur;

c) idarəçilik sistemində informasiyanın həcminin çox artdığı şəraitdə onun intensivləşdirilməsi vacibdir;

d) bu bir tərəfdən idarəetmənin kollegiallığını, digər tərəfdən isə idarəedici funksiyalara görə ciddi fərdi məsuliyyəti nəzərdə tutur;

e) qarşıdakı məqsədin mümkün olan daha qısa müddətlərdə ən az maddi, maliyyə və əmək məsrəfləri ilə əldə edilməsi.

Mövzu 14.

# GÖMRÜK ORQANLARINDA İDARƏETMƏ SİSTEMİNİN TƏŞKİLATI QURULUŞU

1. İdarəetmənin təşkilati quruluşu və idarəetmə növləri arasında əlaqə.
2. İdarəetmə quruluşuna tələblər,

## 1. İDARƏETMƏNİN TƏŞKİLATİ QURULUŞU VƏ İDARƏETMƏ NÖVLƏRİ ARASINDA ƏLAQƏ

İdarəetmənin təşkilati quruluşu dedikdə, idarəetmənin ierarxiya sistemi elementlərinin möhkəmləndirilməsinin məcmusu və onlann bu elementlərinin inkişafının vahidliyinin təmin edilməsində bir-birinə qarşılıqlı münasibətləri başa düşülür.

İdarəetmənin təşkilati quruluşu təhlil edərkən əsasən aşağıdakı elementlər seçilir: idarəetmə bölməsi; idarəetmə və qarşılıqlı münasibətlərin səviyyəsi.

Gömrük orqanları sistemində idarəetmə bölməsinə daxildir: Azərbaycan Respublikası gömrük komitəsi, idarələr və müstəqil şöbələr, gömrükxanalar, gömrük məntəqələri və özünün profesional və idarəetmə funksiyasını yerinə yetirən ayrı-ayrı mütəxəssislər. Bu idarəetmə bölmələri özünün müvafiq səviyyəsini idarəetmə ierarxiyasında tapır.

İdarəetmə səviyyəsi idarəetmə təşkilatları sistemində müəyyən idarəetmə pilləsi bölmələrinin məcmusu kimi başa düşülür. Tabeçilik prinsipinə uyğun olaraq idarəetmə pilləsi yuxan, eyni səviyyəli və aşağı qruplara bölünür. Bu bölgüyə uyğun olaraq idarəetmə bölmələri təşkil edilir.

İdarəetmə pilləsi dedikdə eyni səviyyədə olan ayrı-ayrı bölmələr nəzərdə tutulur.

Vahid idarəetmə sistemi kimi gömrük orqanlan beş səviyyədən ibarətdir: Azərbaycan Respublikası Gömrük Komitəsi, Naxçıvan MR Gömrük Komitəsi, Bakı Baş Gömrük İdarəsi, gömrükxanalar, gömrük məntəqələri. Ona görə də idarəetmədə qarşılıqlı münasi-

bətlərə əsasən aşağıdakı kanallar üzrə baxmaq olar.

1. Azərbaycan Respublikası Gömrük Komitəsi-Naxçıvan MR Gömrük Komitəsi;

2. Azərbaycan Respublikası Gömrük Komitəsi-Bakı Baş Gömrük İdarəsi;

3. Azərbaycan Respublikası Gömrük Komitəsi - gömrükxanalar;

4. Naxçıvan MR Gömrük Komitəsi - gömrükxanalar;

5. Bakı Baş Gömrük İdarəsi - gömrükxanalar;

6. Gömrükxanalar - gömrük məntəqələri.

Belə əlaqələrin mərkəzində gömrükçülərlə onların rəisləri, gömrükxanalarla gömrük məntəqələri arasında olan münasibətlər durur. Bütün bunlar təsadüfi deyil və burada gömrük fəaliyyətinin əsas məsələləri həll edilir.

İdarəetmə quruluşu çərçivəsində idarəetmə işçiləri arasında məsələlərin və funksiyalann bölgüsünə, onların yerinə yetirilməsində, hüquq və məsuliyyətinə münasib olaraq idarəetmə prosesi başlanır.

Gömrük orqanlarında bölmələr və idarəetmə səviyyələri arasında aşağıdakı formada qarşılıqlı münasibətlər yaranır:

- üfiqi idarəetmə münasibətləri (Azərbaycan Respublikası Gömrük Komitəsi-Naxçıvan MR Gömrük Komitəsi; Azərbaycan Respublikası Gömrük Komitəsi-Bakı Baş Gömrük İdarəsi; Azərbaycan Respublikası Gömrük Komitəsi-gömrükxanalar; gömrükxanalar- gömrük məntəqələri; gömrük rəisləri-gömrük şöbələri);
- şaquli idarəetmə münasibətləri (gömrük şöbələri-gömrük şöbələri; gömrük məntəqələri-gömrük məntəqələri; gömrükçülər-gömrükçülər);
- dioqanal idarəetmə münasibətləri (məntəqə-gömrük təyinatı və yaxud mal göndərişləri üzrə qarşılıqlı hərəkət; gömrükxanalar-Azərbaycan Respublikasının başqa regionunun qarşılıqlı hərəkəti; gömrük komitəsinin şöbəsi-başqa regionun şöbəsi ilə qarşılıqlı hərəkət).

rəhbərliyinin tabeçiliyindədir. Buna xətti münasibətlər deyilir.

Eyni idarəetmə quruluşuna malik olan gömrük orqanlarında, gömrük məntəqələrində pillələr arasında qarşılıqlı əlaqə xətti, funksional və yaxud xətti funksional (qanşıq) və matris şəklində ola bilər.

Xətti idarəetmə sistemi. Bu sistemdə aşağı idarəetmə pilləsi müəyyən məsələ üzrə yalnız bir yuxarı idarəetmə pilləsində əmrlər, göstərişlər alır və həmin pillə qarşısında hesabat verir. Göstərilən idarəetmə sistemində mərkəzləşmə və vahid rəhbərlik prinsipləri üstünlük təşkil edir.

Rəhbərlikdə vəhdətlik, sərəncam verilməsindən ziddiyəti aradan qaldırır, gömrük orqanlarında bölmə rəhbərliyinin məsuliyyətini artırır, intizamı möhkəmləndirir. Bununla yanaşı idarəetmənin səmərəli aparılması, onun təkmilləşdirilməsi istiqamətində maddi və mənəvi həvəsləndirmə tədbirlərinin tətbiqi daha faydalı olur.

Xətti idarəetmə sistemində gömrük orqanlannm rəhbər işçiləri hərtərəfli biliyə və bacarığa malik olmalıdır.

***Funksional idarəetmə sistemi.*** Göstərilən sistem idarə aparatının müxtəlif məsələləri üzrə yüksək ixtisaslı və təcrübəli işçilər arasında əmək bölgüsünə əsaslanır.

Göstərilən idarəetmə sisteminin xətti idarəetmə sisteminə nisbətən üstünlüyü, ondan ibarətdir ki, bu sistemdə hər bir idarəetmə pilləsi özünəməxsus funksiyanı yerinə yetirir.

Gömrük işinin mürəkkəbliyi idarəetmə prosesinə bilavasitə təsir edir. Funksional idarəetmə sisteminin əsasını xidmət sahələri təşkil edir. Xətti və funksional idarəetmə sistemlərinin qarşılıqlı əlaqəsi də bundan ibarətdir.

***Matris idarəetmə sistemi.*** Gömrük orqanlarının fəaliyyətinin idarə edilməsi ilbəil mürəkkəbləşir. Məlumat əlaqəsi nəinki üfiqi (rəhbərdən icraçıya), həm də şaquli xətt üzrə aparılır. Bu onunla əlaqədardır ki, bəzi hallarda bölmənin rəhbəri və yaxud mütəxəssis müəyyən məsələni tək başına həll edə bilmir. Odur ki, eyni səlahiyyətə malik olan bölməyə müraciət edir.

işin gedişi üzrə xətti funksional idarəetmodo müxtəlif proqram və lahiyələrin yerinə yetirilməsi matriks idarəetmə sisteminin yaradılmasına gətirib çıxardılmışdır.

Matriks idarəetmə sistemində şəbəkə qrafıkinin yerinə yetirilməsini təmin edən lahiyyə bir və yaxud bir neçə bölməyə ayrılır.

Funksional bölmənin rəhbərləri işin kim tərəfindən və hansı formada yerinə yetirilməsini müəyyən edir. Lahiyə rəhbəri onun vaxtında və keyfiyyətli yerinə yetirilməsinə, funksional bölmə isə bir sıra lahiyələr üzrə onlara tapşırılan məsələlərin yerinə yetirilməsinə cavabdehdirlər.

Matriks idarəetmə sistemi bütünlükdə proqramın yerinə yetirilməsi üzrə məsuliyyəti artınr. Müvafiq rəhbərlərin üfüqi tabeçiliyini təmin edir.

Göstərilən idarəetmə sistemində mütəxəssislərdən gömrük işi sahəsində böyük təcrübəyə malik peşəkar işçilərdən səmərəli istifadə edilir.

.

Gömrük orqanlannın hazırkı vəziyyətinin təhlili idarəetmənin təşkilati qrurluşuna aşağıdakı tələbləri formalaşdırmağa imkan verir.

/. ***Sadəlik və qənaətçillik.*** Aydındır ki, nisbətən çətin təşkilati qurluşu idarəetmə orqanının işini çətinləşdirir, saxlanma xərclərinin artmasına gətirib çıxarır. Ona görə də gömrük orqanlarında yeni struktur bölmələri o, halda yaradılır ki, hər hansı xidmət funksiyasının həyata keçirilməsinin səmərəliliyi başqa bölmələrdə işləyən və bu funksiyanı yerinə yetirən işçilərin fəaliyyəti ilə müqayisədə daha səmərəli olsun. Belə ki, narkotik maddələr üzrə qaçaqmalçılıqla mübarizə şöbəsinin yaradılması gömrükçülərin fəaliyyətinin əvvəlki, yəni bu işin müxtəlif xidmət bölmələrinin işçiləri tərəfindən yerinə yetirildiyi dövrü ilə müqayisədə səmərəliliyinin yüksəldilməsini nəzərdə tutur.

İşçilərin işinə nəzarətin və stimullaşdınimasının həyata keçirilməsi nisbətən az güc və iqtisadi məsrəf tələb etməlidir.

qurluşunun təşkili özünə nəzarətə və işçiləri optimal miqdanna, daxili gücünə, daha doğrusu təşkilati-idarəetmə məsələləri az vaxt və minimum miqdarda işçi qüvvəsinə əsaslanmalıdır. Əgər hər hansı bir təşkilat özünün idarəetmə səyinin və işçilərinin bir hissəsinin daxili problemin həllinə yönəldirsə, onda onlar çalışmalıdır ki, bu xərclər nisbətən az olsun.

2 ***Aydınlıq.*** Gömrük orqanlarının hər bir bölməsi, hər bir işçisi bilməlidir ki, o, hardadır, informasiyaya görə kimə müraciət etməlidir, həmçinin idarəetmə qərarlarını kim qəbul edir. Quruluş aydınlığını sadəliklə qarışdırmaq olmaz. Əksinə, mürəkkəb quruluş aydın ola bilər.

Aydınlığa malik olmayan quruluşda münaqişələr yaranır. İşçilərin vaxt itkisinə məcbur edir, onlarda əsəbilik yaradır, qərarların qəbulunu gecikdirir.

***3. Müəyyənlik*** Təşkilatı quruluş elə formalaşmalıdır ki, hər bir işçi öz məsələsini, vəzifə borcunu özü başa düşsün və yerinə yetirə bilsin. Buna görə də idarəetmənin yuxarı pilləsi ilə onun aşağı pilləsinin minimum itkilər hesabına informasiya ilə təmin etməlidir.

***4. İdarəolunma.*** Təşkilati quruluş müəssisələrdən qərarlann qəbulu prosesini yüngülləşdirməlidir. Biz təşkilatı quruluşda qərarlar “Yuxandan-aşağıya”, yaxşılaşdırma isə əksinə “aşağıdan yuxanya qəbul olunur”.

***5. Möhkəmlik*** Təşkilati quruluş daima stabil olmalıdır. Belə ki, o, ətraf mühitdə baş verən dəyişikliklərdən asılı olmayaraq daima işləməlidir. Hər bir işçi özünü rahat hiss edir, müəyyən dairədə əlaqədə olmağa ehtiyac yoxdur. Odur ki, təşkilati quruluş daima möhkəmlik, özünüidarəetmə və özünüinkişaf etdirmə xüsusiyyətlərini nümayiş etdirməlidir. Buna hər şeydən əvvəl peşəkarlıq, şəxsiyyətin yeni liderinin inkişafı hesabına nail ola bilər.

***6. Çeviklik*** Çeviklik anlayışı yalnız son zamanlar meydana gəlib və açıq sosial sistemlər üçün xarakterikdir. İdarəetmənin təşkilat quruluşunun ən böyüyü və çətini də birdəfəlik müəyyənləşdirilməli “dondurulmuş” olmalıdır.

Təşkilati quruluşun çevikliyi xarici aləmdə baş verən dəyişikliyi

daha tez hiss etməyə və ona uyğunlaşmağa imkan verir. Lakin bu 0, demək deyildir ki, hər hansı bir xırda dəyişiklik bütün struktura yenidən baxmağa məcbur etsin. Buna heç də həmişə ehtiyac olmur.

***7. İdarəetmənin*** təşkilati quruluşunda möhkəmlik və çeviklik vacib göstərici kimi müəssisənin daxili tarazlığının pozulması avtomatik hiss etmək və onu tənzimləmək məqsədilə tədbir hazırlamaq qabiliyyətini xarakterizə edir. Müxtəlif illərdə təşkilat quruluşunda nə qədər az kənarlaşma baş verirsə bir o qədər həmin quruluş möhkəm hesab olunur. Bununla yanaşı quruluşunun, özünün inkişafı və təkmilləşməsi istiqamətində dinamiklik nəzərə alınmalıdır.

***8. Quruluş*** nə qədər mürəkkəb olsa, bağlılıq da bir o qədər artır və bu zaman idarəetmədə aşağıdakı amillər böyük rol oynayır:

- ***Səlahiyyətlərin verilməsi.*** Belə ki, gömrük rəisi bütünlükdə gömrük orqanlarının fəaliyyətinə cavab verir. Lakin o, öz funksiyasının müəyyən hissəsinin gömrük orqanlarının rəis müavininə və gömrük məntəqəsi rəisinə verməyə məcburdur. Öz növbəsində onlar xüsusi qərarların yerinə yetirilməsinin tabeçiliyində olan gömrük işçilərinə ayrı-ayrı mütəxəssislərə həvalə edir, hansı ki, həmin məsələlərin yerinə yetirilməsində onun qarşısında cavabdehlik daşıyır;
- ***Əlaqələndirmə.*** Qarşıya qoyulan məsələnin yerinə yetirilməsində nə qədər çox sayda mütəxəssis iştirak edirsə, onların səyləri daha çox razılaşdırılmalıdır, burada informasiyanın bir səviyyədən başqa səviyyəyə verilməsi və şaquli infonnasiya mübadiləsi də geniş olmalıdır;
- ***Kompitentlik.*** Hər bir gömrük orqanı işçini ciddi surətdə müəyyən edilmiş məsuliyyət dairəsi olmalıdır. Rəhbərin komponentliyi onun bölmədə, şöbədə və yaxud bütünlüklə gömrük orqanlarında işin təşkili prosesində özünü biruzə verir. Rəhbər və işçilərin kopinentliyinə əmin edilməlidir;
- ***Mərkəzləşdirmə.*** Nə qədər çox funksiya və bilavasitə tabeçilikdə olan işçilər gömrük orqanı rəisinin əlində cəmləşirsə bir o qədər onun idarəetmə fəaliyyətinin mərkəzləşdirilməsini göstərir.

Hər bir rəhbər işçi idarəetmə strukturunun aşağı pilləsi ilə birlikdə özündə aşağı pillədə olanlar da hansı səlahiyyətlərin qalmasını düzgün müəyyən etməlidir.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, idarəetmənin rəsmi (formal) quruluşu ilə yanaşı, qeyri-rəsmi (qeyri formal) quruluşu da fəaliyyət göstərir. Onlar əsasən idarəetmə bölməsinin aşağı strukturlannı əhatə edir. Rəsmi quruluş aysberqin görünən tərəfidir və işçilərin şəxsi qarşılıqlı münasibətlərini əks etdirir. İdarəetmənin qeyri rəsmi quruluşu onun görünməyən hissəsidir. Ona görə də rəhbər işçi bütün səviyyələrdə öz təşkilatının ikili quruluşunu qurmalıdır. Material (idarəetmənin təşkilatı quruluşu) və psixoloji (təşki- lati quruluşun bütün bölmələrində kollektivlikçiliyin, işçilərin yüksək mənəvi saflığın təmin edilməsi, qarşıdurma hallannın aradan qaldırılması, tənzimlənməsi və s.).

Başqa sözlə rəhbərin vəzifəsi təkcə işçiləri “bir qayıqda oturtmaqla” bitmir, eyni zamanda o, elə bir şərait yaratmalıdır ki, işçilər özlərini bir kollektivin üzvü kimi hiss etsinlər. Əlbəttə, belə bir məsələnin həlli bilavasitə idarəetmə sistemində bilavasitə rəhbər işçinin baxışından, idarəetmə düşüncələrinin inkişaf səviyyəsindən, öz tabeçiliyində olanlarla münasibətləri qurmaq bacanğından, həmçinin başqa idarəetmə məsələlərinin həllindən çox asılıdır.

Mövzu 15.
# GÖMRÜK ORQANLARI SİSTEMİNDƏ İDARƏETMƏ PROSESİ

1. İdarəetmə prosesinin mahiyyəti və məzmunu.
2. İdarəetmə prosesinin təşkili.
3. İdarəetmə prosesində qərarlar.

## 1. İDARƏETMƏ PROSESİNİN MAHİYYƏTİ VƏ MƏZMUNU

İdarəetmə prosesi idarəetmə sisteminin ən vacib komponenti hesab olunur. İdarəetmə prosesi-idarəetmə subyektinin birləşmiş fəaliyyəti olub (xətti və funksional rəhbərlər, həmçinin başqa idarəetmə işçiləri) idarə olunan obyektin vəziyyətinin keyfiyyətcə dəyişməsinə istiqamətlənmiş məqsədə çatmaqda kollektivin müəyyən idarəetmə funksiya və metodlanndan istifadə etməsini nəzərdə tutur.

İdarəetmə prosesi özünün spesifk məzmununa görə fərqlənən aspektlərə-metodoloji, funksional, iqtisadi, təşkilati və informasiya ayrılır.

Metodoloji aspektdə idarəetmə prosesi mərhələlərlə müəyyən ardıcıllıqla realizə olunur: məqsədyönlülük, vəziyyətin qiymətləndirilməsi, problemin müəyyənləşdirilməsi, idarəetmə qərarlarının işlənməsi.

***Məqsəd*** - gömrük orqanı rəhbərinin idarə olunan sistemin necə olması barədə təsəvvürdür.

***İdarəetmə vəziyyəti*** - idarəetmənin konkret sferasında müəyyən müddətdə yığılmış (daxili və xarici, obyektiv və subyektiv) və rəhbərin lazımi hərəkətini tələb edən bütün şəraitin məcmusudur.

***İdarəetmə vəziyyəti*** sadə və mürəkkəb ola bilər: yaxşı baxılmayan və çətinliklə təhlil olunan idarəetmə vəziyyəti, qısamüddətli vaxt tələb edən idarəetmə vəziyyəti, uzunmüddətli vaxt tələb edən idarəetmə vəziyyəti, qlobal problemli idarəetmə vəziyyəti, xüsusi, kompleks hərəkət və ya müxtəlif tədbirlər tələb edən idarəetmə vəziyyəti.

lemin formalaşmasında qərarlann işlənməsi istiqamətlərini müəyyənləşdirir.

***İadrəetmə qərarlarının*** /^^/ərtwıa^z-problemlərin həlli yollarının axtarılması, eyni zamanda tapılmış yollarla işlərin praktiki həllinin təşkilini əhatə edir.

***Funksional aspekt-bM*** müəyyən olunmuş ardıcıllıqla idarəetmənin ümumi funksiyasının həllidir.

***İqtisadi aspekt-idəxQ*** olunan sistemin resurslarla tələbatı və ondan istifadənin qiymətləndirilməsi ilə əlaqədar idarəetmə sisteminin fəaliyyəti müəyyən edilir.

***Təşkiledici*** <25/?eÄ:?-təşkilati-bölüşdürücü metoddan istifadə etməklə idarəetmə sisteminə ardıcıllıqla təsir göstərilməsidir. Reqlamentləşdirmə, normalaşdırma, təlimatlandırma və məsuliyyət daşıma.

***Sosial*** a^pek^-idarəetmə prosesində idarəetmənin bu və ya digər formada avtomatlaşdırılmasından asılı olmayaraq bütün mərhələlərdə adamların iştirakını müəyyənləşdirir.

***İnformasiya*** <35pe/:n'-idarəetmə prosesində əməlij^atlann aparılması ardıcıllığından asılı olaraq informasiyanın formalaşmasından ibarətdir (axtarış, yığılma, növləşdirmə, ilkin hazırlanma və informasiyanın verilməsi).

İdarəetmə prosesində çoxluğundan asılı olmayaraq bütün əməliyyatlan aşağıdakı formada qruplaşdırmaq olar: məqsədyönlü əməliyyat; informasiya işi üzrə əməliyyat; qərarların variantlarla lahiyələndirilməsi və analitik işlər üzrə əməliyyatlar; hərəkət üçün variantlann seçilməsi əməliyyatı, təşkilati-təcrübəvi işlər üzrə əməliyyatlar.

*Cədvəl 1*

| İdarəetmə mərhələləri | Əməliyyat qrupları | Əməliyyatın tərkibi |
|---|---|---|
| **Məqsədyönlülük** | **Məqsədyönlü** | **1. Məqsədin müəyyənləşdirilməsi<br>2. Məqsədin formalaşdırılması<br>3. Məqsədin qoyuluşu<br>4. Məqsədə düzəliş edilməsi** |
| **Operativ - xidmət şəraitində vəziyyətin Öyrənilməsi, təhlili, qiymətlən- dirilməsi və proqnozlaşdırılması** | **İnformasiya işi** | **1. İnformasiyanın yığılması<br>2. İnformasiyanın saxlanılması<br>3. İnformasiya axtarışı<br>4. İnformasiyanın ilkin hazırlanması** |
| | **Analitik işlər** | **1. Parametrlərin qiymətləndirilməsi<br>2. Göstəricilərin hesablanması<br>3. Qrafıklərin işlənməsi<br>4. Təhlil** |
| **Gömrük işində həllini tələb edən problemin müəyyənləşdirilməsi** | **Hərəkət variantının seçilməsi (qərarların işlənməsi)** | **1. Hərəkət variantının tapılması<br>2. Seçilmənin kriteriyasmm müəyyənləşdirilməsi<br>3. Variantların müqayisəsi<br>4. İdarəetmə metodunun seçilməsi<br>5. Qərarın sənədləşdirilməsinin təşkili<br>6. Qərarların qəbulu** |
| **Problemin həlli, nəzarət, uçot və tənzimlənmə** | **Problemin həllində təşkilati- təcrübəvi işlər** | **1. Qərarların icraçılara çatdırılması<br>2. Qərarların dəqiqləşdirilməsi və aydınlaşdırılması<br>3. Tapşırığın bölüşdürülməsi<br>4. Səlahiyyətlərin bölgüsü (lazım olduqda)<br>5. Qərarların yerinə yetirilməsinə nəzarət<br>6. Əldə olunan nəticələrin uçotu<br>7. Təhlilin qiymətləndirilməsi<br>8. Kənarlaşmanın tənzimlənməsi metodlarına dair qərarların qəbulu<br>9. Məqsədə düzəlişlərin işlənməsi formalarına dair qərarların qəbulu<br>10. Yekunlaşdırma** |

***Gömrük orqanlarında məqsədyönlülük***

Gömrük orqanlarının idarə edilməsinin ümumi və konkret məqsədi Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi haqqında" qanunu və başqa qanunverici və normativ sənədlərlə müəyyənləşir.

Məqsəd nəzəri cəhətdən əsaslandırılmalı müəyyənedici, aydın, miqdarca ölçülü, yerinə yetirilməsi mümkün olmalıdır. Məqsədin əsas məzmunu idarəetmənin müəyyən vəziyyətində onun daha yüksək pilləsinə o cümlədən, daha yüksək idarəetmə məqsədinə çatmağa şərait yaratmalıdır.

Gömrük fəaliyyəti ölkənin daxili və xarici siyasətinin mərkəzində dunnaqla birbaşa vacib sosial-iqtisadi və xarici-iqtisadi proqram və planların yerinə yetirilməsi ilə bağlıdır.

Gömrük orqanlan sistemində idarəetmənin başlıca məqsədi daha doğrusu idarəetmənin strateji məqsədi Azərbaycan Rrespublikasının iqtisadi siyasətinin həyata keçirilməsidir. Hazırki şəraitdə bu arzu olunan nəticə keçid dövründə gömrük xidmətinin məqsədyönlü fəaliyyətinə nail olmaqdır.

İdarəetmə bu məqsədə çatmaqda, gömrük orqanlannda müəyyən kompleks məsələlərin: gömrük xidmətinin hüquq mühafizə orqanı kimi rolunun artırılması; respublikanın gömrük xidməti ilə başqa ölkələrin gömrük xidmətinin inteqrasiya olunmasının möhkəmləndirilməsi; gömrük xidməti işçilərinin gələcəkdə sosial məsələlərinə dair sorğu apanlması və həyata keçirilməsi hesabına həll edilə bilər.

## 2. İDARƏETMƏ PROSSESİNİN TƏŞKİLİ

Gömrük orqanlarında idarəetmə prosesinin təşkili-onun hərtərəfli möhkəmləndirilməsini, dəqiqliyini, ardıcıllığını və həyata keçirilməsinin hüdudlarının müəyyənləşdirilməsini nəzərdə tutur.

İdarəetmə prossesinin təşkili müxtəlif mərhələləri, idarəetmə işlərini yerinə yetirilməsi vacib olan əməliyyatlan, onların müəyyən növ qruplaşmalannı; bütünlükdə idarəetmə sistemində və ayrılıqda onun mərhələlərində idarəetmə prossesinin normal apanl- ması üçün lazımi miqdarda dəqiqləşdirilmiş informasiyanın və başqa amilləri özündə cəmləşdirir.

öz məzmununa görə hər hansı bir idarəetmə prossesi tsikl mərhələ, pillə və fazalardan ibarətdir.

İdarəetmə tsikli vaxtın məhdudlaşdırılması, idarəetmənin bütün ümumi funksiyalannın realizə olunmasının vacibliyi (təhlil və proqnozlaşdırma, planlaşdırma, təşkiletmə, tənzimləmə, uçot və nəzarət) kim başa düşülür.

İdarəetmə tsiklinin həyata keçirilməsi üçün planlaşdınna sisteminin, uçot sisteminin, işlərin fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması sisteminin, informasiya və kadr təminatının, normativ bazanın və s. olması vacibdir.

İdarəetmə prosesinin təşkilinə elmi yanaşılmasının mühüm elementi onun lahiyyələndirilməsidir: bu gömrük orqanlarında idarəetmənin bütün şərtlərinin qabaqcadan təhlil olunmasına əsaslanır. Bu təhlil bir neçə istiqamətdə gedir:

- idarəetmə prosesinin məzmununun təhlili; həll olunan problemin strateji məqsədləri; spesifik şəraiti; xarakteri üzrə fəaliyyətini təmin edən zəruri forma və üsulların seçilməsi;
- idarəetmənin iqtisadi təhlili, onun həyata keçirilməsi üzrə xərclərin müəyyən edilməsi;
- idarəetmə prossesinin təşkilati təhlili - idarəetmə prosesinin nizama salınması və normalaşdırılması hüdudlarını, idarəetmə pillələrinin məsuliyyətini, onların idarəetmə prosesində iştirakı xarakterinin müəyyənləşdirilməsini əhatə edir.
- idarəetmənin sosioloji-psixoloji təhlili qeyri-formal münasibətlərin qiymətləndirilməsini, subyektiv amillərin rolunu və idarəetmə prossesinin həyata keçirilməsində istifadə olunacaq sosioloji-psixoloji üsullan nəzərdə tutur;
- informasiya axınının təhlili-bu idarəetmə prossesində gömrük orqanlarında səmərəli münasibətlərin müəyyən edilməsi üçün vacibdir. Bu mərhələdə informasiya axınlarının operativ tənzimlənməsi, saxlanması, axtanıması, verilməsi və işlənməsi üçün idarəetmənin lazım olan müasir texniki vasitələrdən istifadə etməsi imkanlarını öyrənir.

Layihələndirmə aşağıdakı istiqamətdə həyata keçirilir:

- idarəetmə prosesində işlərin yerinə yetirilməsinin məntiqi əsaslandırılmış və səmərəli ardıcıllığının layihələndirilməsi. İşlərin ayrılması və onlann ardıcıllığının idarəetmə prosesinin mərhələlərinə uyğun olaraq əsaslandınıması;

- idarəetmə üsullannm lahiyyələndirilməsi; buraya fəaliyyətin formasının seçilməsi, uyğunlaşdırma, müzakirə, məlumatvermə və s. kimi zəruri aktlann işlənib hazırlanması, sınaqdan keçirilməsi daxildir.

İdarəetmə prossesinin təkmilləşdirilməsi öz həllini tələb edən bir sıra mürəkkəb problemlər irəli sürür. Bu problemlərə aşağıdakıları aid etmək olar:

- idarəetmənin ayrı-ayrı iş və əməliyyatlarının yerinə yetirilməsi metodikasının işlənib hazırlanması;

- idarəetmənin müasir texniki vasitələrdən istifadə problemi;

- gömrük orqanlarının fəaliyyətində müasir texnikanın, avtomatlaşdırma, kompüterləşmənin sürətlə artması ilə əlaqədar idarəetmə prosesinin sürətləndirilməsi problemi;

- həlli tələb olunan problemlərin xassələri ilə idarəetmə prosesinin ümumi xüsusiyyətlərinin düzgün əlaqələndirilməsi zərurəti, idarəetmənin həyata keçirilmə xüsusiyyətlərinin nəzərə alınması;

- elmi-texniki tərəqqinin idarəetmə prossesinə təsiri. Eyni zamanda məqsədin rolu yüksəlir, rəhbərlərin təşkilat fəaliyyətlərinin həyata keçirilmsində sosioloji-psixoloji amillərin əhəmiyyəti artır.

Gömrük orqanlarında işin nəticəsi əksər hallarda bütün idarəetmə səviyyələrində qəbul olunan qərarlann keyfiyyətindən asılıdır. İdarəetmə qərarları-idarəetmə subyektinin fikri, biliyi, səyi əsasında seçdiyi qərarlar olmaqla idarəetmə sisteminin bu və ya digər variantda aparılmasıdır.

Qərarlar idarəetmə obyekti qarşısında qoyulan məqsəd və vəzifələri fonnalaşdınr, tədbirlərin məqsədəuyğunluğuna baxılır. Həmin məqsəd və vəzifələrin həyata keçirilməsi üçün vacib resurslar müəyyənləşdirilir. Beləliklə, idarəetmə qərarları idarə olunan

sistemin fəaliyyətinin idarə edilməsinin məqsəd və proqramını özündə əks etdirir. Odur ki, gömrük orqanlarında idarəetmənin müvəffəqiyyəti bilavasitə idarəetmə qərarlarının keyfiyyətindən müasir tələblərə uyğun olmasından asılıdır.

İdarəetmə qərarları əlamətlərin müxtəlfliyinə görə növləşdirilir. Lakin müəyyənedici amil qərann qəbul olunduğu şərait hesab olunur. Qərarlar əsas etibarı ilə müəyyən və qeyri-müəyyən şəraitdə qəbul olunur. Müəyyən şəraitdən asılı olaraq standart qərarlar, qeyri-müəyyən şəraitlə bağlı qeyri-standart qərarlar qəbul olunur.

İdarəetmə qərarlarının yaranmasının başlanğıc nöqtəsi məqsəddir. Məqsəd arzu olunan vəziyyətdir. Məqsədi isə insanlar, daha doğrusu gömrük orqanlarının rəhbər işçiləri, mütəxəssisləri irəli sürür. Hər iki halda məqsədin həyata keçirilməsi gömrük orqanlarında vəziyyətin təhlilinə əsaslanmaqla idarəetmə qərarlarının qəbul edilməsi, idarəetmə obyekti haqqında məlumatların yığılması, işlənməsi və nəql edilməsi ilə əlaqədardır.

İdarəetmə qərarlarının qəbul edilməsi gömrük orqanları rəhbərlərinə məxsus olmaqla idarəetmə obyektinin vəziyyətinin dəyişdirilməsi ilə əlaqədar olaraq göstərilən proseslər təkrar edilir.

Lakin idarəetmə qərarlan həmişə yüksək səvİ3^ədə, müasir tələblərə uyğun formada hazırlanmır. Belə qərarlar bir qayda olaraq özünü tam doğrultmur, bəzi hallarda isə bir sıra mənfi nəticələrə gətirib çı- xanr. Odur ki, idarəetmə prosesində idarəetmə qərarlanna qarşı bir sıra tələblər irəli sürülür. Belə tələblər aşağıdakılardan ibarətdir:

- qəbul olunmuş qərarlar dövlətin vahid iqtisadi siyasətinə uyğun gəlməli, onun iqtisadi təhlükəsizliyini təmin etməlidir;
- idarəetmə qərarları gömrük orqanları sistemində qəbul olunmuş mövcud qanunlarla, qanunverici sənədlərə və başqa normativ aktlara uyğun gəlməli, dövlət intizamının qanunçuluğunun təmin edilməsinə şərait yaratmalıdır;
- idarəetmə qərarları elmi xarakter daşımalı, mürəkkəb məsələlərin, problemlərin həllinə kömək etməlidir;
- idarəetmə qərarlan xarici iqtisadi fəaliyyətdə ümumdövlət

vəziyyətin tənzimlənməsinə şərait yaratmalıdır;

- idarəetmə qərarları obyektiv informasiyaya əsaslanmalı və gömrük orqanlarının, bütünlüklə sistemin xüsusiyyətlərini nəzərə almalıdır (burada keyfıyyətlilik, obyektivçilik, dəqiqlik vacib amil kimi nəzərə alınmalıdır);
- gömrük orqanları sistemində idarəetmə qərarları konkret olmalı, qeyri-müəyyənlik, mücərrədlik, sözçülük və s. hallara yol verilməməlidir;
- idarəetmə qərarları müəyyən nüfuza malik olmalı, gömrük orqanı işçilərinin ona olan inamını və ehtimadını doğrultmalıdır;
- idarəetmə qərarları regional xüsusiyyətlərə, qonşu dövlətlərlə münasibət, gömrükxanaları, gömrük məntəqələrində fəaliyyət göstərən infrastruktur, idarəetmə obyektləri nəzərə alınmaqla differen- siallaşdırılmalıdır;
- idarəetmə qərarlannın dili, üslubu-sadə, aydın, yığcam olmalıdır.

Gömrük orqanlannda idarəetmə qərarlarına qarşı mühüm əhəmiyyət kəsb edən aşağıdakı tələblər irəli sürülür:

- qərarların məqsədəuyğun olması (qərarların müəyyən məqsədlərlə konkret əlaqələndirilməsi);
- qərarların kəmiyyət və keyfiyyət müəyyənliyinə malik olması (kəmiyyət və keyfiyyət göstəricilərinin ifadə edilməsi);
- qərarların optimal olması (optimal variantlara əsaslanması və gömrük orqanlarının əsas xüsusiyyətlərini özündə əks etdirməsi);
- qərarların kompleksliliyi (iqtisadi, siyasi, sosial baxımdan yanaşma);
- qərarların stimullaşdırıcı, təsiredici xassəyə malik olması (qərarların, icraçıların, maddi və mənəvi maraqların uyğun gəlməsi);
- qərarlann çevikliyi (gömrük orqanlannda idarəetmə prosesində amillərin dəyişməsi ilə bağlı qərarlarda müəyyən düzəlişlərin edilməsi).

***Qərarların hazırlanması^ qəbul edilməsi və həyata keçirilməsi***

Hansı formada qərarların qəbul olunmasından asılı olmayaraq idarəetmə nəzəriyyəsi ilə praktikasının məqsədəuyğun formada

**Ən yaxşı variantın seçilməsi və qərarın qəbul edilməsi.**

Bu cür seçmə bir-biri ilə qarşılıqlı əlaqədə olan kriteriyalar qrupunun qiymətləndirilməsi zamanı apanlır. Hansı ki, onun sayı və məzmunu hər dəfə yaranan konkret problemli vəziyyətdən irəli gəlir. Nisbətən vacib kriteriyalara aid edilir: güc və vəsaitin lazımı miqdarı; hazırki hərəkət üçün onun hazırlıq səviyyəsi; material məsrəflərinin dərəcəsi; problemin həlli üçün limitləşdirilmiş vaxt.

Üstün hərəkətin seçilməsi nisbətən çətin problem hesab olunur, çünki, belə bir şəraitdə riskin dərəcəsinə xüsusi diqqət yetirilməlidir, Daha doğrusu nəzərdə tutulan hərəkətin aparılmasının gözlənilən nəticəyə mənfi təsiri nəzərə alınmalıdır.

Subyektin gücü onun özünə inamı bir variantın seçilməsi və qəbul edilməsində əmələ gələ biləcək tərəddüdləri və fikir dəyişmələrini aradan qaldınr.

Qərarın qəbul edilmsi prossesində seçilmiş proyektin detallan dəqiqləşdirilir, qərann hüquqlan müəyyənləşdirilir, onun arzu olunan möhkəmlik səviyyəsi, forması müəyyən edilir və bundan sonra yerinə yetirilməsi üçün idarəetmə gücünü alır. Qərarın forması onun məzmununa uyğun olmalıdır. İdarəetmə qərarları yalnız və yaxud şifahi formada bildirilir. Qərarın yazılı forması ən yaxşı qəbul olunan hesab edilir. Və onun yerinə yetirilməsinə nəzarəti, işin sonrakı təhlilini asanlaşdırır.

Gömrük orqanlannda işçilərin müxtəlif hərəkəti yazılı formada sanksiyalaşdınlır, sənədlərin hazırlanması, formalaşdırılması, həmçinin göstərişləri, təyinatlan, tapşırıqlann şifahi çatdıniması müxtəlif materiallara imza atılması yolu ilə həyata keçirilir.

Beləliklə, idarəetmə qərarlarının qəbul edilməsi prossesi-idarəetmə məqsədinə çatmaqla bütün idarəetmə fəaliyyətinin səviyyəsidir. İdarəetmə sistemin vacib komponent kimi idarəetmə qərarlarının qəbulu prossesi mərhələli olmalıdır.

İdarəetmə prossesinini təşkili, hər hansı bir təşkilatda əməliyyatın hüdudlarının və vaxtını müəyyənləşdirir. Müasir mərhələdə idarəetmənin təkmilləşdirilməsində idarəetmənin təşkilinin rolu ölçüyə gəlməyən səviyyədə artır.

İMTAHAN (MƏQBUL) SUALLARI

1. Azərbaycan Respublikasında gömrük işi və gömrük tənzimlənməsi anlayışı. Müasir gömrük işinin məqsədi, mahiyyəti və strukturu.
2. Azərbaycanın gömrük siyasəti. Onun yerinə yetirilməsi, məqsədi və üsulları.
3. Azərbaycanda gömrük işinin həyata keçirilməsinin qanunvericilik əsası.
4. Azərbaycanın gömrük ərazisi və gömrük sərhəddi.
5. Müasir gömrük terminalogiyası (əsas anlayışlar).
6. Azərbaycan Respublikası gömrük orqanlannın strukturu və əsas funksiyaları.
7. Mal və nəqliyyat vasitələrinin gömrük sərhəddindən keçirilməsinin əsas prinsipləri.
8. Gömrük öncəsi infrastruktura və onların gömrük orqanlarının müxtəlif səviyyələri ilə qarşılıqlı əlaqəsi.
9. Gömrük daşıyıcısının rolu. Mallann gömrük daşıyıcısı vasitəsi ilə daşınması.
10. Gömrük brokerinin hüquq və vəzifələri.
11. Gömrük infrastrukturunun tərkibində gömrük anbarları.
12. Malların müvəqqəti saxlanılması.
13. Müvəqqəti saxlama anbarı; onun təsisi edilməsi qaydalan.
14. Gömrük işi tərkibində gömrük - tarif tənzimlənməsi. Gömrük tarifləri; anlayış, məqsədi və elementləri.
15. Gömrük rüsumlan: onların növləri, stavka dərəcələri, hesablanması, ödəmə vaxtı və qaydası, ödəmə vaxtının dəyişməsi gömrük rüsumlarının ödənilmədiyi hallar.
16. Gömrük preferensi sistemi və onun idxal rüsumlarına miqdarına təsiri.
17. İdxal və ixrac mallarının gömrük dəyərinin müəyyənləşdirmə metodlan.
18. XİF MN və hormonikləşdirilmiş kodlaşdırma sistemi və gömrük işində malların təfsiri.
19. Gömrük orqanlannın mallannm təsnifləşdirilməsi haqqında öncədən qərarlar.

rinə nəzarət və ərizə GDB və onun yazılması qaydası. Gömrük dəyəri və gömrük ödəmələrinə düzəlişlər.

21. Gömrük ödəmələri haqqında anlayış, növləri və onların xarakteristikası. Gömrük ödəmələrinin ödənilməsi üzrə ümumi şərtlər, öhdəliyin yerinə yetirilməsi.
22. Gömrük ödəmələrinin təmin olunması.
23. Gömrük ödəmələrinə görə töhmətləndirmə. Gömrük rüsumları, vergilər və digər pul vasitələrinin qaytarılması,
24. Gömrük nəzarətinin apanima prinsipləri. Gömrük nəzarəti zonası.
25. Gömrük nəzarəti; anlayış formaları və aparılma qaydalan.
26. Bank-gömrük valyuta nəzarəti.
27. Gömrük prosedurları anlayışı və gömrük prosedurlarının növləri. Gömrük prosedurlarının seçilməsi və gömrük prosedurlarının dəyişdirilməsi.
28. Əsas gömrük prosedurlarının xarakteristikası.
29. İqtisad gömrük prosedurlannm xarakteristikası.
30. Yekunlaşdırıcı gömrük prosedurlarının xarakteristikası.
31. Xüsusi gömrük prosedurlarının xarakteristikası. Digər gömrük prosedurları.
32. Gömrük rəsmiləşdirilməsi aparılması anlayışı, qaydası, başlan ması və yekunlaşması, yeri və vaxtı.
33. Gömrük rəsmiləşdirilməsi üçün vacib sənədlər və məlumatlar.
34. Ayn-ayrı şəxslər üçün gömrük rəsmiləşdirilməsinin xüsusi sadələşdirilmiş proseduru.
35. Malların gətirilməsi və aparılması.
36. Daxili gömrük tranziti.
37. Mallann bəyan edilməsi.
38. Mallann bəyan edilmə yeri.
39. Təmsilçinin hüquq və vəzifələri.
40. Gömrük bəyannaməsinin təqdim edilmə müddəti.
41. Mallann bəyan edilməsi zamanı sənədlərin təqdim edilməsi.
42. Gömrük bəyannaməsinin qəbul edilməsi.
43. Gömrük bəyannaməsinin növləri.

## İSTİFADƏ EDİLƏN QAYNAQLAR


1. Azərbaycan Respublikasının Konstitutsiyası. Bakı, Qanun-1998.
2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2011.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 2000.
4. 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 561 saylı fərmanı.
5. "Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin tətbiqi haqqında" Azərbaycan Respublikasının Prezidenti İ.PI.Əliyevin 15 sentyabr 2011-ci il tarixli fərmanı.
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2000.
7. Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Dövlət statistika Komitəsinin buraxılışı. Bakı, 2009-2010.
8. Azərbaycan Respublikasının idxal-ixrac əməliyyatları (2000-2010-cu illər) Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı, 2011.
9. Əliyev A.Ə. Azərbaycanın xarici ticarət iqtisadi əlaqələri. Bakı, 2001.
10. Əliyev V. Azərbaycanın XİF tənzimlənməsində gömrük tarifinin tətbiqi problemləri. Bakı, 2006.
11. Əliyev A.Ə. Gömrük işi və dünya iqtisadiyyatının inkişafı. Bakı, 2003.
12. Əliyev A.Ə. Azərbaycanın iqtisadi siyasəti (Azərbaycanın xarici ticarət əlaqələri). Bakı, 2003.
13. "Gömrük xəbərləri" qəzetinin dövrü nəşri.
14. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2005.
15. "Dövlət rüsumları haqqında" Azərbaycan Respublikasının 24 mart 1995-ci il tarixli qanunu. "Hüquq ədəbiyyatı", Bakı, 2001.
16. Heydərov K.F. Gömrük işinin əsasları, gömrük orqanlarının iqtisadi fəaliyyəti. 2-ci cild, Bakı, 1999.
17. Heydərov K.F. Gömrük işinin əsasları gömrük işinin təşkili və texnalogiyası. 1-ci cild, Bakı, 1998.
18. Heydərov K.F. Gömrük işinin əsasları, gömrük orqanlarının hüquq-mühafizə fəaliyyəti. 3-cü cild, Bakı, 2000.

19. Heydərov K.F. Gömrük işinin əsasları, gömrük işinin idarə edilməsi və inkişafı. 4-cü cild, Bakı, 2000.
20. Heydərov K.F. İbrahimov T.T. Gömrük işi, iqisadi suverenlik və təhlükəsizlik. Bakı, 1999.
21. Nuriyev C., Əliyev Z., İsmayilov G. Gömrük statistikası. Dərs vəsaiti, "Qanun" nəşriyyatı, Bakı, 2000.
22. Nuriyev C.Q. Beynəlxalq iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi. Bakı, 2000.
23. Feyzullayev L.Ə., İbişov E.İ., İsrafılov H.A. Beynəlxalq ticarət işi. Bakı, 2001.
24. Nuriyev C.Q. Gömrük hüququ. Bakı, 2002.
25. Əliyev A.Ə., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti. Bakı, 2002.
26. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Reallıqlar və perspektivlər. Bakı, 2009.
27. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı, 2003.
28. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə., Əhmədov S.T. Gömrük ekspertizası. Bakı, 2003.
29. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. Beynalxalq iqtisadi münasibətlər və beynalxalq bazarın təşəkkülü. Bakı, 1996.
30. Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1999.
31. Gənciyev G.Ə. Milli iqtisadiyyat. Bakı, 1998.
32. Gənciyev G.Ə. Beynəlxalq iqtisadi münasibətlər müasir vəziyyət və inkişaf problemləri. Bakı, 2005.
33. Gənciyev G.Ə., Mehrəliyev İ.İ. Ölkəşünaslığın əsaslan. Bakı-2001.
34. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Rzayev H., Kəlbiyev Y.A. Vergitutmanın nəzəri və metodoloji əsasları. Bakı, 2001.
35. Mehrəliyev İ.İ. Gömrük işi. Bakı, 2008.
36. Mehrəliyev İ.İ., Abduləzimov Ə.B. Gömrük fəaliyyətinin iqtisadiyyatı. Bakı, 2008.

37. Quliyev E.A., Mehrəliyev İ.İ. Müasir dövrdə xarici-iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin xüsusiyyətləri. Bakı, 2011.
38. Mehrəliyev İ.İ. Daxili bazarın formalaşmasında gömrük xidmətinin rolu. AKU xəbərləri. Bakı, 2003.
39. Mehrəliyev İ.İ. Gömrük nəzarəti və qeydiyyatı xarici iqtisadi təhlükəsizliyin vacib həlqəsidir. Audit jurnalı. 2004 (1).
40. “Azərbaycan Respublikası ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlanmn dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdan haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 dekabr 2003-cü il tarixli 161 saylı qərarı.
41. Azərbaycan Respublikasından ixrac zamanı ixrac gömrük rüsumlanna cəlb olunan mallann siyahısı və ixrac rüsumlarının dərəcələri “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının 24 mart 1995-ci il tarixli qərarı.
42. Dövlət rüsumlarının dərəcələri və ödənilməsi qaydası haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 29 iyun 1995-ci il tarixli 156 saylı qərarı.
43. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının 20 iyun 1995-ci il tarixli qərarı.
44. “Azərbaycan Respublikasında ixrac-idxal əməliyatlan üzrə gömrük rüsumlanmn dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımlann miqdarı haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12 aprel 2001-ci il tarixli 80 №-li qəran.
45. Тимошенко И.В. Таможенное регулирование ВЭД. М., Бератор Пресс, 2003.
46. Назаренко В.М, Назаренко К.С. Таможенное обслуживание внещнеэкономической деятельности. М., Экзамен, 2001.
47. 0СНОВЫ таможенного дела: Учебник (под общий ред. В.Г. Драганова) М., Экономика, 1998.

# ƏLAVƏLƏR

**‘Gömrük işinin təşkili” fənni üzrə tədris proqram layihəsi**

# “GÖMRÜK İŞİNİN TƏŞKİLİ”FƏNNİNİN
# PROQRAMI
(bakalavr pilləsi üçün)

## "GÖMRÜK İŞİNİN TƏŞKİLİ" FƏNNİ ÜZRƏ TƏDRİS PROQRAM LAYİHƏSİ

### Mövzu 1. "Gömrük işinin təşkili" fənninin məqsəd və vəzifələri.

***Mövzunun planı:***

1. Gömrük işi fənninin məqsəd və vəzifələri.

Gömrük işi fənninin tədris proqramının strukturu xüsusi praktiki istiqaməti olan geniş profilli iqtisadçıların hazırlanmasına istiqamətlənmişdir.

Kursun məqsədi - tələbələrə Azərbaycanda gömmk işinin təşkili sahəsində toplanmış təcrübənin əsaslarını öyrətmək, xarici iqtisadi fəaliyyətin tənzimlənməsini, həmçinin Azərbaycan qanunvericiliyində nəzərdə tutulmuş gömrük formalıqlarının praktiki yerinə yetirilməsini, eyni zamanda gömrük işinin həyata keçirilməsində gömrük qanunvericiliyinə uyğun səmərəli realizasiya yolunun seçilməsi haqqında biliklərə yiyələndinnəkdir.

Kursun vəzifələri:

- xarici iqtisadi fəaliyyətin gömrük nəzarəti sistemini və onun növləri, fəaliyyəti qaydalarını xarakterizə etmək;
- gömrük orqanları sistemində gömrük tarif tənzimlənməsi mexanizmini və onun realizə edilməsi prinsiplərini təqdim etmək;
- mövcud gömrük prosedurlan və fəaliyyətdə olan gömrük proseduru çərçivəsində onlann rəsmiləşdirilməsi qaydalarına baxılmasını;
- XİF iştirakçılarının tərəfindən gömrük ödəmələrinin tərkibi və onların hesablanması, ödəmə qaydalarını öyrətmək;
- Azərbaycanın gömrük siyasətinin həyata keçirilməsində müxtəlif gömrük səviyyələrinin funksional rolunu göstərmək

### Mövzu 2. Azərbaycanda gömrük işinin təşkili və onun hüquqi əsasları.

***Mövzunun planı:***

1. Gömrük işi və gömrük tənzimlənməsi anlayışı, gömrük işinin elementləri və məqsədi.

2. Azərbaycanda gömrük işinin normativ hüquqi əsasları.

3. Azərbaycan Respublikasında gömrük siyasəti və onun həyata keçirilməsi üsulları.

4. Azərbaycan Respublikasında gömrük orqanlannın stukturu və onlann əsas fimksiyaları.

5. Azərbaycan Respublikasının gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsinin əsas prinsipləri.

"Gömrük işi" haqqında anlayış və onun əsas mövqeyi. Vahid dövlət gömrük siyasətində və Azərbaycan Respublikasında Xarici İqtisadi Fəaliyyətin dövlət tənzimlənməsində onun yeri və rolu.

Azərbaycan Respublikasında gömrük işinin yenidən təşkili: onun səbəbləri və istiqamətləri. Gömrük xidmətinin yaradılması və onun yaradılma qurluşunun prinsip və funksiyalarının işlənilməsi. Azərbaycan Respublikasında gömrük xidmətinin inkişaf proqramı. Gömrük orqanlarının təşkilatı strukturu.

Gömrük tənzimlənməsi və gömrük işi haqqında anlayış. Azərbaycan Respublikasında gömrük siyasəti, dövlətin ümumi iqtisadi məsələlərinin həll edilməsində onun əhəmiyyəti və rolu. Gömrük siyasətinin həyata keçirliməsinin metodları və məqsədi.

Gömrük ərazisi və gömrük sərhəddi haqqında anlayış. Azərbaycan Respublikasının gömrük ərazisinin hüdudlan.

Azərbaycan Respublikasında gömrük işinin həyata keçirilməsinin qanunvericilik, hüquqi əsasları.

**Mövzu 3. Gömrük infrastrukturu və onun gömrük sistemində rolu.**

***Mövzunun planı:***

1. Azərbaycanın gömrük sistemində infrastrukturun birləşdirici elementləri və onlann təyinat məqsədləri. Gömrük brokeri haqqında anlayış və onun statusu.

2. Gömrük daşıyıcıları onların rolu və statuslan, fəaliyyətlərinin tərkibi.

3. Gömrük infrastrukturunun tərkibində gömrük anbarları.

4. Müvəqqəti saxlama prosedurları. Müvəqqəti saxlama anbar-

lan.

5. Gömrük infrastrukturunun gömrük sisteminin fəaliyyətinə təsiri.

Gömrük infrastrukturu obyektləri əsas gömrük infrastrukturları, gömrük brokerləri, daşıyıcıları və gömrük anbarları. Digər gömrük infrastruktur obyektləri-rüsumsuz ticarət mağazaları, gömrük labaratoriyalan, elmi tədqiqat və təhsil müəssisələri, məsləhətçi və təhsil firmaları.

Gömrük infrastrukturu üzərinə düşən vəzifələri.

Gömrük brokerləri onların vəzifələri. Gömrük brokerlərinin Reyestrə düşməsi şərtləri. Ondan tələb olunan sənəd və məlumatlar. Brokerin şəhadətnaməsinin fəaliyyət müddəti. Brokerlərlə ixracatçı və idxalçılarının qarşılıqlı münasibətlərinin əsası. Brokerlərin hüquqlan, funksiyaları.

Gömrük daşıyıcılan, onların fəaliyyət dairəsi, statusu və onların rolu. Daşıyıcı kim ola bilər? Daşıyıcının reyestrə düşmə şərtləri. Şəhadətnaməsinin fəaliyyət müddəti. Daşıyıcının öhdəliyi.

Gömrük infrastrukturu tərkibində gömrük anbarları. Gömrük anbarlarının tipləri. Sərbəst anbarlar, sərbəst gömrük anbarları prosedurunun məzmunu. Sərbəst iqtisadi zonalarda sərbəst anbarların fəaliyyəti.

Gömrük anbarlan onların fərqli cəhətləri. Gömrük anbarları prosedurunun məzmunu. Onun reyestrə düşmə şərtləri. Malların orada saxlanılma müddəti. Şəhadətnamələrinin fəaliyyət müddəti. Gömrük anbarlarının tipləri.

Müvəqqəti saxlanc anbarı, müvəqqəti saxlanc proseduru. Bu malların statusu. Müvəqqəti saxlanc anbarında həyata keçirilən əməliyyatlar. Müvəqqəti anbar prosedurunun yekunlaşması. Mallann bu prosedur altında yerləşdirmə müddəti. Konkret amillərdən asılı olaraq mallar üçün vaxtın müəyyən edilməsi.

Müvəqqəti anbara malların yerləşdirilməsi. Müvəqqəti gömrük anbarı sahibinin vəzifələri, onun reyestrə düşmə şərtləri.

**Mövzu 4. Azərbaycan gömrük siyasəti gömrük işinin əsasıdır.**

***Mövzunun planı:***

1. Gömrük tarif tənzimlənməsi sistemi anlayışı. Gömrük tarifi anlayışının əsas məqsəd və elementləri,
2. Gömrük rüsumları onların növləri, satvkalarm dərəcələri. Gömrük preferensiya sistemi.
3. Azərbaycan gömrük tarif təsnifat sisteminin əsası Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası (XİF MN).
4. Malların mənşə ölkəsinin təyin edilməsi.

Gömrük tarifinin mahiyyəti. Gömrük tarif tənzimlənməsinin hüquqi əsaslan. Gömrük tarifi haqqında Azərbaycan Respublikasının qanunu. İqtisadi tənzimləmə üsullan. Tarif üsulu. Gömrük rüsumlan və rüsum dərəcələrinin növləri. Advolor, spesifik və kombinə edilmiş rüsumlar. Mövsümi rüsumlar. Xüsusi növ rüsumlar. Tarif güzəştləri. Gömrük rüsumlarının hesablanmasında “Mənşə ölkəsi” anlayışı. Malın mənşə ölkəsinin təyini meyarları. Emal edilmə me- yarlan. Faiz tərkibi meyarlan. Kifayət qədər emal edilmə meyarının ifadə formaları. Advolor hissə qaydasından kifayətedici meyar kimi istifadə etdikdə dəyər göstəricilərinin hesablanması. Kifayətedici emal meyanmn tələblərinə aid edilməyən əməliyyatlar.

Qeyri-tarif məhdudiyyətlərinin təsnifatı. İqtisadi qeyri-tarif məhdudiyyətlər. İnzibati qeyri-tarif məhdudiyyətlər. Para tarif tədbirləri. İnhisar (monopolist) tədbirlər. Texniki tədbirlər. Dünya təcrübəsində qeyri-tarif məhdudiyyətləri və onların tətbiqi.

XİF MN anlayışı və malların təsnifatı. Beynəlxalq təcrübədə istifadə edilən təsnifat sistemləri və Mal Nomenklaturaları. Xarici

**Mövzu 5. Gömrük prosedurları, onların mal və nəqliyyat;vasitələrinin keçirilməsi sistemindəki spesifik xüsusiyyətləri.**

***Mövzunun planı:***

1. Gömrük prosedurları anlayışı, təyinatı və mahiyyəti.
2. Əsas gömrük prosedurları.

3. iqtisadi gömrük prosedurları.
4. Yekunlaşdırıcı gömrük prosedurları.
5. Xüsusi gömrük prosedurları.

Gömrük proseduru anlayışı. Gömrük proseduru gömrük qanunvericiliyinin əsas kateqoriyası kimi. Gömrük prosedurunun növləri.

Sərbəst dövriyyə üçün buraxılış gömrük prosedurunun iqtisadi məzmunu və tətbiqi xüsusiyyətləri.

Təkrar idxal gömrük prosedurunun iqtisadi məzmunu və tətbiqi xüsusiyyətləri.

Tranzit gömrük prosedurunun məzmunu və tətbiqi xüsusiyyətləri.

Gömrük anban gömrük prosedurunun iqtisadi məzmunu və tətbiqi xüsusiyyətləri.

Rüsumsuz ticarət mağazası prosedurunun iqtisadi məzmunu və tətbiqi xüsusiyyətləri.

Gömrük ərazisində emal gömrük prosedurunun iqtisadi məzmunu və əsas xüsusiyyətləri.

Müvəqqəti idxal (ixrac) gömrük prosedurunun mahiyyəti və əsas xüsusiyyətləri.

Sərbəst gömrük zonası prosedurunun əsas xüsusiyyətləri, mahiyyəti və əhəmiyyəti.

Gömrük ərazisindən kənarda emal gömrük proseduru, onun mahiyyəti, fərqli xüsusiyyətləri.

İxrac gömrük proseduru iqtisadi məzmunu və yerinə yetirilməsi xüsusiyyətləri.

Təkrar ixarc gömrük proseduru iqtisadi məzmunu, həyata keçirilmə xüsusiyyətləri.

Malların məhv edilməsi proseduru iqtisadi məzmunu onun həyata keçirilməsi xüsusiyyətləri.

## Mövzu 6. Malların gömrük dəyəri və onların müəyyənləşdirilməsi metodları.

***Mövzunun planı:***

1. Malların gömrük dəyəri anlayışı və əsas funksiyaları.

2. Malların gömrük dəyərinin təyin olunmasının dünya praktikası.

3. Gömrük dəyərinin təyin olunması üsulları.

4. Gömrük dəyərinin funksiyaları.

5. Malların gömrük dəyərinin müoyyənləşdirilməsinin gömrük orqanlarının iqtisadi fəaliyyətlərində əhəmiyyəti.

6. Gömrük dəyərinin, gətirilən mallann sövdələşmə qiyməti ilə müəyyən edilməsi.

7. İdentik (eyni) mallann sövdələşmə qiyməti üsulu.

8. Eyni cinsli mallann sövdələşmə üsulu.

9. Dəyərin toplanması üsulu.

Gömrük dəyori anlayışı Gömrük dəyərinin funksional təyinatı. “Gömrük dəyəri Kodeksi”, “Mallann gömrük dəyəri” məfhumu. Malların gömrük dəyərinin təyin edilməsinin normativ hüquq bazası. Gömrük dəyərinin müəyyən edilməsi sistemi. Mallann gömrük dəyərini bəyanetmə. Azərbaycan Respublikasının ərazisinə gətirilən malların gömrük dəyərinin bəyan edilməsi. Gömrük dəyərinin təyin olunması üsulları, onun funksiyaları, gömrük dəyərinin gömrük orqanlarının iqtisadi fəaliyyətlərindəki əhəmiyyəti. Gömrük dəyərinin təyin edilməsi zamanı gömrük təmsilçisi və bro- kerinin, 0 cümlədən gömrük orqanlarının hüquq və vəzifələri. Gömrük dəyər bəyannaməsinin doldurulması qaydaları. Gömrük dəyərinin təyin edilməsi üzrə dünya təcrübəsi.

Gömrük dəyərinin gətirilən malların sövdələşmə qiyməti ilə müəyyən edilməsi (I üsul), identik (eyni) mallann sövdələşmə qiyməti ilə müəyyənləşdirilməsi (II üsul). Eyni cinsli malların sövdələşmə qiyməti üsulu. Dəyərin çıxılması üsulu (IV üsul).

**Mövzu 7. Azərbaycan Respublikasında gömrük sərhəddindən keçirilən mallar və nəqliyyat vasitələrinə gömrük nəzarəti.**

***Mövzunun planı:***

1) Gömrük nəzarəti anlayışı, məqsədi, subyektləri və obyektləri.

2) Gömrük nəzarətinin aparılma forma və qaydaları.

3) Gömrük nəzarətinin aparılması zamanı ekspertiza və tədqiqatlar.

4) Gömrük nəzarətinin aparılmasının bəzi xüsusiyyətləri.

5) Bir sıra mallara qarşı gömrük orqanları tərəfindən görülən tədbirlər.

Gömrük işi sistemində gömrük nəzarəti əsas əməliyyatlardan biri kimi. Gömrük nəzarəti anlayışı. Gömrük nəzarətinin fonnaları. Gömrük nəzarətinin həyata keçirilməsinin əsas mərhələləri. Mal və nəqliyyat vasitələrinin sənədlərinin yoxlanılması. Mal və nəqliyyat vasitələrinə gömrük baxışı, mal və nəqliyyat vasitələrinin gömrük müayinəsi. Gömrük nəzarətinin metodları. Gömrük nəzarətinin subyektləri və obyektləri. Gömrük nəzarətində istifadə olunan xüsusi texniki vasitələr, şəxsi yoxlama. Gömrük nəzarətindən azad etmə. Malların və nəqliyyat vasitələrinin gömrük nəzarətində olma müddəti. Diplomatik toxunulmazlıq. Gömrük güzəştləri tətbiq olunan beynəlxalq təşkilatlar.

Gömrük nəzarəti üçün tələb olunan sənədlər. Ticarət sənədləri. Nəqliyyat sənədləri. Gömrük sənədləri. Gömrük nəzarətinin həyata keçirilməsi üçün mütəxəsis ekspertlərin cəlb edilməsi. Gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən gömrük nəzarətinin həyata keçirilməsi. Gömrük nəzarəti məqsədləri üçün mallardan prob və nümunələrin götürülməsi. Malların gömrük nəzarəti altında daşınması.

## Mövzu 8. İdxal-ixrac əməliyyatlarına gömrük valyuta nəzarəti.

***Mövzunun planı:***

1) İdxal-ixrac əməliyyatlarına gömrük valyuta nəzarəti.
2) Gömrük orqanlarının valyuta nəzarəti sistemində rolu və yeri.
3) Malların ixracı-idxalı zamanı valyuta həyata keçirilməsi.

Gömrük sistemində valyuta nəzarətinin əhəmiyyəti. Azərbaycan Respublikasının valyuta siyasəti. Azərbaycan Respublikasının valyuta sistemi. Valyuta nəzarəti orqanları və agentləri. Gömrük orqanlarında valyuta nəzarətinin aparılması. Ölkə ərazisindən ixrac

edilən mallann müqabilində valyuta vasitələrinin ödənilməsinə nəzarət. İlkin nəzarət. Analitik nəzarət. Bitkin sənədli nəzarət, ixrac əməliyyatlarında hesablaşmalara nəzarət. Valyuta vasitələri qaydalarının pozulmasına görə inzibati və cinayət məsuliyyətləri. Valyuta nəzarətinin ölkənin iqtisadi təhlükəsizliyində rolu. Valyuta nəzarəti və valyuta tənzimlənməsi. Valyuta nəzarotinin aparılmasının hüquqi əsaslan.

**Mövzu 9. Gömrük statistikası və onun xarici iqtisadi əlaqələr sistemində rolu.**

*Mövzunun planı:*

1) Gömrük statistikası və onun xarici əlaqələr sistemində rolu.

2) Xarici ticarətin gömrük statistikası və onun vəzifələri.

3) Xarici ticarətin gömrük statistikasının formalaşma mərhələləri vo uçot.

4) Xarici ticarət üzrə uçot sistemi.

Gömrük statistikası haqqında məlumat. Gömrük statistikasının göstəriciləri. Gömrük statistikasının göstəricilərinin mənbəyi. Gömrük statistikası göstəricilərinin araşdırılması və işlənilməsi üsulları: Statistik cəmləmə və qruplaşdırma, qrafik üsul, balans üsulu, indeks üsulu, amil (faktor) üsulu. Xarici ticarət gömrük statistikası. Xarici ticarətin gömrük statistikasının metodologiyası. Xüsusi gömrük statistikası. Xarici iqtisadi fəaliyyətdə xidmətlərin statistikası.

**Mövzu 10. Azərbaycan Respublikasında gömrük rəsmüəş-dirilməsinin ümumi qaydaları.**

*Mövzunun planı:*

1. Gömrük rəsmiləşdirilməsi anlayışı, əhəmiyyəti və məzmunu.

2. Azərbaycan Respublikasında gömrük ərazisinə malların daxil olma qaydaları.

3. Daxili gömrük tranziti bir gömrük proseduru kimi

4. Azərbaycan Respublikasında gömrük ərazisindən mallann çıxarılması, aparılması qaydaları.

5. Malların bəyan edilməsi anlayışı və məzmunu.
6. Malların buraxılışı: şərtləri və xüsusiyyətləri.

Gömrük rəsmiləşdirilməsi anlayışı özündə bir neçə əməliyyatı birləşdirməsi. Gömrük rəsmiləşdirilməsinin gömrük nəzarəti, valyuta nəzarəti, gömrük ödənişlərinin toplanması, gömrük qaydalarının pozulması kimi bir sıra məsələlərlə əlaqədar olması. Gömrük rəsmiləşdirilməsi gömrük prosesinin mənbəyidir. Gömrük sərhəd- dindən keçirilən bütün mal və nəqliyyat vasitələrinin bu prosesə məruz qalması. Mal və nəqliyyat vasitələrinə qarşı əməliyyatların həyata keçirilməsi.

Gömrük rəsmiləşdirilməsi XİF iştirakçılarının subyektlərinin hüquq və qanuni maraqlarının gözlənilməsi. Gömrük rəsmiləşdirilməsində milli dilin gözlənilməsi. Gömrük rəsmiləşdirilməsinin başlanması və yekunlaşdınıması. Gömrük rəsmiləşdirilməsinin yeri və vaxtı. Gömrük rəsmiləşdirilməsi və digər nəzarət növləri. Gömrük rəsmiləşdirilməsi üzrə güzəştlər. Gömrük ərazisinə daxil olma qaydaları. Daxili gömrük tranziti gömrük proseduru kimi. Malların bəyan edilməsi, onun mahiyyəti. Bəyan etmə formaları. YGB- nin həyata keçirilməsi. Bəyan edilən zaman tələb olunan sənədlər, ilkin gömrük bəyannaməsi. Malların dövrü bəyan edilməsi. Malların bəyan edilməsi üzrə mütəxəssislərin hüquq və vəzifələri. Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin əsas vəzifələri.

## Mövzu 11. Gömrük ödəmələri.

***Mövzunun planı:***

1. Gömrük ödəmələri haqqında anlayış vo növləri.
2. Gömrük ödəmələrinin ödənilmə qaydaları.
3. Gömrük ödəmələrinin hesablanması qaydaları.

Gömrük ödəmələrinin tutulmasının hüquqi əsasları. Gömrük rüsumlarının tətbiqi xüsusiyyətləri. Əlavə dəyər vergisinin tətbiqi xüsusiyyətləri. Aksis vergisinin tətbiqi xüsusiyyətləri. Azərbaycan Respublikasının gömrük işini aparan İcra Hakimiyyəti orqanı tərəfindən lisenziyalann verilməsi və lisenziyalann fəaliyyətinin bərpa edilməsinə görə yığımlar. Gömrük rəsmiləşdirilməsi üzrə mütə

xəssislərə ixtisas atestatlannın verilmosi və atestatların fəaliyyətinin bərpa edilməsinə görə yığımlar. Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları. Mallann saxlanılmasına görə gömrük yığımları. Mallann gömrük müşayətinə görə gömrük yığımları. Məlumatlandırma və məsləhət verməyə görə haqq. İlkin qərarların qəbuluna görə haqq. Gömrük aksionlarında iştirak etməyə görə haqq.

Gömrük ödənişlərinin hesablanması qaydaları. Gömrük ödənişlərinin ödənilməsinin təmin edilməsi. Gömrük ödənişlərinin ödənilməsi üçün möhlət verilməsi və vaxtın uzadılması. Gömrük ödənişlərindən azad olunma. Müxtəlif gömrük prosedurlarında vergi və rüsumların tətbiqi qaydaları. Gömrük ödənişlərinin Yük Gömrük Bəyannaməsində göstərilməsi qaydaları. Gömrük ödənişlərinin tutulması və ödəyidlərin məsuliyyəti.

## Mövzu: 12. Gömrük orqanlarının hüquq mühafizə fəaliyyəti.

***Mövzunun planı:***

1. Gömrük orqanlarının hüquqi inzibati formalı hüquq mühafizə fəaliyyəti. Gömrük qaydalarının pozulması anlayışı.
2. Azərbaycan Respublikası Dövlət Gömrük Orqanının hüquq mühafizə sahəsindəki gömrük qanunvericiliyinə uyğun funksiyaları.
3. Gömrük Orqanlannm hüquq mühafizə fəaliyyətinin formalan.
4. Gömrük orqanlarının inzibati-hüquq və inzibati prosesual hüquq mühafizə formaları.
5. Gömrük qaydalannm pozulmasına görə qoyulan cərimələrin növləri.
6. Gömrük Orqanlannm hüquq mühafizə fəaliyyətinin cinayət-hüquqi və cinayət-prosesual formaları. Gömrük orqanlarının səlahiyyətlərinə aid olan cinayətlər.

Gömrük qaydalarının pozulması anlayışı. Qanun pozuntusuna qarşı fəaliyyət və ya fəaliyyətsizlik. Gömrük qaydalannm pozulmasının tərkibi. Qanun pozuntularının obyektiv tərəfləri. Ziyanlı və ictimai təhlükəli pozuntular. Qanun pozuntularının obyektləri

və subyektləri. Qarşısı alınmaz qüvvələr nəticəsində baş verən hadisələr.

Gömrük orqanlannm hüquq mühafizə fəaliyyətinin həyata keçirilmə formalan. İnzibati-hüquqi; inzibati-prosesual, cinayət-hüquqi; cinayət-prosesual, əməliyyat-axtarış.

Gömrük orqanlarının cinayət-hüquqi və cinayət-prosesual formaları.

Gömrük orqanlarının səlahiyyətlərinə aid olan cinayətlər: qaçaqmalçılıq, Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii-tarixi və arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikası ərazisinə qaytarılmaması, gömrük ödənişlərinin ödənilməsindən yayınma, qanunsuz valyuta əməliyyatları.

Gömrük qaydalarının pozulmasına görə inzibati cəzalar: xəbərdarlıq, cərimə, lisenziyanın geri alınması, mal və nəqliyyat vasitələrinin dəyərində cərimələr. Nəqliyyat vasitələrinin dəyərində cərimələr, nəqliyyat vasitələrinin müsadirə edilməsi, mal və nəqliyyat vasitələrinin dəyərində cərimələr, nəqliyyat vasitələrinin müsadirə ediməsi, cinayəti yüngülləşdirən şərtlər və şərait.

## Mövzu: 13. Gömrük orqanlarında idarə edilməsinin əsasları.

***Mövzunun planı:***

1. İdarəetmə anlayışı.
2. İdarəetmənin prinsipləri.
3. İdarəetmə funksiyası.
4. İdarəetmə metodları.

Gömrük işinin idarəetmə sisteminin quruluşu. Gömrük işinin idarəedilməsi anlayışı, vəzifəsi və funksiyası. Fəaliyyət göstərmə prinsipləri. Ayrı-ayrı subyektlərin əlaqəsi. İdarəetmə metodları, ümumi idarəetmə, birbaşa təsir metodu, tənzimləmə, nəzarət funksiyası, idarəetmənin dəqiqlik funksiyası, reqlamentləşdirmə, nor- malaşdırma, hüquqi, sosioloji, iqtisadi idarəetmə, metodlarının xüsusiyyətlərinin təhlil edilməsi.

**Mövzu: 14. Gömrük orqanlarında idarəetmə sisteminin təşkilatı quruluşu.**

***Mövzunun planı:***

1. İdarəetmənin təşkilati quruluşu və idarəetmə növləri arasında əlaqə.
2. İdarəetmə quruluşuna tələblər.

İdarəetmənin təşkilati quruluşunun elementləri, idarəetmə həlqələri, idarəetmə səviyyəsi qarşılıqlı əlaqələr. İdarəçilik münasibətləri, DGK gömrükxana, gömrükxana rəisi, gömrükxana şöbələri, gömrük postları və idarəetmə strukturuna verilən tələblər: sadəlik və qənaətçilik, aydınlıq-müəyyənlik, sabitlik, çeviklik, daxili narazılığın saxlanılması. İdarəetmə pilləsi.

**Mövzu: 15. Gömrük orqanları sistemində idarəetmə prosesi.**

***Mövzunun planı:***

1. İdarəetmə prosesinin mahiyyəti və məzmunu.
2. İdarəetmə prosesinin təşkili.
3. İdarəetmə prosesində qərarlar.

İdarəçilik şəraiti-konkret idarəetmə sahəsində müəyyən zamanda meydana çıxan və rəhbərin müvafiq hərəkətini tələb edən bütün şərtlərin məcmusu. Gömrük orqanlannda məqsədin müəyyən edilməsi. İdarəetmə sistemində əməliyyatlann bölgüsü. İdarəetmə prosesində qərar qəbul edilməsi. Qərarların hazırlanması qəbulu və reallaşdırılması. Ən yaxşı variantın seçilməsi və qərann qəbulu.

## “Gömrük işi’’ fənninin tədrisinə ayrılan saatların mövzular üzrə paylanması.

| № | Mövzular | Cəmi | 0 cümlədən | | |
|---|---|---|---|---|---|
| | | | Mühazirə | Seminar məşğələsi | |
| 1. | Gömrük işi fənninin məqsəd və vəzifələri. | 4 | 2 | 2 | |
| 2. | Azərbaycanda gömrük işinin təşkili və onun hüquqi əsasları. | | | | |
| 2.1 | Gömrük işi və gömrük tənzimlənməsi anlayışı. Azərbaycan Respublikasında gömrük işinin elementləri və məqsədi. | 4 | 2 | 2 | |
| 2.2 | Azərbaycanda gömrük işinin normativ hüquqi əsasları. | | | | |
| 2.3 | Az.Res-da gömrük siyasəti və onun həyata keçirilməsi üsulları. | | | | |
| 2.4 | Azərb.Res-da gömrük orqanlarının strukturu və onların əsas funksiyaları. | | | | |
| 2.5 | Az.Res-nın gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsi. | | | | |
| 3. | Gömrük infrastrukturu və onun gömrük sistemində rolu. | 4 | 2 | 2 | |
| 3.1 | Azərbaycanın gömrük sistemində infrastrukturun birləşdirici elementləri və onların təyinat məqsədləri. Gömrük brokeri haqqında anlayış və onun statusu. | | | | |
| 3.2 | Gömrük daşıyıcıları onların rolu və statusları. Fəaliyyətlərinin tərkibi. | | | | |
| 3.3 | Gömrük infrastrukturunun tərkibində gömrük anban. | | | | |
| 3.4 | Müvəqqəti saxlanc prosedurları. Müvəqqəti saxlanc anbarları. | | | | |
| 3.5 | Gömrük infrastrukturunun gömük sisteminin fəaliyyətinə təsiri. | | | | |
| 4. | Azərbaycan gömrük siyasəti gömrük işinin əsasıdır. | 4 | 2 | 2 | |
| 4.1 | Gömrük-tarif tənzimləmə sistemi anlayışı. Gömrük-tarif anlayışının əsas məqsədi və elementləri. | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 4.2 | Gömrük rüsumları: onların növləri, stavkaların dərəcələri. Gömrük preferensiya sistemi. | | | |
| 4.3 | Azərbaycan gömrük - tarifi əsasında təsnifləşdirmə sixemi. XİF MN. | | | |
| 4.4 | Malların mənşə ölkəsinin təyini. | | | |
| 5 | Gömrük prosedurları və onların mal və nəqliyyat vasitələrinin keçirilmə sistemində spesifikası. | 4 | 2 | 2 |
| 5.1 | Gömük prosedurları anlayışı, təyinatı və mahiyyəti. | | | |
| 5.2 | Əsas gömrük prosedurları. | | | |
| 5.3 | İqtisadi gömrük prosedurları. | | | |
| 5.4 | Yekunlaşdırıcı gömrük prosedurları. | | | |
| 5.5 | Xüsusi gömrük prosedurları. | | | |
| 6 | Gömrük dəyəri, onun toyin edilməsinin gömrük tariflərinin həyata keçirilməsində rolu. | 4 | 2 | 2 |
| 6.1 | Malların gömrük dəyəri anlayışı və funksivaları. | | | |
| 6.2 | Malların gömrük dəyərinin təyin olunmasının dünya praktikası. | | | |
| 6.3 | Gömrük dəyərinin təyin olunması üsulları | | | |
| 6.4 | Gömrük dəyəri və onun funksiyaları. | | | |
| 6.5 | Malların gömrük dəyorinin müəyyənləşdirilməsinin gömrük orqanlarının iqtisadi fəaliyyətində rolu. | | | |
| 6.6 | Gömrük dəyərinin gətirilon malların sövdəloşmə qiyməti ilə müəyyən edilməsi. | | | |
| 6.7 | İdentik malların sövdəloşmə qiyməti üsulu. | | | |
| 6.8 | Eyni cinsli malların sövdələşmə qiyməti üsulu. | | | |

| | | | | |
|---|---|---|---|---|
| **6.9** | **Dəyərin forma toplanması və çıxılması üsulu.** | | | |
| **7.** | **Azərbaycan Respublikasında gömrük sərhəddindən keçirilən mallar və nəqliyyat vasitələrinə gömrük nəzarəti.** | **4** | **2** | **2** |
| **7.1** | **Gömrük nəzarəti anlayışı, məqsədi subyektləri və obyektləri.** | | | |
| **7.2** | **Gömrük nəzarətinin apanima forma və qaydaları.** | | | |
| **7.3** | **Gömrük nəzarətinin aparılması zamanı ekspertiza və tədqiqatlar.** | | | |
| **7.4** | **Gömrük nəzarətinin aparılmasının bəzi xüsusiyyətləri.** | | | |
| **7.5** | **Bir sıra mallara qarşı gömrük orqanları tərəfindən görülən** | | | |
| **8.** | **İdxal-ixrac əməliyyatlarına gömrük - valyuta nəzarəti.** | **4** | **2** | **2** |
| **8.1** | **Valyuta nəzarəti sistemində gömrük orqanlarının rolu və yeri.** | | | |
| **8.2** | **Malların ixracı-idxalı zamanı valyuta nəzarətinin həyata keçirilməsi.** | | | |
| **9.** | **Statistika. Gömrük statistikası və onun xarici iqtisadi əlaqələr sistemində rolu.** | **4** | **2** | **2** |
| **9.1** | **Gömrük statistikası xarici əlaqələr statistikasının tərkib hissəsidir.** | | | |
| **9.2** | **Xarici ticarətin gömrük statistikası və onun vəzifələri.** | | | |
| **9.3** | **Xarici ticarətin gömrük statistikasının formalaşma mənbələri və uçot obyektləri.** | | | |
| **9.4** | **Xarici ticarət üzrə uçot sistemi.** | | | |
| **10.** | **Azərbaycan Respublikasında gömrük rəsmiləşdirilməsinin ümumi qaydaları.** | **4** | **2** | **2** |
| **10.1** | **Gömrük rəsmiləşdirilməsi anlayışı, əhəmiyyəti və məzmunu.** | | | |

| | | | | |
|---|---|---|---|---|
| 10.2 | Azorbaycan Respublikasında gömrük orazisino malların daxil olma qaydaları. | | | |
| 10.3 | Daxili gömrük tranziti bir gömrük proseduru kimi. | | | |
| 10.4 | Azorbaycan Respublikasında gömrük ərazisindən malların çıxarılması (aparılması) qaydaları. | | | |
| 10.5 | Mallann bəyan edilməsi anlayışı və məzmunu. | | | |
| 10.6 | Malların buraxılışı: şərtləri və xüsusiyyətləri. | | | |
| 11. | Gömrük ödənişləri. | 4 | 2 | 2 |
| 11.1 | Gömrük ödənişləri haqqında anlayış və növləri. | | | |
| 11.2 | Gömrük ödənişlərinin ödənilmə qaydaları. | | | |
| 12. | Gömrük orqanlarının hüquq mühafizə fəaliyyəti. | 4 | 2 | 2 |
| 12.1. | Gömrük orqanlarının hüquqi inzibati formalı hüquq mühafizə fəaliyyəti. Gömrük qaydalarının pozulması anlayışı. | | | |
| 12.2. | Azərbaycan Respublikası Dövlət Gömrük Orqanının hüquq mühafizə sahəsindəki gömrük qanunvericiliyinə uyğun | | | |
| 12.3. | Gömrük Orqanlarının hüquq mühafizə fəaliyyətinin formaları. | | | |
| 12.4. | Gömrük orqanlarının inzibati-hüquq və inzibati prosesual hüquq mühafizə formaları. | | | |
| 12.5. | Gömrük qaydalarının pozulmasına görə qoyulan cərimələrin növləri. | | | |

| | | | | |
|---|---|---|---|---|
| 12.6. | **Gömrük Orqanlarının hüquq mühafizə fəaliyyətinin cinayət-hüquqi və cinayət-prosesual formaları. Gömrük orqanlarının səlahiyyətlərinə aid olan cinayətlər.** | | | |
| 13. | **Gömrük orqanlarında idaro edilməsinin əsasları.** | **4** | **2** | **2** |
| 13.1. | **İdarəetmə anlayışı.** | | | |
| 13.2. | **İdarəetmənin prinsipləri.** | | | |
| 13.3. | **İdarəetmə funksiyası.** | | | |
| 13.4. | **İdarəetmə metodları.** | | | |
| 14. | **Gömrük orqanlannda idarəetmə sisteminin təşkilatı quruluşu.** | **4** | **2** | **2** |
| 14.1. | **İdarəetmənin təşkilati quruluşu və idarəetmə növləri arasında əlaqə.** | | | |
| 14.2. | **İdarəetmə quruluşuna tələblər.** | | | |
| 15. | **Gömrük orqanları sistemində idarəetmə prosesi.** | **4** | **2** | **2** |
| 15.1. | **İdarəetmə prosesinin mahiyyəti və məzmunu.** | | | |
| 15.2. | **İdarəetmə prosesinin təşkili.** | | | |
| 15.3. | **İdarəetmə prosesində qərarlar.** | | | |
| | Cəmi | **60** | **30** | **30** |

## GÖMRÜK ÖDƏMƏLƏRİNİN HESABLANMASI QAYDALARI

1. Gömrük ödəmələrinin hesablanması qaydalan,

1.1. Gömrük dəyərinin hesablanması.

İdxal olunan malların gömrük dəyərini müəyyən etmək üçün gömrük dəyəri bəyənnaməsindən istifadə edilir. GDB-1 və GDB-2.

GDB-1 forması gömrük dəyərinin bəyan edilməsi üçün müəyyənləşdirilmişdir və gətirilən malların sövdələşmə qiyməti üsulu ilə. 1 (gömrük əməliyyatlarının 95%-i).

GDB-2 gömrük dəyərinin 2-6 üsullarının birindən istifadə üçün nəzərdə tutulmuşdur (2-ci üsul, indefitik "mallann sövdələşmə qiyməti ilə". 3-cü üsul " eynicinsli mallann sövdələşmə qiyməti ilə", 4-cü üsul "dəyərin çıxılması üsulu ilə", 5-ci üsul "dəyərin toplanması üsulu ilə", 6-cı üsul "ehtiyyat üsulu") qanunvericilikdə müəyyən edilmiş qaydada.

a) İdxal olunan malların sövdələşmə qiyməti ilə gömrük dəyərinin hesablanması.

$$GD=A+B-V$$

GD - gömrük dəyəri

A - Hesablama üçün əsas (sövdələşmə qiyməti, dolayı xərclər).

B - Gömrük dəyərinə əlavə edilməli olan və sövdələşmə qiymətlərinə əlavə hesablama.

V- Silinməli məbləğ

***Hesablama üçün əsas:*** Bu bölmədə (qiymətə aid göstəricilər) faktiki ödənilmiş və ya ödənilməyə məruz qalan qiymətə aid göstəricilər verilir. O da mallann dəyərini müəyyən edən əsasdır. Bu halda çatdınima şərtləri və kontraktın digər şərtlərindən asılı olaraq bu qiymətə əlavə hesablamalar, ondan çıxılma tələb olunur, göstərilən qiymət gətirilən malların gömrük dəyərinə bərabər olacaqdır.

***Sövdələşmə qiymətlərinə əlavə etmək:*** Bu bölmədə alıcının sövdələşmə qiymətinə daxil olmayan və sövdələşmə qiymətinə əlavə olunmayan daha doğrusu satıcı tələblərindən alıcıya təqdim edilmiş

hesab fakturasına əlavə edilməyən, ancaq Azərbaycan Respublikası ərazisinə gətirilmiş qiymətləndirilmə mallarına adiyyatı olan və alıcı tərəfindən ödənilən məsrəflər öz əksini tapır (və ya ödənməli olan). Onlara aid edilir, kommision və digər vasitəçilik xidmətləri, konteynerlərə və bağlamalara xərclər, xammalın dəyəri, alətlərə, ştamplara və digər, alıcıya pulsuz və ya endirilmiş qiymətlərlə göstərilən mühəndis və digər işlər. Həmçinin Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən malların daşınması və sığorta xərcləri, əgər onlar sövdələşmə şərtlərinə uyğun olaraq sövdələşmə qiymətinə əlavə edilmişsə.

EXW, FAS çatdırma şərtləri: Bu bölməyə həmçinin satıcının mallann ixrac ərazisindən aparılması zamanı gömrük rəsmiləşdi-rilməsinə görə xərcləri əlavə edilir.

Aksizlərin hesablanması

A) Aksiz vergisinə məruz qalmış hər mal vahidinə avro dərəcəsi ilə mal aksizin hesablanması aşağıdakı düsturla aparılır:

Acl = Bm **X** Al **X** Ke/kvk

Acl - aksizin miqdan;

Bm - malın miqdan;

Al - aksizin avro ( ) ilə malın hər vahidinə dərəcəsi;

Ke - Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən gömrük bəyanaməsinin qəbul edildiyi günə müəyyən etdiyi avronun ( ) kursu.

Kvk -malın dəyərinin göstərildiyi valyutanın Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən gömrük bəyannaməsinin qəbul edildiyi günə müəyyən etdiyi kursu.

Məsələn:

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallar bəyan edilir:

Mal -“Tokay” şərabı tərkibində spirtin konsentrasiyası həcmə görə 17%;

XİF MN görə malın kodu - 220421430;

Malın miqdan - 7560 litr;

Aksiz dərəcəsi - 0.5 (avro) hər litr üçün;

Malın gömrük dəyəri göstərilən valyutanın kursu;

1,5 man - 1 İsveç frankına

Avronun kursu - 1 (avro) =1 man 05 qəp

Məsələnin şərti: Aksizin miqdarını hesablamaq:

IləlU:

Bm = 7560 Al = 0,5 Ke = İm 05 Kvk = 1,5 man

Acl = 7560 x 0,5 x 1,05 / 1,5 = 3780

B) Malların gömrük dəyəri ilə faizlə aksizə məruz qalan mallara qarşı aksizin hesablanması (advolor dərəcəsi ilə) aşağıdakı düsturla həyata keçirilir:

Ad2 = Gd X A2

Ad2 - Aksizin miqdan;

Gd - malın gömrük dəyəri;

A2 - aksizin faizlə gömrük dəyərinə görə dərəcəsi.

Məsələn:

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallar bəyan edilir:

Mal - yun xalçalar;

XİF MN - na görə malın kodu - 570500100;

Malın gömrük dəyəri - 45 000 ABŞ dollan;

Aksiz dərəcəsi gömrük dəyərinin 10%-i;

Məsələ: Aksizin miqdarını hesablayın Həlli:

Gd = 45000;

A2 = 10%;

Ad2 = 45000 X 10% = 4500ABŞ dollar.

C) Aksizə məruz qalan mallara qarşı kombinə edihniş dərəcə ilə aksizin hesablanması 3 mərhələdə həyata keçirilr.

Əvvəlcə aksizin miqdarı hər mal vahidinə avro dərəcəsi ilə hesablanır, sonra aksizin miqdan gömrük dəyərinə görə faizlə hesablanır. Aksizin miqdanm müəyyənləşdinnək üçün ödənilmənin ən yüksək həddi istifadə edilir.

Məsəl»: Mallar Azərbaycan Respublikası ərazisinə gətirilmək üçün bəyan edilir.

Mal - spirt “Royal”
XİF MN-na görə mahn kodu - 220710000;
Malın miqdan - 2000 litr;
Müqavilə valyutsr - ABŞ dollan;
Malm gömrük dəyəri - 2700 ABŞ dollan;
Aksizin dərəcəsi - 400%, hər litr üçün 4 avrodan az olmayaraq;
Avronun kursu -1 (avro)= 1 man 05 qəp

Məsələ: Aksizin miqdanm hesablayın.
Həlli:
Adl = 2000 x 4? 1,05 / 078,5 = 8360
Ad2 = 2700 x 400% = 10800 doll.
Adl<Ad2

Silinmiş (ləğv edilmiş) məbləğ: Bu bölmədə sövdələşmə qiymətinin cəmindən mallann çatdınima əməliyyatlarına çəkilən məsrəf xərclərinin, mallann Azərbaycan Respublikası gömrük ərazisinə gətiriləndən sonra, daha doğrusu idxal yerindən, malın çatdırılma yerinə daşınma xərcləri. Təsdiqedici sənədlər olduqda göstərilə bilər. Burada mallara Azərbaycan Respublikası gömrük ərazisinə gətirildikdən sonra montaj, yığma, avadanlığın nakladkası və ya texniki kömək göstərmək və s. göstərilə bilər.

Bu hallar üçün hesab-fakturada aynca sütun aynimış və uyğun məbləğ göstərilmişdir. Əgər müqavilə ilə çatdınlmanm CİP, CPT, DDP, DDU, CİF şərtləri nəzərdə tutulubsa beləliklə, faktura dəyərinə, mallann təyinat yerinə çatdırılması.

Gömrük dəyərinin hesablanması:

$$GD = A+B+V$$

GD - Gömrük dəyəri;

A - Hesablama üçün əsas, (identik malların sövdələşmə qiymətləri ilə).

B - Qiymətə düzəlişlər (kommersiya şərtlərinə partiyanın ölçüsünə düzəliş).

V - Əlavə hesabla və ödənişlər (daşınma, sığorta, malların işlənilməsinə əlavə xərclər).

Hesablamanın əsasları: Bu bölmədə faktiki ödənilmiş və ya ödənilәsi qiymət haqqında verilir ki, onlar da malın gömrük dəyərinin müəyyənləşdirilməsi üçün əsas sayılır. Bu halda, əgər göndərmə şərtlərindən və kontraktın digər şərtlərindən asılıdırsa onda bu qiymətə əlavə hesablama, ondan çıxmalar tələb olunur, göstərilən qiymət gətirilən malların gömrük dəyərinə bərabər ola bilər.

Qiymətə düzəlişlər: Düzəlişlər “___” işarəsi ilə ola bilər. Əgər qiymətlər arasında, dəyər qiyməti artınlarsa onda “ + “ işarəsi ilə ola bilər. Düzəlişlər partiyanın miqdarına edildiyi vaxt, ilk növbədə (qiymətlərə endirimlər nəzərə alınır) satıcı tərəfindən alınan mal partiyasının miqdarına görə qiymətə endirimlər nəzərə alınır.

ƏDV hesablanması.

Əlavə dəyər vergisi (ƏDV) aşağıdakı düstur vasitəsi ilə hesablanır:

$$\text{ƏDVM} = (GD = \text{İGD} + AD) \times H / 100$$

ƏDVM - Əlavə dəyər vergisinin miqdan;

İGD - İdxal malının gömrük dəyəri;

GD - İdxal gömrük rüsumunun miqdan (əgər tutulursa);

AD - aksizin miqdan (əgər məruz qalırsa);

H - Əlavə dəyər vergisinin miqdarı (stavka)

idxal və ixrac gömrük rüsumlarının hesablanması.

A) İdxal və ixrac gömrük rüsumlannm hər mal vahidinə görə (spesifik rüsumlarla). Avro stavkası ilə gömrük rüsumları alman mallara qarşı hesablanması aşağıdakı düsturla aparılır:

Rrl=MmxSrl xEk/Vk Rrl = Mm X Srl X Ek

Rrl - gömrük rüsumunun miqdarı;

Mm - malların miqdarı;

Srl - hər mal vahidinə avro ilə gömrük rüsumunun (stavkası) dəyəri;

Ek - Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş evronunu bəyannamənin qəbul edildiyi günə məzənnəsi;

Vk - mallann gömrük dəyərinin göstərildiyi valyutanın Azərbaycan Respublikasının Mərkəzi Bankının gömrük bəyannaməsinin qəbul etdiyi günə məzənnəsi.

Azərbaycanın ticarət-siyasi münasibətdə daha əlverişli şərait təqdim etdiyi ölkələrin istehsal etdiyi mallann idxalı zamanı gömrük rüsumlannm baza stavkaları təqdim olunur.

Mənşəi inkişaf etməkdə olan ölkələrə aid olan mallar üçün üstün (preferensial) gömrük rüsum stavkalan fəaliyyət göstərir. Hazırki vaxtda onun həcmi baza stavkasının 75% müəyyən edilmişdir.

Mənşəi nisbətən az inkişaf etmiş həmçinin MDB ölkələrindən olan mallar üçün gömrük rüsumlarının sıfır stavkası tətbiq olunur (gömrük rüsumları tutulmur).

Əgər Azərbaycana gətirilən mallar mənşə etibarilə Azərbaycanın daha əlverişli şərait rejimi vermədiyi və ya malların mənşə ölkəsi məlum deyilsə, onda həmin mallara qarşı maksimal gömrük rüsumları stavkası tətbiq olunur (baza stavkasının iki misli qədər).

Məsələn:

Azərbaycan gömrük ərazisinə gətirilən mallar bəyan edilir:

Mal - təzə alma (sirkə istehsalı üçün);

Malın kodu XİF MN görə - 080810100;

Malın miqdarı 2000 kq;

İdxalın gömrük rüsumunun stavkası - hər 1 kq-a 0.2 avro;

Malın gömrük dəyəri alman markası ilə göstərilmişdir;

Malın gömrük dəyərinin göstərildiyi valyutanın kursu 1 alman markasına 80 qəp.

Avronun kursu - 1 avro -1 man

Malın mənşə ölkəsi Türkiyədir.

Mənşəyi Türkiyədən olan mallara daha əlverişli milli rejim tətbiq olunur.

Məsələ: İdxal gömrük rüsumlannın qədərini hesabla.

Həlli:

Mm = 2000 kq

Rs = 0,2

Ek = 1 man.

Vk = 80 qəp.

Rrl = 2000 X 0,2 X 1 / 80 qəp.

B) İdxal və ixrac gömrük rüsumlannın mallann gömrük dəyərinə görə alınmalı gömrük rüsumlarını gömrük dəyərinə görə faizlə (ad-volor star) hesablanması aşağıdakı düsturla həyata keçirilir.

Təcrübi tapşırıqlar

Məsələ № 1

Alış-satış müqaviləsi ilə Londondan Bakıya avianəqliyyatla gətirilmiş toxuculuq məmulatları partiyasının gömrük dəyərini hesabla.

Alış - satışın bazis şərtləri - FOB aeroport Xiton partiyanın miqdan 1000 kq.

Malın qiyməti - 9 avro hər kq-mı;

Nəqliyyat xərcləri: qablaşdırma - 10 avro;

Göndərilmə aeroportuna çatdırma - 25 avro;

Göndərmə aeroportundan təyinat limanına daşıma - 725 avro;

Təyinat limanından daşıma - 190 avro;

Sığorta - 14 avro.

**Məsələ № 2**

Romadan Bakıya alqı-satqı müqaviləsinə əsasən avianəqliyyatlarla çatdınlan tekstil məmulatları partiyasının gömrük dəyərini hesablayın. Alqı-satqının bazis şərtləri DDP.

Partiyanın miqdan - 2000 kq;

Malın qiyməti - hər kq 10 avro;

Nəqliyyat xərcləri - 22 avro;

Göndərilmə aeroportuna çatdınlma - 15 avro;

Göndərmə aeroportundan təyinat aeroportuna daşıma -725 avro;

Təyinat aeroportundan daşıma - 90 avro;

Sığorta - 14 avro.

**Məsələ JV» 3**

Haaqadan Bakıya alqı-satqı müqaviləsinə əsasən dəniz nəqliyyatı ilə çatdınlan trikotaj məmulatları partiyasmın gömrük dəyərini hesablayın. Alqı-satqının baziş şərti - CİF.

Partiyanın miqdan -3000 kq;

Malın qiyməti - 90 doll. hər kq-mı;

Nəqliyyat xərcləri: qablaşdırma - 160 doll;

Göndərilmə limanına çatdırma - 150 doll;

Göndərmə limanından təyinat limanına çatdırma- 130 doll;

Təyinat limanından daşıma - 14 doll;

Sığorta - 46 doll.

**Məsələ № 4**

FOB bazis şərtləri ilə Hamburqdan Bakıya alqı-satqı müqaviləsi ilə dəniz nəqliyyatı ilə göndərilmiş elektrotexnika məmulatları partiyasının gömrük dəyərini hesablayın.

Partiyanın miqdarı -2000 kq;

Malın qiyməti - 40 doll. hər kq-mı;

Nəqliyyat xərcləri: qablaşdırma - 160 doll;

Göndərilmə limanına çatdırma - 150 doll;

Göndərmə limanından təyinat limanına göndərilmə- 330 doll;

Təyinat limanından daşıma - 14 doll;

Sığorta - 46 doll;
İdxal rüsumu - 20%.

**Məsəb № 5**

DES bazis şərti ilə Bremendan Balaya alqı-satqı müqaviləsi ilə, dəniz nəqliyyatı vasitəsilə göndərilmiş tikinti konstruksiya partiyasının gömrük dəyərini hesablayın.

Partiyanın miqdarı -3000 kq;
Malın qiyməti - 10 doll, hər kq-mı;
Nəqliyyat xərcləri: qablaşdırma - 60 doll;
Göndərilmə limanına daşınma - 50 doll;
Göndərmə limanından təyinat limanına daşınma - 330 doll;
Təyinat limanından daşıma - 14 doll;
Sığorta - 46 doll;
İdxal rüsumu - 20%.

**Məsəb № 6**

DEQ bazis şərti ilə Londondan Bakıya alqı-satqı müqaviləsi ilə dəniz nəqliyyatı vasitəsilə göndərilmiş sənaye məmulatları partiyasının gömrük dəyərini hesablayın.

Partiyanın miqdan -2000 kq;
Malın qiyməti - 10 doll, hər kq-mı;
Nəqliyyat xərcləri: qablaşdırma - 160 doll;
Göndərilmə limanına çatdırma - 250 doll;
Göndərmə limanından təyinat limanına daşınma - 290 doll;
Təyinat limanından daşıma - 24 doll;
Sığorta - 110 doll;
İdxal rüsumu - 20%.

**Məsəb № 7**

FCA bazis şərti ilə Tokiodan Gəncəyə alqı-satqı müqaviləsi əsasında hava nəqliyyatı ilə çatdmlmış elektrocihaz partiyasının gömrük dəyərini hesablayın.

Partiyanın miqdarı -173 kq;

Bütün partiyeınm dəyəri - 3000 doll.
Qablaşdırma - 19 doll;
Göndərilmə hava limanına çatdırılma - 15 doll;
Göndərmə aeroportundan təyinat aeroportuna çatdırma-217 doll;
Təyinat aeroportundan daşıma - 23 doll;
Sığorta - 160 doll;
İdxal rüsumu - 20%.

**Məsələ № 8**

CİP bazis şərti ilə Tokiodan Sumqayıt şəhərinə alqı-satqı müqaviləsi ilə hava nəqliyyatı vasitəsilə göndərilmiş elektrocihaz partiyasının gömrük dəyərini hesablayın.

Partiyanın miqdarı -300 kq;
Bütün partiyanın dəyəri - 3500 doll.
Qablaşdırma - 19 doll;
Göndərilmə hava limanına çatdınima - 105 doll;
Göndərilmə limanından təyinat limanına çatdırma - 217 doll;
Təyinat hava limanından daşınma - 113 doll;
Sığorta - 160 doll;
İdxal rüsumu - 20%.

**Məsələ № 9**

DDU bazis şərti ilə Berlindən Naxçıvana alqı-satqı müqaviləsi əsasında hava nəqliyyatı ilə göndərilən videotexnika partiyasının gömrük dəyərini hesablayın.

Partiyanın miqdarı - 450 kq;
Bütün partiyanın dəyəri - 4000 doll.
Qablaşdırma - 190 doll;
Göndərilmə aeroportuna çatdırılma - 100 doll;
Göndərmə aeroportundan təyinat aeroportuna çatdırma-227 doll;
Təyinat aeroportundan daşıma - 113 doll;
Sığorta - 260 doll;
İdxal rüsumu - 20%.

**Məsələ № 10**

Komporit polimer materiallarının istehsalı üçün dəmir yol nəqliyyatı ilə Azərbaycanın Sumqayıt şəhərinə dəyər 1300 min dollar olan avadanlıq (ekstruder) gətirilmişdir. Gətirilməyə 5 min dollar xərclənmişdir. Bazis şərti CİP Sumqayıt. Montaj və buraxılış - quraşdırma işlərinin dəyəri 7 min dollar təşkil edir. Gətirilmə gömrük rüsumlannın dərəcəsi 20%, ƏDV dəyəri-20 %. Gömrük dəyərini təyin edin.

**Məsələ № 11**

Şampan şərabı istehsal etmək üçün Azərbaycan Respublikası ərazisinə dəyəri 1200 min dollar dəyərində avtomabil nəqliyyatı ilə texnoloji xətt gətirilmişdir. Təyinat yerinə çatdırmaq üçün xərclənmişdir 85 min dollar. Çatdırılmanın bazis şərti - DDU Bakı. Montaj işlərinin dəyəri 20 min dollar təşkil edir. İdxal gömrük rüsumlarının dərəcəsi 18%, əlavə dəyər vergisinin dərəcəsi 20%. Gömrük dəyərini müəyyən edin.

**Məsələ № 12**

Makaron məmulatı istehsal etmək üçün dəyəri 50 min dollar olan texnoloji xətt təyyarə nəqliyyatı ilə gətirilmişdir. Təyinat yerinə qədər malın gətirilməsi üçün 3 min dollar xərclənmişdir. Gətirilmənin bazis şərtləri EXW Liverkuzen. Gətirilmə gömrük rüsum dərəcəsi 10%, ƏDV 20%. Gömrük dəyərini müəyyənləşdirin.

**Məsələ № 13**

Ayaqqabı plastikası istehsal etmək üçün Azərbaycana 350 min dollar dəyərində olan texnoloji xətt avtomobil nəqliyyatı ilə gətirilmişdir. Göndərmənin bazis şərti DDP Tver. Montaj işlərinin dəyəri 115 min dollar təşkil edir. Gətirilmə gömrük rüsum dərəcəsi 30%, ƏDV 20%. Gömrük dəyərini müəyyənləşdirin.

**Məsələ № 14**

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilməsi bəyan edilir:

Mal - araq

XİF MN görə malın kodu - 220890310 Malın miqdarı - 4000 litr

Gətirilmə gömrük rüsum dərəcəsi - 1 litrə görə 2 fvro

Malın gömrük dəyəri ABŞ dollan ilə göstərilmişdir.

Malın gömrük dəyərinin göstərildiyi valyutanın kursu:

1 ABŞ dolları - 80 qəp.

Malın mənşə ölkəsi - İsveç

Mənşəyi İsveçdən olan mallar, daha əlverişli milli rejim tətbiq edilir.

İdxal gömrük rüsumunun miqdannı hesabla.

**Məsələ № 15**

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mal bəyan edilir:

Mal - şokolad

Malın XİF MN görə kodu - 18064444 Malın miqdan - 1000 kq

Gətirilmə gömrük rüsum dərəcəsi - 1 kq-na 0,6 fvro Malın gömrük dəyəri ABŞ dolları ilə göstərilmişdir.

Malın gömrük dəyərinin göstərildiyi valyutanın kursu:

1 ABŞ dollan - 80 qəp.

Avronun kursu - 1 evro = 1 man 20 qəp.

Malın mənşə ölkəsi - İsveçrə

Mənşəyi İsveçrə olan mallara daha əlverişli milli rejim tətbiq edilir.

İdxal gömrük rüsumunun miqdannı hesablayın.

**Məsələ № 16**

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilmək üçün bəyan edilir:

Mal - telefon aparatları

XİF MN görə malın kodu - 851710000

Malın gömrük dəyəri - 77 000 man

idxal gömrük rüsum dərəcəsi gömrük dəyərinin- 20%
Malın mənşə ölkəsi - məlum deyil.

İdxal malının mənşəi məlum olmadıqda, idxal gömrük rüsumu dərəcəsinin yüksək həddi tətbiq edilir. İdxal gömrük rüsumunun miqdanm hesablayın.

Məsələ № 17

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallar bəyan edilir:

Mal - süni xəz
XİF MN görə malın kodu - 430400000 Malın gömrük dəyəri
ABŞ dolları ilə - 10 000 İdxal gömrük rüsum dərəcəsi gömrük
dəyərinin 5%-i Malın mənşə ölkəsi - Fransa

Mənşəyi Fransadan olan mallara daha əlverişli milli rejim tətbiq edilir.

İdxal gömrük rüsumunun miqdarını hesabla.

Məsələ № 18

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallar bəyan edilir:

Mal - ekranı 72 sm-dən artıq dioqanalı olan rəngli televizorlar
XİF MN görə malın kodu - 852812580 Malın gömrük dəyəri
ABŞ dolları ilə - 50 000 İdxal gömrük rüsum dərəcəsi gömrük
dəyərinin 30%-i Malın miqdan - 100 ədəd
Malın gömrük dəyərinin göstərildiyi valyutanın kursu:
1 ABŞ dollan - 80 qəp.
Malın mənşə ölkəsi - Yaponiya

Mənşəyi Yaponiyadan olan mallara daha əlverişli milli rejim tətbiq edilir.

Gömrük rüsumunun miqdarını hesablayın.

**Məsələ № 19**

Azərbaycan Respublikasından aparılan mallar bəyan edilir:
Mal - təbii qaz (qaz halında)
XİF MN görə malın kodu - 271121000
Malın miqdarı - 8 000 000 m^
İxrac olunan malın əmsalı - 1.515 (1150 m^ =1000 kq)
İxrac olunan malın gömrük rüsumu - 1000 kq-a 18 avro Malın gömrük rüsum dərəcəsi alman markası ilə göstərilir. Malın gömrük dəyərinin göstərildiyi valyutanın kursu:
1 alman markası - 0.80 manat.
Avronun kursu - 1 evro =1.20 manat.
İxrac gömrük rüsumunu hesablayın.

**Məsələ № 20**

Azərbaycan Respublikasından aparılan mallar bəyan edilir:
Mal - aviasiya benzini
XİF MN görə malın kodu - 271000310
Malın miqdarı - 40 000 kq
Malın ixrac gömrük rüsumunun stavkası - 1000 kq-a 18 avro
Malın gömrük dəyəri Azərbaycan manatı ilə göstərilir.
Avronun kursu - 1 avro = 1.05 manat İxrac gömrük rüsumunu hesablayın.

**Məsələ № 21**

Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən mallar bəyan edilir:

Mal - duxi "Dizintars" firması XİF MN görə malın kodu - 330400100 Mal idxal gömrük rüsumlan və ƏDV məruz qalır, aksiz vergiləri isə alınır

Malın gömrük dəyəri - 29520 latv lat.
ƏDV - nin stavkası - 20%
Əlavə dəyər vergisinin miqdannı hesabla.

Məsəb № 22

***Məsələnin şərti:*** Azərbaycan Respublikasına gətirilən malın dəyəri kontrakta əsasən 120 min dollar müəyyənləşdirilmişdir. Dəmir yol nəqliyyatı ilə daşınmasının xərci 1 km görə 2 dollar müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının sərhəddinə kimi olan məsafə 1600 km-dir. Gətirilmə gömrük rüsumunun stavkası 20%, aksizin stavkası 15%-dir.

***Tapşırıq:*** Gətirilən malın gömrük dəyərini və gömrük ödəmələrinin miqdarını müxtəlif bazis göndərmə şərtləri ilə EXW, DDU tapın.

Məsələ № 23

Berlindən Bakıya CİP bazis şərti ilə hava nəqliyyatı ilə gətirilmiş araq - likor məmulatı partiyasınn gömrük ödəmələrinin miqdarını hesablayın.

Bir litr dəyəri - 120 dollar

Nəqliyyat xərci - göndərmə aeroportuna çatdırma - 28,25 dollar

Göndərmə aeroportundan təyinat aeroportuna daşınma 1200 dollar Təyinat aeroportundan aparma - 85 dollar İdxal rüsumu -20%

Sığorta - 83,46 dollar

Aksiz - 40%

ƏDV-20%

Məsələ № 24

500 litr miqdannda olan likor - araq məmulatı partiyasının gömrük ödəmələrinin miqdarını hesablayın. DEQ bazis şərtləri ilə Kopenhagendən Bakıya dəniz nəqliyyatı ilə çatdırılmalıdır. Hərəsinin dəyəri - 10 dollar Qablaşdırma xərcləri - 60 dollar Göndərilmə limanına çatdırıma - 250 dollar Göndərilmə limanmdan təyinat limanına çatdınlma - 250 dollar Təyinat limanından apanima-142.50 dollar Sığorta - 56.96 dollar

Aksiz - 100%
ƏDV-20%

Məsələ № 25

Berlindən Bakıya hava nəqliyyatı ilə CİP bazis şərti ilə çatdırılan likor-araq məhsullan partiyasının gömrük ödənişlərinin miqdarını hesablayın.

Partiyanın miqdan - 1000 litr.

Bu litrin qiyməti -120 dollar.

Nəqliyyat xərcləri: göndərilmə aeroportundan təyinat aeroportuna daşınma 1200 dol.

Təyinat aeroportundan daşınma - 85 dol.

İdxal rüsumları - 20%

Sığorta - 8346 dollar Aksiz - 40%

ƏDV-20%

Məsələ № 26

Hava nəqliyyatı ilə Parisdən Gəncəyə DDU bazis şərti ilə gətirilmiş bidetexnika partiyasının gömrük ödəmələrinin miqdarını müəyyənləşdirin.

Partiyanın miqdarı - 300 ədəd Hər birinin çəkisi - 10 kq Bir ədədinin qiyməti - 100 dollar

Nəqliyyart xərcləri: Göndərilmə aeroportundan təyinat aeroportuna çatdırma-400 dollar.

Təyinat aeroportundan daşınma - 75 dol.

İdxal rüsumları - 20%

Sığorta -3,46 dollar Aksiz - 10%

ƏDV-20%

**Məsələ № 27**

500 litr likor- araq məmulatı partiyasının gömrük ödənişlərinin miqdannı hesablayın. Bazis şərti DEO olmaqla dəniz nəqliyyatı ilə Kopenhagendən Bakıya çatdınimışdır.

Hər birinin qiyməti - 10 dollar.

Nəqliyyat xərcləri: bağlama - 60 dollar

Göndərilmə limanına çatdırma - 250 dollar.

Göndərilmə limanından təyinat limanına daşınma - 250 dollar

Təyinat limanından daşınma -142.50 dollar.

Sığorta - 56.95 dollar

Aksiz- 100%

ƏDV-20%.

Göndərişin şərtlərinin təsnifatı

| № | Rəqəmli hərfi | Göndərişin şərtlərinin adlan | Qısaldılmış adı |
|---|---|---|---|
| 1 | **EXW** | **Zavoddan** | **EXB** |
| 2 | **FCA** | **Franko daşıyıcısı** | **ФСА** |
| 3 | **FAS** | **Gəmi boyunca sərbəst** | **ФАС** |
| 4 | **FOB** | **Gəmi içərisində sərbəst** | **ФОБ** |
| 5 | **CFR** | **Dəyər, sığortalaşdırma və icarə** | **СИФ** |
| 6 | **CPT** | **Daşınma......... qədər ödənilmişdir** | **СПТ** |
| 7 | **CIP** | **Daşınma və sığortalaşdırma ........qədər ödənilmişdir** | **СИП** |
| 8 | **DAF** | **Sərhədə qədər göndəriş** | **ДАФ** |
| 9 | **DES** | **Gəmidən göndəriş** | **ДЕС** |
| 10 | **DEQ** | **Gəmilərin yan aldığı körpüdən göndəriş** | **ДЕК** |
| 11 | **DDU** | **Rüsumlan ödənilməmiş göndəriş** | **ДДУ** |
| 12 | **DDR** | **Rüsumları ödənilmiş göndəriş** | **ДДП** |

***>YGB-lərin doldurulması zamanı istifadə olunur.**

## Göndəriş şərtlərinin təsnifatı.
## I - qrup - “ E ” qrupu

*Cədvəl 1*

| Terminin işarəsi | | Göndərişin kommersiya şərtinin adı | Qrupun qısa səciyyəsi |
|---|---|---|---|
| lat | Azərb. | | |
| EXW | EXB | Zavoddan | Satıcı malı bilavasitə yükləmə yerinə çatdırır.Yükün çatdırılması xərclərini bütünlüklə alıcı ödəyir. |

## 2 qrup " F" qrupu

## ikinci " F " qrupu özündə 3 rejimi birləşdirir.

## FCA (FSA), FAS ( FAS), FOB (FOB )

*Cədvəl 2*

| Terminin işarəsi | | Göndərişin kommersiya şərtinin adı | Qrupun qısa səciyyəsi |
|---|---|---|---|
| lat | Azərb | | |
| FCA | FCA | Franko daşıyıcı | İxrac sərhəddindən idxal sər- həddinə qədər əsas daşımala- nn xərcini alıcı ödəyir. |
| FAS | FAS | Sərbəst gəmi bortu boyunca | Satıcı malın razılaşdırılmış limanın sahilinə qədər çatırmağa cavabdehlik daşıyır. Alıcı gömrük xərclərini ödəyir. |
| FOB | FOB | | Sərbəst gəmi bortuna satıcı malı alıcının göstərişi ilə daşıyıcı təhvil verir. Daşınma müqaviləsinin bağlanması və daşıyıcının müəyyənləşdirilməsi alıcının öhdəsinə buraxılır ixrac xərclərini satıcı idxal xərclərini isə alıcı ödəyir. |

## " S " qrupu özündə 4 rejimi birləşdirir

CFR **(** SER**),** CİF (SİF**),** CPT ( SPT**)** **və** CİP **(** SIP **)**

*Cədvəl 3*

| Terminin işarəsi | | Göndərişin kommersiya şərtinin adı | Qrupun qısa səciyyəsi |
|---|---|---|---|
| lat. | Azərb. | | |
| CFR | SFR | Dər və fraxt | İxrac sərhəddindən idxal sərhəd- dinə qədə olan bütün xərclər satıcı tərəfindən ödənilir. |
| CİF | SİF | Dəyər, sığorta və fraxt | Satıcı malı, alıcı ölkənin təyin olunmuş limanına gətirərək siğortala- yır, ixrac üçün formal xərcləri ödəyir. Alıcı isə idxal üzrə fonnal xərcləri ödəyir. |

*Cədvəl 3-ün davamı*

| CPT | SPT | Daşınmaxərc-ləri ödənilmişdi | Satıcı təyinat yerinə qədər bütün xərcləri özü ödəyir. |
|---|---|---|---|
| CİF | SİP | Daşınma və siğorta ödənilmişdir (təyinat yerinə qədər) | Əgər, sığorta termini müqavilə şərtlərində varsa, satıcı sığorta xərcini ödəyir. İxrac formal xərclərini satıcı, idxalı isə alıcı ödəyir. |

**“ D qrupu adlanan özündə daşımanın 5 kommersiya DAF( DAF), DES (DES ), DEQ ( DEK ), DDU ( DDU ), DDP (DDP) Rejimini birləşdirir.**

*Cədvəl 4*

| Terminin işarəsi | | Göndərişin kommersiya şərtinin adı | Qrupun qısa səciyyəsi |
|---|---|---|---|
| lat. | Azərb. | | |
| DAF | DAF | Sərhədə qədər çatdırmaq | Satıcı ixracın formal xərclərin, alıcı isə idxalını ödəyir. |
| DES | DES | Gəmidən | Satıcı alıcını yerləşdiyi ölkəyə malın çatdırılmasının bütün xərclərin, o cümlədən, sığorta xərcini ödəyir. |
| DEQ | DEK | Bərədən | Satıcı malı gömrük nəzarətindən keçirərok, bütün gömrük xərclərini ödəməklə alıcı ilə razılaşdırılması barədə ona verir. |
| DDU | DDU | Rüsum ödəmədən çatdırılma | Satıcı ixrac xərcini ödəməklə malı alıcının anbanna təhvil verir. Alıcı idxal xərclərini ödəyir. |
| DDP | DDP | Rüsum ödəməklə çatdınima. | Satıcı bütün ixrac və idxal xərclərini ödəyərək mah alıcının anbanna təhvil verir. |

Gömrük ödənişlərinin təsnifatı

| S/4 | Ödəniş növünün adı | Kodu |
|---|---|---|
| | **1. Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları** | |
| **10** | **Mallann gömrük rəsmiləşdirilmosino görə əlavə gömrük yığımları** | **10** |
| **11** | **Malların gömrük rəsmiləşdirilməsinə görə əlavə gömrük yığımları** | **11** |
| **12** | **Malların gömrük rəsmiləşdirilməsi bu iş üçün müəyyən edilmiş yerlərdə və gömrük orqanlarının iş vaxtından kənar vaxtlarda apanimasına görə gömrük yığımlan** | **12** |
| **13** | **Mallann gömrük rəsmiləşdirilməsi bu iş üçün müəyyən edilmiş yerlərdə və gömrük orqanlarının iş vaxtından kənar vaxtlarda aparılmasına görə gömrük yığımları** | **13** |
| **14** | **Malların gömrük rəsmiləşdirilməsinə görə Gömrük İttifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçiriləcək gömrük yığımları** | **14** |
| **15** | **Mallann gömrük rəsmiləşdirilməsinə görə Gömrük ittifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçiriləcək əlavə gömrük yığımları** | **15** |
| | **2. Gömrük rüsumları** | |
| **20** | **İdxal gömrük rüsumu** | **20** |
| **22** | **Digər Gömrük ittifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçiriləcək idxal gömrük rüsumları** | **22** |
| **25** | **İxrac gömrük rüsumları** | **25** |
| **27** | **Digər Gömrük ittifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçirilməli olan ixrac gömrük rüsumları** | **27** |
| | **3. Gömrük orqanları tərolındən alınan dolayısı vergilər** | |
| **30** | **Aksiz** | **30** |
| **32** | **Əlavə dəyər vergisi** | **32** |
| **35** | **Xüsusi vergilər** | **35** |
| **37** | **Digər Gömrük İttifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçirilməli olan aksizlər** | **37** |

| | | |
|---|---|---|
| 38 | **Digər Gömrük İttifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçirilməli olan əlavə dəyər vergisi** | 38 |
| 39 | **Digər Gömrük İttifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçirilməli olan xüsusi vergilər** | 39 |
| | 4. Fiziki şəxslərdən alman vergilər | |
| 40 | Gömrük ödənişlərinin vahid dərəcəsi | 40 |
| 41 | **Digər Gömrük İttifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçiriləcək vahid gömrük ödənişlərinin dərəcəsi** | 41 |
| 44 | Yığılmış gömrük ödənişləri | 44 |
| 45 | **Digər Gömrük İttifaqı iştirakçı dövlətlərinin büdcəsinə keçiriləcək yığılmış gömrük ödənişləri** | 45 |
| | 5. Digər yığımlar və haqlar | |
| 50 | Malların saxlanılmasına görə gömrük yığımları | 50 |
| 51 | Malların gömrük müşayiətlərinə görə gömrük yığımlan | 51 |
| 52 | Gömrük rəsmiləşdirilməsinə üzrə mütəxəssisə peşə ates- tatının və lisenziyanın verilməsinə görə yığımlar | 52 |
| 53 | **Gömrük rəsmiləşdirilməsinə üzrə mütəxəssisə verilmiş peşə atestaünın və lisenziyamn fəaliyyət müddətinin bərpa** [illegible] | 53 |
| 54 | **Bankın və digər kredit müəssisəsinin banklar reyisterinə daxil olmasına görə yığımlar** | 54 |
| 55 | **İlkin qərarın qəbuluna görə haqq** | 55 |
| 56 | **Gömrük auksionlarında iştirakına görə haqq** | 56 |
| 56 | Məlumatlandırma və məsləhətləşməyə görə haqq | 56 |
| | 6. Vəsait və cərimələr | |
| | **Müsadirə olunmuşların realizə olunmasından olan vəsaitlər** | |
| | **Girovun reallaşdırılmasından olan vəsaitlər** | |
| | Cərimələr və malların dəyərindən tutulan vəsaitlər | |
| | 7. Digər gömrük ödənişləri | |
| | Gömrük ödənişlərinə möhlət verilməsinə görə faizlər | |
| | **Gömrük ödənişlərinə möhlət müddətinin uzaldılmasına görə** [illegible] | |
| | Dəbblər (dəbbə pulları) | |
| | **Gömrük orqanlanna alınması həvalə olunmuş digər ödəniş** [illegible] | |
| | Gömrük ödənişlərinin ödənilməsini təmin edən məbləğ | |

**Qeyd:** ***ödənişlərin növlər üzrə rəqəmli kodu mütləq təsnifatda göstərilən rəqəmlərdən başlanmalıdır. Rəqəmli kodda sonrakı rəqəmlərin istifadəsi tövsiyə xarakteri daşıyır.***

## Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin gömrük müəssisələrinin təsnifatı

| Gömrük Müəssisəsinin Kodu | Gömrük Müəssisəsinin Adı |
|---|---|
| 00100 | Bakı Baş Gömrük İdarəsi |
| 00101 | Bərə postu |
| 00102 | Biləcəri postu |
| 00103 | Güzdək postu |
| 00104 | Xırdalan postu |
| 00105 | Keşlə postu |
| 00106 | Qaradağ postu |
| 00107 | Hövsan postu |
| 00108 | Xocahəsən postu |
| 00109 | Xətai postu |
| 00110 | Sahil postu |
| 00200 | Tovuz gömrükxanası |
| 00201 | Candargöl postu |
| 00202 | Girzan postu |
| 00203 | Poylu postu |
| 00204 | Sınıq körpü |
| 00205 | Sadıxlı postu |
| 00206 | Böyük Kəsik postu |
| 00300 | Yevlax gömrükxanası |
| 00301 | Şəki postu |
| 00302 | Mingəçevir postu |
| 00400 | Astara postu |
| 00402 | Masallı postu |
| 00500 | Balakən postu |
| 00501 | Muğanlı postu |
| 00502 | Mazımçay postu |
| 00600 | Şirvan gömrükxanası |
| 00601 | İmişli postu |
| 00602 | Kürdəmir postu |
| 00700 | Sumqayıt postu |
| 00800 | Binə gömrük idarəsi |
| 00900 | Gəncə gömrükxanası |

| | |
|---|---|
| **00902** | **Gəncə hava limanı postu** |
| **01000** | **Culfa gömıükxanası** |
| **01001** | **Nehrəm postu** |
| **01100** | **Sədərək gömıükxanası** |
| **01101** | **Şahtaxtı postu** |
| **01200** | **Biləsuvar gömıükxanası** |
| **01201** | **Biləsuvar postu** |
| **01300** | **Xudafərin gömıükxanası** |
| **01400** | **Xaçmaz gömıükxanası** |
| **01401** | **Xanoba postu** |
| **01402** | **Samur postu** |
| **01403** | **Yalama postu** |
| **01404** | **Zuxul postu** |

Beynəlxalq həcm və çəki vahidləri

Barrel - “Barrel” ingilis sözü olub, mənası çəllək, “kiçik çəllək” deməkdir.

ABŞ və İngiltərədə həcm (maye) vahididir. Başqa ölkələr də çəki vahidi kimi istifadə edirlər. ABŞ-da 1 barrel 158.76 litr, İngiltərədə isə 163.65 litrdir.

Bir ton neft orta hesabla - 6.64 barreldir.

Byshel - “Buşel” ingilis sözüdür. Həcm vahididir. Dənəvər maddələrə (buğda, arpa, düyü və s.) tətbiq olunur. Bir Buşel İngiltərədə 36.36 litr, ABŞ-da isə 35.23 litrə bərabərdir. Bəzən çəki vahidi kimi d istifadə olunur. Çəki vahidi kimi Buşeldən istifadə zamanı dənələrin (arpa, buğda, şəkər tozu, düyü) xüsusiyyətindən asılı olaraq, onun çəkisi 25.4 kq ilə 28.6 kq arasında dəyəişir.

Carat - “Karat” orat qiymətli daşların (almaz, briliant, yaqut, zümrüd, sapfır, və s.) ölçü vahidi olub 0.2053 qrama bərabərdir.

Pound - İngilis dilində “Funt” çəki vahidi kimi istifadə olunur. 1 funt 453.6 qramdır.

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN STRUKTURU

Yarandığı gündən indiyə qədər şərəfli bir tarix yaşamış Azərbaycan vahid gömrük sisteminin 1 yanvar 2012-ci ilə olan strukturu aşağıdakı kimidir:

**I Rəhbərlik**

**II Katiblik**

1. Rəhbərlik
2. Dəftərxana və vətəndaşların qəbulu bölməsi
3. Protokol bölməsi.

**III Gömrük nəzarətinin təşkili Baş İdarəsi**

1. Rəhbərlik
2. Sərnişin şöbəsi
3. Texniki nəzarət vasitələri şöbəsi
4. Gömrük rejimlərinə nəzarət idarəsi

a) Qeyri-ticarət dövriyyəsində gömrük nəzarətinin təşkili şöbəsi

b) Ticarət dövriyyəsində yüklərə nəzarət şöbəsi.

**IV Qaçaqmalçılıq və Gömrük qaydalarının pozulması ilə mübarizə Baş İdarəsi**

1. Rəhbərlik
2. Tədqiqat şöbəsi
3. Məlumat və qeydiyyat bölməsi
4. Əməliyyat idarəsi

a) Rəhbərlik

b) Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə şöbəsi

c) Gömrük hüququ pozmalan ilə mübarizə şöbəsi

ç) Əməliyyat - axtanş şöbəsi

d) Kinoloji şöbə

**V Maliyyə - Tarif və Valyuta Nəzarəti Baş İdarəsi**

1. Rəhbərlik
2. Maliyyə şöbəsi
3. Gömrük tariflərinin tənzimlənməsi şöbəsi
4. Valyuta nəzarəti şöbəsi
5. Aksiz şöbəsi
6. Gömrük dəyəri şöbəsi
7. Risk analizləri şöbəsi
8. Audit şöbəsi
9. Pensiya ödəniş bölməsi
10. Gömrük ödənişləri idarəsi
    a) Rəhbərlik
    b) Gömrük vergi və yığımlan şöbəsi
    c) İri tədiyyəçilərlə iş şöbəsi
11. Yol vergilər idarəsi.

**VI Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsi**

1. Rəhbərlik
2. İnformasiya texnologiyaları və şəbəkələr idarəsi
    a) Proqram təminatı şöbəsi
    b) Şəbəkələrin istismarı şöbəsi
    c) İnformasiyanın yığımı və mühafizəsi şöbəsi.
3. Statistika və təhlil idarəsi
    a) Statistika və təhsil şöbəsi
    b) Metodologiya və müqayisəli statistika şöbəsi.

**VII Kadrlar İdarəsi**

1. Kadrlarla işin təşkili şöbəsi
2. Kadrların seçilməsi və yerləşdirilməsi bölməsi
3. Tədris işinin təşkili və tədrisə nəzarət bölməsi.

**VIII Daxili Təhlükəsizlik İdarəsi**

1. Rəhbərlik
2. Daxili təhqiqat şöbəsi
3. Əməliyyat və daxili təhlükəsizlik şöbəsi

**IX istintaq İdarəsi**

**X Xarici Əlaqələr İdarəsi**

1. İkitərəfli gömrük əməkdaşlığı şöbəsi
2. Beynəlxalq təşkilatlarla əməkdaşlıq və protokol bölməsi.

**XI Tibbi Xidmət İdarəsi**

**XII Mətbuat Xidməti**

**XIII İşlər İdarəsi**

1. Ümumi şöbə
2. Arxiv işinin təşkili bölməsi
3. Rabitə - informasiya şöbəsi
4. Təsərrüfat xidməti.

**XIV Əsaslı Tikinti və Maddi - Texniki Təchizat İdarəsi**

1. Rəhbərlik
2. Əsaslı tikinti şöbəsi
3. Təchizat şöbəsi.

**XV Hüquq Şöbəsi**

**XVI Analitik Şöbəsi**

**XVII Məxfi Şöbə**

**XVIII Mühasibat və uçot Şöbəsi**

**XIX Gömrük Mühafizə Xidməti**

**XX Növbətçi hissə**

**Komitənin tabeliyində olan gömrük orqanları**

**Mərkəzi laboratoriya**

1. Rəhbərlik
2. Üzvi mənşəli mallann ekspertizası şöbəsi
3. Qida məsullarının ekispertizası şöbəsi
4. Radioloji tədqiqat və qeyri - üzvi mənşəli mallann ekspertizası şöbəsi
5. Sumqayıt regional bölməsi.

**Bakı Baş Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Maliyyə - tarif şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalanmn pozulması ilə mübarizə şöbəsi
4. Gömrük rəsmiləşdirilməsi şöbəsi
5. Statistika və AİS şöbəsi
6. Texniki vasitələrlə nəzarət bölməsi
7. Ümumi şöbə
8. Arxiv bölməsi
9. Sərnişin şöbəsi
10. Poçt göndərişlərinə nəzarət bölməsi
11. Xüsusi təyinatlı yüklər üzərində gömrük nəzarətinin təşkil şöbəsi
12. Tranzit mallann və avtonəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi şöbəsi
13. Növbətçi hissə
14. Yol vergilər şöbəsi Bakı dəniz limanı
15. “Bərə keçidi” gömrük postu. Bakı dəniz limanı
16. “Keşlə” gömrük postu
17. “Biləcəri” gömrük postu
18. “ Xırdalan” gömrük postu
19. “Qaradağ” gömrük postu
20. “Yasamal” gömrük postu
21. “Sahil” gömrük postu

22. “Səbail” gömrük postu
23. “Səngəlçal” gömrük postu
24. “Yeni sahil” gömrük postu
25. “Binəqədi” gömrük postu
26. “İpək yolu” gömrük postu
27. Liman gömrük postu
28. Dübəndi gömrük postu
29. Yeni Səngəlçal gömrük postu.

**Bakı Gömrük Mühafizəsi Dəstəsi**

1. Texniki təchizat şöbəsi
2. Döyüş və fiziki hazırlığın təşkili şöbəsi
3. Əməliyyat şöbəsi
4. Gömrük mühafizəsi və növətçiliyinin təşkili şöbəsi
5. Növbətçiliyin təşkili bölməsi

Cənub Gömrük Mühafizə Dəstəsi
Mərkəz Gömrük Mühafizə Dəstəsi
Şimal Gömrük Mühafizə Dəstəsi.

**Aksiz Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Gömrük rəsmiləşdirilməsi və nəzarəti şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
4. Maliyyə - tarif şöbəsi
5. Ümumi şöbə
6. Statistika və AİS şöbəsi.

**Hava Nəqliyyatında Baş Gömrük İdarəsi**

1. Rəhbərlik
2. 1-ci sərnişin şöbəsi
3. 2-ci sərnişin şöbəsi
4. Qaçaqmalçılıq və gömrük qaydalannm pozulması ilə mübarizə şöbəsi

5. Maliyyə - tarif şöbəsi
6. Statistika və AİS şöbəsi
7. Ümumi şöbə
8. Növbətçi hissə
9. 1-ci yük şöbəsi
10. 2- ci yük şöbəsi
11. “Qala” gömrük postu
12. “Gəncə Hava Limam” gömrük postu
13. “H.Z.Tağıyev” adına gömrük postu.

**Xəzər Dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Gömrük rəsmiləşdirilməsi və nəzarəti şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalannm pozulması ilə mübarizə şöbəsi
4. Maliyyə - tarif şöbəsi
5. Statistika və AİS şöbəsi
6. Ümumi şöbə
7. Növbətçi hissə
8. Nəqliyyat bölməsi
9. “ Bakı Beynəlxalq Liman” postu
10. “ Xaçmaz” dəniz nəzarət postu
11. “Siyəzən” dəniz nəzarət postu
12. “Pirallahı” dəniz nəzarət postu
13. “ Hövsan” dəniz nəzarət postu
14. “ Qaradağ” dəniz nəzarət postu
15. “Neftçala” dəniz nəzarət postu
16. “ Lənkəran” dəniz nəzarət postu.

**Enerji Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Gömrük rəsmiləşdirilməsi və nəzarəti şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə müba-

rizə şöbəsi

4. Malij^ə - tarif şöbəsi
5. Ümumi şöbə
6. "Güzdək" gömrük postu
7. "Liman" gömrük postu
8. " Dübəndi" gömrük postu
9. "Yeni Səngəlçal" gömrük postu.

**Astara Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Sərnişin - nəqliyyat şöbəsi
3. Sərnişin şöbəsi
4. Yük şöbəsi
5. Maliyyə - tarif şöbəsi
6. Qaçaqmalçılıq və gömrük qaydalanmn pozulması ilə mübarizə şöbəsi
7. Statistika və AİS şöbəsi
8. Ümumi şöbə
9. Yol vergiləri şöbəsi
10. "Lənkəran" gömrük postu
11. "Masallı" gömrük postu.

**Balakən Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Sərnişin şöbəsi
3. Yük şöbəsi
4. Maliyyə - tarif şöbəsi
5. Qaçaqmalçılıq və gömrük qaydalanmn pozulması ilə mübarizə şöbəsi
6. Statistika və AİS şöbəsi
7. Ümumi şöbə
8. Yol vergiləri şöbəsi
9. "Mazımçay" gömrük postu
10. "Muğanlı" gömrük postu
11. "Lağıc" gömrük postu

**Biləsuvar Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Sərnişin şöbəsi
3. Yük şöbəsi
4. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
5. Maliyyə - tarif şöbəsi
6. Statistika və AİS şöbəsi
7. Ümumi şöbə
8. Yol vergiləri şöbəsi
9. "Qoşa-təpə" gömrük postu.

**Şirvan Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Yük şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
4. Maliyyə - tarif şöbəsi
5. Statistika və AİS şöbəsi
6. Ümumi şöbə
7. "Kürdəmir" gömrük postu.

**Yevlax Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Yük şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
4. Maliyyə - tarif şöbəsi
5. Statistika və AİS şöbəsi
6. Ümumi şöbə
7. "Mingəçevir" gömrük postu
8. "Şəki" gömrük postu
9. "Qəbələ" gömrük postu.

**Gəncə Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Yük şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
4. Maliyyə - tarif şöbəsi
5. Statistika və AİS şöbəsi
6. Ümumi şöbə
7. “Samux” gömrük postu
8. “Şəmkir HES” gömrük postu.

**Sumqayıt Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Yük şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
4. Maliyyə - tarif şöbəsi
5. Statistika və AİS şöbəsi
6. Ümumi şöbə
7. “H.Z.Tağıyev”-! gömrük postu.

Tovuz Gömrük İdarəsi

1. Rəhbərlik
2. Yük şöbəsi
3. Sərnişin şöbəsi
4. Qaçaqmalçılıq və gömrük qaydalannm pozulması ilə mübarizə şöbəsi
5. Maliyyə - tarif şöbəsi
6. Statistika və AİS şöbəsi
7. Ümumi şöbə
8. Yol vergiləri şöbəsi
9. “Sınıq körpü” gömrük postu
10. “Sadıxlı” gömrük postu
11. “Candargöl” gömrük postu

12. “Böyük Kəsik” gömrük postu
13. “Poylu” gömrük postu
14. “İkinci Şıxlı” gömrük postu
15. “Gırzan” gömrük postu.

**Xaçmaz Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Yük şöbəsi
3. Sərnişin şöbəsi
4. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
5. Maliyyə - tarif şöbəsi
6. Statistika və AİS şöbəsi
7. Ümumi şöbə
8. Yol vergiləri şöbəsi
9. “Samur” gömrük postu
10. “Xudat” gömrük postu
11. “Yalama” gömrük postu
12. “Zuxul” gömrük postu
13. “Şirvanovka” gömrük postu.

**Xudafərin Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Yük şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
4. Malİ3^ə - tarif şöbəsi
5. Statistika və AİS şöbəsi
6. Ümumi şöbə
7. “Horadiz” gömrük postu
8. “İmişli” gömrük postu.

**Avtonəqliyyat Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Gömrük rəsmiləşdirilməi və nəzarəti şöbəsi
3. Maliyyə - tarif şöbəsi

4. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
5. Statistika və AİS şöbəsi
6. Ümumi şöbə.

**Naxçıvan Gömrük İdarəsi**
1. Rəhbərlik
2. Gömrük rəsmiləşdirilməsi və nəzarəti şöbəsi
3. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
4. Maliyyə - tarif şöbəsi
5. Daxili təhlükəsizlik şöbəsi
6. İstintaq və tədqiqat şöbəsi
7. Statistika və AİS şöbəsi
8. Ümumi şöbə
9. Kadrlar şöbəsi
10. Mühasibat və pensiya bölməsi
11. Texniki nəzarət vasitələri bölməsi
12. Tibbi xidmət
13. Maddi - texniki təhcizat və təsərrüfat xidməti
14. Gömrük mühafizə xidməti
15. Məxfi hissə
16. Növbətçi hissə.

**Naxçıvan şəhər Gömrük idarəsi**
1. Rəhbərlik
2. Ümumi şöbə
3. Maliyyə - tarif şöbəsi
4. Gömrük rəsmiləşdirilməsi və nəzarəti şöbəsi
5. Qaçaqmalçılıq və gömrük qaydalannm pozulması ilə mübarizə şöbəsi
6. Statistika və informasiya texnologiyalan bölmələri
7. Gömrük mühafizə xidməti
8. Növbətçi hissə
9. İnzibati - təsərrüfat heyəti.

**Sədərək Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Ümumi şöbə
3. Maliyyə - tarif şöbəsi
4. Yük şöbəsi
5. Sərnişin şöbəsi
6. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
7. Statistika və informasiya texnologiyalan bölmələri
8. Texniki nəzarət vasitələri bölməsi
9. Mühafizə xidməti
10. Növbətçi hissə
11. İnzibati - təsərrüfat heyəti.

**Culfa Gömrük İdarəsi**

1. Rəhbərlik
2. Ümumi şöbə
3. Maliyyə - tarif şöbəsi
4. Yük şöbəsi
5. Sərnişin şöbəsi
6. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
7. Texniki nəzarət vasitələri bölməsi
8. Mühafizə xidməti
9. Növbətçi hissə
10. İnzibati - təsərrüfat heyəti.

**Naxçıvan Hava Nəqliyyatında Gömrük idarəsi**

1. Rəhbərlik
2. Ümumi şöbə
3. Maliyyə - tarif şöbəsi
4. Gömrük rəsmiləşdirilməsi və nəzarəti şöbəsi
5. Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə şöbəsi
6. Statistika və informasiya texnologiyaları bölmələri

7. Gömrük mühafizə xidməti
8. Növbətçi hissə
9. İnzibati - təsərrüfat heyəti.

**“Naxtcrminalkompleks” Təssərüfat Hesablı XİB**

1. Rəhbərlik
2. Mühasibat uçotu şöbəsi
3. Ümumi şöbə
4. Ərazi terminalı üzrə
5. Bəyanetmə üzrə Culfa bölməsi
6. Bəyanetmə üzrə Sədərək bölməsi
7. Bəyanetmə üzrə Şahtaxtı bölməsi
8. Bəyanetmə üzrə Hava Limanı bölməsi
9. İnzibati - təsərrüfat heyəti.

**“Azərterminalkompleks” TH XİB**

İdarəetmə aparatı

1. Rəhbərlik
2. Kadrlar şöbəsi
3. Gömrük brokerlərin işinin təşkili şöbəsi
4. Xarici iqtisadi əlaqələr və kommersiya şöbəsi
5. Nəqliyyat şöbəsi
6. Ümumi şöbə
7. Mühasibat və uçotu şöbəsi
8. Maliyyə - iqtisadi şöbəsi
9. Anbar təsərüfatmın təşkili şöbəsi
10. Analitik şöbə
11. Ərazi terminalı üzrə baş şöbəsi.

**Gömrük Brokeri və Texniki Xidmətinin göstərilməsi üzrə şöbələr və bölmələr**

1. Bakı şöbəsi
2. Binə şöbəsi

3. Gəncə şöbəsi
4. Astara şöbəsi
5. Şirvan şöbəsi
6. Yevlax şöbəsi
7. Balakən şöbəsi
8. Xaçmaz şöbəsi
9. Tovuz şöbəsi
10. Sumqayıt şöbəsi
11. Biləsuvar şöbəsi
12. Astara motoroller bölməsi.

**Tərəzi təsərrüffatının təşkili üzrə şöbələr**

1. Astara şöbəsi
2. Biləsuvar şöbəsi
3. Tovuz "Sınıq körpü", "Poylu" şöbəsi
4. "Xaçmaz - Samur" şöbəsi
5. Balakən şöbəsi
6. Dəmiryolunda tərəzi təsərrüfatının təşkili üzrə
7. Yalama şöbəsi.

**İdman - Sağlamlıq Mərkəzi**

1. Rəhbərlik
2. Kadrlar şöbəsi
3. Maliyyə - plan şöbəsi
4. Kommersiya - təsərrüfat şöbəsi
5. İdman - Təlim və xüsusi fiziki hazırlıq şöbəsi
6. İdman - təlim bölməsi
7. Xüsusi fiziki hazırlıq bölməsi.

***İdman Sağlamlıq kompleksi***

# Mündəricat

**Giriş.**

MÖVZU 1.
AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SƏRHƏDDİNDƏN MAL VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN KEÇİRİLMƏSİ ZAMANI İSTİFADƏ EDİLƏN ƏSAS ANLAYIŞLAR

1. Gömrük terminalogiyasmm ümumi və xüsusi təyinatları ........ 7
2. Gömrük sərhəddində mallann yerdəyişmə və keçirilməsi anlayışı, digər gömrük terminalogiyalan.................................. 9

MÖVZU 2.
AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK İŞİNİN TƏŞKİLİ VƏ ONUN HÜQUQİ ƏSASLARI
Azərbaycan Respublikasında gömrük orqanlannın təşkilatı strukturu

1. Gömrük işi və gömrük tənzimlənməsi anlayışı. Azərbaycan Respublikası gömrük işi və gömrük tənzimlənməsinin məqsədi və elementləri ............................................................. 20
2. Azərbaycan Respublikasında gömrük işinin normativ-hüquqi əsaslan .............................................................24
3. Azərbaycan Respublikasının gömrük siyasəti, onun həyata keçirilməsi üsulları.......................................................31
4. Azərbaycan Respublikasında gömrük orqanlannın strukturu və onların əsas funksiyaları ..................................................35
5. Azərbaycan Respublikasının gömrük sərhəddindən mal və nəqliyyat vasitələrinin keçirilməsinin əsas prinsipləri ........40

MÖVZU 3.
GÖMRÜK İNFRASTRUKTURU VƏ ONUN GÖMRÜK SİSTEMİNDƏ ROLU

1. Azərbaycan gömrük sistemində infrastrukturun birləşdirici elementləri və onların təyinat məqsədləri. Gömrük brokeri haqqında anlayış və onun statusu ..........................................50

2. Gömrük daşıyıcıları, onlann rolu və statusları, fəaliyyət tərkibi ........ 53
3. Gömrük infrastrukturunun tərkibində gömrük anbarları ........ 55
4. Müvəqqəti saxlama proseduru. Müvəqqəti saxlanc anbarlan 60
5. Gömrük infrastrukturunun gömrük sisteminin fəaliyyətinə təsiri ........ 62

MÖVZU 4.
AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SİYASƏTİ, GÖMRÜK İŞİNİN ƏSASIDIR

1. Gömrük siyasəti və onun istiqamətləri ........ 69
2. Gömrük tarif tənzimlənməsi sistemi anlayışı. Gömrük tarif anlayışının əsas məqsədi və elementləri ........ 73
3. Gömrük rüsumları: onların növləri, stavkaların dərəcələri, gömrük preferensiya sistemi ........ 76
4. Azərbaycan gömrük-tarif təsnifat sisteminin əsası. XİF mal nomenklaturası ........ 82
5. Malın mənşə ölkəsi və onun təyin edilməsi meyarlan ........ 94

MÖVZU 5.
GÖMRÜK PROSEDURLARI, ONLARIN MAL VƏ NƏQLİYYAT VASİTƏLƏRİNİN KEÇİRİLMƏ SİSTEMİNDƏKİ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

1. Gömrük prosedurlan anlayışı, təyinatı və mahiyyəti ........ 104
2. Əsas gömrük prosedurlan ........ 108
3. İqtisadi gömrük prosedurları ........ 112
4. Yekunlaşdıncı gömrük prosedurları ........ 122
5. Xüsusi gömrük prosedurları ........ 128

MÖVZU 6.
MALLARIN GÖMRÜK DƏYƏRİ VƏ ONLARIN MÜƏYYƏNLƏŞDİRMƏSİ METODLARI

1. Mallann gömrük dəyəri anlayışı və əsas funksiyalan ........ 137
2. Mallann gömrük dəyərinin təyin olunmasının dünya praktikası ........ 139

3. Gömrük dəyərinin təyin olunması üsullan ............................141
4. Gömrük dəyəri və onun funksiyalan ....................................142
5. Mallann gömrük dəyərinin müəyyənləşdirilməsinin gömrük orqanlannm iqtisadi fəaliyyətində rolu ......................144
6. Gömrük dəyərinin gətirilən malların sövdələşmə qiyməti ilə müəyyən edilməsi .................................................150
7. İdentik (eyni) mallann sövdələşmə qiyməti üsulu ...............157
8. ........................................................................................
Eyni cinsli mallann sövdələşmə qiyməti üsulu ..........................159
9. Dəyərin toplanması üsulu.....................................................160

MÖVZU 7.
AZƏRBAYCAN RESPUBLİKASI GÖMRÜK SƏRHƏDDİNDƏN KEÇİRİLƏN MALLAR VƏ NƏQLİYYAT VASİTƏLƏRİNƏ GÖMRÜK NƏZARƏTİ

1. Gömrük nəzarəti anlayışı, məqsədi, subyekt və obyektləri.... 166
2. Gömrük nəzarətinin apanima forma və qaydalan..................171
3. Gömrük nəzarətinin həyata keçirilməsi zamanı ekspertiza və tədqiqat .......................................................................177
4. Gömrük nəzarətinin həyata keçirilməsinin bəzi xüsusiyyətləri ...............................................................178
5. Bir sıra mallara qarşı gömrük orqanlan tərəfindən görülən tədbirlər ...........................................................................178

MÖVZU 8.
İDXAL-İXRAC ƏMƏLİYYATLARINA GÖMRÜK-VALYUTA NƏZARƏTİ

1. Gömrük orqanlarmın valyuta nəzarəti sistemində rolu və yeri 184
2. Mallann ixracı-idxalı zamanı valyuta nəzarətinin həyata

MÖVZU 9.
STATİSTİKA. GÖMRÜK STATİSTİKASI VƏ ONUN XARİCİ İQTİSADİ ƏLAQƏLƏR SİSTEMİNDƏ ROLU


1. Statistikanın predmeti və metodu ........................................ 193
2. Sosial-iqtisadi statistika .................................................. 196
3. Xarici ticarətin gömrük statistikası və onun vəzifələri ......... 199
4. Xarici ticarətin gömrük statistikasının formalaşma mənbələri və uçot obyektləri ............................................ 204
5. Xarici ticarətin uçot sistemi .............................................. 205
6. Kontragent ölkələr ............................................................ 209
7. Qeyd vaxtı və malın statistik dəyəri ...... .. ........................ 212


**Mövzu 10.**
AZƏRBAYCAN RESPUBLİKASINDA GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİNİN ÜMÜMİ QAYDALARI


1. Gömrük rəsmiləşdirilməsi anlayışı, əhəmiyyəti və məzmunu ................................................................................ 214
2. Mallann Azərbaycan Respublikası gömrük ərazisinə daxil olma qaydaları ......................................................... 224
3. Daxili gömrük tranziti gömrük proseduru kimi .................. 226
4. Mallann Azərbaycan Respublikası gömrük ərazisindən apaniması qaydaları ......................................................... 227
5. Mallann bəyan edilməsi anlayışı və məzmunu ..................... 229


MÖVZU 11.
GÖMRÜK ÖDƏNİŞLƏRİ


1. Gömrük ödənişləri haqqında anlayış və növləri .................. 245
2. Gömrük ödənişlərinin ödənilmə qaydaları .......................... 254
3. Mövsümü və xüsusi növ rüsumlann tətbiqi ........................ 263

Mövzu 12.
GÖMRÜK ORQANLARININ HÜQUQ-MÜHAFİZƏ FƏALİYYƏTLƏRİ

1.........................................................................
Gömrük qaydalanmn pozulması anlayışı ................................271
2. Azərbaycan Respublikası Dövlət gömrük orqanlanmn hüquq-mühafizəsi sahəsindəki gömrük qanunvericiliyinə uyğun funksiyaları ..............................................................274
3. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətlərinin formalan ...................................................................... 277
4. Gömrük orqanlarının inzibati xəta və inzibati prosessual hüquq-mühafizə fəaliyyət formalan .................................... 278
Gömrük qaydalanmn pozulmasına görə qoyulan cərimələrin növləri ...................................................................282
"6. Gömrük orqanlarının hüquq-mühafizə fəaliyyətinin cinayət-hüquqi və cinayət-prosessual formaları. Gömrük orqanlanmn səlahiyyətlərinə aid olan cinayətlər.............286
6.1 Qaçaqmalçılıq............................................................... 287
6.2 Azərbaycan xalqının və xarici ölkə xalqlarının bədii, tarixi və arxeoloji sərvəti olan əşyalann Azərbaycan Respublikası ərazisinə qaytarılması .............................289
6.3 Gömrük ödənişlərinin ödənilməsindən yayınma, xaricdən valyuta dəyərli əşyaların qa3danlmaması və qanunsuz val}mta əməliyyatlan ......................................................290

MÖVZU 13.
GÖMRÜK ORQANLARININ İDARƏ EDİLMƏSİNİN ƏSASLARI

1. İdarəetmə anlayışı..............................................................297
2. İdarəetmə prinsipləri .... ... ............................................. 299
3. İdarəetmə funksiyası ........................................................ 301
4. İdarəetmə metodları ........................................................ 306

Mövzu 14.
GÖMRÜK ORQANLARINDA İDARƏETMƏ SİSTEMİNİN TƏŞKİLATI QURULUŞU

1. idarəetmənin təşkilati quruluşu və idarəetmə növləri arasında əlaqə ........ 316
2. İdarəetmə quruluşuna tələblər ........ 319

MÖVZU 15.
GÖMRÜK ORQANLARI SİSTEMİNDƏ İDARƏETMƏ PROSESİ

1. İdarəetmə prosesinin mahiyyəti və məzmunu ........ 323
2. İdarəetmə prosesinin təşkili ........ 326
3. İdarəetmə prosesində qərarlar ........ 328
İmtahan (məqbul) sualları ........ 332
İstifadə edilən qaynaqlar ........ 334

ƏLAVƏLƏR

"Gömrük işinin təşkili" fənni üzrə tədris proqram layihəsi ........ 339
Gömrük ödəmələrinin hesablanması qaydalan ........ 356
Azərbaycan Respublikası DGK-nin strukturu ........ 380

Eldar Allahyar oğlu Quliyev
İmaməddin İbrahim oğlu Mehrəliyev

GÖMRÜK İŞİNİN TƏŞKİLİ
***Ali məktəblər üçün dərs vəsaiti***

Nəşriyyatın müdiri: ***Əhməd ZİYƏDDİN OĞLU***
Kompüter tərtibatı: ***Tanan ZEYNALOV***
Korrektor: ***Ramin RƏSULOV***

**Yığılmağa verilib: 20.09. 2012**
**Çapa imzalanmış: 15.12. 2012**
**Kağız formatı: 60x84, 1/16**
**Fiziki çap vərəqi: 25**
**Tirajı: 400**

Kitab "Kooperasiya" mətbəəsində çap olunmuşdur.
Ünvan: Bakı şəhəri. Nəcəf Nərimanov küç. 8"